Xəliyəddin Xəlilli

# ÇARƏSİZ QALANDA İNSANLIĞIN SIĞINDIĞI F Ə L S Ə F Ə

Bakı – 2023

**Naşir: Səbuhi Şahmursoy**
**Redaktor: Nuru Abdullayev**
**Texniki redaktor: Aytən Paşayeva**
**Üz qabığının müəllifi: Tamerlan İsmayılzadə**

**© Xəliyəddin Xəlilli / Çarəsiz qalanda insanlığın sığındığı fəlsəfə**
**XAN Nəşriyyatı / Bakı / 2023 / 256 səh.**

**ISBN: 9788996219156**

Milli yaradıcılıq qanunlarından bəhs edən bu əsər milli-mənəvi dəyərlərimizin, tibb elminin bərpasında ləyaqətlə iştirak edən Şikar Hüseynov (dermatoloq), Fariz Sadıqov (oftalmoloq), Elçin İskəndərov (onkoloq-cərrah), Anar Əmrah (kardio-cərrah), Bəhruz Ağayev (uroloq-cərrah) və Cavid Allahverdiyevə (onkoloq-cərrah) ithaf olunur.

Monoqrafiyada Fəlsəfənin səmavi elm olaraq Tanrı tərəfindən Azərbaycan türklərinin əcdadlarına verilməsi, Azərbaycan Maq fəlsəfə məktəbləri vasitəsilə insanlara aşılanması, buradan Misir, Hindistan və Yunanıstana keçməsi, tədricən bütün bəşəriyyət tərəfindən mənimsənilməsi, Avropa və Azərbaycan fəlsəfə tədqiqatçılarının milli Fəlsəfə yaratmaq təcrübəsindən bəhs olunur.

**Bakı – 2023**

# Mündəricat

Ön söz ........................................................................................ 5

Giriş ........................................................................................ 19

I Fəsil. Milli fəlsəfə yaratmaq təşəbbüsü ........................................ 27

II Fəsil. Fəlsəfə – varlıq qanunları nədir? ....................................... 98

III Fəsil. Fəlsəfə qanunları nə zaman, harada,
kim tərəfindən kəşf olundu? ..................................................... 105

IV Fəsil. Avropamərkəzçilərin cavabsız qalmış
hind-ari uydurması ................................................................ 172

V Fəsil. Zərdüşt bəşəriyyətdə fəlsəfənin ilk müəllifi,
fəlsəfi ideologiyanın banisidir ................................................ 190

VI Fəsil. Azərbaycan fəlsəfə tədqiqatçılarının
milli fəlsəfə yaratmaq təşəbbüsünün uğurları ............................. 220

Nəticə ....................................................................................... 243

İstifadə edilmiş ədəbiyyat siyahısı .............................................. 248

# Ön söz

Hörmətli oxucu, bəşəri sivilizasiyanın beşiyi, fəlsəfənin ilkin vətəni ölkə Azərbaycanda, onun xalqına fəlsəfə, tarix,ümumən ictimai elmlərin olmamasını izah etmək nə qədər gözlənilməz, ağır, məyusedicidirsə, bunu deməyə məcbur olan tədqiqatçı üçün qat-qat ağırdır. Bunu izah etmək isə milli vicdan sahibi üçün cəhənnəm əzabıdır. Nə etmək olar, inansaq da, inanmasaq da bu bir həqiqətdir, bu həqiqət bizə öz diqtəsini edir. Bu həqiqət bizə Birinci Qarabağ müharibəsinin məğlubiyyətini yaşatdı,ana nəvaşini, təbəssümünü sal qayalardan süzülüb axan göz yaşına çevirdi. İkinci Qarabağ müharibəsinin şəhidlərini, qazilərimizi verdi. Onların bulaq kimi axan göz yaşını dağ selinə çevirdi. Varlığında xoşbəxt gələcəyini, arzularını quran, yaradan onlarla ata-ana övladının öldü-qaldısından xəbər tuta, məzar daşına əl qoyub qəlbini sakitləşdirə bilmir, qaynar qazan kimi hələ də od püskürən nəfəsi ilə yanmaqda olan ruhuna su çiləyir.

Təəccüblü deyilmi ki, hələ tarixin ən qədim çağındaa bəşəriyyətə fəlsəfə elmini bəxş etmiş, orta əsrlərdə

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz –

deyə, elmi insanlığa car çəkən N.Gəncəvi, N.Tusi və b. alimlərinin elmi kəşfləri ilə yeni dövr Avropa elmi və fəlsəfəsini, sənaye inqilabını yaradan bir millətdə XX əsrin 20-ci illərindən ictimai elmlər yoxa çıxmışdır, məhv olmuşdur. Azərbaycan xalqının gələcəyini proqnozlaşdırmalı olan fəlsəfə, tarix elmi, onu Oğuz təməlində tərbiyə edən, ruhunu, mənəviyyatını verən ədəbiyyat, incəsənət, onun elmi yoxa çıxmışdır. İctimai elmlər sahəsində az-çox söz demə səviyyəsi, cəsarəti olan alimlərimiz vəziyyətinin bu cür davam etməsinə yol vermədən, onun yaradılması zərurətini hayqırtı ilə, nalə ilə cəmiyyətə çatdırırlar (13; 14; 19; 49; 54; 55; 95).

Xalqların, elmin, fəlsəfənin inkişafı, tərəqqisi, tənəzzülü tarix boyu bir proses olaraq yerini dəyişmiş, bir ölkədən başqa ölkəyə, xalqa keçmişdir. Misal üçün orta əsr yunanları antik yunan elmini və fəlsəfəsini elə unutdular ki, sanki bu ölkədə elm və fəlsəfə olmamışdır. Sonradan yunanlar antik yunan elm və fəlsəfəsi ilə ərəb dilində qorunub saxlanılan tərcümələr vasitəsi ilə tanış oldular.

XX – XXI əsr Azərbaycanda ictimai elmlərin yoxluğu yunanlarda olan unutqanlıq səbəbindən yaranmamış, kommunist rus imperiyasının Azərbaycan xalqına tətbiq etdiyi qeyri-insani əclaflıq üsulları ilə mənəvi və fiziki cəhətdən məhvetmə siyasətinin nəticəsidir.

XIX əsrin əvvəllərində çar rusiyasının Azərbaycanı işğalı ilə dərhal, ölkədə elm və təhsilin, mənəvi yüksəlişin qarşısını almaq üçün ən amansız metodlardan istifadə etsə də, XX əsrin əvvəllərində Azərbaycan türkləri Qafqazın sivilizasiyaçısı olaraq qalır, elmə qabilliyi, savadı və intellekti ilə rus xalqından üstün olduğu avropanın və rusiyanın mütərəqqi alimləri tərəfindən etiraf olunurdu. Birinci Dünya müharibəsinin dəhşətləri, rusiyada Fevral burjua inqilabının, beynəlxalq imperializmin türk – müsəlmanlara qarşı yaratdığı erməni terroru, Azərbaycan xalqının varlığına fiziki təhlükə yaratdığı bir şəraitdə dövrün ən qabaqcıl dövlətinin – Azərbaycan Xalq Cümhuriyyətinin qurulması bu xalqda, onun ziyalı, zadəgan və siyasi liderlərində olan yaradıcı fəlsəfənin nəticəsi idi.

Bu günlərdə Avropada psixi xəstələrin, şizofrenlərin, əqli cəhətdən inkişaf etməmişlərin, heç nə haqqında axıra kimi düşünə bilməyənlərin, dələduzların, mənsəbpərəstlərin, monarxistlərin, nekrofillərin... ideologiyası kimi yaranmış dağıdıcı sosialist ideyası rusiyada hakim ideologiyaya çevrilmişdi. Avropanın xristian dələduzları rusiya bolşevik partiyasında birləşərək rusiya proletariatının rəhbərinə çevrilmişdilər. Birinci Dünya müharibəsinin rusiyada yaratdığı iqtisadi və siyasi böhrandan istifadə edərək 1917-ci il oktyabrın 25-də dövlət çevrilişi ilə romanovlar sülaləsini devirib hakimiyyətə gəldilər. Alov püskürən rus proletariatı, lümpenproletariatı, ona qoşulmuş yoxsul kəndlilər və səfillər ordusu bolşeviklərin rəhbərliyi ilə sinfi düşmən elan edilmiş rus zadəganı, ziyalısı, sənayeçisi, az-çox yaradıcılıq göstərib mülkiyyət qurmuş kimsələri körpə uşağına qədər məhv etdilər, geninə son qoydular. Beləliklə, rusiya xalqı kütlə, hakimiyyəti kütlə bir ölkəyə çevrildi. İqtisadiyyatı təşkil edib, əhalini təmin etmək üçün yaradıcılıq qabiliyyəti olmayan bolşeviklər ac, səfil, ayaqyalın, çoxunun şalvarı, hətta tursiyi olmayan rus səfillərindən qırmızı ordu təşkil edib, çar rusiyası əsarətindən yenicə çıxıb, milli dövlət quruculuğu ilə məşğul olan xalqların yenidən işğalı, qarəti ilə rusiyanın təminatına yön verdilər. Bolşeviklərin rəhbərliyi ilə bir loxma çörək üçün istənilən qədər adam öldürməyə hazır milyonlarla rus kütləsi "qırmızı ordu" adı altında birləşdirilib, müstəqilliyini elan etmiş ölkələrin xalqları üzərinə yönəldildi. Qırmızı ordunun ətrafında ondan qat-qat çox rus səfili gedirdi.

Rus bolşevikləri maddi nemətlərin sel kimi axacağı kommunizm cəmiyyəti quracağı vədi ilə aldatdığı rus proletariatı və aclarını doyura biləcək ölkələrdən biri də Azərbaycan seçilmişdi. Erməni qriqorian kilsəsi vasitəsi ilə satın alınıb terror təşkilatı kimi təşkil olunub dövlət quruculuğuna mane olunan Azərbaycan üzərinə 72 minlik rus proletariatından təşkil olunmuş ordu, ətrafında ondan da çox rus ac-yalavacı, oğrusu 1920-ci il aprelin 27-si gecəsi Bakı şəhərinə daxil oldu. Bakının yeddi gün qırmızı ordunun qarətinə verildiyi elan edilsə də, qarət bir aydan artıq, ələ keçirilməsi mümkün olan hər şeyin ələ keçirilməsi başa çatandan sonra dayandı.

27 aprel gecəsi Azərbaycan üçün dünyada hər şey tərsinə qurulurdu, həyat xəyanət üstündə yaşama keçid edirdi. 1918-ci il Sentyabrın 15-də Bakının düşməndən geri alınmasında Türk – Azərbaycan ordusunun hər hansı səhvə yol verməməsinə nəzarət edən, sentybarın 16-da Bakı şəhərini düşməndən azad etmiş Türk – Azərbaycan ordusunun rəsmi keçidini təşkil edib zabit və əsgərlərə rəsmi təşəkkür edən Osmanlı Şərq orduları qrupunun komandanı Xəlil paşa sentyabrın 15-də Bakının azad olunmasında 30 zabit olmaqla 1000 nəfər türk əskərinin şəhid verilməsinə məhəl qoymadan, 1920-ci il aprelin 27-də qırmızı ordu qarşısında Bakıya Mikoyanla birgə daxil oldu. O, Azərbaycan Parlamentinin mühafizə alayının tərksilah edilib hakimiyyətin bolşevik-daşnak birliyinə təhvil verilməsinin təşkilatçılarından biri kimi iştirak etdi.

Qırmızı ordu Azərbaycana daxil olan andan AXC qurucuları və təəssübkeşlərinin kütləvi güllələnməsinə başlandı. Qırmızı ordunun komandirlərindən Orconikidze güllələnmələri kütləviləşdirməyi təklif edərək deyirdi ki, bu qədər azərbaycanlı kimə, nəyə lazımdır, lazımi işçi qüvvəsi azərbaycanlı yetərlidir. Beləcə, Azərbaycan xalqının taleyinə nəinki partiya, dövlət rəhbərləri, qırımızı ordu komandirləri qərar verir, onunla hər kəs özü bildiyi kimi rəftar edir, güllələnmələr gündən-günə kütləviləşir.

Qırmızı ordunu Dağıstanda qarşılayanlar – xəyanətkarlar, öz xalqının namusuna təcavüz etmişlər, bakirə qızları zorlamışlar, rüşvətxorlar, milli simasını itirmişlər axtarılıb tapılaraq hakimiyyətə gətirildi. Milli ziyalılar kütləvi surətdə güllələndi, deportasiya edildi. Proletar, muzdur təbəqəsindən, məxfi idarə xidmətçiləri nəslindən sovet ziyalısı – imperiya əlaltısı yetişdirmək təhsilin baş xəttinə çevrildi. Hakimiyyətin bütün sahələri və pillələri, təhsilin bütün sahələrinin baş xətti milli simasızlaşdırmanın həyata keçirilməsi oldu. Buna müvafiq ictimai elmlər – fəlsəfə, tarix, ədəbiyyat, folklor, incəsənət milli yaradıcı funksiyasının əksinə, milləti özünəməxsus əsaslardan, ona məxsus qəhrəmanlıq tarixindən, milli kimliyindən qoparıb, ayırıb

fiziki iş adamına, "sosialist əməyi qəhrəmanı"na, "böyük rus xalqı"nın, onun qabaqcıl hissəsi rus proletariatına, cəbhədə sinəsini güllə qabağına verib, ölümü ilə "böyük qardaş"ı rus zabitini xilas edən qəhrəmanlar yetişdirirdi. Bu qəhrəmanların əcdadlarının 1920-ci il 27 aprel işğalına qədər cəmiyyətin inkişaf qanununu başa düşməmiş, savadsız, heç bir mədəniyyət yaratmamış, onların həyatını iflic edən, kortəbii adət-ənənələrlə yaşadan nadanlardan ibarət olması şüurlarına aşılanırdı. Bir sözlə, çoxsaylı belə üsullarla əsarət altına salınmış türk-müsəlman xalqları keçmişindən ayrılır, simasızlaşdırılır, alçaldılıb kütlələşdirilirdi. Bütün bunlarla milli yaradıcı fəlsəfə, tarix, ədəbiyyat vasitəsilə milli-mənəvi təməlindən qoparılır, kütlələşdirilir, buradan isə ruslaşmaya keçid olurdu (61; 19; 152).

**Azərbaycan xalqının mənəvi, psixoloji, ruhi cəhətdən məhv edilməsində ədəbiyyat, tarix, fəlsəfə elmi ilə paralel bioloji genetik və kimyəvi üsullar paralel tətbiq olunurdu.** Özünü ateist, gen qanunlarını qəbuledilməz kimi göstərən Kreml rəhbərliyi Stalin başda olmaqla gizli genetik laboratoriyaları vasitəsilə əsarət altına saldığı türk-müsəlmanların özünəməxsusluqlarını və mentalitetini yaradan genlərini məhv edirdi. Azərbaycaan xalqının yaradıcı gen kodlarını aşkarlamaq və məhv etmək üçün **ilk genetik laboratoriya Azərbaycanın Naxçıvan bölgəsi Şahtaxtı kəndində 1928-ci ildə yaradıldı. Türk dünyasının dövlətçilik və hərbi ruhunun ilk ocağı, bəşəriyyətə səmavi fəlsəfə elmini çatdırmış Zərdüşt Peyğəmbəri yetişdirmiş, qurucu, yaradıcı soy kimi bütün bəşəriyyətin inkişafına təsir göstərmiş, xidmət etmiş məşhur Kəngərli soylarını və nəsillərini müxtəlif yoluxucu genetik xəstəliklər vasitəsilə gen kodlarını məhv edib, onları "zəif düşüncə sahibi" fəhlə psixologiyalı adamlara çevirdi.** Kəngərlilərin və Azərbaycanlıların digər bölgələrdəki məşhur nəsillərin və şəxsiyyətlərin qəbirləri təhqir olundu və dağıdıldı, məhv edildi (152, 119-122). Daha qəddar, amansız, qeyri-insani üsulla məhv edilən soylardan biri Gəncə – Şəmkir bölgəsindəki Tatlı – Gülüstan idi. Azərbaycan türklərinin genetik başlanğıcını yaradan soylardan biri kimi qiymətləndirilirdi. 13 sentyabr 1952-ci il sərəncamı ilə İ.Stalin Tatlı – Gülüstan əhalisinin və yaşayış məntəqəsinin məhv edilməsi haqqında sərəncam verir. Qəsəbə məhv edilərkən əhalinin müəyyən qismi həyatını xilas edə bilir. Stalinin ölümündən sonra Azərbaycanın müxtəlif bölgələrində sığınacaq tapmış Tatlı – Gülüstanlılar doğma yurdlarına qayıdıb yaşayış məntəqəsini, genefond olaraq öz təməlində, təbii-bioloji və sosial genetik mühitlərini bərpa edirlər. **1982-ci ilin son ayları idi. SSRİ 6 saylı hərbi-sənaye kompleksinin həkim ekspedisiyası Tatlı –**

**Gülüstana gəlir. İki gündən sonra quduzluq xəstəliyinə yoluxmuş it xılı, dovşan və yarasalar kəndə hücum çəkir, axın edir. Valideynlər körpə uşaqlarını belə qoruya bilmir, hamısı quduzluqdan vəhşiləşmiş heyvanların dişləri və dırnaqları altında məhv olur, Azərbaycan türklərinin genetik başlanğıcını, milli simasını vermiş Tatlı – Gülüstanın varlığına belə son qoyulur. Az sonra rusca nəşr olunan qəzetlər məlumat verdi ki, "Azərbaycanın Tatlı – Gülüstan ərazisində birbaşa qan hüceyrələrini məhv edib sıradan çıxaran "Vəhşi virus" peyda olub** (152, 124-136)**.**

1953-cü ilin avqustun 19-da Moskvada – Kremldə N.S.Xruşşov Kreml xəstəxanasının həkimi, professor Liza Sadıxovna Amosova, beş general leytenant, iki akademik, 4 nəfər XİN-nin şöbə müdirinin iştirakı ilə Bərdə rayonunda Moskva tərəfindən vəbaya yoluxdurmadan ölmüş uşaqların meyidlərini kütləvi surətdə basdırmaq üçün tələm-tələsik qazılmış çalalara basdırılmasını əks etdirən **20 dəqiqəlik filmə baxış keçirir. Filmə baxışın sona çatması ilə hamı bir-birinin üzünə məmnun-məmnun baxıb gülümsəyir, gülümsəyən Xruşşov bildirir: "İki milyon azərbaycanlının qalması yetərlidir"** (152, 53-61)**.**

Alman faşizminə, xolokosa qarşı müharibəsi ilə bəşəri humanizmi haqqında dünyaya car çəkən rus imperiyası kommunist rəhbərliyi əsarəti altında olan, ona qarşı bütün milli azadlıq hərəkatı məğlub edilmiş, irsi elitası məhv edilmiş, bir kölə kimi rusiya üçün işləyən Azərbaycan xalqının ziyalı və düşünən beyinlərinə qarşı ən qəddar, insanlıq hissini itirmiş general Şuvalovun rəhbərliyi ilə 1953-cü ilin fevralın 3-də "Şuvalov əməliyyatı" adlanan "Gen əməliyyatı" başlanır. 1953-cü il fevralın 6-da Azərbaycanın elm və təhsil **müəssisələrində çalışan alim və tədqiqatçılara "herbal" həbi qəbul etdirildi. "Herbal" preparatını qəbul etmiş alimlər kütləvi surətdə süsləşdi, ürək döyüntüləri əndazədən çıxdı, bədənləri bütövlükdə döyüşkən ruhunu itirdi. "Herbal"dan zəhərlənib ölənlər oldu, 19 nəfər bacarıqlı alim müəmmalı şəkildə öldü. "Herbal"ı qəbul etmiş alimlər arasında sonsuzluq və ölüm halları çoxaldı. Alimlərdə ruh düşkünlüyü, psixoloji yorğunluq, halsızlıq, vaxtından əvvəl qocalmaların sayı sürətlə artırdı.** Alimlər üzərində "Gen əməliyyatı"nı aparan E.M.Şuvalovun qrupu "herbal"ın təsirini yoxlayıb bildirirdi ki, "alimlərin bir qisminin artıq genetik kodlarında dəyişikliklər müşahidə olundu"ğunu bildirdilər. Bundan ruhlanan "general E.M.Şuvalov Azərbaycan alimlərinə, onların düşünən beyinlərinə qarşı daha ciddi bir planını həyata keçirməyə cəhd edirdi".

**Kreml Azərbaycanda həyata keçirdiyi "Gen əməliyyatı"nda genetik xəstəliklər kateqoriyasına daxil olan 63 xəstəlik, onun 240 sindromunu bilərəkdən yaydı və heç bir müalicə tədbiri görmədiyindən 4,8 milyon azərbaycanlı məhv edildi** (152, 33, 80)**.**

Müxtəlif yoluxucu xəstəliklərin daşıyıcısı zənci uşaqlarını, qeyri-qanuni doğulmuş uşaqları kənd, qəsəbə və şəhərlərdə məskunlaşdırmaqla, "mutasiya layihələri" ilə **Azərbaycan xalqına "ləyaqətsiz yaşamaq vərdişləri" aşılanırdı. Qeyri-qanuni doğulmuş uşaqlar xüsusi imtiyazla yetişdirilirdi. Strateji əhəmiyyətli vəzifələrdə yerləşdirilirdi. Onların imzası olmadan Azərbaycanda hər hansı strateji məsələlər ya heç həll olunmur, ya da yarımçıq qalırdı** (152, 279, 341-342)**...**

Maraqlıdır, barışmaz ideoloji düşmən olan, bütün varlığı dövründə bir-birinə qarşı müharibə vəziyyətində dayanan kommunist rus imperiyası və beynəlxalq imperializm Azərbaycan xalqının, o cümlədən digər türk-müsəlman xalqların məhv edilməsi üçün həyata keçirilən "Gen layihə"lərinin hazırlanması və həyata keçirilməsində etibarlı əməkdaşlar idi. **Elə uçuşunda, qanadlarında, ayaqlarında, dimdiyində insanın normal psixoloji durumunu iflic edən, qadın və kişi sonsuzluğu yaradan, insanda atalıq və analıq hisslərini öldürən bir milyon qara qarğa yumurtası hazırlanması sifarişini də ötən yüzilliyin 80-ci illərində birgə vermişdilər. "Psixoloji yumurta" adlanan bu yumurtadan 200 mini Qazaxıstana, 100 mini Azərbaycana, 300 mini RF-nin türk-müsəlman əyalətlərinə göndərildi. Azərbaycana göndərilən yumurtalar Gəncə,Şamaxı, Naxçıvan və Lənkəranda istifadə olundu.**

1990-cı ilin dekabrın 29-da bu yumurtalardan çıxan 10 ədəd qarğa üzərində Moskvada sınaq yoxlama aparıldı... Nəticəsini təsvir etməyə əsəblərim davam gətirmir (152, 234-235, 327-334)...

**1952-ci ilin avqust-sentyabr** aylarında Azərbaycanda aparılmış "Gen mutasiya"larının nəticəsini öyrənmək üçün **63 hərbi kəşfiyyat mütəxəssisinin** yekun arayışında yazılır: "... Köhnə və yeni nəsilləri müşahidə etdim... Dəyişən, şikəst və zədələnmiş, mutasiya vaxtı ötmüş və əvəzlənmiş hüceyrələrə... rast gəldim... **Biz gen kodlarından həmişə ehtiyat etdiyimiz Azərbaycan millətindən istədiyimizi aldıq. O, yenidən dirçələcəkmi? Buna mənim şübhəm var...**

Davranış qaydaları pozulub, sıradan çıxıb. Əsl azərbaycanlıya məxsus psixoloji durumlar... hadisələrə, insanlara yanaşma tərzləri itib, dağılıb. Gördüklərim və müşahidə etdiyim nəticələrə görə, gələcəkdə əsl azərbaycanlıya

məxsus genetik kodlar şikəst olub itəcək. Onlar daha əsl azərbaycanlı kimi bir-birinə mehriban olmaq ehtimalını itirməkdədirlər..."

Ekspedisiya üzvlərindən digəri yazır ki, "... Tədqiqatların nəticələrinə görə, **gələcəkdə bu yerlərdə kütləvi ailə dağıntıları baş verəcək... ehtiyat etdiyimiz "Ailə for..." (oxu institutları) dağılıb məhv olacaq.**

**Ehtimal olsun ki, ailə prinsipləri çox eybəcər şəkillərdə orta məktəblərin siniflərində meşə qanunları çərçivəsində evlənmə... boşanma halları müşahidə olunacaq...** Mən bir genetik kimi bunun əlamətlərini görürəm, artıq. Məgər bizim "mutasiya layihə"lərindən biz bunu istəmirdik?"

Daha faciəvi, dəhşətli, əclaflıq qanunu proqnozlarından bəhs edən genetik, hərbi həkim İ.Dubrovin yazır ki, "Vaxt və zaman göstərir ki, "mutasiya layihələri" əsasında görülən çətin işlərin nəticələri sevindiricidir". Onun bu proqnozlarını göz önünə gətirəndə insanı vahimə basır. Onun proqnozunda Azərbaycan xalqında insanlığa yer qalmır. 1953-cü ilin fevralın 10-da "mutasiya layihəsi"nin nəticəsini yoxlayan bir komissiyanın rəhbəri akademik R.A.Vayxır yazır: "Mərhələ-mərhələ aparılan mutasiya laayihələri öz bəhrəsini verib. Ciddi məsələlər üçün darıxmaq və tələsmək olmaz. Baxılan və təhlil olunan şəkillərin 23 faizi **regionda yaranacaq yeni döllərdən xəbər verir. Onların əsl azərbaycanlı kimi böyümələri, yaşamaları sıfıra bərabərdir"** (152, 54-161)**.**

Uzun müddət sovet rezidenturasında işləməsi ilə əlaqədar Cənubi Azərbaycanın Təbriz, Urmiya, Ərdəbil şəhərlərində olmuş, qəlbində bu xalqa dərin rəğbət bəsləmiş professor N.O.Xamutov ölkəyə qayıdanda Şimali Azərbaycanda "mutasiya layihəsi"nə cəlb olunur. Lakin bu işə sona qədər əsəbləri davam gətirmir. Həkim dostu A.O.Şaleşinə bu haqda yazdığı məktubda deyir: "... Mən yoruldum... Biz bu millətdən – Azərbaycanlılardan artıq nə istəyirik? Axı biz istədiyimizi almışıq. **Daha yoxdur o millət, dostum. Var idi, indi yoxdur. Onun yaratdığı tarix də, ədəbiyyat da, musiqi də, kino da... özününkü deyil daha. Daha yoxdur tarixdə dahilər doğan, ixtiralar edən, düşünən o millət, yox. Arxayın olun".** Məktubu dostuna göndərəndən sonra N.O.Xamutov 1953-cü ilin 26 yanvarında Göyçayın Badamağacı kəndində özünü güllələyir (152, 80).

İ.V.Stalinin ölümü ilə SSRİ-də rejim bir qədər yumşalsa da, N.S.Xruşşovun Azərbaycan xalqının mənəvi dəyərlərinə qibtə və həsədindən doğan nifrət Azərbaycanda "mutasiya layihə"lərini daha da amansızlaşdırır. O, Azərbaycanda "Gen layihəsi" həyata keçirmiş generallarla, ayrı-ayrı mütəxəssislərlə tez-tez şəxsi fərdi görüşlər keçirərərk Azərbaycan xalqına "Genetik hücum"ları sürətləndirməyi tapşırırdı. 1953-cü ilin son altı ayı ər-

zində Gennadi Nikolayeviç Satarov şəxsən N.S.Xruşşova 12 "Məxfi arayış" yazmışdı. Azərbaycan xalqına "Genetik hücum"ların fəallarından V.V.Qriqoriyevi N.S.Xruşşov 1953-cü il sentyabrın 17-də Kremldə qəbul edir. V.V.Qriqoriyev yazır ki, o, stolun üstündəki mənim hazırladığım kəşfiyyat qovluğuna işarə edərək dedi: – bütün bu yazdıqların, elmi qeydlərin bizim üçün çox vacib bir məsələdir. **Azərbaycanda daha nə edə bilərik?** O, "gen mutasiya"ları və başqa üsullarla SSRİ Səhiyyə Nazirliyi, MN-nin BKİ-nin sənaye kompleksləri qarşısında Azərbaycan əhalisinin sayını maksimum **2 (iki) milyona endirməyi ciddi bir məsələ kimi qoymuşdu. 1953-cü ildə Bərdə, Qazax – Ağstafa rayonlarında gözlənilmədən vərəm və vəbadan ölənlərin sayı 14 min 197 nəfər idi ki, bunun da 6 min 39 nəfəri hamilə və yaxud südəmər körpəsi olan qadınlar idi.** Bərdədə vəbadan ölən uşaqların gizlədilməsindən bəhs edən filmə baxışdan N.S.Xruşşov başda olmaqla Kremlin "gen mutasiyası" layihəsi komissiyasının məmnunluğunu təqdim etmişik.

1950-ci ildən Azərbaycanda həyata keçirilən **"sonuncu hədəf"** adlanan, acı və sarsıdıcı nəticələr verən "mutasiya layihə"lərinin həyata keçirilməsində iştirak etmiş mikrobioloq, general-leytenent S.A.Kamuşovinin N.S.Xruşşovun amansızlığına əsəbləri davam gətirmir. O, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri Mirzə İbrahimova məktub yazır: "Hörmət və ehtiramla millətinizə salam olsun. Biz dost deyilik, heç tanış da deyilik. Amma sizin millətə hörmət və ehtiramım var...

Mirzə Əjdəroviç, mənim başçılıq etdiyim "Ultura" hərbi sənaye kompleksində Azərbaycanla bağlı yeddi "Mutasiya layihəsi"nin həyata keçirilməsi üçün xüsusi təyinatların hazırlanması planlaşdırılıb. Azərbaycanın Lənkəran, Naxçıvan, Şamaxı, Şuşa... ərazilərinə bu layihələrin **– insanı insanlıqdan çıxaran, onun genetik hüceyrələrini iflic edib zədələyən, şikəst qoyan layihələrin həyata keçirilməsinə əngəl olun, onların həyata keçirilməsinə mane olun...**

Mən daha nə yazım? Geniş heç nə yaza bilmirəm..?" – deyə Azərbaycan rəhbərliyini xəbərdar edir. S.A.Kamuşovun məktubundan xəbər tutan DTK 1953-cü ilin sentyabrın 14-də onu həbs edir. 1954-cü ilin mayın 12-də S.A. Kamuşov özünə qəsd edir. Mirzə İbrahimov isə vəzifəsindən uzaqlaşdırılır.

Beləcə, əsəbləri davam gətirməyənlər intihara qədər əzablara məhkum edilərək məhv edilir, **"insanı insanlıqdan çıxaran"** "gen mutasiyaları" davam etdirənlər elmi dərəcə və vəzifələrində yüksəldilirdi.İnsanlara xoşbəxtlik, qardaşlıq, bərabərlik vəd edənlər onları əclaflıq qanunları ilə yaşamağa sürükləmədə davam edirdilər (Bu haqda ətraflı bax: 152).

Kommunist rus imperiyasının əsarətinə saldığı türk-müsəlman xalqlara tətbiq etdiyi "Gen layihələri" beynəlxalq imperializmlə müştərək hazırlanıb həyata keçirildiyindən, SSRİ-dəki mərkəzləri RF-də yerləşdiyindən, 1991-ci ilin sonlarında SSRİ dağılarkən mərkəzlər heç bir zərər görmədiyindən fəaliyyətlərini əvvəlki qaydada davam etdirdi. Azərbaycanda milli azadlıq hərəkatının silsilə dövlət çevrilişinə çevirdi. Lakin milli azadlıq ideyasını və hərəkatını dayandıra bilmədi. Azərbaycan çoxsaylı şəhidlərinin qanı bahasına dövlət müstəqilliyini bərpa etdi.

Biz yuxarıda hələ çar rusiyası zamanı Azərbaycanda başlanmış "Gen mutasiya"ları laayihələrinin bolşeviklər – kommunistlərin davam etdirməsi nəticəsində aparlan "Gen əməliyyat"ları, "Gen hücum"larının nəticələri haqqında XX əsrin 52-54-cü illərində yazılmış rəsmi dövlət arayışlarında Azərbaycan xalqının genetik hüceyrələrinin iflic edilib məhv edildiyi, onun bir daha özünü bərpa etmək imkanının olmadığını, yeni nəslin, "əsl azərbaycanlı kimi böyümələri və yaşamalarının sıfıra bərabər olacağı", artıq sovet dönəmindən "onun yaratdığı tarix də, ədəbiyyat da, musiqi də, kino da... özününkü deyil daha. Daha yoxdur tarixdə dahilər doğan, ixtiralar edən, düşünən o millət, yox. Arxayın olun". Onun genini yaratmış, vermiş olan ailənin prisiplərinin yaxın gələcəkdə "eybəcər meşə qanunları şəkli alıb sıradan çıxacağı" haqqında nəticə və proqnozlarla tanış olduq.

Bütün bunlara qane olmayan N.S.Xruşşovun "Genetik hücum"ları həyata keçirmiş komissiya üzvlərinə "Azərbaycanda daha nə edə bilərik?" – deyə müraciət edir. "İnsanı insanlıqdan çıxaran, onun genetik hüceyrələrini iflic edib zədələyən, şikəst qoyan layihələrin" davam etdirilməsinə göstəriş verir. Kommunist partiyası rəhbərləri , dövlət başçıları dəyişsə də, kommunist rus imperiyasının bu siyasəti bütün varlığı dövründə dəyişməyib, daha qəddar üsullarla Azərbaycan xalqına tətbiq olundu.

1988-ci ildən "Qarabağ münaqişəsi" adlandırılan, mahiyyəti və məqsədi imperiyanın həmin tarix üçün əvvəlcədən Azərbaycan türklərinin doğma vətənindən deportasiyası hadisəsi idi. Hadisənin mahiyyətini gizlətmək məqsədi ilə onu "Qarabağ münaqişəsi" adlandırırdı. Dağlıq Qarabağdan Azərbaycan türklərinin deportasiyasının XX əsrin 89-90-cı illərində planlaşdırılması Respublikanın dövlət strukturlarında və ümumən cəmiyyətdə "Gen mutasiyası"na məruz qoyulmuşların, "qeyri-qanuni doğulan"lar və "ləyaqətsiz yaşamaq vərdişi" aşılanmışlardan ibarət Vətən və Millət duyğusundan məhrum dövlət bürokratiyası və ümumən xalq daxilində milli dəyərləri, simanı, hiss və duyğuları itirmiş sosial təbəqənin yetişməsinin gözlənilməsi ilə bağlı idi. Yuxarıda ətraflı məlumat üzrə keçən yüzilliyin 50-ci illərinin ortala-

rında imperiya Azərbaycan xalqının bioloji genetik imkanlarını, milli-mənəvi simasını itirmiş bir kütlə kimi qiymətləndirirdi. Lakin buna qane olmayıb, əlavə 40 il "Gen mutasiya"ları, "ləyaqətsiz yaşamaq vərdişləri" aşılanıb, "qeyri-qanuni doğulmuş"ların cəmiyyətdə aparıcı mövqeyə çıxarılmasından sonra, özünə möhkəm dayaq yaratdığına arxayın olan kommunist rus imperiyası ermənilər vasitəsilə Azərbaycan türklərinin millət olaraq yarandığı və doğulduğu Qarabağdan deportasiyasına başladı. İmperiyanın bu təşəbbüsü Azərbaycanın bütün bölgələrində Azərbaycan türkcəsində **"qara camaat"**, avropa termini ilə **"kütlə"** tərəfindən etirazla qarşılandı. İmperiya milli sima və dəyərləri itirmişlərdən, "Gen mutasiya"sına məruz qoyulmuş, "ləyaqətsiz yaşamaq vərdişləri" aşılanmış və "qeyri-qanuni doğulmuş"lardan yaratdığı hakimiyyət bürokratiyası və gizli setlərinin ona sədaqətini yoxlamaq üçün Ağdam – Əskəran, Sumqayıt və 20 Yanvar qırğınlarını törətdi. Azərbaycanın ilkin yerli hakimiyyət orqanlarından – "ali" orqanlarına qədər bütün strukturlarda təmsil olunmuş vəzifə sahibləri ona sədaqət nümayiş etdirdi. Azərbaycanda "ziyalı" etirazı ilə üzləşmədi. 20 Yanvar hadisəsi ilə Azərbaycanın imperiya yetişdirməsi hakimiyyət təmsilçiləri xalqın etimadını bütünlüklə itirdi. Xalq bir daha onlarla hər hansı təmasa girmədi. Özünü idarə istiqamətində təşkilatlanmağa başladı, kütləvi olaraq vətənin müdafiəsinə qalxdı, İstiqlalını qazandı, Dövlət müstəqilliyini bərpa etdi. Milli ordu quruculuğu ilə vətənin və millətin müstəqilliyinin qorunması və yaşadılmasına dönməzlik verdi. Kommunist rus imperiyası əsarətinə saldığı ölkələrdə əvvəlcədən planlı yaratdığı etnik və sərhəd münaqişələri ocaqları "ləyaqətsiz yaşamağa vərdiş" etdirilmiş bürokratlar vasitəsilə alovlandırılır, müstəqilliyini elan etmiş xalqların yaradıcılığına və dövlət quruculuğuna imkan vermirdi. Yaratdığı erməni münaqişəsi və azərbaycanlı zabitlər vasitəsilə (rusiyada təhsil almış çox az zabitdə millət və vətən hissi qorunub saxlanmışdır, odur ki, yuxarıda deyilən sözlər onlara aid deyil – X.X.) və ermənilər vasitəsilə Azərbaycanın 20 faiz ərazisini işğal edib, ardıcıl olaraq xalqda özünə inamsızlıq, rus himayəsi olmadan yaşamağın mümkünsüzlüyü ideyasını, hisslərini aşılayırdı. Bu illərdə Azərbaycan fəlsəfə, tarix və ədəbiyyat "elm"lərində milli ruha qığılcım salacaq bir hadisə baş vermədi. Azərbaycan xalqında cüzi milli iddia biruzə verəndə rus imperiyası dərhal ermənilər vasitəsilə hərbi münaqişə yaradır, ermənilərin qələbəsini təmin etməklə Azərbaycan xalqını məğlub mənəvi durumda saxlayır, özünə inamsızlıq hissindən çıxmağaa imkan vermirdi. 2020-ci ilin yayında rus imperiyası ermənilər vasitəsilə Azərbaycan xalqını yeni hərbi münaqişəyə cəlb etdi. Azərbaycan ordusunda rus ordusu mənəvi-psixoloji mühitini dağıdıb, milli Azərbaycan əxlaqi-mənəvi

mühiti yaratmış, onun milli model kimi bütün orduda yayılmasını təmin etmiş, milli Azərbaycan zabitinin nümunəsini və obrazını yaratmış Polad Həşimovun müəmmalı ölümü Azərbaycan xalqının heysiyyətinə toxundu. Xalq dövlət başçısından düşmənə cavab verilməsini tələb etdi. Analar əskər yaşlı övladlarının əlindən tutub hərbi çağırış məntəqəsinə gəlib, övladını orduya verir, minlərlə könüllü orduya yazılırdı. Əhali kütləvi surətdə orduya müxtəlif yardımlara başladı. Rus imperiyasının sehrli çubuğu ilə başlayan 2020-ci il 27 sentyabr erməni hərbi təxribatı Azərbaycan xalqının tələbi ilə Azərbaycan ordusu özünümüdafiədən əks-hücuma keçdi, hadisədən xəbər tutan xaricdə yaşayan əsgər yaşlı gənclər Vətənə dönüb birbaşa döyüşən ordu sıralarına qoşuldu. Azərbaycan ordusu – gəncləri bəşərin hərb tarixində görünməmiş döyüş üslubu və qəhrəmanlıq səhifəsi yaratdı. Əgər Birinci Qarabağ müharibəsində qəhrəmanlıq nümayiş etdirən əsgər və zabitlərin əksəriyyəti arxadan açılmış atəşlə məhv olurdusa, İkinci Qarabağ müharibəsində əsgərlərin bir-biri ilə, eləcə də əsgər və zabitlərin qarşılıqlı mehribanlığı, bir-birini qorumaq üçün göstərdiyi fədakarlıq, ruhi-mənəvi qida İkinci Qarabağ müharibəsindəki qəhrəmanlığın və qələbənin əsas səbəbi kimi özünü göstərdi. **Azərbaycan ordusu 44 gündə** ermənilərin 30 ildə qurduqları və keçilməz kimi qiymətləndirdikləri hərbi istehkamları darmadağın edib, erməni ordusunu tarmar edib, Qarabağı 30 illik erməni əsirliyindən qurtardı, azadlığa çıxardı, Azərbaycan xalqının qüruru, şərəfi, ləyaqəti təhqir olunmuş vəziyyətdən xilas etdi. Onu yenidən tarixə qəhrəmanlar doğan bir xalq kimi təqdim etdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev İkinci Qarabağ müharibəsinin qələbəsinin səbəblərindən bəhs edərkən, bu qələbəni 1992-1993-cü il müharibəsindən sonra doğulan nəsil – gənclərin təmin etdiyini dönə-dönə təkrarladı ki, bu da göz önündə olan bir həqiqətdir.

Birinci Qarabağ müharibəsinin ağır mənəvi-psixoloji təzyiqi, milli ideyadan yayındıran məyusedici siyasi mübarizələr və iqtisadi çətinlik şəraitində müstəqilliyin ilk illərindən doğulub böyüyən ilk nəsil mənəvi-psixoloji, ruhi cəhətdən əcdadları – oğuzları təkrarlamaqla Azərbaycanda yeni vətənpərvərlik, dünya hərb tarixində yeni qəhrəmanlıq səhifələri açdılar. Təəssüf ki, ağır sosial-iqtisadi durumda, təhsilin və ictimai elmlərin çox aşağı səviyyədə, məğlub mənəvi-psixoloji durumda olan bir ölkədə sponton qəhrəman bir nəslin yetişməsi səbəbləri hələ Azərbaycan ictimai elmlərinin diqqətini çəkmir. Bu çoxcəhətli və çoxçalarlı mənəvi hadisə olaraq xüsusi tədqiqat tələb edir. Çox ağır, gözlənilməz şəraitdə bu qəhrəmanlığı doğuran səbəblər arasında iki səbəb bizim üçün başlıca səbəb kimi görünür. Bunlardan birincisi – bu nəsil lənətə gəlmiş kommunist rus imperiyasının “Gen

hücumu"ndan kənarda qalmış, genləri iflic olmamış ailələrdən törənmiş nəsil olması; elə bu səbəbdən azadlıq, müstəqillik ideyaları altında imperiyanın unutdurduğu milli-mənəvi dəyərləri sürətlə bərpa etməklə, təhqiramiz məğlubiyyət ruhuna sığmadı, birbaşa ölümün üstünə getdi, düşmənə savaş açdı, ən çətin ölümün qaçılmaz olduğu savaşlarda əskər və zabitlər birinci olmaq üçün yoldaşlarından ona yol verməsini xahiş etdi, bəzən də heç icazə istəmədən sıyrılıb döyüşə atıldı. Ölüm anlarında , cərrahiyyə stolunda Vətən və qəhrəmanlıq mahnıları oxudular.

Hələ müharibədən əvvəl **koronavirusu pandemiyasının başlanması ilə ölkənin əksər müəssisələrində işlər dayandırıldı, yoxsullara, işsizlərə, əmək fəaliyyətini dayandıranlara dövlət aylıq yardım təyin etdi. Bununla hakimiyyət orqanlarında, xüsusiə rayon icra hakimiyyətlərində, müxtəlif dövlət təşkilatlarında "ləyaqətsiz yaşamaq vərdişləri" sponton olaraq özünü göstərdi. Vəziyyət o qədər acınacaqlı, dözülməz idi ki, Prezident bundan həyəcanla "Hara baxırsan, hər addım cinayətdir, hər addım rüşvətdir" – deyə bəhs etdi. Müharibədən sonra isə şəhid və qazilərin yardımlarını müxtəlif texniki vasitələrlə oğurlayan fərdlər və qruplar meydana çıxdı.** Tarixdən məlum olduğu üzrə xalqımızın varlığında belə hadisələr olmamışdır.

Bu təbəqəni kommunist rus imperiyası "qeyri-qanuni doğulan"lardan, "ləyaqətsiz yaşamağa vərdiş" etdirilənlərdən və milli genləri iflic olmuşlardan formalaşdırmışdır.

XX yüzilliyin 80-ci illərindən Azərbaycan cəmiyyətində haqqında narazılıq ifadə olunan **sosial təbəqə elm və ziyalı təbəqəsidir.** Bu da təsadüfi deyil. Sov. İKP-nin əsarətə salmış olduğu xalqlarda elm və təhsilin təşkili sahəsində qərarında deyilir: "Elm və təhsillə ən aşağı təbəqədən, istedadsız, hadisələri təhlil etmə qabiliyyətinə malik olmayan, ancaq özünü düşünən, elmə deyil, diplom almağa, rüşvətə marağı olan, məxfi orqanlara cəlb edilmiş, milli ruhdan məhrumlardan seçilib yetişdirilməsi, sovet həyat tərzini qəbul etməyən təsadüfləri isə bədbəxt hadisələrlə aradan götürmək tövsiyyə olunur. Sov. İKP MK-nın **2. 06. 1947-ci ildə** verilən bu qərarı elm və təhsilin bütün sahələrinə aid edilsə də, əsasən ictimai elm sahələrinə tətbiq edilmişdir. Çünki, dəqiq elmlər, təbiət və texniki elmlər cəmiyyətdə əmək aləti funksiyasındadır. Bu elmlər başlıca olaraq insanın, ayrı-ayrı maddi-istehsal sahələrinin tələbatlarına xidmət edir, ictimai inkişafa təsiri vasitəlidir. Bu sahə alimləri adətən öz peşə və istehsal sahələri ilə məşğul olurlar. Adətən, bu sahə alimləri əmək haqqı, təchizat, məzuniyyət istirahətləri ilə təmin olunduqları halda cəmiyyətə müdaxilə təşəbbüsünə düşmürlər. Dəqiq elm

sahələrinin alimləri arasında öz elm sahələrinin hüdudlarını aşaraq millətin, ümumən insanlığın problemlərinin həllinə müdaxilə edənlər az olur, ancaq zəkalı və dönməz olurlar. Misal üçün, Yusif Məmmədəliyev, Xudu Məmmədov və b. Göründüyü kimi, Sov. İKP MK-nın göstərilən qərarı ümumən elm və təhsilə aid edilsə də, bilavasitə ictimai elmlərə – fəlsəfə, tarix, ədəbiyyat, onların bütün sahələrinə tətbiq olunmuşdur. Dəqiq, təbiət və texniki elmlərin inkişafı ictimai şüurun, cəmiyyətin inkişafına əsaslı təsir etmir. Kommunist rus imperiyası Azərbaycanda dəqiq, təbiətşünaslıq və texniki elmlərin inkişafına respublikanın təbii sərvətlərinin talanması məqsədi ilə diqqət göstərirdi. Onun da heç bir sahəsinin müstəqil fəaliyyət göstərən elm – istehsal sahəsinə çevrilməsinə imkan vermədi. Məqsədəuyğun yaradılıb istifadə olunan elmi-texniki istehsal sahələri ictimai şüura və inkişafa müsbət təsir göstərir.

Rusiya bolşevik partiyası hakimiyyətə gələn kimi marksizmi qəbul etməyənləri güllələdi, sürgün etdi. 1929-cu ildə "etnos" nəzəriyyəsini qadağan etdi. İ.Stalinin ölümündən sonra etnogenez, etnos haqqında nəzəriyyələrdən bəhs etməyə icazə verilsə də, bu mövzulara toxunmaq əsarət altına salınmışlara qadağan idi. Əsir xalqların fəlsəfə tədqiqatçıları, tarixçi və ədəbiyyatçılarının qarşısında duran vəzifə – mənsub olduğu xalqı milli yaddaşdan, mənlik şüurundan məhrum etmək, onu yaratmış, millət səviyyəsinə yüksəltmiş inam və etiqadların, dəyərlərin, adət-ənənələrin keçmişin yararsız qalıqları, dinin "tiryək" olmasını yeni nəsillərin şüuruna aşılamaqla onları milli-mənəvi köklərdən ayırıb sosialist milləti anlayışına, oradan isə ruslaşmaya keçidini, assimilyasiyanı başa çatdırmaq idi. Beləcə, kommunist rus impriyası etnos yaradıcı – millət yaradıcı elm olan fəlsəfə, tarix və ədəbiyyat elmini anti-elmə, milli məhvetmə elminə çevirdi. Azərbaycanda fəlsəfə, tarix və ədəbiyyat (şifahi və yazılı), ədəbiyyatşünaslıq anti-elmə, etnos yaradıcı funksiyasının əksinə, milli məhvetmə elminə çevrilməsinin metodları, yəni yaşamaq üçün milli dəyərlərdən asanlıqla ayrıla bilən, istedadsız, elm adına imperiyanın sifariş etdiyi hər sözü deməyə hazır, onun verdiyi elmi dərəcə və titulu, dediyi "malades"i Vətən və Milli dəyərlərdən yüksək qiymətləndirən, DTK-nın casus şəbəkəsinə xidmət edən, bütün bunlarla bərabər "Gen mutasiyası"na məruz qoyulmuş, geni iflic olmuş adamlardan seçilib yetişdirilirdi. Elə bu səbəbdən də Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa edib, 30 il düşmən əsarətində olan Qarabağı şəhidlərin qanı bahasına azad etsə də, Azərbaycanın ictimai elmləri hələ də yaradıcılıq göstərə bilmir. Fəlsəfə, ədəbiyyat və tarix elminin milli yaradıcı funksiyası haqqında hələ bir cümlə də olsun söz deyilməmişdir. Azərbaycan xalqının gələcəyə yolunu proqnozlaşdırmalı olan, doğulan yeni gənc nəslin milli yaradıcılıq ruhunu verməli olan

ictimai elmləri dövlət yardımlarının, tədbirlərinin 30 ilə xəstə yatağından qaldıra bilməməsi səbəbləri yuxarıda bəhs etdiyimiz səbəblərdir.

Göründüyü kimi, ictimai elmlərin yaradıcılıq göstərə bilməməsi, Azərbaycan xalqının xarakterində, dövlətçilik əxlaqında, tarixində olmayan, işsizin, yoxsulun, xəstənin, kimsəsizin, şəhid ailəsinin, qazinin yardımını oğurlayan dövlər bürokratiyası və b. təbəqələr içərisindən çıxan "ləyaqətsiz yaşamaq vərdişi"nə malik insanlar, gənc ailələri dağıtmağa sürükləyən gizli səbəblər xalqımıza lənətə gəlmiş kommunist rus imperiyası tərəfindən yuxarıda göstərilən və bilmədiyimiz çoxsaylı üsullarla yaradılmışdı. Göstərilən problemlərin həlli xalqımızın gələcəyi üçün Qarabağ müharibəsi qədər zəruridir.

Mənbələrin məlumatından göründüyü kimi, Kremlin Azərbaycaan xalqına tətbiq etdiyi "mutasiya layihələri", geni iflic edən xəstəliklər yoluxdurulması Azərbaycan Səhiyyə Nazirliyinin iştirakı ilə təmin edilmişdir. Həmçinin "qeyri-qanuni doğulan"ların və "ləyaqətsiz yaşamağa vərdiş" etmişlərin Azərbaycanda məskunlaşdırılması və adaptasiyası da digər dövlət orqanları ilə bərabər Səhiyyə Nazirliyinin iştirakı ilə həyata keçirilmiş, Vətənə və Millətə xəyanəti müqabilində belə kadrlar vəzifə pilləsində sürətlə yüksəlmişdi.

Xalqımızın inkişafına nəinki mane olan, onun üçün hər an təhlükə yaradan problemlərin həlli üçün Səhiyyə Nazirliyinin, göstərilən tədbirlərdə iştirak etmiş digər dövlət orqanlarının arxivləri açılmalı, müvafiq dövlət tədbirləri görülməlidir. Müvafiq arxivlər açılıb Azərbaycan xalqının mənəvi-genetik əsaslarını məhv etmək üçün imperiyanın tətbiq etdiyi tibbi-bioloji, sosial-mənəvi tədbirləri müəyyənləşdirib nəticələrini aradan qaldırmadan Azərbaycan xalqını fiziki-mənəvi cəhətdən ilkin əsaslara qaytarmaq mümkün deyil. Fəlsəfi yaradıcı ruhun təbii-genetik əsaslarını bərpa etmədən, "qeyri-qanuni doğulmuşlar"la və başqa üsullarla aşılanmış "ləyaqətsiz yaşamaq vərdişləri"nin mənbələrini məhv etmədən Azərbaycan xalqının mənəvi-genetik əsaslarını ilkin təməlində yenidən qurmaq mümkün deyil. Bioloji-təbii əsaslara və mənəviyyata hopdurulmuş "ləyaqətsiz yaşamaq" virusları qloballaşmadan istifadə edib, müstəqillik illərində qazandığımız ilkin uğurları da məhv edə bilər.

Əsərə obyektiv münasibət göstərib, çatışmazlıqları müəllifə çatdıracaq oxuculara əvvəlcədən təşəkkürümüzü bildiririk.

# Giriş

Dünyada heç bir varlıq üçün fasiləsiz nizamlı tərəqqi və inkişaf edən həyat yoxdur. Təbiətin gözəllik, yaradıcılıq nümunəsi yazı, bu təravəti əlvan şüaları ilə alovlandıran, ütən, yandıran yayı, onun dilim-dilim alovlarını udan, üzərinə su çiləyən, baxışı kin-küdurətli, gözündən axan sularla torpağın hərarətini söndürən gündə, hətta saatda bir sifətə – yaza, yaya, qışa çevrilən, min sifətə düşən, həyatı suya, selə qərq edən, bir anlıq ildırımı ilə sərt qayalardan başlamış nə qədər canlını məhv edən, payıza, ondan betər, amansız, bütün canlılar üzərinə su səpib, qar ələyib həyatı donduran qışdan keçib yenidən yaza qovuşa bilən güclülər yaşayır, həyatını davam etdirirlər.

İnsanlıq – fərdlərin və xalqların da həyatı eyni ilə belədir. Onun bioloji həyatı ilə birlikdə özünün yaratdığı mənəvi həyatının da yazı, yayı, payızı, qışı, düzəni, dağı, yenişi, yoxuşu, keçilməz görünən qayalı dağ aşırımları, çınqılları, dumanı, çəni var. Onu keçə bilməyənlər, onun qarşısında çıxılmaz vəziyyətə düşənlər də olur. Bəşər tarixi göstərir və sübut edir ki, fərdləri və toplumları, eləcə də bütün insanlığı çıxılmaz vəziyyətdən yenidən həyata istiqamətləndirən, ona həyat yolu göstərən – **fəlsəfədir.**

XX əsrin 80-ci illərində kommunist rus imperiyasında mənəvi-ideoloji, iqtisadi-siyasi böhranın başlanması ilə imperiyada illərlə gizli formada yaşayan milli azadlıq ideologiyası meydana çıxmağa imkan tapdı. Azərbaycan xalqı imperiyada başlayan milli azadlıq hərəkatının öncülü kimi özünü sübut etdi, əsarət altında olan xalqların istiqlal mübarizəsinə dönməzlik verdi. Dövlət müstəqilliyini qazandı və milli dövlət quruculuğuna baaşladı. Lakin milli-mənəvi quruculuq prosesi göstərdi ki, Azərbaycan xalqı yaradıcılıq göstərə bilmir. İlk həyəcan təbili çalan yazıçı Əlisa Nicat oldu. O, Azərbaycan xalqının milli-mənəvi yaradıcılıq göstərə bilməməsini milli-mənəvi tarixi yaddaşın pozulması və fəlsəfi təfəkkürün olmaması ilə izah edərək, milli tarix fəlsəfəsini canlandıracaq, yaradacaq əsərlər yazmaqla milli-mənəvi boşluğu doldurmaq yolunda fədakar ziyalı missiyasını yerinə yetirdi. Bunun ardınca Azərbaycanda fəlsəfəyə özünü mənəvi cəhətdən cavabdeh hesab edən titullu fəlsəfə tədqiqatçıları, Azərbaycan xalqında fəlsəfənin olmamasını rəsmən etiraf etdilər. Bunlardan S.Xəlilov Azərbaycanda fəlsəfənin vəziyyətindən bəhs edərək yazır: "İmperiyanın tədbirləri ilə Respublikamızda proletqulçuluq meyli, manqurtlaşdırma tədbirləri özünün zirvəsinə qalxmışdı. Xalq özünün hətta mütərəqqi fəlsəfi fikrindən ayrı düşmüş, milli fəlsəfə

tarixinin yerini ictimai-siyasi və demokratik fikir tarixi tutmuşdu... Azərbaycanda... əsl fəlsəfəyə yer qalmamış... əsl fəlsəfəni şərh etmək təbliğatçılarla elmi dərəcə almış rəsmi fəlsəfəçilərin intellektual imkanı xaricindədir".

S.Xəlilov digər əsərində yazır: "Hələ SSRİ heç dağılmamış, 1990-cı ildə "Açıq söz" jurnalında çıxan "Fəlsəfəyə qayıtmaq" adlı məqaləmdə Azərbaycanda həqiqi fəlsəfi fikrin yoxluğundan, milli ruhun fəlsəfi özünüdərkinə böyük ehtiyac olmasından və fəlsəfə ilə rəsmən məşğul olanların həqiqi fəlsəfədən uzaq olmalarından bəhs etmişəm".

Sətirlərin müəllifinin bu mövzuda "Sovet tarixşünaslığı – milli ölüm elmi" (B., 2010) monoqrafiyası nəşr olunmuşdur.

Fəlsəfə tədqiqatçılarından Əbülhəsən Abbasov və Əhməd Qəşəmoğlu da respublikamızda fəlsəfənin mahiyyətindən uzaqlaşdırılmış vəziyyətə salınmasından, ümumən ictimai elmlərin mənasız durumdan çıxarılmasına cəhd edən azsaaylı ziyalılardandır. Gənc fəlsəfə tədqiqatçılarından Yasəmən Qaraqoyunlu və Faiq Ələkbərli milli fəlsəfi yükü cəsarətlə çiyinlərinə götürmədədirlər. Onların bu yükə şəriksiz sahib olması milli fəlsəfi irsi bütöv, Zərdüşt, Şihabəddin Sührəverdi, N.Tusi və M.Ə.Rəsulzadə yaradıcılığını xüsusi mənimsəmədən keçir. Onlarda bu keyfiyyətin tamamlanmada olduğu görünmədədir. A.Şopenhauerin çiynində durub F.Nitsşe olmaq çox da inqilabi iş deyil. Milli-mənəvi irsdən qoparılmış bir mühitdə inqilabi fəlsəfi ideologiya yaratmaq böyük bir fədakarlıq olsa da, birdən-birə mümkün deyil, ancaq möcüzə ilə reallaşa bilər.

Ümumən Azərbaycan elmində, xüsusilə ictimai elmlərdə yaranmış tənəzzül hər kəsin diqqətini çəkirdi. Elmin düşdüyü bu vəziyyət dövlət başçısının da diqqətini çəkmiş, vəziyyəti dəyişmək üçün praktiki fəaliyyətə keçilməsi üçün zəruri addım atıldı. 4 may 2009-cu il tarixdə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və həmin Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının təsdiqi Azərbaycan elmində yaranmış boşluğu doldurmaq üçün səfərbər olunmağı tələb edirdi.

Ə.Abasov AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda rəhbərlik etdiyi "Müasir fəlsəfə problemləri" şöbəsini bu Dövlət Proqramının həyata keçirilməsinə milli borc kimi səfərbər etdi. Şöbə üçün "Müasir Azərbaycana hansı fəlsəfə lazımdır?" adlı tədqiqat mövzusu seçdi. Ə.Abasov bu adlı məqalə ilə çıxış edib, Azərbaycan fəlsəfəsində və ziyalı mühitində yaranmış böhrandan, onu aradan qaldırmaq zərurətindən bəhs edərək yazdı: "Dövrünə dözən sovet ziyalıları heç də xalqın milli inkişaf məsələlərini irəli sürməyə qadir

ziyalı ola bilmədi, o, nə bədii, nə də fəlsəfi hərəkata başçılıq etmədi, o, heç də siyasət dünyasına daxil ola və xalqı öz ardınca oraya apara bilmədi. Bizə "yeni" ziyalı lazımdırmı və bu mümkündürmü? Ziyalıların tapşırığı "sadədir": azərbaycanlılarda dövlətçilik hissini, siyasətə marağını formalaşdırmalı, onları ailədən, həm Azərbaycan milləti, həm də dövlətçiliyin formalaşması yalnız orada mümkün olan cəmiyyətə çıxarmalıdır (heç də qaçırmamalıdr). Deməli, cavab mənfidir, belə ki, köhnə ziyalılar sovet insanı dünyasının yoxluğa gedişi ilə birlikdə aradan çıxır. Görünür, qarşımızda əvvəlcə yeni ziyalılar elitasını formalaşdırmaq, sonra millətin əmələgəlmə məsələsi dayanır. Köhnə əsrini yaşamış ziyalıların günahı – həyatdan "dönüklük", hər şeydən qapalılıq, həyat həqiqətindən davranış etiketləri arxasında gizlənmək cəhdləridir. Gerçəkliyin "təhtəlşüur" mənimsənilmə sahəsindən ziddiyyətlərin dərkolunmuş dünyasına yüksəlmək lazım gəlir. Gerçəkliklə toqquşmalı, öz taleyinin gözlərinə dik baxmalı". Son cümlədən göründüyü kimi, problemə inqilabi münasibət tələb olunur. Problem – qarşıya qoyulan vəzifə – milli fəlsəfə yaratmaqdır. Bu yeni milli fəlsəfə planda dünyagörüş, metodologiya olub, ancaq post-qeyri-klassik, idrak mərhələsini əks etdirməməli, problemli situasiyaları müəyyənləşdirə bilməli, gələcəkdən xəbər verməli, idrakın hələ adı müəyyənləşdirilməmiş 4-cü pilləsinə keçid etməlidir.

Beləliklə, 2010-cu ildə Əli Abasovun təşəbbüsü və məsləhətçiliyi ilə Milli fəlsəfə yaradılması yolunda praktiki fəaliyyətə başlanır, tarixdə cəmiyyət həyatının müxtəlif mərhələlərində mənəvi-ideoloji, dini, siyasi-iqtisadi, elmi-nəzəri, fəlsəfi baxışlar, onların dəyərlilik dərəcəsi, son taleyi fəlsəfi araşdırmaya cəlb olunur. Dövrün qabaqcıl, yaradıcı fəlsəfi nəzəriyyə və ideyaları Azərbaycana gətirilir. Bu ideya və nəzəriyyələrin ölkəyə müvafiqliyi fəlsəfi təhlildən keçirilir. Azərbaycan xalqının mənəvi durumu, dini dünyagörüşü, elmi-texniki səviyyəsi, iqtisadiyyatı, geopolitik vəziyyəti və b. problemləri fəlsəfənin son nəzəri metodları ilə tədqiq olunur. Fəlsəfənin ayrı-ayrı nəzəri problemlərinə monoqrafiyalar həsr olunur. Monoqrafiyalardan göründüyü kimi, Ə.Abasov yeni fəlsəfə yaradılması təşəbbüsü ilə yalnız AMEA Fəlsəfə və Sosiologia İnstitutunun "Müasir fəlsəfə problemləri" şöbəsinin əməkdaşlarını cəlb etməmiş, özündə elmi cəsarət tapan fəlsəfə və b. ictimai elm nümayəndələrinin tədqiqatçılarını, kommunist rus imperiyası müstəmləkəçiliyindən xilas olmuş xalqların fəlsəfə tədqiqatçılarını, hətta Afrika qitəsinin istiqlalçılarını səfərbər etmişdir. Beləliklə, Əli Abasov Azərbaycan ictimaiyyətini və fəlsəfə tədqiqatçılarını dünyanın bir çox xalqlarının milli fəlsəfə yaratmaq ideya və metodları ilə tanış edir. Azərbaycan ictimaiyyətinə, fəlsəfə tədqiqatçılarına milli fəlsəfə yaradılması haqqında çoxsaylı

fərqli baxışlar təqdim edir. "Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə və tədris" (B., 2011) adlanan birinci monoqrafiyadan başlayaraq Əbülhəsən Abbasovun ön sözlərində "milləti millət eyləyən onun fəlsəfəsidir", "milliliyi olmayan fəlsəfə axtalaşdırılmış, "Mən"siz, cansız-qansız nəsənədir, simasız və mənəviyyatsız bir şeydir" – kimi mülahizələri ardıcıl həsr olunan 9 monoqrafiyada oxucunun şüuruna, təfəkkürünə diqtə olunur.

Nəhayət, 2019-cu ildə sırf milli fəlsəfə yaratmaq təcrübəsi, metodu və mülahizələrindən ibarət 56,5 çv həcmində "Milli fəlsəfə" monoqrafiyası yazılıb, nəşr olundu. Monoqrafiyanın 55 nəfərlik müəllifindən 27 nəfəri azərbaycanlı, 2 nəfəri türk, 3 nəfəri özbək, 4 nəfəri qazax, 1 nəfəri tatar, 1 nəfəri dağıstanlı, 1 nəfəri alman, 2 nəfəri çin, 4 nəfəri gürcü, 4 nəfəri ukraynalı, 3 nəfəri belorus, 1 nəfəri niger, 2 nəfəri rusdur. Beləliklə, biz monoqrafiyada geniş coğrafiyada 13 xalqın fəlsəfə haqqında təsəvvürləri və milli fəlsəfə yaradılması mülahizələri ilə tanış oluruq. "Çarəsiz qalanda insanlığın sığındığı Fəlsəfə" deyimində Fəlsəfəyə vahid anlayış, bir qədər böyütsək, vahid mənəvi varlıq forması kimi görünsə də "Milli fəlsəfə" monoqrafiyasında fəlsəfəyə eyni məzmunlu anlayış kimi yanaşılmır. Biz çoxsaylı – Od fəlsəfəsi, İşıq fəlsəfəsi, İlahi fəlsəfə, materialist fəlsəfə, dini fəlsəfə, romantik fəlsəfə, klassik fəlsəfə, qeyri-klassik fəlsəfə, post-qeyri-klassik fəlsəfə, xeyir fəlsəfəsi, şər fəlsəfəsi, elm fəlsəfəsi, professional fəlsəfə, həvəskar fəlsəfəsi, sistem fəlsəfəsi, etnik fəlsəfə, milli fəlsəfə, bəşəri fəlsəfə, ədalət fəlsəfəsi, ədalətdən uzaqlaşan fəlsəfə, tabe etdirilən fəlsəfə, məkrli niyyətlərin fəlsəfəsi, merkontil fəlsəfə, maddiyyatçılıq ideologiyası fəlsəfə, qüsurlu fəlsəfə, sistemində boşluq olan fəlsəfə, zamanın tələbinə cavab verməyən fəlsəfə və s. fəlsəfələrdən bəhs edilir, ondan söhbət açırlar. Avropada fəlsəfənin öldüyünü deyənlər və hazırda fəlsəfənin gərəksiz olmasını söyləyənlər olduğu haqqında da məlumat verirlər.

Fəlsəfə, onun tarixi və inkişafı haqqında obyektiv ümumiləşmiş baxışın olmaması, əksərən də qeyri-obyektiv baxışın üstünlüyünü nəzərə alıb, milli fəlsəfə yaradılmasında daha israrlı görünən və bunun üçün öz arqumentləri ilə çıxış edən altı nəfər Azərbaycan fəlsəfə tədqiqatçısının əsərini təhlilə cəlb etdim. Bunlardan Əhməd Qəşəmoğlunun milli fəlsəfə yaradılması təşəbbüsündə fərqli metodla "ahəngyol" adlandırdığı tamamilə fərqli, müstəqil sistem yaratmışdır. Odur ki, onun "Ahəngyol elmi və onun müasir elmi düşüncə üçün əhəmiyyəti" əsərini ayrıca, xüsusi tədqiqat üçün saxladım, uyğun fəlsəfi nəzəri baxış və metoda malik beş əsəri tədqiqata cəlb etdim. Əsərini tədqiqata cəlb etdiyim fəlsəfə tədqiqatçıları və digər müəlliflərlə polemika şəraitində, bəşər tarixində fəlsəfənin zühuru, xalq tərəfindən mənimsənil-

məsi, fəlsəfi təfəkkürlə özünüdərki və fəlsəfə qanunları ilə təmasda olduğu təbiətin mahiyyətini, onun ayrı-ayrı formalarının insan həyatı və başqa təbiət qanunları ilə əməkdaşlıqda istifadə üsulları, tədricən bütün görünən varlıq formalarının mahiyyətinin kəşfi, nəhayət, insanın hətta gözlə dəqiq görə bilmədiyi, çox uzaq məsafələrdəki varlıq formalarını və hadisələri kəşf etməsinə, insanın arzuları, istəkləri, ideyaları, ideologiyaları, bütövlükdə insanlığın mənəvi dünyasını doğurmuş səbəbiyyət qanunlarından bəhs edən ilahi elm olması ardıcıl əsaslandırılır. Fəlsəfə varlığın bütün formalarının ruhunda olan, onun yaşam, tərəqqi, inkişaf, tənəzzül, ölüm (bir haldan başqa hala keçmə) prosesində ehtiva olunan səbəbiyyət qanunu kimi özünü göstərir. Fəlsəfə qanunları adlandırılan əksliklərin vəhdəti və mübarizəsi, kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliyinə keçməsi və inkarı inkar qanunları səmavi "Avesta" kitabı, Zərdüşt peyğəmbər vasitəsilə e.ə. III minilliyin sonu – II minilliyin başlanğıcında Azərbaycanda insanlığa təqdim olunması mənbə və tədqiqatlar əsasında şərh olunur. Həmin müddətdən keçən dövr ərzində fəlsəfənin yeni bir qanunu kəşf olunmamışdır.

Fəlsəfənin inkişafından bəhs etmək, onun qanunlarından istifadə etmək bacarığı, fəlsəfə qanunlarının təbiətin və cəmiyyətin yeni-yeni sahələrinə tətbiq etməkdən başqa bir şey deyildir. Təbiətin və cəmiyyətin müxtəlif sahələrinə xüsusi məqsədli tətbiq olunan fəlsəfə qanunlarının təsir dairəsi, yeni məzmun və forma doğurmasıdır ki, fəlsəfə tədqiqatçıları bundan nəzəriyyə kimi bəhs edirlər. XIX əsrin ortalarından bu nəzəriyyələrdən müstəqil fəlsəfə kimi bəhs etməyə başlamışlar və bu yanaşma hələ də davam edir.

Fəlsəfə qanunlarını tətbiq etməklə predmetdə əksliklərin nisbətini yenidən qurmaqla onda nəzərdə tutulan yeni keyfiyyətlər yaradılmasına başlandı. Bu üsulla XIX əsrdən təbiətdə və cəmiyyətdə, elm və texnikada inqilabi yeniliklər yaradıldı. Bunlar fəlsəfi nəzəriyyələr olmaqla təbiətin və cəmiyyətin müəyyən vəziyyətləri üçün yaradılmışdır. Odur ki, təbiətin və cəmiyyətin müəyyən məqamlarında özünü doğruldur, fəlsəfə qanunları kimi təbiətin və cəmiyyətin bütün vəziyyətinə tətbiq oluna bilmir. Fəlsəfi nəzəriyyələr təbiətin və cəmiyyətin müəyyən məqamlarında, ona uyğun vəziyyətində özünü doğruldur. Fəlsəfi nəzəriyyələr əvvəlcədən nəzərə alınmış konkret durumda tətbiq olunmaqla istənilən keyfiyyətin alınması üçün müvafiq şərtlər daxilində bəhrə verir. Nəzəriyyələr ona müvafiq olmayan şəraitdə heç bir təsirə, yaradıcılığa malik olmurlar. Odur ki, fəlsəfə ilə tədqiqatçıların təbiətin və cəmiyyətin müxtəlif məqamlarında işləyən nəzəriyyələri eyniləşdirmək ciddi yanlışlıqdır. Təbiətin və cəmiyyətin müəyyən halı üçün yaradılmış, ona müsbət təsir etmiş fəlsəfi nəzəriyyə fəlsəfə kimi təbiətin və cəmiyyətin bütün

hallarına tətbiq olunub müsbət nəticə verə bilməz. Fəlsəfi nəzəriyyə, təbiətin və cəmiyyətin digər halları üçün də olduğu kimi tətbiq oluna bilməz. Nəzəriyyələr təbiətin və cəmiyyətin durumuna müvafiq tətbiq olunduqda müsbət nəticə verir. Digər tərəfdən nəzəriyyə fəlsəfə qanunları kimi əbədi deyil, nəzəriyyə qarşısına qoyduğu məqsədə çatdıqdan, varlığı nəzərdə tutulmuş səviyyəyə çatdırdıqdan sonra təsir gücünü itirir. Varlığın yeni səviyyəsi, yeni yaşam şəraiti, yeni həyat tərzi tələb edir. Odur ki, əbədi yaşar fəlsəfə qanunlarından fərqli olaraq fəlsəfi nəzəriyyələr konkret şərait üçün qarşısına qoyulan problemin həllindən sonra təsir gücünü itirir. Avropada yaranmış fəlsəfi nəzəriyyələrin taleyi bunun göstəricisidir. Avropa fəlsəfə tədqiqatçılarının XIX – XX əsrlərdə fəlsəfənin inkişaf mərhələləri haqqında bölgüsü fəlsəfənin deyil, fəlsəfi nəzəriyyələrin yaranması, yaşamı və tarixin arxivinə verilmə mərhələləri kimi qiymətləndirilməlidir. Böyük partlayışla varlığın ruhunda doğulan və onu yaşadan, ona yaşam verən fəlsəfə adlanan əbədi yaradıcılıq qanunlarına hələlik təsir edən ikinci qüvvə meydana gəlməmişdir. Təbiətin və cəmiyyətin inkişafı bütün tarix boyu fəlsəfə qanunlarının dərk olunub, ondan yaradıcılıqla istifadə edilməsi ilə əlaqədar olmuş və olmaqdadır. Bu mənada fəlsəfi nəzəriyyələri fəlsəfədən istifadə etmək bacarığı kimi qiymətləndirmək daha düzgün olardı. 27 aprel 1920-ci ildə kommunist rus işğalı ilə milli fəlsəfə tariximiz, dünya xalqlarının fəlsəfə tarixi istismarçıların, burjua fəlsəfəsi elan olunaraq xalqımızın üzünə bağlandı. Yalnız kütlə fəlsəfəsi marksizm-leninizm imperiyada mövcud idi ki, onunla da insanların şüurundan idrak metodları, dünyanın obyektiv dərki sahəsində biliklər silinirdi. Xalqımızda fəlsəfənin olmamasını imperiya belə yaratmışdır. Hansı ki Vətənimiz fəlsəfənin ilkin ocağı, xalqımız bəşəriyyətin ilk Maq fəlsəfə məktəbinin yaradıcısıdır ki, dünyanın Misir, Hindistan, Yunanıstan kimi fəlsəfə ocaqlarının ilk filosofları Azərbaycan Maq fəlsəfə məktəbinin şagirdləri idilər. Fəlsəfə tədqiqatçılarımızın milli fəlsəfə yaratmq sahəsində birinci, başlıca uğuru fəlsəfəmizin genezisinə birmənalı aydınlıq gətirməsidir, digər mühüm əhəmiyyət kəsb edən iş –fəlsəfi irsdə mənəvi varisliyin bərpa edilməsidir. Avropa mərkəzçiləri uydurma hind –avropa nəzəriyyəsinin – Asiya qitəsində yaranışdan hind – avropalıların mədəni təsirə malik olması haqqında uydurmalarını, heç bir tarixi fakta və cəmiyyətin inkişaf qanununa uyğun gəlməməsi sətirlərin müəllifi tərəfindən sübut edilmişdir.

Göründüyü kimi, Azərbaycan xalqı qarşısında duran problemlərin elmi-nəzəri və praktiki həllinə cavab verən milli – Azərbaycan fəlsəfəsi yaratmaq iddiası ilə çıxış edən fəlsəfə tədqiqatçılarının əsas metodları eynidir. Avropa tarixindən doğan millətlə milli fəlsəfənin yaranmasına vahid pro-

ses kimi baxırlar. Lakin bu yanaşmadan kənara çıxmalar yetərincədir. Milli fəlsəfəni fəlsəfə əsasında yaradılmış milli ideologiya kimi əsaslandırmağa çalışanlar, milli fəlsəfəni milli ideya, milli inam, milli ruh, milli şüur, milli xarakter, milli ideologiya kimi şərh etsə də,xüsusi nəticə təklif etməyən şərhlər də var, hətta Avropa fəlsəfəsi və milli modeli əsasında Azərbaycanda millətin və milli fəlsəfənin yaranmasını əsaslandıracağını vəd etsə də, Avropada millətin, milli dövlətin, milli fəlsəfənin yaranmasından yetərincə bəhs edib, Azərbaycanda milli fəlsəfənin mövcudluğu üzərindən sükutla keçən müəllif də var. Tədqiqatçılardan milli fəlsəfə yaradılmasına "mərkəzində müasir və perspektiv tələbatlara cavab verən yeni epistomoloji sistemin hazırlanması" kimi qiymətləndirənlər də var. Digər fəlsəfə tədqiqatçısı isə "bu yeni milli fəlsəfi planda dünyagörüş, metodologiya olub, ancaq post-qeyri-klassik idrak mərhələsini əks etdirməməli, problem situasiyaları müəyyənləşdirə bilməli, gələcəkdən xəbər verməli, idrakın hələ adı müəyyənləşdirilməmiş 4-cü pilləsinə keçid etməlidir" – deyə yaradılacaq Azərbaycan milli fəlsəfəsinin təsəvvürünə görə prinsiplərini irəli sürür.

Tədqiqatçıların bəziləri millətin və milli fəlsəfənin yaranması haqqında Avropa modelindən kənara çıxa bilməsə də, əksəri problemlə bağlı fəlsəfə tarixində yer almış fəlsəfi nəzəriyyələrdən geniş istifadə etməklə, yuxarıda göstərdiyimiz müddəalardan əlavə milli fəlsəfə yaratmaq yolunda müxtəlif mülahizələr irəli sürürlər. Maraqlıdır, təhlilə cəlb olunan əsərlərdə əsas məqsəd – gələcəyi proqnozlaşdıran fəlsəfəni yaratmaq olsa da, müəlliflər milli fəlsəfənin mənşəyinə – genezisinə çatmağa sanki ondan daha çox səy göstərirlər. Azərbaycan milli fəlsəfi fikir tarixinin pozulduğu XIX əsrdən başlayaraq zaman-zaman bu xalqın yükünü daşımış filosoflarımızın çiyinlərini nərdivana çevirib, müasir fəlsəfə tədqiqatçılarımızı pillə-pillə yuxarıdan aşağı, tarixin dərinliklərinə endirib ilkin təmələ çaatdırırlar ki, bununla da pozulmuş mənəvi varislik bərpa olunur, milli şüurda fəlsəfi yaradıcılıq başlayır, millət mənəvi varlıq olması kimi yenidən kəşf olunur.

Milli fəlsəfəni fərqli məzmun formada görən fəlsəfə tədqiqatçılarımız, milli fəlsəfənin bəşəri mahiyyətdə olması haqqında yekdil fikirdədirlər. Bəşərilik, bütün bəşəri olanı özündə ehtiva etmək isə hadisənin ilahi mahiyyətindən doğur. Fəlsəfənin ilahi elm olmasının göstəricisidir, təsdiqidir. Əsərin Azərbaycan üçün ikinci bir yeniliyi – onun başlanğıcdan sona kimi polemik bir proses kimi yaranmasıdır. Əgər milli fəlsəfə yaratmaq uğrunda səfərbər olan fəlsəfə tədqiqatçılarının əsərlərində polemika, ad çəkilmədən aparılırdısa, artıq oxucuya təqdim olunan bu əsərdə onların özü bilavasitə polemikaya cəlb olunur. Bu da elmi həqiqətin tapılmasında sübut olunmuş

bir metoddur. Sətirlərin müəllifinin polemika açdığı, ünvanlarına tənqidi fikir söylədiyi müəlliflər onun ən yaxın dostları sirdaşlarıdır. **Fəlsəfəmiz – vətənimizin, millətimizin inkişafı naminə atdığımız bu addım fəlsəfəni, elmi özləri üçün ideal seçən gənclərimiz tərəfindən ənənəyə çevrilməlidir, çünki bu metodun elmin inkişafına, həqiqətin tapılmasına xidmət etdiyi dünya elmində sınaqdan keçmiş, sübut olunmuşdur.**

# I FƏSİL

## MİLLİ FƏLSƏFƏ YARATMAQ TƏŞƏBBÜSÜ

Hər bir insan öz şüuru, təfəkkürü, dünyagörüşü ilə həyat hadisələrinə münasibət göstərir. Hələ tələbəlik illərində milliyyətcə azərbaycanlı tarixçilərin milli tariximizi saxtalaşdırıb "elmi dərəcə", "elmi ad" aldıqlarını görür və bilirdim. Lakin heç cür özümü insanın bilərəkdən düşmənin sifarişi, maladesi ilə ona saxta alim adı verəcəyi müqabilində milli tarixini saxtalaşdırmasına inandıra bilmirdim. Kommunist rus imperiyasının bu adamları DTK vasitəsilə milli tarixi − mənəviyyatı saxtalaşdırmağa, alçaltmağa məcbur etdiyini düşünürdüm. Fikirləşirdim ki, milli mənliyi alçaldılmağa məhkum edilmiş bu adamlar imkan yaranan kimi günahlarını yuyacaq, tariximizin, mədəniyyətimizin obyektiv yazılmasında fədakarlıq göstərəcəklər. Düşüncələrimdə yanlış olduğumu həyat sübut etdi. 1988-ci ildə Azərbaycanda Milli Azadlıq hərəkatı başladı. EA Tarix İnstitutu da daxil olmaqla imperiyanın yaratdığı onlarla tarix, fəlsəfə və digər ictimai elm müəssisələrinin yaşlı nəslindən cəmi 5 nəfər − Ziya Bünyadov, Mahmud İsmayılov, Zümrüd Quluzadə, Qiyasəddin Qeybullayev və Əlyar Süleymanlı Milli Azadlıq hərəkatını müdafiə etdi. İctimai elm müəssisələrinin Milli Azadlıq hərəkatında iştirak edən gəncləri də dəqiq elm müəssisələrinin gəncləri ilə müqayisədə azlıq təşkil edirdi. Bilavasitə marksizm – lenizmlə məşğul olan yaşlı tarixçi nəsildən Tofiq Köçərli istisna edilərsə, bir nəfər də olsun milli mövqeyə keçmədi. Sözdə müstəqilliyi müdafiə etsələr də, kollektiv şəkildə gizli üsullarla sovet tarixşünaslığı konsepsiyasını qoruyub yaşatdılar və bu konsepsiya tarixşünaslığımızda bu gün də hakimdir. Bu nəsil elmi təfəkkürə malik yeni milli gənc tarixçi nəslin yetişməsinə imkan vermədi və vermir.

Elm və təfəkkür tarixi göstərir ki, bütün elmlərin inkişafı fəlsəfə ilə bağlıdır, onun inkişaf səviyyəsindən asılıdır, lakin ictimai elmlər − tarix, ədəbiyyat, incəsənət, iqtisadiyyat və b. bütünlüklə fəlsəfədən asılıdır. Fəlsəfə qanunları şüura, təfəkkürə hakim olmayan heç bir xalqda, fərddə ictimai fikir, tarixi şüur elmi səviyyəyə yüksələ, elmi mahiyyət kəsb edə bilməmişdir. Mən bu haqda mövqeyimi "Sovet tarixşünaslığı − milli ölüm elmi" (B., 2010) monoqrafiyamda bildirdim. kommunist rus imperiyasının xalqımı-

za yetişdirdiyi "formaca milli, məzmunca sosialist" (rus − X.X.) bir nəfər də olsun azərbaycanlı akademik, professor və elmlər doktorlarının etirazı ilə rastlaşmadım. Əsərimin müzakirəsinə yol verməməklə əsarət illərində milli-mənəvi varisliyin məhv edilməsi səviyyəsində onların xalqımızın mənəviyyatına vurduğu zərbələrin mətbuata sızmasına yol vermədilər. Elmi maskalarının dağılıb əsl mahiyyətlərinin aşkarlanmasının qarşısını aldılar. Müstəqilliyimizdən 30 il keçsə də, tariximiz, tarix elmimiz hələ də canlı meyidlərin əsarətindədir. Azərbaycanda tarix elminin bu ölgün vəziyyəti, heç bir yaradıcılıq göstərə bilməməsi imperiyanın siyasi-inzibati təzyiqləri ilə bərabər fəlsəfənin durumu ilə də bağlıdır. Fəlsəfə – alimin, tədqiqatçının yaradıcı ruhu, təfəkkürü predmetin nüvəsinə nüfuz edən, onun mahiyyətini aşkarlayan rentgen şüasıdır. Təsadüfi deyil ki, Azərbaycan 200 il fəlsəfi təfəkkürə malik olmayan, Q.Y.Çaadayev və N.O.Losskinin təbirincə desək "dünyaya, kütləyə heç nə verməmiş, bəşəri ideya gətirməmiş", "fəlsəfi fikrin inkişafı üçün heç bir əhəmiyyət kəsb etməmiş rus imperiyasının hakimiyyəti altında olmuşdur (22, 398, 409).

Təəssüf ki, bu günlərdə bütün dünyada fəlsəfənin durumu da çox ürəkaçan deyildir. Varlığın bütün formalarının dərk olunması, tənzimlənməsi, istiqamətləndirilməsi üsulu olan fəlsəfədən hər kəs öz şəxsi məqsədləri, mənafeləri üçün istifadə edir, imperiyaların dağıdıcı işğalçılıq siyasətinin aləti kimi görünür. Varlığa pis yönlər verilməsində bir alət kimi istifadə olunur. Sanki artıq fəlsəfə özünün ilkin mahiyyətini − ilahi nur, xeyirxah yaradıcılıq funksiyasını itirib, ikili funksiya mahiyyyəti daşıyır kimi görünür. Odur ki, fəlsəfə tədqiqatçıları onu **yaxşı və pis fəlsəfəyə** bölməyə başlamışlar. İstedadı olmaqığından, fəlsəfəyə yiyələnə bilmədiyindən, yaradıcılıq qabiliyyəti göstərə bilməyən "elm dələduzları" (K.Yaspers) isə ümumən fəlsəfənin gərəksiz olması təbliğindədirlər. Proletar təfəkkürünün hakim olduğu dünyanın altıda bir hissəsini tutan postsovet məkanında fəlsəfə tamamilə görünməz olmuş, kütlə şüuru, kütlə təfəkkürü tam hakim idi. Ölkədə bəşəri nur − fəlsəfə sanki sönmüş, ölkə "dahi kütlə" (53, 345) ideologiyası səviyyəsində işıqlanır, yaradıcılıq göstəriridi, sanki insanlıq ölmədə idi.

Mahmud İsmayılov və Qiyasəddin Qeybullayevin vəfatı ilə tarix sahəsində yaradıcı gənclik bütünlüklə arxasızlaşdı. Tarix elminə nəzəri ideyalar gətirən gənclik A.Balayev, Ə.Məmmədli, X.Xəlillinin təşəbbüsləri ölü canlıların üfunəti içində görünməz oldu. Tarix elminin bu ölgün vəziyyəti Azərbaycanda fəlsəfi ruhun yaradıcılıq doğuracaq səviyyədə olmaqığının göstəricisidir, bunu 200 illik rus imperiyası əsarəti yaratmışdı. Uzun əsrlər boyu quldarlıqdan çox da fərqlənməyən rus təhkimçiliyi rus xalqının yara-

dıcılıq ruhunu söndürmüşdü. Tənbəl, xəstə, anormal, avantürist, macəraçı, şəxsi məqsədlər güdən, qisasçı, intiqamçı, terrorçu ideologiyası olan sosialist ideologiyası − marksizm Avropada dağıdıcı partlayış doğuracağını, ölkəni xarabazara çevirəcəyini proqnozlaşdıran mütəfəkkir və siyasi xadimlər bəşəriyyətin bu ideologiyadan ibrət dərsi alması üçün onun bir ölkədə həyata keçməsini vacib sayaraq fəlsəfi təfəkkürdən məhrum, kütlə şüuru hakim olduğu üçün asanlıqla reallaşa biləcək rusiyanı seçdilər (52, 406-407, 409) və burada sosialistlərin hakimiyyətə gəlməsini istiqamətləndirdilər. Elə bu səbəbdən də 1917-ci ilin oktyabrında rusiyada kütlə-proletar inqilabı baş verdi, bu tarixdən ölkəyə az-çox yol tapan, daxil olan Avropa fəlsəfi və demokratik ideyaların ölkəyə axınına son qoyuldu. K.Marksın "İnsanlar öz həyatlarının ictimai istehsalında öz iradəsindən asılı olmayan müəyyən, zəruri münasibətlərə − öz maddi məhsuldar qüvvələrinin inkişafının müəyyən pilləsinə uyğun olan istehsal münasibətlərinə girirlər. Bu istehsal münasibətlərinin məcmuyu cəmiyyətin iqtisadi strukturunu, real bazisini təşkil edir, hüquqi və siyasi üstqurum bu bazis üzərində yüksəlir və müəyyən ictimai şüur formaları bu bazisə uyğun olur. Maddi həyatın istehsal üsulu, ümumiyyətlə, həyatın sosial, siyasi və mənəvi prosesləri üçün şərtdir. İnsanların varlığını onların şüuru müəyyən etmir, əksinə, insanların ictimai varlığı onların şüurunu müəyyən edir" (51, 7) doğması ictimai inkişafın qanunu kimi zorakı surətdə şüurlara yeridildi.

Rus bolşevikləri Avropadan qəbul etdikləri sosialist ideologiyasını sosial-demokrat ideyalarından təmizləyərək rus kütlə təfəkkürünə uyğun diktatura məzmunu verib, rus proletariatını dünyada hakim sinifləri məhv edib, sinifsiz, hamının bərabər yaşayacağı sosializmin qurucusu elan etdilər. Beləliklə, rus proletariatı dünyada əlahiddə missiyaya malik sinif, rus kəndlisi onun müttəfiqi, başlanmış sosializm quruculuğu erasında rus xalqı bütün dünya xalqlarının böyük qardaşı elan edildi. Bu milli siyasi kütlə psixologiyasına uyğun aldadıcı üsulla Avropa irqçilik və müstəmləkəçiliyini qabartmaqla əsarət altına salmış olduqları xalqları onlara qarşı qaldırmaqla, beynəlmiləlçilik pərdəsi altında dünya imperiyası qurmaq siyasəti yeritdi.

25 oktyabr 1917-ci ildə hakimiyyətə gələn rus bolşevikləri ölkəni vətəndaş müharibəsinə cəlb etməklə rus xalqının yenicə yetişməkdə olan milli burjuaziyasını, ziyalısını, az-çox fəlsəfi təfəkkürə malik insanlarını, **müstəqil düşünmək qabiliyyətinə malik hər kəsi məhv etdilər**. Proletar təfəkkürünü ölkədə hakim təfəkkürə çevirdilər. Bunun ardınca keçmişdə çar rusiyasının əsarətində olmuş ölkələri yenidən işğal edib, müstəqilliyini yaşatmaq istəyən xalqlara qarşı daha qəddarcasına amansızlıq göstərib, onların milli

düşüncəyə malik milli burjuaziyasını, filosoflarını, ziyalılarını, milli mədəniyyətin daşıyıcısı kimi görünən hər kəsi məhv etdilər. Dövrü tədqiq etmiş akademik Z.Bünyadov yazır: "...70-80 min Azərbaycan ziyalı nümayəndəsi − alim, yazıçı, gənc, din xadimi, hərbçi, bir sözlə bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri məhv edildi. Tək bircə dil bilən şəxsləri də qırdılar... Bunun müqabilində isə respublikada ictimai elmlərin yaradıcı inkişafına böyük ziyan və dağıdıcı zərbə vurmağa hazır olan könüllü və yetişdirilmiş apolegetlər meydana çıxmışdır" (54, 3-4).

Rus bolşevikləri marksizmi hakim ideologiya elan etsələr də, ona kütlə psixologiyasına müvafiq çoxsaylı primitiv əlavələrlə onu olduğundan da eybəcər vəziyyətə saldılar. Marksizm fəlsəfə adlandırılsa da, yaradıcılıq ruhu, metodologiyası olmaqığından heç vaxt fəlsəfə olmamışdır. Tarixdən göründüyü kimi o, kütlə psixologiyasına asanlıqla nüfuz edən şər ruh olaraq yayıldığı, hakim ideologiyaya çevrildiyi ölkələri xarabazara çevirir, millətləri mənəvi tənəzzülə uğradırdı. Beləliklə, kommunist rus imperiyası əsarət altına saldığı xalqın milli mənlik şüurunu, fəlsəfi ruhunu, inam və etiqadlarını adət-ənənələrini məhv edərək "dahi xalq kütlələri" (53, 345) idologiyası əsasında "iş adamı" edir, bütöv şəxsiyyətlikdən çıxarır, konkret situasiyada tanınmaz edirdi, ya da mücərrəd insan, yəni əti, qanı, ruhu müəyyən ideya ilə yoğrulmuş ümumən "sovet adamı" yetişdirilirdi (49, 4).

Etnik psixologiya elminin baniləri etiraf edidilər ki, milli psixologiya gözlənilməz xüsusiyyətlərə malikdir. Bu keyfiyyət özünü xalqımızda səksəninci illərdə (keçən əsr) rus imperiyasına qarşı başlayan milli azadlıq hərəkatında göstərdi. İmperiya tərəfindən nə qədər simasızlaşdırılıb, mənlik şüuru öldürülməyə məruz qalsa da, istiqlal mübarizəsinin öncüllərindən olaraq imperiyanın məhv edilməsində parlaq səhifələr yazdı. Təəssüf ki, milli mənəvi quruculuq sahəsində ciddi uğur qazana bilmədi. İnsan resursları, hərbi-texniki təchizat və iqtisadi cəhətdən özündən qat-qat zəif olan Ermənistana məğlub oldu, ərazisinin 20 faizdən çoxunu itirdi. Bütün bunlar 70 illik kommunist rus imperiyasının xalqımızın mənəviyyatında məhv etdiyi milli mənəvi dəyərlərin itirilməsinin nəticəsidir. Xalqımızın mənəviyyatında bu dəyişikliyi görən, görkəmli psixoloq Ə.S.Bayramov yazır ki, əgər XX əsrin əvvəllərində xalqımızın mənəviyyatında sözü bütövlük, mərdlik, vətənpərvərlik, həmrəylik, ehtiyacı olanlara əl tutmaq, yardım etmək, imkanlı adamlar şəxsi vəsaitini dövlətə, xalqa xərclədiyi halda, günlərimizdə bizim dövrümüzdə, eləcə də ümumən XX əsrdə xalqımızda daha çox mənfi xüsusiyyətlər özünü büruzə verir? Millət, xalq köklü surətdə dəyişmişdir, yoxsa bunun başqa səbəbləri vardır? Nə üçün oğuzlar onlara qarşı bu və ya

digər qonşu etnos hücum etdikdə hamısı asanlıqla birləşir, qadınlar da silaha sarılır, öz ərləri ilə birikdə düşmənə qarşı amansız mübarizə aparırlar, amma bizim günlərdə bəzən hətta əsgər yaşlı cavanlarımız belə Vətənin qorunmasını özünə müqəddəs borc bilmir, ayrı-ayrı gənclərimiz öz silahlarını belə düşmənə qoyub qaçırlar? Bəlkə doğrudan da etnosun, xalqın psixologiyası, o cümlədən etnik milli xarakteri köklü surətdə dəyişmişdir? Əgər qədim oğuzlarda yetim doyuzdurmaq, ac-çılpaq adamları, xüsusilə də uşaqları geyindirmək böyük şərəf, insanlıq borcu, vacib xarakter əlaməti sayılırdısa, bəs nə üçün bizim günlərdə yetimlərin, qaçqın və didərginlərin payını əlindən alıb iştahla yeyən, ona xüsusi göz tikən vəzifəli şəxslərimiz, “bəy”lərimiz getdikcə artır?! (49, 104-105).

Ə.S.Bayramovun “Etnik psixologiya məsələləri” (B., 1996) əsəri nəşr olunarkən yuxarıda iqtibas etdiyimiz fikirə küçə alimləri (sətirlərin müəllifi hər hansı əsərə yazılı rəy bildirməyib, koridorlarda, xüsusi məclislərdə şifahi qarayaxanları “küçə alimi” adlandırır) mənfi münasibət yaradırdı. Bu yaxınlarda Kəlbəcər rayonuna İcra Başıçısı təyin edərkən prezident İ.H.Əliyevin həyəcanla dediyi − **respublikada “hər addım cinayətdir, hər addım rüşvətdir”** − sözləri Ə.S.Bayramovun “Millət, xalq köklü surətdə dəyişmişdir, yoxsa bunun başqa səbəbləri vardır?” sözləri vaxtında həyəcan təbili kimi qiymətləndirilməli olduğunu bir daha təsdiq edir.

Respublikamızda “rüşvət”, “korrupsiya” baş alıb gedir, Respublika Prezidenti bunu “bəla” adlandırır, başa düşürük. Korrupsiya başqa ölkələrdə də var. Koronavirus bəşəri təhlükə olaraq bütün insanlığa təhlükə yaratmışdır. Bəşər nəsli bu təhlükədən xilas olmaq üçün tarixi yaddaşın diqtəsi ilə birləşir, birlikdə xilas yolu axtarır.

Təbiətşünasların məlumatları göstərir ki, meşədə vəhşilər yaşamaq üçün xasiyyətini dəyişmir, ənənəsini yaşadır − yəni ovdan ona çatan ancaq bir payı yeyib kənara çəkilir, başqasının payına göz dikmir. Müəyyən vaxt ac qalmış dəvələr örüşə buraxılanda hər koldan ancaq onlara çatacaq bir-iki qanadı yeyir, digər budaqları öz həmcinsinə saxlayırlar. (56; 57; 58).

Koronavirus təhlükəsindən xilas olmaq üçün respublikamızın imkansız, az təminatlı şəxs və ailələrinə dövlət yardımını rayonlarımızın İcra başçılarının gizli üsullarla mənimsəməsi, milli mənəvi varisliyin bərpası üçün, məhvolma təhlükəsinə çatmış mədəniyyət abidələrinin bərpası üçün ayrılmış dövlət vəsaitinin mədəniyyət işçiləri tərəfindən oğurlanması xalqımızın mənəvi durumunun məhv olma səviyyəsinə çatmasının göstəricisidir.

Nazirlər, İcra başçıları hakimiyyətdə özlərini quldur kimi aparırlar. Vəzifədən təmiz, şərəflə ayrılan şəxslər son dərəcə azdır. Bütün bunlar xalqı-

mızın milli dəyərləri, mənlik şüurunu itirməklə Vətən və Millət hisslərindən məhrum olmasının nəticəsidir ki, mənəvi vəziyyət belə davam edərsə, milli məhvolma ilə üzləşmə gözlənilləndir.

Xalqımız kommunist rus imperiyasının dağılmasında fədakar mübarizə aparsa da, milli quruculuq sahəsində yaradıcılıq göstərə bilmədi. Təbii ki, bu, onun mənəvi durumu ilə bağlı idi.

Hələ XIX əsrin üçüncü rübündə Şərq xalqlarının Avropa mstəmləkəçilərinin əsarətindən, köləliyindən qurtarıb müstəqil milli inkişaf yoluna düşməsinin fəlsəfi terapiyasını yaradan böyük Azərbaycan − Şərq mütəfəkkiri Ş.C.Əfqani göstərdi ki, "mənən tənəzzülə uğrayan millətin, hər şeydən əvvəl, fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmləri və ədəb-ərkan qaydaları tamam yox olub aradan gedir " (3, 30).

**Fəlsəfi ruhdan məhrum olduqlarından, İlahi fəlsəfəni ölkə üzünə bağlayan rus kommunistləri əsarətlərinə saldıqları bütün xalqlarda mənəvi varisliyi, birinci növbədə fəlsəfi ruhu, milli şüuru məhv etmişdilər. Marksizm doğmasına kütlənin inamının itməsi ilə məhz bu ideologiya zəminində yaradılan imperiya çox asanlıqla məhv oldu.**

Təsadüfi deyil ki, klassik alman fəlsəfəsinin banisi Hegel yazırdı ki, cəmiyyət **xalq, insan ağır vəziyyətə düçar olarkən, süqutuna yetişərkən fəlsəfəyə üz çevirməkdən başqa çarələri qalmır. Tarixin ən böhranlı anlarında insan fəlsəfəyə üz tutmuşdur** (10, 13, 323).

Azərbaycanda milli azadlıq hərəkatının ilk günlərindən xalq arasından çıxmış tək-tək adamların bəşəri fəlsəfə klassiklərini Azərbaycan türkcəsinə çevirməsi, yazıçı Əlisa Nicatın fəlsəfə tarixinin fədakar tədqiqatçısına çevrilməsi, tarixin fəlsəfi ideyaları doğuran məqamlarını yenidən canlandırıb diqqətə çəkməsi bəşəriyyətin fəlsəfə ocağının şər qüvvələr tərəfindən söndürə bilinmədiyini göstərirdi. Bu günlərdə fəlsəfə elmləri doktoru Fərman İsmayılovun Avropa fəlsəfəsi tarixində nəzəriyyələrin yaranması səbəbləri və prosesinin şərhini əhatə edən beş cildlik əsərləri milli nümayəndələrin nicat yolu tapmaq üçün fəlsəfəyə can atması idi. F.İsmayılovun son "Müqəddəs od və yaxud fəlsəfənin fəlsəfəsi" (B., 2015) əsərini nəşr olunan kimi alıb oxudum. Zəng edərək təşəkkür edib, görüşmək istədiyimi bildirdim. Təklifimi qəbul etdi, EA-nın bağında görüşüb bir saata qədər əsər haqqında söhbət etdik. Mülahizələrimi və mənə qaranlıq qalan məsələləri diqqətinə çatdırdım. Mənim üçün qaranlıq məqamlara aydınlıq gətirdi. Bir an duruxdu, dedi: "Əsərimin təqdimatında çıxışların bir qismi söz yığını, ya da əsərimin başa düşülmədiyinin göstəricisi oldu. Əsərimi dərk edib qiymətləndirmən məni

sevindirdi. Təqdimatda demək istədiyim, lakin demədiyim sözümü sənə deyirəm. Bu əsər mənim xalqıma vəsiyyətimdir!”.

Bu günlərdə fəlsəfə tədqiqatçısı Səlahəddin Xəlilov Şərq və Qərb mədəniyyət və fəlsəfəsinin müqayisəli tarixini doğma türkcədə canlandırmaqla Şərqin heç də bu günkü kimi fəlsəfəsiz olmaqığını, fəlsəfənin ilkin vətəni olmaqla ondan qidalanıb mənəviyyatda, mədəniyyətdə, elmdə və b. sahələrdə bəşəriyyətə tərəqqi nümunəsi verən məkan olmasını nəinki Azərbaycanda, dünyanın başqa ölkələrində fəlsəfə tədqiqatçılarının diqqətinə çatdırmışdır. Ümumən fəlsəfədən danışanda məğrur, canlı, qürurlu, məğlubedilməz görünən S.Xəlilov Azərbaycanda fəlsəfənin vəziyyətindən bəhs edərkən ümidsiz kimi görünür, sanki qorxur və həyəcanla deyir: “İmperiyanın tədbirləri ilə Respublikamızda proletqulçuluq meyli, manqurtlaşdırma tədbirləri özünün zirvəsinə qalxmışdı. Xalq özünün hətta mütərəqqi fəlsəfə fikrindən ayrı düşmüş, milli fəlsəfə tarixinin yerini ictimai-siyasi və demokratik fikir tarixi tutmuşdu. Birinci qaranlıqda qaldığından çoxları hələ indi də fəlsəfəni ya maarifçilik və didaktika ilə, ya inqilabi demokratik fikirlə, ya da hətta siyasi publisistika ilə qarışıq salırlar. Nəticədə Azərbaycan fəlsəfi fikir tarixinin hüdudları genişləndirlir və burada ancaq əsl fəlsəfəyə yer qalmır. Səbəblərindən biri budur ki, əsl fəlsəfəni şərh etmək təbliğatçılıqla elmi dərəcə almış rəsmi fəlsəfəçilərin intellektual imkanı xaricindədir. Deməli, bu günkü fəlsəfəmizdəki vəziyyət keçmişdəki fəlsəfi fikrimizin də üzə çıxmasına mane olur. Bu sahədəki tək-tək həqiqi tədqiqatçılar isə “aktual mövzulardakı” cild-cild kitablar arasında itib-batır” (13, 45).

S.Xəlilov digər bir əsərində sanki tükənmiş kimi daha da həyəcanla yazır: “Azərbaycanda hələ də ictimai-siyasi fikir tarixini milli fəlsəfi fikir tarixindən, milli fəlsəfi fikri, elmi-fəlsəfi fikirdən, elmi-fəlsəfi fikri fəlsəfi sistemlərdən və məxsusi mənada fəlsəfədən fərqləndirə bilməyənlər çoxluq təşkil edir...” Fəlsəfə adı altında təqdim olunan sahə ilə çox vaxt öz ixtisası sahəsində uğur qazana bilməyənlər məşğul olurlar. Mən bu barədə dəfələrlə yazmışam. Hələ SSRİ heç dağılmamış, 1990-cı ildə “Açıq söz” jurnalında çıxan “Fəlsəfəyə qayıtmasaq” adlı məqaləmdə Azərbaycanda həqiqi fəlsəfi fikrin yoxluğundan, milli ruhun fəlsəfi özünüdərkinə böyük ehtiyac olmasından və fəlsəfə ilə rəsmən məşğul olanların həqiqi fəlsəfədən uzaq olmalarından bəhs etmişəm” (14, 231-232).

Vətənində, millətində fəlsəfə yoxluğundan həyəcanla bəhs edən S.Xəlilov sonda çox soyuqqanlılıqla millətinə çıxış yolunu göstərərək deyir: **“Bəli, dünya onu anlayanındır. Fəlsəfə kimindirsə, dünya da onundur”** (14, 212).

Kommunist rus imperiyasının çöküşündən sonra imperiyanın Vətənimizə və Millətimizə "filosof" kimi yetişdirdiyi yüzlərlə elmi rütbəlilər arasında milli mövqedə duran və müstəqil fəlsəfi tədqiqat aparmaq intellektində olan, yaradıcılıq qabiliyyəti göstərənlərdən biri Əbülhəsən Abbasovdur. Əsərlərindən göründüyü kimi, çoxşaxəli yaradıcılığa malikdir. Milli həyatımızdakı durğunluğu, milli yaradıcılıq göstərilə bilməməsini milli şüurdakı, mənəviyyatdakı ziddiyyətlərlə izah edir və problemin fəlsəfi həllini göstərməyə ardıcıl cəhd edir. Onun fəlsəfənin müxtəlif problemlərinə həsr olunmuş monoqrafiya və məqalələri istisna edilərsə, AMEA Fəlsəfə İnstitutunun "Müasir fəlsəfə problemləri" şöbəsinin 2010-cu ildən ardıcıl nəşr olunan, fəlsəfənin müxtəlif problemlərinə həsr olunan, əsas məqsəd Azərbaycanda fəlsəfi təfəkkürü, düşüncəni, ruhu canlandırmaq olan, bu günlərdə "Milli fəlsəfə"yə həsr olunan onuncu kitabı da daxil olmaqla bütün buraxılışlara yazdığı "ön söz"lər onu yetkin fəlsəfə nəzəriyyəçisi kimi təqdim edir. Tarixə müraciətlə yazır: **"Milləti millət eyləyən onun fəlsəfəsidir"** (60, 6).

Müstəqilliyin ilk illərində fəlsəfənin yenidən canlandırılmasında fəallıq göstərən fəlsəfə tədqiqatçılarından biri Əli Abasovdur. O, rus kommunistlərinin daha da eybəcər formaya saldığı şər ruhun daşıyıcısı marksizmin – sovet fəlsəfəsinin inkar edə bilmədiyi idrak nəzəriyyəsinin tədqiqatçısıdır. Təbii ki, Əli Abasov da bu sahəyə Sov.İKP MK 2 iyun 1947-ci il qərarına müvafiq (61) istedadsız, ancaq özünü düşünən, milli ruhdan məhrum... və b. mənfi keyfiyyətlərə malik, elmi rütbədən, buna müvafiq tutduğu vəzifədən ancaq özü üçün istifadə edəcək bir adam kimi seçilmişdi. Lakin Ə.Abasov imperiyanın gözlədiyinin əksinə – milli və yaradıcı şəxsiyyət kimi meydana çıxdı. Təbii ki, Ə.Abasovun imperiyanın arzusunun əksi şəxsiyyət və alim kimi yetişməsində birinci onun daşıdığı genlər, ikincisi, tədqiqatçısı olduğu idrak nəzəriyyəsi əsas olmuşdur. Artıq sübut olunmuşdur ki, ümumən yaradıcılıq, xüsusilə elmi yaradıcılıq insanın təbii genetik imkanı ilə bağlıdır. Təbii ki, elmi yaradıcılıq üçün genetik imkana malik şəxs idrak nəzəriyyəsinin tədqiqatçısı kimi uğur qazanmalı idi, necə ki, Ə.Abasov buna nail oldu. Ardıcıl olaraq namizədlik və doktorluq dissertasiyası müdafiə edən Ə.Abasov EA Fəlsəfə İnstitutunun direktor müavini və direktoru vəzifələrini tutdu. Sovet dönəmində EA ictimai institutlarının rəhbərliyində heç vaxt olmamış, istedadlı gənclərin müdafiəçisi, onlara qarşı yönəlmiş maneələrin aradan qaldırıcısı, fəlsəfi yaradıcı ruhun fədakar daşıyıcısı kimi cəmiyyətin yaddaşına daxil oldu. Kommunist rus imperiyasının xalqımıza "elm adamı" formasında – adı altında yetişdirdiyi yüksək rütbəli istedadsız, həsədçi və "qarğa təbəssümlü" paxıllar onun vəzifədən uzaqlaşdırılmasına nail oldular.

Həsədçi və paxılların düşündüyünün əksinə olaraq, vəzifədən kənarlaşdırılması Ə.Abasova fəlsəfi tədqiqata, yaradıcı gənclərlə elmi polemika və əməkdaşlığa daha çox vaxt sərf etməyə imkan verdi, onun elmi təsir dairəsini daha da genişləndirdi, yaradıcı fəlsəfi ruhunu bütün aydınlığı ilə nümayiş etdirdi. Ə.Abasov aspirantlar yetişdirir, müxtəlif elmi müəssisələrdən məsləhət üçün yanına gəlmiş araşdırıcılara, həvəskar tədqiqatçılara elmi-yaradıcı olur və məsləhətlər verir. Xarici ölkələrdə fəlsəfənin müxtəlif sahələrinə həsr olunmuş elmi konfranslarda çıxış etməklə bərabər, müxtəlif fəlsəfi jurnallarda nəşr olunmaqla Azərbaycan fəlsəfəsini təmsil etməklə bərabər, bəşəri fəlsəfi təfəkkürün zənginləşməsində iştirak edir. Ə.Abasovun mühüm xidmətlərindən biri − kimyəvi tullantıların zəhərlədiyi torpaqlar şorakət bitkilərindən başqa heç nə bitirmədiyi kimi kommunist rus imperiyasının marksizm adına uydurduğu fəlsəfənin şüura, təfəkkürə öldürücü məhvetmə ideologiyası olduğunu diqqətə çatdırmaqla, Azərbaycanda fəlsəfi ideologiyanı yenidən canlandırmaq məqsədilə onun rəhbərliyi və təşkilatçılığı ilə 2010-cu ildən ardıcıl fəlsəfənin müxtəlif problemlərinə və nəzəriyyələrinə həsr olunan kollektiv əsərlərdir ki, onun sonuncu sayı "Milli-fəlsəfi" kollektiv monoqrafiyası bu günlərdə (2019-cu ildə) nəşr olundu. Əsərə ön sözündə Əbülhəsən Abbasov yazır: "Bəli, hörmətli oxucular, qarşımızda həll olunası, görüləsi xeyli ağıryüklü məsələlər durur. Milli fəlsəfə mövzusuna həsr olunmuş bu elmi məcmuə də məhz həmin məsələlərin həlli istiqamətində hazırlanmış və təqdim edilmiş bir kollektiv əsərdir. İndiyə qədər, 2010-cu ildən başlayaraq buraxdığımız tematik elmi məcmuələr silsiləsində sonuncu olan bu kitab bizim üçün xüsusi yer tutur və əhəmiyyət daşıyır. Onun gələcək taleyi, necə qarşılanması fərdi və ictimai şüura nə kimi təsir göstərəcəyi, əlbəttə ki, bizi ciddi düşündürür... Nəhayət, haqq-ədalət tələblərinə uyğun olaraq, bu kitabın ərsəyə gəlməsində hamıdan çox əməyi olan dəyərli alim, fədakar insan, professor Əli Abasova bütün müəlliflər adından dərin minnətdarlığımı bildirirəm" (62, 18-19).

Bu gün respublikamızda kimlərsə əldə etdiyi yüksək "elmi" rütbə və adlara, dövlət və hökumət strukturlarında tutduqları vəzifədən istifadə edərək milli məsələ, milli inkişaf, xalqın idarə olunmasında bütün dediklərinin və hərəkətlərinin düzgünlüyü iddiasındadırlar. Elə **bütün dünyada olduğu kimi, milli varlıqdan danışarkən iqtisadiyyatdan, elmi-texniki tərəqqidən danışırlar. Bəşər tarixində milli tərəqqi, tənəzzül və inkişafın fəlsəfədən asılılığı unudulmuşdur. Elə bu səbəbdən dünyanın bir tərəfi od tutub yanır, bir tərəfi daşqınlar, sunamilər, fırtınalardan dağılır, digər tərəfində insanlar terroristə çevrilib öz həmvətənlərini qətlə yetirir, döv-**

**lətlərini dağıdır, məhv edir, başqa ölkə və xalqları daim qorxu və vahimə altında saxlayır, biz – azərbaycanlılar özündən qat-qat zəif ermənilərə məğlub olub doğma vətənizmiz, bəşəri sivilizasiyanın beşiyi Qarabağın erməniləşdirilməsinə tamaşa etmə cinayətindəyik.** Ə.Abasovu təxminən tanıdığım 20 ildən artıq müddətdə ona rəy və redaktə üçün təqdim olunmuş əsərlərdə müəlliflərin fikirlərinə dözümlü yanaşmasıının şahidi olmuşam. Əli müəllim yanlış olan fikirləri nə özü əsərdən çıxarır, nə də bunu müəllifdən tələb edir. Yanlışlıqları müəllifin diqqətinə çatdırmaqla kifayətlənir. Nəşrdən sonra müəllifə bilavasitə tənqidlərlə mövqeyini islah etməyə şərait yaradır ki, bu da Əli müəllimin elmi yaradıcılıqda tərbiyə metodudur. Onun rəhbərliyi və təşkilatçılığı ilə 56,5 çv, 904 səhifə həcmində kollektiv yaradıcılıq məhsulu "Milli fəlsəfə" (B., 2019) əsərinin yazılması və redaktəsində Əli müəllimin özünün bu ənənəvi metoduna çox həssaslıqla yanaşmasının şahidi oldum. Şöbəyə daxil olan əsərlərlə mən də tanış ola bilirdim. Bəzi əsərlərdə yanlışlıqlar olduğu üzə çıxdı. Bu zaman Əli müəllim bildirirdi ki, qarşımızda duran əsas məqsəd fəlsəfə tədqiqatçıları və fəlsəfəyə meyl edənlərdə real fəlsəfi düşüncəni aşkarlamaqdır, tapmaqdır. Reallığı müəyyənləşdirdikdən sonra yaşayacaq fəlsəfi ideyalar asanlıqla ictimai rəydən keçib həyata vəsiqə alacaq. Məhz real fəlsəfi durumu, fəlsəfi şüuru, fəlsəfi ruhu müəyyən etmək məqsədilə yazılmış əsərdə milli həyatımız üçün zəruri fəlsəfi ideyalar, milli mənəvi həyatımızın elementləri vardır ki, bunların zamanında qiymətləndirilməsi, mənimsənilməsi və inkişaf etdirilməsi vacibdir.

Sovet ziyalısının Azərbaycanda yaratdığı faciəvi vəziyyəti və ondan çıxış yolu haqqında Ə.Abasov yazır: "Dövrünə dözən sovet ziyalıları heç də xalqın milli inkişaf məsələlərini irəli sürməyə qadir ziyalısı ola bilmədi, o nə bədii, nədə fəlsəfi hərəkata başçılıq etmədi, o heç də siyasət dünyasına daxil ola və xalqı öz ardınca oraya apara bilmədi. Bizə "yeni" ziyalılar lazımdırmı və bu mümkündürmü? Ziyalıların tapşırığı "sadədir: "azərbaycanlılara dövlətçilik hissini, siyasətə marağını formalaşdırmalı, onları ailədən, həm də Azərbaycan milləti, həm də dövlətçiliyin formalaşması yalnız orada mümkün olan cəmiyyətə çıxarmalıdır (heç də qaçırmamalıdır). Deməli, cavab mənfidir, belə ki, köhnə ziyalılar sovet insanı dünyasının yoxluğa gedişi ilə birlikdə aradan çıxır. Görünür, qarşımızda əvvəlcə yeni ziyalılar elitasını formalaşdırmaq, sonra millətin əmələgəlmə məsələsi dayanır. Köhnə, əsrini yaşamış ziyalıların günahı – həyatdan "dönüklük", hər şeydən qapalılıq, həyat həqiqətindən davranış etiketləri arxasında gizlənmək cəhdləridir". O, şərhinə davam edərək yazır: "Gerçəkliyin "təhtəlşüuri" mənimsənilmə sahəsindən

ziddiyyətlərin dərk olunmuş dünyasına yüksəlmək lazım gəlir. Gerçəkliklə toqquşmalı, öz taleyinin gözlərinə dik baxmalı" (95, 41).

Milli həyatda fəlsəfənin zəruri yeri və rolunu nəzərə alıb millət idarəçiliyində olan məsul vəzifəli şəxslər, Azərbaycan elminə rəhbərlik edənlərin bu əsərlə tanış olması və rəy bildirməsi günümüzün vacib məsələlərindəndir.

İstər postsovet məkanında və istərsə də hazırda fəlsəfənin yüksək səviyyədə olduğu iddia edilən Avropada fəlsəfənin elm olmaması, gərəksizliyi də daxil olmaqla ona mahiyyətini ifadə etməyən o qədər mənalar verilmişdir ki, "Fəlsəfəni arzuolunmaz hala salmışdır" (10, 322), həqiqi fəlsəfənin nədən ibarət olmasını müəyyənləşdirmək çox da asan deyil. "Fəlsəfə arzuolunmaz hala salınmışdır. Bu da öz növbəsində yeni və ən yeni dövrdə insanın və cəmiyyətin böhranına gətirib çıxaran səbəblərin ən mühümüdür" (10, 320). Kölələikdən yenicə çıxmış xalqımızın milli mənəvi varisliyi bərpa etməsi, yaradıcılıq göstərib tarixi milli durumunu bərpa etməklə dünyanın elmi-texniki və b. sahələrdə qabaqcıl səviyyəyə qalxması həqiqi fəlsəfədən keçməsinin zəruriliyini görən Ə.Abasov bu əsəri nəşr olunduğu "Milli fəlsəfə" kimi yazılmasını nəzərdə tutmuşdu. Həqiqi fəlsəfənin mahiyyətini aşkarlamağı qarşıya əsas məqsəd olaraq qoyduğu üçün fəlsəfəyə əsas baxışlar kimi mövcud olan **fəlsəfə ilahi, bəşəri, yoxsa milli elmdir?** − kimi qoyurdu. **Hətta , fəlsəfə milli elm ola bilərmi?** − kimi mübahisəli qoyurdu. Bütün baxışlara eyni səviyyədə yer veriləcəyi bildirilirdi.

Əbülhəsən Abbasovun ön sözü, Əli Abasovun ön söz əvəzi yazıları istisna edilərsə, əsər 56 problem məqalədən ibarətdir. Müəlliflər Avrasiyada Azərbaycan, Ukrayna, Belarusiya, Rusiya, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Tatarıstan, Türkmənistan, Gürcüstan və Afrika qitəsindən Nigeriyanı təmsil edir. Fəlsəfənin mahiyyəti və funksiyasına həsr olunmuş bu əsər coğrafi cəhətdən geniş ərazini əhatə edir ki, onun çoxsaylı yaradıcı heyəti dünyanın böyük bir hissəsini fəlsəfə tədqiqatçılarının baxışlarını, ayrı-ayrı ölkələrdə fəlsəfi durumu ifadə edir ki, bu da AMEA Fəlsəfə İnstitutunun Elmi Şurasının təqdimatı ilə nəşr olunan "Milli fəlsəfə" (B., 2019) əsərinin tək ölkəmizdə deyil, dünya miqyasında fəlsəfəyə yeni müsbət reaksiya doğuracağına şübhə yeri qoymur. Mən bu əsərdə "Od fəlsəfəsinin ilkin vətəni Azərbaycan, Ş.C.Əfqani və M.Ə.Rəsulzadə" adlı 51 səhifə həcmində məqalə ilə çıxış etmişəm. Məqaləni yazmağa başlayarkən Azərbaycanın fəlsəfə tədqiqatçıları həmkarlarımın müstəqillik illərində yazdığı əsərlərin, xüsusilə klassik alman fəlsəfəsinin banisi G.V.Hegelin millətçiliyinin təsiri ilə milli fəlsəfə ideyasının təsiri altında idim. Odur ki, məqaləm konkret olaraq "fəlsəfə milli ola bilərmi?! adı altında yazirdım. Lakin **"elm həqiqəti ifadə edən fikirdir"**

kəlamı mənim üçün aksiom olduğundan, tədqiqatım prosesində dünyanın, bəşərin tarixi mənzərəsini, həqiqəti tapmaq məqsədilə izlədikcə fəlsəfənin zühuru, dünya miqyasında mənimsənilməsi və onun təsir gücü haqqında obyektiv bilgilərlə tanış olduqca, eyni zamanda fəlsəfənin peyğəmbəri Zərdüştün fəlsəfi kəlamları, XIX əsrdə Avropa filosoflarının fəlsəfəni müstəmləkə elminə çevirməsinə etiraz edən, böyük Azərbaycan filosofu, mütəfəkkiri, siyasi xadimi, İslam Şərq dünyasının böyük mümtazı kimi qiymətləndirilən Ş.C.Əfqaninin fəlsəfənin yeni, dərin, mükəmməl şərhləri ilə daha da inkişaf etdirən müddəaları, rus müstəmləkəçiliyinin təcavüzü altında tənəzzül etmiş türk və müsəlman xalqların fəlsəfi terapiyasını yaratmış M.Ə.Rəsulzadənin yaradıcılığını dərindən mənimsəmək məni “milli fəlsəfə” ideyasından soyuqqanlılıqla ayırdı. Mənim “Milli fəlsəfə” (B., 2019) monoqrafiyasında nəşr olunan, zahirən milli fəlsəfə təsiri bağışlayan məqaləmə, fəlsəfə tarixi olmaqla fəlsəfənin ilkin vətəninə aydınlıq gətirilir, fəlsəfənin şər-müstəmləkəçilik məqsədi ilə istifadə edilməsinin qarşısını almaq, Ş.C.Əfqani və M.Ə.Rəsulzadə onu daha da zənginləşdirmək, ilkin vətənində yenidən canlandırmaq və mənimsəməklə Şərq xalqlarını yenidən tərəqqi yoluna salmaq uğrunda mübarizədən bəhs olunur. Beləliklə, mən fəlsəfənin ilahi, bəşəri və ya milli elm olması haqqında mövqeyimi ortaya qoymaq üçün “milli fəlsəfə” yaratmaq zərurəti iddiasında olan həmkarlarımın ideyalarını əsaslandırmaq üçün göstərdikləri arqument və müddəaların nədən ibarət olmasını (“Milli fəlsəfə” (B., 2019) əsərinin nəşrini gözləməyə qərar verdim. Beləliklə, əlimizdə olan “Milli fəlsəfə” (B., 2019) əsəri postsovet məkanında milli fəlsəfə axtarışında, onun yaradılması zərurəti iddiasında olan fəlsəfə tədqiqatçılarının bir qrupunun arqumentlərini bizə təqdim edir. Azərbaycan üçün biz bunu bir qrup deyil, fəlsəfəni milli yaradıcılıq və inkişafın əsası hesab edən, fəlsəfə iddiasında olan, həqiqi fəlsəfəyə qovuşmağa can atanların mövqeyini – fəlsəfi mövqe adlandırırıq, çünki onlar fəlsəfənin cazibə qüvvəsindədirlər, orbitindədirlər (tədrisdə, elmi-tədqiqat mərkəzlərində qəzet, jurnal, rusiya şairlərindən köçürmələrlə gün keçirən onlarla elmlər doktoru, professor və akademiklərin elmi-fəlsəfi hüceyrə daşıyıcısı olmayan əşyalaşmış görüntüdən başqa bir şey olmaqığı aydın görünür). Onların fəlsəfə axtarışı, irəli sürdükləri müddəaların dərin fəlsəfi təhlili və müzakirəsinin xalqımızın itirdiyi milli mənəvi dəyərlərin, intellektual səviyyənin, nüfuzedici, yaradıcı, dərkedici fəlsəfi ruha qovuşduracağına heç bir şübhəmiz yoxdur. Artıq kommunist rus imperiyasının bizə filosof-fəlsəfə adına sırıdığı elmlər doktoru, professor və akademiklərin fəlsəfəyə aidliyi şübhə doğurmuş, xalqın bütün təbəqələrini əhatə etmədədir.

Fəlsəfə, varlığın bütün formalarının mövcudluq, doğuluş, tərəqqi, inkişaf, tənəzzül, bir haldan başqa hala keçmə (məhvolma) varlığın emprik səviyyədə görünməyən, bilinməyən qanunlarıdır. Tarixin müəyyən mərhələsində insan əcdadı özünüdərk edib, mənlik şüuruna yiyələnib, özünü təbiətdən ayırıb, ona qarşı qoyan və toplum olaraq başqalarından fərqləndirən, bu fərqin fasiləsiz qorunub yaşadılması zərurətini dərk etdiyi vaxtdan toplumlar mənəvi-sosial varlıq olaraq tarix səhnəsinə çıxır, varlığın bütün formalarını, birinci növbədə özünü və insanlığı dərk etməyə, qiymətləndirməyə can atır (31; 32; 26; 30).

Beləliklə, varlıq qanunları fəlsəfənin kəşfilə dərk olunur. Bu çağdan toplumlar fəlsəfəni mənimsəmə səviyyəsinə müvafiq inkişaf, həyat yolu keçirlər. İnkişaf, tərəqqi, tənəzzül keçirir, yaşayır, bəziləri ölüb tarix səhnəsindən çıxırlar.

İnsanlığın ilk dəfə mənlik şüuruna yiyələnməsi, yüksəlməsi Şərqdə baş vermiş, bunun ardınca o fəlsəfi dərketməyə nail olmuş, buna uyğun mənəvi-sosial həyat yaşayır, bəşəriyyətin ilk mənəvi dəyərlərini, elmi-fəlsəfi kəşfləri ilə intellektini, sivilizasiyalarını yaradır, XVIII əsrə kimi yüksələn xətlə inkişaf edir. Nəhayət, Şərq qocalır, yorulur. XVIII əsrdən Şərqdə elm − fəlsəfə, mənəvi-sosial həyat durğunluq keçirdiyi bir vaxtda Qərbi Avropada elm və fəlsəfə guya sponton inkişaf etdi. Qərbi Avropada elm və fəlsəfənin guya sponton inkişafı heç də özlərinin hind-avropa nəzəriyyəsində uydurduqları genetik istedadları ilə bağlı deyil, onlarda belə bir əlahiddə gen yoxdur, Hegelin müqəddəs "od fəlsəfəsi"ndən sapınması, "Mütləq ruhun" Avropada doğması da deyil, xaç müharibələrinin məğlubiyyətindən doğan qisasçılıq, uzun illər Şərqin nizamlı qaynar həyatına həsəd, ona çatmaq üçün Şərqdən fasiləsiz oğurladıqları elm və fəlsəfənin Şərqin durğunluğu dövründə modernləşdirilməsi idi ki, bu da Avropada elm və fəlsəfənin sponton inkişafı kimi görünürdü. Sonralar avropalıların dünyada elmə və fəlsəfəyə qabil, yaradıcı xalq olması, irqçilik kimi təbliğ olundu.

Avropada da, hətta rusiyada da hərdən həqiqəti etiraf edən, deyən alim və filosofa rast gəlinir. Rus sovet tarixçisi S.Smirnovun dedikləri həqiqətin ifadəsi üçün çox qiymətlidir. O, yazır ki, XV yüzillikdə Asiya və Avropada yeni ictimai qüvvələrin təsir və təzyiqindən həyat coşub qaynayırdı. Hər yerdən qaynar olan və Avropa ilə qovuşuqda dayanan Türkiyədə isə "Osmanlı möcüzəsi" çiçəkləyirdi. Qərb "Osmanlı nizamından özünə lazım olandan nəyi götürəcəyini böyük bir fəallıqla öyrənirdi. Başqa bir yandan da əsasən Şərq dini, ictimai-fəlsəfi, ədəbi-bədii fikri, hərbi-siyasi ruhu Avropaya daxil olmuş, bunun təsirindən çalxalanan bir qüvvə yaranmışdır. Bir yandan Şərq

Avropaya girib özünü tanıdır, digər tərəfdən Şərqin təsir və təzyiqindən çalxalanıb oyanan Avropa Şərqi ya həvəslə, ya da məcburiyyətdə qalaraq öyrənirdi. Avropada Şərqin əsas "təmsilçisi" Osmanlı imperiyası Avropadan elə bir şey öyrənmir (öyrənməli bir şey yox idi), ara-sıra Venetsiya, Florensiya, ümumiyyətlə, İtaliya və Macar sənətkarlarından muzdla istifadə edir, türk sultan, vəzir və əmirləri avropalı rəssam, zərgər, sənətkar, arada hətta şair və alimləri öz saraylarında himayə altına alırdılar. Osmanlı nizam-intizamı, qayda-qanunu, "orta əsr adamının anlayışı ilə o vaxtadək görünməmiş sərbəstlik avropalıları heyrətə gətirir, hətta Avropa xristianları "Osmanlı imperiyasında yaşayan dindaşlarına həsəd aparırdı" (64, 151-152).

Yuxarıda çox incəliklə təsvir olunduğu kimi, elmi və fəlsəfəni Şərq İslam dünyasından hazır qəbul edən Avropa onu öz xalqının həyatına tətbiq etməklə sürətlə tərəqqiyə və inkişafa nail oldu. Bu üstünlüyündən istifadə edib durğunluq dövrünü keçirmədə olan bütün Şərqi əsarətə saldı. **Bu işdə Avropa xalqlarının psixoloji üstünlüyünü yaratmaq, onları daima səfərbəredici vəziyyətdə saxlamaq üçün onların irsən elmə və fəlsəfəyə malik olmaqla ali irq, mədəniləşdirici xalq olması haqqında xüsusi "nəzəriyyə" yaratdılar. Şərq, xüsusən müsəlman xalqların elmə, fəlsəfəyə, yaradıcılığa qabil olmayan xalqlar kimi, hətta özlərini öz gözlərindən salmaq səviyyəsində alçaltmağa, bəşəriyyətin təbii kölələri kimi, aşağı keyfiyyətli kimi şüurlara yeritdilər.** Xalqların tarixini öz müstəmləkəçilik siyasətlərinin həyata keçirilməsinə müvafiq, onların əsarətdə saxlanmasının ideoloji sistemi kimi uydurdular. Dünya xalqlarının tarixini baş-ayaq qoyaraq, onları mənəvi yaddaşdan məhrum edərək təkrar milli mənlik şüurunun, elmin və fəlsəfənin yaranmasına, mənimsənilməsinə imkan vermədilər. Elmi və fəlsəfəni müstəmləkəçilik alətinə, xalqları əsarətə salma və kölələşdirmə vasitəsinə çevirdilər. Beləliklə, **yaxşı və pis fəlsəfə anlayşları da elə bu dövrdən yaranmağa başladı.**

Tarixdə, məxsusi milli tariximizdə mənəvi durğunluq olubmu, onun fəlsəfə ilə bağlılığı nə dərəcədə olmuşdur, necə olmuşdur məsələsinə qısa ekskurs edək.

"Azadlıq maskası taxmış Avropa"nın Şərq, xüsusən müsəlman xalqların elmə və fəlsəfəyə qabil olmayan xalq kimi dünya xalqlarının, hətta özlərinin öz gözlərindən salınması səviyyəsində milli-mənəvi alçaltmaya məruz qoyması, ifrat müstəmləkəçilik siyasətinin əsassızlığını sübut etmək, elmin və fəlsəfənin mahiyyətini, dünya xalqlarının həyatında yaşama, zaman-zaman bir xalqdan digərinə keçməsi qanunauyğunluğunu, elm və fəlsəfəni müstəmləkəçilik alətinə çevirmiş Avropa alim və filosoflarının diqqətinə çatdırmaq

üçün “Böyük bir şərqli”, “Müsəlman dünyasının mümtaz siması” Azərbaycan türkü Ş.C.Əfqani Avropaya gedir. Avropada antislam ideologiyasına fransız filosofu Ernst Renan başçılıq edirdi. Ş.C.Əfqani onunla görüşür, Parisdə İslam dini və mədəniyyətinə həsr olunmuş konfransın təşkilinə nail olur. Konfransda ilkin olaraq E.Renan çıxış edir. O, nitqinin sonunda bildirir ki, “hər halda İslam fəlsəfəsi deyilən yunan fəlsəfəsinin tör-töküntüsündən başqa bir şey deyildir və heç kəs onlara müraciət edib faydalanmayıb” (48, 52).

Ş.C.Əfqani Renanın dediklərini şərh edərək cavab verib bildirir: “Mənşələri etibarı ilə cahil və vəhşi olan ərəblər mədəni millətlər tərəfindən tərk edilən elmləri ələ aldılar və sönmüş olan elm ocaqlarını yenidən canlandırdılar, inkişaf etdirdilər və ona heç bir zaman olmayan parlaqlıq bəxş etdilər. Bu hərəkət ərəblərdə elmə qarşı olan təbii eşqlərinin bir işarəsi və dəlili deyildirdmi?”

Şərhinə davam edən Ş.C.Əfqani deyir: “Yüz illər boyunca mədəniyyət yoluna atılmış yunanlar və romalılar elmin və fəlsəfənin geniş sahəsində inamlı addımlarla irəliləmişlər. Bununla bərabər, bir zaman gəldi ki, onlar da elmi araşdırmalar tərk edildi və elmi incələmələr kəsildi. Elm sahəsində yaratdıqları abidələr yıxıldı və ən dəyərli kitablar unuduldu”. O zaman “fransızlar, almanlar və ingilislər, mərkəzi Bağdad olan ərəblər kimi Roma və Bizansdan çox uzaqda deyildilər. Onlar üçün bu iki böyük şəhərdə yaranmış olan elmi xəzinələrdən faydalanmaq daha asan idi. Ərəb mədəniyyəti Pireney tərəflərinə və Qərbə öz parlaq işıqlarını və zənginliklərini saçan günə qədər Avropa millətləri (yəni fransızlar, almanlar və ingilislər (çevrənin notu) mədəniyyət sahəsində heç bir fəaliyyət göstərməmişlər.

Avropalılar Aristoteli ərəb paltarında çox yaxşı qarşılamışdılar. Halbuki onlar yunanlarla qonşu olduqları zaman heç Aristotel yadlarına da düşmürdü” (3, 51-52).

Fəlsəfənin funksiyasından bəhs edən Ş.C.Əfqani yazır: “Fəlsəfə insan əxlaqını müəyyənləşdirən elmdir, fəlsəfə dünya mədəniyyətinin əsasıdır” (3, 25). **“Mənən tənəzzülə uğrayan xalqın, millətin hər şeydən əvvəl fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmləri və ədəb-ərkan qaydaları tamam yox olub aradan gedir...**

**Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər inkişaf tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər.** Osmanlı dövləti, eləcə də Misir 60 ildir ki, elmlərin təlimi üçün məktəblər açmışdır və hələ də ondan bir xeyir görməmişdir. **Səbəb aydındır, çünki o məktəblərdə fəlsəfə tədris olun-**

**mur və fəlsəfə ruhu olmaqığından lazımi nəticə də alınmamışdır. Sözsüz, əgər bu 60 ildə həmin məktəblərdə fəlsəfə tədris olunsaydı, onlar firəng ölkəsinə ehtiyac duymazdılar və özləri ölkələrinin islahı üçün çalışardılar". Şərhinə davam edən Ş.C.Əfqani yazır: "Deyə bilərəm ki, fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasa da, şübhəsiz həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək. İslamın ilk dövründə müsəlmanlar (ərəblər − X.X) heç bir elmə malik deyildilər. Ancaq İslam dəyanəti ucundan onlarda əmələ gələn fəlsəfi ruh vasitəsi ilə dünya və insan haqqında mübahisələrə başladılar"** (3, 29-30).

"... Bütün var-dövlət, sərvət əsasən elmin məhsuludur. Dünya elm üstündə bərqərar olur" − deyən Ş.C.Əfqani tarixə ekskurs edərək göstərir ki, qədim dövrdə Kəlladilərin hind və tatar sərhədlərinə gəlib çatan Semiramisi kimi fatehləri, öz ölkəsinin sərhədlərini genişləndirən misirliləri, öz balaca gəmiləri ilə Britaniya, İspaniya, Portuqaliya və Yunanıstanı öz müstəmləkəsinə çevirən finikiyalıları götürün, yeni dövrdə bütün dünyanı öz təsiri altında saxlayan Avropanı, Əfqanıstanı tutan ingilisi, Tunisi işğal edən Fransanı götürün, bütün bunlar bu xalqların elminin hünəridir. Elm bir nəfərin gücünü on nəfərə, yüz nəfərə, min nəfərə və on min nəfərə bərabər edir" (48, 196-197).

Şərhinə davam edən böyük mütəfəkkir yazır ki, fizika, kimya, həndəsə, hesab, iqtisadiyyat, kənd təsərrüfatı elmləri olmadan sənaye və kənd təsərrüfatı qurula bilməz. "Yaxşı diqqət etsək, görərik ki, bu elmlərin hər birinin mövzusu ümumi elmin bədəni üçün bir üzv kimidir və bunların heç biri ayrı-ayrılıqda yaşaya bilməz və bəşəriyyətə xeyir də verə bilməz. Bu elmlərin hər biri başqa bir elmə bağlıdır. Hesab və həndəsə kimi elmlərin bir-birinə qarşılıqlı ehtiyacı onların özündə anlaşılmır. Tənha qalan elmdə heç bir tərəqqi və inkişaf ola bilməz. Deməli, elə bir elm gərəkdir ki, bütün elmlərin ümumi ruhu kimi olsun və onların hər birini qoruyub saxlasın, onların hər birinin tərəqqi və inkişafına zəmin yaratsın. **Bu, fəlsəfə elmidir**" (48, 196-197).

Ş.C.Əfqani avropa mərkəzçilərin, avropalıların genetik elmə qabil, Şərq xalqlarının elmi yaradıcılığa yarasızlığı haqqında irqçilik nəzəriyyəsini, İslam Şərq dünyasında dini liderlərin elmin, fəlsəfənin inkişafına ziyan vuran − əslində cahillik olan − elmin müsəlman elmi (ilahi elm) və Avropa elminə (dünyəvi elmə) bölünməsinə aydınlıq gətirmək üçün tarixə ekskurs edərək, problemi geniş şərh edərək yazır: "Qəribə burasıdır ki, bizim alimlər elmi iki yerə bölmüşlər: Müsəlman elmləri və Avropa elmləri. Buna görə də onlar camaatı xeyirli elmlərin mənimsənilməsindən çəkindirirlər. **Onlar başa**

**düşmürlər ki, şərafətli elm heç bir millətin malı deyil, kim ona yiyələnsə onundur, elmin yiyəsi alimdir, ölçüsü də onun elmliyindən asılıdır... Dünyanın hər yerində həqiqi hökmdar olan elm ancaq vaxtaşırı öz paytaxtını dəyişmiş, gah Məşriqdən Məğribə, gah da Məğribdən Məşriqə getmişdir”** (3, 27, 32).

“Dünya elm üstündə bərqərar olur. Elmi bəşəriyyətin əlindən alsan, daha dünyada insan qalmaz” − Belə böyük yaradıcı gücə malik elm bu keyfiyyət üçün fəlsəfəyə möhtacdır. Fəlsəfə bütün elmlərin ümumi ruhu, onların hər birini qoruyub saxlayan, onların hər birinin tərəqqi və inkişafına zəmin yaradandır” (3, 29).

Göründüyü kimi, Ş.C.Əfqani fəlsəfəni bütün bəşəriyyətin, onun yaradıcı qüvvələrinin yaradıcı əsası kimi qiymətləndirir.

Biz Ş.C.Əfqaninin fəlsəfə haqqında müddəalarını diqqətə çatdırdıq. O, XIX − XX əsr dil və dinindən asılı olmayaraq cahil İslam din başçılarının və Avropa müstəmləkəçilərinin mənlik şüurunu məhv edib, milli-mənəvi varisliyni məhv etdiyi, kölələşdirib əsarətdə saxladığı xalqların milli mənəviyyatını ilkin təməl əsaslarla bərpa edib, mənəvi dəyərlər, intellektual səviyyəsini yenidən qurub, elə bu zəmində pozulmuş mentalitetini də bərpa etməklə, mənlik şüuruna malik xalq səviyyəsinə yüksəlmək, fəlsəfi ideyalar zəminində istiqlal ideologiyası yaradıb bu əsasda müstəqilliklərinin, azadlıqlarının bərpası haqqında fəlsəfi nəzəriyyənin və metodun yaradıcısıdır (ətraflı bax: 3; 48).

Ş.C.Əfqaninin istiqlal fəlsəfəsini Azərbaycan türklərinin durumuna müvafiq yenidən işləyən M.Ə.Rəsulzadə yaratdığı azadlıq ideologiyasını xalqa aşılamaqla, onun milli mənlik şüurunu bərpa etməklə milli-azadlıq hərəkatına sövq etdi, azadlığına, müstəqil dövlətçiliyinə nail oldu.

Dövlət çevrilişi ilə hakimiyyətə gələn rus bolşevikləri çox amansızlıqla keçmiş rus imperiyasını bərpa etdilər, bütün varlığı dövründə milli mənəviyyatın bütün daşıyıcıları və görüntüləri, mənlik şüuru öldürüldü, mənəvi varisliyi təməlindən ayrıldı.

Böyük alman mütəfəkkiri K.Yaspers yazır: “Yeni sahibliyə alınan şey başqa bir indi üçün yenidən doğulur. Yalnız anlama və təhsilliliyin yalançı tarixiliyi təkrarlanma əzmidir, həqiqi tarixiliksə hər bir həyatı, deməli, həm də indiki həyatı qidalandıran qaynağı tapmağa hazır olmalıdır. Onda müəyyən bir plan nəzəriyyəsiz əsl mənimsəmə ortaya çıxır; xatirədə hansı reallaşdırıcı qüvvənin yaşadığını öncədən görmək mümkün deyil. Tarix keçmişindən, varisi olduğu milli-mənəvi mədəniyyətdən qırılma yarandığı bu günkü vəziyyət şüurlu surətdə bu xatirənin imkanına müraciət etməyi tələb edir.

Çünki onu məhv etməklə insan özünü də məhv edir (40, 500-501). Böyük mütəfəkkir bu sözləri sanki Azərbaycan xalqı üçün demişdir.

Milli-mənəvi varisliyin qırılması, fəlsəfi təfəkkürün məhv olmasının nəticəsidir ki, Azərbaycan xalqı 30 ildir ki, müstəqillik qazansa da, milli iradə nümayiş etdirib yaradıcılıq göstərə bilmir. Kommunist rus imperiyasının xalqımıza yetişdirdiyi yüzlərlə fəlsəfə tədqiqatçılarından yalnız bir neçə nəfər milli-mənəvi boşluğu doldurmağın xalqda fəlsəfə təfəkkürü bərpa zərurətini anladı və milli fəlsəfə axtarışına düşdü. Əsərlərində xalqımızda fəlsəfə yoxluğu haqqında ilk həyəcan təbili çalan AMEA-nın müxbir üzvü S.Xəlilov yazır: "Təəssüf ki, bu gün Azərbaycanda **fəlsəfəsiz yaşamaq** az qala normaya çevrilmişdir. "Bizdə fəlsəfə yoxdur, filosof yoxdur" fikri az qala fəxrlə söylənilir və fəlsəfəsiz həyatın əslində bizə nə kimi bir aqibət hazırladığı barədə heç düşünülmür də" (13, 17) − deyərək milli fəlsəfə yaradılması zərurətini irəli sürür. Baxmayaq ki, o, bir əsərində "fəlsəfə elmlə müqayisədə milliliyi, sənətlə müqayisədə ümumbəşəriliyi ilə fərqlənir" (13, 86); digər əsərində isə " bütün milli özünəməxsusluq imkanlarına baxmayaraq fəlsəfə əsasən ümumbəşəri səciyyə daşıyır" (39, 33) yazsa da, milli fəlsəfə yaradılması zərurətindən bəhs edərək yazır:

"... Hər bir fərdin öz dünyası olduğu kimi, öz fəlsəfəsi də var. Müxtəlif fərdlərin fəlsəfəsini yığıb, vahid ortaq məxrəcə gətirmək mümkün deyil. Daha doğrusu, fəlsəfənin özünəməxsus toplama qaydaları vardır. Bu qaydalar elmi biliklərin toplanması və sənət əsərlərinin, bədii təəssüratlarının toplanmasından fərqlidir. Milli fəlsəfi fikri onun hər bir üzvünün fəlsəfi fikrindən toplanmayaraq, **milləti təmsil etmək səlahiyyəti olan, milli ruhun daşıyıcısı olan, milli özünüdərk baryerini keçmiş olan tək-tək şəxsiyyətlərin – filosofların fəlsəfi konsepsiyalarından, bu konsepsiyaların şəbəkəsindən ibarətdir"** (13, 91).

S.Xəlilov şərhinə davam edərək yazır: **"Milli fəlsəfi fikir anlayışının məğzində millətin düşüncə tərzi, milli mentalitet, milli ideallar və bu ideallara çatmaq uğrunda mübarizənin ideya əsasları dayanır.** Keçmişimizdən bizə miras qalmış ən böyük sərvət fəlsəfi traktatlardan öncə yeni nəslin özüdür. Müasir azərbaycanlı milli fəlsəfi fikrin genetik daşıyıcısıdır. **Fəlsəfə elmdən ayrı olaraq heç də biliklər sistemi olmayıb, insanın dünyabaxışının müəyyən üsulu, dünyanın modelləşdirilməsi, insanla dünya arasında, millətlə dünya arasında körpüdür** (13, 93).

O, milli anlayışın aydın, dəqiq ifadəsinin şərhini vacib hesab edərək yazır: "Milli" anlayışı iki fərqli məzmun yükünə malikdir. **Birincisi, hər bir**

**millət üçün spesifik olan, onu fərqləndirən xüsusiyyətləri, ikincisi, fərqli cəhətlə ümumi cəhətlərin vəhdətini ehtiva edir**" (13, 85).

Müəllif şərhinə davam edərək yazır: **"Əvvəlcə milli ideologiya lazımdır. Və bu ideologiyanın da əsasında milli fəlsəfi fikir dayanmalıdır"** (13, 87).

**"Milli fəlsəfi fikir milli ruhun nəzəri-konseptual şərhidir"** (13, 93).

S.Xəlilovun milli fəlsəfənin yaranması haqqında son mülahizəsi belədir: **"Milli fəlsəfi fikir millətin özünüdərk mərhələsində üzə çıxır. Bu isə heç də bütün millətlərə nəsib olmur. Bu baxımdan "millət" anlayışını etnosdan fərqləndirən əlamətlərdən biri məhz milli-etnik təfəkkürlə milli-siyasi təfəkkürün vəhdətindən doğan milli-fəlsəfi fikrin formalaşmasıdır"** (13, 98).

Yuxarıda S.Xəlilovdan gətirdiyimiz iqtibaslardan göründüyü kimi, onun milli fəlsəfə yaratmaq yolunda irəli sürdüyü mülahizələrin hamısı bir-birini təkzib edir. Getmək istədiyi yolu haradan başlayıb, haradan keçəcəyini müəyyənləşdirə bilmir. Milli fəlsəfə yaradılmasını əsaslandırmaq üçün Ş. C.Əfqaninin yuxarıda istinad etdiyimiz müddəasına istinad edir ki, mətndən göründüyü kimi, bu yanaşma Ş.C.Əfqaninin təhrifindən başqa bir şey deyildir. Mülahizəmizin təsdiqi üçün Ş.C.Əfqaninin bu müddəalarını təkrar etməyə ehtiyac duyuruq: "Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər. Osmanlı dövləti, eləcə də Misir 60 ildir ki, elmlərin təlimi üçün məktəblər açmışdır və hələ də ondan bir xeyir götürülməmişdir. Səbəb aydındır, çünki **o məktəblərdə fəlsəfə tədris olunmur və fəlsəfə ruhu olmaqığından lazımi nəticə də alınmamışdır"** (3, 29; 13, 102).

Mətndən göründüyü kimi, söhbət milli fəlsəfədən, milli fəlsəfi ruhdan deyil, fəlsəfədən və fəlsəfi ruhdan gedir. Maraqlıdır "Milli fəlsəfə" (B., 2019) monoqrafiyasında azərbaycanlı tədqiqatçıların ən çox istinad etdikləri fəlsəfə tədqiqatçısı S.Xəlilovdur. Təbii ki, bu, onun problemdən ən çox bəhs etməsi, bu məsələyə iri həcmli monoqrafiyalar həsr etməsi ilə bağlıdır. Lakin təəssüf doğuran odur ki, onun əsərindən istifadə edən müəlliflərin heç biri ona tənqidi yanaşa bilmir, istifadə etdikləri fikirlərin mənbəyini göstərmir, bəzi müəlliflər də fikri ondan götürür, başqa müəlliflərə iqtibas edirlər.

Milli fəlsəfə yaradılması ideyasında S.Xəlilova söykənən müəlliflərin onun hansı mülahizəsində nə üçün haqlı olduğunu və ya hansı müddəasında yanlışlığa yol verdiyini göstərməməsi, onların fəlsəfi təfəkkürə malik olmadıqlarından fəlsəfi cəsarət göstərə bilməmələrinin nəticəsidir. Onunla hər

hansı polemika, onu haqlı tənqidə məruz qoymaq S.Xəlilovun şəxsiyyətinə və elmi nüfuzuna xələl gətirməz. Onun Azərbaycanda "Fəlsəfənin yoxluğu" haqqında həyəcanlı çıxışı və milli fəlsəfə yaratmaq təşəbbüsü, bu sahədə irəli sürdüyü mülahizələrin nə dərəcədə həqiqəti ifadə etməsindən asılı olmayaraq onu Azərbaycan fəlsəfi fikir tarixində yaşadacaq. Onunla bu mövzuda açılmış hər hansı polemika Azərbaycanda fəlsəfi təfəkkürü canlandırmağa, onun mülahizələrinin reallaşmasına yardımçı olardı.

"Milli fəlsəfə" (B., 2019) monoqrafiyasında milli fəlsəfə yaradılması ideyasına dəstək verən müəlliflərdən biri Əlikram Tağıyevdir. O, monoqrafiyada "Milli fəlsəfə, maarifçilik və milli kimlik problemi" adlı məqaləsi ilə mülahizəyə yardımçı olmuşdur. Onun məqaləsindən bilavasitə milli fəlsəfə yaratmaq müddəası ilə bağlı mülahizələrini qısaca xülasə edirik. Ə.Tağıyev yazır: "Fəlsəfə... ümumbəşəri dəyərlərin və sərvətlərin məcmusudur. Bunları xalqların mifologiyasından, mədəniyyət tarixindən aşkarlamaq mümkündür. **Dünyagörüş kimi fəlsəfə də özünü millətin ideyasında, mentalitetində, fikirlərində, xarakterində göstərə bilər.** Necə deyərlər, millət necədirsə, fəlsəfəsi də elədir (Fixte). Görünür, "milli fəlsəfə" terminini işlədnlər elə məhz bunu nəzərdə tuturlar. Yəni millətin amalı və inamı nəyə əsaslanır, onun dünyaya, başqalarına münasibətini nə müəyyən edir, dünyagörüşünün əsasında nə durur, ruhunu və nəbzini nə ilə ölçmək, müqayisə etmək olar" (65, 593) yazır, bunun ardınca Z.Göyalpın "Türkçülüyün əsasları" kitabındakı milli fəlsəfə haqqında mülahizəsini və Ş.C.Əfqaniyə söykənişini təqdim etdikdən sonra yazır: "**Yuxarıda misal gətirdiyimiz bütün iqtibaslarda "milli fəlsəfə" məhz "milli ideya", "milli inam", hətta "milli ruh" və "milli ideologiya" mənalarını verir.** Professor Z.Quluzadə çox haqlı olaraq yazır: "Humanitar elmlər tələblərinə görə tarixən ideologiya ilə üzvi surətdə bağlı olaraq müəyyən mənada onu ehtiva edirlər. Xalqların milli ideologiyaları onların fəlsəfəsi, ədəbiyyatı, mənəvi mədəniyyətindən ayrı mövcud olmayıb və əksinə, bu bağlılıq onların obyektiv, universal mövcudiyyət qanunauyğunluğu olaraq qəbul edilmişdi".

Ə.Tağıyev şərhinə davam edərək yazır: **Ümumiyyətlə, milli fəlsəfənin yaradılmasının zəruriliyini qeyd edənlər nədənsə onun özünün nədən ibarət olduğundan, predmetindən, kateqoriyaları, qanunları, əsas anlayışlar və metodundan heç də söhbət açmırlar, amma onun mövcudluğunun zəruriliyini daim vurğulayırlar** (65, 593-594).

Ə.Tağıyevin fəlsəfənin və milli fəlsəfənin mahiyyəti haqqında dediklər ziddiyyətləri nəzərə almasaq, onun milli fəlsəfə haqqında Z.Göyalpın, S.Xəlilovun və Z.Quluzadənin milli fəlsəfə haqqında mülahizələrini qəbul

etdiyini bildirdikdən sonra yazır: "Əgər fəlsəfənin tərifində "insan" sözünü "millət" sözü ilə əvəz etsək, onda belə məlum olur ki, fəlsəfə − millətin dünya və özünə münasibətini aydınlaşdıran bir elmdir və yaxud biliklər sistemidir. Deməli, dünyada nə qədər millət varsa, bir o qədər də fəlsəfə növləri olmalıdır. Bəs elə isə mövcud fəlsəfi cərəyanlar, məktəblər necə olsun, yaxud elə bəlkə onları da müəyyən bir millilik donuna və qəlibinə salaq? Bu isə qeyri-mümkündür" yazaraq milli fəlsəfə yaradılması ideyasına qarşı ciddi arqumentlər irəli sürsə də, bu işi "qeyri-mümkün" kimi qiymətləndirsə də, axara düşərək, Z.Göyalp, S.Xəlilov, Z.Quluzadə və başqalarını təkrarlayaraq yazır: **"Milli fəlsəfə – etnik mənada başa düşülən milli ideologiyadır. Çünki milli ideologiyanın digər bir mənası da var, yəni dövlət ideologiyası, başqa sözlə desək, azərbaycançılıq, etnik mənada isə onu türkçülük kimi başa düşmək lazımdır. Milli fəlsəfədə türkçülüklə azərbaycançılıq birləşir, yəni milli ideya ilə milli ideologiya burada bir vəhdət halına gəlir. Millətin fəlsəfəsi onun – milli şüuru, mentaliteti və xarakteridir.** Əgər millətdə bu xüsusiyyətlər yoxdursa, o millət xalqların fəlsəfəsini nə dərk edə bilər, nə də həzm. Yəni millətin dünya fəlsəfəsi fikrini qavraması üçün onun müəyyən hazırlıq səviyyəsi olmalıdır. Əgər bu yoxdursa, onda milli fəlsəfədən danışmağa dəyməz. Milli ruh, milli fəlsəfə ümumbəşəri dəyərləri başa düşməyə və milli zəmində onu reallaşdırmağa bir açar vermiş olur. Millətin ruhu, onun ideyası bu fəlsəfi irsi özününkü etməyə, özününkü ilə zənginləşdirməyə şərait yaradır, dünya ilə özü arasında ötürücülük rolunu oynayır, bu körpü olmaq missiyasını öz üzərinə götürür" (65, 594-595).

**Azərbaycanda milli fəlsəfə yaradılmasının əsas təşəbbüsçülərindən biri fəlsəfədə öz dəsti-xətti olan Əbülhəsən Abbasovdur.** Ardıcıl Azərbaycan xalqının milli fəlsəfəsini yaratmaq ideyası ilə çıxış edən, bu ideyanın reallaşmasında göstərdiyi fəallığa görə "Milli fəlsəfə" (B., 2019) monoqrafiyasında "Ön söz"ün müəllifi olmuş, həmçinin monoqrafiyada "Yeniləşən dünyada fəlsəfənin missiyası" adlı məqalə ilə çıxış etmişdir. O, millilikə fəlsəfənin münasibəti haqqında yazır: "Millilik, xüsusən siyasət və idarəetmədə, yalnız dərin fəlsəfi təqdimatda gözəldir və xeyirə işləyir. Fəlsəfi dərketmədən keçməyən, fəlsəfə tərəfindən yoğrulmamış milliliyin olmasından olmaması yaxşıdır. Fəlsəfəsiz millilik kal, cır, cılız, özündən müştəbeh olur. Həqiqi qərarlaşma bloklarının, sütun və nöqtələrinin yoxluğu səbəbindən belə millilik daxili tarazlıqdan, harmoniyadan məhrum olur, qeyri-adekvat, zəruri norma və ölçülərlə hesablaşa bilməyən fəaliyyətin mənbəyinə çevrilir. Aydındır ki, bu cür millilik, siyasətə və idarəetməyə gətirilərsə, böyük fəsadların, hətta fəlakətlərin baş verməsinə səbəb olar. Tarix dəfələrlə bunu

sübut edib. Anoloji qənaətləri biz din və fəlsəfə münasibətləri barədə söyləyə bilərik. Fəlsəfəsiz din, son nəticədə, fanatizmə, cəhalətə, tənəzzülə aparır" (66, 12).

Ə.Abbasovun xüsusi vurğuladığı tarix dəfələrlə bunu sübut etdiyi, onun bu mülahizəsi aksiomaya çevrilib mənəvi-siyasi tənəzzüldən çıxmağa can atan azərbaycanlıların əsarətə və müəyyən səbəblərdən tənəzzülə məruz qalmış xalqların şüuruna, təfəkkürünə hakim olmalıdır.

Ə.Abbasov milliliyə münasibətini şərh edərək yazır: **"Xüsusi sübuta ehtiyacı olmayan bir həyati həqiqət var: milliliyi olmayan adam özünə hökm edərək kamilləşə bilməz, onun sosiallaşması durmadan artan qüsurlar vektoru üzrə cərəyan edər. Özünə hökm etməyi bacarmayan başqalarına da hökm etməkdə, təsir göstərməkdə aciz qalar" − göründüyü kimi, tarixdən süzülüb doğmuş bir aksiomadır.**

Ə.Abbasov şərhini belə davam etdirir: "Fəlsəfə də belədir. Məsələn, Hegel fəlsəfəsi ona görə böyük təsir gücünə malikdir və bəşəri əhəmiyyətlidir ki, onun yaradıcısı və **bu fəlsəfənin özü alman milliliyinin, alman ruhunun müfəssəl parlaq ifadəsidir.** Belə fəlsəfənin hökmdarların və yaxud hansısa siyasi düşərgənin köməyinə, sədəqəsinə, uzatdıqları qoltuq ağacına ehtiyacı olmur. Əsl fəlsəfənin qüdtəri Herkulesin dəmir əmudunun gücündən üstün olur" (66, 11).

Ə.Abbasovun fəlsəfə haqqında dedikləri tarixin dəfələrlə sübut etdiyi bir həqiqətdir. "Alman milliliyi" və Hegel fəlsəfəsi haqqında avropalıların bilərəkdən üstündən sükutla keçdikləri, müasir Azərbaycan tədqiqatçılarının Hegelin nüfuzu qarşısında görə bilmədikləri, nəzərdən qaçırdıqları, reallığı, həqiqəti ifadə etməyən müddəalar var ki, bunun üzərində aşağıda xüsusi dayanacağıq.

Oxucunu birbaşa fələfənin mahiyyətinə yönəltmək istəyən Ə. Abbasov yazır: "Fəlsəfənin müəyyənediciliyini və ona xüsusi diqqətin vacibliyini nədə görürəm? − deyərək mülahizələrini aşağıdakı kimi təqdim edir: "Birinci, ümumbəşəri problemlər, ilk növbədə, elə təyinatına və miqyasına uyğun olaraq universal təbiətli, inteqrativ gücə və ümumiləşdirmə qabiliyyətinə qadir FƏLSƏFƏ-nin maraq və tədqiqat obyektidir.

İkincisi, nəzərə alsaq ki, bir-biri ilə çarpazlaşan yuxarıda işarələdiyim ümumdünya problemlərinin həlli, ilk öncə, dalana dirəniş RUH-un yenidən özünü tapması və dirçəlişi ilə bağlıdır, fəlsəfənin əvəzolunmaz rolu daha aydın dərk olunar. Belə ki, məhz fəlsəfə ruhun intibahını təmin edə biləcək elmi refleksiya zirvəsidir və bu həqiqəti də tarixin özü dəfələrlə təsdiqləyib. **Qüd-**

**rətli fəlsəfə olmayan məkanda ruhun sönməsi və ardınca mənəviyyatın, insani dəyərlərin aşınması qaçılmazdır.**

Üçüncüsü, bir halda ki, həmin problemlərin başlıca hədəfi bu gün və gələcək üçün yeni nizam, qayda-qanun yaratmaqdır, deməli, yenə də fəlsəfənin fəal müdaxiləsi və iştirakı labüddür, çünki, nizamyaradıcılıq, birgə fəaliyyət mədəniyyətini formalaşdırmaq, həyatın bütün sahələri üzrə rasional hazırlığa və səmərəli əməkdaşlığa əsas yaradan "ölçü"nü tanıtmaq − aşılamaq, bu "ölçü"nü təfəkkürün və əməlin tənzimləyicisinə çevirmək bilavasitə fəlsəfənin missiyasıdır.

Nəhayət, dördüncüsü − yalnız fəlsəfə dünya problemlərinin həllinə yönəlmiş ümumelmi səyləri, multidissiplenar cəhdləri vahid və məhsuldar məcrada birləşdirə, elmlər və digər faktlar arasında yaradıcı mübadiləni, dialoqu, qarşılıqlı bəhrə verən əməkdaşlığı yüksək səviyyədə təmin edə bilər. İstər nəzəri, istərsə də praktiki fəaliyyətdə "ümumi məxrəc"ə aparan yol fəlsəfədən keçir. Ali hədəflərə istiqamətlənmiş inteqrallaşdırma gücü və səriştəsi məhz fəlsəfəyə məxsusdur" (67, 560).

Ə.Abbasovun fəlsəfənin funksiyaları haqqında yazdıqları onun yuxarıda haqqında bəhs etdiyi "tabe etdirilən fəlsəfəyə", "ədalətdən uzaqlaşan fəlsəfəyə" (67, 556-557) və b. fəlsəfələrə aid deyil. Odur ki, Ə,Abbasov yenidən özünə sual verir: "Sual yaranır: yaxşı, **konkret olaraq, hansı fəlsəfədən söhbət gedir?** Bu fəlsəfənin şərtləri, məzmun mahiyyəti, ideya və prinsiplər sistemi nədən ibarətdir? Onun təyinatına uyğun olaraq, həm şah əzəməti, həm də icraçılıq sərrastlığı verən nədir?" − Qoyduğu sualı belə cavablandırır: **"Qısaca deyim ki, söhbət mürəkkəb sistemlər nəzəriyyəsi və mürəkkəblik fəlsəfəsi üzərində qaynaqlanan, tənqidi-sinergetik təfəkkürlə silahlanmış yeni (postneoklassik) fəlsəfədən gedir.** O fəlsəfədən ki, onun inşası konkret şərtlər daxilində həyata keçirilir"(67, 560).

Ə.Abbasov bu şərtləri element və hissələrinə ayıraraq dəqiqliklə göstərir (67, 561). O, xəbərdarlıq edib göstərir ki, "Ən başlıcası bu gün fəlsəfə üzərinə düşən nizamyaradıclıq funksiyasını reallaşdırmaqda çətinlik çəkir. Əslində buna imkan verilmir, belə ki, fəlsəfədən obyektiv, tərəfsiz mövqedən çıxış etməsini yox, kapital diqtəsinə tabe olmasını tələb edirlər. Maraqlı qüvvələrin diqtəsinə tabe etdirilən fəlsəfə isə heç vaxt obyektiv mövqedən gerçəkliyi işıqlandıran həqiqətləri ortaya çıxara bilməz və deməli, elə ilk növbədə öz daxilində ədalətliliyi pozmuş olar. Yəni, tarazlığa, nizama xidmətdə gücsüz və aciz qalar. Ədalətdən uzaqlaşan fəlsəfə yalnız məkrli niyyətlərin merkantil maraqların, **maddiyyatçılığın** ideoloji təminatçısı rolunda fəaliyyət göstərə bilər. Bununla da bəşəri və cəmiyyətdaxili natarazlı-

ğı, nizamsızlığı, müxtəlif bəlalara yol açan ədalətsizlikləri artırmış olar. Bu gün vəziyyətin məhz belə olduğunu biz, istər-istəməz etiraf etməli və ciddi düşünməliyik, çünki söhbət xalqların və ölkələrin, bütövlükdə bəşəriyyətin taleyindən, onun mövcud olub-olmamasından gedir. Düşünərək də, təxirəsalınmaz əməli işlər görülməli, fəlsəfənin öz həyatına cavab verən gücünü bərpa edib, artırmaq üçün çalışmalıyıq. Milli fəlsəfəmizin də başlıca qayəsini bu gün mən bunda görürəm. Konkret olaraq, nə etməliyik, ilk növbədə nəyə nəzər diqqət etməliyik?"

O, sualı belə cavablandırır: "Fikrimcə, görüləsi zəruri işlərin mərkəzində müasir və perspektiv tələbatlara cavb verən yeni epistomoloji sistemin hazırlanıb, təqdim olunması durur" (67, 556-557).

Göründüyü kimi, Ə.Abbasovun milli fəlsəfə konsepsiyasının əsasında **postneoklassik fəlsəfə, − mərkəzində müasir və perspektiv tələbatlara cavab verən yeni epistemoloji sistemin yaradılması durur** (67, 557, 560-561).

Ə.Abbasovun demək olar bütün əsərlərində milli fəlsəfə ideyası vardır. Bizə "Milli fəlsəfə (B. 2019) kitabında təqdim olunan iki məqaləsi isə bu problemə həsr olunub. Bu haqda o, yazır: "Fikrimcə, fəlsəfənin təyinatı və statusu elə ilk növbədə də onun milliliyi təkzib ediləndə, nəzərə alınmayanda təhrif olunur. **Milli özəyi-özəli, milli koloriti olmayan "fəlsəfə" heç vaxt bəşəri əhəmiyyət daşıya bilməz.** O, nə lokal və regional, nə də universal təqdimatda bir fayda gətirməz, əksinə, şərə və ziyana yol açar. Habelə, milli köklərdən məhrum, öz tarixi ənənələrindən xaric fəaliyyət göstərən "fəlsəfə" müasirliklə ayaqlaşa bilməz; müasir olmaq üçün çarpışar, ancaq ortaya dəyərli məhsul qoymaqda aciz qalar. **Fəlsəfənin milliliyi onun beynəlmiləl, bəşəri olmasını zəiflətmir, əksinə gücləndirir.** Yalnız milli ruhlu fəlsəfə bəşəri əhəmiyyətli, kamil və valehedici ola bilər, mütərəqqi inkişaf üçün dəyərli töhfə verər...".

Şərhinə davam edən Ə.Abbasov yazır: "Milliliyi olmayan fəlsəfə – saxtalaşdırılmış, "Mən"siz, cansız-qansız nəsnədir, simasız və mənəviyyatsız bir şeydir. Belə "fəlsəfə" alovlandırıcı – yaradıcı ruh daşıyıcısı, idrak zirvə nümunəsi ola bilməz" (66, 11, 17-18).

Ə.Abbasov fəlsəfənin milliliyi haqqında nə qədər israrlı olsa da, onun yuxarıda fəlsəfənin müəyyənediciliyi haqqında dörd mülahizəsi, "fəlsəfənin milliliyi onun beynəlmiləl, bəşəri olmasını zəiflətmir" sözləri və b. mülahizələri onun təsəvvüründə fəlsəfənin bəşəri olması ideyası daha güclüdür.

Ə.Abbasovun əsərində başlıca yer tutan, həmçinin tədqiqatımıza cəlb etdiyimiz digər əsərlərdə də xüsusi bəhs olunan milli özünüdərk və fəlsəfi

özünüdərkin qarşılıqlı vəhdəti, millilikdən fəlsəfi dərketməyə və ya əksinə, fəlsəfi dərketmədən milli özünüdərkə doğru inkişaf prosesindən aşağıda bəhs edəcəyik.

AMEA Fəlsəfə İnstitutunun nəzəri seminarında çıxış və məruzələri maraqla dinlənilən, yenilikçiliyi ilə diqqəti cəlb edən fəlsəfə tədqiqatçıların biri **Füzuli Qurbanovdur.** Milli fəlsəfə yaratmaq axtarışında olan postsovet məkanı və ondan da geniş ərazini əhatə edən fəlsəfə tədqiqatçılarının "Milli fəlsəfə" (B., 2019) monoqrafiyasında F.Qurbanovun "Milli fəlsəfə necə mümkündür?" məqaləsi ciddi axtarışın, milli bir arzunun məhsuludur. Bu arzu və ciddilik onun elə ilk cümləsindən görünmədədir.

F.Qurbanov yazır: "Azərbaycan fəlsəfəsinin özürefleksiya kontekstini genişləndirmək lazımdır. Onu daha əhatəli mənbədən qaynaqlanan fikir dinamikası kimi analiz etmək gərəkdir. Bu, həm də "milli fəlsəfə" və "azərbaycançılıq" ideyalarına aiddir. Adından göründüyü kimi, **"milli fəlsəfə" anlayışı millətin sosial-mədni orqanizm kimi təşəkkülü, prosesi ilə sıx bağlıdır.** Bunun kökündə millətlərin mədəni yaradıcılığın subyekti halına gəlməsi dayanır. Alimlər həmin hadisənin "mədəniyyət millətçiliyi" kimi yeni dünyagörüşün formalaşmasına gətirib çıxardığı fikrindədirlər. Bu mədəniyyət millətçiliyi yeni fəlsəfi mədəniyyətin inkişafının "sosial-psixoloji və şəxsi əsaslarını hazırlayır" (F.Qurbanov bu fikri rus tədqiqatçısından əxz etmişdi) (68, 579). O, mülahizəsini aşağıdakı kimi davam etdirir: **"Deməli, milli fəlsəfə hər şeydən öncə kollektiv şüur üzərində refleksiyadır. Bu proses mahiyyətcə** özrefleksiya **olmalıdır. Çünki, kənar şəxsin hər hansı millətin kollektiv şüuru üzərində refleksiyası "milli fəlsəfə" anlayışının ehtiva etdiyi məna sahəsinə uyğun gəlmir. Konkret deyilərsə, bu cür refleksiya milli fəlsəfənin şəxsi əsasları müstəvisindən kənar qalır" (68, 579).**

F.Qurbanov şərhinə davam edərək yazır: "Burada bir vacib məqamı vurğulamaq gərəkdir. Dünya fəlsəfə tarixində fəlsəfəyə xalqın kollektiv şüuru üzərində yanaşmasının bilərəkdən qəbul edən fəlsəfi təlimlər mövcud olub. Hətta qədim dövrdə belə etnosun kollektiv şüuru üzərində fəlsəfi refleksiya cəhdi olub. Nümunə kimi miladdan öncə I əsrdə Romada meydana gələn və əsasını romalı Kvint Sekstiyanın qoyduğu fəlsəfi təlimi göstərmək olar". Tədqiqatçıların fikrincə, Sekstiya məktəbi Roma fəlsəfəsini yaratmaq cəhdi idi. Bəzi tədqiqatçılar bu fəlsəfəni antik dövr yunan fəlsəfəsinin müxtəlif məktəb və cərəyanlarına uyğunlaşdırılan fəlsəfi cərəyan kimi qiymətləndirirlər. "Ancaq bu fəlsəfə çox mövcud olmadı. Təqribən 100 ildən sonra unudulmağa başladı" (68, 579).

Bu ümumi mülahizələrdən sonra F.Qurbanov milli fəlsəfənin aydın dərki üçün onun terminologiyasının obyektiv şərhini vacib hesab edərək yazır: “Öncə bir məqama aydınlıq gətirməyə çalışaq. **“Milli fəlsəfə” ifadəsinin konkret fəlsəfi ölçülməsi lazımdır. Burada “milli” sözü şərtdirsə, onda tarixin bütün mərhələlərində hər bir etnosun (o cümlədən, xalqın) təfəkkürünün özünün həyat tərzini refleksiya etməsi ilə bağlı formalaşan (əgər varsa) fəlsəfi təsəvvürlər sistemini bura aid etmək olar. Həmin meyarla qədim romalıların fəlsəfəsini (məsələn, yuxarıda vurğuladığımız K.Sekstiyanın fəlsəfəsi) “mili” hesab etmək olar. Ancaq bu bölgünün bütövlükdə fəlsəfi təfəkkür üçün hansı faydanı verəcəyinin fəlsəfi anlamı elə də aydın deyil.**

**Başqa mövqedən yanaşaraq “milli” sözünə tarixi-siyasi və mənəvi-əxlaqi kateqoriya kimi baxsaq, onda “milli fəlsəfə” ifadəsi hər bir etnosun təkamülünün konkret mərhələsinə aid ola bilər”.**

F.Qurbanov şərhini davam edərək yazır: “Yəni, Avropa sosioloji-fəlsəfi fikrində formalaşmış “millət”, “milli” anlayışları işığında “milli fəlsəfə tamamilə fərqli məzmun kəsb etmiş olur. **Burada tarixin müəyyən mərhələsində etnosun (daha dəqiq − cəmiyyətin) sosial-mədəni inteqrasiyasının xüsusi forması olan millətin kollektiv şüurunun** özre**fleksiyasından bəhs etmək olar. Lakin bu refleksiya da birbaşa həyat tərzinin fəlsəfi dərkini təşkil edir. Yəni, milli fəlsəfə adlandırılan idrak prosesinin başlıca hədəfi konkret cəmiyyətin milli kimliyi ilə şərtlənən həyat fəlsəfəsi olar.** Burada dövlət anlayışı da açar rolunu oynayan faktorlardan birinə çevrilir, çünki Avropa təcrübəsində millətlə dövlət bir-birilə sıx bağlıdır, hətta birinin varlığı digərinin mövcudluğu ilə şərtlənir (68, 585).

Beləliklə, F.Qurbanov Avropada **millətlərin yaranması ilə paralel olaraq hər bir xalqın milli fəlsəfəsində yarandığı qənaətinə gəlir və hər bir xalqda milli fəlsəfənin yaranması həmin xalqın millətl**əşməsi mərhələsində milli fəlsəfənin yaranmasının ümumi qanunauyğunluğu kimi qiymətləndirir. Tarixə ekskurs edərək yazır: **“Avropa millətləri müasir anlamda XVII−XVIII əsrlərdən başlayaraq formalaşdılar. Milli dövlətlər isə əsasən XVIII−XIX əsrlərdə formalaşıb. Ancaq bu proses iki istiqamətdə gedib: bir qrup xalqlar dövlətdən millətləşməyə keçid ediblər, digərləri isə millətləşib dövlətə keçiblər.** Məsələn, ingilislər və fransızlar millətdən dövlətə, almanlar və italyanlar isə dövlətdən millətə keçid ediblər. XIX əsrdə İtaliya və Almaniyada dövlət formalaşandan sonra onların əsas şüarı belə olub: “ölkəni yaratdıq (məsələn, İtaliyanı), indi də milləti yaratmalıyıq (yəni italyanları). “MİllƏt” anlayışının özünün də Avropada təkamül özəlliyi olub.

Öncə o, cəmiyyətin yalnız seçilmiş təbəqəsinə aid edilib (əsasən Orta əsrlərdə), sonralar isə bütün əhaliyə aid olunub. 1789-cu ildə fransızların "üçüncü təbəqəsi" özünü millət elan edib. Bu keçidin nəzəri platformasını maarifçilik filosofları hazırladılar. XVIII əsrin başlanğıcında Fransa Akademiyası **milləti eyni dövlətdə, eyni ölkədə, eyni qanunlara görə yaşayan və eyni dildən istifadə edən əhalinin toplumu kimi tərif etmişdir"** (68, 585).

XVII−XVIII əsrlərdə İngiltərə, Fransa, Almaniya və İtaliyada kapitalizm cəmiyyətinin yaranması prosesində yaranan millətləri və onların fəlsəfəsini "milli fəlsəfə"nin yeganə təbii modeli kimi qiymətləndirən F.Qurbanov həmçinin Avropanın ayrı-ayrı ölkələrində "milli fəlsəfə" yaratmaq nəzəriyyəsi – messiantizm və onun yaradıcıları haqqında məlumat verib, Polşa, Slavyan, Rus, İspan və Latın Amerikası milli fəlsəfəsinin yaradılması uğrunda mübarizədən bəhs edir. Şərhini davam etdirərək göstərir ki, Polşa messiantları "özünəməxsus Polşa fəlsəfəsi yaratmağı qarşıya məqsəd kimi qoymuşdular". Messiantizm − ölkə və xalqın dünyada xüsusi rola malik olması haqqında təsəvvürdür ki, antroposentrist istiqamət və personalist xarakterə malikdir. Messiantizm başlıca olaraq **"etnik istisnalığı" canlandırmaqla yanaşı, inqilabdan yan keçmək, təkamül yolunu tutmağı tövsiyyə edirdi.** Messiantizm – Tanrı və Ruhun ölməzliyi məsələsində fərqli mövqe sərgiləsə də, başlıca olaraq Hegelin təsiri altında olmuşdur. Bunun ardınca K. Libeltin slavyan fəlsəfəsi yaratmaq təşəbbüsü və bu məqsədlə irəli sürdüyü mülahizələrdən ətraflı bəhs edir (68, 580-581), lakin onun nəticəsi haqqında heç bir məlumat vermir.

İtaliya fəlsəfəsindən bəhs edən F.Qurbanov göstərir ki, onlar XVIII əsrdə ingilis və fransız maarifçiliyinin təsirində olub, müstəqil ideyalar irəli sürməyiblər. XIX əsr italyan filosoflarının "yaradıcılığında "milli fəlsəfə" elementləri özünü göstərir". Lakin İtaliya milli fəlsəfə yaradıcılarının ən yüksək səviyyəli əsərləri "dini fəlsəfənin italyan variantıdır" (68, 581).

F.Qurbanov İspan milli fəlsəfəsi yaratmaq ideyasının XIX əsrin üçüncü rübündə yarandığını göstərir. **Bu ideyanın tərəfdarları "bu fəlsəfəni milli özşüurun ifadəsi və bu şüurun xarakterik və ənənəvi xüsusiyyətlərinin ifadəsi" hesab etmişlər. XX əsr ispan tədqiqatçıları bu fəlsəfəyə "milli şüurun bərpasının zəruri şərti kimi baxır,, onlar milli şüur dedikdə yalnız intellektual səviyyəni deyil, emosional məqamların məcmusunu nəzərdə tuturdular (68, 582**).

Tədqiqatçı İspan, Rus, Polyak messantizminin üst-üstə düşdüyünü xüsusi vurğulayır.

Nəhayət, F.Qurbanov rus milli fəlsəfəsi yaradılması üzərində dayanır və ona daha geniş yer verir. Rus rəlsəfə tədqiqatçılarına istinadən V.N.Karpov, A.V.Vedenskiy, V.Erin, V.N.Yerşovun rusiyada milli fəlsəfə yaradılması ideyasının ilk, N.P.İlinin isə müasir dövr milli rus fəlsəfəsi yaradılması ideyasının müəllifi olduğunu göstərir. **Lakin hələ XIX əsrin ortalarından rusiyada fəlsəfənin olmaması, rusların bəşəri ictimai fikrə heç nə verməməsi etiraf olunmuşdur.** Böyük vətənpərvər Q.Y.Çaadayev utanc, bəşəriyyət qarşısında xəcalət hissi ilə yazırdı: "... biz nə Qərbə, nə də ki Şərqə məxsusuq, bizdə onların heç birinin ənənəsi yoxdur... Biz dünyada tənhayıq, biz bu dünyaya heç nə verməmişik və heç nə də öyrətməmişik, biz kütləyə heç bir bəşəri ideya gətirməmişik" (22, 398).

N.O.Losski sübut etmişdir ki, rus materialistlərinin əsərləri "fəlsəfi fikrin inkişafı üçün heç bir əhəmiyyət kəsb etməmişdir" (22, 409).

Müasir rus "milli fəlsəfəsi" ideyasının müəllifi N.P.İlinin bu sahədə yaradıcılığını oxucuya təqdim edən F.Qurbanov yazır: "O, rus fəlsəfəsinin faciəsi" adlı kitabında yazır ki, "marksistlərin və dini filosofların rusiya fəlsəfəsi haqqında mif yaratdıqları ideyası vardır. Qaynaqları tədqiq etməklə N.İlin belə qənaətə gəlir ki, XIX əsrin II yarısında fəlsəfə mədəniyyəti zirvəyə yüksəlib. Bu dövr fəlsəfə ən böyük nailiyyətlərin əldə etdiyi mərhələdir" (68, 583).

Maraqlıdır, müəllif fikrini əsaslandırmaq üçün bir dənə də olsun fakt təqdim etmir. F.Qurbanov M.Epşteyn fəlsəfə lüğətinə istinadən yazır ki, "anqlo-amerkan akademik elmi rus fəlsəfəsinin mövcudluğuna şübhə ilə yanaşır. Rus fəlsəfəsi nümunələrini daha çox slavistika çərçivəsində tədris edirlər. Ən yaxşı halda rus fəlsəfəsinə ideologiya, publisistika, ictimai-tarixi fikir kimi baxırlar. Onu yarıədəbiyyat, fantaziya, utopiya, tənqid, "hər şeyin hər şeylə qarışığı" kimi qəbul edirlər. Bu, rus fəlsəfi fikir tarixində yeri olan millət haqqındakı refleksiyanı inkar etmək deməkdir" (68,583).

Çox ədalətli, millət adına hörmət edilərək, güzəşt edilərək söylənmiş fikirdir. Rus xalqı tarixinin heç bir mərhələsində fəlsəfi təfəkkürə malik olmamışdır. Bunun nəticəsidir ki, rus xalqı sosialist-kommunist ideologiyasının təsiri altında XIX əsrin son rübündə Avropanın təsiri altında yetişən mütərəqqi ziyalı, zadəgan və aristokratiyanı son nəfərinə qədər məhv edirlər. İşğal etdikləri ölkələrdə ziyalı, zadəgan və aristokratiyanı yox edirdilər. Gen qanunlarına qarşı düşməm kimi çıxış etdilər. Rusiyada sosialist-kommunist cəmiyyəti strukturu dağılsa da, bu ideologiya hələ hakim qüvvə kimi çıxış edir. Rus dövləti ilə təmas hələ də ölkələrin, xalqların dağıdıcı, faciəvi sonluğu ilə qurtarır.

Yuxarıda bizə təqdim olunan **milli-fəlsəfə yaradıcılığı tarixindən görünür ki, bu fəlsəfədə milli şüurun, milli xarakterin bərpası və inkişaf etdirilməsi, qismən də milli ideologiyanın yaradılması məqsəd kimi qarşıya qoyulur.** Milli fəlsəfə yaradılması tarixi haqqında təqdimatında, irəli sürdüyü mülahizələrində ardıcıl olaraq F.Qurbanov rus fəlsəfə tədqiqatçılarına istinad etmişdir. Nəzərə alsaq ki, bu tədqiqatlar fəlsəfi təfəkkürə malik olmayan, fəlsəfə boşluğunda 70 il marksizm doğması hökm sürən bir millətin nümayəndələridir, nəticələr təbii olaraq şübhə altına düşür.

Beləcə, Avropada kapitalizm cəmiyyətinin yarandığı dövrdə təbii proses kimi millətin və milli fəlsəfənin yaranmasını şərh edib, **bunun ardınca mənəvi həyatında natamamlıq kompleksi olan xalqların filosoflarının milli fəlsəfə yaratmaqla, xalqlarının** intellekti və mənəvi dəyərlər sistemindəki çatışmazlıqları aradan qaldırmaqla onları yaradıcı millət səviyyəsinə çatdırmaq üçün apardıqları mübarizədən bəhs edərək yazır: **"Ancaq burada başlıca məqsədimiz "Azərbaycan milli fəlsəfəsi" ideyasının yuxarıda vurğulanan özəlliklər işığında necə görünməsindən ibarətdir.** Odur ki, öncə qısaca baxılan problemin tarixi aspekti üzərində dayanaq (68, 584-585) − deyən F.Qurbanov Azərbaycanda **fəlsəfi təfəkkürün ilkin əsası haqqında yazır:** "Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır". Yəni Azərbaycanda fəlsəfi-elmi təfəkkürün təkamülünün ideya mənəvi stimulu yunan-roma mədəniyyətinin təsiri altında ölkənin müxtəlif mədəniyyətlərin kəsişmə sahəsi olması ilə şərtlənib. Məhz həmin təməl üzərində ictimai, humanitar və təbiət elmləri qarşılıqlı əlaqədə və vahid elmi mühitdə tərəqqi edib. Hələ IV−VII əsrlərdə Azərbaycanda əsas elmi istiqamətlər mövcud olub. "Tənsarın məktubu" adlı mənbədə bu barədə yazılıb". O, şərhinə davam edərək yazır: "Daha əhəmiyyətli məqam ondan ibarətdir ki, Azərbaycan qədim dövrlərdən vahid fəlsəfi-elmi-mədəni məkanın tərkibində olub. **Bu prosesdə V−VI əsrlərdə Bizansın Akademiyasını ləğv etməsi xüsusi rol oynadı. Orada çalışan alimlər Şərqə üz tutmağa məcbur qaldılar.** Onların arasında Afina Akademiyasının rəhbəri suriyalı Damask, **VI əsrdə indiki İran ərazisində** yerləşən **Cündişapur Akademiyasını yaradan IX əsrdə məşhur Bağdad Akademiyası ("Beytül-hikmət" − "Hikmət evi" meydana gəldi.** Həmin Akademiyanın öz dövrü üçün yüksək səviyyəli elmi kadrları vardı. Orada riyaziyyat, biologiya, astronomiya, həndəsəni öyrənirdilər", **Bağdad Akademiyasının** tarixi xidmətlərindən biri − fəlsəfi-elmi ədəbiyyatı ərəb dilinə tərcümə etməsindən ibarətdir. Bunun sayəsində İslam aləmində vahid elmi

mühit formalaşdı. Eyni zamanda geniş məkanda kadrların qarşılıqlı mübadiləsi baş verdi. Bu da öz növbəsində bütöv elmi mühitin formalaşmasına ciddi təkan verməli idi. **Həmin dalğa üzərində Azərbaycan ərazisində çoxlu sayda sanballı elmi tədqiqat ocaqları − akademiyalar yarandı. Bütövlükdə Akademiya təsisatı Azərbaycnda elmi fəaliyyətin təsisatının əsas forması oldu** (68, 585-586).

İsfahan, Həmədan, Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Şamaxı, Marağa, Urmiya və digər sahələrdə yaradılan elmi tədqiqat mərkəzləri vahid Azərbaycan elmi mühitinin formalaşmasına ciddi təkan verdi. Həmin mərkəzlər arasında sıx fəlsəfi, elmi və ideya əlaqələrinin mövcud olması barədə tutarlı qaynaqlar mövcuddur (68, 586).

F.Qurbanov göstərir ki, tarixi Azərbaycan ərazisində IX−XIV əsrlərdə elmlərin strukturlaşması, fəaliyyətin təşkili, elm sahələrinin inkişaf etdirilməsi və ümumilikdə yaradıcılıq qabiliyyətinin yüksəldilməsi prosesində ciddi rol oynadı. Azərbaycan elmi ocaqlarının elmi fəaliyyəti ancaq müsəlman fəlsəfi-elmi məkanı ilə məhdudlaşmırdı. Akademiyalar geniş xarici əlaqələrə malik idi. Müxtəlif ölkələrdən, o cümlədən Çin, Hindistan, Misir, Yunanıstan kimi güclü fəlsəfi elmi ənənəyə malik ölkələrdən Azərbaycanda elm öyrənməyə gələnlər az deyildi (68, 585).

Yuxarıda etdiyimiz iqtibaslardan göründüyü kimi, F.Qurbanov "Azərbaycanda fəlsəfi-elmi təfəkkürü" "müxtəlif mədəniyyətlərin kəsişmə nöqtəsində", "Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında", "vahid elmi mühit", "vahid fəlsəfi-elmi-mədəni məkanın tərkibində" formalaşıb inkişaf etdiyini yazır (68, 585-586).

V−VI əsrlərdə Bizans Akademiyasının ləğvi ilə orada çalışan alimlərin Şərqə üz tutmasından, IX əsrdə birdən-birə Bağdad Akademiyasının yaranmasından, IX−XIV əsrlərdə İslam dünyasında yaranan elmi-fəlsəfi mühitin bütün dünyada aparıcı mövqeyə çıxmasından, Azərbaycan şəhərlərində yaranan Akademiyaların onun ən qabaqcıl mərkəzlərindən olmasından məlumat verir. Bütün bu dövr ərzində Şamaxı Akademiyasının yaradıcısı Ömər Osman oğlunun və Nəsirəddin Tusinin sadəcə olaraq adını çəkir, konkret olaraq hər-hansı elmi-fəlsəfi kəşf haqqında bir dənə də olsun məlumat vermir (68, 585-586).

Belə bir tədqiqat metodu F.Qurbanovun məqaləsinin ilk cümləsində iddiasında olduğu araşdırmanın məqsədinə ziddir. **Göründüyü kimi, tədqiqatçı qarşıya qoyduğu məqsədin** − özünü tapmağın əksinə olaraq **elmi-fəlsəfi fikrin ilkin olaraq Şərqdən Qərbə axınının əksinə olaraq Qərbdən Şərqə axını halında yanlış fikir söyləyir, konkret fakta istinad etmədən** ən qə-

dim, qədim və orta əsr fəlsəfi fikir tarixi haqqında mənbə, elmi-nəzəri tədqiqatların üzərindən sükutla keçərə**k milli fəlsəfi fikir tariximizi** ümumi içərisində görünməz etməsi, itirməsi yol verilməzdir.

F.Qurbanov Azərbaycanda fəlsəfi fikri məxsusi olaraq onlardan başlayırmış kimi Fəzullah Rəşidəddin və Nəsirəddin Tusinin akademiyalarından, elmi-fəlsəfi yaradıcılığından və Təbriz Akademiyasının fəaliyyətindən bəhs edərək yazır: "Maraqlıdır ki, burada sadəcə elm öyrənmirdilər, elmi tədqiqat, həm də alim həyatının müxtəlif aspektlərini əhatə edən elmi mühit formalaşdırırdılar" (68, 587).

N.Tusinin çoxşaxəli yaradıcılığından bəhs edən F.Qurbanov yazır ki, onun ən böyük xidmətlərindən biri Akademiyanın elmi strukturunu yaratmasıdır. Onun iki özəlliyi vardır. Bunlardan biri Tusinin Alimlər yığıncağını təşkil etməsi idi. Bu, müasir anlamda Akademiyanın Rəyasət Heyəti deməkdir. Digər özəllik N.Tusinin yaratdığı Akademiyanın Azərbaycanın müxtəlif bölgələrində hissələrinin olması ilə bağlıdır. Hələ XIII əsrdə Azərbaycanda elm sahəsində idarəetmənin və yeni elmi kəşfləri kollegial müzakirənin xüsusi metodu mövcud idi" (68, 586-587). Azərbaycanda elmi vahid idarəetmə mexanizminə malik olması, konkret struktur − funksional özəlliklərə sahib olması ölkədə yaradıcı insanların yetişməsində, elmi ənənələrin sistemliyində böyük rol oynayırdı.

F.Qurbanov göstərir ki, XIV əsrin sonunda İslam mədəniyyətinin çiçəklənməsi başa çatsa da, Azərbaycanda akademiyalar fəaliyyətini davam etdirir (68, 588).

XV əsrdə Ə.Bakuvinin tibb, coğrafiya, neft sahəsində araşdırmalarından bəhs edən tədqiqatçı XV−XVII əsrdə Azərbaycanda elmin bütün sahələr üzrə inkişafda olduğu haqda məlumat verir. F.Qurbanov IX−XVI əsrdə elmi-fəlsəfi təfəkkürün başlıca keyfiyyəti, alimlərin konkret bir elm sahəsi ilə yanaşı, əsaslı fəlsəfi biliyə sahib olmasında göstərərək (68, 589) yazır ki, "həmin özəllik Azərbaycan elm adamlarının fəaliyyətində birbaşa əks olunurdu. Onlar eyni dərəcədə müxtəlif elm və sənət sahələrinin biliciləri idilər. Buna görədir ki, həmin dövrdə azərbaycanlı alimləri hətta uzaq Hindistana və Çinə işləməyə dəvət edirdilər. Hökmdarlar isə memarlıq, miniatür sənəti və digər sahələrdə alim biliyindən faydalanırdılar (68, 589).

Elmin ayrı-ayrı sahələrindən bəhs edən F.Qurbanov XVII−XVIII əsrlərdə də onun bütün sahələrində inkişafda olduğunu yazır. XVII əsrdə Yusif Qarabağinin S.Y.Sührəvərdinin işraqilik fəlsəfəsini inkişaf etdirdiyindən bəhs edir (68, 589).

Ən qədim dövrdən XVIII əsrin sonuna qədər inkişafda olan fəlsəfə və elmin təşəkkül yolunu aşağıdakı kimi mülahizə edir: “XV−XVIII əsrlər Azərbaycanın sosial-siyasi, iqtisadi və mənəvi sahələrdə əhəmiyyətli transformasiyalar dövrü olduğundan elmi fəaliyyət sferasında da dəyişikliklər müşahidə edilirdi. **Akademiyaların həmin dövrdə elmi mühitdə təşkilati aspektdə mövqeyi zəifləyir və sonra, ümumiyyətlə, sosial-mədəni səhnədən çıxır.** Ancaq yenə də bəzi yerlərdə elmlərin öyrədilməsində Akademiya ənənəsi saxlanılırdı. Məsələn, Şamaxıda Akademiya qaldı. Ümumilikdə isə Akademiyalarda əsası qoyulmuş elmi mühit bütövlüyünü qoruya bildi”.

Tədqiqatçı şərhinə davam edərək yazır: “Müəyyən mərhələlərdə Azərbaycan alimləri vətəni tərk etməyə məcbur qalsalar da, onların fəaliyyətində Təbriz, Marağa, Şamaxı, Ərdəbil, Naxçıvan və b. elmi mühitin qaydaları qalmaqda idi. O cümlədən, **Sührəvərdi, Bəhmənyar, Miyanəçi** və digər filosofların ideyaları inkişaf edirdi (68, 590).

F.Qurbanovun son cümləsi − “O cümlədən, Sührəvərdi, Bəhmənyar, Miyanəçi və digər filosofların ideyaları inkişaf edirdi” − mülahizəsi bizə şübhəli görünür. Təəssüflə qeyd edim ki, milli fəlsəfə yaratmaq iddiası ilə çıxış edən və bu məqsədlə fəlsəfə tarixinə müraciət edən F.Qurbanov İlahi Fəlsəfənin bəşəriyyətə ilk təqdimatçısı, ilk vəhyi filosofu Zərdüşt və ilk sütunları – Bəhmənyar, Miyanəçi və Sührərverdinin yaradıcılığı haqqında heç bir məlumat vermir, yalnız XVII əsrdə Yusif Qarabağinin, Sührərverdinin işraqilik fəlsəfəsini inkişaf etdirdiyini, Akademiyaların sosial-mədəni səhnədən çıxdığı, XVIII əsrdə Bəhmənyar, Miyanəçi və Sührərverdinin fəlsəfəsinin “ideyalarının inkişaf etdirilməs”ni yazır” (68, 590).

Lakin tədqiqatçı bu fikri söyləyərkən heç bir mənbəyə istinad etmir və fakt göstərmir. Onun bu mülahizəsi məntiqi cəhətdən həqiqi görünmür. Belə ki, idrak və işraqilik fəlsəfəsinin inkişafda olduğu mühitdə milli-mənəvi tənəzzül ola bilməzdi. Böyük alman mütəfəkkiri K.Yaspersin təbirincə “elm olan nəsnə insan şəxsiyyətində tam olan kimi həyata keçirilmişdir” (40, 512).

F.Qurbanov akademik A.Əlizadəyə istinadən Azərbaycanın XIX əsrdə coğrafi, siyasi və mədəni cəhətdən ikiyə bölündüyünü, şimal hissə**nin rusiya və Avropa elmi-mədəni mühitinə inteqrasiya olmağa başladığını qeyd edir.** Bu dəyişiklik başqa məqamlarla yanaşı, Azərbaycanda maarifçiliyin meydana gəlməsinə təkan verdi (68, 590). Fəlsəfi-elmi və mədəni mühitində ciddi yer tutmuş Azərbaycan yeni şərtlər daxilində fərqli sosial-mədəni mühitdə özünə yer tapmalı idi.

Qeyd edim ki, bu fikir tam yanlış olub, sovet dönəmindən qalma Azərbaycana vurulan ənənəvi etiketdir. Bütün XIX əsrdə “Avropanın jandarmı,

Asiyanın cəlladı" rusiya əhalisi quldarlıqdan çox da fərqlənməyən təhkimçiliyin "ən geridə qalmış torpaq sahibliyi, ən vəhşi halda olan kəndli əhalisindən ibarət idi, Oktyabr çevrilişi ərəfəsi əhalinin cəmi 10 faizi savadlı idi (70, 10, 13).

1917-ci ildə rusiyada kişilər arasında savadsızlar 76 faiz, qadınlar arasında 87 faiz olmuşdur (70, 18). Azərbaycanda əhalinin 90 faizinin savadsız olduğu göstərilir (71, 20). (savadsızlar – kimlərdi?, din dərsləri keçən, mədrəsədə oxuyan, ümümiyətlə, ərəb və fars dilləri bilən)

Adətən, imperiya tarixçiləri Azərbaycan xalqı arasında savadsızlıq faizini yüksəltmişdir. Bizcə, göstərilən rəqəm həqiqətə yaxındır. Ancaq Azərbaycanda savadsızlığın bu səviyyədə olmasının əsas səbəbkarı rus imperiyasıdır. O, bütün varlığı dövründə təhsili və elmi Azərbaycan xalqının üzünə bağlamağa çalışdı. Azərbaycan türkcəsində məktəb açmağa icazə vermirdi. Bakıda qız məktəbi açmağa icazə almaq üçün H.Z.Tağıyev məktəbin tikilməsi və təşkilinə sərf olunacaq məbləğdən artıq II Nikolay ailəsinə rüşvət verdi. Azərbaycan ziyalılarının Azərbaycan türkcəsində qəzet nəşr etmək üçün icazə məktubuna Peterburq Baş Mətbuat İdarəsinin cavabı belə idi: "Qəzet xalqın nəyinə lazımdır? Ziyalı tatarlar qoy rus dilində oxusunlar, sadə tatarlar isə gedib qoyunlarını otarsınlar" (48, 98).

Lakin az da olsa, ruslar arasında da həqiqəti obyektiv qiymətləndirən adamlara təsadüf olunurdu. Belələrindən biri "Qafqaz" qəzetinin baş redaktoru V.Q.Veliçko idi. O, azərbaycanlıları "əqli və mənəvi inkişafa qabil" (72, 154) xalq olduğu üçün imperiyanın onları erməni təcavüzünə məruz qoymasını pisləyirdi. I Nikolay A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərini akademik Brosse və Dorna rəy üçün təqdim edir. Onların rəyində deyilir: "Avropa alimləri tərəfindən bu vaxta qədər əlçatmaz hesab edilən və yeni faktlarla zənginləşdirilən, müxtəif coğrafi yerlər haqqında maraqlı fikirlər yürüdülən bu əsərdə qədimlərdən başlayıb indiki dövrədək Dağıstan və Şirvan tarixinin elə ibrətamiz icmalı verilir ki, biz onu həqiqi mənada Qafqaz xalqlarının təsviri coğrafiya tarixinə dair olduqca faydalı və vacib bir əlavə kimi qiymətləndirir və müəllifə hörmətimizi izhar etməkdən imtina edə bilmirik". Rəyçilər bildirir ki, "Avropa tənqidçiləri mövqeyindən bu əsərə yanaşsaq, əlbəttə, burada nəyi isə tənqid etmək və yada salmaq olardı" (73, 65; 74, 333). Göründüyü kimi, rəyçilər rus tarix elminin "Gülüstani-İrəm" əsərini tənqid etmək səviyyəsində olmaqığını bildirirlər.

XX əsrin əvvəllərində Fransanın rusiyadakı konsulu Edmond Hippo Azərbaycan türkləri haqqında yazırdı: "Ümumiyyətlə, Zaqafqaziya tatarları (türkləri-X.X) nəcabətli camaatdır. Reklus demişkən, onlar Qafqazın sivili-

zasiyaçılarıdır. Çünki, onların türk dilinin Azərbaycan dialekti olan dilləri bütün başqa xalqların bir-birini anlaması üçün mütərcimlərin işlətdiyi ümumi dildir...

Onlar heyranedici bir səmimiyyətlə, hər cür tərifəlayiq keyfiyyətlərə malik, görünməmiş bir mehribanlıqla qonaqpərvərlik edən insanlardır. Onların əksəriyyəti çox fərasətlidir və maldar, əkinçi, bağban, sənətkar kimi də başqa irqlərin nümayəndlərindən yüksəkdir.

**Savada görə onlar müxtəlif ərazilərdə ruslardan irəlidədirlər,** çünki əksəriyyəti oxumağı bacarır: onların çoxu türkcə, "padşahlar dilində təmiz yazırlar; öz dillərindən başqa ayrı dialektləri, həm də bir dili, o birisi ali dil sayılan iki dili – ərəb, fars dillərini də bilən tatarlara (türklərə – X.X.) tez-tez rast gəlmək olar" (69, 11-12).

XIX əsrin birinci – üçüncü rübündə varlığın ayrı-ayrı formalarına Bəhmənyar, Miyanəçi, Sührəvərdi, N.Tusi Ə.Bakuvi və b. filosofların yaradıcılığına sistemli, fəlsəfi-nəzəri, praktiki yanaşmalar olmasa da, elmi-fəlsəfi varislik bütövlükdə qırılmamışdı. A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinin fəsillərində əsasən təsvir, hadisə və faktlar şərh olunursa, əsərin giriş və nəticəsi sırf tarixin fəlsəfi mahiyyəti, mənəviyyatı, mənəvinin yaşam qanun və qanunauyğunluğu izah olunmaqla fəlsəfənin praktiki funksiyası önə çəkilir. Fəlsəfənin yenidən canlandırılması üçün elmi-mənəvi hərəkətverici impuls verir. M.F.Axundov yaradıcılığı bu impulsun məhsuludur.

Artıq XIX əsrin 70-ci illərində gənc Ş.C.Əfqani Şərqin ən qədim, qədim, Orta əsr və Avropanın yeni dövr fəlsəfi ideyalarını vahid sistemə salan filosof kimi tarix səhnəsinə çıxır. Azərbaycanda, o cümlədən Şərq xalqlarının mənəviyyatında fəlsəfi varisliyin qırılmasına imkan vermir. Biz bu mənada F.Qurbanovun "Azərbaycan məktəb və mədrəsələrində Orta əsrlərdə formalaşmış elmi ruh saxlanılmaqda idi. Əsrlərin keşməkeşlərində intellekt çırağını sönməyə qoymayan azərbaycanlılar XIX–XX əsrlərdə fəlsəfə və elm sahəsində öz dəst-xətlərini inkişaf etdirdilər" (68, 590) mülahizəsi ilə bu mənada razıyam.

"Milli fəlsəfə" (B., 2019) monoqrafiyasında çıxış edən müəlliflərin əksəriyyəti milli fəlsəfənin kapitalizm cəmiyyətinin inkişafı prosesində xalqın, cəmiyyətin siyasi millətləşməsi ilə paralel yaranmasını standart formula kimi təkrarlamışlar, lakin bu məsələdən daha ədalətli xüsusi bəhs edən, Avropa millətlərinin tarixini ayrı-ayrılıqda diqqətə çəkərək onun nümunəsində Azərbaycan milli fəlsəfəsinin yaranmasını şərh edən F.Qurbanov yazır: "Onda sualı belə qoymaq doğru olardı: "Azərbaycan milləti nə zaman for-

malaşıb? (eyni qayda ilə alman, rus, fransız, ingilis, italyan, yunan və digərlərini nəzərdə tutmaq olar)" (68, 585).

F.Qurbanov problemi belə açıq, dəqiq qoysa da, ona cavab vermir, Azərbaycan xalqının ictimai-siyasi, fəlsəfi fikir tarixinə kommunist rus imperiyası ideoloqlarından da aşağı səviyyədə yanaşır, yuxarıda söylədiyi "XIX−XX əsrdə fəlsəfə və elm sahəsində öz dəsti-xəttini inkişaf etdirdilər" fikrinin əksinə çıxır, XIX−XX əsrlərdə sosial-mədəni yüksəlişdən, dünyəvi elmlərə üstünlük verilməsindən, təbiət və tarix elmlərinin inkişafından, Azərbaycan alimlərinin rus şərqşünaslığının inkişafında xidmətindən bəhs edir: "Azərbaycan maarifçiləri faktiki olaraq tarixi missiya yerinə yetirdilər. Bununla Azərbaycan elmi mühitinin təkamülündə yeni mərhələnin − rus-avropa elmi mühitinə inteqrasiyanın XIX əsrdə konkret məzmun kəsb etdiyini demək olar" − yazır. Azərbaycan mesenatları və başqaları **mülki** mədəniyyətin və oyanışın intişarında ciddi rol oynadılar. Cəmiyyətin böhran dövründə bu cür insanlar yetişdirilməsi xalqın tarixən elmə, təhsilə, yüksək mədəniyyətə meylli olmasının göstəricisidir (68, 590-591).

Beləliklə, F.Qurbanov Avropa bölməsində Azərbaycan millətinin, milli dövlətinin və "milli fəlsəfəsi"nin necə yarandığını izah edəcəyi vədinə həsr etdiyi səhifə yarım həcmində yazısında bir dəfə də olsun "fəlsəfə" və "millət" terminindən istifadə etmir, məqalənin sondan ikinci cümləsində "milli mədəniyyətin və oyanışın intişarında" mesenatların iştirakından bəhs edərkən bir dəfə "milli" sözündən istifadə edir, XX əsrin əvvəllərini milli oyanış dövrü kimi təqdim edir. Beləliklə, yuxarıda XIX−XX əsrlərdə Azərbaycanda fəlsəfənin inkişafda olması haqqında mövqeyini inkar edir.

F.Qurbanov məqaləsinə xüsusi nəticə də yazmışdır. O, yazır: "Beləliklə, qısa tarixi gəzişmələr belə göstərir ki, Azərbaycanda fəlsəfə və elm qədim ənənəyə malikdir... XIX əsrə qədər Azərbaycanda fəlsəfi-elmi və ideya özəlliyinə sahib sistemli fəaliyyət məkanı olub" (68, 591). "Bu proses XIX əsrdə Rusiya imperiyasının Qafqaza yürüşləri ilə epistomoloji aspektdə sındı (bir mərakeşli filosofun təbirincə desək, "epistomoloji qırıq" yarandı). Bir neçə əsr vahid fəlsəfi, mədəni və elmi mühitdə təkamül edən Azərbaycan fəlsəfi təfəkkürü məzmunca yeni bir məkana − avropa − rus fəlsəfi-mədəni, elmi mühitinə transformasiya etməli oldu. Bu gedişat təbii olaraq həmin dövrə qədərki fəlsəfi irsə münasibət tələb edirdi. **Bizcə, məhz bu məqamda yanlışlığa yol verildi. Əsrlərlə Azərbaycan içində olduğu fəlsəfi-elmi mühitdən kəskin qopmaq olmazdı.** Doğrudur, həmin irs sonrakı mərhələdə saxlanıldı, lakin o, aparıcı və müəyyənedici deyildi. Kənardan gətirilmiş fəlsəfi-elmi təfəkkürün daxilində daha çox tarixi və ənənəvi kontekstdə yer almışdı.

**Azərbaycan fəlsəfi-elmi təfəkkürü Tusinin, Nəsiminin, Sührəvərdinin, Şəmsi Təbrizinin, Bakuvinin,** Füzulinin və digərlərinin mənəvi, fəlsəfi, elmi ruhu, kateqorial aparatı, metodoloji özəllikləri üzərində inkişaf etmədi. Əvəzində avropa-rus mühitində olan və **daha qabaqcıl** hesab edilən mədəni-fəlsəfi və elmi mühitə düşdü" (88, 592).

İqtibasdan göründüyü kimi, F.Qurbanov Azərbaycan milli fəlsəfəsinin nəhəngləri, yeni dövr Avropa fəlsəfəsinin yaranmasının elmi-fəlsəfi bazası olmuş Tusi, Nəsimi, Sührəverdi, Şəmsi Təbrizi, Bakuvi, Füzuli və digər milli filosofların mənəvi irsi ilə əlaqənin kəsilib "avropa – rus mühitində olan fəlsəfi və elmi mühitə düşməni" – yəni müstəmləkə mühitinə düşməni alqışlayır, mütərəqqi hadisə hesab edir.

F.Qurbanovdan etdiyimiz iqtibasda Azərbaycanda elmi-fəlsəfi, mədəni varislik haqqında iki mənalı, ziddiyyətli fikirlər aydın görünür. Bundan əlavə, nəticədə çoxlu ziddiyyətli fikirlər var ki, onları dəyərləndirməyi oxucunun ixtiyarına buraxır. Beləcə, yuxarıda F.Qurbanovun "Milli fəlsəfə necə mümkündür?" adlı məqaləsində **fəlsəfəmizin dəqiq mənbələrini müəyyən etmək üçün qədim dövrə müraciət edəcəyini vəd etsə də, bunu etmir, fəlsəfə tariximizin təməli göstərilmədən çox təhrifli şəkildə orta əsrlərdən başlandığını yazır.** Milli fəlsəfənin ancaq kapitalizmin inkişafından doğan milli yaranış prosesində onun yaranışdan doğduğu üçün şərhini daha anlaşıqlı etmək məqsədi ilə Avropada millətlərin yaranması dövrünə ekskurs edir və buna müvafiq olaraq Azərbaycan milli fəlsəfəsinin yaranmasının obyektiv izahı üçün **"Azərbaycan milləti nə zaman formalaşıb?" sualına cavab verməyi vəd etsə də,** bir kəlmə də olsun Azərbaycan xalqının millətləşməsindən, dövlətləşməsindən, milli fəlsəfəsindən bəhs etmir, əksinə, XIX əsrdə Azərbaycanın rusiya tərəfindən işğalı ilə fəlsəfi-elmi, mədəni varislik kəsilib, Azərbaycan xalqının daha yüksək rus-avropa mədəni, fəlsəfi-elmi mühitinə inteqrasiya olunduğunu yazır. **Bu transformasiyanın Azərbaycana** nə verməsindən bir kəlmə də bəhs etmədən onun "dərkini olduqca vacib məsələ hesab edir", "bunu ayrıca tədqiqat mövzsu hesab edir və gələcək nəsillərin ixtiyarına buraxır. Azərbaycan milli fəlsəfəsinin müəyyən edilməsi üçün yetərli tədqiqatların olmaqığnı bildirərək yazır: "Azərbaycan milli fəlsəfəsi haqqında peşəkar səviyyədə danışmaq üçün hələ bir sıra tarixi, fəlsəfi, elmi və mədəni prosesləri araşdırmağımız lazımdır" − yazır. Və tövsiyyə edir ki, bu araşdırmalar keçmişə qayıdış naminə deyil, gələcəyin fəlsəfi-elmi ölçülməsinə istiqamətlənməlidir. Fəlsəfi olaraq problem ənənə ilə müasirliyin vəhdəti kontekstində qoyulmalıdır. Bu müstəvidə problemə baxanda deyə

bilərik: **Azərbaycan milli fəlsəfəsi mövcuddur və o, tədqiqatçısını gözləyir!” (68, 592)**

Maraqlıdır − F.Qurbanov yazır: “Fəlsəfi olaraq ənənə ilə müasirliyin vəhdəti... müstəvisində problemə baxanda Azərbaycan fəlsəfəsi mövcuddur və o, tədqiqatçısını gözləyir (68, 592). Maraqlıdır, axı o, “Milli fəlsəfə necə mümkündür?” məqləsini bizə Azərbaycan milli fəlsəfəsini necə yaratmağın mümkünlüyünü aşkarlamaq üçün yazdığını bildirmişdir. Lakin bunun əksinə olaraq, Azərbaycanda milli-mədəni, fəlsəfi elmi varisliyin qırılıb, təməlindən ayrılıb, başqa mədəni, fəlsəfi-elmi mühitə transfer olduğunu söylədi, gözlənilmədən Azərbaycan milli fəlsəfəsinin mövcudluğunu göstərən müstəvini tapır, ancaq bu müstəvidə konkret fəlsəfə olduğnu deyir, haqqında danışmağı gələcək tədqiqatçıların ixtiyarına buraxır.

F.Qurbanovun Avropada millət və milli fəlsəfə yaranması tarixinə istinadən vurğuladığı bir məqamı təkrar diqqətə çatdırmağa ehtiyac duyuruq. O, yazır: “... tarixin müəyyən mərhələsində etnosun (daha dəqiq, cəmiyyətin) sosial-mədəni inteqrasiyasının xüsusi forması olan millətin kollektiv şüurunun özrefleksiyasından bəhs etmək olar. Lakin bu refleksiya da birbaşa həyat tərzinin fəlsəfi dərkini təşkil edir. Yəni milli fəlsəfə adlandırılan idraki prosesin başlıca hədəfi konkret cəmiyyətin milli kimliyi ilə şərtlənən həyat fəlsəfəsi olur” (68, 585).

Yeni nəşr olunmuş “Milli fəlsəfə” (B., 2019) monoqrafiyasında, eləcə də digər fəlsəfi əsərlərinin bəzilərində fəlsəfənin milli-mənlik şüurunun təsiri altında yaranması, bəzilərində isə fəlsəfənin milli mənlik şüuru doğurması göstərilir. Lakin dəqiq milli-mənəvi həyatın hansı mərhələsində etnik milli mənlik şüuru fəlsəfi dərketmə doğurması və ya etnik-milli tarixin hansı mərhələsində fəlsəfənin milli mənlik şüuru doğurması göstərilmədiyindən tarixdən, onun qanunauyğunluğundan yetərli bilgiyə malik olmayan tədqiqatçılar obyektiv fikir söyləyə bilmirlər.

F.Qurbanov “milli fəlsəfə adlandırılan idraki prosesin başlıca hədəfi konkret cəmiyyətin milli kimliyi ilə şərtlənən həyat fəlsəfəsi olur” mülahizəsini Avropa tarixindən götürdüyünü yazır. Və bu formulu digər xalqların milli fəlsəfəsinin formalaşmasının ümumi formulu hesab edir.

Təəssüf ki, o, Azərbaycan türklərinin ümumdünya formasını keçdiyi tarixi dövr − yaradıcı fəlsəfənin təsiri altında millət kimi formalaşması və bu dövrün milli-mənəvi yaradıcılığı üzərindən sükutla keçir. Ümumiyyətlə, bu tendensiya milli fəlsəfə yaratmaq arzusu ilə çıxış edən digər fəlsəfə tədqiqatçılarında da var. Onların bəziləri Azərbaycan Xalq Cümhuriyyəti və M.Ə.Rəsulzadədən ötəri bəhs etsələr də, fəlsəfi yaradıcılığın, cəsarətlə deyərdim,

dünya fövqündə olan bir milli nümunəyə biganəlik göstərməyin çoxsaylı səbəbləri var. Məncə, birinci səbəb – intellekt səviyyəsi və daşıdığı ideologiyadır. Lakin fəlsəfə elmləri doktoru, professor, MEA-nın müxbir üzvü, fəlsəfəni ancaq Mütləq Ruha qovuşan şəxslərin dərk etməsi iddiası ilə çıxış edən, Azərbaycan xalqında fəlsəfə yoxsulluğu haqqında ən uca səslə haray çəkən, şivən qoparan, ağlaşma quran S.Xəlilovun milli fəlsəfənin yaradıcı gücündən bəhs edərkən AXC-dən və onun ideoloji lideri M.Ə.Rəsulzadədən bəhs etməməsi məncə intellekt problemi olmayıb, onun məsələyə qeyri-səmimi münasibətindən, populist məqsədindən doğur. Kimə isə M.Ə.Rəsulzadəni zorla qəbul etdirmək ideyasından uzağıq. Problemə və dövrə elmi-tarixi və fəlsəfi münasibət göstərən tədqiqatçının AXC və M.Ə.Rəsulzadə fəlsəfəsinə münasibət göstərməsi zəruridir. Məsələn, kommunist rus imperiyası kimi. M.Ə.Rəsulzadə Azərbaycanın ədəbi, ictimai-siyasi fəlsəfi təfəkkürün zirvəsi, bəşər tarixinə verdiyi ən yüksək səviyyəli, universal mütəfəkkirdir. Azərbaycan mənəvi-fəlsəfi fikir tarixində M.Ə.Rəsulzadəni görməmək idrak problemi və ya Azərbaycan xalqının mənəviyyat və fikir tarixinə qəsdən kölgə salmaq niyyətindən başqa bir şey deyildir. Odur ki, burda XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda fəlsəfi yaradıcılıq prosesinə, onun milli istiqlal və mənəvi quruculuq sahəsində təsirinə və nəticələrinə qısa ekskursu lazım bildik.

Rus imperiyasının Azərbaycanı işğal etdiyi gündən kimyəvi üsullarla xalqın genetik imkanını məhv etmək, paralel etnosid və genosid siyasəti tətbiq edilib (152), onu təhsil və elmi dərketmə imkanından, milli mənlik şüurundan, milli addan, vətən şüurundan (Azərbaycan adından, anlayışından) məhrum etmə siyasəti, fasiləsiz mənəvi-ideoloji təzyiq altında saxlanılmaqla ruslaşdırma və xristianlaşdırma üslubları ilə zorakı assimilyasiyaya məruz qalaraq, milli mənlik şüuru və fəlsəfi təfəkkürünü itirməyə məruz qaldığı bir şəraitdə rusların mədəni təsirindən hansı kontekstdən danışılmasını sətirlərin müəllifi dərk etmir. Bu, rus bolşevikliyinin, kommunist təfəkkürü və əxlaqının ən obyektiv nümunəsidir.

1801-ci ildə rus qoşunları Azərbaycana daxil olandan Azərbaycan dövlətçiliyi 1918-ci ilə qədər fasiləsiz olaraq rus imperiyasına qarşı müxtəlif üsullarla, o cümlədən "Xalq intiqamçıları" adlandırılan qaçaqların silahlı mübarizəsi davam etdi (76, 248). "Xalq intiqamçıları" ruslarla bərabər onlara satılmış yerli nümayəndələrə, əlaltılara qarşı amansız idi" (77, 161).

**Rus imperiyasının xalqın mənəvi dəyərlərini, adət-ənənələrini, milli zadəganlığı məhv etməklə etnik-milli strukturunu pozmaq, hərbi ruhunu öldürmək, rus təhkimçiliyini tətbiq etməklə azadlıq ruhunu söndür-**

**mək və b. milli həyata qarşı yönəlmiş bütün pozuculuğunu ardıcıl dəf edirdi** (77).

Nəhayət, Avropa kapitalizminin rusiyaya daxil olması, iqtisadi-sosial münasibətləri rus despotizmini 1861-ci ildə təhkimçilik islahatı keçirməyə məcbur etdi. Rusiya burjua islahatları həyata keçirildi. Rusiya imperiyasında kapitalist münasibətləri inkişaf edir. İmperiya əsarət altına saldığı ölkələrdə kapitalizmin inkişafının qarşısını almağa çalışsa da, mümkün olmurdu. İmperiya əsarətində olan xalqlardan kapitalist münasibətlərinin xalq həyatının bütün sahələrini əhatə etdiyi ölkə Azərbaycan idi. Azərbaycanda sənayenin inkişafı Peterburq əyalətindən sonra ikinci yerdə dururdu. Kapitalizm kənd təsərrüfatı və yüngül sənayeni də əhatə edirdi. Azərbaycanda sürətlə millətləşmə gedir, Azərbaycanda yetişən milli burjuaziya özünəməxsusluqları – vətənpərvərliyi, millətçiliyi, maarifpərvərliyi, təşəbbüskarlığı, yenilikçiliyi, yaradıcı ziyalıya qayğıkeşliyi, demokratikliyi ilə fərqlənirdi. Təsadüfi deyildi ki, bu keyfiyyətlərə görə onlardan H.Z.Tağıyev "millət atası" adlandırılırdı. Çox sürətlə millətləşmə prosesi gedir, Azərbaycan xalqı millət kimi formalaşırdı. Təsadüfi deyil ki, birinci rus inqilabı adlandırılan 1905-1907-ci illər inqilabı Azərbaycandan başlandı. Elə bu illərdə görkəmli Azərbaycan mütəfəkkiri Ə.B.Hüseynzadə elmi-intellektual səviyyənin zəifləməsi nəticəsində İslam ideologiyasının milli şüuru üstələməsi nəticəsində yaranmış müsəlman özünüadlandırması, milli etnonimdən fərqli olaraq özünü başqalarından fərqləndirmək əvəzinə, özünü başqaları ilə, ən pisi, özündən aşağı intelelktli etnoslarla eyniləşdirməsi, sintez etməsinin nəticəsi olaraq yaranan durğunluğu aradan qaldırmaq üçün onu intellektə sövq etməklə, milli şüuru dini şüurdan ayırmaqla mənlik şüurunu bərpa edəcək milli ideologiya yaratdı. Bu ideologiya "Türkləşmək, islamlaşmaq, müasirləşmək" kimi ifadə olundu. Nəhayət, böyük mütəfəkkir Əhməd Ağaoğlunun Bakıya qayıdışı, bu ideologiyanı dəstəkləməsi, bütün imperiya hüdudunda azərbaycanlıların hüquqlarını müdafiə etməsi, "Difai" milli təşkilatını yaratması, xüsusilə burjuaziyanın milli həyat sahəsində milli ziyalının təklif və arzularının ardıcıl həyata keçirməsi sürətlə milli vəhdət yaradır, milli ideologiyanı reallaşdırırdı. Bu dövrdə Avropa imperializminin təcavüzündən xilas olmaq bütün türk və müsəlman dünyası qarşısında duran vəzifə idi. Türk və müsəlman dünyası ziyalıları Osmanlı türklərini xilas etməyi ön plana çəkir, aparıcı mədəniyyət mərkəzi hesab etdiklərindən İstanbula toplaşırdılar. Türk-müsəlman dünyasının bütün yaradıcı beyinləri İstanbulda cəmləşdi. Ə.Hüseynzadə və Ə.Ağaoğlu da onların arasında idi. Osmanlı türk ziyalıları arasında milli məsələdə obyektiv mülahizələri ilə fərqlənənələrdən biri Z.Göyalp idi. Ə.Hüseynzadə-

nin “Türkləşmək, islamlaşmaq, müasirləşmək” modelini “Türkləşmək, müasirləşmək, islamlaşmaq” formasında qurur, bu forma bütün türk xalqlarının milli ideologiyası kimi qəbul olunur. 1909-cu ildə rus imperiyasının təzyiqi ilə Qacarlar monarxiyasına mühacirət edən gənc M.Ə.Rəsulzadə 1911-ci ildə bu imperiyanın təzyiqi ilə oranı da tərk edib İstanbula gəlir. Türk-müsəlman dünyasının buraya toplanmış ziyalı, mütəfəkkir və siyasi xadimlərinin vətənin və millətin xilası naminə etdikləri mülahizələrini dinləyir.

M.Ə.Rəsulzadə Türkiyədə olarkən 1911-ci ildə Bakıdakı gənc dostlarına milli bir partiya yaradılmasını ismarlayır. Elə həmin ildə onun təklifi ilə “Müsavat” partiyası yaradılır. 1913-cü ildə M.Ə.Rəsulzadə vətənə dönə bilir. O, Türkiyədə vətənin və millətin xilası naminə eşitdiyi mülahizələr arasında Ş.C.Əfqaninin “Milli vəhdət fəlsəfəsi”nin təsir dairəsinə düşür, onun “Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti” əsərini türkcəyə çevirir. Ş. C.Əfqaninin bu nəzəriyyəsi onu millətin fəlsəfi dərki səviyyəsinə yüksəldir. Ş.C.Əfqani Şərqdə və Qərbdə mövcud olmuş bütün fəlsəfi düşüncəni mənimsədiyindən o, dövrünün fövqündə duran ən mükəmməl filosof idi. Onun “Milli vəhdət fəlsəfəsi” milli yaranışı, milli mövcudluğu obyektiv təqdim edən ən yeni, mükəmməl fəlsəfə idi. Beləliklə, Ş.C.Əfqaninin “Milli vəhdət fəlsəfəsi”ni Azərbaycan xalqının etnik durumuna müvafiq milli mənəviyyatda tarazlığı pozan əkslikləri aradan qaldırmaq üçün milli hissiyyatı və heysiyyəti, duyğuları və vicdanı oyatmaqla, milli dəyərlər və mentaliteti, tarixi yaddaşı canlandırmaqla milli mənlik şüuru, azadlıq ruhu doğuracaq mənəvi qidalar və intellekt doğuracaq bilgilərlə zənginləşdirməklə mənəviyyatda yaradılan yeni keyfiyyətlərlə mənfi əksliklərin aradan qaldırılmasının imkanlar sistemini qurmağın fəlsəfəsini yaratdı. M.Ə.Rəsulzadənin təbiətən filosof olub hələ gənclik illərində yazdığı ilk məqlələrində fəlsəfi ruh özünü göstərirdi. Lakin onun “İran türkləri” və “Milli dirilik” (78) kitabları fəlsəfi əsərlər olub, milli həyata fəlsəfi baxışın klassik nümunələrindəndir. Özünü Ş.C.Əfqaninin tələbəsi hesab edən M.Ə.Rəsulzadənin digər əsərlərini nəzərə almasaq, onun fəlsəfi əsərlərindən “Milli dirilik” əsərinə nəzərən onun da fövqəl filosof olduğu bütün incəliyi ilə görünür. Belə ki, M.Ə.Rəsulzadə bu əsəri Birinci Dünya müharibəsi ərəfəsi yazmışdır. Bu əsərdə hansı mənəvi keyfiyyətlərə malik millətin müharibədən necə çıxacağı, müharibənin onların həyatına necə təsir edəcəyi proqnozu o qədər dəqiqliklə özünü doğrultdu ki, əsərin yazılma və nəşr tarixini bilməyən üçün onun müharibədən sonra nəticələrdən istifadə edilib yazılması qənaətinə gətirə bilər.

Beləliklə, M.Ə.Rəsulzadənin milli həyata fəlsəfi baxışı, dərketməsi ömrünün sonuna kimi davam edir və zənginləşir, daha əhatəli olur. Birmənalı

demək olar ki, M.Ə.Rəsulzadə XX əsrdə milli həyatın fəlsəfi dərkini yaradan fövqəl filosofdur. O, fəlsəfənin nəzəriyyəçisi olduğu qədər də praktiki icraçısıdır. Bəşər tarixində ikinci belə filosof olmayıb, arzu edərdik ki, olsun.

1915-ci ildə M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşrə başlayan "Açıq söz" qəzetinin ilk sayından sərlövhənin altında **"gündəlik türk qəzetidir"** yazılmışdır. Dövrün ciddi tədqiqatçılarından T.Svyatoxovski yazır ki, "Açıq söz" qəzetinin "türk dili", "türk milləti", "türk qəzeti" ifadələri heç bir etiraz doğurmadan Qafqaz müsəlmanları olan azərbaycanlılara verilən ad qarışığına son qoydu, türk özünüadlandırması milli şüurda öz yerini tutdu (79, 20).

Rusiyada başlayan kapitalist islahatları təbii proses kimi burjua və proletariat sinifləri, millətləşmə doğurmalı idi. Lakin rus xalqının tarixi həyat tərzi, mentaliteti, təfəkkürdə fəlsəfə duyumunun olmaması və b. səbəblərdən rus xalqı millətləşə bilmədi, rus xalqının əsas sinifləri proletariat, kəndli və b. zümrələr rus ideyası ətrafında deyil, Avropadan ixrac olunan sosialist ideologiyası əsasında rus, yəhudi, polyak, erməni, gürcü və b. dələduzlardan ibarət bolşevik partiyasının ətrafında birləşdi.

Azərbaycan türkləri onu millətləşdirəcək "türkləşmək, müasirləşmək, islamlaşmaq" milli ideologiyasını hədəf seçmiş M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyasının ətrafında birləşdilər. Demək olar ki, bütün parlaq Azərbaycan ziyalılıarı bu partiyada biləşmişdilər; bütün milli burjuaziya rəsmi, qeyri-rəsmi bu partiyanın üzvü idi. Fəhlə, kəndli sinfi, tacir və sənətkar zümrəsi də partiyada geniş təmsil olunurdu.

1917-ci il oktyabrın 22-də Bakı Sovetinə seçkilərdə Müsavat – 9617; Eserlər – 6305; Daşnaksütyun – 5288; Bolşeviklər – 3823; Menşeviklər – 687 səs toplamışdı (79, 154).

Azərbaycan xalqına düşmənçiliyi ilə fərqlənən erməni tarixçisi B.İşxanyan yazırdı ki, "Zaqafqaziyanın erməni və gürcü millətlərindən fərqli olaraq, türk-tatar əhalisinin ictimai-siyasi həyatında... demək olar ki, ideya ayrılığı, firqə qruplaşması yoxdu" (79, 146-147).

Milli mənlik şüurunu bərpa edən Azərbaycan türkləri dövrün böyük filosofu M.Ə.Rəsulzadənin rəhbərliyi ilə fəlsəfi dərketməyə də yiyələndilər. Dünyagörüşdə fəlsəfə yer tutduğundan millət yaradıcılıq göstərir, müstəqil milli dövlətçiliyi gündəlik − cari məsələ kimi qarşıya məqsəd qoyurdular. Bu məqsədlə 1917-ci il aprel ayının 15-20-də Bakı şəhərində "Müsavat" və "Türk Ədəmi-mərkəziyyət" partiyalarının rəhbərliyi altında Qafqaz müsəlmanlarının qurultayı keçirildi. Qurultayda Azərbaycanın bütün siyasi qüvvələri iştirak edirdi. Ə.M.Topçubaşovun müstəqil demokratik qrupu birmənalı "Müsavat"ın mövqeyini müdafiə edirdi, özü isə qurultaya rəhbərlik

edirdi. Qurultayda M.Ə.Rəsulzadə ölkənin siyasi vəziyyəti və qarşıda duran məsələlər haqqında siyasi məruzə ilə çıxış etdi. Məruzə qurultayda ciddi diskussiya doğurdu. M.Ə.Rəsulzadənin və digər Azərbaycan ziyalılarının yaradıcılığında qarşıya tam müstəqillik vəzifəsi qoyulduğu halda, M.Ə.Rəsulzadə tarixi şəraiti nəzərə alaraq, ilkin olaraq rusiya daxilində federativ demokratik respublika quruculuğuna nail olmaq cari vəzifə olaraq irəli sürülürdü.

Beləliklə, ciddi diskussiyadan sonra M.Ə.Rəsulzadənin irəli sürdüyü təklif qəbul olundu. Azərbaycan milli-azadlıq hərəkatının liderləri Qafqaz Müsəlmanları qurultayını başa çatdıran kimi, Azərbaycan milli-azadlıq hərəkatı rus imperiyasının türk və müsəlman xalqlarının hərəkatı ilə uzlaşdırmaq məqsədilə Ümumrusiya müsəlmanları qurultayının keçirilməsinin təşkilinə başladılar. Ümumrusiya müsəlmanları qurultayı 1917-ci il mayın 1-dən 11-nə kimi Moskvada Şəmsi Əsədullayevin Moskva müsəlmanlarına hədiyyə etdiyi binada keçirildi. Qurultaya 600 nəfər nümayəndə dəvət edildiyi halda, 900 nəfər iştirak edirdi. Qurultaya müzakirə üçün tatarların nümayəndəsi Əhməd Salikovun milli-mədəni muxtariyyat, M.Ə.Rəsulzadənin təqdim etdiyi ərazi federasiya prinsipləri əsasında yaradılmış demokratik respublika layihəsi təqdim olunmuşdu. Layihənin tərəfdarları arasında ciddi diskussiya gedir, M.Ə.Rəsulzadə bir neçə dəfə çıxış etməli olur, onun irəli sürdüyü rusiyanın gələcək idarə şəkli məhəlli-muxtariyyat ideyası qurultayda 271 səsə qarşı 446 səs çoxluğu ilə qəbul olunur (80, 39).

Qurultayda iştirak etmiş görkəmli tarixçi və siyasi xadim Zəki Vəlidi Toğan Azərbaycan nümayəndələrinin qurultaydakı fəaliyyətini xatırlayaraq yazır: “Moskvada toplanan Ümumrusiya müsəlmanları qurultayına azərbaycanlı Əlimərdan bəy Topçubaşov rəyasət ediyordu. Emin bəy qonuşuyordu. Bu konqreyə azərbaycanlıların hakim olduğu görünür və Azərbaycan liderlik edirdi. Əgər 700 kişi içərisində Emin bəy və arkadaşları olmasaydılar, konfrans istiqlal və muxtariyyat tezisinə rəy verməzdi” (81,61).

Qurultayın digər iştirakçısı, mühacir tatar, istiqlal mübarizi Abdulla Faymas M.Ə.Rəsulzadənin qurultaydakı rolunu xatırlayaraq yazır: “Bu parlaq fikri sayəsində Məhəmməd Əmin bütün rusiyaya türklüyü tanınmış, artıq o sadəcə Azərbaycan türkçülüyünün deyil, bütün rus türkçülüyünün əzizi olmuşdur” (79, 146).

Qafqaz müsəlmanları qurultayında “Türk Ədəmi-mərkəziyyət partiyası” ilə “Müsavat” partiyası birləşməyi qərara almışdı. “Müsavat” partiyası və Azərbaycan ziyalıları Moskvada Ümumrusiya müsəlmanları qurultayını

keçirib Vətənə qayıtdıqdan sonra 1917-ci il iyun ayının 17-də N.Yusifbəylinin yaradıcısı olduğu "Türk Ədəmi-mərkəziyyət xalq partiyası"nın birləşdirici qurultayını keçirdilər. N.Yusifbəylinin təklifi ilə birləşmiş partiya "Türk Ədəmi-mərkəziyyət firqəsi − Müsavat" adlandırıldı. Qurultayın bəzi iştirakçıları bu adın çox iri həcmli olmasını irad tutdular. N.Yusifbəyli təmkinlə cavab verdi ki, qısa müddətdə bu addakı sözlərin hamısı unudulacaq, yalnız "Müsavat" sözü qalacaq. Həyat N.Yusifbəylinin dediklərini təsdiq etdi. Bu fakt N.Yusifbəylinin aydın yüksək səviyyəyə, milli mənlik şüuruna və fəlsəfi təfəkkürə malik olmasının nəticəsi idi. "Müsavat" və"Türk Ədəmi-mərkəziyyət xalq partiyası"nın birləşməsi milli vəhdətin tam formalaşmasının, milli ideologiyanın bütövlükdə şüurlara hopması, hakim olmasının nəticəsi, göstəricisi idi.

"Müsavat" partiyasının proqram qəbul edəcəyi qurultayını, bolşeviklərin Peterburqda 25 oktyabr 1917-ci ildə dövlət çevrilişi ilə hakimiyyətə gəldikləri günün sabahısı − 26 oktyabr 1917-ci il tarixdə keçirməsi bu partiya rəhbərliyinin fəlsəfi intiusiyası, təsadüf, yoxsa Mütləq Ruhdan qidalanan fəlsəfi idrakın nəticəsi olması haqqında bizə hər hansı mülahizə məlum deyil. Lakin həqiqət bundan ibarətdir ki, "Müsavat" partiyası rəhbərliyində və onun ətrafında bəşəriyyətin gələcəyini işıqlandıracaq fəlsəfi təfəkkürlü, nurlu ziyalılar var idi. Onlar bəşəri bolşevik təhlükəsinə qarşı sayıqlığı bir an itirmir, bu təhlükənin hər an baş verə biləcəyini, onunla üzləşiləcəyini nəzərə alıb, qurultayın 26 oktyabr tarixdə keçirilməsinin planlaşdırılmasını, 25 oktyabrda baş vermiş təhlükəyə dərhal cavab reaksiyası da hesab etmək olar. Hər iki hal "Müsavat" partiyası rəhbərliyinin hadisələrə fəlsəfi-obyektiv yanaşmasının, sosial-mənəvi, ideoloji-siyasi proseslərin fəlsəfi dərkinin göstəricisidir.

Beləliklə, beynəlxalq vəziyyəti, Azərbaycandakı daxili sosial-siyasi, mənəvi, iqtisadi vəziyyəti və milli gücü dəqiq qiymətləndirməklə "Müsavat" partiyasının I qurultayında demokratik quruluşa malik, irqindən, cinsindən, milliyyətindən, dinindən asılı olmayaraq, insanların hüquq bərabərliyini müdafiə edən, normal milli təhsil və iş şəraiti ilə insanların fiziki, mənəvi, mədəni, milli inkişafını təmin edən demokratik dövlət quruculuğu proqramı qəbul edildi. Proqramda qurulacaq dövlət quruluşu haqqında deyilir: "Rusiya dövlətinin şəkli-idarəsi milli-məhəlli muxtariyyat əsası üzərində qurulu qoşma xalq cümhuriyyətindən ibarət olmalıdır." (82, 161-186).

Milləti təşkil edən siniflərdən, onların yaradacağı hakimiyyətin (hökumətin) milli hakimiyyət olması üçün gözlənilməli şərtlərdən bəhs olunaraq proqramda deyilir: **Millət siniflərdən ibarətdir. Fəqət, əksəriyyəti**

**təşkil edən sinif zəhmətkeşlər sinfidir. Bu etibarla millət demək, xalq deməkdir...**

**Bir hökumət ancaq o zaman həqiqi millət hökuməti olar ki, ondakı əsaslar xas sinfi deyil, ümumi cəmiyyəti gözləsin, onların halını islahə yarasın”** (82, 179).

**Beləliklə, “Müstəqil yaşamaq istəyən millətlərə böyük fırtınalar mane ola və onları məhv edə bilməz, “milli istiqlala malik olmayan bir mir millət hürriyyət və mədəniyyətini də hifz edə bilməz. “İnsanlara hürriyyət, millətlərə istiqlal!”** şüarı ilə (80, 42; 82, 43, 163, 175-177) “Müsavat” partiyası qurultayı sona çatan kimi, dərhal Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün bütün daxili şərtlərin və beynəlxalq münasibətlərin qurulması üçün fəaliyyətə keçdi. 1917-ci ilin martında yaradılmış Azərbaycan Milli Şurasının fəaliyyəti daha da aktivləşdirildi. Şurada ən böyük nüfuza malik partiya “Müsavat” partiyası idi, artıq o, ümumazərbaycan partiyasına çevrilmişdi (83, 20; 84, 31).

“Müsavat” partiyası Azərbaycan xalqının istiqlalı və dövlət quruculuğunu məqsəd olaraq irəli sürəndə hələ Birinci Dünya müharibəsinin alovları sönməmiş, bu alovun məhvedici dalğaları Azərbaycanı yandırıb dağıdır, xarabazara çevirirdi. Məğlub olub pozulmuş rus ordusunun dağınıq hissələri Azərbaycan əhalisini qarət və talan edirdi, digər tərəfdən Birinci Dünya müharibəsində xüsusi ordu kimi təşkil olunmuş Antanta tərəfində, əsasən də rus ordusunda iştirak edən 150 minlik erməni hərbi hissələri İrəvandan − Qərbi Azərbaycandan başlamış Cənubi azərbaycanı da tutaraq, yaşayış məntəqələrini dağıdır, əhalini qırıb-çatırdılar. Şimali Azərbaycanın ayrı-ayrı ərazilərinə ruslar tərəfindən Qacarlar monarxiyasından və Türkiyədən gətirilmiş ermənilər yaratdıqları ordu və silahlı dəstələrlə Azərbaycan xalqına daxildən sarsıdıcı zərbələr vurur, onu məhv etməyə çalışırdılar. Bakı rus bolşevikləri və erməni daşnak qoşunları tərəfindən tutulmuşdu. Bolşevik-daşnak birliyinin rəhbəri S.Şaumyan İrəvandan Culfaya qədər Azərbaycan ərazilərini zəbt etmiş Androniki başçılıq etdiyi ordunu və Qafqaz cəbhəsindən çıxan rus qoşunlarını Bakıya dəvət edirdi. Onların əksəriyyəti qrup və dağınıq halda Bakıya gəlmişdilər, burada 20 min bolşevik daşnak qoşunu cəmləşmişdi (83, 79-80).

Azərbaycanı xarabazara çevirən erməniləri “demokratiya qurucuları”, fəlsəfəsinə və mədəniyyətinə həsəd apardığımız ABŞ, İngiltərə, Fransa və çar rusiyası burada onlara erməni dövləti yaratmaq vədi ilə maliyyələşdirir və silahlandırırdı. Bolşevik-daşnak qüvvələrinin rəhbəri S.Şaumyana isə Azərbaycan və Türkiyə ərazisində erməni dövləti yaradacağı haqqında okt-

yabr çevrilişi ilə hakimiyyətə gəlmiş, terrordan sosialist dövləti quruculuğu üsulu kimi istifadə edən V.İ.Lenin rəsmi yazılı zəmanət vermişdi (85, 86).

Beləliklə "Müsavat" partiyasının milli dövlət quruculuğu haqqında qərarına cavab olaraq **Bakı Sovetində hakimiyyəti ələ keçirmiş bolşevik-daşnak birliyi, Azərbaycan xalqının gözünü qırmaq üçün Bakını Azərbaycanın paytaxtı deyil, xarabazar görəcəyi** hədəsi ilə heç bir hərbi təsisatı, hərbi zümrəsi olmayan xalq üzərinə bolşevik-daşnak hərbi hissələrinin, erməni komandirləri vasitəsilə hərbi hazırlığına başlandı.

Beləliklə, 1918-ci ilin martın 14-də S.Şaumyanın əmri ilə Şamaxı şəhərinə, Salyan, Hacıqabul, Muğan və Lənkəran bölgələrinə bolşevik-daşnak qoşunları yeridilərək strateji məntəqələri tutulduqdan sonra, martın 15-də Bakı Sovetinin iclasında bildirdi ki, "Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir", hərbi əməlyyat başlayarkən birinci olaraq "Müsavat" partiyası tutulmalıdır" (79, 161-163).

Beləliklə, S.Şaumyanın əmri ilə Bakı şəhərini türk və müsəlmanlardan təmizləmək üçün hərbi əməliyyata martın 30-da, saat 16:40-da başlandı. Heç bir hərbi təcrübəsi olmayan, silahsız mülki əhalinin bolşevik-daşnak birliyi tərəfindən qırğın aprelin 2-nə qədər davam etdi. "Müsavat" partiyasının qərargahı top atəşi ilə dağıdıldı, Bakıda 13 mindən çox türk-müsəlman əhali məhv edildi, şəhər müsəlman əhalidən təmizləndi (87; 88).

Hərbi təcavüzə məruz qalan yalnız Bakı şəhəri və Bakı quberniyası əhalisi deyil, Azərbaycanın bütün əraziləri, ABŞ, İngiltərə, Fransa tərəfindən silahlandırılan və maliyyələşdirilən erməni ordu və silahlı birliklərinin təcavüzü altında idi (86).

Yenicə Vətənə dönmüş, rus artilleriyasının Allahı kimi qiymətləndirilən Ə.Şıxlinskiyə Azərbaycan xalqının fiziki varlığının xilası "çıxılmaz görünürdü" (83, 32).

"Müsavat" partiyasının oktyabr çevrilişinin sabahı günü keçirilən qurultayında **"müstəqil yaşamaq istəyən millətlərə böyük fırtınalar mane ola, onları məhv edə bilməz" sözləri təsadüfən deyilməmişdir.** Yüz illik rus əsarəti dövründə Azərbaycan xalqı rus müstəmləkəçiliyinin qeyri-insani, alçaldıcı, mənəvi-psixoloji məhvetmə siyasəti ilə üz-üzə qalmaları istisna edilərsə, ruslarla əlaqə və münasibətlər prosesində onların təbiət və xasiyyətlərini yaxşı öyrənmişdilər. Ruslar dünyada heç bir xalqın öz hakimiyyətindən, dövlətindən görmədiyi alçalmaya, təhqirə məruz qalaraq öz tarixinə, dövlətinə, hakimiyyətinə, zadəgan və ziyalısına nifrət edən, ona qarşı qisas hissi ilə yaşayan, bunun üçün məqam gözləyən, ruhu kin və nifrətlə dolaraq yaradıcılıq qabiliyyətini itirmiş, ancaq dağıdıcılığa yönəlmiş bir xalq idi. Bu

dağıdıcı qüvvənin hakimiyyətinin Romanovlar sülaləsinin rəhbərlik etdiyi rus imperiyasından daha dəhşətli və faciəvi olacağı bu xalqı tanıyan dərketmə qabiliyyəti olan hər bir insan üçün qorxulu və vahimə yaradıcı idi. Birinci Dünya prosesində müharibə ilə siyasətini pərdələyən rusların Qafqazın türk və müsəlmanlara amansız təcavüzü, onları Vətənlərindən didərgin salmaqla Qafqazı rus və digər xristianlarla məskunlaşdırma siyasəti daha da amansızlaşmışdı. Yaranacaq bolşevik rus imperiyasının tarixi rus müstəmləkəçiliyini daha da amansızlaşdıracağı, hələ başa çatmamış, lakin qaliblərin göründüyü müharibədə onların diqtəsi ilə dünyanın yenidən bölüşdürülməsi, yeni, daha dəhşətli dağıntılar törədəcəyi dərketmə qabiliyyəti olan hər kəsə görünürdü. "Müsavat" partiyası liderləri, adi istedadlı adamlar deyildi, onlar xalqın tənəzzül və yaradıcılıq göstərən mənəvi-sosial struktur səviyyələrini, tənəzzülə uğramış xalqı mənəvi qidalarla müalicə edib, ilkin mənəvi-mədəni təməl üzərində mənlik şüuru səviyyəsinə çatdırıb, yaradıcı millət səviyyəsinə yüksəltmək gücündə (zəkasında) milli varlığı bütün incəliyinə qədər dərk edən, dünya xalqları arasında, əkslikləri (ziddiyyətləri) və vəhdəti, bundan doğan siyasi həmrəyliyi və ziddiyyətləri (düşmənçilikləri) yiyələnmiş olduqları ilahi fəlsəfə sayəsində görür və qiymətləndirirdilər. Onlar Azərbaycan xalqını Birinci Dünya müharibəsinin "böyük fırtınalarından" bu müharibədə iştirak edən dövlətlər arasındakı əkslik və vəhdətlərin yaratdığı kiçik boşluqlardan (dolanbac cığırlardan) keçirib, müstəqilliyə və milli dövlət quruculuğuna çatdıracaq fəlsəfi təfəkkürə malik dahilər idi. Gənc M.Ə.Rəsulzadənin böyük filosofluğu hər kəsin diqqətini çəkirdi.

"Müsavat" liderlərindən Y.V.Çəmənzəminli bolşevizmi doğuran səbəblər və törədəcək fəlakətlərdən bəhs edərək deyirdi: **"Bolşeviklik rus təbiətindən çıxan bir vulkandır... Bunun səbəbi də aşkardır: əsrlərcə yığılıb qalan acıqlar və intiqamlar dalğalanır. Deməli, bolşeviklik əsrlərin illəti, keçmiş səhvlərin məntiqi nəticəsidir. Bunun üçün bolşeviklikdə tikicilikdən çox yıxıcılığa əhəmiyyət verilir: "Yıxmaq, yıxmaq və öldürmək" şüarı hər yerdə hökmfərmandır"** (90, 39-43).

Yaranmış bu çətin vəziyyətdə N.Yusifbəyli Azərbaycan milli liderlərindən milli zəka göstərib və siyasi məsuliyyəti öz üzərlərinə götürməyi tələb edərək deyirdi: **"Təhlükəni gözünün içinə dik baxmalı, baş verəcək hadisələri qabaqcadan görüb, vaxtında müvafiq addımlar atmalıyıq"** (84, 61; 85, 48).

"Müsavat" partiyasının I qurultayı **"Milli istiqlala malik olmayan bir millət hürriyyət və mədəniyyətini də hifz edə bilməz", "İnsanlara hür-**

**riyyət, millətlərə istiqlal"** şüarları ilə müstəqil dövlət quruculuğunu elan etdi. Vəziyyət nə qədər ağır, çıxılmaz olsa da, **insani yaşamağın yeganə yolu milli dövlətçilik** seçilmiş və ideallaşdırılmışdı. Çünki, rusiyada Romanovlar sülaləsi devrilib, hakimiyyətə burjua (eser, menşevik, kadet) partiyaları, bolşevik və b. gəlməsindən asılı olmayaraq rus xalqının mahiyyəti, siyasəti dəyişmirdi. Onlar hamısı birmənalı müstəmləkəçi idilər, türk və müsəlmanlara qarşı alçaldıcı münasibətdə olmaqla onlara adi insani hüquqları vermək istəmirdilər. Xüsusən milli müdafiənin qorunması və yaşadılmasının əsası hərbçi sosial təbəqənin yaranmasına imkan vermirdilər. 1917-ci ilin martında Müvəqqəti hökumət çarizmin icra orqanlarını ləğv edib yerli hakimiyyət orqanları yaratmağa qərar verdi. Qafqaz canişinliyini ləğv edib, onun əvəzində Qafqazın IV Dövlət Dumasının 5 nəfər deputatından ibarət Tiflisdə yerləşən **Xüsusi Cənubi Qafqaz Komitəsi** təsis etdi. Komitə gürcü və erməniləri milli ordu yaratmaq üçün maliyyələşdirib, hərbi təchizatla təmin etsə də, Azərbaycan türklərinə və müsəlmanlarına milli ordu yaratmağa icazə vermədi. Oktyabr çevrilişindən sonra Peterburq bolşevik hakimiyyətini tanımaq üçün Cənubi Qafqaz Xüsusi Komitəsi buraxıldı və 1917-ci il noyabrın 15-də onun əvəzində **Cənubi Qafqaz Komissarlığı** yaradıldı. Onun sədri Y.Geqeçore seçildi. Komissarlıqda Azərbaycan F.X.Xoyski, M.Y.Cəfərov, X.Məlikaslanovla təmsil olundu.

Artıq Mart soyqırımı ilə bolşevik və daşnaklar Azərbaycanın paytaxtı olacaq Bakıda əhalini yurdundan didərgin salmaqla azərbaycanlılardan təmizlədi və bunun ardınca Bakı quberniyasını tutdu və bütün Azərbaycan-Qafqaz üzərində nəzarəti ələ keçirmək üçün RXKS maliyyə və hərbi yardımı ilə yeni ordu quruculuğuna başladı. **Belə bir şəraitdə nəinki milli dövlət quruculuğu, fiziki varlığın qorunub yaşadılması mümkünsüz görünürdü.** Milli dövlət quruculuğu ideyasında M.Ə.Rəsulzadə başda olmaqla "Müsavat" liderləri və onların ətrafında biləşən ziyalı və burjua liderləri qətiyyətli və dönməz idilər. Milli dövlət quruculuğuna nədən, haradan, necə başlamağı dəqiq müəyyənləşdirmək siyasi liderlərin vəzifələri idi. Rusiyanın XIX əsrdə Qacarlar monarxiyasından Qafqaza gətirdikləri ermənilər bu dövrdə artıq qafqazlı kimi tanınsalar da, onlarda qafqazlı mentaliteti yox idi. Hansı partiyada olmasından asılı olmayaraq beynəlxalq imperializmin casus şəbəkəsi idilər, beynəlxalq imperializm, hakimiyyətə gəlmiş bolşeviklər onlara Türkiyə və Qafqaz ərazisində dövlət yaradacağı vədi ilə özünə işlədirdi. Göründüyü kimi, onlar ən fəal siyasi qüvvə kimi Müvəqqəti hökumətin Cənubi Qafqaz Xüsusi Komitəsində təmsil olundular, bunun ardınca oktyabr çevrilişindən sonra yaradılan Cənubi Qafqaz Komissarlığında təmsil olun-

dular. Bakı Sovetində və Bakı Xalq Komissarları Sovetində hakimiyyəti tam ələ keçirmişdilər.

Ermənilərdən fərqli olaraq gürcülər qafqazlı olaraq gürcü mentaliteti ilə bərabər, ümumqafqaz mentalitetinin daşıyıcıları idilər. Çar rusiyası siyasətinin nəticəsi olaraq Gürcüstan kimi tanıdılmaqda olan Borçalı və digər vilayətlərin əhalisi ancaq Azərbaycan türklərindən ibarət idi. "Müsavat" partiyası ümumazərbaycan partiyası olmaqdan ümumqafqaz müsəlmanlarının partiyasına çevrilmişdi. "Müsavat"çılıq ümumqafqaz müsəlmanlarının milli-istiqlal ideologiyasına çevrilmişdi. Gürcüstanda bu mənəvi-siyasi gücü gürcü liderləri bütün aydınlığı ilə görürdülər. Ümumiyyətlə, gürcülərdə milli mənlik şüuru, gürcü ziyalı və aristokratiyası olsa da, müstəqil dövlətçilik ideologiyası yox idi. Gürcülərdə milli dövlətçilik ideologiyası rusiya Dövlət Dumasının azərbaycanlı deputatları, Fevral burjua inqilabından sonra bilavasitə M.Ə.Rəsulzadənin və digər "Müsavat" liderlərinin təsiri ilə oyanmışdı. Bu zaman artıq Almaniya da siyasi-geopolitik məqsədləri üçün gürcülərdə müstəqillik ideyasını canlandırır və müdafiə edirdi. Qafqazın federasiyası ideyası Azərbaycan milli liderlərinin taktiki gedişi deyildi. Onlar Qafqazın, Azərbaycanın əbədi müstəqilliyini Qafqaz xalqlarının birliyində görürdülər.

1917-ci il oktyabr çevrilişindən sonra RSDF(b)P Qafqazı silahlı üsulla tutmaq məsələsi müzakirə olunanda Gürcüstanda silahlı üsulun, hətta "adi bir atəşdən" istifadə olunmasına Lenin və Stalin etiraz etmişdilər (92, 173).

Peterburqda oktyabr çevrilişi ilə Azərbaycan türklərinin yeni bir milli-mənəvi keyfiyyəti üzə çıxdı. Çar rusiyası Qafqazı işğal etdikdən sonra bu xalqların hərbi və milli ruhunu öldürmək üçün müsəlmanların zadəgan hüquqlarını rus, gürcü və digər xristian xalqlardan aşağı bir səviyyəyə endirməyə çalışdı ki, elə bu zadəganlığın ləğvi demək idi. Çarizm bu tədbiri Azərbaycanda bütün sosial təbəqələri əhatə edən üsyan doğuracaq etiraz doğurdu. Çarizm geri çəkildi. Yəni, Azərbaycan zadəganı hərbi mükəlləfiyyət daşımalı və orduda iştirak etmək şərti ilə Azərbaycan zadəganlıq hüququnu təsdiq etdi. Beləliklə, Azərbaycan zadəganlığının qorunması və yaşadılması üçün Azərbaycan türkləri rus ordusunda hərbi xidmət etdilər. Çar hökuməti bu şərti qəbul edəndə bu şəxslərin tam rus mühitinə və təhsil sisteminə düşəndə assimilyasiya olunub ruslaşacağını düşünürdü. Lakin hadisələr bunun tam əksini göstərdi. Azərbaycan türkləri milli mənlik şüurunu yaşadaraq yüksək general rütbələrinə ucaldılar. Oktyabr çevrilişi zamanı rus ordusunda 200 Azərbaycan türkü zabit var idi. Çevrilişdən dərhal sonra onlar proletar hakimiyyətinə etiraz olaraq qırmızı bolşevik ordusunda iştirak etməkdən imtina edib vətənə döndülər. Azərbaycanın ayrı-ayrı bölgələrində, milli burjuazi-

yanın maliyyə dəstəyi ilə bütün xalq övladını orduya verən vətənpərvər qüvvələrə qoşularaq milli ordu quruculuğuna başladılar. Övladını orduya vermək nümunəsini də birinci olaraq H.Z.Tağıyev yaratdı. Maraqlıdır, bolşevik hakimiyyətini qəbul etməyən türk-müsəlman xalqların rus ordusunda xidmət etmiş əksər zabitləri də istiqlal ruhunu yaşatmaq üçün Azərbaycana gəldi. Qafqazın müsəlman xalqlarının bütün zabitləri Azərbaycanın müstəqilliyinə doğma işi kimi baxırdılar. Fəlsəfi təfəkkürə malik "Müsavat" liderləri bunları qiymətləndirir, bəzən də bu hissləri özləri yaradır və səmərəli istifadə edirdilər.

"Müsavat" partiyasının İstiqlal mübarizəsinin hüquq məsələlərinə XX əsr Azərbaycanın hüquq fəlsəfəsinin görkəmli nümayəndəsi Ə.M.Topçubaşov rəhbərlik edirdi. Onun təşkil etdiyi "müstəqil demokratik qrup"un istiqlal mübarizəsi proqramı "Müsavat" partiyasının proqramı ilə üst-üstə düşürdü. Onun "Müsavat" partiyası ilə fasiləsiz birgə fəaliyyəti mövcud idi.

Beynəlxalq münasibətlərdə siyasi mübarizənin ən gərgin məqamında müstəqilliyin elanının hüquqi tərəfləri elə dəqiq müəyyən edilməli idi ki, inandırıcı olsun, tərəfdar, müdafiəçi tapsın, inamsızlıq, müqavimət doğurmasın.

Tarixən mövcud olmuş Qafqaz ideologiyasını zaman yenidən canlandırmışdı. "Müsavat" liderlərinin bu işdə xidməti mühüm rol oynamışdı. "Müsavat" liderləri Qafqaz birliyi, Qafqazın birgə müstəqilliyi ideyasını gürcü liderlərində yarada bilmişdilər. Odur ki, müstəqilliyin doğru praktiki addım və onun hüquqi bazasını yaratmaq məqsədilə Cənubi Qafqaz Komissarlığının yerli milli qanunlarla idarə olunmasının hüquqi əsaslarını yaratmaq məqsədilə Müəssısələr Məclisinin azərbaycanlı millət vəkillərinin təşəbbüsü və səyi ilə **1918-ci il fevral ayının 10-da Tiflisdə Cənubi Qafqazda Ümumrusiya Müəssisələr Məclisinə seçilmiş deputatların sayına müvafiq Zaqafqaziya Seymini təşkil etdilər.** Seymdə menşeviklər – 33, daşnaklar – 27, eserlər – 5, "Müsavat" partiyası müstəqil demokratik qrupla birlikdə 30, Azərbaycan müsəlman sosialist bloku – 7, hümmətçilər – 4, ittihadçılar 3 yerə malik idilər. Zaqafqaziya Seymində Azərbaycan müsəlman partiyaları blok təşkil etdilər. Blokda 44 nəfər müsəlman millət vəkili birləşirdi. Blokun lideri M.Ə.Rəsulzadə idi. Blokda aparıcı siyasi qüvvə "Müsavat" partiyası idi. "Müsavat" partiyası və siyasi baxışları onlarla üst-üstə düşən "müstəqil demokratik qrup" Seymdə Qafqaz xalqlarının müstəqil dövlətçilik ideyasını diqtə edir, siyasi-demokratik üsulla onun fəaliyyətini bu istiqamətə yönəldirdi (92, 129-139; 84, 43-83; 93, 75-79).

Zaqafqaziya seymi fəaliyyətə Türkiyə ilə sülh danışıqlarının müzakirəsi ilə başladı. Nümayəndə heyətinə Çxenkeli başçılıq edirdi. Sülh konfransı 1918-ci il martın 14-də Trabzon şəhərində başlandı. Zaqafqaziya Seyminin nümayəndələri yenicə bağlanmış Brest sülhünün Qars, Ərdəhan, Batuminin Türkiyəyə verilməsi, Cənubi Qafqaza aid və b. şərtlərini tanımaqdan imtina etdilər. Zaqafqaziya Seymi Petroqrad XKS-nə rəsmi bildirdi: "Brest sülhünü tanımır və Xalq Komissarlar Sovetinin hakimiyyətini qəbul etməmişdir". Zaqafqaziya Seymi Türkiyənin Qars, Ərdəhan və Batumu boşaltmaq tələbindən imtina etdi. Türkiyə Zaqafqaziya Seyminin nümayəndələrinə bildirdi ki, Cənubi Qafqaz müstəqilliyini elan etmədiyi üçün onlar beynalxalq hüququn subyekti sayıla bilməz. Gürcü və erməni nümayəndələrinin təklifi ilə Seym Türkiyə ilə danışıqları kəsib müharibəyə hazırlaşmaq haqqında qərar qəbul etdi. Lakin Türk ordusu Qars, Ərdəhan və Batumu tutdu, Seym Brest sülhünün şərtlərini qəbul etməyə məcbur oldu. Zaqafqaziya Seymi beynəlxalq hüququn subyektinə çevrilmək üçün **1918-ci il aprelin 22-də Qafqaz Federativ Demokratik Respublikasının yaranması haqqında qətnamə qəbul etdi və bu haqda bəyanat verdi. Aprel ayının 26-da** Zaqafqaziya Seymi Zaqafqaziya Federativ Demokratik Respublikasının hökumətini təsdiq etdi. A.Çxenkelinin təşkil etdiyi hökumətdə F.X.Xoyski − Ədliyyə naziri, N.Yusifbəyli − Xalq Maarif naziri, X.Məlikaslanov − Yollar naziri, M.Hacınski − Ticarət və sənaye naziri, İ.Heydərov − Dövlət nəzarətçisi vəzifəsini tutdular. **Bunun ardınca aprelin 28-də** Türkiyə Zaqafqaziya Federativ Demokratik Respublikasını tanıdı. Beləliklə, Zaqafqaziya Seyminin Azərbaycan deputatlarının milli fraksiyasının gərgin əməyi, Türkiyənin hərbi-siyasi təzyiqi ilə Zaqafqaziya Federtiv Demokratik Respublikasının yaranmasının elan edilməsi, Azərbaycanla Türkiyə arasında hərbi-siyasi əlaqələrin qurulması üçün hüquqi baza yaratmış oldu.

Siyasət, geopolitik plan və məqsədlər tez-tez dəyişirdi. Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi ilə bolşevik rusiyası ilə onun keçmiş müttəfiqləri arasında ideoloji düşmənçilik yarandığından İngiltərə ilə Fransa arasında bağlanan gizli müqaviləyə əsasən Qafqaz İngiltərənin təsir dairəsinə verilmişdi. Rusiya isə Brest-Litovskda Almaniya ilə bağladığı müqavilədə işğal etmək niyyətində olduğu Qars, Ərdəhan və Batumu Türkiyəyə güzəştə getmişdi. Almaniyaya Bakı neftindən pay verəcəyini vəd etməklə Türkiyəni Qafqaza − Azərbaycana buraxmamağa razı salmışdı. Həmçinin Gürcüstanın müstəqilliyini tanıyacağı ilə şinikdirib onu Türkiyəyə qarşı yönəltmişdi. Qafqaz məsələsində müttəfiqlər Türkiyə ilə Almaniya arasında münasibətlər anbaan pisləşirdi.

Rus imperiyası bir əsr ərzində azərbaycanlıları orduya almamaqla onun hərbi ruhunu öldürmək siyasəti nəticə verməmişdi. Azərbaycan xalqında vətənpərvərlik və milli hisslər elə bir səviyyəyə çatmışdı ki, onu hər hansı qorxu və təsirlə milli ideallardan döndərmək mümkün deyildi. Odur ki, Bakıda milli qırğının getdiyi bir vaxtda milli ordu hissələrinin yaradılması davam edirdi. General Ə.Şıxlinskinin rəhbərliyi ilə təşkil olunan Müsəlman korpusunun hərbi hissələri aprelin əvvəllərində Gəncə istiqamətində hərəkət edən bolşevik-daşnak qoşunlarına qarşı Hacıqabul ətrafında hərbi əməliyyata başladı. Köməyə gəlmiş gürcü hərbi hissələri ilə birlikdə Hacıqabulu bolşevik-daşnaklardan geri aldılar. Eyni vaxtda İsmayıl xan Ziyadxanovun komandanlığı ilə 3 min nəfərlik müsəlman hərbi hissələri Şamaxını bolşevik və daşnaklardan təmizlədilər (83, 71-77).

Zaqafqaziya Seyminin Zaqafqaziya Federativ Demokratik Respublikasının müstəqilliyini elan etməsi, bunun ardınca Azərbaycan milli ordusunun yaranması və Gəncə-Tiflis istiqamətində irəliləyən bolşevik-daşnak ordusunu məğlub edib, Hacıqabulu geri alması Bakıda hakimiyyəti ələ almış bolşevik-daşnak rəhbərliyini qorxuya saldı. Onlar Moskvadan təcili maliyyə, hərbi-texniki və əsgəri yardım istədilər. Ermənilərin "Erməni Sovet hökuməti" adlandırdığı S.Şaumyanın başçılıq etdiyi Bakı XKS Moskvadan istədiyi bütün yardımı aldı. Bakı məsələsinə, S.Şaumyana yardım məsələsinə Rusiya XKS-in sədri V.İ.Lenin şəxsən özü nəzarət edirdi. Rusiyadan gələn hərbi-texniki və əsgəri qüvvə hesabına bolşevik-daşnak orduları Hacıqabul və Şamaxıda Azərbaycan milli qüvvələrinin hücumunu dayandırıb, əks-hücuma hazırlaşdılar.

Bu zaman Qafqaz birliyi ideyası təbii bir proses kimi maddiləşirdi. Mart soyqırımına cavab olaraq Dağıstanın milli lideri imam Qotsinskinin rəhbərliyi ilə 1500 nəfərlik qoşun, yolda ona qoşulmuş 1000 nəfərlik könüllü Bakıya gəlmişdi (83, 71-72).

1918-ci il may ayının 11-də Batumda açılan Sülh konfransında Türkiyə, Almaniya, Zaqafqaziya Federativ Demokratik Respublikasının nümayəndələri ilə bərabər Şimali Qafqaz dağlılarının nümayəndələri də iştirak edirdi (89, 79).

Bu hadisə Qafqaz, İslam birliyi ideyası olaraq nəinki rusiya və Almaniyanı, beynəlxalq imperializmi narahat etdi. Qafqazı bölməkdə olan Almaniya və rusiyanı birbaşa fəaliyyətə keçirdi. Konfrans iştirakçıları RXKS-nin göstəriş və dəstəyini, yardımlarını almış S.Şaumyanın başçılıq etdiyi 13 min nəfəri erməni, 5 min nəfəri rus, bütün komandirləri erməni olan 18 minlik (83, 79-80) bolşevik-daşnak ordularının dəmiryol xətti boyunca Hacıqabul-

dan Kürdəmir istiqmətində Gəncəyə doğru hərəkət etməsi haqqında xəbər çatdı. Konfransın bütün gedişi prosesində Türkiyə və Almaniya münasibətləri pisləşirdi. Almaniya Türkiyənin Qafqazda nüfuz və mövqeyinin artmasına imkan verməmək məqsədilə gürcülərdən istifadə edir, onları ardıcıl olaraq Türkiyə və Azərbaycana qarşı yönəldirdi. Konfransın gedişində faktiki olaraq Zaqafqaziya seymi dağılmişdı. Elə buradaca Gürcü Milli Şurası gizli iclas keçirib, Almaniya hökumətindən onu qəyyumluğa götürməyi xahiş etdilər. Bu və b. məsələlər Almaniya ilə əvvəlcədən razılaşdırılmışdı. Zaqafqaziya Seymi Gəncəyə doğru hərəkət edən bolşevik-daşnak ordusunu dayandırmaq üçün heç bir tədbir görmədi. Zaqafqaziya Seyminin sədri Çxeidze Azərbaycan milli fraksiyasına Gürcüstanın müstəqilliyini elan edəcəkləri haqqında bəyanat verdi.

Mayın 26-da Zaqafqaziya seymi gürcü və azərbaycanlı millət vəkillərinin qarşılıqlı ittihamı şəraitində işə başladı. Almaniyanın himayəsini qazanmış gürcü millət vəkilləri Zaqafqaziya Seymindən çıxaraq müstəqilliklərini elan etdilər, bunun ardınca Zaqafqaziya Seymi özünü buraxdı. Yeni yaranmış Gürcü hökuməti Almaniya ilə müqavilə bağlayıb onun qəyyumluğuna girdi (84, 84).

Zaqafqaziya Seymi Azərbaycan milli liderlərinin səyi nəticəsində yaransa da, gürcü və erməni nümayəndələri siyasi şəraitin diqtəsi altında, mənafe baxımından bu qurumda Azərbaycan türkləri ilə birgə fəaliyyət göstərsələr də, gürcülər Almaniyanın və bolşevik rusiyasının onların müstəqilliyini tanıyacaq vədləri ilə Azərbaycana qarşı qeyri-səmimiliyi hər an özünü göstərirdi. Ermənilər hər yerdə, həmişə olduğu kimi burada da bir türk düşməni idilər. Maskalanaraq mənafeləri naminə fəaliyyət göstərirdilər. Nərimanovun rəhbərlik etdiyi hümmətçilər Bakıda S.Şaumyanla birlikdə olduğu kimi, Zaqafqaziya Seymində də müsəlman fraksiyasının üzvü kimi görünsələr də, həqiqətdə bolşevik-daşnaklarla birgə fəaliyyət göstərir, Moskva və Bakıda hakimiyyəti ələ almış bolşevik və daşnaklara casusluq edirdilər. Gürcülər Seymdən başlıca olaraq Türkiyəyə qarşı istifadə etməyə çalışırdılar. Hətta aprelin 13-də Türkiyəyə müharibə elan edəndə onun fəaliyyətini iki həftəyə dayandırmışdılar. Seymin Azərbaycan milli fraksiyasını hadisələrdən təcrid etmişdilər. Odur ki, Seymin azərbaycan milli fraksiyası ayrıca iclas keçirib, erməni və gürcü deputatlarla işləməyin necə mümkünlüyü, bolşevik-daşnak təcavüzünün dəf edilməsi məsələsi incəliklə araşdırıldı. Seymin azərbaycanlı milli fraksiyası qərara aldı ki, Seymin birdən-birə dağılmasına imkan vermədən, milli mənafeyimizə qarşı getməyən gürcü deputatlarla birgə fəaliyyəti davam etdirməklə Azərbaycanın müstəqilliyini elan etməyin beynəlxalq

zəruri şərtlərini araşdırıb tapmaq haqqında qərar qəbul etdi. M.Ə.Rəsulzadə bildirdi ki, birinci növbədə öz gücümüzə arxalanmalı və Türkiyədən kömək istəməyin lazımiliyini nəzərdə saxlamalıyıq (84, 61-64; 85, 45-46).

Göründüyü kimi, Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsi, istiqlala doğru irəliləyişi milli-mənəvi güc, zəka işığı ilə dünyanın hər kəsin görə bilməyəcəyi əkslikləri arasından keçirən fəlsəfi dərketmədən keçirdi.

Milli-mənəvi gücdən bəhs edərkən bir məqamı diqqətə çəkməyə ehtiyac duyuram. Yalnız ermənilər deyil, Azərbaycana göz dikən beynəlxalq imperializm Azərbaycan xalqına mənən ölmüş, milli-mənəvi siması olmayan, heç bir mənəvi gücə malik olmayan kütlə kimi yanaşırdı.

Bu yanaşma hətta Türkiyə rəhbərliyinə, hətta onun milliyyətçilərinə, onlardan biri, hərbiyyə naziri Ənvər paşaya da təsir etmişdi. O, Azərbaycana hərbi yardım məsələsində tərəddüd edirdi. 1917-ci ilin dekabrında ruslara əsir düşmüş, qaçıb Türkiyəyə keçmiş bir avstriyalı zabit Ənvər paşaya azərbaycanlıların hərbi ruha malik, döyüşə hər an hazır bir millət olduqlarını bunun üçün yalnız hərbi liderlərinin çatmaqığını inandırmışdır (89, 71).

Türkiyənin Azərbaycana hərbi yardım qərarında bu hadisə də kifayət qədər təsir göstərmişdir.

Zaqafqaziya Seyminin millət vəkilləri, “Müsavat” liderləri hər cür gözlənilməzliyi soyuqqanlılıqla qarşılayıb dəf etmək gücündə zəka sahibləri idilər. Odur ki, Zaqafqaziya Seyminin Azərbaycan milli fraksiyası may ayının 27-də fövqəladə iclas keçirdi. Mart hadisələrindən fövqəladə vəziyyətdə işləyən Azərbaycan millət vəkillərinin əmək fəaliyyəti daha da gərginləşdi. Beləcə, fövqəladə iclas yaranmış şəraitdə necə hərəkət etmək, nə kimi tədbirlər görmək, ilkin olaraq hansı işlərin icrasına başlamaq, yaranmış şəraitdə Qafqazda və Azərbaycandakı siyasi prosesləri tənzimləmək, Azərbaycanı idarə etmək üçün legitim hakimiyyət orqanı yaratmaq və hakimiyyəti öz üzərinə götürəcək Milli Şura yaradılmasına qərar verildi. Zaqafqaziya Seyminin müsəlman fraksiyasının bütün nümayəndələrindən ibarət Milli Şura və onun rəyasət heyəti yaradıldı. Batum danışıqlarında olan M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. Onun namizədliyini “İttihad”dan başqa bütün partiyaların nümayəndələri müdafiə etdilər. H.Ağayev və M.Seyidov sədrin müavinləri seçildilər. Milli Şuranın 9 nəfər üzvündən ibarət icraiyyə orqanı yaradıldı. F.X.Xoyski yekdilliklə İcraiyyə orqanının sədri seçildi.

Azərbaycan Milli Şurası mayın 28-də ilk iclasını keçirdi. M.Ə.Rəsulzadənin Batumdan göndərdiyi məlumat dinlənildi, Gəncədə, o cümlədən bütün Azərbaycanda yaranmış vəziyyət dərindən, ətraflı müzakirə olunaraq Azərbaycanın müstəqil Respublika elan olunmasının zəruriliyi əsaslandırıl-

dı. Məsələ Milli Şura üzvlərinin səs verməsinə çıxarıldı. İki nəfər bitərəf qalmaqla 24 səslə Azərbaycanın müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi, 6 bənddən ibarət "İstiqlaliyyət Bəyannaməsi" elan edildi (80,47-50).

Mayın 30-da Nazirlər Şurasının sədri F.X.Xoyskinin imzaladığı radioteleqrafla dünya dövlətlərinin xarici işlər nazirlərinə, onların paytaxtı − İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristanya (Oslo) və Kopenhagenə bu haqda xəbər göndərildi.

AXC-nin elanı V.İ.Lenin başda olmaqla Rusiya bolşevik-daşnak rəhbərliyini daha da aqressivləşdirdi. Bakı XKS-nin sədri S.Şaumyanın qırmızı ordu hissələrinə hücuma başlamaq əmri verildi. İyirmi minlik tank, top, təyyarə ilə silahlanmış bolşevik-daşnak ordusu Hacıqabuldan Gəncə istiqamətində hücuma keçdi. Yenicə təşkil olunmuş Azərbaycan milli ordu hissələri çevik döyüş əməliyyatları ilə onların Gəncə istiqamətində irəliləməsini ləngidirdi. Bu zaman Gəncəyə çatmış Nuru paşa yerli şəraitlə tanış olaraq Türkiyə hərbi dairələrinə məlumat verdi ki, dövrün yüksək hərbi texnikası ilə silahlanmış peşəkar bolşevik-daşnak ordusunu əzib Bakını geri qaytarmaq üçün döyüş təcrübəsinə malik ordu hissələri göndərilsin. İyun ayının 4-dən Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında dostluq müqaviləsinin hərbi yardım haqqında 4-cü maddəsinə əsasən Azərbaycana göndərmək üçün qoşun hissələri müəyyənləşdirildi. Azərbaycana yardım üçün yola çıxmış türk qoşunları onların yolunu kəsmək istəyən alman-gürcü hərbi birləşmələrini darmaqağın edib, çox hissəsini əsir götürərək yoluna davm etdi. İyunun 11-də Gəncəyə çatan türk qoşunları Azərbaycan milli qoşun hissələri ilə uzlaşdırılıb birbaşa cəbhəyə yola salındı. Döyüşə yeni başlayan Türk-Azərbaycan qoşunları Göyçayda bolşevik-daşnak orduları ilə üzləşdi və amansız döyüşə girdilər. Yalnız Qaraməryəm ərazisində bolşevik-daşnak qoşunları üstünlük qazansa da, onların Gəncə istiqamətində hərəkəti dayandırıldı. Qaraməryəm cəbhəsində məğlubiyyətin səbəblərini araşdırmaq üçün Nuru paşa döyüş yerinə gəldi. Döyüş şəraiti dərindən təhlil olundu, yeni hücum əməliyyatı hazırlandı. Hücum əməliyyatına iyunun 28-də başlanması planlaşdırılırdı. Bundan xəbər tutan bolşevik-daşnak orduları iyunun 27-də səhər saat 6-da gözlənilmədən Azərbaycan-Türk ordusuna hücum etdi. Onların bu hücumunu dəf edən Azərbaycan-Türk qoşunları sentyabrın 15-nə qədər ardıcıl bolşevik-daşnak orduları üzərində qələbə çalaraq, səhər saat 18:30-da ABŞ,İran, İsveç və Danimarka konsullarının iştirakı ilə Bakıda hakimiyyəti ələ keçirmiş rus impriyasının yetişdirməsi olan bolşevik,

daşnak, eser, menşevik tör-töküntülərinin əlindən alıb, bu torpaqların tarixi sahibi Azərbaycan xalqına, onun yenicə qurduğu Azərbaycan Xalq Cümhuriyyətinə qaytardı, tezliklə asayişi bərpa etdi. Sentyabrın 17-də Azərbaycan hökuməti Gəncədən Bakıya köçürdü. Beləliklə, Bakıda

İstiqlal, o yaşayan millətin qəlbində qan,
İstiqlal, o səadət, həyat, zəfər, şərəf, şan.
İstiqlal, o sönməyən məhəbbət bir məşələ,
Könüllərdə tutuşur, sözlərdə sönsə belə − (Gültəkin) deyə siyasət dilindən poetik dilə çevrilərək xalqın qəlbinin mənəvi-ruhu çalarlarını ifadə edən himn kimi küçələrdə nəğməyə çevrilib oxunurdu.

AXC dövlət quruculuğu, iqtisadi-sosial həyatın bərpası ilə bərabər beynəlxalq hüququn subyekti kimi tanınmaq üçün fədakarcasına çalışırdı. Bu məqsədlə Paris Sülh Konfransına Ə.M.Topçubaşovun rəhbərliyi ilə nümayəndə heyəti göndərilmişdi. Konfransda Ə.M.Topçubaşovu ABŞ prezidenti V.Vilson qəbul etdi. O, ABŞ prezidentinə dedi: "Sizə müraciət edib xahiş edirik ki, cənab prezident, bizim ölkəmiz, bizim xalqımız və elə bizim özümüz haqqında məlumatı bizdən eşidəsiniz. Çünki, biz Avropa və Amerika mətbuatında tez-tez Azərbaycan haqqında səhv, saxtalaşdırılmış və həqiqətə uyğun olmayan məlumatların verilməsini eşitməli oluruq. Düzdür, bizi hələ yaxşı tanımırlar, biz indi birinci dəfədir ki, Avropadayıq, lakin Sizi əmin edirik ki, müstəqil yaşamaq üçün bizdə hər şey vardır. Biz ümid edirik ki, Konfrans bizi dinləyəcək və biz Millətlər Cəmiyyətinə buraxılacağıq.

Biz bildiririk ki, nə Kolçakın, nə Denikinin, nə də köhnə rusiya imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan qeyri-birisini tanımayacağıq. Biz Azərbaycan üçün yalnız öz parlamentimizi və öz hökumətimizi tanıyırıq və tanyacağıq" (84, 195).

Görüş zamanı Ə.M.Topçubaşov öz məntiqi, davranışı, faktları təqdim etmə üsulu ilə ABŞ przidentində özünə qarşı rəğbət və dediklərinə inam yarada bilməsinin nəticəsi idi ki, o, Ə.M.Topçubaşovdan Qafqaza, onun xalqlarının mentalitetinə dair məlumatları da diqqətlə dinlədi. Görüş zamanı V.Vilson Azərbaycanın müstəqilliyini tanınması məsələsini açıq saxlayaraq bildirdi ki, "Azərbaycan məsələsi rus məsələsindən əvvəl həll edilə bilməz" (84, 197) desə də, − danışıqlar zamanı vəziyyəti yerində öyrənmək üçün Qafqaza xüsusi Amerika Komissiyası göndərilməsi haqqında razılığın əldə edilməsi, V.Vilsonun "rus məsələsi"nə qədər Azərbaycan məsələsinin gözlədilməyəcəyinə işarə idi.

Paris sülh Konfransında Azərbaycanın müstəqilliyini tanıtmaq, qəbul etdirmək üçün Avropaya gəlmiş Azərbaycan diplomatik nümayəndə heyə-

tinin konfransdakı davranışları, Avropa mətbuatında Azərbaycan və Azərbaycan türkləri haqqında Avropa xalqlarının dillərində nəşr etdirdikləri kitabça və məqalələrlə erməni, rus və digər xəbis, irqçi, müstəmləkəçi siyasətçilərin yaratıqları "vəhşi türk", "vəhşi müsəlman" obrazlarını təkzib edir, şüurlardan silməyə başlayır. Azərbaycan nümayəndə heyətinə sağlam Avropa düşüncəsinin məhsulu olan "hər xalqın özünə layiq lideri, dövləti olar" aforizmilə yanaşmağa başlayır. Azərbaycan nümayəndə heyəti Azərbaycan xalqına Avropanın köhnə yanaşma stereotipini qırır. Bu cəhətdən Azərbaycan xalqının mənəvi-siyasi durumu haqqında məlumat toplayıb, Paris Sülh Konfransına təqdim etmək üçün Azərbaycana ezam edilmiş ingilis hərbi jurnalisti Skotlend − Liddelin yazdıqları Avropada xüsusi maraq doğurdu. O, yazırdı: "Transqafqaz şaiyələr ocağıdır. Burada şaiyələr külək təpələr arasında yayılan kimi yayılır. Bir çox şaiyələr Moskvada quraşdırılır və dövrəyə buraxılır. Bakıda ingilis ordusuna ehtiyac yoxdur. Azərbaycan öz-özünə qayğı göstərə bilər. Mən bura iki gün əvvəl gəlmişəm və açığını deyim ki, bütün gördüklərim məndə dərin təəssürat yaradıb. Mənim şəhərdə olmadığım dörd həftə ərzində burada çox təəccüblü dəyişikliklər olub. Mən buraya gəldim ki, hamının mənə dediyi qarışıqlığı görüm, lakin onu tapa bilmədim. Tam qayda-qanun var. Mənə dedilər ki, mən ordu əvəzinə pozğunlaşmış kütlə görəcəyəm, lakin mən yaxşı, nümunəvi, güclü, odlu-alovlu gənclər gördüm. Doğrudan da mən indi Bakıda elə qayda-qanun gördüm ki, müharibə başlayan vaxtdan bu günə qədər Bakıda olmamışdı... Qayda-qanun ancaq Bakıda hökm sürmür, son dəyişikliklər bütün Respublikada vəziyyəti aydınlaşdırmışdır. Qarabağ şuluqluğunu sülh əvəz etmişdir. Ermənilər və tatarlar (türklər − X.X.) sazişə gəlmişlər. Lənkəranda bolşeviklər Azərbaycan ordusu tərəfindən məğlubiyyətə uğradıldılar. Onlar bütün silah və sursatlarını Azərbaycan hökumətinə təhvil verdilər. adamlar isə xahiş etdilər ki, onları Azərbaycan hökumətinin tabeliyinə götürsünlər... Bütün bunlar şübhəsiz sübut edir ki, Azərbaycan qarmaqarışıqlıqdan qorxmur və bolşeviklərdən çəkinmir. Azərbaycan dövləti indi Transqafqazın bütün xalqları üçün həqiqi nümunəyə çevrilmişdir" (94, 59-60). Sözünə davam edən Skotlend − Liddel yazır ki, mentalitetə və digər mənəvi dəyərlərə görə "tatarlar (türklər − X.X.) ermənilərdən çox üstündür" (84, 309).

**Ən çətin hətta fövqəladə şəraitdə Azərbaycan xalqının göstərdiyi həmrəyli, daxili mənəvi güc, hərbi-siyasi iradə, yenicə yaranmış AXC-nin beynəlxalq səviyyədə milli və hüquqi iradə nümayişi, Paris Sülh Konfransında iştirak edən diplomatik heyətin vəhdətdə olan səyi ilə Paris Sülh Konfransının Ali Şurasının 11 yanvar 1920-ci il tarixli qərarı**

**ilə Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq münasibətlərin subyekti kimi tanındı.**

Beləliklə, Azərbaycan xalqının, onun milli liderlərinin gərgin mübarizəsi, minlərlə insanın qanı bahasına qurulan Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik dövlət olmaqla bərabər o, Avropa və ABŞ demokratiyasından da irəli getməklə mövcud Avropa demokratiyanın ikili xarakterindən qəti imtina edirdi. Avropa dövlətləri, o cümlədən ABŞ öz xalqı üçün demokratik olub, digər xalqlar üçün, xüsusilə müsəlmanlara qarşı irqçi, despot olduğu halda, Azərbaycan Xalq Cümhuriyyəti daxili və xarici siyasətində irqindən, cinsindən, milliyyətindən asılı olmayaraq bütün millətlərin hüquq bərabərliyini elan etməklə bərabər, hər hansı etnosa, xalqa qarşı üstünlük nümayiş etdirilməsini qəti qadağan edirdi. O, yalnız öz xalqının deyil, bütün dünya xalqlarının sosial-mənəvi və iqtisadi-siyasi cəhətdən azad, demokratik inkişafına şərait yaradılmasına çalışırdı.

Yuxarıda gördüyümüz kimi, F.Qurbanov **Avropa tarixinə istinadən, onu milli fəlsəfənin yaranmasının yeganə forması kimi ölkədə kapitalist münasibətlərinin yaranması ilə millətin formalaşması, bu prosesdə milli kimlik şüurunun doğması, onun təsiri altında milli fəlsəfə yaranması qənaətindədir və bu formanı bütün xalqlarda milli fəlsəfənin yaranmasının ümumi qanunauyğunluğu hesab edir. Ancaq nədənsə, belə bir inkişaf mərhələsini keçən Azərbaycanda nə milli fəlsəfədən, nə də ümumən fəlsəfədən bəhs etmir. Sanki Azərbaycanda nə kapitalizm olmuş, nə də onun doğurduğu millət, nə də onun fəlsəfəsi. Hansı ki, bəşəri şər rus bolşevikləri Azərbaycanda milli durumu saxtalaşdırıb, onu patriarxal qəbilə-tayfa birliyi kimi təqdim etməyə çalışsalar da, Azərbaycan toplumunun millət səviyyəsində durumunun üstündən xətt çəkə, onu dana bilməmişdilər. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda kapitalist münasibətlərinin yüksək inkişaf səviyyəsində olduğunu, Azərbaycan xalqının millət kimi formalaşmasını, yüksək milli mənlik şüuruna malik olduqlarını etiraf etmişlər (ətraflı bax: Azərbaycan tarixi, 2-ci cild. Bakı, 1964, onun ədəbiyyat siyahısı).** AMEA-nın Tarix, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutları və b. tarix müəssisələrində XIX əsrin sonu – XX əsrin əvvəllərində millət kimi təşəkkülü haqqında kitablar yazılıb, namizədlik və doktorluq dissertasiyaları müdafiə edildiyini nəzərə almasaq, Fəlsəfə İnstitutunda XIX əsrin sonu – XX əsrin əvvəllərində milli oyanış, ümmətçilikdən millətçiliyə keçid, millət kimi formalaşma haqqında neçə-neçə namizədlik və doktorluq dissertasiyası yazılmışdır. F.Qurbanovun bütün bunları nəzərə almaması, özünü görməzliyə qoyması təəssüf

doğurur. Əlbəttə, heç bir ideyanı zorla kiməsə qəbul etdirmək olmaz. Ancaq hər hansı bir ideyanı qəbul etməyəndə bunun üçün elmi və faktiki materiallara, müddəalara istinad etmək elmi tədqiqatın əsas metodudur. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda xalqın millət kimi inkişafı üçün iqtisadi-sosial, siyasi-ideoloji əsasları yaradan kapitalizm cəmiyyətin bütün sahələrini əhatə etmişdi; xalqı tarixi mənəvi irs zəminində mədəni-ideoloji, siyasi cəhətdən yekdilləşdirən, milli "Müsavat" ideologiyası yaradan, bu ideologiya ilə dövlət quruculuğuna səfərbər edən, beynəlxalq hüququn subyektinə çevirən yaradıcı M.Ə.Rəsulzadə fəlsəfəsi hakim idi. Fəlsəfə elmlər doktoru, akademik fəlsəfə tədqiqatçılarının bunları görməməsi hər şeydən əvvəl mənəvi problemdir.

1917-ci ilin oktyabrın 25-də Peterburqda xalqın kütləvi dəstəyi ilə bolşeviklərin hakimiyyətə gəlməsi, doğma vətənində xalqın yenicə yetişməkdə olan insan haqları, hüquqları və azadlıqları haqqında bəhs edən zümrələri − ziyalı, zadəgan, elita − bütün düşünən başları məhv edib, kütlə ideologiyası, − sosializm ideologiyası əsasında rus proletariatının rəhbərliyi ilə keçmiş rus imperiyasını bərpa etmək məqsədilə rus proletariatı, lümpenproletariatı və kəndlilərini **Qırmızı ordu adı altında silahlandırıb, azadlığını yenicə qazanmış xalqları qan içində boğaraq, xalqların ziyalı, zadəgan və aristokratiyasını öz xalqında olduğu kimi məhv etməsi, rus xalqının bolşevik ideologiyasına uyaraq onun ardınca getməsi, törətdiyi faciələr rus xalqının fəlsəfəsizliyinin, yaradıcılıq ruhundan məhrum olmasının nəticəsi idi;** bolşevik-daşnak hərbi təcavüzündən fiziki varlığını qorumağın mümkünsüz göründüyü bir şəraitdə Azərbaycan xalqının yad sosialist ideologiyasından imtina edib, istiqlalını qazanıb, bəşəriyyətin ən qabaqcıl nailiyyətləri səviyyəsində dövlət, sosial-iqtisadi, mənəvi-ideoloji quruculuq göstərməsi, onları bu **fəaliyyətə istiqamətləndirən mentalitetlərinə uyğun yiyələnmiş olduqları fəlsəfə idi; Azərbaycan xalqının azadlıq ruhu, milli liderlərinin təfəkkürlərinin ilahi fəlsəfəyə köklənmiş olmasının nəticəsi idi.**

XX əsrin böyük filosofu M.Ə.Rəsulzadə ətrafında birləşən Azərbaycanın milli liderləri Azərbaycan xalqında rus müstəmləkəçiliyinin öldürdüyü mənlik şüuru, çökdürdüyü milli-mənəvi dəyərlər sistemi, söndürməyə çalışdığı intellekti fəlsəfi ideologiya və metodla əksliklərin mənəviyyatda, şüur və təfəkkürdə milli-mənəvi təmələ qayıdışı və yaradıcılıq doğuracaq vəhdətini yaratmaqla milli-mənəvi həyatın bütün sahələrini əhatə edən keyfiyyət dəyişikliyinə, inkarlar sisteminə nail olmaqla istiqlalın, milli dövlət qurucu-

luğu və milli həyat tərzinin yaradılması kimi böyük tarixi missiyanı həyata keçirdilər, reallaşdırdılar.

F.Qurbanov məqaləsində Azərbaycan türklərində milli fəlsəfənin, millət kimi təşəkkül etmə və milli dövlət quruculuğu prosesini, onun xüsusiyyətlərini açacağını vəd etsə də, bunu etmir. **Azərbaycan türklərinin Avropa imperializminin hərbi təcavüzü şəraitndə, fiziki varlığı üçün təhlükənin aradan qaldırılması dünyanın ən məşhur sərkərdəsi "çıxılmaz hesab etdiyi" bir şəraitdə Azərbaycan türklərinin mümkünsüz olanı mümkün olana çevirən M.Ə.Rəsulzadə kimi filosof doğuşu, onun ilahi fəlsəfə təlimi əsasında milli ideologiya yaratması, bu ideologiyanı şüurlara aşılamaqla xalqının millət kimi təşəkkülünə, milli istiqlalına, milli dövlət quruculuğuna, ümumi milli-mənəvi həyatda xariqələr yaratması üstündən sükutla keçməsi bütünlüklə anlaşılmazdır. Bundan aşağıda xüsusi bəhs edəcəyik.**

"Milli fəlsəfə" (B., 2019) monoqrafiyasında xüsusi təhlil üçün seçdiyimiz əsərlərdən biri Əli Abasovun "Milli fəlsəfə: problemin qoyuluşu, metodologiyası, tarixi və mövcud durumu, perspektivi" adlı əsəridir. Yuxarıda bəhs etdiyimiz kimi, Ə.Abasov AMEA Fəlsəfə və Sosiologiya İnstitutu "Müasir fəlsəfi problemlər" şöbəsinin müdiri olmaqla 2011-ci ildə **"Müasir Azərbaycana hansı fəlsəfə lazımdır?" mövzusunu da** birinci olaraq məhz o müəyyənləşdirmiş, şöbə əməkdaşları, Fəlsəfə İnstitutu və EA İnstitutlarının fəlsəfi yaradıcılığa meyl edən əməkdaşları ilə müzakirələrdən sonra tədqiqat mövzusu kimi müəyyənləşdirilmişdir. Milli fəlsəfə yaradılması axtarışı, ilə yazılmış monoqrafiyalar seriyasının 10-cu kitabı nəşr olunmuşdur. Göründüyü kimi, Əli Abasov milli fəlsəfə yaradıcılığı ideyasının əsas, aparıcı müəllifi olmaqla bərabər, bu on monoqrafiyanın materiallarının toplanması, sistemləşdirilməsi və nəşrinin təşkilatçısıdır. Milli fəlsəfə yaradılması axtarışında seçiləcək yolun aydın olması, istiqamətləndirilməsi üçün birinci – "Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris" (B., 2011) kollektiv monoqrafiyada o, "Müasir Azərbaycana hansı fəlsəfə lazımdır?" əsəri ilə çıxış etmişdir.

Əli Abasov yazır: "Azərbaycanın bu günkü inkişaf problemlərinin onun **mədəni irsi fonunda** müzakirəsi təqdim olunmuş əsərin adında ehtiva olunan suala mümkün cavabların müəyyənləşdirilməsinə yardım edə bilər... Məhz bu kontekstdə **milli mədəni irs cəmiyyətin dayanıqlı konsolidasiyasına və ölkənin pozitiv inkişafına ya mane olur, ya da mədəniyyətin uğurlu təfsir modeli olduqda ona yardım edir"** (95, 25-26) – deyən Əli Abbsov "Müasir Azərbaycana hansı fəlsəfə lazımdır?" sualı ilə ifadə olu-

nan tədqiqat mövzusunun məqsədi olaraq bildirilir: "Belə fərz edilmişdir ki, **sualın mədəni irsin cəlb edilməsi ilə müzakirəsi**, Azərbaycanın müstəqillik əldə etdikdən sonra başlanmış keçid prosesləri və qloballaşma şəraitində mümkün cavabların formula edilməsinə kömək göstərəcək. Konkretləşdirilmiş proqram belə göstərir: əsas geopolitoloji amilin (qloballaşmanın) bütövlükdə dünya proseslərinin gedişinə və ayrı-ayrı ölkələrin, onların sosmədəni inkişaf modellərində ifadə olunmuş inkişaf ssenarilərinin dəyişməsinə təsirinin təsvir edilməsi. Biz belə fərz edirik ki, məhz bu kontekstdə milli mədəni irs cəmiyyətin davamlı həmrəyliyi və ölkənin tədrici inkişafına ya qarşı dayanır, ya da **mədəniyyətin uğurlu təfsir modeli yaradıldıqda** həmrəylik və inkişafa yardımçı olur. Metodoloji planda dünyagörüşü səviyyəsində **post-modernizm və post-qeyri klassik epistemologiya** konsepsiyaları ilə birləşdirilmiş mənəvi və mədəni axtarışların ümumi vəziyyətinə diqqət yetirmək lazım gəlirdi" (96, 20-21).

Beləliklə, Əli Abasov "Müasir Azərbaycana hansı fəlsəfə lazımdır?" mövzusunu AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Müasir fəlsəfə problemləri" şöbəsinin elmi tədqiqat mövzusuna çevirərək, özünün bu adda yazdığı əsərlə "dünyanın "obyektiv" mənzərəsini yaradan fəlsəfə axtarışına" həsr olunmuş birinci monoqrafiyanı – "Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris" (B., 2011) adı ilə nəşr etdilər. Fasiləsiz davam edən axtarış prosesində fəlsəfənin nəzəriyyələrinə, metodlarına, tarixinə və b. probleminə həsr olunmuş 10-cu monoqrafiya nəşr olunmuşdur. "Milli fəlsəfə" (B., 2019) adlanan monoqrafiyaya ön söz yazmış Əbülhəsən Abbasovun sözləri ilə desək, Azərbaycan xalqının qarşısında duran problemlərin həlli metodlarını müəyyənetmək, milli yaradıcı fəlsəfə yaratmaq axtarışında "bu kitab... xüsusi yer tutur və və əhəmiyyət daşıyır". Qeyd edim ki, Əli Abasov bu on monoqrafiyanın hər birində milli fəlsəfə yaradılmasının probleminə müxtəlif aspektdən yanaşmışdır. O, "Milli fəlsəfə" (B., 2019) monoqrafiyasındakı, **"Milli fəlsəfə: problemin qoyuluşu, metodologiyası, tarixi və mövcud durumu, perspektivi" adlı əsəri** bu axtarışların nəticəsi olaraq yalnız milli fəlsəfə yaratmaq axtarışı deyil, etnomilli varlığın inkişaf qanun və qanunauyğunluğunun dərki, Azərbaycan tarixinin yazılmasının elmi-fəlsəfi konsepsiyasını yaradılması yolunda əsaslı addımdır. Hər bir etnosun tarix səhnəsinə çıxması və onu tərk etməsinin mənəviyyat hadisəsi olması məsələsindən sətirlərin müəllifi "Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi" (B., 2007), "Sovet tarixşünaslığı – milli ölüm elmi" (B., 2010) monoqrafiyalarında bəhs etmişdir. Kommunist rus imperiyasının xalqımıza yetişdirdiyi "tarixçi" nəsli milli mənəvi tariximizi coğrafi-ərazi, əhali tarixinə çevirmiş-

dir ki, onların bu qeyri-elmi, milli mənəvi yaddaşı öldürmə, mənəvi varisliyi qırmağa yönəlmiş konsepsiyası gözəgörünməz imperiya əlaltılarının arxa durması sayəsində müstəqilliyimizin bərpasından 30 il keçməsinə baxmayaraq hələ də qüvvədədir. Tariximizin obyektiv yazılması üçün yeni elmi-nəzəri metodun tətbiqinə imkan vermirlər.

Ə.Abasovun milli fəlsəfə axtarışı fəlsəfəni məhz cəmiyyətin mədəni-mənəvi irsi ilə vəhdətdə onun tərkib hissələri, dəyərləri, normaları, din, əxlaq, mentalitet, özünəməxsusluq, sosial psixologiya, adət-ənənə, dünyagörüş, tarixi yaddaş, ideya, ideologiya, və s.-dən ibarət mənəvi sistemə qovuşmasının mexanizmini açaraq göstərir ki, **fəlsəfə mentalitet və özünəməxsusluqdan keçərək**, milli mənəvi sistemə qoşularaq onun sisteminin bir hissəsinə çevrilərək, bu sistemin yaradıcılıq və inkişafının determinasiyası funksiyasını yerinə yetirir. Beləliklə, o, milli-mənəvi həyatdakı durğunluğu aradan qaldırıb, mənəvi sistemi hərəkətə gətirməklə yaradıcılığa istiqamətləndirmənin **milli mənəvi inkişafın**ın **elmi-fəlsəfi konsepsiyasını yaradır**. Odur ki, Əli Absovun **"Milli fəlsəfə: problemin qoyuluşu, metodologiyası, tarixi və mövcud durumu, perspektivi"** əsərini Azərbaycan türkcəsinə çevirib, 40 yaşından aşağı tarixçi, etnoloq, ədəbiyyatçı, incəsənət xadimi, tələbə və tədqiqatçıların və b.-nın iştirakı ilə geniş, açıq müzakirə olunub, təkmilləşdirilmiş variantının kütləvi tirajla nəşri Azərbaycanda humanitar elmlərin elmi-fəlsəfi məzmun kəsb etməsi, gənc nəslin milli mənəvi irsə yiyələnmək üçün qiymətli metodiki yardım olardı. Odur ki, mən əsərin bu və ya digər müsbət tərəflərindən deyil, məhz milli fəlsəfənin mümkünlüyü və necə yaradılması probleminə münasibətimizi bildirəcəyik.

Fəlsəfənin mahiyyətindən bəhs edən Ə.Abasov yazır ki, fəlsəfənin ümumi xarakteri, insanlığın mənəvi inkişafını istiqamətləndirmək, bu prosesdə milli fəlsəfəni, onunla vəhdətdə rasional təfəkkürü, eyni zamanda bəşəriyyətin özünəməxsusluğunu müəyyənləşdirməkdir (97, 518). Göstərir ki, milli fəlsəfəni hansı aspektdən tədqiq etsən, onunla bağlı bir sıra problemlərə, suallara cavab verməli olursan. Milli fəlsəfənin tədqiqi onun genezisini müəyyən etmək üçün insanlığın tarixi tipləri etnos, xalq və millət kimi inkişaf mərhələlərindən bəhs etməli olursan. Beləliklə, o, Azərbaycan tarixində ilk dəfə fəlsəfənin genezisini müəyyənləşdirmək məsələsini qoyur. Böyük alman filosofu K.Yaspersin "elmi böhranın qarşısını ala biləcək yeganə şey, əzəli bilmək arzusu – ayrıca bir insanın xüsusiyyətidir və öz məsuliyyəti bahasına həyata keçirilir" (30, 514) sözləri Ə.Abasovun elmi yaradıcılığında, gənc istedadların axtarıb tapılması və onların himayəsində özünü göstərir.

Kommunist rus imperiyasının milli yaddaşımızı, milli dəyərlərimizi, bütövlükdə milli-mənəvi sistemimizi, yaradıcı fəlsəfəmizi baş-ayaq qoymuşdur. Odur ki, tariximizi öz mənəvi təməlinə qaytarmaq üçün milli fəlsəfənin yaradılmasını zəruri hesab edən Əli Abasov birinci olaraq fəlsəfənin genezisinə aydınlıq gətirib, xalqın hər bir inkişaf mərhələsinə (etnos, xalq, millət) uyğun mövcud olmuş fəlsəfəsində varisliyin müəyyənləşdirilib qiymətləndirilməsinə xüsusi önəm verir. Hər bir xalqın etnomilli inkişaf tarixinin özünəməxsusluğunun onun genezisindən – etnogenezindən gəlməsi artıq dünya elmində birmənalı sübut olunmuşdur. Milli mənəvi irsimizin inkişafının detrminatoru olmuş milli fəlsəfənin genezisinə aydınlıq gətirməsi, xalqımızın mənəvi varisliyi, tarixi yaddaşı, özünəməxsusluğu və s. mənəvi dəyərlərinin bərpası üçün xüsusi əhəmiyyət kəsb edir.

Ə.Abasov ataxaqanlığın inkişafının ən yüksək, son inkişaf mərhələsində tayfa ittifaqlarından ibarət etnosun (toplumun) özünəməxsusluğu tam formalaşıb, aydın etnik mənlik şüuruna yiyələnməklə yaratdığı qəhrəmanlıq dastanları vasitəsilə biz və onlar fərqləndirməsini nümayiş etdirdiyi dünyagörüş və b. mifləri milli fəlsəfənin ilkin genezisi, qaynaqları kimi qiymətləndirir (97, 518-519, 545).

Bu dünyagörüşdəki fəlsəfə toplumu etnos mərhələsindən xalq kimi təşəkkül və ilkin dövlət quruculuğuna nail olmağa çatdırır. Bu fəlsəfəni Ə.Abasov etnik fəlsəfə adlandırır. (Bu keçidin tarixi mənzərəsini izləmək üçün bax: ədəbiyyat 26; 30). Xalqın tam təşəkkülü mərhələsinə qədər fəlsəfəni etnik fəlsəfə adlandırır. O, ərəb, fars və b. dillərdə yazmış azərbaycanlı filosoflar – refleksiyasının predmetində vətənin təqdimatı olduğu təqdirdə Azərbaycan filosofu hesab edilə bilər mülahizəsindədir. Ərəb və fars dillərində poetik üslubda dünyaya münasibət göstərmiş və təsvir olunmuş fəlsəfi poeziyanın ənənəsi XX əsrin 30-cu illərində kommunist rus imperiyasının qadağasına qədər davam etdiyini göstərir. Refleksiyanın bu nümunəsi fəlsəfənin sonrakı dövrlərdə milli fəlsəfəyə təsir etməsi, onun predmetini, kateqoriya və problemlərini ifadə etməsi qənaətindədir. Çar rusiyasının Azərbaycanı işğalı dövründə ona qarşı mübarizə prosesində qərb rasionalizmi prinsiplərini əks etdirmişdir.

Ə.Abasov fəlsəfənin milli-mənəvi dəyərlər sistemi ilə vəhdətdə dərin təhlili nəticəsində qənaətə gəlir ki, milli dövlətçiliyi məhv edilib, müstəqilliyi əlindən alınıb imperiyanın dili, mədəniyyəti hakim olub, adi göstərişləri icra edən bir vəziyyətə düşdüyü ən böhranlı şəraitdə fəlsəfəni təşkil edən, yaradan əlaqələrin qırıldığı bir çağda xalqın imperiyaya etirazları prosesi milli fəlsəfə doğururdu.

Genezisi eposdan (ilk qəhrəmanlıq dastanı − X.X.) başlayan fasiləsiz inkişaf, mədəniyyət və ədəbiyyat milli fəlsəfəni doğurur. Ə.Abasov yazır ki, nəzərimcə dil ilkin xaos olub, ondan tədricən fəlsəfi refleksiya meydana gəlir, sonuncu isə sonradan etnik identifiklik və hökmran dinlə zənginləşir. Ədəbiyyat və mədəniyyət həmçinin milli mentaliteti yaradır, mentalitet özünəməxsusluğu, abstrakt təfəkkürün formalaşmasına yol açır, o da elmi dili, sistemləşdirici terminologiyanı, Azərbaycan fəlsəfə dilini, əsas kateqorial terminləri yaradır. Beləliklə, hər bir milli mədəniyyət – din – incəsənət, ədəbiyyat, fəlsəfə, elm tarixdn yaranmış qarşılıqlı sistemli əlaqə və fəaliyyət prosesində mürəkkəb refleksiya tipi yaradır (97, 546).

Şərhinə davam edən Ə.Abasov göstərir ki, milli mədəniyyətin elementləri (tarixi təcrübə, kollektiv psixikanın xüsusiyyətləri, dünyaanlamı və dünyagörüşünün tipləri) zaman-zaman fəlsəfi refleksiyanın (təfəkkürün) predmeti olur. İdentifikliyin formalaşması millətin unikal dünyaqavramının və dünyaanlamının, dünyagörüşünün qərarlaşmasına gətirir. Bu identifiklik şəxsiyyət və cəmiyyətin həyat fəaliyyəti strategiyasının seçimi və gerçəkləşməsinin əsasını təşkil edir. Seçilmiş identifiklik tipi milli fəlsəfənin ardıcıl formalaşmasına gətirən milli özünüdərkin genezisini müəyyənləşdirir. Ümummilli fəlsəfə cəmiyyət və şəxsiyyətin özünüdərkinin səviyyəsindən asılı olur (97, 546-547).

Bu nəzəri mülahizələrdən sonra son 200 ildə rus imperiyasının Azərbaycan xalqına vurduğu mənəvi zərbəni, onun mənəvi təməl əsaslarını dağıtmağa yönəlmiş siyasətini, hansı mənəvi əsaslar şəraitində varlığını − mənəvi dəyərlərini, özünəməxsusluğunu, fəlsəfəsini qoruyub yaşatmasının obyektiv dərk edilməsi üçün bu təməl əsasları təkrar nəzərə çatdıraraq yazır: **“Hər bir ölkənin tarixi onun taleyində əhəmiyyətli yer tutan dövrlərə bölünür. Bu sistemin başlanğıcında başlıca olaraq, sözsüz (şərtsiz) milli özünüdərk, özünəməxsusluq modelinin axtarışı və inkişafı mərhələsi xüsusi əhəmiyyət kəsb edən mərhələdir”** (97, 524).

Ə.Abasov son 200 ildə rus imperiyası zorakı surətdə Azərbaycan xalqını 4 dəfə milli təməl əsaslarını − mənəvi sistemini, dəyərlərini, özünəməxsusluq modelini dəyişməyə məcbur etməsi, bu dövrün hər biri, onun fərqli xüsusiyyətləri, mənəviyyatda pozucu və öldürücü aspektləri haqqında aydın elmi şərh verilmişdir.

Azərbaycan türklərinin millət kimi formalaşması, fəlsəfi idraka yiyələnməsi rus imperiyasının milli alçaltmaları, mənəvi pozuculuğu şəraitində baş vermişdir. Ə.Abasov bu prosesi bütün incəliyinə qədər müəyyənləşdirə bilmişdir. O, milli fəlsəfənin millətlə paralel sənaye inqilabı, kapitalizmin

inkişafı prosesində formalaşması nəzəriyyəsi ilə razılaşır, Azərbaycan xalqının millətləşməsi və milli fəlsəfənin formalaşmasının XIX əsrin sonu − XX əsrin əvvəllərində yaranması qənaətindədir. Lakin milli fəlsəfənin genezisinin XIX əsrin birinci yarısında Azərbaycan maarifçilərinin yaradıcılığında, onları milli fəlsəfənin günəşdən əvvəl qaranlıqları yarıb kainata işıq saçan "Ülkər" ulduzuna bənzədir (97, 525, 545). Azərbaycan maarifçilərinin yaradıcılığının fəlsəfə doğuracaq dəyərləri ən kiçik elementlərinə qədər bütün aspektlərinə aydınlıq gətirir. M.F.Axundovun tədqiqatçılarının əməyinə kölgə salmadan, deyim ki, Ə.Abasovun bu əsərində ilk dəfə M.F.Axundovun həqiqi filosof təqdimatını gördüm. Beləliklə, Ə.Abasov XIX əsrin II yarısında Azərbaycan xalqında milli özünüdərk, fəlsəfi yaradıcılıq göstərib müstəqilliyə, milli dövlət quruculuğuna nail olması prosesini, mənəvi əxlaqi dəyərləri, dini, siyasi, ideoloji fəlsəfi aspektlərini bütün incəliyinə qədər oxucuya təqdim edir; çarizmin və kommunist rus imperiyasının xalqların milli-mənəvi sistemini məhv etməklə "bir milləti başqa millətə çevirmə eksperimentlərini" Azərbaycanda həyata keçirmə, mənəviyyatsızlaşdırma, fəlsəfəsizləşdirmə prosesi elmi-fəlsəfi səviyyədə şərh olunmuşdur. Təəssüf ki, bu hissəni həyəcansız, stressiz oxumaq mümkün olmur.

Ə.Abasovun "milli fəlsəfə" haqqında aşağıda göstərəcəyimiz mülahizəsi bu ideyanın elmi-nəzəri cəhətdən dərk edilməsi, dəyərləndirilməsi üçün praktiki əhəmiyyət kəsb edir. O, yazır ki, "Milli fəlsəfə" anlayışı ilk növbədə onun məzmununun təhlilini tələb edir. **"Milli fəlsəfə" söz birləşməsində birinci termin həlledicidir, çünki məhz o, ümumbəşəri fəlsəfəni vahid dəyərlər sistemi ilə konsolidasiya olmuş ayrı-ayrı insan birliklərinin təkcə fərqli dünyagörüşü tiplərinə differensasiya edir.**

**Əvvəla, elmi-fəlsəfi və sosioloji tədqiqatlar praktikasında "millət" anlayışı konkret tarixi dövr ərzində təzahür edən müəyyən konstruksiya qismində çıxış edə bilər. İkincisi, o, hər bir millətə təkrarolunmaz unikallıq verən ümumi psixoloji, konfessional və mədəni səciyyə əsasında izah formula edə bilər. Üçüncüsü, millət dövlət daxilində etnik, konfessional, mədəni, gender və digər fərqlərdən asılı olmadan bərabər hüquqlar verilmiş ayrıca cəmiyyətin vətəndaşlarının həmrəyliyini nəzərdə tutan siyasi termin kimi də başa düşülə bilər.**

**Aydındır ki, milli fəlsəfənin təfsir olunan mahiyyəti "millət" anlayışının təhlili üçün seçilmiş mənasından asılı olaraq dəyişəcək,** ona görə də hər dəfə ona müraciət olunduqda aparılacaq təhlilin çərçivələrini öncədən dəqiq müəyyənləşdirmək zəruridir. Bununla birlikdə millətin tədqiqinə yuxarıda sadalanan bütün tərifləri birləşdirən sintetik metodologiyanın tət-

biqinə heç nə mane olmur. Belə bir sintetik kontekstdə milli fəlsəfənin həm cəmiyyətin, həm də onun ayrı-ayrı üzvlərinin transformasiyasını determinasiya edən, **fasiləsiz dəyişən xarici təbii və sosial mühit şəraitində millətin sağqalma və həyat tərzi strategiyasının inteqrativ konsepsiyasının** qərarlaşması gedişində refleksiyanın ali (əgər bu gün üçün ən ali olmasa) formalarından biri kimi adekvat tədqiqatına imkanlar yaranır.

Bəşəri refleksiyanın tarixi imkanlarının ardıcıl tədqiqini konsolidasiya olmuş insan birliklərinin həyat və sağqalma tərzini müəyyənləşdirən bir sıra paroloji, mifik, primordal, etno-epik, dini, fəlsəfi və elmi strategiya tiplərinə gətirmək olar. Aydındır ki, bu gün millət və onun ayrıca nümayəndələrinin müasir şəraitdə optimal həyat tərzini ifadə etməyə qabil olan növbəti, əsasən sintetik strategiyanın formalaşdırılmasına ciddi zərurət mövcuddur (97, 520-521).

Göründüyü kimi, Ə.Abasov bizə millətin üç tərifini təqdim edir və göstərir ki, "millət" anlayışının (tərifinin) hər bir forması üçün milli fəlsəfənin təfsir olunan mahiyyəti dəyişir. Əvvəla qeyd edim ki, "millət" anlayışına onlarla tərif verilmişdir. Bu təriflərin böyük çoxluğu siyasi məqsədlərlə yaradılmış, süni olub həqiqəti ifadə etmir. Xüsusi siyasi məqsədlər güdür. Misal üçün, ABŞ vətəndaşlığını qəbul etmiş, dövlət hüququ və dövlət dilini qəbul etmiş çoxsaylı xalqın və etnosun müxtəlif dinli və etiqadlı əhalisi ABŞ milləti kimi təqdim olunur. ABŞ-da bizim anlayışımızca (tərifimizcə) olan millət yoxdur, bizim anlayşımızda belə toplum əhali kimi qiymətləndirilir.

Dünya müharibəsi ərəfəsində M.Ə.Rəsulzadənin təkmilləşdirilmiş "Milli mədəniyyət və yaxud millət, dil birliyi, adət və əxlaq birliyi, ənənati-tarixiyyə və nəhayət, etiqadi diniyyə birliklərinin məcmusundan mütəşəkkil bir məhsuldur" (98, 486) tərifi əsasında xalqın mənəviyyatı yenidən quruldu, xalq tarixi vasitəsilə müalicə və tərbiyə edilərək özünü tam bərpa edib, milli dövlət quruculuğuna nail olub, millətin bütün atributlarına cavab verən mənəvi dəyərlər sistemi yaratdı.

"Milli fəlsəfə"nin "millət" anlayışına uyğunlaşması mülahizəsinə gəldikdə, **bizcə fəlsəfə heç nəyə, heç bir qüvvəyə uyğunlaşmayan yaradıcı zəkadır, yalnız onu dərk edənlər, mənimsəyənlər tərəqqi, inkişaf yolu tuturlar.**

Ə.Abasov fəlsəfə tarixinə ekskurs edərək yazır ki, "Azərbaycanda üstünlük təşkil edən fəlsəfə uzaq keçmişdən fasiləsiz mövcud olan fəlsəfə və bədii ədəbiyyat fəlsəfəçiliyi həqiqi fəlsəfəni təmin etmişdir. Bu klassik fəlsəfə XIX əsrin II yarısına, təxminən XX əsrin 20-ci illərinə qədər davam etmiş, fəlsəfənin ikinci qeyri-klassik mərhələsi XX əsrin sonu − XXI əsrin

əvvəllərinə qədər davam etmişdir. XXI əsrin II onilliyindən Azərbaycanda postqeyriklassik fəlsəfənin inkişafı müşahidə edilir və bu, müasir fəlsəfəyə dair nəşr etdirdiyimiz məqalələrdə və seriya monoqrafiyalarda özünü göstərir". O, şərhinə davam edərək yazır: **"Bu mərhələnin hər biri ümumbəşəri problemlərin nəzəri-praktiki və dünyagörüş paradiqmasını formalaşdırmışdır: fizika, metafizika, etika, dünyanın milli xəritəsinin konstruksiyasını, özünəməxsusluqlarını, milli ideya və ideologiyasını, inkişafın sosial-mədəni modelini yaratmış, cəmiyyət həyatının praktikasına, dövrün siqnalları və risklərinə cavabları müəyyən etmişdir".**

Ə.Abasov fəlsəfənin ümumi prinsiplərindən Azərbaycan üçün yaratmaq istədiyi milli fəlsəfənin cavablandırmalı olduğu idraki vəzifələrdən bəhs edərək yazır: **"Günümüzdə azərbaycançılıq modeli bu məzmuna yeni elementlər daxil etməyi tələb edir ki, bu modeli zənginləşdirib, gələcəyi proqnozlaşdıra bilsin – söhbət yeni milli fəlsəfənin formalaşdırılmasından gedir, bu fəlsəfə müasir şəraitdə azərbaycan millətinin həyat fəaliyyətinin gələcək istiqamətlərinə aydınlıq gətirməlidir.**

**Bu yeni milli fəlsəfə planda dünyagörüş, metodologiya olub**, ancaq postqeyriklassik idrak mərhələsini əks etdirməməli, problem situasiyaları müəyyənləşdirə bilməli, gələcəkdən xəbər verməli, idrakın hələ adı müəyyənləşməmiş 4-cü pilləsinə keçid etməlidir" (97, 551-552).

Bununla bərabər, Ə.Abasov hər dəfə milli fəlsəfəni şərh edərkən, onun ümumbəşəri fəlsəfə ilə eyni xüsusiyyətlərə malik olmasını xüsusi vurğulayır (97, 518, 520, 522, 551-552).

Əsərlərini tədqiqatımıza cəlb etdiyimiz milli fəlsəfə yaratmaq ideyası ilə çıxış edən fəlsəfə tədqiqatçılarının hamısının **fəlsəfənin başlıca olaraq ümumbəşəri səciyyə daşıdığını yazdıqlarının şahidi olduq. İndi onların milli fəlsəfənin nədən ibarət olması haqqında qənaətlərini qısaca xülasə edək.**

Kapitalizmin və fəlsəfə tarixinin tədqiqinə istinadən F.Qurbanov **XVII-XVIII əsrlərdə İngiltərə, Fransa, Almaniya və İtaliyada kapitalizm cəmiyyətinin yaranması prosesində formalaşan millətləri və onların həmin dövrdə yaratdığı fəlsəfəni "milli fəlsəfə"nin yeganə təbii modeli, XIX əsrin 30-40-cı illərində Polşa, İtaliya, İspaniya və slavyanlarda "milli fəlsəfə" yaradılması ideyalarının – milli şüurun, milli xarakterin bərpası və inkişaf etdirilməsi, qismən də milli ideologiyanın yaradılmasından ibarət olması nəticəsini çıxarmışdır.**

S.Xəlilovun nəzərincə: **“milli fəlsəfi fikir anlayışının məğzində millətin düşüncə tərzi, milli mentalitet, milli ideyalar və bu ideyalara çatmaq uğrunda mübarizənin ideya əsasları dayanır”, “milləti təmsil etmək səlahiyyəti olan, milli ruhun daşıyıcısı olan milli özünüdərk baryerini keçmiş olan tək-tək şəxsiyyətlərin – filosofların fəlsəfi konsepsiyalarından, bu konsepsiyaların şəbəkəsindən”, “milli ruhun nəzəri konseptual şərhindən ibarətdir”** (13, 91, 93).

Ə.Tağıyevin qənaətinə görə: **“Milli fəlsəfə, milli ideologiya” onun milli şüuru, mentaliteti və xarakteridir”** (65, 593, 594).

Ə.Abbasovun milli fəlsəfə yaratmaq konsepsiyasının əsasında – **aparıcı elmi-koqnitiv proqrama, kreativlik mənbəyi rolunda çıxış edən və məzmun-mahiyyət tutumu etibarı ilə özündə metodoloji, qnoseloji, ontoloji və aksioloji təfərrüatları, hədəf və vəzifələri, tələb və vasitələri, habelə, müvafiq leksika və prosedurları ehtiva edən milliliklə yoğrulmuş postneoklassik epistemologiya yaratmaq durur** (67, 557, 560-561).

Ə.Abasovun “Milli fəlsəfə” (B., 2019) monoqrafiyasında nəşr olunan “Milli fəlsəfə: problemin qoyuluşu, metodologiyası, tarix və mövcud durumu, perspektivi” adlı əsəri onun yaratmaq istədiyi müasir milli Azərbaycan fəlsəfəsinin genezisinin, tərəqqi və tənəzzülü təkamül tarixində yüksək səviyyədə aydınlıq gətirməsi ilə özünəməxsus yer tutur, yüksək elmi, fəlsəfi dəyərə malikdir. Ə.Abasov Azərbaycan elmi və milli ziyalıları represiyaya məruz qaldığı XX əsrin 30-cu illərindən sonra fəlsəfə tarixində millətin mənəvi varlıq kimi qiymətləndirilməsi istiqamətində ilk addım atmış, elə bu səbəbdən də fəlsəfəni mənəvi irsin tərkib hissəsi kimi milli-mənəvi dəyərlərlə birlikdə nəzərdən keçirmişdir. Tarixə müraciətlə fəlsəfəni etnogenezin ilkin təşəkkül mərhələsi olan, etnosun ilkin mənlik şüurundan doğan qəhrəmanlıq dastanlarında ifadə olunan dünyagörüş və b. mənəvi dəyərlərin dərk edilməsindən ibarət bir forması kimi qiymətləndirir. Elə həmin mərhələdən etnik-milli mənəviyyatda yer tutan fəlsəfi təfəkkürün tərəqqi, inkişaf və tənəzzül dövrlərindən bəhs edir. XIX-XX əsrlərdə rus müstəmləkəçiliyinin təcavüzü ilə insanlıq üçün ölümdən ağır ən alçaldıcı, əzabverici hesab olunan Azərbaycan türklərini etnonimdən məhrum etməklə, mənlik şüurunu unutdurmağa, qondarma etnik-milli adlarla yaşamağa məhkum edilsə də, fəlsəfi təfəkkürün ona mənəvi dəyərləri qoruyub yaşatmağa, bunun nəticəsi olaraq insanlığın – millətin mahiyyəti olan azadlığının bərpasına çatdırdığını göstərir. Lakin azadlığının elə ilk günündə qloballaşmanın sərt fırtınaları ilə üzləşdi. Ə.Abasovun qənaətimcə xalqımızın təfəkküründə fəlsəfənin mövcud

durumu, onu bu təlatümdən çıxaracaq səviyyədə deyil, bu fırtınadan qorunub çıxmağın, millət olaraq yaşamağın yeganə yolunu yeni milli fəlsəfə yaratmaqda görür. **Onun nəzərincə, milli fəlsəfə günümüzdə xalqımız üçün hakim olan azərbaycançılıq modelinin (milli ideologiyası − X.X.) məzmunu yeni elementlərlə gələcəyi proqnozlaşdıracaq səviyyədə zənginləşdirilməli, müasir şəraitdə Azərbaycan millətinin həyat fəaliyyətinin gələcək istiqamətlərinə aydınlıq gətirsin.**

**Bu yeni milli fəlsəfə planda dünyagörüş, metodologiya olub, ancaq postqeyriklassik idrak mərhələsini əks etdirməməli, problem situasiyaları müəyyənləşdirə bilməli, gələcəkdən xəbər verməli, idrakın hələ adı müəyyənləşdirilməmiş 4-cü pilləsinə keçid etməlidir** (97, 551-552).

Azərbaycan xalqının qloballaşmanın dağıdıcı təsirindən qorunmaq üçün fəlsəfənin postqeyriklassik və hələ doğulmaqda olan, ad almamış ən yeni mərhələsinin nəzəri müddəaları əsasında milli fəlsəfə yaratmaq zərurətinin dərk edilməsi üçün Ə.Abasov fəlsəfənin mövcudluğunun ayrı-ayrı mərhələlərində baş vermiş halları diqqətə çatdırmaq üçün fəlsəfə tarixinə ekskurs edərək yazır: "XXI əsrin başlanğıcında **fəlsəfənin, bütövlükdə idrakın** vəziyyəti ötən əsrin əvvəllərindəki vəziyyəti xatırladır. Məhz o vaxt kvant mexanikası ilə nisbilik nəzəriyyəsi ideyaları yaranaraq klassik idrakın məhdudlaşdırıcı çərçivələrini aşmış, onun inkişafında qeyri-klassik mərhələyə doğru yeni yol açmışdır. Ötən əsrin ortalarından sonuna qədərki dövrdə idrakın formulə edilmiş bir sıra ən yeni istiqamətləri idrak ənənəsində üçüncü postqeyriklassik mərhələsinin əsasını qoymuş, bununla da təkcə klassiklərin deyil, həm də qeyri-klassiklərin ilk baxışda qərarlaşmış görsənən kateqoriyaları, ideyaları, aksiomaları, nəzəriyyələri, paradiqma və konseptləri əhəmiyyətli (bəlkə də radikal) surətdə dəyişmişdir. Sinergetikanın, mürəkkəblik nəzəriyyəsinin, fənnlərarası yanaşmanın, ümumi təkamülçülüyün və s. ideyaları klassizmin təlimini dağıtmaqla prinsipial fərqli, idrak binasının hansısa təməli üzərində ucaldılma imkanını inkar edən **postmodernist dünyagörüşün qərarlaşmasına rəvac vermiş, bununla da sanki 2500 illik fəlsəfə tarixini dalana sıxışdırmışdır. Doğrudanmı, məsələ əslində belədir? Doğrudanmı biz fəlsəfəni "Sonuncu mənzilə" yola salırıq? "Əziz mərhumun" nurlu simasını bizim üçün nə əvəz edə bilər?**

Təqdim olunan monoqrafiyalar seriyası da təbii olaraq postmodern qeyri-müəyyənlik əsrində mütləq həqiqətlər söylədiyini iddia etmədən məhz bu mürəkkəb vəziyyətdə düzgün istiqamətlənməyə cəhd kimi düşünülüb. Əsas vəzifə isə adı hələ ki müəyyənləşməmiş idrakın dördüncü (post-qeyri-klassikadan sonra) mərhələsinin səciyyə və əsasları haqqında müzakirələrin baş-

lanması məqsədilə əvvəllər bir-birindən uzaqda dayanan müxtəlif fənlərin predmetləri arasında əlaqələrin aşkarlanması nəzərdə tutulmuşdur" (97, 26-27).

Göründüyü kimi, Ə.Abasov milli fəlsəfə yaradılmasında doğma fəlsəfənin genezisini, inkişaf tarixini əsas götürməyi vacib hesab etsə də, fəlsəfənin dövrləşdirilməsində Avropa fəlsəfə tarixini və Avropa dövrləşdirilməsini əsas götürmüşdür. Bu dövrləşdirməni fəlsəfə tədqiqatçılarından Y.Rüstəmov aşağıdakı kimi təqdim etmişdir.

Romantik dövr – XV əsrdən XVIII əsrə qədər; klassik dövr – XVIII əsrdən XX əsrin əvvəllərinə qədər; postklassik dövr – təxminən, XX əsrin birinci yarısı; post-qeyri-klassik dövrün XX əsrin ikinci yarısından indiyə kimi davam etdiyini yazır (17, 315).

Fəlsəfənin Ə.Abasov və Y.Rüstəmov tərəfindən göstərilən dövrləşdirilməsini Z.Hacıyev elmi idrakın – rasionalizmin üç mərhələsi kimi göstərmişdir. XVII-XVIII əsrləri əhatə edən klassik tip; XIX əsrin sonu XX əsrin əvvəllərini əhatə edən qeyri-klassik tip; XX əsrin 70-ci illərindən özünü göstərən post-qeyri-klassik tip mərhələləri kimi təsnif etmişdir (16, 329).

Fəlsəfənin yuxarıda bəhs olunan dövrlərini əhatə edən modernizm və postmodernizmin yaranma və inkişaf tarixindən bəhs edən Ə.Qəşəmoğlu yazır ki, Avropada kapitalist münasibətlərinin ilk mərhələsindən Qərb öz inkişaf yolunu axtarmağa başladı, bütün fəlsəfi fikir, bədii əsərlər, incəsənət, təhsil sistemi buna yönəldi. Qərb özünün məxsusi inkişaf, tərəqqi prinsiplərini irəli sürdü. Bu yeni prinsiplərə uyğun olan istənilən çox sahədəki hər bir ideya **modern** ideya sayılırdı. Bu istiqamətdə çoxşaxəli axtarışlar aparılmağa, nailiyyətlər qazanılmağa başlandı.

Ə.Qəşəmoğlu şərhinə davam edərək yazır: "**Modern** ideyasının kökündə əsasən rasional düşüncə, postivizm, bir çox hallarda materializm ideyaları, ilahiyyat elmlərinə qarşıdurma, bədii yaradıcılıqda, incəsənətdə xristian dəyərləri, qərb mədəniyyətinin spesifikliyi dayanır. İlk baxışdan bunlar hamısı çox müsbət amillər kimi görünə bilər. Amma məsələyə daha dərindən yanaşdıqda, qərb dəyərlərindəki müxtəlif səpkili natamamlıqları ciddi təhlil etdikdə, modernizm ideyasında nə qədər ciddi boşluqlar olduğunu üzə çıxarmaq olur. Məhz elə bu boşluqlar XX əsrin ortalarına doğru modern ideyalarını iflasa uğratdı və onun yerini **postmodernizm** ideyaları tutdu. Amma, təəssüf ki, **postmodernizm ideyaları bu boşluğu doldura bilmədi, əksinə, fəsaddan daha çox fəsad doğuldu"** (99, 320-321).

Göründüyü kimi, bizə idrakın ən yüksək dərk edilmə metodu kimi təqdim olunan fəlsəfənin “iflasından”, “fəsad doğurmasından” bəhs olunur. Fəlsəfənin tarixi missiyasından və müasir vəziyyətindən bəhs edən Ə.Qəşəmoğlu yazır: “Yer üzü hər zaman vahid sistem idi. Amma əvvəllər bu sistemin alt sistemləri (ölkələri, bölgələri) arasındakı əlaqə çox zəif idi və yer üzü vahid, güclü bir sistem kimi özünü göstərə bilmirdi. İnternetin, elektron informasiya vasitələrinin, turizmin sürətlə inkişafı, iqtisadiyyatda, siyasətdə, mədəniyyətdə, demoqrafiyada baş verən mühüm dəyişikliklər hesabına yer üzü indi obrazlı deyildiyi kimi **“vahid bir kənd” halına gəlməkdədir. XIV-XX əsrlərdə qərbdə formalaşmış inkişaf prinsiplərinin gücü və bu vahid, mükəmməl sistemi irəli aparmaq gücündə deyil. Qərb, eləcə də yer üzü, bu sistemin inkişaf fəlsəfəsini yaratmayıblar. Əslinə qalsa indiki vaxtda yer üzündə mövcud fəlsəfi sistemlərin tənəzzülü dövrüdür.** Məhz elə bu səbəbdən ortaya çox acınacaqlı bir müzakirə mövzusu atılır. İndiki vaxtda fəlsəfə lazımdır, yoxsa yox? Sualın belə qoyuluşu olduqca faciəvidir. Təbii ki, fəlsəfə elmi lazımdır. Amma baxır ki, bu hansı fəlsəfədir? Bu günün reallığını əks etdirən fəlsəfədirsə, hava, su kimi lazımdır. Təəssüf ki, bu fəlsəfi sistem hələ öz yerini tapa bilməyib. Ortada olan **qüsurlu, yarımçıq fəlsəfi sistemlərə** isə təbii ki, ehtiyatla yanaşmaq lazımdır. Elə o fəlsəfi sistemlərin zəifliyi hesabınadır ki, modern prinsiplər XX əsrin ortalarından iflasa uğrayıb” (99, 322-323).

Beləliklə, biz yuxarıda fəlsəfi ədəbiyyatdan filosof və ya fəlsəfə tədqiqatçılarının yaratdıqları bəşəri fəlsəfə, milli fəlsəfə, idealist fəlsəfə, dini fəlsəfə, materialist fəlsəfə, romantik fəlsəfə, klassik fəlsəfə, qeyri-klassik fəlsəfə, post-qeyri-klassik fəlsəfə, xeyir fəlsəfəsi, şər fəlsəfəsi, elmi fəlsəfə, professional fəlsəfə, sistem fəlsəfəsi, həvəskar fəlsəfəsi, ədalətdən uzaqlaşan fəlsəfə, məkrli niyyətlərin fəlsəfəsi, merkantil fəlsəfə, maddiyyatçılığın ideologiyası fəlsəfəsi, qüsurlu fəlsəfə, sistemində boşluq olan fəlsəfə, zamanın tələbinə cavab verməyən fəlsəfə və s. fəlsəfələrin mövcudluğu haqqında məlumatlandıq. Bəhs etsək, axtarsaq fəlsəfələrin sayı daha da çoxalar, biz sadəcə olaraq istifadə etdiyimiz ədəbiyyatlarda haqqında bəhs olunan fəlsəfələrin adlarını sadalamaqla kifayətləndik, rus imperiyasının xalqımızın mənlik şüurunda, dünyagörüşündə, intellektində, mənəvi dəyərlərində, adət-ənənəsində, bütövlükdə mənəvi sistemində yaratdığı mənəvi boşluğun aradan qaldırılmasını sürətləndirmək, yaradıcı ruhunu fəlsəfi təfəkkürünün milli zəminində bərpa etmək məqsədi ilə vətənpərvər azsaylı fəlsəfi idraka malik tədqiqatçılarımızın yaratdıqları milli fəlsəfə konsepsiyasını təhlil etdik.

Yuxarıda gördüyümüz kimi, fəlsəfəni tənəzzüldə, ölmüş, lazımsız hesab edən müəlliflər, xalqların, millətlərin bütövlükdə bəşəriyyətin yaşamasını, mövcudluğunu fəlsəfədə görən alimlər də var. **Bu dialoqları, bir-birinə zidd fikirlər arasında həqiqəti tapmaq üçün birinci növbədə fəlsəfənin nədən ibarət olması, harada necə meydana gəlməsinə aydınlıq gətirmək zəruridir.** Odur ki, məsələni aşağıdakı kimi qoyuruq:

# II FƏSİL

## FƏLSƏFƏ – VARLIQ QANUNU NƏDİR?

**Fəlsəfə varlığın bütün formalarının mövcudluq (yaşam), tərəqqi, inkişaf, tənəzzül, bir haldan başqa hala keçmə (ölüm) qanunudur.**

**Varlıq nədir?**

**Kainatda mövcud olan hər şey − bütövlükdə qalaktika, yer kürəsi, gözlə görünüb, görünməyən, vəhdətdə mövcud olan sistem varlığıdır.**

**Qanun nədir?**

**Qanun hadisələr arasında obyektiv, mühüm, zəruri təkrarlanan və ümumi əlaqə formasıdır.**

**Varlıq nə zaman, necə yaranmışdır?**

İdealist filosofların qənaətinə görə, **Mütləq Ruhun "ilkin təkanı", materialistlərin** iddiasına görə **"böyük partlayış"la 13,7 milyard il əvvəl** müasir kainatın − varlığın ilk forması materiya yarandı. Beləliklə, "ilkin təkan" − "böyük partlayış"la başlayan təkamül prosesində daha mürəkkəb və çoxala bilən orqanizmlərin yaranması və inkişafına gətirib çıxardı. Bu proses tədricən atmosferin bugünkü tərkibini formalaşdırdı və beləliklə də balıqlar, məməlilər və sonda insan kimi daha yüksək formalarının yaranması və inkişafına şərait yaratdı (4, 89-110).

Beləliklə, Mütləq Ruhun "ilkin təkanı" − "böyük partlayış"la baş verən hadisələr, varlığın müxtəlif formalarının yaranması və dəyişməsi, yeni-yeni məzmunlar alması prosesi − tarixi başlayır. Beləliklə, kainat, yer kürəsinin tarixi, təbiət tarixi, flora və faunanın, nəhayət, insan və onun cəmiyyətinin tarixi yarandı və proses davam edir (4; 23; 24; 25; 26).

Beləcə Mütləq Ruhun "ilkin təkanı", "böyük partlayış"la 13,7 milyard ildir müxtəlif varlıq formaları fasiləsiz hərəkət prosesində bir haldan digər hala keçir, ulduzlar yanır-sönür, yenisi yaranır, yağış adlanan su fəzadan yerə tökülür, buxar, hava halı alaraq yenidən fəzaya qalxır. Böyük türk mütəfəkkiri Ömər Xəyyamın müşahidələrinin poetik təbiri ilə:

Torpaq ki, olub hər heyvanın tapdağı,
Bir qız saçıdır, ya ki, səməndər yarpağı.

Kərpic ki, durur hər sarayın bürcündə,
Şahlar başı olmuş o, vəzirlər ayağı.

Hər çöldə ki, orada laləzar olmuşdur,
Bir şəhriyarın qanilə al olmuşdur.
Yerdə görünən bənövşənin hər vərəqi,
Bir şux gözəlin üzündə xal olmuşdur (27, 28, 32).

Böyük mütəfəkkirin obyektiv müşahidə etdiyi kimi, bu dünyanın varlığı, bütün varlıq formaları fasiləsiz bir haldan digər hala keçməklə, görünməz olan, yeni forma və məzmun almaqla varlığını, həyatını davam etdirən varlıqlardır.

İdealist filosofların deyimincə, Mütləq Ruhun "ilkin təkanı" ilə, materialistlərin qənaətincə o zamana qədər mövcud olanların əlaqə və münasibətlərinin gəlib çıxdığı vəziyyətin doğurduğu "böyük partlayış"la 13,7 milyard il əvvəl müasir kainatın − hər birinin xassələrinin məcmuyundan daha yüksək, daha mühüm təzahürlərlə onu müəyyən edən, məhz həmin varlıq edən (ən kiçik atomdan qalaktikaya qədər) keyfiyyətə malik varlığın ilkin formaları yarandı və fasiləsiz təkamülü, ilkin məzmun və formadan yeni məzmun və formaya keçmə, dəyişmə və inkişaf fasiləsiz davam etmədədir.

Göründüyü kimi, hərəkət varlığın − materiyarını mövcudluq üsuludur. Beləcə ulduzlar yanır-sönür, yeniləri yaranır, fəzadan yerə yağış yağır (su tökülür), buxar, hava halı alaraq yenidən fəzaya qalxır, xalqlar tarix səhnəsinə gəlir, yox olur (kommunist rus imperiyası 70 illik varlığı dövründə 67 xalqı tarix səhnəsindən yox etdi). Bir haldan başqa hala − keyfiyyətə keçməklə yox olan, yenisi yaranan, yenidən inkar olunan, yenidən yaranan əbədi hərəkəti, onun düzənini verən hərəkətin mənbəyi nədir?

Mütləq Ruhun "ilkin təkanı" və ya "böyük partlayış"ın təsiri ilə yaranan varlığın ən kiçik formaları və ən böyüyü də daxil olmaqla **hər bir forması daxilən əksliklərə malikdir.** Məsələn, atomun daxilində müsbət yüklü nüvə və mənfi yüklü elektron mövcuddur. "Atomlar elektron, proton və neytron adlı daha kiçik zərrəciklərdən meydana gəlir. Protonlar və neytronlar da kvark adlı daha kiçik zərrəciklərdən ibarətdir. Üstəlik hər bir elementar zərrəciyin müvafiq anti-zərrəciyi var. Anti-zərrəciklər qardaş zərrəciklər ilə eyni kütləyə malikdir, amma yükləri və digər parametrləri əks işarələrdir. Məsələn, bir elektronun anti-zərrəciyi pozitron adlanır. Onun elektrik yükü elektronun əksinə müsbətdir. Cisimlərdə dəfetmə və cəzbetmə, kimyada birləşmə və ayrılma reaksiyaları, üzvi aləmdə irsiyyət və dəyişkənlik, assimil-

yasiya və dissimilyasiya, cəmiyyətdə sosial təbəqələrin, köhnəliklə yenilik, nəfslə mənəvi normalar və s. arasında mübarizə əksliklərdir (4, 91; 16, 193).

Göründüyü kimi, ilkin yaranışdan varlığın bütün formaları onların fasiləsiz – əbədi hərəkətini – mövcudluğunu təmin edəcək əksliklərdən yaranmışdır. Varlığın hər bir formasında müxtəlif formalı və məzmunlu əksliklər mövcuddur. Qarşılıqlı surətdə bir-birini istisna edən, biri digərini şərtləndirən, qarşılıqlı surətdə bir-birini tamamlayan, onlar arasında müvəqqəti də olsa müvazinət yaradan, **qarşılıqlı surətdə bir-birinə keçən,** sistem daxilində yerlərini dəyişə bilən, daxili və xarici ziddiyyətlər – əksliklər mövcuddur. Bunlardan varlığın hərəkət, dəyişmə və inkişafını verən – təmin edən daxili – əsas əkslikdir. Varlığın bütün formalarında əksliklər onun mövcudluğunun gözlə görünməyən tərəfidirsə, keyfiyyət və kəmiyyət ölçüsü də varlığın mövcudluq forması kimi özünü göstərir, hətta onun bəzi formalarında adi dünyagörüşlə dərk oluna, gözlə görünə bilir. Keyfiyyət varlığın bütün formalarının özünəməxsus xassələrinin məcmuyundan daha yüksək mühüm təzahürə – mahiyyətə malik, özü-özünə bərabər vəziyyətidir. Lakin varlığın bütün formalarının, adi predmetin öz-özünə bərabər olub eyniyyət təşkil etməsi müvəqqətidir, keçicidir. Çünki, varlığın daxili strukturu əksliklərdən qurulmuş, o, fasiləsiz mübarizədədir.

Hər bir mənəvi və maddi varlığın yaranması, mövcudluğu onu təşkil edən element, hissə, yarımsistemlərin kəmiyyət və keyfiyyət ölçüsü ilə bağlıdır. Mütləq Ruhun "ilkin təkanı" – "böyük partlayış"la başlayan yaranış – ən kiçik zərrəciklərin birləşməsi və parçalanmasının müəyyən kəmiyyət ölçüləri – fərqli keyfiyyətlərə malik varlıqlar yaratdı, prosesin zəncirvari davamı, nəhayət, "tədricən atmosferin bugünkü tərkibini formalaşdırdı və beləliklə, balıqlar, sürünənlər, məməlilər və sonda insan kimi daha yüksək həyat formalarının inkişafına şərait yaratdı" (4, 109).

Eyni elementin müxtəlif kəmiyyət birləşmələri fərqli keyfiyyətə malik predmet və varlıqlar yaradır. Misal üçün, bir atomun tərkibində protonun kəmiyyətindən asılı olaraq atom keyfiyyətcə başqa şey olur. Bu qanun bütün varlıq formalarında eyni ilə özünü göstərir.

Keyfiyyət müəyyənliyinə malik hər bir predmeti, varlığı təşkil edən ən kiçik zərrəcik, element və hissələr arasında vəhdətdə olan, bir-birinə keçib bir-birini təsbit edən əksliklərlə bərabər, barışmaz ziddiyyətlər də var. Bununla bərabər bu predmeti təşkil edən element və hissələrin özünü təşkil edən tərkib hissələrindəki kəmiyyət və keyfiyyət mübarizəsi, eyni zamanda predmeti təşkil edən element, hissə və yarımsistem arasında kəmiyyət və keyfiyyət mübarizəsi gedir. Predmeti təşkil edən hissələr arasında barışmaz

ziddiyyət, kəmiyyətlə keyfiyyət arasında ziddiyyət varlıqda gedən bütün proses, dəyişmə və inkişaf doğurur.

Nisbi sabitliyə malik xassələrin məcmuyundan daha böyük mahiyyətə malik, öz-özünə bərabər vəziyyəti, predmetin keyfiyyət halı, bu vəziyyətdə onu təşkil edən element və hisslərin, daxili ünsürlərin sayı isə kəmiyyət ölçüsüdür. Beləliklə, keyfiyyət predmetin nisbi sabit tərəfini, kəmiyyət onun dəyişkənliyini ifadə edir.

Keyfiyyət müəyyənliyinə malik bütün predmetlər (varlıqlar) daxilən ziddiyyət və vəhdətdə olan vahid struktura malik əksliklərdən ibarətdir. Predmetin vəhdətdə və mübarizədə olan iki tərəfdən ibarət olması bu tamın mövcudluğu, bir haldan başqa hala keçməsi və inkişafı, əks tərəflərin, xassələrin, meyllərin bir-birinə qarşılıqlı təsiri, bir-birinə qarşılıqlı şərt olması, bir-birinə qarşılıqlı nüfuz etməsinin nəticəsidir. Predmetin vəhdətdə olan bütün element, hissə, yarımsistem, hər biri daxilən keyfiyyət və kəmiyyət ölçüsünə malik bərabər olmaqla eyni zamanda onun − predmetin keyfiyyət və kəmiyyət ölçüsünü də yaradırlar. Predmetin daxilindəki hərəkət edən mübarizə − əkslik, kəmiyyətlə keyfiyyət arasında mübarizə kimi gedir, nəhayət, predmetin daxilində əksliklərin vəhdəti onun mövcud strukturunu qoruyub saxlaya bilmir, mövcud keyfiyyəti yaratmış kəmiyyət ölçüsü pozulur, kəmiyyət ölçüsünün yeni düzümünün yaranması prosesi başlayır. Kəmiyyət ölçüsünün yeni düzümü ilkin əsasları qoruyub saxlayan, onu yeni keyfiyyətdə yenidən qurduqda inkişaf baş verir, varlıq ilkin əsasında daha zəngin, əhatəli mahiyyətdə − keyfiyyətdə yenidən qurulur, onun yeni inkişaf və yaşam prosesi başlayır, hərəkət − əksliklərin mübarizəsi predmetin strukturunu ilkin əsaslara qədər dağıdıb, yeni ilkin əsasdan tamamilə fərqli predmet (varlıq) yaranır. Beləliklə, varlığın yeni formaları yaranır. Hər bir varlığın yaranması, mövcudluğu, bir haldan başqa hala keçməsi və inkişafının daxili səbəbləri ilə bərabər xarici səbəblərinin də olması məlumdur. Xarici səbəbin ikinci hesab edilməsi təbiidir. Lakin varlığın keyfiyyət və kəmiyyət müəyyənliyinin yaranmasına bir qədər ciddi yanaşdıqda xarici səbəblər zəruri bir şərt kimi iştirak etdiyi aydın görünür. Təbiətdə biz bununla gündəlik həyatımızda tez-tez rastlaşırıq; mənəvi və sosial varlıqlar sistemində isə xarici səbəblər (təsir gücü) daxili strukturu nəinki poza bilməsi, onun ilkin əsaslarını dağıda bilməsi haqqında gündəlik həyatımızda kifayət qədər hadisənin şahidi oluruq.

Göründüyü kimi, xarici səbəb ikinci dərəcəli olsa da, zəruri tərəf kimi çıxış edir, bir çox hallarda yeni prosesin başlanması üçün ilkin təkanverici səbəb kimi də özünü göstərir. Təəssüf ki, istifadə etdiyimiz ədəbiyyatlarda xarici səbəblər sadəcə olaraq xatırladılır, sanki bunsuz da hər şey mümkün

imiş kimi yanaşılır. Xarici səbəbə belə yanaşma kommunist rus imperiyasının müstəmləkə siyasətini pərdələmək məqsədilə fəlsəfəyə bu məzmunda daxil edilmişdir. Fəlsəfə tədqiqatçılarımız əsarət illərində imperiya ideologiyası təsiri ilə yetişdirildiklərindən varlıq formalarına hələ də müstəqil yanaşıb, obyektiv münasibət göstərə bilmirlər.

Kəmiyyət dəyişməsinin keyfiyyət dəyişməsinə keçməsi və əksinə − hər iki halda üzvi, qeyri-üzvi və mənəvi-sosial həyatın müxtəlif sahələrində prosesin sürəti fərqlidir. Misal üçün, mikro-aləmdə baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri − elementar hissəciklərin bir-birinə keçməsi çox sürətlə baş verir. Elemantar hissəciklərin, kimyəvi elementlərin, kimyəvi birləşmələrin, atom enerjisinin atom partlayışları şəklində boşalması və s. bu qəbildəndir; eyni zamanda təbiətdə elə obyektlər mövcuddur ki, onların mürəkkəb və təkmilləşmiş keyfiyyət elementləri çox uzun müddətli proseslər, milyon illər vaxt aparır. Misal üçün, uranın təbii şəraitdə parçalanması, karbohidrogenlərin yaranması və s.

Predmetdə fasiləsiz davam edən kəmiyyət və keyfiyyət dəyişmələri müəyyən hüdud çərçivəsində hər kəsin müşahidə edə bilmədiyi daima yeniləşmə yaradır, yeni keyfiyyətə keçid hazırlayır. Kəmiyyət dəyişməsinin ölçüsünün müəyyən həddə çatdığı an yeni keyfiyyətə sıçrayış baş verir. Yeni keyfiyyət məhz bu kəmiyyət ölçüsündə yaranır və mövcud olur. Bir keyfiyyət halından yeni keyfiyyət və kəmiyyətə keçid, eləcə də kəmiyyətin yeni keyfiyyətə keçidi ani, qısa və ya milyon illər təkamül keçməsindən asılı olmayaraq yeni keyfiyyətə keçid sıçrayış xarakterli olur. Lakin predmetin bir keyfiyyətdən yeni keyfiyyətə keçməsi ilə onun yeni strukturunda əksliklərin, kəmiyyət və keyfiyyətin yeni mübarizəsi başlayır. Predmetin daxilində əksliklərin mübarizəsi, kəmiyyət və keyfiyyət arasında ziddiyyətin doğurduğu fasiləsiz hərəkət – proses onun daxili strukturunda dəyişiklik yaradaraq onu daxilən yeniləşdirir. Predmetin strukturunda bu yeniləşmə elə bir həddə çatır ki, artıq predmet mövcud keyfiyyət halını mühafizə edə bilmir, keyfiyyətini itirir, yeni keyfiyyətə keçid baş verir. Varlıq formalarından asılı olaraq köhnə keyfiyyətdən yeni keyfiyyətə keçid ani, qısa müddətli və uzun müddətli təkamül prosesindən asılı olmayaraq keçid sıçrayış xarakterli olur. Varlığın köhnə keyfiyyətdən yeni keyfiyyətə keçid anı inkarı inkar adlanır. Yəni predmeti vaxtı ilə **həyata təqdim etmiş keyfiyyət inkar olunur,** o, yeni keyfiyyətə keçir – beləliklə, yeni yaranır. Predmetdə gedən proseslər onun tərkib hissələrinin kəmiyyət və keyfiyyət səviyyəsini inkar həddinə çatdırdıqda baş verən ilkin inkar onun strukturunda müəyyən pozuntu yaratsa da, ilkin əsasın cazibə qüvvəsinə toplanmış ona müvafiq müsbət element, hissə və dəyərlər

ilkin əsasın dağılmasına imkan vermir, onunla sintezə can atır, ikinci inkar prosesində ona sintez olur, onunla strukturlaşır, predmetdə baş verən belə inkar prosesi yeni müsbət keyfiyyət halı yaradır, inkişaf doğurur; predmetdə gedən proses onun hissə və elementlərinin kəmiyyət və keyfiyyət həddi inkar doğurduqda təməl əsasın cazibəsində ilkin əsası yenidən canlandıracaq element, hissə və dəyərlər olmaqıqda inkar təməl əsasları dağıdır, o hissə və elementlərə parçalanır, ikinci inkar prosesində dağılmış hissə, element və dəyərlər ona müvafiq yeni predmetə sintez olub, onunla strukturlaşır; dağılmış predmetin element, hissə və dəyərləri birbaşa yeni predmetə sintez ola bilmədikdə müəyyən müddət xaotik axtarışda yaşamda olur, son nəticədə ona müvafiq olan predmetə sintez olur, onunla strukturlaşır. Bu inkarın doğurduğu nəticə bir haldan başqa hala keçmə və ya məhv olma da adlanır.

İnkarı inkar qanunu varlıqda gedən prosesin istiqamətini aşkar edir. Varlıqda gedən prosesin inkişaf və ya tamamilə bir haldan başqa hala keçib yox olmasını aşkarlayır, göstərir.

İnkar o halda inkişaf doğurur ki, yaşam dövründə predmetin daxilində mövcud olan əksliklər, kəmiyyət və keyfiyyət dəyişiklikləri onun ilkin əsaslarını qoruyub saxlayır, predmetdə yeni şəraitə cavab verməyən xassələr, cəhətlər inkar olunur. Predmetin ilkin əsasları, müsbət ünsür və elementləri yeni strukturda daha yüksək keyfiyyətdə yenidən qurulur, yenidən doğulur. Belə inkar forması – varlıqda varisliyi qoruyub yaşadan inkar – inkişafı göstərən inkardır.

Lakin yaşam prosesində yeni keyfiyyətə keçid məqamına çatıb, inkar olunan predmet yeni keyfiyyətə keçid zamanı ilkin əsaslar və xassələri yeni keyfiyyətə keçirə bilmədikdə, keyfiyyət varisliyi göstərə bilməyib, yeni kəmiyyətlərin və əksliklərin sadəcə iştirakçısı olan bu proses inkişafı deyil, predmetin başqa varlığa çevrildiyini və ya başqa varlıqlar arasında əriyib yox olduğunu göstərir. Beləliklə, inkarı inkar qanunu bütün varlqılarda gedən prosesin inkişaf, tərəqqi, tənəzzül, yox olma istiqamətlərini göstərir. Kainatda, bütün varlıq formalarının hər birində gedən prosesdə kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi, əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar qanunu vahid sistemdə, vəhdətdə fəaliyyət göstərir, biri digərinin hərəkəti, fəaliyyəti üçün səbəb olur. Varlığın bütün formalarının nüvəsində, onun element və hissələri arasında, həmçinin varlıqlararası əlaqə və münasibətləri ehtiva edən ziddiyyət və vəhdətdən doğan prosesi, bu proses nəticəsində yaranan kəmiyyət və keyfiyyət halında yaşamı, inkişaf və ilkin əsası inkar edib yeni varlıq formasına keçilməsini əks etdirən qanunlar fəlsəfədir.

Tədqiqatımızla bağlı bütün varlıq formalarına vahid sistemdə, vəhdətdə hərəkət verən – inkişaf etdirən, bir haldan başqa hala keçirən **fəlsəfə qanunlarının başlıca funksiyasına toxunduq.**

Ən kiçik varlıq formasından, kainat da daxil olmaqla bütün varlıq formalrının vəhdətdə doğuluşu, bir haldan başqa hala keçməsi və inkişafını **tənzimləyən fəlsəfə qanunları adlandırılan varlıq qanunları tarixi zamanın hansı mərhələsindən başlayır, onu kim yaratmışdır?**

Yuxarıda varlığın şərhi haqqında izahımızda elmin son, ən yüksək nailiyyətlərinə istinadən fəlsəfə qanunları adlandırdığımız varlıq qanunlarının 13,7 milyard il əvvəl Mütləq Ruhun "ilkin təkanı" və ya "böyük partlayış"la varlığın − kainatın təzahürü zamanı, onun canında, ruhunda onu tənzimləyən qanunlar kimi doğulduğunu, bu günə qədər də hər şey – bütün yeni yaranış, doğuluş, bir haldan başqa hala keçmə (ölüm, tərəqqi, inkişaf, tənəzzül fəlsəfə qanunları adlandırılan – əksliklərin vəhdəti və mübarizəsi, kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi (köhnə keyfiyyətdən yeni keyfiyyətə keçid), inkarı inkar prosesində baş verdiyi görünmədədir. **Göründüyü kimi, fəlsəfə adlandırdığımız varlıq qanunlarının yaşı 13,7 milyard ildir.**

# III FƏSİL

## FƏLSƏFƏ QANUNLARI NƏ ZAMAN, HARADA, KİM TƏRƏFİNDƏN KƏŞF OLUNDU?

Varlıq qanunları – fəlsəfənin ilkin vətəni, yəni ilk dəfə onun harada, kim tərəfindən dərk olunması bütün dünyanın qabaqcıl fikir adamlarını həmişə düşündürmüşdür.

**Fəlsəfənin kəşfi məhz insana aid olduğu üçün varlığın insan formasının yaranma tarixinə qısa ekskursiya edək.**

**13,7 milyard il əvvəl Mütləq Ruhun "ilkin təkanı" – "böyük partlayış"la varlığın ilkin formasının yaranması və təkamülü prosesi tədricən atmosferin bugünkü tərkibini formalaşdırdı və beləliklə balıqlar, sürünənlər, məməlilər və sonda insan kimi yüksək həyat formalarının inkişafına şərait yaratdı** (4, 109).

**İnsan əcdadı haqqında ən qədim məlumat eramızdan 6 milyon il əvvələ aiddir** (28, 108-113). O, e.ə. 40-30-cu minillikdə heyvani-bioloji yaşam qanunlarından tədricən imtina edib dili yaradır, əşyalara ad verib mənəviləşdirir, elə bu proses də öz bədən üzvlərinə də ad verir, dünyanı mənəviləşdirib qavramağa başlayır. Öz həmcinsi və təbiətlə münasibətlərini şüurla qurmağa başlayır, mənəvi normalar yaradıb mənəviyyat qanunları ilə yaşam yolu tutur. E.ə. XII minillikdən − mezolit dövrü adlanan çağdan ilk yaradıcılıq qabiliyyəti göstərir. Əmək alət və vasitələri yaradır, istehsal təsərrüfatına keçid başlayır. Neolit, eneolit mərhələləri yaradıcılıq qabiliyyətinin yüksəlişi ilə müşaiyət olunan istehsal sahələri daha da genişlənir. Nəhayət, e.ə. V minilliyin sonu − II minilliyin başlanğıcında daha yüksək səviyyədə yaradıcılıq göstərərək, müxtəlif metalların qatışığından tuncu istehsal edir. Tunc istehsalı ilə insanlıq idrakın yeni yüksək mərhələsinə çatır, ilkin refleksiya baş verir, mənlik şüuru yaranır, insan təfəkkürünün qapalı xətt üzrə inkişafına, özünü təbiətlə eyniləşdirməsinə son verilir, beləliklə ilk toplumlar – etnoslar yaranır. Tarix səhnəsinə çıxan etnoslar özlərini nəinki bütün başqa canlılardan, eyni zamanda başqa tayfalardan fərqləndirir, özünəməxsus mənəviyyat qanunları – inam, etiqad, dəyər və normalar, adət-ənənələr, intellektual sərvətlər yaradırdı, beləliklə, etnosların tarixi başlayır (28; 29; 30; 31; 32; 34; 35).

Tunc dövrünün başlanğıcında anaxaqanlıqdan ataxaqanlığa keçilməsilə ilkin refleksiya baş verir, onun təsiri altında etnik özünüdərk − etnik mənlik şüuru yarandı ki, bununla da "instiktlər üzərində zəkanın, bişüur üzərində şüurun üstünlüyünü təmin etmək üçün yol açıldı" (29, 231), etnoslar − tayfalar sponton yaradıcılığa sövq edildi. Mifik təfəkkürün dinləşməsi və elmləşməsi baş verdi. Tədricən elmi şüur mifik şüuru üstələyir. Odur ki, ataxaqanlıq ibtidai icma quruluşunun ən qısa mərhələsi olur. Mənlik şüuru, özünəməxsus dəyərlərin, inam, etiqad, adət-ənənələrin formalaşması ilə hər bir etnosun özünəməxsus siması yaranır, beləliklə, etnogenezin formalaşmasının ilkin mərhələsi başa çatır, özünü təbiətdən və başqa toplumlardan fərqləndirən etnoslar yaranır.

Mənlik şüuruna malik tayfalar hərbi demokratiya formasında strukturlaşır, ətrafa fəal müdaxilə edirlər, bu müdaxilələr müharibələrlə müşaiyət olunur. Beləliklə, tayfalararası bu müharibələr dil birliyinə, inam, etiqad, adət-ənənə eyniyyəti və ya uyğunluğuna malik qohum tayfaların birləşməsi zərurətə çevrilir, xalqların ilkin təşəkkülü, ilkin dövlət qurumları yaranır (100; 101), bunun ardınca daha möhkəm inzibati-siyasi, sosial-iqtisadi sistemlərə malik dövlətlər yaranır. Beləliklə, sürətlə xalqların, dövlətlərin yaranması ilə insanlığın mənəviyyat, mədəniyyət qanunları ilə yaşaması daha da sürətlənir və zənginləşir, ilkin sivilizasiyalar yaranır.

İctimai elmlərin son qənaətinə görə, bəşər tarixində ilk özünüdərk edən, mənlik şüuruna nail olan, elmin və texnikanın əsaslarını yaradan və onu istehsalata tətbiq edən xalq ilkin sivilizasiyanın yaradıcısıdır. XIX əsrin ikinci yarısından XX əsrin ortalarına qədər bəşəriyyətin ilkin sivilizasiya ocağı haqqında iki mülahizə var idi. Bəzi tədqiqatçılar Misiri, digərləri Şumeri ilkin sivilizasiya yaradıcısı hesab edirdilər. Lakin aparılmış arxeoloji tədqiqatlar XX əsrin ortalarından Şumer xalqı bəşəriyyətin ilkin sivilizasiya yaradıcısı olması haqqında yekdil qənaət doğurdu. Bəşəriyyətin ilkin sivilizasiya yaradıcısı Şumerləri tədqiqatçılar yekdil olaraq İkiçayarasına gəlmə hesab edirlər. Bir qrup tədqiqatçı Şumerləri Mərkəzi Asiyadan, digər tədqiqatçılar neolit dövründə Şimali Azərbaycandan köç etmiş əkinçi qəbilələr, digər bir qrup isə İkiçayarası əyalətlə həmsərhəd olan Cənubi Azərbaycanın – Zaqraş dağlarından Dəclə və Fərat çaylarının aşağı axarında suvarma əkinçiliyi üçün yaxşı şərait olan ərazilərə enərək burada bütün bəşəriyyəti mədəni-mənəvi quruculuğa sövq edəcək – tarixin ilkin, mənəvi, siyasi, hüquqi, elmi və b. mənəvi yaradıcılığın qida bazasını yaratmış xalq hesab edirlər (35; 50, 18, 285-286).

Şumerlər yeni vətənləri İkiçayarasında çox sürətlə insanlığın mənəvi dünyasını bütövlükdə əhatə edən nümunəvi səviyyədə orijinal etnik mədəniyyət yaratdılar. Bu mədəniyyətdə əfsanə, nağıl və rəvayət, qəhrəmanlıq dastanı, himn və ədəbiyyat, ağı, incəsənət, memarlıq, heykəltəraşlıq, zərgərlik, yazı, məktəb, tarixdə ilk dərs vəsaiti, ilahiyyat, riyaziyyat, coğrafiya, nəbatat, zoologiya, təbabət, "kitab evləri", ulduzları və planetləri müşahidə təqvimi, torpaq sahəsinin ölçülməsinin riyazi qaydaları, bunların təkmilləşməsi, hüquq normaları, mülkiyyət və sahibkarlıq qanunları, ölçü, çəki, təqvim və su saatları, astronomiya üzrə dərslik, gəmiqayırma, "üzən körpü" (sal), gözdən katarakın cərrahi üsulla götürülməsi, bir çox başqa xəstəliklərin müalicəsi, "əkinçilik təqvimi", "bağçılıq kitabları" və s. yaratdılar (35; 34, 44-146).

Şumer təməl olmaqla, Kiçik Asiya və Zaqafqaziya bəşəri sivilizasiyanın ilkin vətəni və yaradıcısı olmaqla XVII əsrin sonu – XVIII əsrə qədər bütün dünyada elmin, mədəniyyətin, fəlsəfənin, bütün mütərəqqi yaradıcı ideyaların, ruhun axdığı, mənəvi enerji ilə təmin edən məkan olması dünya elmində birmənalı qəbul edilmişdir.

Qədim dövr, bütün orta əsrlərdə elm və mədəniyyətin Şərqdən – Kiçik Asiya xalqlarından mənimsənilib, sistemləşdirilib inkişaf etdirilən yunan-roma mədəniyyətinin IV əsrin sonu − V əsrin əvvəllərində süqutu ilə Avropa nəinki hansısa mədəni quruculuq keçirmədi, qədim yunan-roma mədəniyyətini də bütünlüklə unutdu.

Bütün orta əsrlər dövrü Avropa Şərqin elm və mədəniyyətinə həsəd apardı. XVIII əsrdən Avropa Şərq elm və fəlsəfəsini sponton mənimsədi, qədim yunan-roma fəlsəfəsini ərəb dilindən tərcümə etdilər. Şərqdən hazır qəbul edib mənimsədiyi, təkmilləşdirdiyi bütün elmi, mədəni-mənəvi təcrübəni istehsal sahələrinə tətbiq etməklə yeni mədəni quruculuğa nail oldu. Əsrlərlə həsəd apardığı Şərq xalqlarını əsarətə salmaq üçün ondan mənimsədiyi tarix, fəlsəfə, sosiologiya elmlərindən məharətlə istifadə etdilər. Avropa xalqlarının Şərq xalqları üzərində mənəvi-psixoloji hegemonluğunu qurmaq üçün heç bir tarixi fakta əsaslanmayan **hind-ari nəzəriyyəsini uydurdular. Bu nəzəriyyəyə görə, guya Asiya qitəsində elm və mədəniyyəti yaradan və yayan hind-avropa-ari mənşəli xalqlar olmuşdur. Onlar e.ə. II minilliyin sonu – I minillikdən Asiya xalqları ilə qovuşaraq onları mədəniləşdirmiş, yeni-yeni xalqlar yaratmışlar.** Hind-avropalıların ilkin vətəni hədəf seçilmiş ölkəyə, xalqa və siyasi situasiyaya uyğun olaraq gah cənubi-şərqi Avropa, gah Kiçik Asiya, gah da Mərkəzi Asiya kimi göstərmişlər. Beləliklə, elmi Şərqdən hazır mənimsəyən Avropa yeni dövrdə intellektin, elmin və

texnikanın inqilabi yüksəlişinə nail olub, yeni sənaye – kapitalizm cəmiyyəti qurub sosial-iqtisadi-siyasi, mənəvi-ideoloji həyatın bütün sahələrində üstünlük qazanıb dünya ağalığı, hegemonluğu siyasətinə keçdilər. Böyük Şərq – Azərbaycan mütəfəkkiri Ş.C.Əfqaninin sözləri ilə desək "azadlıq maskası geyən" Avropa ən yırtıcı müstəmləkəçilik, ən amansız irqçilik siyasəti yeritdi və yeritməkdədir.

Tarix kainatda görünən, yanan-sönən ulduzlar, qalaktikanın başqa növləri, yerin layları, süxurları, bitki və heyvanat aləminin buzlaşmış qalıqlarının yaranma zamanı haqqında məlumat verdiyi kimi, insanlığın yaratdığı mənəviyyat tarixi də daşlaşaraq, maddiləşərək xalqların, millətlərin mövcudluğu və yaradıcılığından, zamanından məlumat verir. Bəşər tarixi fasiləsiz hörülmədə olan bir ehramdır ki, hər bir xalq bu ehramın divarında duran daşı kimi maddiləşir, nəsillərin yaddaşını fasiləsiz yaşatmaqla, canlandırmaqla keçmişi təfəkkürdə fasiləsiz təsəvvür etməklə, şüurda canlandırmaqla gələcək nəsilləri milli-mənəvi enerji ilə təmin edir, ona fasiləsiz yaradıcılıq ruhu verir.

Kainatın, təbiətin tarixində olduğu kimi (maddi tarixdə) tufan və fırtınalar, zəlzələlər, vulkanlar yerin quruluşunda, bitki və heyvanat aləmində dəyişikliklər yaratdığı, nələri məhv etməsi, nələri isə yenidən yaratması, həmişə fəzada görməyə alışdığımız gecənin qaranlığını işıqlandıran ulduzların bir anda axıb yox olması kimi, bəşərin – mənəvi varlığında öz fırtınası, tufanı, zəlzələsi, hətta vulkanı var; yüksəlişi, çöküşü var. Mənəvi fırtınaya, tufana, zəlzələ və vulkana davam gətirməyib, bəşər piramidasının divarından sürüşüb düşən daşların (xalqların) təkrar yerinə qoyulması, bu piramidada yer alması faiz təşkil etməyəcək qədər azdır.

Bəşərin – mənəvi fırtınası, zəlzələsi, vulkanı zamanı onun piramidasının divarından qopan, sürüşüb düşən daşlar (xalqlar) yox olur, bəzən hətta əbədi unudulur.

Elmi tədqiqatlar sübut edir ki, varlığın bütün formalarının – fiziki, informasiya, bioloji formasının hər birinin yaddaşı var və bu yaddaşı yaşada bildiyi müddətdə yaşamını, özünəməxsusluğunu saxlayır. Varlığın uzunmüddətli təkamülünün müəyyən mərhələsində insan əcdadı, onun şüur və təfəkkürü, bilik mənəvi varlıq forması kimi insanlığı yaratdı. Mənəvi varlığın insanlıq – tayfa, xalq, millət kimi mərhələləri yarandı. Etnos digər varlıq formalarından fərqli olaraq dərketmə qabiliyyətinə malik olsa da, o da digər varlıq formaları kimi yaddaş vasitəsilə yaşayır, mövcudluğunu davam etdirir (36, 14-18).

Özlərinin ali irq kimi şüurlara yeridən Avropa xalqları elmi üstünlüyü ələ alan kimi mənəviyyat qanunlarından dünya xalqları üzərində üstünlük

qazanmaq, hegemonluq etmək üçün istifadə etdilər. Avropa istisna olunmaqla Asiya, Avstraliya, Afrika və Amerika qitələri xalqlarını əsarətə salmaq üçün onların əxlaqi-mənəvi dəyərlərini, dövlət və digər idarəçilik təsisatlarını pozmaq, tarixi yaddaşdan məhrum etmək, kölələşdirmək, fiziki və mənəvi cəhətdən məhv etmək siyasəti yeritdilər. Xalqların təbii bioloji və mənəvi inkişafını ardıcıl pozdular. Bir çox etnosları fiziki cəhətdən məhv edib tarix səhnəsindən sildilər. "Mədəni" Avropanın böyük coğrafi kəşflərdən başlayan anti-insani, anti-bəşəri siyasəti günlərimizdə də fasiləsiz davam edir. Avropanın elmi üstünlüyü ələ aldığı XVIII əsrdən günümüzə qədər elmin tərəqqiyə və tənəzzülə istifadə edilməsi nisbətini göz önünə gətirsək, onların öz ölkələrində, öz xalqları üçün yaratdıqları istisna edilərsə, bəşəriyyətə yaratdıqları xarabazarlıq, köləlik, hüquqsuzluq, səfalət, etnosid, genosid hadisələri müqayisəolunmaz dərəcədə çoxdur. Tədqiqatımızla bağlı bu bəşəri problemi xatırlatmaqla kifayətlənir, mənəvi varlıq olan insanlığın yaşaması üçün əsas olan milli-mənəvi yaddaşı məhv etmə siyasətindən qısaca bəhs etməyə lüzum görürük.

Tarixdən məlum olduğu üzrə Avropa xalqları elmi üstünlüyü ələ alan kimi ondan şər qüvvə kimi istifadə edildi. Asiya, Afrika, Avstraliya və Amerika qitəsinin xalqları əsarətə salındı, mənlik şüurundan məhrum edilib kölələşdirildi, təkrar özlərini bərpa edə bilməməsi üçün milli yaddaşdan məhrum etmək məqsədilə onlara süni tarixlər uydurub, etnik-milli yaddaşdan qoparıb, təbii-milli inkişaf yolundan sapındırıb, mənəvi birliklərini pozub, milli iradə göstərməkdən məhrum etdilər. Köləliyi, əsarəti zaman-zaman yaşatdılar, yaranmaqda olan yeni istiqlal, azadlıq ocaqlarını ardıcıl söndürdülər və onun yeni-yeni üsullarını tapıb tətbiq etməkdə (müasir günlərimizdə Qaraabağ, Misir, Suriya, İraq, Liviya, və s.) olduğu kimi davam edirlər. Elmi üstünlüyü ələ alandan Avropa alimlərinin bəşərin, xalqların mənəviyyatında yaratdıqları ən böyük pozuculuq birinci növbədə **fəlsəfə tarixinə münasibətdə özünü göstərir** (bu sözləri yazarkən Avropanın az da olsa mütərəqqi, obyektiv alim və filosoflarının xidmətini unutmur və onlara həmişə minnətdarlığımızı ifadə edirik). Sivilizasiya və fəlsəfənin ilkin vətəni haqqında tarixi faktları saxtalaşdıraraq, bəzən də ona göz yumaraq onları da süni hind-Avropa nəzəriyyəsinə uyğunlaşdırıblar. Fəlsəfənin mahiyyəti, ruh fəlsəfəsinin − Mütləq Ruhun Avropada şüurlara aşılamasında misilsiz xidmət göstərmiş Hegelə görə fəlsəfə ilkin sivilizasiya beşiyində təzahür etməli idi, etdi də. Lakin XVIII əsrdən Hegel də daxil olmaqla fəlsəfənin ilkin vətənini onun doğulduğu ölkə deyil, süni uydurulmuş Hindi-avropa məskənlərinə aid edildi.

Etnomənəvi, sosial inkişafda sivilizasiya nəzəriyyəsinin yaradıcıları da Avropa alimləridir, onun ilkin yaradıcı mənbəyi və Vətənini də müəyyən edənlər onlardır. Mesopotomiyanın bəşəri sivilizasiyanın ilkin beşiyi, Şumerlərin burada ilkin sivilizasiyanın yaradıcısı olamsını da Avropa alimləri əsaslandırmışlar (5; 12; 13; 35; 37; 38; 39).

Bu sivilizasiyanı şəxsən tədqiq etmiş, öyrənmiş tarixçilərdən S.N.Kramer əsərini "İstoriya naçinayetsya v Şumere" (M., 1991) adlandırmışdır (35). Avropa alimlərinin yekdil qənaətinə görə, Şumerlər ilk əlifbanın − piktoqrafik və mixi yazının, müxtəlif janrlı ədəbiyyat, məktəb, dərslik, "kitab evi", ilahiyyat, hüquq qaydaları, məhkəmə qanunları külliyyatı, riyaziyyat, coğrafiya, zoologiya, təbabət, məsafənin ölçülməsi və hesablanması, ulduzları və planetləri müşahidə təqvimi, astronomiya, təqvim, günəş və su saatı, torpaq sahələrinin ölçülməsi qaydası, çəki, "əkinçilik təqvimi", "bağçılıq kitabları", memarlıq və incəsənət, gəmiqayırma, üzən körpü, və b. elm sahələri və kəşflərin müəllifi olmaqla nəinki qonşu xalqları, bütün bəşəriyyəti mənəvi enerji ilə qidalandırmışdır.

Maraqlıdır, İkiçayarasının (Mesopotomiyanın) avropalı tədqiqatçıları Şumerlərin gözdən kataraktı götürmələrini müəyyən edə bildikləri halda, onların ilkin vətəni və etnik mənşəyini heç cür "müəyyən edə bilmirlər".

Şumerlərin Kiçik Asiyaya gəlmə olması mülahizəsi etnik-milli yaranış və inkişafın qanun və qanunauyğunluğuna bütünlüklə ziddir. Eyni zamanda elmdə qəbul edilmiş monogenez nəzəriyyəsini də bütünlüklə təkzib edir. Monogenez nəzəriyyəsinə görə Kiçik Asiya və Zaqafqaziya bəşəri sivilizasiyanın ilkin beşiyi kimi qiymətləndirildiyi halda, hər hansı bir etnosun kənardan regiona gəlib burada sivilizasiya yaratması heç cür məqbul hesab edilə bilməz. Ancaq, Şumerlərin sivilizasiya yaratdıqları əraziyə gəlmə olmaları faktdır. Lakin bu gəlmələr sivilizasiya beşiyi Kiçik Asiya və Zaqafqaziya hüdudundan kənarda ola bilməz. Günümüzdə ictimai inkişafın qüvvədə olan qanun və qanunauyğunluğu əsas götürülərsə, yuxarıdakı mülahizələrdən Şumerlərin İkiçayarasına Zaqafqaziya və ya Zaqroş dağlarından enməsi daha obyektiv görünür.

Şumer tarixi haqqında orijinal və ən etibarlı məlumat verən mənbə bu xalqın özünün yaratdığı dastanlardır. Şumer tarixi haqqında yazan tarixçilər Şumer dastanlarının məlumatlarını nəzərə almadan, bu xalqın yaşadığı dövrdə qonşu xalqlarla əlaqə və münasibətlərindən dastanlarda olduğu kimi deyil, özləri istədikləri kimi bəhs edir, görmək istədikləri məzmun və formanı cəmiyyətə, gələcək nəsillərə sırıyırlar. Ondan sanki başqa planetdən gəlmə

yeganə sivilizasiya kimi bəhs edirlər ki, bəşər tarixinin təməlinə belə yanaşma onun ilkin əsaslarını saxtalaşdırmaqan başqa bir şey deyil.

Şumer yazıları bəşər tarixi haqqında insanlığın ilk şüurlu münasibətlərindən biridir. Şumerlər yaratdıqları əlifba və yazı qaydaları ilə bəşəriyyətin yaddaşını sənədləşdirdilər, onun yazılı tarixini yaratdılar. Avropa tarixçi və dilçilərinin Şumer əlifbasını və dilini müəyyənləşdirməsi yeni və ən yeni dövr nəslinə təqdim etməsi nə qədər humanist, mütərəqqi isə, onu saxtalaşdırmaq, bilərəkdən təhrif etmək, insan həyatının, fəaliyyətinin müxtəlif sahələrini, xüsusən onun mənəvi dünyasını ilk dəfə bəşəriyyət üçün mənəvi yaddaş yaratmaq məqsədilə məktəblər açıb, dərslik yaradıb şagirdlərə dərs deyən bəşəriyyətin ilk müəllim nəslini ailəyə dəvət etmək, ona ehtiram göstərməyi bəşəriyyətdə ilk yaltaqlıq, ona hədiyyə verilməsini isə ilk rüşvətxorluq kimi qiymətləndirmək (34, 140) bəşər mənəviyyatının ilkin əsaslarına məkrli münasibətdən başqa bir şey deyil. Eyni zamanda bəşər tarixi haqqında ilk nümunə, ilk mənbə Şumer qaynaqlarını saxtalaşdırma, təhrif – bu mənbələrin heç də xeyirxah niyyətlə öyrənilmədiyinə, məkrli niyyətlə edildiyinə sübutdur.

Burada oxucu sual verə bilər, şərqlilər niyə özləri Şumer dilini və mənbələrini öyrənmirlər? Misal üçün Şumerlərlə qonşuluqda yaşamış, onlarla mənəv-mədəni əlaqədə olmuş müştərək mədəniyyət yaratmış Azərbaycanın yüzlərlə "elmlər doktoru", "əməkdar elm xadimi", "akademik" tarixçi və dilçi arasında Şumer dilinə və tarixinə ilkin mənbələr əsasında müdaxilə edə bilən bir nəfər də olsun yoxdur.

Ona görə ki bu "dilçi" və "tarixçi"ləri də bizə mədəni Avropa – kommunist rus imperiyası yetişdirmişdir. Vətən və millət ruhundan doğan zəkaların üzünə tariximiz bağlanmışdır. Avropa imperialistləri açıq və gizli üsullarla bizə yetişdirdiyi bu tarixçi və dilçilər özlərinin saxta "elmi" rütbə və karyeralarını qorumaq üçün müstəqillik illərində belə elmə və tarixə müdaxilənin qarşısını müxtəlif məkrli üsullarla alırlar. Avropa müstəmləkəçilik və kölələşdirməsinin ən alçaq, ən iyrənc nümunəsi kommunist rus imperiyasının əsarət altına salınmış xalqlar üçün milli mənliksiz tarixçi yetirmə məktəbinin milli mənəviyyatını öldürə bilmədiyi çox az tarixçidən biri Yusif Yusifovun, "Qədim Şərq" (B., 1993), o cümlədən Şumer tarixi sahəsində tədqiqatlarına və imperiyanın öldüyünə inanıb, milli tarixin təməlinə işıq salmaq istəyinə düşən S.Qaşqayın tərcümə və tərtib etdiyi "Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə" (B., 2006) adlı əsərinə, digər mənbə və tədqiqatlara söykənməklə əcdadlarımızın müştərək olaraq Şumer mədəniyyətinin yaradıcısı olmaqla bərabər, eyni zamanda onlardan üstün milli-mənəvi

quruculuğa, dəyərlərə, idraka, milli-mənəvi dəyərlərin yaradılması yolunda göstərdiyi fədakarlıq müqabilində dünya sivilizasiyasında ilk olaraq Mütləq Ruha qoşulmaqla vəhy olaraq Fəlsəfə elmini mənimsəyən, dərk edən, həyatında istifadə edən, dünya xalqları arasında yayan, onu dinləşdirən xalq olduğuna aydınlıq gətirməyə çalışacağıq.

Şumer dastanları çox aydın, sadə bir dildə yazılmışdır. Onu adi şüurla da dərk etmək mümkündür. **Onu elmi səviyyədə düzgün qiymətləndirmək üçün elmi şüurla bərabər mütləq ləyaqət sahibi də olmalıdır.** Təsadüfi deyil ki, böyük Alman mütəfəkkiri K.Yaspers yazırdı ki, "elm insan ləyaqətinin ünsürüdür" (40, 145).

Bununla bərabər dünya xalqları arasında müstəqil dövlətçiliyə, yaradıcılıq nümunəsinə malik xalq olmaq üçün yüksək səviyyədə mənlik şüuruna, gələcəyi proqnozlaşdırmaq səviyyəsində elmi şüur və fəlsəfi təfəkkürlə bərabər, qürur, ləyaqət, şərəf və s. milli hisslərə, dəyərlərə malik olmalıdır. Çoxluqda özünü, sənə aid olanı tapmağın, ya da ona çatmağın başqa yolu yoxdur.

Dünya elminin son qənaətinə görə Şumerlərdə sinfi cəmiyyətə keçid e.ə. IV minilliyin əvvəllərində başlamış, e.ə. IV minilliyin sonunda hökmdar hakimiyyəti şəklində formalaşmışdı (34, 73).

Şumer dövlətləri şəhər dövlətləri formasında yaranmış, e.ə. III minilliyin birinci yarısında çiçəklənmişdi. Mənbələrdə ilk Şumer dövlətləri erkən sülalələr adı daşıyırdı. Bu dövr e.ə. XXVIII-XXIV əsrləri əhatə edir (34, 72-73).

Şumer dastanları və digər mənbələr onlardan şimali-şərqdə Urmiya hövzəsi adlanan ölkədə onlarla eyni allahlara, inam və etiqadlara, adət-ənənəyə malik, özləri qədər sevdikləri və doğma hesab etdikləri, fasiləsiz iqtisadi-siyasi, mədəni-mənəvi əlaqədə olduqları, güvəndikləri Aratta, Lullu, Kuti və Su ölkə, xalq və dövlətləri var. Sonralar aparılmış arxeoloji tədqiqatlar və digər araşdırmalar göstərdi ki, onlarda da Şumerlərdə olduğu kimi e.ə. IV minilliyin əvvəllərində tayfa və tayfa ittifaqlarının təmərküzləşməsi, ilkin dövlət qurumlarının yaranması prosesi getmişdir; e.ə. IV minilliyin sonunda ilk dövlət qurumları yaranmışdır. Onlar da Şumerlərlə eyni etnososial inkişaf səviyyəsinə malik olmuşlar. Şumer-Akkad mənbələrində Urmiya hövzəsi ölkə və dövlətləri Aratta, Lullu, Kuti və Su ölkə və dövlətləri, onların Şumerlər, eləcə də digər qonşu ölkə və xalqlarla iqtisadi-siyasi, mədəni-mənəvi əlaqə və münasibətləri sahəsində aydın və müfəssəl məlumatlar var. Şumer qəhrəmanlıq dastanlarında Urmiya hövzəsi xalqları Şumerlər təcavüzə məruz qalanda onların müdafiəsinə qalxdıqlarından məhəbbətlə bəhs olunur (33; 34, 72-146, 250-274, 298-341; 103, 61-153).

Bəşəri sivilizasiyanın ilk yaradıcısı, Şumerlərin doqquz dastanı məlumdur (34, 125). Dastanlarda iştirak edən bəzi qəhrəmanlar, məsələn Uruk sülaləsinin hökmdarı En-merkar, Luqalbanda və Gilqamış tarixi şəxsiyyətlərdir. Şumerlərin yaratdıqları doqquz dastandan dördü qəhrəmanlıq dastanı olaraq − **"En-merkar və Aratta hökmdarı", "En-Merkar və En-Sukuş**sir**anna", "En-Merkar və Luqalbanda" və "Luqalbanda və Hurrum dağı" dastanları** bilavasitə Şumer-Aratta münasibətlərinə, Şumer-Aratta allahlarına, xalqının adət-ənənəsinə, mənəviyyat dünyasına, etnik xarakterinə, təsərrüfat-məişəti qarşılıqlı əlaqə və münasibətləri və b. məsələlərdən bəhs olunmuşdur. Bəzi dastanlarda Şumerlərdən daha çox arattalılar təsvir və tərənnüm olunmuşdur (33; 34).

Urmiya gölünün cənub və cənub-şərq hüdudlarını əhatə edən Aratta Şumerlərin şimali-şərq və şərq sərhəddi boyunca onunla həmsərhəd idi. Şumer dastanlarında Aratta və Şumerin hüdudları çox aydın ifadə olunmuşdur. Uruk şəhər dövlətinin nümayəndələri Suz ölkəsi dağlıq Anşanı keçib, yeddi dağı aşıb Arattaya daxil olurdular (33, 12).

Bu dörd dastanda hərdən Şumer və Aratta hökmdarlarının hər iki ölkədə hökmdar olmaq arzusu ziddiyyət təşkil etməsi və beşiyində boğulması istisna edilərsə, hər iki ölkənin allahları hər iki ölkədə məskun olmaqda, inam və etiqadları, adət-ənənələri, dövlət quruluşalrı və terminləri eyni olmaqla "Enlilə itaət edən bütün xalq bir dildə mədhiyyələr oxuyaraq", fasiləsiz iqtisadi, mədəni, mənəvi əməkdaşlıqdan, Arattanın, bütövlükdə Urmiya hövzəsi etnosların ardıcıl olaraq Şumerlərin xarici təcavüzdən qorunmasına həsr olunmuşdur.

"Bilqamıs" dastanı şumerlərin yaranış dastanı olaraq ancaq onlara, adət-ənənələrindən, inam və etiqadlarından, qəhrəmanın arzusundan, həyatından və s. məlumat verir. Digər dörd dastan Şumer şəhər dövlətləri arasında mübarizədən bəhs edir (104; 33; 34; 102, 83-87).

Avropa tarixçilərinin məkrli yanaşmasından, Azərbaycan sovet tarixçilərinin və onların müasir yetişdirmələrinin mənlik şüuru öldüyündən Aratta – Şumer münasibəti ifadə olunan 4 dastandan **biri və ən əhatəlisi "En-Mekar və Arattanın hökmdarı",** ikincisində isə Şumer hökmdarı kimi Aratta hökmdarının da adı sərlövhəyə çıxarılan dastan **"En-Merkar və En-Sukuşsiranna"** adlandırılır. Yəni Şumer hökmdarı En-Merkar və Aratta hökmdarı En-Sukuşsiranna dastanları hər iki ölkənin hökmdarının adı ilə adlandırır. "Hökmdar" sözü – mütləq monarxiyanın monarxı, çarı, kralı mənasında dünya elmində qəbul olunmuş termindir. Şumer dastanlarında Aratta və Şumer dövlətlərinin – adi əkinçi və maldardan hökmdara qədər bütün

sosial təbəqələr və dövlət təsisatları bütün aydınlığı ilə göstərilmişdir. Hər iki dövlətin hökmdarı **ensi** adlanırdı (33, 9-15; 34, 34-94, 125-131, 331-338).

Bir mənbədə iki dövlətdən və onların başçılarının adlarından təkrar-təkrar bəhs olunub, dövlətlərin və xalqların eyni təsisatlara və sosial təbəqələrə, eyni inam və etiqadlara, allahlara, adət və ənənələrə, mənəvi dəyərlərə malik olması göstərildiyi halda onların birindən sivilizasiya yaradıcısı kimi bəhs olunub, digərinin adının belə xatırlanmamasının babalını, günahını onu edənlərin üzərinə atmaq olar. Azərbaycan tarix elminin bu miskin vəziyyətini kommunist rus imperiyasının XX əsrdə Azərbaycan xalqına tarixçi alim adı altında yetişdirdiyi manqurtların təsiri hesab etmək olar.

Lakin bu yanaşma ilə bütün bəşərin mənəviyyatında yaradılan boşluğun törətdiyi mənəvi zərbələrin təsirini heç kəs azalda, onun mənfi nəticələrini aradan qaldıra bilməz. Şumer dastanlarında Şumer və Aratta hökmdarlarının qarşılıqlı, bir-birinin ölkələrinin hakimiyyətinə iddiaları, ordu göndərmək hədələri olsa da, onların bir-birini alçaltma, təcavüz halları yoxdur. Bütün mülahizələr, iddialar Şumer allahlarının vasitəçiliyi ilə danışıq, sülh yolu ilə həll olunur. Maraqlıdır ki, bütün mübahisəli məsələlərdə Şumerlərin Aratta hakimiyyətinə iddiaları zamanı Şumer allahları Arattanın mövqeyini qoruyur, ona dəstək olur. Şumer allahlarının başçısı və ağsaqqalı Enlil, İnanan, Dumuz, İşkur, eyni zamanda arattalıların da allahı idi. Məhəbbət və məhsuldarlıq allahı İnainan Arattada məskun idi, onun əri Dumuz sanki Arattanın müdafiəçisi idi.

Şumer – Aratta münasibətləri danışıqlar yolu ilə daha asanlıqla həll olunur, tənzimlənir, nəinki Şumer şəhər dövlətləri arasındakı mübahisəli məsələlər. Təsadüfi deyil ki, Sami tayfaları Mesopotomiyaya basqın edib Uruku mühasirəyə alanda En-Merkar yardım üçün Arattaya müraciət edir (33, 9-13; 34, 72-78, 125-131).

Şumer dastanlarının məlumatlarından görünür ki, Şumer − Aratta xalqları mənəvi həyatın bir çox sahələrində ümumi inam və etiqada malik olmaqla mədəni-iqtisadi cəhətdən fasiləsiz əlaqə və münasibətdə idilər. Biri digərinin həyatında iştirak edirdi. Hətta hökmdarları arasında münasibətlər gərgin olanda belə Şumer allahı yağış yağdırıb Arattanın dəmyə əkinlərini suvarmaqla onlara yardım edirdi.

Tədqiqatçılar əkinçi-tacir xalq olan Şumerləri dövründə mövcud olan bütün elmlərin yaradıcısı kimi təqdim edirlər. Lakin Şumer dastanları və digər mənbələrin məlumatına görə Mesopotomiya − Şumerlərin yaratdıqları möhtəşəm memarlıq və incəsənət üçün maddi bazaya malik deyildi. Tikinti materialı, müxtəlif növlü daş, ağac və metal filizindən məhrum vəziyyətdə

idi. Şumer dastanları Mesopotomiya memarlıq və incəsənətinin yaranmasında Arattanın yalnız maddi baza deyil, elmi-mənəvi baza olması haqqında aydın və dəqiq məlumat verir. Mesopotomiyadan fərqli olaraq onunla qonşuluqda yerləşən, Aratta ölkəsi müxtəlif metal yataqları və daş karxanaları ilə zəngin idi. Aratta əhalisi qızıl, gümüş, mis, qurğuşun, dağ daşı və qiymətli laciverd (lazurit, lapis, lazuli) istehsal edirdi. Qiymətli metallardan hazırlanmış əşyalar və laciverd daşı Mesopotomiyaya ixrac edirdi. Qaynağın bir yerində aydın yazılıb ki, "yataqlardan lacivərdi onun (İnannan ilahəsi) üçün toplayırlar". Lacivərd − Mesopotomiyada məbəd və saray tikililərinin bəzədilməsinə sərf edilir, ondan möhür, qiymətli bəzək-düzək və başqa əşyalar hazırlayırlar (42, 65).

Aratta əhalisi metal və daş emalının müxtəlif sahələri ilə məşğul idi. Burada məbəd və saray tikən, divarlarına qiymətli metal və daşlardan, xüsusilə lacivərddən bəzək və naxış vuran mahir ustalar var idi. Onlar qiymətli metal və daşlardan zərgərlik və digər bəzək əşyaları hazırlayırdılar. Qaynaqdan məlum olur ki, **En-Merkar Aratta ustalarının Uruka gəlməsini İnannan ilahəsindən xahiş edir: "Xanım İnannan (Aratta adamları) qoy mənə Urukda qızıl və gümüşü ustalıqla emal etsinlər, təmiz lacivərd parçalarından, qızıl-gümüş qatışığından, Urukda açıq təpədə, sən yaşadığın "Anşan evində" qoy (məbəd) tiksinlər. İşıqlı "Giparın" ortasını, sən yaşadığın yeri Aratta (adamları) qoy mənim üçün bəzəsin...** Aratta adamları dağlardan dağ daşlarını qoy mənim üçün gətirsinlər, böyük ibadərgah qoy mənim üçün tiksinlər, böyük məbəd qoy mənim üçün ucaltsınlar. Böyük məbədi, allahlar məbədini qoy parıldatsınlar. Mənim ayinlərimi Kulabda təmin üçün qoy düzgün inşa etsinlər. İşıqlı (çılpaq) dağa bənzər "abzu" qoy mənim üçün qursunlar, (meşəli) dağa bənzər "eredu" qoy mənim üçün təmizləyib hazırlasınlar, dərin uçuruma bənzər işıqlı ibadətgah ("abzu") qoy mənim üçün düzəltsinlər". Bununla bərabər En-Merkar Aratta hökmdarı En-Sukuşsirannadan onu ali hökmdar kimi tanımasını və Şumerdə məbəd tikintisi üçün lazım olan materialları göndərsin (33, 9-13; 42, 65-66).

Aratta hökmdarı En-Sukuşsiranna məhz İnannan tərəfindən bu ölkəyə hökmdar təyin olunduğunu əsas gətirərək, Uruka tabe olmaqdan qəti imtina edir. On il müddətində En-Merkar dörd dəfə Aratta hökmdarına qasid göndərib itaət tələb etsə də, rədd cavabı alır. Sonda İnannanın məsələyə müdaxiləsi ilə En-Merkar Arattaya hakimiyyət iddiasından əl çəkib özü ilə taxıl, mal-qara götürüb Arattaya gedir, bunun əvəzində Arattadan qızıl, gümüş, lacivərd alıb Uruka qayıdır (33, 13).

Şumer dastanları birinci növbədə "En-Merkar və Aratta hökmdarı" dastanı Arattadan dünyanın ilkin metallurgiya sənaye mərkəzi kimi bəhs edir (33, 9-13).

Aratta metal filizləri – qızıl, gümüş, qızıl-gümüş qatışığı, mis, tunc, qurğuşun, qiymətli lacivərd daşları (lazurit, lapis, lazuil) hasil edilir. Mənbələr məlumat verir ki, Mazandaran və Aşağı Azərbaycanın lacivərdi də Arattanın nəzarətində idi. Metal məmulatları ilə bərabər emal olunub, daş məmulatlar da Şumerə ixrac olunurdu (34, 333; 42, 65).

Mənbələrin məlumatlarından aydın olur ki, qızılı, gümüşü, onların qatışığını, digər metalları və qiymətli daşları Aratta ustaları vətənlərində emal edir, sonda Şumerə ixrac edirdilər. Ticarət qanunları ilə, bəzən də Şumer hökmdarlarının xahişi, hərdən təkidi və təzyiqi ilə Aratta ustaları xam materialları Mesopotimayaya gətirib burada emal edirdilər.

Şumerdə hökmdar saraylarını, qala divarlarını, möhtəşəm məbədləri və onun qüllələrini Aratta ustaları tikirdi. Məbədləri, sarayları, qala divarlarını daşlar və digər bəzəklərlə Aratta ustaları bəzəyirdilər. Əşya və geyim bəzəklərinin ustaları da arattalılar idi. Bütün bu məlumatlar Şumer qəhrəmanlıq dastanlarında şəxsən Şumer hökmdarlarının dili ilə deyilmişdir.

Şumer dastanları Şumer və Aratta xalqının mentalitetini bütün incəliyi ilə ehtiva edir. Aratta və Şumer münasibətlərindən bəhs edən Şumer dastanları sanki Aratta ölkəsinin və xalqının tərənnümünə həsr olunmuşdur. Həm ölkənin, həm də xalqın müfəssəl bədii obrazı yaradılmış, mentaliteti bütün çalarları ilə göstərilmişdir. Çox maraqlıdır ki, özü də məhz şumerlərlə mübarizə şəraitində. Aratta hökmdarı Şumer hökmdarı En-Merkarın onun hakimiyyətini, itaətini qəbul etməsi tələbinə cavab olaraq bildirir: **"Qasid! Öz ağana, Kulabın ali kahini – hökmdarına de: – Mən, ali kahin – hökmdar, təmiz əlin (İnannanın) təyin etdiyi adamam.** Səma hökmdarının özü, kainat hökmdarəsi, bütün qanunlar hakiməsi müqəddəs İnanna məni **pak adətlər ölkəsi** Arattaya həqiqətən göndərdi, dağlarda onun (Arattanın) önündə böyük qanı kimi məni qoydu. Necə ola bilər ki, Aratta Uruka boyun əysin? Aratta Uruka boyun əyməyəcək – deginən (ona)".

Aratta hökmdarı Uruk hökmdarı En-Merkarın tələbini qəti rədd etdi. Qasid Aratta hökmdarının En-Merkara itaət edəcəyini ona vəd etdiyini bildirir. Bunu eşidən Aratta hökmdarının ürəyi döyünür, özünü itirir, bir qədər duruxur, özünü toplayıb, heç nə olmamış kimi təmkinlə cavab verir: **"Arattada sıx-sıx axan sular var... ölkədə qurbankəsmə, dua-nəzir, hörmət-izzət var, beş-on adam deyilik ki. Məgər uruk dağlara qarşı gedə bilərmi? Sənin ağan silaha sarılmaq istəyir, mən isə təkbətək döyüşə (mübahisəyə)**

**çağırıram".** Mübahisələri danışıq yolu ilə həll etməyi təklif edən Aratta hökmdarının Vətəninə və xalqına, ilahələrinə güvəndiyi dastanda aşağıdakı kimi tərənnüm edilərək deyilir: **"Dağ məharətli dolu qəhrəmandır. Öz evinə yollanan axşam şəfəqidir, onun üzündə qaranlıq yayılır. O, üzü şölə ilə dolu olan fəzaya qalxan aya bənzəyir. O, dağlara çəpər olan ağaclara (meşəyə) bənzəyir. Pak adət-ənənə ölkəsinin Lütfkar Laması (Aratta ilahəsi) – Arattanın tacı, şəfəqli səma tacı (İnanna) kimi Arattaya yol göstərdi, mən öz əzəmətliliyimi həqiqətən dərk etdim"** (34, 125-126).

Şumer dastanları yüksək elmi və bədii zəka ilə Şumer məbəd və qalalarını quran, incəsənətini yaradan Aratta xalqını Vətəninin dağlarını, sularını, bütün nemətlərini mənəviləşdirmiş, öz inam və etiqadlarına sədaqətli, yüksək səviyyədə vətənpərvər, öz kimliyini dərk edən, pak adət-ənənələrlə yaşayan dağ məharətli qəhrəman xalq kimi tərənnüm və **təqdim edir.**

Şumer qəhrəmanlıq dastanlarında Şumerlərin məişətinin, inam və etiqadlarının ayrı-ayrı sahələrindən bəhs olunur. Bütövlükdə sistem halında Şumerlərin inam və etiqadları, adət-ənənələri, mənəvi siması, etnik psixologiyası "Bilqamıs" dastanında obrazlaşdırılmışdı. Şumer qəhrəmanlıq eposu "Bilqamıs" dastanı bəşəriyyətin ilk etnik yaranış, qəhrəmanlıq dastanı kimi qiymətləndirlir. Dastanda epizodik obrazlar istisna olunarsa, əsər boyu iki əsas obraz – Şumer xalqı və onun qəhrəmanı Bilqamısdır. Dastanda Bilqamıs yarı tanrı, yarı insan kimi tərənnüm olunur.

O, Uruk şəhərinin də qurucusudur. Hər şeyi bilən çox bilici olmaqla bərabər, Şumerdə heç kəsdə olmayan fizik-mənəvi gücə, əzəmətə malik yarı insan, yarı tanrı kimi tərənnüm olunaraq deyilir:

O (bütün insanlardan) əzəmətli, ucadır.
.....................................................

O insandır, yarıdan çoxu tanrıdır ancaq,
Heç kəs ona tay olmaz − onun görkəminə bax!
..............................................................
Urukun divarını odur ucaldan belə
Çılğınlıqda, qüvvədə oxşayır qızmış kələ,
Döyüşdə yarağının yox tayı-bərabəri (41, 10).

Bilqamısın yaradıcısı olduğu Uruk şəhər əhalisinin sevimli məşğuliyyətləri, əyləncələri, arzu olunan, fəxr edilən, öyünülən əməllərdən, bütövlükdə etnik simasından bəhs edilərək deyilir:

Bilqamıs olan yerin mən bilirəm yolunu,
Gedək, Enkidu, gedək, o hasarlı Uruka –
O yerə ki, adamlar şux geyimlə öyünür.
O yerə ki, hər günü, toy, bayrama dönür.
O yerə ki, ucalar arfanın, sincin səsi,
Şəhvətli qadınların sonsuzdur əyləncəsi.
Şirin ehtirasları, min bir sevinc vəd edir (41, 14).

Dastanda Şumerlərin məşğuliyyət və əyləncələri, arzu və idealları yuxarıda göstərilən kimi təsvir olunmuşdu.

Bilqamısın tərənnümü və təsvirindən bəhs olunan iki yerdə:

"Təbil səslənən kimi oyanır igidləri –

Sıçrayır yatağından Urukun ərənləri" (41, 10) misralarına rast gəlsək də, "Bilqamıs dastanı"nda **nə ərən yetirən mühit haqqında məlumat var, nə də Bilqamısın ətrafına ərən toplamaq təşəbbüsü. Bilqamıs dastanda Urukun yeganə igid kahini kimi təsvir olunur ki,** əhali də bundan narahatlıq keçirir. Dastanda deyilir:

Ataların yurdunda oğul qoymaz Bilqamıs,
Özü öz başına gecə-gündüz açar iş.
O hasarlı Urukun kahinimi Bilqamıs?
Uruk oğullarının kahini tək birdi o.
Əzəmətli, şöhrətli, hər şeyə qadirdi o.
Qoymaz ki, anaların gəlinləri dul qalsın,
Oğulları dalınca uzanan boş yol qalsın.

Çox zaman bu gileyi Anu da eşidərdi:
"Arurunu pənaha çağırırdılar onlar,
Aruru, Bilqamısı bu cür yaratmısan sən.
Bir igid də yarat ki, gücdə olsun ona tən,
Bir-biri ilə qoy onlar həmişə yarışsınlar,
Uruk da tamaşa edib, bir az eyni açılsın" (41, 10-11).

Beləliklə, Urukluların yalvarış və dualarını eşidən allahlar gildən Enkidunu yoğurub yerə atdılar. Allahlar Bilqamısa yuxuda bunu xəbər verir, ovçunun onun yeri haqqında məlumatdan sonra o, şəhvətli qadın Şamxat vasitəsilə Enkidunu vəhşilərdən ayırıb Uruka gətirir, onu özünə bərabər hesab etdiyi üçün onunla ən çətin səfərlərindən birinə çıxır. Livan dağlarında, Sidir meşəsindəki qorxunc, zalım, ağzından alov saçan **Hümbabı** öldürürlər.

Səfərdən az sonra Enkidu ölür, bu hadisə Bilqamısa ağır təsir edir. O, Enkidunu hörmətlə dəfn edir, məzarı üstündə heykəlini qoyur.

Enkidunun ölümündən sonra yeni bir igid, arxa axtarışına düşmür, səfərlərini tək davam etdirir. Əbədi həyat qazanmağın sirrini öyrənmək üçün təkcə səfərə çıxır, çox çətinliklərlə üzləşir. "Gənclik çiçəyi"ni əldə edib geri qayıdarkən, yolda çiçəyi çayın kənarına qoyub sərinləmək üçün suya girir. Bunu görən ilan çiçəyi oğurlayır, dərhal istifadə edib dərisini dəyişib cavanlaşır. Bunu görən Bilqamıs şöhrətinə layiq heç nə tapmadığına, qazanmaqığına görə gözlərindən qan-yaş axıda-axıda Uruka qayıdır.

Görünür, Uruk sosial-mənəvi həyatında, təməlində fərdiyyətçilik hökm sürmüş, onun qəhrəmanı da fərdiyyətçi kimi yetişmişdir.

Mesopotomiyada əhalinin təsərrüfat məşğuliyyəti suvarma əkinçiliyi və ticarətdən ibarət idi ki, hər iki peşə, həyat tərzi fərdiyyətçilik doğururdu, yaradırdı. **Nə En-Merkarın Aratta hökmdarından itaət tələb edəndə şeypur çalıb döyüşçü toplaya bilirdi, nə də e.ə. 2287-ci ildə akkadlar** Kiş şəhərinin dükanları qarşısında dayananda şeypur çalıb, qoşun toplayıb düşmənə qarşı səfərbər ola bilmədilər. Hansı ki "Əgər ölkə pis silahlanıbsa, düşmən həmişə (şəhər) darvazaları önündə dayanacaqdır" (34, 137) aforizmini onlar yaratmışdılar. Düşmənə qarşı səfərbər olmaq üçün nə təbil çaldılar, nə də yatağından sıçrayıb qalxan igidlər oldu. Ona görə ki, elmli, savadlı şumerlərdə vətən, etnik birlik ideyası deyil, fərdi mənfəət, cah-cəlal toplamaq, eyş-işrət ideyası hakim idi. "Şux geyim"ə nail olmaq, onunla öyünmək, fəxr etmək, onu nümayiş etdirmək Şumerlərin başlıca, əsas etnik ideyalarına çevrilmişdi. Odur ki, akkadlar Kiş şəhər darvazaları qarşısında dayananda özləri silaha sarılmadan, düşmənə qarşı səfərbər olmadan yardım üçün Arattaya müraciət etdilər (34, 128; 42, 62).

Şumer qəhrəmanlıq dastanlarının "dağ məharətli qəhrəman" kimi tərənnüm etdiyi belə bir canlı, Vətənini, dövlətçiliyini, azadlığını, mənəvi dəyərlərini hər şeydən yüksək tutan, mənəvi enerjiyə, qürur, ləyaqət və şərəf hisslərinə malik yaşamağa qadir, Şumer memarlıq və incəsənətinin, metallurgiyasının da yaradıcısı, bəşəriyyətin etnos yaradıcılığının yeni dalğasına etnik-mənəvi varlığını yaşatmaq üçün sinə gərən Aratta xalqını görməmək, onun varlığına etina etməyib vətən, xalq təhlükə ilə üzləşəndə hasara sığınıb "şux geyimlə öyünən", "hər gününü" arfanın, sincin sədaları altında "toy-bayrama dönən", düşmənin birinci həmləsində əsarətə düşüb tarix səhnəsindən silinən bir xalqı sivilizasiya yaradıcısı kimi yeni və ən yeni dövr nəsillərinin şüuruna aşılamaq cinayətini bəşəri cinayət olaraq Avropa alimlərinin, kommunist rus imperiyasının XX əsrdə Aratta xalqının müasir varislə-

rinə yetişdirdiyi “akademik”, “elmlər doktoru”, “professor”, “əməkdar elm xadimi” kimi titul və “rütbəli tarixçi” və “ictimai elm nümayəndələri”nin vicdanına boşlayıram.

E.ə. IV minilliyin sonu – III minilliyin əvvəllərində, eyni vaxtda, qonşuluqda tarix səhnəsinə çıxan Şumer və Aratta dövlətlərində etnik proseslər – etnokonsolidasiya – vahid xalq kimi təşəkkül etmə fərqli səviyyədə idi. Yuxarıda bəhs etdiyimiz kimi, şumerlərin həyat tərzi, təsərrüfat məşğuliyyətlərinin onlarda ardıcıl doğurduğu fərdiyyətçilik bəşəriyyətin ilk elmi bilik yaradıcıları kimi qiymətləndirən şumerlərin vahid xalq kimi təşəkkülünə, vahid dövlət quruculuğuna imkan vermədi. Onlar ayrı-ayrı müstəqil şəhər dövlətlərində yaşayırdılar, aralarında sadəcə olaraq iqtisadi-maddi əlaqələr mövcud idi. Vahid Şumer xalqı dövləti yox idi. Sami təhlükəsinə qarşı Umma şəhər dövlətinin hökmdarı Luqalzaqqessinin (E.ə. 2312-2287) hərbi üsulla (zorla) Şumerlərin vahid dövlətdə birləşdirilməsini başa çatdıranda, bu şəhər dövlətlərinin hökmdarlarının şəxsində Şumer şəhər dövlətlərinin əhalisi bir-birinə qarşı düşmənə çevrildilər. Bundan məharətlə istifadə edən Akkad hökmdarı Sarqon (e.ə. 2316-2261) e.ə. 2287-ci ildə Mesopotomiyanı çox asanlıqla işğal etdi. Bəşəriyyətin sivilizasiya qurucuları, elm, zəka sahibi Şumerlər onlara qarşı səfərbər ola bilmədilər (34, 78; 18, 291-292).

Şumer, Aratta, Misir xalqları bəşər tarixinin ilk xalqları, onların qurduqları dövlətlər, yaratdıqları yazı, məktəblər, elm, incəsənət, memarlıq, heykəltəraşlıq, təsərrüfat sahələri və s. etnik-milli yaradıcılığın gələcəyə, insanlığa ən qiymətli töhfələri idi. **Elam, Akkad, Babil, Het, Mitana, Assur, Suriya, Fələstin və Finikiya xalqlarının tarix səhnəsinə çıxması, xalqların yaranmasının ikinci mərhələsi idi.** İkinci mərhələdə yaranan xalqlar sanki müharibə üçün doğulmuşdular. Beləliklə Elam, Akkad, Babil, Assurların ilkin dövlətləri hələ tam formalaşmamış Şumer və Arattaya qarşı amansız təcavüzə başladılar. Yuxarıda göstərdiyimiz kimi, akkadların təcavüzünə qarşı təşkilatlana bilməyən Şumerlər asanlıqla məğlub oldu, onların hakimiyyətini qəbul etdi. Lakin Şumerlərdən fərqli olaraq Aratta xalqı nəinki özlərini müdafiə etdi, hətta Şumerləri əsarətdən qurtarmağa, onların düşmən tərəfindən dağıdılmış dini məbədlərini, mədəniyyət abidələrini bərpa etməklə onların mənəvi tənəzzülünün qarşısını alıb, müstəqilliklərini bərpa etməyə çalışdılar.

**Aratta ölkəsi İkiçayarasının şimal-şərqində Urmiya gölünün cənub və cənub-şərq ərazilərini əhatə edirdi. Arattanın sərhədləri cənub-şərqdə Zəncana, cənub-qərbdə isə Zeribər gölünə (Sənəndəcin şimalı) kimi çatırdı (42, 61, 67; 34, 332). Aratta ölkəsi məskun olduğu tayfaların adı**

**ilə adlandırılan əyalətlərdən ibarət idi. Arattada dövlət idarə orqanları və onları idarə edən vəzifəli şəxslər vardı. Arattada mövcud olan siyasi və ideoloji təsisatlar Şumer məfhumları ilə ifadə olunan təsisatatlarla idarə olunurdu. Ölkəni ensi rütbəsi daşıyan hökmdarlar idarə edirdilər. Arattanın dövlət idarələri şəhərdə yerləşir, hökmdar sarayda oturur və dövləti idarə edirdi** (42, 62).

Lullubi tayfa ittifaqı Urmiya gölünün cənubunda Arattanın qərb ərazilərində məskun idi. Su və turukki tayfaları da Lullubi tayfa ittifaqına daxil idi (42, 67-68). Su ölkəsi Urmiya gölü hövzəsində kutilərin ərazisində yerləşirdi (42, 73).

Su tayfa ittifaqı e.ə. III-II minilliklərdə Zaqroş dağlarında və Urmiya gölünün cənubunda yaşayırdılar. Qədim qaynaqlarda sular ilə əlaqədar bir sıra ifadələr işlədilmişdir. Məsələn, Su ölkəsinə mənsub "lulu", "Şubar (Subar) ölkəsinə mənsub "lulu". Deməli, lullular və sular qarışıq yaşamışlar. Bəzi hallarda Aratta ölkəsinin adı "Su ölkəsi" kimi göstərilmiş, bu tayfa ilk mərkəzləşmiş Azərbaycan Manna dövlətinin də əsas etnosu olmuşdur (34, 303-304). **Deməli, Aratta, Lullubum və Su ölkəsi Urmiya gölü hövzəsindəki geniş bir ərazinin müxtəlif adları olmuşdur** (42, 81).

Kutilər Urmiya gölünün cənub və qərb regionlarında məskun idilər. Bəzən "kuti" adı Urmiya gölü hövzəsində təmsil olunmuş başqa tayfalara da şamil edilirdi. Kutilər bir tərəfdən turukkilər və lullubilər ilə ittifaqda, digər tərəfdən Urmiya gölü hövzəsinin yaxınlığında (qərbdən) məskunlaşmış **Subir (Subar)** tayfaları ilə ünsiyyətdə olmuşlar. Eyni zamanda kutilərin adı Diyala çayının yuxarı axarlarında yerləşən Tukriş ölkəsi ilə yanaşı çəkilir (42, 81).

Tarixdən məlum olduğu üzrə ən qədim, qədim və orta əsrlərdə bir toplumdan hansı tayfa ittifaqı hakimiyyətdə olurdusa, ölkə və dövlətdə onun adı ilə adlandırılırdı, onun adını daşıyırdı.

İlkin dövlət qurumları və dövlətlərin təşəkkülü probleminə aydınlıq gətirmək Avropaya sərf etmədiyindən, onlar yatmış xalqların özünüdərkinə, mənlik şüuruna təkanverici təsir edəcəyini nəzərə alaraq məsələdən ümumi şəkildə bəhs etməklə kifayətlənirlər, bəzən də problemi bilərəkdən dolaşdırır, izahı çətinləşdirən qaranlıqlara yönəldirlər. İlkin dövlət qurumları və dövlətlərin təşəkkülü haqqında tarixi elmi ədəbiyyatda ümumi mülahizələr istisna edilərsə, hələ də aydın-dəqiq elmi fikir olmasa da, problem Azərbaycan sovet tarixçilərinin və onların müstəqillik illərində "yetişdirdiyi yeni nəslin" diqqətini çəkməmişdir.

Biz "Dədə Qorqud" dastanında zaman oxu müstəvisində mifoloji təfəkkürün mərhələləri". − Mədəniyyət: postqeyri-klassika və postmodernizm dövrü" (B., 2015), "Etnosun ilkin təşəkkül mərhələsi və terminologiyası" − Müasir fəlsəfə: idrakın ən yeni istiqamətləri". (B., 2014), "Qarabağın etnomənəvi inkişaf tarixi" (B., 2006), "Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi" (B., 2007), "Türk mənəviyyatı tarixində "Oğuz xaqan" və "Kitabi − Dədə Qorqud" dastanları (B., 2015 və b. əsərlərimizdə bu problemin obyektiv dərkini özümüz üçün aşkar etməyə çalışdıq. Mənə elə gəlir ki, məsələyə qismən də olsa, obyektiv yanaşmaya nail ola bilmişik. Odur ki, Şumer və Aratta xalqlarının etnik durumu, Şumerləri məhv edən bəşəriyyətin ikinci xalq yaranma mərhələsində meydana çıxan dövlətlərin təcavüzünü Aratta xalqının dəf edib etnik-milli varlığını, bütövlüyünü qoruyub yaşatması və ilkin etnik mənəvi-mədəni təməlində xalq kimi təşəkkül etməsini doğuran səbəblərdən qısaca bəhs etməyə ehtiyac duyuruq.

İnsan əcdadı Yeni Paleolit dövründən – e.ə. 40-35-ci minilliklərdə sürü icması mərhələsindən qəbilə icmasına keçməsi ilə məişətində heyvani həyat tərzindən ayrılma prosesi başlayır. Bütün ətraf aləm, şəxsi münasibətlər tədricən mənəviləşdirilir, ona adlar verilir, beləliklə dil yaranır, bütün varlıqlar, münasibətlər, hiss, duyğu, emosiya, inam və etiqadlar dildə ifadə olunur. İnsanlar arasında bütün bioloji və maddi münasibətlər mənəviləşir, insanlar bioloji, maddi-iqtisadi münasibətlərini şüurla, özlərinin yaratdığı mənəvi münasibətlərlə idarə etməyə başlayırlar. İnsanlığın ilk müqəddəsləşdirdiyi, yolunda həyatlarını qurban verməyə hazır olduğu, buna özünü borclu hesab etdiyi, bioloji və maddi varlıqlar Ana və Vətəndir ki, bunu da instiktiv olaraq bioloji əcdadından və maddi varlığının təbii əsası doğulduğu, Vətən adlandırdığı ərazidən almışdır. Elə bu səbəbdən də Vətən və Ana insanlığın müqəddəsləri arasında birinci və ən müqəddəsi, müqəddəslərin müqəddəsi kimi dəyərləndirilir. (Doğulduğu ərazini qorumaq, yadları doğulduğu əraziyə buraxmamaq, onu qorumaq üçün həyatını qurban verməyə qədər fədakarlıq göstərmək bütün canlılara, heyvanlara məxsus instikdir). Doğma türkcəmizdə "Vətən" sözü "Ana" mənasını da buradan almışdır. Dilimizdə "tən" sözü – doğulduğu yer və ona bərabər mənalarını ifadə edir. "Və" isə bağlayıcıdır. "Vətən" söz birləşməsi anaya bərabər, "ana" mənasını da buradan almışdır. İnstiktiv olaraq ruhunda Vətən müqəddəsliyi olan insanın onu müqəddəsləşdirməsi, adlandırması insanlığa mənəvi inkişaf üçün dərin bir impuls verdi. Beləliklə, toplumların tədricən inam və etiqadları, mənəvi dəyərləri, adət və ənənələri yaranır, yaratdıqları bu mənəvi münasibətlər tədricən onları idarə edən mənəvi orqanizmə çevrilir. Bu proses elə bir inkişaf səviyyəsinə çatır

ki, insanın özünü təbiətlə eyniləşdirməsindən (inkişafın qapalı dairəvi xətt kimi təsəvvürdən) imtina edir. Beləliklə, anaxaqanlıq tədricən ataxaqanlıqla əvəz olunur, kollektiv nikaha son verilir, tək kəbinliliyə keçilir, ekzaqam nikah əsas nikah forması kimi qəbul edilir. Ekzaqam nikah adətinə görə, bir qəbilənin kişiləri ancaq başqa qəbilənin qadınları ilə evlənə bilərdilər (106, 160-173).

Beləliklə, mənəvi dəyərlər sistemində ekzaqam nikah, tək kəbinliliyin mənəviyyat qanununa çevrilməsi, qəbilələrin sürətlə qohumlaşması, birləşməsi yeni etnososial birlik forması olan tayfa və tayfa ittifaqları yaratmasını sürətləndirir. Digər səbəblərlə bərabər ekzaqam nikah qəbilələrin birləşib yeni daha böyük birliklər – tayfa və tayfa ittifaqını yaradır.

Etnoloji tədqiqatlar göstərir ki, ilkin qəbilələrdə mənəvi münasibətlərin yaranmasında ümumi cəhətlər olmaqla bərabər, fərqli, hətta bir-birinə zidd inam və etiqadlar, dəyərlər, adət-ənənələr də olmuşdur. Dil, inam və etiqad, mənəvi dəyərlər, adət-ənənələrin eyniyyəti, uyğunluğu qəbilələr arası münasibətlərin qurulması və onların birləşib tayfa və tayfa ittifaqları yaratmasının ilkin əsasları idi. Ataxaqanlıq bəşəri inkişafa təkanverici impuls verdi. Tayfalar və tayfa ittifaqları adlarını bəzən müqəddəsləşdirdiyi doğma ərazisindən, ilkin Vətəninin müqəddəsləşdirilib verilən adlarından götürür, bəzən əcdad atanın şərəfinə onun adı ilə adlandırır, ilkin refleksiya baş verir, mənlik şüuru yaranır, tayfa və tayfa ittifaqları özünü başqalarından fərqləndirir, başqalarına qarşı qoyur, özününkülərlə birləşməyə can atır. Antroponim, etnonim və toponimlər yaradırlar, regionda ardıcıl olaraq özünü xüsusiləşdirir, özünəməxsusluqları qabardır. Ardıcıl olaraq inam və etiqadlarını, mənəvi dəyərlərini, adət-ənənələrini müqəddəsləşdirir, onun müqəddəsliyini qoruyur, pozulmasına qarşı ölümə qədər cəzalar qoyur.

İlkin olaraq bir dildən və kökdən olan bir və ya bir neçə tayfanın əlaqə və münasibətləri qurulur, proses fasiləsiz davam edir, qohum tayfalar arasında mənəvi-mədəni, iqtisadi əlaqələr güclənir, ayrı-ayrı tayfaların inam və etiqadında, mənəvi dəyərlərində, adət-ənənələrində olan cüzi fərqlər, ciddi mənəvi təsir gücünə malik olduqda hamı tərəfindən qəbul edilir, zəif, keçici təsirə malik olduqda unudulur, beləliklə tayfa və tayfa ittifaqlarında vahid özünəməxsusluq yaranır, xüsusiləşir, o, digər toplumlardan fərqli dəyərlər, adət-ənənələr yaradır, onları pozulmaz müqəddəslər kimi yeni nəslin şüuruna yeridir. Onun məhz belə olmasına və düzgünlüyünə birmənalı, qəti inam yaradır. Qohum tayfa və tayfa ittifaqları arasında gedən bu proses geniş əraziləri, çoxlu tayfaları əhatə edir, mənəvi, iqtisadi cəhətdən birləşdirir. Tayfaların ilkin birləşməsindən başlayaraq onlar arasında əlaqə və münasibətləri

tənzimləyən norma və qaydalar yaranır. Nəhayət, uzunmüddət yaranması davam və inkişaf edən bu qayda, norma və adətlər xüsusi təsisat və qanunlara çevrilir. Özünün yaratdığı təsisatlar, qanunlar və xüsusi idarəedici şəxslər vasitəsi ilə idarə olunma tayfa ittifaqlarının etnomənəvi birliyinin yekdilləşməsi, xalq kimi ilkin təşəkkülün, tam formalaşmış dövlət orqanına malik olmanın göstəricisidir (107, 18-68).

Xalq kimi təşəkkülün əsas, başlıca göstəricisi vahid dilin, Vətən və Xalqın inam və etiqadlaşması, mənəvi dəyərləin, etnik-milli xarakterin adət-ənənə kimi mənəviləşməsidir. Mənəviləşmə − müqəddəsləşmənin göstəricisidir.

Y.Yusifovun Şumer mənbələrinə istinadən təqdim etdiyi − yazdığı Aratta ölkəsi məskun olduğu tayfaların adı ilə adlandırılan əyalətlərdən ibarət idi. Kutilər Urmiya gölünün cənub və qərb regionlarında məskunlaşmışdılar. Bəzən "Kuti" adı Urmiya gölü hövzəsində təmsil olunmuş başqa tayfalara da şamil edilirdi. Kutilər bir tərəfdən turikkilər və lullubilər ilə ittifaqda, digər tərəfdən Urmiya gölü hövzəsinin yaxınlığında (qərbdən) məskunlaşmış Subir (Subar) tayfaları ilə ünsiyyətdə olmuşlar. Eyni zamanda kutilərin adı Diyala çayının yuxarı axarında yerləşən Turkiş ölkəsi ilə yanaşı çəkilir (42, 81).

Su və turikki tayfaları da Lullubi tayfa ittifaqına daxil idi. Su ölkəsi Urmiya gölü hövzəsində kutilərin ərazisində yerləşirdi **(42, 62, 67-68, 73, 81; 34, 303-304).**

Qədim Şərq dillərini bilən və bu ölkənin tarixi üzrə mütəxəssis Y.Yusifovun Şumer, Akkad, Akkad-Şumer və başqa mənbələrə istinadən Arattada haqqında bəhs etdiyi tayfa ittifaqlarının etnomənəvi, ideoloji və siyasi durumu haqqında yuxarıda göstərdiyimiz faktlar deməyə əsas verir ki, Aratta əhalisini təşkil edən tayfa ittifaqları dil və mənşəcə bir kökdən və qohum olmuş, ilkin inam və etiqadları, mənəvi dəyərləri, adət-ənənələri bir-biri ilə eyniyyət təşkil edəcək qədər yaxın olduğundan çox asanlıqla hamısı bir-biri ilə ünsiyyətə girə bilmiş, bütün Aratta ərazisində yayılmış, bir-biri ilə qonşuluqda məskunlaşmış vahid etnomənəvi sistem − Aratta xalqını və dövlətini yaratmışlar. Aratta ölkəsi və dövləti, eyni zamanda qurucuların adı ilə Lullubi, Kuti, Su və Turukki ölkəsi kimi də tanınmışdır. Aratta xalqının Şumerlərdən birinci başlıca fərqi − onlarda Vətən və xalqın tam mənəviləşməsidir. Bu "En-Merkar və Aratta hökmdarı dastanı"nda Uruk hökmdarı En-Merkarın Aratta hökmdarından ona tabe olması və itaət göstərməsi tələbinə etiraz edərək onun qasidinə deyir: **"Arattada şır-şır axan sular var... ölkədə qurbankəsmə, dua-nəzir, hörmət-izzət var, beş-on adam deyilik ki. Məgər Uruk dağlara qarşı gedə bilərmi? Sənin ağan silaha sarın-**

**maq istəyir, mən isə təkbətək döyüşə (mübahisəyə) çağırıram"... Sözünə davam edərək deyir: "Aratta Dağ − məharətlə dolu qəhrəmandır. Öz evinə yollanan axşam şəfəqidir, onun üzündə qaranlıq yayılır. O, üzü şölə ilə dolu olan fəzaya qalxan aya bənzəyir. O, dağlara çəpər olan ağaclara (meşəyə) bənzəyir. Pak adət-ənənə ölkəsinin lütfkar Laması (Aratta ilahəsi) − Arattanın tacı, şəfəqli səma tacı (İnanna) kimi Arattya yol göstərdi, mən öz əzəmətliliyimi həqiqətən dərk etdim" sözlərində bütün incəliyi ilə ifadə olunmuşdu** (34, 125-126).

Xalqların ilkin təşəkkülü prosesində yaranan eposlarda xalq və onun ilkin qəhrəmanı tərənnüm olunur. Bəşər tarixində heç bir xalq tabe etmək istədiyi başqa bir xalqın və ölkənin bu səviyyədə müsbət obrazını (Şumer dastanlarında Aratta xalqı tərənnüm olduğu qədər müsbət obrazı) yaratmamışdır. Aratta xalqının Şumer dastanlarında yaradılan qəhrəmanlıq obrazını elə həmin günlərdə zaman sübut etdi. Aratta xalqı nəinki öz vətənini təcavüzdən qorudu, Şumerlərin əsarətə düşüb, mənəvi cəhətdən süqut etməməsi üçün uzun illər müharibə apardı.

Əsrlərlə rus imperiyasının əlaltı və nökərləri tarixçilərin xalqımızın üzünə bağladığı milli varlığımızın və dövlətçiliyimizin təməl əsaslarına gedən yolu müasir nəsillərimizin üzünə açaraq milli mənlik şüuruna yiyələnməkdə parlaq xidməti olan Y.Yusifov kommunist rus imperiyasının tarix elmi vasitəsi ilə xalqlarda milli-mənəvi varisliyi pozmaq metodundan (tələsindən) bütünlüklə xilas ola bilməmiş, Azərbaycan dövlətçiliyinin tarixin müəyyən mərhələlərində ayrı-ayrı sülalərin qurduğu təsisatlar olması metodunu Aratta dövlət quruculuğuna tətbiq etmişdi.

Moskvada hazırlanıb Azərbaycan sovet tarixçilərinin şüuruna aşılamış konsepsiyaya görə Azərbaycan dövlətçiliyi tarixin müəyyən mərhələsində ayrı-ayrı feodal sülalələrin, misal üçün, sacilərin, səlarilərin, rəvadilərin, şəddadilərin, qaraqoyunlu, ağqoyunlu, səfəvi, əfşar, qacar və b. feodal sülalələrin keçici hakimiyyətlərindən ibarət olmuşdur. Sülalə dəyişikliyi dövlətçiliyin süqutu kimi Azərbaycan sovet tarixşünaslığının "elmi" konsepsiyasına çevrilmişdi. Hansı ki tarixin heç bir mərhələsində Azərbaycanda sülalə dəyişikliyi dövlət təsisatlarında pozuntu yaratmamışdı. Bütün qədim, orta əsr, yeni və ən yeni dövrlərdə seçkili dövlət sistemi yaradılana qədər Azərbaycan xalqında dövlət idarəçiliyində sülalələr bir-birini əvəz edərək etnik-milli dövlətçiliyi yaşatmış, davam etdirmişdir. Dövlət quruculuğunda milli varislik heç vaxt qırılmamışdı (Hakim sülalənin devrilməsi ilə dövlətçiliyi məhv olan xalqlar da olmuşdur). 1917-ci il oktyabr çevrilişinə qədər rusiyanı bir-birini əvəz edən sülalələr idarə etmişdir. Azərbaycan sovet tarix-

çiləri o qədər manqurt və müti olmuşlar ki, elə bu fakta söykənib, dövlətçiliyini ayrı-ayrı sülalələrin pərakəndə quruculuğu deyil, fasiləsiz davam edən milli-mənəvi yaradıcılıq sistemi olduğunu tariximizə istinadən əsaslandıra bilərdilər.

Y.Yusifovun Şumer dastanları və digər mənbələrdən tədqiqatına cəlb etdiyi "bəzən kuti adı Urmiya gölü hövzəsində təmsil olunmuş başqa tayfalara da şamil edilirdi", "Lullubi tayfa ittifaqına daxil olan Su və turukki tayfaları kutilərin ərazisində məskunlaşmışdı, Lullubinin Su ölkəsinə daxil olması, həmçinin Arattanın da bütövlükdə Su ölkəsi adlandırılması", Aratta, Lullubi və Su ölkəsi Urmiya gölü hövzəsində geniş bir ərazinin müxtəlif adları olması", məlumat və mülahizələri, Mesopotomiya və Arattaya Akkad və Elam təcavüzü başlayarkən onlara qarşı mübarizəyə təşkil olunmuş 70 ölkənin hərbi ittifaqına Urmiya hövzəsi xalqları "Manda ordusu" adlanan Vahid hərbi birlik kimi daxil olması, bu ittifaqa ilkin olaraq Lullubi liderlərinin başçılıq etməsi, onları kuti hərbi liderlərinin əvəz etməsi, Akkadların Şumerlərin dini mərkəzi Nipur şəhərindəki Enlil məbədini dağıtmaq üçün göndərdiyi ordunu Kuti hökmdarı Enridavaziri (e.ə. təxminən 2225-2205-ci illər) başçılığı ilə Kuti hərbi hissələrinin dəf etməsi və dağıdılmış Şumer məbədlərini bərpa etməsi, Mesopotomiyada Enridavazirin "qüdrətli Kutium və dünyanın dörd səmtinin hökmdarı" adlandırılması, Kutilərin Mesopotomiyada rəğbətlə qarşılanması təsadüfi deyil ki, Şumer "hökmdar siyahısı" kutiləri "hökmdar" adlandırmışdır. E.ə. 2175-2104-cü illərdə burada hakimiyyətdə olması göstərir ki, Urmiya hövzəsi tayfa və tayfa ittifaqları enokosolidasiya olmuş xalq kimi ilkin təşəkkül mərhələsini keçirmiş, vahid vətən və etnik mənlik şüuruna və intellektual səviyyəyə, siyasi iradəyə malik xalq idi.

Y.Yusifovun e.ə. XXIII əsrdə Lullubi, e.ə. III minilliyin ikinci yarısında Kuti, e.ə. III minilliyin sonu, e.ə. II minilliyin əvvəlində Turikki, bu minilliyin sonunda Su dövlət qurumunun yaranma mülahizəsi sovet tarixşünaslığının dövlətdə siyasi rəhbərliyin dəyişməsini, yəni − bir sülalənin nümayəndəsinin digər sülalə nümayəndəsi ilə əvəz olunmasını əvvəlki dövlətin süqutu, hakimiyyətə yeni sülalənin gəlməsini yeni dövlətin yaranması kimi saxta − uydurma konsepsiyadan doğmuşdur. Hansı ki, yuxarıda gördüyümüz kimi, vahid Vətən şüuruna, inam və etiqada, mənəvi dəyərlərə, adət-ənənəyə, etnik xarakterə malik tayfa və tayfa ittifaqları Lullubi, Kuti, Turukki və Su birliyinin Aratta dövlətini yaratmasını, Elam və Akkad təcavüzündən Vətənlərini müdafiəsi onları daha sıx birləşdirdiyini, yekdil etnik-milli iradə göstərdiklərini Y.Yusifov çoxsaylı mənbə və tədqiqatlara istinadən göstərmişdi.

E.ə. III minilliyin sonu − II minilliyin əvvəllərində Urmiya gölü hövzə-

si Aratta dövlətində Kuti sülaləsini turukkilər əvəz edir, həmçinin Su tayfa ittifaqının siyasi fəaliyyəti güclənir. Mənbə və tədqiqatlar göstərir ki, Turukki sülaləsi ölkədə siyasi birliyi Lullubi və Kuti sülaləri səviyyəsində qura bilmirdi. Belə ki, bəzi Lullubi və Kuti siyasi liderləri mərkəzi hakimiyyətin siyasətinə etinasızlıq göstərərək, müstəqil siyasət yeridirdilər. Lakin onlar Vətən və xalqa xarici təhlükə yarananda asanlıqla birləşirdilər. Bu birlik özünü Babil və Assuriya təcavüzünün dəf olunmasında parlaq bir səviyyədə göstərirdi. Onlar nəinki Vətənlərini Babil və Assuriya təcavüzünəndən qoruyur, Babil və Assuriyaya ərazi iddiaları ilə hərbi yürüşlər edirdilər.

Beləliklə biz Aratta xalqının, bütün Urmiya hövzəsi xalqların həyat tərzini, təsərrüfat məişəti və sənətkarlıq sahələrini Şumerlərlə müqayisədə, əlaqə və münasibətdə onların intellektual və elmi-texniki səviyyəsini müəyyən edə bilərik. “”En-Merkar və Aratta hökmdarı”, “En-Merkar və En-Sukuşsiranna” və digər Şumer dastanları və mənbələri Arattanın metal filizləri − qızıl, gümüş, qızıl-gümüş qatışığı, mis, qurğuşun, tunc kimi qiymətli metallarla zəngin olub, həmçinin qiymətli lacivərd daşları (lazurit, lapis, lazuli) hasil və emal edildiyi haqqında ətraflı məlumatlar verirlər. Bu məlumatlar Arattanın, o cümlədən Urmiya hövzəsinin bəşəriyyətin ilk metallurgiya beşiyi olmasını göstərən faktlardır (33; 34).

Bütün metal və daş materiallarını, onun müxtəlif məmulatlarını Aratta ustaları Vətənlərində, eyni zamanda xammalı gətirib Şumerdə özləri istehsal edirdilər; həmçinin Şumerdə qala divarlarını, saray və məbədləri, xüsusən məbədlərin qüllələrini məhz Aratta ustalarının icra etməsi, bütün bu faktlar Aratta xalqının elmi və intellektual səviyyəsinin Şumerlərdən yüksək olmasını göstərən faktlardır.

Mənbələrin məlumatından aydın olur ki, Şumer hökmdarları məbəd və məbəd qüllələri, saray və qala tikmə ustalarını, qiymətli zərgərlik metalları − qızıl, gümüş, onların qatışığını emal edən, sonra ondan müxtəlif bəzək əşyaları hazırlayan ustaları, daş və metal üzərinə naxış vuran ustaları Arattadan gətirirdilər. Bütün bunlar Aratta xalqının intellektual səviyyəsinin göstəricisidir. Zamanında sənət, peşə, sənətkarlıq adlandırılan indi bizim də həmin terminlə adlandırdığımız bu fəaliyyət sahələri yüksək riyaziyyat, həndəsə, fizika, kimya, triqonometriya və s. elm sahələrində dərin bilik və onun tətbiqini bacaran elmi fəaliyyət sahələri idi. Aratta xalqı bu elm sahələrinin bəşər tarixində ilk yaradıcıları olmuşdur. Mənbələrin məlumatından göründüyü kimi, bu sahələrdə Şumerlər Arattadan asılı idi (18, 293).

Bütün bu faktlar zəruri həyati tələbatların ödənilməsi sahəsində Urmiya gölü hövzəsi Aratta xalqı Şumerlərdən yüksək elmi intellektual səviyyəyə

malik olmaqla onların etnopsixoloji xüsusiyyətləri, intellektual səviyyəsi mənəviyyatlarında harmonik durumda idi. Elə bu səbəbdən də Urmiya hövzəsi Aratta xalqı Şumerlərdən fərqli olaraq, Su və Turukkilər e.ə III minilliyin sonu − II minilliyin başlanğıcında tarix səhnəsinə çıxan yeni xalqların dövlətlərinin, fasiləsiz hərbi təcavüzlərini dəf edir, azadlıqlarını, müstəqilliklərini qoruyub yaşadırdılar. E.ə. II minilliyin əvvəllərində Babilistanın Mesopotomiyanı tutması ilə bu minilliyin ilk yüzilliklərində Şumer xalqı çox asanlıqla tarix səhnəsindən silindi. Onların Babil tacəvüzünə hər hansı müqaviməti diqqəti çəkmədi. Arattalıların gücü mənəvi aləmlərini təşkil edən "özünün mənlik şüurunda varlığını əldə edən azad ruhda" idi. Təsadüfi deyil ki, böyük alman filosofu Hegel **insanlığın məzmununu azad ruhda görürdü** (5, 42).

Azadlıq ruhu yalnız özünü müdafiəyə təhrik və təşkil edən hisslər, düşüncələr yığımı deyildi. Azadlıq ruhu düşündürən, dərk etməyə sövq edən, baş verənləri doğuran səbəbləri müəyyən etməyin zəruriliyini şüurlara diqtə edən duyğular, ağıl və zəkadır. Özünün və dünyanın dərki tələbidir. Yaranış və yox olmanın səbəblərini dərk etmə şüurudur.

E.ə. II minilliyin başlanğıcında sivilizasiya beşiyi Kiçik Asiyada, onun ilkin vətəni İkiçayarası və Urmiya gölü hövzəsində ən qədim tarixin müharibələr dövrü kimi başlayan yeni mərhələsi gətirdiyi amansızlıqlarla bərabər, öldürdüklərini də gizlətmirdi. Ölənlərdən biri min illərlə insanlara inam, etiqad, gələcəyə ümid, yaşamaq ruhu verən Şumer allahları idi. Sanki Şumerlərlə birlikdə Şumer allahları da ölürdü. İşğalçılar Şumer allahlarının adını dəyişib, öz dillərində onlara ad verib, özününküləşdirib, onları yenidən ümid, inam və etiqad mənbəyinə çevirmək istəsələr də, allahlar sanki Şumerlərlə birlikdə yoxa çıxmaqda idilər. Başlayan yeni dövrün müharibələri, onunla birlikdə zaman-zaman gələcəyi proqnozlaşdıran və yaradan allahlara inam və etiqadın, ümidin itməsi insanlarda mənəvi boşluq, gələcəyə inamsızlıq yaradırdı.

Yenicə tayfa ittifaqları kimi tarix səhnəsinə çıxan, ilkin dövlət qurumları yaradan Elam, Babil, Assur, Het, Mitana və b. Şumerləri tarix səhnəsindən siləndən sonra Aratta ölkəsi onların təcavüz obyektinə çevrildi. Urmiya ölkəsi Arattanı hədəf seçdi. Şumerlərdən fərqli olaraq Aratta xalqı onların hücumunu dəf edir, ölkənin və xalqın əsarətə düşməsinə imkan vermirdilər. Assur orduları hərdən Arattada qələbə çalırdı. Lakin arattalıların − birləşmiş Lullubi, Kuti, Turukki ordularının əks zərbələri qorxunc olurdu. Onlar düşmən ərazilərinə daxil olub onu qarət edir, hərdən tutduqları ərazilərdə möhkəmlənir, düşmənə ərazi iddiaları ilə çıxış edirdilər. Düşmən üzərində

ardıcıl qələbə çalaraq Vətənlərini və etnik varlıqlarını qoruyan arattalılar mədəni-mənəvi cəhətdən eyniyyət təşkil edəcək qədər yaxın, fasiləsiz mədəni-iqtisadi əlaqədə olduqları Şumerlərin çox asanlıqla kimliyini, adət-ənənəsini unudub, yadlara qovuşması Aratta xalqını vahimə yaradacaq qədə qorxu və sarsıntıya salmışdı. Onların gözü qarşısında özünə "kenqir", "qarabaş" deyən Şumerlər asanlıqla kimliklərini unudub yox olurdular.

Urmiya gölü hövzəsi Aratta tayfa və tayfa ittifaqını vahid xalq kimi təşəkkülə sövq edən, onların inam və etiqadları, mənəvi dəyərləri, adət-ənənələri ilə bərabər başlıca keyfiyyətlərə, vahid dilə və etnik xarakterə malik olmaları idi. Şumer dastanları və elmi tədqiqatlar Aratta toplumunu vahid etnos olaraq **"məharətli qəhrəman", "dağ əjdahası", "igid, döyüşkən, şücaətli",** Assuriyaya **"təhlükə yaradan qəhrəman cəngavərlər"** kimi qiymətləndirilirdi. Aratta dövlətinin qurucuları Lullubi, Kuti, Turukki, və Su tayfa və tayfa ittifaqları vahid dil və etnik simaya malik pratürk (erkən türk) etnosları idi ki, Şumer xalqını bütün dövlətçiliyi ilə birlikdə tarix səhnəsindən silən Elam, Akkad, Babil, Assur və başqa təcavüzkarları dəfetmə prosesində mənəvi varisliyin pozulması, qırılmasına imkan verməyən vahid xalq kimi təşəkkül tapdı. E.ə. I minilliyin başlanğıcında mərkəzləşmiş Manna dövlətini qurub, onu Midiya imperiyasına çevirdilər. Aratta xalqı bəşəriyyətin ilkin metallurgiyasını, memarlığını, incəsənətini və b. elmlərini yaratmış intellektual xalq idi. Aratta müdrikləri dilə gətirib, danışıb xalqı ruhdan salmasalar da Urmiya hövzəsinə fasiləsiz davam edən bu təcavüzlərin sonda Aratta xalqını tükədəcəyindən, şumerlər kimi birliklərinin pozulub dağılacağı, başqa ölkələrə aparılıb qula çevriləcəklərindən qorxurdular.

İlkin sivilizasiya beşiyi metallurgiyasının yaradıcısı Aratta xalqı metalların emalı, ondan müxtəlif əmək, məişət əşyalarının, silah və qurğuların istehsalı, müxtəlif metalları birgə əritməklə qarışdırıb, birləşdirib yeni keyfiyyətdə, yeni metal istehsal etmək, məişətdə tətbiq etmək prosesində varlığın hər bir formasının özünəməxsus xassə və keyfiyyəti olması qənaətinə gəlmişdilər. **Fəsillərin dəyişməsi ilə təbiətin fərqli məzmun almasını müşahidə edən Aratta müdrikləri hər bir varlığın gözlə görünməyən dərin ziddiyyətləri, özünəməxsus xarakteri, keyfiyyəti, funksiyası olması qənaətinə gəlmiş, bütövlükdə varlığı dərk etmək ideyası ilə yaşayırdılar.** Təbiətin, hətta onun metal, daş kimi bərk cisimlərini dərk etməkdə iddialı olan Aratta müdrikləri dilə, şüura malik bir-birinə istəyini, arzusunu çatdıra bilən insanların qarşılıqlı anlaşma əvəzinə öz həmcinslərinə təcavüz etmələri, hələ də bəzi tayfaların insan əti ilə qidalanması, insanların toplum halında bir-birini məhv etməsini doğuran səbəbləri dərk edə bilməsələr də, bu

məsələni anlamaqda israrlı idilər. Beləcə, Aratta müdrikləri həyat hadisələrini daha dərindən dərk etmək arzuları onları bu işə cavabdeh imişlər kimi axtarışa, dünyanın dərkinə istiqamətləndirirdi. Onların qarşısına yeni suallar qoyurdu. Beləliklə, onlar insanları, xalqları bir-birinə təcavüzə yönəldən gözəgörünməz qüvvələrin görünəndən çox olduğunu anlayırdılar. Bütövlükdə kainatda, bütün varlıqların təbiətində (mahiyyətində) gözəgörünməz qüvvələrin görünənlərdən çox olduğu və həyatda onların təsir gücünün daha çox, aparıcı olması gümanına düşürdülər. Kainatda gözə görünən və görünməyən bütün varlıqların bir-biri ilə əlaqəliliyi, bağlılığı qənaətinə gəldilər. Nəhayət, qənaətə gəldilər ki, varlığı təşkil edən bütün görünən **və görünməyən varlıqlar, qüvvələr bir-biri ilə əlaqəli və bağlıdırsa, deməli onları yaradan da bir qüvvədir.** Bütün bu sualları cavablandırmaq üçün Urmiya hövzəsi müdrikləri bütün varlıq formalarında gedən dəyişikliklərin, insanların öz həmcinslərinə amansız təcavüzlərinin, su buxarlanıb yox olduğu kimi Şumerlərin tədricən yox olmalarının səbəblərini dərk etmək istəyirdilər.

Arattada tayfa başçıları siysi liderlər və kahinlər, məktəblərdə sənətkarlıq (sənaye) və ticarət mərkəzlərindən başqa əkinçilər, maldarlar, döyüşçülər içərisində fərqlənən, bir-biri ilə əlaqəli **xalqa təsir gücü olan bir intellektual təbəqə vardı.** Hamısı Aratta xalqını xarici təcavüzə qarşı birliyə sövq edirdilər. Onlar tez-tez toplanır, ölkənin və xalqın vəziyyətini müzakirə edir, xalqı xarici təcavüzə qarşı təşkil edirdilər. Urmiya müdriklərinin cavablandırmaq istədikləri suallar, xalqları, insanları bir-birinə təcavüzə sövq edən və Şumerlərin asanlıqla mənəviyyatlarını dəyişib, başqalaşıb yox olması da müzakirələr zamanı tez-tez yeni suallar doğurur, varlığın bütün hadisələrinin zəncirvari bir-biri ilə bağlılığı ortaya çıxırdı. Aratta müdrikləri hər hansı bir hadisəni doğuran səbəbləri müzakirə edir-etsin, həyatda hər şeyin bir-biri ilə bağlılığı ortaya çıxırdı. Bu müzakirələr təbii olaraq bütövlükdə dünyanın dərk edilməsini ideya kimi irəli sürürdü. Bütövlükdə dünyanın dərk edilməsi bu qrupların hər biri üçün maraqlı görünsə də, onların dərk etmə səviyyəsi və metodu fərqli və ziddiyyətli idi. Ölkənin müdafiəsi və etnik birlik bütün qruplar arasında əsas məqsəd olduğundan bu məsələdə sosial təbəqələr və fərdlər arasında ciddi fikir ziddiyyəti yaranmırdı. Bütövlükdə dünyanın dərk edilməsi məsələsində uyğun mülahizələr çox az meydana çıxır, demək olar ki, əsasən kahinlərin mövqeyi ilə ziddiyyət təşkil edirdi.

Kiçik Asiyada yaranan yeni xalqlar, onların dövlətləri Şumer xalqını məhv edib tarix səhnəsindən sildikdən sonra, sanki növbə Urmiya hövzəsi Aratta xalqına çatmışdı. Onlar dörd tərəfdən – qərbdən-şərqdən, şimal-

dan-cənubdan fasiləsiz, Arattaya hərbi yürüşlər edirdilər. Lakin Şumerlərdən fərqli olaraq bu təcavüzlər Aratta xalqının iradəsini qırıb, daxili birliyini poza bilmir, onu daha sıx birləşdirirdi. Yuxarıda göstərdiyimiz kimi, vahid Vətən və İstiqlal ideyası – ideologiyası Aratta xalqının düşmənə qarşı əsas güc mənbəyi idi. Bu ideologiyanın yaradıcıları və xalqın ruhuna aşılayan Urmiya müdrikləri idi.

Babil, Elam, Assur və başqa xalqların Arattaya fasiləsiz təcavüzü, onların dəf edilməsi **prosesi Arattada intellektual, fədakar və cəsur adamları üzə çıxarır, onları birləşdirir, vətənin gələcəyini birgə düşünməyə sövq edirdi.** Artıq Arattada dövlət, əyalət başçıları, tacir, sənayeçi, sənətkar, maldar, əkinçi, çarvadarlar arasından çıxan intellektual və fədakar adamlar, Vətəni, xalqi və dünyanın gedişini müzakirə edirdilər. Artıq onlar xalq tərəfindən seçilmiş adamlar, xüsusi sosial təbəqə kimi fərqləndirilirdilər. Fəlsəfi fikir tarixində iradə − idrak nəzəriyyəsinin zirvəsi Nitsşe, Zərdüştün içərisindən çıxdığı bu təbəqəni qul alverçilərinin satın ala biləcəyi zadəganlar yox, **"yeni zadəgan: − gələcəyin toxum səpənləri, yaradıcıları və tərbiyəçiləri"** adlandırırdı (108, 261).

Düşmənin hərdən çaldığı qələbələr Urmiya hövzəsi xalqı əsarətə sala bilməsə də, onun maddi dünyası ilə bərabər, mənəvi dünyası − şüurlara hakim olan inam və etiqadları, ən başlıcası Şumer-Aratta allahlarını da zədələyir, onlara qarşı inamsızlıq yaradırdı. Dövrün biliciləri, gələcəyin proqnozçuları kimi çıxış edən kahinlərin, rəmmalların, yuxuyozanların, falabaxanların səhvləri − yalanları hamının diqqətini çəkir, allahlara kəsilən qurbanlar, verilən nəzirlər, edilən dualar əhəmiyyətsiz kimi görünürdü. Bunu dilə gətirməyə cəsarət etməyən kütlədə düşmənlə mübarizəyə, gələcəyə ümidsizlik yaranırdı. Özləri də daxil olmaqla xalqın əhval-ruhiyyəsində yaranmış bu vəziyyət Urmiya müdriklərinin məclislərində ehtiyatla dilə gətirilirdi. Allahların yoxluğu kimi görünən inamsızlıq nəinki məclis iştirakçılarının, hətta bu ifadəni dilə gətirənin özündə də qorxu, vahimə yaradırdı. Məclisdəki kahinlərin, yuxuyozanların, rəmmalların etiraz, hücum və şivəni elə həddə çatırdı ki, az qalırdı məclis təkrar toplanmasın. Lakin Urmiya hövzəsi Aratta ölkəsində kahin, rəmmal və yuxuyozanları elmi-praktiki səviyyədə təkzib edən, xalqa təsir gücünə malik kifayət qədər intellektual şəxsiyyətlər var idi. Onlar xalqda ruhi-mənəvi boşluq yaranmasına imkan vermirdi. Vətən və xalqın düşmən təcavüzündən qorunması, müxtəlif hadisələri doğuran səbəbləri müəyyən etmək məqsədilə intellektual məclisləri davam etdirirdilər. İntellektual məclisin ən fəallarından biri deyimləri ilə əvvəlcə məclisdə, tədricən xalq arasında kahin, rəmmal yuxuyozan və falabaxanları nüfuzdan salan, on-

ları özünə qarşı düşmənə çevirən Zərdüşt idi. Zərdüşt Urmiya hövzəsində Gəzən, sonra Təxti-Süleyman, ərəb mənbələrində Şiz adlandırılan şəhərdə anadan olmuşdur. Yunan coğrafiyaşünası Strabon bu şəhərin Azərbaycanın paytaxtı Qazaka olduğunu yazır (105, 8-9).

Urmiya gölü hövzəsində Vətən və xalqın taleyini düşünən, dünya hadisələrini dərk etmək təşəbbüsündə, iddiasında olan bu təbəqədə qəlb oxuyan şəxslər, göy cisimlərinin düzülüşünə görə təbiətdə baş verəcək hadisələrin insanlara necə təsir edəcəyini dərk edən, ulduzların düzülüşü və duruşuna, ayın görünüşündə baş verən fərqli əlamətlərə görə havanın yağmurlu, günəşli və ya küləkli keçəcəyini dərk edən və insanlara deyən, kifayət qədər məsafədə olan dost və tanışın xəstə olması, xəsarət alması və ya qəzaya uğramasını duyan, hiss edən, adamları aldatmaq istəyən falabaxan və yuxuyozanların istəklərini duyan və onları ifşa edən, fırıldaqçı və dələduzları məntiqlə aşkarlayan və rüsvay edən şəxslər var idi. Baş verəcək hadisələri yuxuda görən, başqalarının yuxusunu düzgün proqnozlaşdıran, qulağa gələn səslərlə baş verəcək hadisələrdən əvvəlcədən xəbər tutan şəxslər var idi. Onlar kahin, rəmmol, yuxuyozan və falabaxanlardan fərqli olaraq Zərdüştə hörmətlə yanaşır, onu yüksək qiymətləndirirdilər. Bütün bu adamların fövqündə olan, onları yüksək qiymətləndirən, onların hər birində olan keyfiyyətləri daha yüksək səviyyədə özündə ehtiva edən Zərdüştdə ətrafında olan bu insanlara, eyni zamanda başqalarına yuxarıdan baxma, eqoizm yox idi. O, bütün insanlara hörmətlə yanaşır, həyat hadisələrini dərindən bilmək, adamların arasında olmaq, onlarla yoldaş olmaları arzusunda, istəyində idi.

Tədqiqat əsərlərində müxtəlif məqsədlərlə Zərdüştün şəxsiyyəti əfsanələşdirilmək istənsə də, məlum tarixi faktlar buna imkan verməmişdir. Onun atasının və anasının şəxsiyyəti məlum, Azərbaycan türklərinin bəşəriyyətə vermiş olduğu, irsi intellektual keyfiyyətlərə malik sülalə olaraq tarixdə dərin iz qoymuş, bu gün də elmi və ideyaları yaradıcı təsir gücünə malik olan şəxsiyyətdir (105, 7-19).

Lənətəgəlmiş kommunist rus imperiyası üzdə özünü elə göstərirdi ki, guya gen qanunlarını qəbul etmir. Hansı ki, kommunistlər hakimiyyətə gəldikləri ilk gündən əsarət altına saldıqları xalqların ziyalı və zadəganlarına qarşı açıq terrorla bərabər, gizli genetik terror da həyata keçirmişlər. Genetik terrora bilavasitə Kremlin birinci şəxsi başçılıq etmişdir. Kommunist rus imperiyasının gizli genetik terrorunu əsasən MN Hərbi Kəşfiyyat İdarəsi həyata keçirmişdi. Azərbaycanın əsilzadə ailələri müəyyən edilir, fiziki məhv etmə, deportasiya ilə bərabər onların qan-gen hüceyrələri də məhv edilirdi. Azərbaycanın belə soylarından biri Kəngərlilər idi. Onların vətənə və torpağa,

qurduqları dövlətə bağlılığı və sevgisi, genetik baxımdan insani dəyərləri, ucalığı nişan verən işarələrin qeyri-adiliyi və çoxluğu bir an da olsun Kremli rahat buraxmırdı. Kreml bu nəsillərin yalnız mövcud genetik durumunu deyil, onların ilkin mənbələrini də aşkar edib, müxtəlif üsullarla məhv edirdi. Beləliklə, Kremlin Kəngərli soyunun genetik imkanlarını məhv etmək üçün ilk qərargahı onların əsas yaşayış məskənlərindən biri Naxçıvanın Şahtaxtı kəndində qurdu. Birbaşa Kremldən idarə olunan genetik məhv etmə briqadası yoluxucu xəstəliklər, vaksinlər, deportasiya və s. üsullarla Naxçıvanın Şahtaxtı kəndi əhalisini Kəngərlilərin tarixən daşıdığı fiziki, mənəvi keyfiyyətlərin əksi olan bir səviyyəyə endirdilər. Kəngərlilərin gen mənbəyinin axtarışı müəyyən etdi ki, onlar birbaşa Zərdüşt peyğəmbərin qan-gen varisləridir (152, 36-37, 119-122).

Zərdüşt kiçik yaşlarından qeyri-adi və heyrətləndirici hərəkət edir, sehrbaz, rəmmal, falabaxan və yuxuyozanların yalanlarını tutub onları ifşa etdiyi üçün hətta onu öldürmək istəmişlər. Lakin, böyük, sayılan nəsildən olduğu üçün bunu həyata keçirə bilməmişlər. Bu iti ağıllı, hazırcavab, uzaqgörənliyi ilə özündən yaşca çox böyük, məşhurlaşmış nüfuzlu adamları kölgədə qoyan, vətənpərvər döyüşçü Zərdüşt xalq tərəfindən kifayət qədər qəbul edilsə də, Vətən tez-tez basqına məruz qalanda ağsaqqallara, hərbçilərə necə hərəkət etmək haqqında məsləhətləri həzm edilmədiyindən ona mənfi münasibət doğururdu. Lakin hadisələrin gedişi tezliklə onun haqlı olduğunu ortaya qoyurdu. Həyat, nüfuzundan asılı olmayaraq hər kəsi onu qəbul etməyə məcbur edirdi.

Bu mücadilə çox ağır və qanlı idi. Bir tərəfdən hərbi üsulla ardıcıl olaraq vətən övladının qanı bahasına qurbanlar verərək ölkənin, dövlətin müstəqilliyini qoruyur, digər tərəfdən insan təbiətində olan dağıdıcılığın, bütövlükdə həyatda baş verən hadisələri doğuran səbəbləri dərk etməyə çalışırdılar. Həyatın “niyə belə olur?” sualını cavablandıra bilməmək bəzi insanları yorub, ruhdan salıb, bu düşüncədən uzaqlaşdırsa da, bu iddiaya çatmaq üçün Urmiya hövzəsində fasiləsiz qohum-qonşu, baş bilənlərlə mübahisələr, müzakirələr kəsilmirdi. “Niyə belə olur?” sualının cavabını tapmaq üçün vəcdə gəlib, evini tərk edib tənhalığa, dağlara çəkilib göylərə üz tutub, “niyə belə olur?” sualının cavabını göydən soruşan Zərdüştə, nəhayət ki, göydən cavab gəldi, səs eşidildi, onunla öz dilində danışılmağa başlandı. Göydən aldığı ilk cavabın təsirindən vəcdi partlayış həddinə çatdı, lakin bir anda bütün gərginliyi keçib getdi. O, artıq bədənini duymurdu, ruha çevrilib göylərə qovuşmuşdu. Çox yüksəklərə qalxdı, çatmaqda olduğu işıq-od ona əyləşməyi buyurdu. Nəyi soruşmaq istədiyini, nəyi öyrənmək istədiyini soruşdu. Zərdüşt

tam sakitləşməsə də, o qədər mehribanlaşmışdı ki, sanki ilk dəfə bütünlüklə özününkü olanla idi. Heç bir tərəddüd keçirmədən qəlbini ona açdı. Suallarını verməyə başladı. Suallarına ardıcıl cavab almağa başladı. Zərdüşt İşığa o qədər qovuşmuşdu ki, özünü unutmuşdu. İşıq Zərdüşt demədiyi, ürəyindən keçən sualları cavablandıranda o, səksəndi, narahatlıq keçirməyə başladı. İşıq ona narahat olmamağı məsləhət bildi. Dedi: − Nəinki sənin, hamının, hər şeyin qəlbindən keçənləri bilirəm. Neçə illərdir cavablandıra bilmədiyin suallardan bezib çəkinmədən, Həqiqəti bilməkdə və yaşamaqda dönməz olduğun üçün səninlə danışdım.

Vətən ağır təhlükəyə məruz qalanda Zərdüşt vəcdə gəlir, düşmən ordularının 2-3 günlük məsafədən gəldiyini deyirdi. Onun bu kimi hərəkətləri əvvəllər camaat arasında sərsəmləmə kimi qiymətləndirilsə də, getdikcə həqiqət olduğu təsdiqləndikcə fırıldaqçı, rəmmal, falabaxan, yuxuyozanlar istisna olmaqla bütövlükdə hamı onu qəbul etməyə, ona inanmağa başladı. Xoş niyyətli tərəfdarları Zərdüştdən bunları necə öyrəndiyini soruşanda cavab verdi ki, əvvəlcə hər şeyi göylərdən eşidirdim, eşidərək öyrənirdim, sonralar öyrənmək istədiklərimi göylərdən soruşmağa başladım və suallarıma cavab aldım. Vəcdə gəldikcə daha çox şey öyrənmək üçün Zərdüşt dağlara çıxır, dağlarda tənha qalmağa çalışırdı. Belə hallarda az da olsa intiusiya qabiliyyəti olan, ruhi hadisələri qiymətləndirə bilən, Zərdüştü qəlbən sevən tərəfdarları onu tək buraxmır, onunla dağlara gedir, Zərdüştün dağlarda göylərə üz tutub danışığına, göylərə suallar verib cavab aldığının şahidi olurdular. Zərdüşt göylərə verdiyi suallara aldığı cavabları ucadan təkrarlayırdı. Bu cavablar onun ətrafındakılar üçün də maraqlı idi. Lakin Zərdüşt göylə danışanda əvvəlcə həyəcandan yay kimi gərilir, tədricən uçmağa hazırlaşan quş kimi çırpınır, çox gərgin vəziyyətdə suallar verib, göydən cavab alırdı. Bir dəfə göylə danışarkən Zərdüşt ətrafındakılara baxdı. Hamının onu həyəcanla izlədiyini, ona tamaşa etdiyini görüb, daha həyəcanlı vəzziyyət alaraq dedi: − Tanrıdan öyrənmək istədiklərimin hamısı sizə, bütün insanlara öyrətmək istədiklərimdir. Nə üçün Tanrının mənə dedikləri, sizin üçün təkrarladığım fikirləri yazmırsınız, təkrarlayıb əzbərləmirsiniz? − deyə onlara göylərin cavabını, göylərin dediyinin yazılmasının vacibliyini anlatdı. Bildirdi ki, həyat haqqında biliklərimizin əsası göylərin dedikləridir. Beləliklə, bu vaxtdan Zərdüştün dediklərini və söhbətlərini əzbərləyib yazmağa başladılar.

Üzünü göylərə tutan Zərdüşt soruşur:
Söylə mənə ey Müqəddəs Ruh,
Ey bu canlı həyatı yaradan.
Hansıdır Müqəddəs sözlərin

Ən qüdrətlisi?
Ən qalibi, ən şücaətlisi?
Ən təsir edəni?

Nədir qələbə gətirən?
Nədir yalnız şəfa verən?
Nədir ən çox dağıdan?
Divlər və
İnsanlar arasında
Olan düşmənçiliyi?

Hansı ki, bu canlı dünyada,
Fikrin nüfuz etməsi var.
Təmizlənmiş dirilik gücü,
Ruh var (1,23).

Beləcə, Zərdüşt göylərə, Mütləq Ruhdan öyrənmək istədiklərinin sorğusuna davam edir: − "Bunu səndən soruşuram, mənə düzgün söylə, ey Əhura, yaranışdan bəri doğruluğun ilk atası kimdir? Günəşə, ulduzlara (hərəkət) yolunu göstərən kimdir? Ayın qalınlaşması, daha sonra incələşməsi kimdəndir? Ey Məzda, bunu və digər məsələləri bilmək istəyirəm", **"həyat qanunlarını soruşub başa düşmək istəyirəm".** Zamanın, insanlığın təbiətindən çıxış edərək deyir: "İndi ağıllı adam üçün ən yaxşı bilik odur ki, xeyirxah Əhura, sənin kimi pak olan kimsə, ey Məzda, ona doğru din üzrə bilik versin, Müqəddəs Ruhun ağlı ilə **gizli dünya qanunlarından** da xəbərdar olsun" (1, 23; 105, 54-55, 61)".

Biz həyata yenilik gətirənlərdən olmaq istəyirik. Ey Məzda və ey digər başçılar, "Ordibehişt, siz də yardımınızı əsirgəməyin ki, bir-birini tapmaq çətin və qarışıq olan yerdə düşüncələr birləşsin" (105, 43) − deyə Tanrıya müraciətini davam etdirir.

**Yuxarıda bəhs etdiyimiz hadisələrdən göründüyü kimi, Urmiya hövzəsi xalqın gözləri önündə Şumerlərin ölümü onları xarici təcavüzlərin dəf edilməsi zərurətindən çox insanlığın, dünyanın dərkinə sövq etdi.** Artıq ruhi-mənəvi etizaz səviyyəsində insanlığı − dünyanı dərk etməyə cəhd etdi. Tanrı ilə ünsiyyətə girmiş Zərdüştün dünyanın ümumi məsələləri ilə bərabər, birinci növbədə ondan öyrənmək istədiyi − həyatda, maddi və mənəvi varlıqlarda özünü göstərən ziddiyyət − hər şeyin mayasında, nüvəsində − işıq və qaranlıq, həyat və ölüm, ədalət və ədalətsizlik, xeyir və şər, kin və qəzəb, yaxşılıq və pislik, yalan və həqiqət, yaradıcı gözəllik və dağı-

dıcılıq və s. doğuran səbəblərini, həmçinin Tanrı adlandırdığı, gözə görünən və görünməyən bütün varlıqların yaradıcısının adını öz sözləri ilə, öz dili ilə deməsini ondan xahiş etdi.

Ahura Məzda ona cavab verərək deyir:
Ey sədaqətli Zərdüşt,
İlk başlanğıc, sorğu-sual
edəndir mənim adım.
İkinci adım −
Bütün canlı varlıqların
Sahibi − deyə 72 adını saydı (1, 25-28).

Bu adlar həyatın və varlığın müxtəlif sahələrinin yaradıcı mahiyyətini ifadə edirdi. Həqiqət, Ağıl, Elm, Alim, Müqəddəs, Müqəddəs Ruh da bu adlar sırasında idi. Bu adların hər birində Mazdanın − Tanrının təkliyi və bütün varlıq formalarının yaradıcısı olması bütün aydınlığı ilə ifadə olunmuşdur. (1, 23-28).

**Maqların midiya tayfalarından biri hesab edilməsi, Zərdüştün maq tayfasından çıxması, Zərdüştün birinci baş maq kimi qiymətləndirilməsi, maq dini mərasimlərinə Zərdüştün rəhbərlik etməsi** (11, 41), **Zərdüşt dininin formalaşması prosesində "maq" sözünün "kahin" sözünün sinoniminə çevrilməsi** (11, 46), **maqların böyük torpaq sahibləri, böyük nüfuz sahibi olmaları, dövlət vəzifələri tutmaları, xüsusən insan haqları ilə məşğul olan hakim vəzifələrini icra etmələri** göstərir ki, Zərdüşt dini hakim və intellektual təbəqə tərəfindən müdafiə olunduğundan, Urmiya hövzəsi xalqın təkallahlığa keçməsi yəhudi, xristian və islam dinlərində olduğu kimi ciddi kütlə müqaviməti ilə üzləşməmişdi (11, 55-56).

Lakin bu heç də bəzi tədqiqatçıların dedikləri kimi Zərdüşt maq dinini yaradarkən "atəşpərəst təlimində sadəcə olaraq islahat aparmışdır" (11, 55) kimi asan, sadə iş olmamaışdır.

Zərdüşt təlimi − təkallahlıq ideyası ilk öncə Urmiya hövzəsində ən nüfuzlu, intellektual maq soyunda qəbul olundu. Bunun ardınca Zərdüştün ideyasını bütün Urmiya hövzəsi əhalisi arasında yaydılar. Elə bu səbəbdən də Zərdüşt təlimi bütövlükdə maq təlimi kimi tanındı. Bölgənin ən nüfuzlu, çox saylı əhaliyə malik soyunun Zərdüşt təlimini qəbul etməsi digər tayfaların bir çox hallarda heç bir tərəddüd etmədən Zərdüştlüyü qəbul etməsinə səbəb oldu. Beləliklə, Zərdüşt təlimi tədricən Urmiya hövzəsindən ölkənin cənubuna doğru yayılır. Savalan dağı əhalisi içərisində təlim kifayət qədər möhkəmləndikdən sonra Zərdüşt buradan ölkənin ən sıx əhalisi olan əkinçi

və maldarlarla məskunlaşmış Araz çayı sahili düzənliyə keçir. Zərdüşt təlimini bütün Kür-Araz ovalığında yayır. Arazsahili düzənlikdə Zərdüşt təlimi çox sürətlə qəbul olunub, doğma münasibət yarandığından bölgə maq ölkəsi (Muğan) kimi tanınır. Kür-Araz ovalığında Zərdüşt təliminin hakim dinə çevrilməsi ilə Zərdüştilik Azərbaycanda bəşəriyyətin ilk vəhyi təkallahlı dini, Zərdüşt onun peyğmbəri kimi tanınır. Zərdüşt dininin 12 min inək dərisində yazılmış 21 kitabdan ibarət vəhyi kitabı yaranır. Zərtüştiliyin 12 min inək dərisində yazılan, 21 kitabdan ibarət təliminin yaranması göstərir ki, Zərdüştün ətrafında hakim təbəqənin çox saylı intellektual insanları birləşmişdi. Əks təqdirdə həmin dövrdə belə bir işi mənəvi və maddi cəhətdən təmin etmək mümkün olmazdı.

Zərdüşt təlimində vəhyi bilgilərlə bərabər onun özünün dahiyanə mülahizələri mühüm yer tutur və vəhyi bilgilərlə sintez olunurdu.

Zərdüşt təlimində Urmiya hövzəsi xalqın atəşpərəstlik, o cümlədən mənəvi-sosial həyatın bütün sahələri ilə bağlı inam və etiqadı, dəyərləri, adət-ənənələri, bütövlükdə mənəvi-sosial sistemi, təbiətlə əlaqə və münasibətləri yüksək elmi əsaslarla sistemləşdirilən, bütün varlıq formalarının mövcudluğunun əsasında duran mənəvi və maddi enerjinin mənbələrini aşkarlayan **Od elmi** adlandırdığı fəlsəfi sistemini yaratdı.

Yuxarıda bəhs etdiyimiz kimi, Zərdüşt vəhyləri ilə Məzdadan öyrənmək istədiyi birinci növbədə **"həyat qanunları", "gizli dünya qanunları"** idi. Məzdanın Zərdüştün sualına cavabları bütün "Avesta" boyu görünsə də, Məzdanın adlarının ardıcıllığında sistemli olaraq cavablandırılmışdır. Bütün yaranışın ilk başlanğıc qanunu Məzdanın birinci adının mənasında ifadə olunaraq deyilir:

Ey sədaqətli Zərdüşt,
İlk başlanğıc, sorğu-sual
edəndir mənim adım (1, 25).

"Avesta"da ilk başlanğıc "iki gövhər" adlandırılır (105, 42, 49, 50, 52, 55, 57, 66).

Varlığın bütün formalarının yaranmasının ilkin başlanğıcında "iki gövhər"in – iki əsasın iştirakı haqqında "Avesta"da deyilir: "İlk başlanğıcda iki gövhər bir-birinə rast gəldi, **dünyada ilk olaraq varlıq və yoxluğun təməlini qoydular.** Bununla bağlı olaraq son hesab günündə yalanpərəstlərə ən pis həyat və doğru tərəfdarlarına ən yaxşı yaşayış məskən olacaqdır.

İlk başlanğıcda, düşüncə aləmində, yəni məxluqun mahiyyətini düşündükdə **iki əkiz gövhər – yaxşı və pis düşüncə,** əməl və davranış meydana çıxdı. Bu iki gövhərdən bədxah adamlar yox, xeyirxah adamlar doğrunu (xeyiri) seçdilər.

Bu iki gövhərdən yalanpərəst ən pis davranışı seçdi, göy tərəfindən ən möhkəm paltar geymiş doğruluq (tərəfdarı) və aydın əməllərlə sevinclə Əhura Məzdanın razılığını əldə edən adamlar pak ruhu (Məzdanın ağlını) seçdilər" (105, 29, 43).

Bu iki gövhərin mübarizəsində hansı tərəfi seçmək və hansı tərəfin qələbəsinə kömək etmək üçün Əhura Məzda özünəməxsus olan ən yüksək sifəti – sipəndarmunu (müqəddəs ağıl) məxluqatın ən inamlı və şərəflisi olan insana vermişdir ki, onunla pis və yaxşını fərqləndirərək birini seçsin (105, 29).

Eyni zamanda Əhura Məzda insanlara seçim sərbəstliyi və iradə azadlığı verməsi haqqında "Avesta" kitabında deyilir: "Ey Məzda, dünyanın başlanğıcında sən bizim üçün din yaradanda bədən qəlbinə can verdin, özünə məxsus olan ağlı bağışladın. Davranışı bizə öyrətdin, azadlıq yolunu açdın ki, hər kəs sərbəstcəsinə öz dinini, inamını seçsin" (105, 29, 45).

Göründüyü kimi, "Avesta"da mövcud olan başlıca ideya ondan ibarətdir ki, bütün dünyada, hər yerdə, hər şeydə iki əks qüvvə arasında əbədi barışmaz mübarizə gedir. Fiziki dünyada **işıq və qaranlıq, üzvi aləmdə həyat və ölüm arasında, insanların ictimai həyatında ədalət və ədalətsizlik, xeyirlə şər arasında mövcud olan mübarizə əbədidir. Hər bir predmetdə, hər bir hadisədə əksliklərin vəhdəti kimi özünü biruzə verir. Bu mühüm anlayışın mənası, hər şeydən əvvəl, ondan ibarətdir ki, bütün obyektlərə daxilən əks tərəflər, meyllər xasdır. Daxili əksliklər hər hansı bir obyektin və prosesin strukturlarının ayrılmaz xüsusiyyətidir** (1; 105; 11, 69-71).

Hər hansı predmetdə əksliklərin vəhdəti və mübarizəsi paralel olaraq özündə üç prosesi – kəmiyyət və keyfiyyət dəyişməsini, inkarı inkar ehtiva edir. Predmetin harmonik, öz-özünə bərabər eyniyyət halında belə onun daxilində rüşeym halında əksliklərin mübarizəsi gedir. Bu mübarizə fasiləsiz davam edir, müəyyən mərhələdə predmeti həmin predmet etmiş, özünəməxsus keyfiyyət göstəricisi yaratmış xarakter xüsusiyyətləri pozmağa başlayır, prosesin gedişində predmetin strukturunu dağıdır. Əksliklərin müəyyən hissəsi vəhdət halından çıxıb, əks qüvvəyə çevrilməsi ilə predmeti təşkil edən element və hissələrin kəmiyyət tərkibi dəyişir, bu dəyişmə müəyyən həddə çatanda əksliklərin mübarizəsinin yaratdığı yeni kəmiyyət durumu əvvəl-

ki keyfiyyət durumunu inkar edir, yeni keyfiyyət yaradır. Əksliklərin yeni strukturu ilkin əsaslara uyğun ona yeni elementlər daxil edib ilkin əsasları zənginləşdirdikdə, predmeti ilkin əsasda yüksək səviyyədə yenidən qurduqda bu hal inkişaf doğurur. Əksliklərin mübarizəsi ilkin əsasları tamamilə dağıdıb, onun element və hisslərini yeni, ilkin əsasdan fərqli sistemdə qurmaqla və həyatın ilkin əsaslarına zidd yeni elementlər daxil etməklə yenidən qurduqda, predmetin harmonik strukturunun eyniyyət yaratmış element və hissələrin bütünlüklə yeni, ilkin əsasdan fərqli kəmiyyət ölçüsü yaratdıqda, ilkin əsaslar bütünlüklə inkar olunduqda, predmet ilkin əsasdan tamamilə fərqli yeni keyfiyyətə malik predmetə çevrildikdə, predmet bir haldan başqa hala keçir (və ya məhv olur).

Harmonik − eyniyyət ünsiyyətdə olan predmetin əksliklərinin mübarizəsi prosesində onun element və hisslərinin yenidən strukturlaşdırılması prosesində element və hissələrində baş verən dəyişiklik gedişində element və hissələrində yaranan yeni kəmiyyət və predmetə əlavə element və hissələr daxil etməklə onu təşkil edən elementlərin kəmiyyət ölçüsü yeni struktur, yeni keyfiyyət doğurması, ilkin əsasları inkar etməsi və ya onu yeni keyfiyyətdə yenidən qurması inkar adlanır.

Göründüyü kimi, fəlsəfənin üç qanunu kimi adlandırılan əksliklərin mübarizəsi, kəmiyyət və keyfiyyət dəyişməsi, inkarı-inkar qanunu predmetdə gedən vahid prosesdir. Birinin izlənməsi − müşahidə edilməsi, digər ikisinin də müşahidə edilməsidir. Bu prosesə fasiləsizlik verən isə əksliklərin mübarizəsi olduğu üçün o, inkişafın mənbəyi kimi qiymətləndirilir. Kəmiyyət və keyfiyyət dəyişməsi və inkarı-inkar qiymətləndirilməsi əksliklərin mübarizəsi gedişində müəyyən halların və vəziyyətlərin təbii izlənməsi və qiymətləndirilməsidir. **Deməк əksliklərin mübarizəsi qanununun dərk edilməsi ilə bəşəriyyətin mövcudluq qanununun fəlsəfi dərki başlanır.**

Yuxarıda tarixə ekskursiyamız göstərdi ki, fəlsəfə qanunları varlığın ilkin yaranışından onun nüvəsində mövcud olmaqla tarix boyu onun hərəkət və mövcudluğunu təmin etmiş, yeni məzmun və formalar doğurmuşdur. **Bu qanunu Şumerlərlə yaşıd və yanaşı mövcud olan Urmiya hövzəsi xalqı bəşəri sivilizasiyanın beşiyi Kiçik Asiyada xalqların yaranışının ikinci dalğasının** Şumerləri məhv etmə səbəblərini, bütövlükdə varlıq qanunlarını dərk etmədən azadlığını qoruya bilməyəcəyini anlayıb, varlıq qanunlarını **dərk etmək üçün bir xalq olaraq mücadiləyə çıxdı. Bu mücadiləyə cavab olaraq Tanrı e.ə. III minilliyin sonu − II minilliyin başlanğıcında Urmiya hövzəsi xalqın ən fədakar və intellektual üzvü, həyat qanunlarını dərk etmək üçün vəcdə − ruhi ekstaz vəziyyətinə çatmış Azərbaycan**

**türkü Zərdüştün sorğusuna cavab** olaraq varlıq qanunlarını ona açdı. Bu, "Avesta"da göstərilərək deyilir:

Müqəddəs Ruh, Şər Ruh.
Malik ola bilmədilər,
Elçilər göndərdilər.
Onlardan sürətli olan:
**Müqəddəs Ruh ‒ Xeyirxah Fikri**
**Və Həqiqəti göndərdi.**
**Atəşlə birgə hansı ki,**
**O, Ahura Məzdanın oğludur** (1, 183).

Mütləq Ruhun varlıq qanunu haqqında Zərdüşt vasitəsilə insanlığa çatdırmaq istədikləri Zərdüşt ətrafında birləşmiş, onun kəlamlarını dinləşdirən maqlar tərəfindən 12 min inək dərisində "Avesta" adlanan 21 kitabda topladılar. Zərdüşt "Avesta"da insanlığa təqdim olunan **"İşıqlı odların danışığından doğan"** bu elmi "işıqlı din" adlandırdı. Zərdüşt Tanrını – Mütləq Ruhu **"işıq saçan şüalar"** kimi şərh edirdi. Beləliklə, O, dünyada ilk dəfə dünyanın **işıq başlanğıcı (emanasiya) və hər şeyin bütün yaranışın tərkibində, batinində od (enerji) olduğu mülahizəsi ilə çıxış etdi** (1; 105; 109, 65-67, 110; 11, 37-38).

Zərdüşt fəlsəfə tarixində dünyanın işıq başlanğıcını ilk kəşf edən, kainatın və bütün varlıq formalarının ‒ ruhların, insanın, bitki və heyvanat aləminin və başqalarının yaradıcısının vahid Tanrı olmasını kəşf edən və insanların şüuruna aşılayan, onlara inandıran, müddəaları həyatın əbədi qanunlarını ifadə edən, zaman-zaman dərk olunmaqla bəşəriyyətə yaradıcılıq ruhu verən, onu sivilizasiya quruculuğuna sövq edən insanlığın ilk ən nəhəng və təkrarolunmaz filosofudur.

Bu haqda "Avesta"da deyilir:
Əməlisaleh Zərdüşt:
O, insanların
Birincisi idi ki,
Təriflədi Həqiqəti,
Həm də ehtiram etdi
Ahura Məzdaya (1, 156).

Tanrı özünəməxsus ən yüksək sifəti "Müqəddəs ağlı" məxluqatın ən kamili və şərəflisi olan insana verdi ki, onunla pis və yaxşı, xeyirlə şəri, həqiqətlə yalanı fərqləndirib seçsin. Həmçinin ona seçim azadlığı verdi ki,

əbədi olan bu mübarizədə yaradıcılıq göstərsin. Zərdüşt bəşər tarixində ilk peyğəmbər idi ki, ən yüksək seçim edib Həqiqət axtarışı ilə Tanrıya qovuşub, varlıq qanunları − yaradıcılıq qanununu bilavasitə ondan eşitdi. Hind "Veda"sında deyilir ki, Zərdüşt Tanrı Ahura Məzdadan soruşur: − Ey Müqəddəs Ruh, indiyədək hansı insanla danışıb söhbət etmisən? Ahura Məzda cavab verdi: − Gözəl Lima ilə, xeyirli heyvanların sahibi ilə. Onu peyğəmbər etmək istədim, savadı yox idi" (1, 10).

Göründüyü kimi, Mütləq Ruh savadı, idrakı olmaqığı üçün Limaya peyğəmbərlik verməmiş, onu ədalətli hökmdar etmişdir. **Tanrı elmi-idraki səviyyəsinə, Həqiqəti seçməkdə vəhyi səviyyədə seçiminin axtarışında olduğu üçün ona peyğəmbərlik və varlıq qanunlarını ehtiva edən bəşəriyyətin ilk müqəddəs kitabı "Avesta"nı verdi.**

"Avesta" kitabında Tanrının vəhyi deyimlərinə söykənən Zərdüşt təbiətin, cəmiyyətin obyektiv dərki üçün bəşəriyyətin ilk əbədi idrak təlimini yaratdı. Təlimini **"Od elmi", "İşıq elmi"** adlandırdı. **Zərdüştün təlimini "Od elmi" adlandırmasının obyektiv və subyektiv səbəbləri vardı.** Bəşər tarixində insanı ilk dəfə heyrətləndirən, gözəgörünməz xilaskar kimi çıxış edən od olmuşdur. İbtidai insan ona xətər yetirə, öldürə bilən vəhşilərdən od vasitəsi ilə qorundu. Odur ki, öncə ildırım çaxması və başqa səbəbdən yaranmış odların, ocaqların ətrafı insanların qoruyucusuna, sığınacağına çevrildi. İnsanlar tədricən bu ocaqları qoruyub, davamlı yanması üsulunu öyrəndilər. Sonra odu sığınacaqları olan mağaralara köçürüb, orada qoruyub saxlamaqla və digər sığınacaqlarının girəcəklərində davamlı saxlamaqla ondan qoruyan kimi istifadə etməkdə davam etdilər. Odun birinci qoruyucu mahiyyəti buradan doğdu. Nəhayət, qış fəslində soyuqdan qorunma vasitəsi kimi istifadə etdilər. Odla təması, ondan istifadəni davam etdirdikcə insan onun yeni-yeni mahiyyətlərini kəşf etdilər. Ocaq ətrafında ovladıqları heyvanın çiy ətini yeyən insan odun təsirindən ətdə yeni xoş tam yarandığını, ətin daha dadlı olmaqla asan yeyildiyini dərk etdi. Tədricən əti odda bişirməyə başladılar, ətdən daha ləzzətli qidalar hazırladılar. Bununla bərabər buğda, arpa, darı, qarabaşaq, mərci və b. dənlərin odda bişməsi, qovrulmasının daha ləzzətli bir qidaya çevrildiyini anladılar. Beləliklə, odun şeylərin keyfiyyətini dəyişmə xassəsini dərk etdilər. Ardıcıl olaraq odun yaradıcı təsirini dərk etdilər. Yağlı, yunlu heyvan dərisi yanarkən, gecə ətrafı yetərincə işıqlandırdığını görüb ilk öncə bu üsulla sığınacaqlarını işıqlandırdılar. Nəhayət, onu uzun ağaca bağlayıb yaşayış məskənlərinin ətrafını işıqlandırdılar, sonra gecə gediləcək yollarını işıqlandırdılar. Ardıcıl olaraq odun yeni-yeni mahiyyəti, yaradıcı xassələrini kəşf etməkdə davam etdilər. Meşədə meyvə yığarkən bir ağacın

günəşlə yaxşı işıqlanan meyvələrinin tamlı, şirin və əlvan rəngli, günəş yaxşı tutmayan meyvələrin solğun və tamsız olduğunu, dağların cənub tərəfində və günəşli ərazilərdə bitən, yetişən taxıl və digər məhsulların tamlı, iri və keyfiyyətli olduğunu dərk etdilər. Tədricən bu prosesdə odun mahiyyətini günəşlə eyniləşdirməyə başladılar. Nəhayət, gilli, yaş palçığın odun təsirindən su keçirməyən bərk maddəyə çevrilməsini müşahidə edib, gil qabları istehsal etdilər, nəhayət, ocaq yerlərində ərimiş misi, qızıl, gümüş və digər metalları kəşf etdilər. Od vasitəsi ilə onlara təsir edərək əridib, qarışdırıb yeni metallar kəşf etdilər, göz önündə olmayan predmet və əşyaları təsəvvürdə canlandırmaqla elə bu prosesdə biliyin işıq, enamasiya mahiyyəti, od kimi yaradıcı, dərk edici, mənəvi keyfiyyəti dərk olundu. Bu yaradıcı bilik və qabiliyyətin məhz odla bağlı (qoruyucu, əşyaların keyfiyyətini dəyişdirici və s.) aşkar olunduğundan bilikdə oddan törəmə və od keyfiyyətli olunduğu qənaətinə gəlindi. Odla bağlı insanlığın, varlığın bu kəşfi üsulu Azərbaycanda bütün dünyadan fərqli, sürətli və güclü olmuşdur, istisna təşkil etmişdir. Belə ki, əgər dünyanın müxtəlif ərazilərində od ildırım çaxmasından və müxtəlif üsulla əldə edilmişsə, Azərbaycan təbii − əbədi sönməz odların yeganə vətəni idi. Azərbaycan − Odlar ölkəsi adını da bu əbədi odlardaan almışdır. Elə bu səbəbdən odun mahiyyətinin və od vasitəsi ilə varlığın ayrı-ayrı formalarının mahiyyətinin kəşf edilməsi daha mükəmməl və yüksək səviyyədə getmişdir. **Burada torpaq, su, hava və od (günəş) bütün varlığın əsası kimi qiymətləndirilirdi. Zərdüşt varlığın əsası olan bu dörd ünsürdən aparıcı − göydən gələn odun olduğunu əsaslandırdı** (109, 55).

“Od elmimizi verməkdə davam edir uca Armati. Dediyin bu Qatlar birinci olaraq mənə yetmişdir” − deyən Zərdüşt onun “Avesta”da dediyi Qatların səma qatlarının inikası olmasını diqqətə çatdırır (109, 55).

Zərdüşt öz davamçılarını “od ailəsi” adlandırır. Onların Ya Məzda yaxşı oda, bilik mənbəyinə can atmaqla, Dayanıb yaxşılarımız Ahuraya nəğmələr oxuyur. Bizim ali fikrimiz − Aşə qədər güclü işıqlanır (109, 54-55) − deyən Zərdüşt bu dualarla, təmasla həqiqətə çatdıqlarını, həqiqəti dərk etdiklərini bildirir.

Yuxarıda bəhs etdiyimiz Vətən sevgisi bütün heyvanlarda olduğu kimi, insanda da ibtidai əcdadından aldığı ilkin instikdir. İnsanlığın mənəvi inkişaf prosesində tərbiyə, həyat tərzi və s. vasitəsilə yüksəldilir. Odla bağlı bu proses də Azərbaycanda dünyanın bütün xalqlarından fərqli və yüksək səviyyədə getmişdir. Belə ki, Azərbaycan türklərinin əcdadları ilkin yaranışdan dünyanın digər xalqlarından fərqli olaraq əbədi sönməz odlar diyarında doğulmuşdur.

Azərbaycan türklərinin Vətəni Tanrının verdiyi əbədi önməz odların Vətəni olmaqla bütövlükdə müqəddəs torpaq, ölkə sevgisi, qiyməti qazanmışdı. Elə bu səbəbdən burada Vətən sevgisi yaranışdan insanın bütün mənəvi aləmini əhatə etməklə ilahi mahiyyət kəsb edirdi.

Əbədi sönməz odun ilkin qoruyucusu, mühafizəçisi olmaqla dərkedici idraki xüsusiyyətlər Azərbaycan xalqının əcdadlarında digər etnoslarla müqayisədə daha sürətlə, yüksək səviyyədə getmişdir. Dərketmə imkanlarını, yaradıcılıq qabiliyyətini inkişaf etdirmişdir. **Vətənlərini əbədi, sönməz odlar ölkəsi kimi yüksək səviyyədə müqəddəsləşdirmişlər. Odur ki, başqa etnoslar kimi hər hansı daxili ziddiyyətdən, xarici təzyiqin təsirindən vətənlərini tərk etmir, miqrasiya etmirdilər. Onlar əbədi sönməz, müqəddəs oddan ayrılmağı ölümə bərabər tuturdular. Əbədi sönməz, müqəddəs odlar ölkəsi vətənlərini qorumaq, odla bağlı, onun təsirindən vətən haqqında yaratdıqları ideologiyalaşmış inam və etiqadlarına söykənərək, birləşərək Şumer, Elam və b. xalqlardan fərqli olaraq vətənlərini, onun müqəddəs, əbədi-dönməz odunu, bu odun təsirindən doğan və kəşf olunan "qəhrəmanlar"** kimi etnik-milli varlıqlarını qoruyur və yaşadırlar. Ölkələrini Müqəddəs Odun vətəni kimi sonsuz səviyyədə müqəddəsləşdirilirlər. Odur ki, xalqların tarix səhnəsinə çıxmasının ikinci mərhələsində vətənlərinin və etnik-milli varlıqlarının qorunub yaşadılması üçün **qəhrəmanlıqla bərabər dünyada baş verən hadisələrin, varlığın elmi dərki zərurətini anladılar və bu məqsədə çatmaq üçün fədakar axtarışa başladılar.**

Zərdüşt vətəninin şimal hüdudu Şahdağ zirvəsindən (Xınalıq kəndi ərazisindən) cənubda Urmiya dağları hüdudunda dənizdə (Xəzər) və düzənlərdə şölələnən əbədi sönməz Odlar ölkəsi xalqının təfəkkür tarixinə, odla bağlı inam və etiqadına istinadən, onun zaman-zaman od, işıq vasitəsi ilə ətraf aləmi, onun predmetlərinin mahiyyətini dərk etməsi, ruh və mənəviyyatın, ağıl və elmin yaradıcı od mahiyyətində qiymətləndirməsinə istinad edərək, bütün varlığın yaradıcı od mahiyyətində olmasını kəşf edib, Günəşin, işığın, odun nümunəsində təbii bir proses olaraq, tək tanrıçılığa keçid ideologiuasını yaradıb, xalqının şüuruna aşılamaqla Günəşin simvolu kimi Məzdanı tək yaradan Tanrı olaraq xalqın inamına çevirdi.

Dünyanın digər ölkələrindən fərqli olaraq əbədi sönməz odlar, onun müqəddəsləşməsi Azərbaycan türklərinin əcdadlarını ardıcıl olaraq varlıq qanunlarının obyektiv dərkinə istiqamətləndirdi ki, bu da onların bəşəriyyətin ilk intellektual xalqı kimi yetişməsi ilə nəticələndi. **Bu səbəbdən Azərbaycan türklərinin əcdadlarının çoxallahlıqdan tək Tanrıçılığa keçidi**

**intellektual təbii proses kimi baş verdi.** Tanrının Zərdüştə Yəhudi və Ərəb peyğəmbərinə, xristian peyğəmbərlərinə göndərilən inam və etiqadlardan ibarət kitabdan fərqli olaraq, **varlıq qanunları ehtiva olunan "Avesta" kitabı vəhy olundu.**

Müqəddəs kitablarda və din tarixində Tanrının peyğəmbərlərin hamısını eyni intellektual səviyyədə və missiyada deyil, fərqli yaratdığı göstərilir. Bu haqda "Qurani-Kərim"in Əl-İsra surəsinin 55-ci ayəsində deyilir: "Biz peyğəmbərlərin bəzisini digərlərindən üstün etdik və Davuda "Zəbur"u verdik" (112, 286).

"Qurani-Kərim"də və peyğəmbərlər tarixində məlumat verilir ki, bir gün Musa əleyhissəlam bəni-İsrail aqillərini və ağsaqqallarını başına toplayıb xütbə edərkən orada olan birisi irəli çıxıb soruşdu:

− Ey Allahın rəsulu, bu dünyada səndən bilikli adam varmı?

− Yoxdur! − deyə Musa (ə) cavab verdi.

Bu vaxt Allahtəaladan nida gəldi:

− Xeyr, ey Musa! Belə bir adam var! İki dənizin qovuşduğu yerdə. O, Mənim Səndən elmi çox olan bəndəmdir.

Allahtəala vəhyi alaraq Musaya (ə) Xızırın (ə) yerini bildirir və görüşməsini tövsiyyə edir. Musa (ə) çətin bir axtarışla Xızır (ə) olduğu yeri tapıb onunla görüşdü. Xızır (ə) gələnin kim olduğunu soruşdu. Musa (ə) cavab verdi: "Mən Musayam, İsrail oğullarındanam. Səni görmək üçün yola çıxmışam. Elmin haqqında mənə xəbər verilib. Sənə hidayət olunmuş elmdən mənə də öyrətməyini istəyirəm, bunu etsən sənə tabe olaram" (111, 232-234, 244-245; 112, 299-300).

Xızır belə cavab verdi: "Sən mənimlə bir yerdə olsan (görəcəyim işlərə) əsla dözə bilməzsən. Sənin onlara səbrin çatmaz, çünki mən **batini elmlə** iş görürəm. Sənin bildiyin isə ancaq **zahiri elmdir.** Sən peyğəmbər olduğun üçün mən **zahirən qadağan** olunmuş bir iş gördükdə ona etiraz edib əleyhimə çıxacaqsan. Axı sən bilmədiyin (batininə, mahiyyətinə bələd olmaqığın) bir şeyə necə dözə bilərsən?".

Musa dedi: "İnşallah, səbrli olduğumu görəcəksən. Sənin heç bir əmrindən çıxmayacağam!"

Xızır: Əgər mənə tabe olacaqsansa, səbəbini sənə izah etməyincə məndən heç bir şey haqqında soruşma!" − dedi (112, 300).

Bu şərtləşmədən sonra onlar birlikdə səfərə çıxdılar.Yolda Xızır (ə) üç iş icra etdi. Bunların hər üçü Musa (ə) "zahiri elmdə" hadisələrin üz qatını görmə qabiliyyətinə malik olduğu üçün gözlənilməz oldu. Üçündə də o, Xızırın (ə) əməllərinə etiraz etdi.

Musa (ə) ikinci etirazı zamanı Xızır (ə) ona şərtlərini xatırladıb, bir daha xəbərdarlıq edib dedi: “Sənə demədimmi ki, mənimlə birlikdə olanda (edəcəyim əməllərə) əsla dözə bilməzsən?”

Musa dedi: “Əgər bundan sonra səndən bir şey barəsində xəbər alsam, bir daha mənimlə yoldaşlıq etmə. (Hərəkətlərinə etiraz etdiyim, səni qınadığım üçün) sən artıq mənim tərəfimdən üzülürsən (məni atıb getməyə haqqın var) (112, 300-301).

Belə ciddi vəd etməsinə baxmayaraq Musa (ə) Xızırın (ə) üçüncü əməlinə də dözmədi, etirazını bildirdi. Xızır dedi: Bu, artıq mənimlə sənin aranda ayrılıq vaxtıdır (zahirən naməqbul olduğunu gördüyüm üçün) − dözə bilmədiyin şeylərin yozumunu, **batinini)** sənə xəbər verəcəm − deyib, bildirdi ki, rastlaşdıqları üç hadisənin gedişində (daxilində, mahiyyətində) şərə istiqamətlənmə olduğundan onu xeyirə yönəltmək üçün iki əməllə Allahtəalanın vəhyi ilə, bir əməlin edilməsi qərarını özü verib. Allahdan onun xeyir əvəzini verməsini təvəqqe etdiyini Musa(ə)ya izah etdi (112, 301).

Əgər xalqların yaradığı əxlaq qanunları və mənəvi dəyərləri Tanrının xalqlar içərisindən seçdiyi və peyğəmbərlik verdiyi müdriklərə çatdırdığı vəhyi kitablarda toplanmış əxlaq qanunları və dəyərlər bitkin və zəngin olmaqla insanlığın heyvani həyat tərzindən ayrılıb, mənəviyyat qanunları ilə yaşama keçməsində üstün təsirə malik olmuşdur. Daha doğrusu, əsas və həlledici olmuşdur. Tanrı yaranışdan insana seçim və yaradıcılıq imkanı vermişdir. Lakin seçim qabiliyyətində insan səhvə yol verdiyindən Tanrı xalqlar içərisindən seçdiyi peyğəmbərlər vasitəsi ilə insanlığa göndərdiyi vəhyi kitablarla onları düzgün seçim və qurucu yaradıcılığa istiqamətləndirir. Bu yola məhəl qoymayan fərdlərin və toplumların məhvə məhkumluqları, həmçinin dinlə manipulasiya edən siyasətçi və dövlətləri eyni aqibət gözləməsi haqda tarixdə yetərincə faktlar mövcuddur.

Tarixdən məlum olduğu üzrə Tanrı toplumları heyvani həyat tərzindən ayırmaq, onların üzləşdiyi, lakin qəti idraki qabiliyyət göstərib həll edə bilmədiyi problemlərin həlli üçün xalqların inkişaf səviyyəsinə uyğun olaraq öz içərilərindən peyğəmbərlər seçmiş, onun vasitəsi ilə elm vermişdir. Yuxarıda “Qurani-Kərim”ə istinadən göstərildiyi kimi Musa (ə)ya verilən elm “zahiri elm” olduğu üçün o, ancaq əyani, zahiri görünən hadisələri qiymətləndirə bilirdi, məqamı çatdıqda “batini-mahiyyəti” elm öyrənmək üçün Tanrı onu Xızır (ə)ı müşahidə etməyə və dinləməyə göndərdi. Musa (ə) “mahiyyəti” elmi Xızır (ə)dan öyrəndi (112, 299-301).

Din tarixində 124 min peyğəmbər olduğu, bunlardan 313-nün elçi olduğu deyilir, təxminən 36 peyğəmbərin adı çəkilir (111, 5). Din tarixinə nəzər

saldıqda aydın olur ki, din, həqiqi dini şəxslər, elçilər küt, tənbəl yaradıcılıq qabiliyyəti olmayan bərabərlik ideoloqu sosialistlər kimi zaman-zaman o qədər mifləşdirilmişdir ki, həqiqi mahiyyətini itirəcək səviyyəyə çatdırılmışdı. Bəşər tarixi göstərir ki, təkallahlı dinlər və peyğəmbərlər cəmiyyətin ataxaqanlıqdan dövlətçiliyə keçid və ilkin dövlətçilik mərhələsində zühur etmişdir. Din − insanlığın yüz min illər keçdiyi təkamül − inkişafla müqayisədə onun heyvani həyat tərzindən qopub mənəviləşməsində, mənəviyyat qanunları ilə yaşamasında əxlaq və mənəvi dəyərlərin − insanlığın qorunub yaşadılmasında müqayisə olunmaz səviyyədə üstün təsirə, rola malik olmuşdur.

Dinlərdə əsas ideya varlığın mənəvi-yaradıcı ruhu, buna müvafiq hər bir fərdin və toplumun yaşamasında onun maddi tərəfini keçici mənəvi-ruhi varlığının daimi, ən yüksək səviyyəyə yüksəldiyi halda əbədiliyidir. İnsanlığın əsas mahiyyəti onun əxlaqi, mənəvi dəyərlərdən ibarət olması müqəddəs kitablarda əsaslandırılır. İnsanın, eləcə də toplumun mənəviyyatında heyvani istək, nəfs və digər əməllərin yer tutması, əxlaqın və mənəvi dəyərlərin pozulmasının acı nəticələr doğuracağı, son nəticədə onu məhv edəcəyi çox incəliklə izah və şərh olunur.

Tanrı özünəməxsus ağlı yaradıcı ruhdan, yaratdıqlarından yalnız insana vermişdir ki, o, məhz bu ağılla heyvani həyat tərzindən ayrıldı, təbiəti fəhm etməklə əmək prosesində şüur və təfəkkürünü inkişaf etdirdi, fərdi və toplum halında özünəməxsus mənlik şüuru yaratdı, yaradıcılıq göstərdi, heyvani instiktiv yaşamdan imtina edib, **həyatını yeni forma və məzmunda qurub ailə formasını seçdi**, buna müvafiq əxlaq və dəyərlər yaratdı, mənəviyyat qanunları ilə yaşam yolu tutdu, nəhayət, bütövlükdə dünyanı dərk etmək iddiasına düşdü. Tarixdən göründüyü kimi, peyğəmbərlərin seçilməsi, müqəddəs kitablar göndərməsi ilə Mütləq Ruh − Tanrı insanların heyvani həyat tərzindən bütövlükdə qopması, yaxşı və pis hadisələri, əməlləri fərqləndirib yaxşı yolu, yaradıcılıq yolu tutmasına ikinci təkan verdi. Göndərdiyi vəhyi kitablar vasitəsi ilə insanlığın getməli olduğu yolu istiqamətləndirdi. **Tarixdən məlum olduğu üzrə belə xalqların peyğəmbərləri intellektual xalqın yetişdirdiyi savadlı, elmli müdriklərdir.** Yuxarıda bəhs etdiyimiz kimi, Zərdüşt Tanrı Ahura Məzdadan soruşdu: − Ey Müqəddəs Ruh, indiyədək, hansı insanla danışıb söhbət etmisən? Ahura Məzda cavab verdi: − Gözəl Yıma ilə, onu peyğəmbər etmək istədim, lakin savadı yox idi. Savadı olmadığı üçün Ahura Məzda ona peyğəmbərlik deyil, şahlıq verir. Bu hadisə yer üzünü su basan zaman, yəni Nuhun tufanı çağında olduğu bildirilir (1, 10-11).

Gördüyümüz kimi, yuxarıda Zərdüştün Tanrıya ünvanlanmış suallarla varlığın mahiyyətinin gözəgörünməz qanunlarını, onun tənzimlənməsini dərk etmək, aşkarlamaq metodu elmi idi ki, Zərdüşt savadlı olduğu üçün Tanrı Ahura Məzda "mahiyyəti" − elmi ona vəhyi olaraq verdi. "Qurani-Kərim"də Tanrı tərəfindən "mahiyyəti elm"in vəhyi olaraq Xızır (ə) peyğəmbərə verilməsindən ətraflı bəhs olunur (112, 299-301). Xızır (ə) peyğəmbərin tarixi şəxsiyyət olması elmi-tarixi ədəbiyyatda təsdiqlənsə də, yaşadığı dövr haqqında aydın, dəqiq məlumat yoxdur. Xızır peyğəmbərin digər peyğəmbərlərdən fərqli xüsusiyyəti dirilik suyundan içməsi səbəbi ilə o, hər zaman həyatda olmuş əbədi yaşar və xilaskardır. O, həmişə dara düşən inamlı haqq insanların köməyinə çatıb, onları xilas edir.

Xızır (ə) tarixdə "diri peyğəmbər" kimi tanındığı üçün bir çox Şərq xalqları arasında onun adı ilə bağlı əsatirlər, dastanlar və rəvayətlər, o cümlədən müəyyən müqəddəs yerlər yaranmışdır (111, 242-247).

Xızır (ə) Azərbaycan xalqının ən əziz, yeganə xilaskar peyğəmbəridir. Savalan dağı Azərbaycan xalqı üçün bir çox səbəblərlə müqəddəsləşsə də, onun müqəddəsliyini doğuran birinci, əsas səbəb Xızır (ə)ın vətəni olmasıdır.

Ayrı-ayrı xalqa müqəddəs kitablar içərisindən çıxdığı peyğəmbərlər vasitəsi ilə göndərilsə də, peyğəmbərlər də, müqəddəs kitablar da hər ikisi ilahi mahiyyətə malikdir. Odur ki, hər bir xalq onları özününkü hesab etməkdə, əziz turmaqda haqlıdır. Lakin peyğəmbərlərin ilahi mahiyyətdə olması, onların etnik-milli mənsubiyyətini inkar etmir. Bəşəriyyətə peyğəmbərlər yetişdirmiş, vermiş xalqların tarixi bəşəri rolu daha böyükdür. Xızır (ə)ın "mahiyyəti elm"ə malik peyğəmbər olması onun azərbaycanlı, Savalan dağının yetişdirməsi olması daha məntiqi görünür. Belə ki, bəşər tarixində yüksək əxlaqi-mənəvi dəyərləri, mənlik şüuru ilə Azadlıq ruhuna malik olmaqla "mahiyyəti elm"i (ilahi elm) öyrənməyə səy göstərib, ona nail olan ilk xalq Urmiya hövzəsi Azərbaycan türklərinin əcdadlarının olduğunu təsdiq edir.

Azərbaycan – Ulu Tanrının su ilə odun öpüşündən sevə-sevə yaratdığı Xızır peyğəmbərin, Qut savaşçısı Qutay peyğəmbərin, Azər peyğəmbərin, Lut peyğəmbərin, Zərdüşt peyğəmbərin, Yafəs peyğəmbərin sevimli, gözəl, görklü yurdudur (113, 22).

Tarixdən göründüyü kimi, hər bir xalqa peyğəmbər Tanrı tərəfindən şəxsin əxlaqı, qabiliyyəti, iradəsi ilə bərabər savadı, intellektual səviyyəsi də nəzərə alınmaqla qarşısında duran birinci, başlıca problemin həlli üçün seçilir, göndərilir.

Araşdırmamıza cəlb etdiyimiz mənbə və tədqiqatlardan göründüyü kimi, Şumerlərlə qonşuluqda onlarla maddi-mənəvi əlaqədə yaşamış, eyni

dövrdə dövlət yaratmış, istehsal və məişətin bir sıra sahələrində ondan yüksək yaradıcılıq göstərmiş Urmiya hövzəsi Azərbaycan türklərinin əcdadlarının mentaliteti xalqların tarix səhnəsinə çıxdığı yeni mərhələdə Şumerlərdən fərqli olaraq onlara dirəniş göstərib, varlıqlarını qoruyub yaşatmağa imkan verdi. Urmiya hövzəsi xalqı zamanına görə bəşəriyyətin ən intellektual xalqı olsa da, dövrün elmi səviyyəsi varlıq qanunlarının, bəşər hadisələrinin mahiyyətini göstərəcək səviyyədə deyildi. Lakin Urmiya hövzəsi xalqın Azadlıq ruhu, Mənlik şüuru, mentaliteti, elmə inamları onları dünya hadisələrinin mahiyyət səbəblərini dərk, kəşf etmək üçün inadkarcasına axtarışa sövq etdi. Onlardan ən intellektualı, bu arzu və axtarışdan ruhi həyəcan vəziyyətinə, ehtizaza gəlib Mütləq Ruha qovuşdu. Tanrı vəhyi olaraq bütün varlıq qanunları, onun yaşam, ölüm səbəbləri haqqında elmi Zərdüştə diqtə etdi. Beləliklə, Zərdüşt Mütləq Ruhdan vəhyi olaraq qəbul etdiyi bu elmi "Ahura Məzda Odu" − "Od elmi" adlandırdı (1, 77).

Ahura Məzdaya "Ali işıq" (109, 53) deyə müraciət edərək, ondan elmi qəbul etmədə davam etdiyini diqqətə çatdıraraq deyir:

Od elmimizi verməkdə davam edir uca Armati,
Dediyim bu Qatlar birinci olaraq mənə yetmişdir (109, 55).

Bu münasibətlə onun varlığına nəğmələr oxunduğunu bildirərək deyir:

Ya Məzda, yaxşı oda, bilik mənbəyinə can atmaqla,
Dayanıb yaxşılarımız Ahuraya nəğmələr oxuyur (109, 54).

Zərdüşt dində öyrəniləcək məsəllər və göstərişlərin Məzdanın öz dilindən eşidilməsinin bütün insanları bu dinə gətirə biləcəyini xüsusi vurğulayaraq deyir: **"Ağıl və odunla verəcəyin əcri doğru dindən öyrəniləcək məsəlləri və ondakı göstərişləri, ey Məzda, öz dilinlə mənə söylə ki, öyrənib bütün insanları yeni dinə gətirim"** (105, 44).

Göründüyü kimi, Zərdüşt vəhyi olaraq ona verilən bilgini **"Ahura Məzda Odu", "Od elmi", "İşıq elmi", "işıqlı din" "doğru din", "maq din" adlandırır** (1, 77, 183-185; 105, 42, 60, 68; 109, 53, 55). Bu adların hamısı mahiyyətcə vahid məna kəsb edərək Zərdüştün **"gizli dünya qanunlarından xəbərdar olmaqla"** insanın hər tərəfdə baş alıb gedən yırtıcı hərəkətlərindən, səthi inam və etiqadlardan doğan sadəlövh əməllərdən, çoxallahlığa yaranmaqda olan inamsızlığın doğurduğu mənəvi böhranı aradan qaldırıb, insanın həyatını yenidən qurmaq üçün Ahura Məzdadan "həyatın qanunlarını soruşub başa düşmək" üçün ona ünvanladığı suallara aldığı cavablar idi (105, 43, 55, 61).

Qatların təqdimindən göründüyü kmi **“Ahura Məzda Odu”, “Od elmi”, “işıq elmi”, “işıqlı din”, “maq dini” kimi müxtəlif adlarla təqdim edilən bu elm və dinlər vahid mahiyyəti, yaranışın qanunlarını ifadə edir.** İlkin yaranışdan hər bir varlığı iki tərəfin doğurduğu və bu tərəflər arasında əbədi mübarizə getdiyi diqqətə çatdırılaraq göstərilir: “İlk başlanğıcda iki gövhər bir-birinə rast gəldi, dünyada ilk olaraq varlıq və yoxluğun təməlini qoydular... **İlk başlanğıcda, düşüncə aləmində də iki əkiz gövhər − yaxşı və pis düşüncə, əməl və davranış meydana çıxdı. Bu iki gövhərdən bədxah adamlar yox, xeyirxah adamlar doğrunu (xeyri) seçdilər** (105, 43).

Beləliklə, “Avesta” kitabında varlığın təməlində, həyatın bütün sahələrində bu “iki əkiz gövhər”in, təbiətdə, onun gözəgörünməz kiçik sahələrindən ənginliklərinə qədər, cəmiyyətdə, fərdin ruhunda, ailədə, soyda, toplumda, məişətin bütün sahələrində, əkinçilikdə, maldarlıqda, dövlətdə, dövlətlərarası münasibətlərdə və b. sahələrdə müxtəlif forma və məzmunda xeyir və şər, yaxşılıq və pislik, işıq və qaranlıq, tənbəllik və zəhmətkeşlik, həyat və ölüm, ədalət və ədalətsizlik, yalan və doğruçuluq, Həqiqət və yalan, kin (qəzəb) və sevgi, məhəbbət və düşmənçilik, quruculuq və dağıdıcılıq və s. arasında gizli və açıq mübarizə gedir. Tanrının “Od elmi”nin, “işıq elmi”nin, “maq dini”nin tövsiyələrinə əməl edilməklə bu mübarizədə Xeyrin – Şərə, işığın – qaranlığa, doğru fikrin, Həqiqətin – yalana və s. qələbəsi əbədiləşə bilər.

Beləliklə, biliyin, ağlın, zəkanın dərketmə və qiymətləndirmə keyfiyyətini anlayan, bəşəriyyətin ilk intellektual xalqı olaraq intellekt nümayişinə cəhd göstərən, dünyanın gözəgörünməz qanunlarını dərk etməyə təşəbbüs göstərən, varlığın bütün sahələrinin vəhdətdə olmasını və onu yaradanın tək Tanrı olmasını dərk edən Urmiya hövzəsi xalqın nümayəndəsi Zərdüştə Mütləq Ruh tərəfindən peyğəmbərlik, Varlıq qanunları – təbiətin, cəmiyyətin, mənəvi varlığın yaşam, bir haldan başqa hala keçmə qanunu özündə ehtiva edən müqəddəs kitab “Avesta”nı vəhyi olaraq verildi. “Od elmi”, “İşıqlı elm”, “maq dini”, “doğru din” adlandırdığı bu elm Zərdüşt tərəfindən sistemləşdirildi, elmi təlim, din kimi işlənildi. Bu elmi – dini dərk etmək və ondan düzgün istifadə etməklə həqiqətə, xeyirə, işığa, yaradıcılığa mane olan və b. şər əməlləri, qüvvələri dəf etməyin üçlü formulunu yaratdı.

Böyük mütəfəkkir və müdrik Zərdüştün əsas məqsədi bütün vahid kainatı və dünyanı yaradan tək Tanrı – Ahura Məzda olduğunu və “gizli dünya qanunları”nı, “həyat qanunları”nı insan ağlının dərk etməsinin mümkünlüyünə yönəltmək və ona inandırmaq idi (105, 55, 61).

Bunun üçün o, bütün insanların marağı, arzusu, istəyi olan məqamı tapmalı, onların şüurunda ideallaşdırmaqla vahid ideya ətrafında birləşdirməli

idi. O, bu məqamı insanın mənəvi dəyərlərinin nüvəsi Həqiqəti, "Həqiqət ən yaxşı xoşbəxtlikdir" (1, 33) formasında etnik-milli, dini ideologiyaya çevrildi. Bu elə bir ideya idi ki, ümumən xalqın, kütlənin ümdə arzusu idi. İçində onu istəməyən şər, bədxah, oğru, quldur, yalançı belə onu istəmədiyini dilinə gətirə bilməzdi. Tezliklə bu ideya şüurlara hakim olur, dini mərasimlərdə oxunur:

Dərk edilsə Həqiqət,
Ona dua edib icra edərlər.
Neçə gərək ayinlər (1, 81).

Bunun ardınca Zərdüşt Həqiqət və tək Tanrı Məzdanı varlığın yaradıcı mahiyyəti kimi etnik-milli ideologiyaya çevriir, dönməzliyini təmin etmək üçün

Həqiqət − ən yaxşı xoşbəxtlikdir...
Min vasitə ilə, hər vasitə ilə (üç dəfə).
Həqiqət − ən yaxşı xoşbəxtlikdir...
Köməyə gəl, ey Məzda (üç dəfə).
Əzəmətli, mərd güclərə − deyilərək mərasim
duasına çevirir (1, 34).

Göründüyü kimi həyat, mənəviyyat qanunlarında nəyin nədən doğduğunu düzgün müəyyənləşdirən mütəfəkkir, müdrik kimi Zərdüşt bunun ardınca xalqa aşıladığı ideyaları möhkəmləndirmək və yeni ideya vermək üçün yeni addım atır, Məzdanın Həqiqəti tapacaq, göstərəcək yeganə Tanrı olmasını ideyaya, ideologiyaya çevirmək istiqamətində yeni bir addım ataraq deyir:

Müqəddəs Ruh − Xeyirxah Fikiri
Və Həqiqəti göndərdi.
Atəşlə birgə hansı ki
O, Ahura Məzdanın oğludur (1, 183).

Göründüyü kimi, Zərdüşt yenə birinci olaraq əsas ideya Ahura Məzdanın tək yaradan olması və Həqiqətin də bu Müqəddəs Ruhun alovlu ruhundan doğaraq insanlara Xeyirxah fikirlə birlikdə göndərdiyini deyir. Və insanların istəklərinə, və empirik düşüncələrinə, sadəlövh inam və etiqadlarına uyğun özlərinin baxışlarında yaratdıqları həqiqətlərə son verib, Həqiqətin mahiyyətinin nədən ibarət olduğunu diqqətə çatdırıb, şüurlara hakim olmaq üçün göstərir:

Həqiqət − ən yaxşı xoşbəxtlikdir.
Xoşbəxtlik olacaq o kəs üçün ki,
Kimin Həqiqəti ən yaxşı xoşbəxtlikdir (1, 34).

Yəni, hər cür Həqiqət yox, kimin ki, Həqiqətinin "mahiyyəti", "həyat qanunları"nı, "Müqəddəs Ruhun ağlı və gizli dünya qanunları"nı ifadə edən Həqiqət xoşbəxtliyi, Həqiqəti ifadə edir. Həqiqətin bu yeni formada xalqa təqdimi ilə böyük mütəfəkkir insanların ağıl və zəkasını bu ideyanın dərkinə dərindən nüfuz etməsi üçün səfərbər olmasına yeni güclü bir təkan verir. Bəzən yalançı cahillər Həqiqəti ehtiva etməyən keçici, saxta görüntüləri aldadıcı, yalançı üsullarla insanlara Həqiqət kimi aşılayıb inandırırlar ki, bu da sonda evi. ailəni, əkinçilik və maldarlığı, kəndi, ölkəni, dövləti viran edib, ailənin, soyun, dövlətin başçılarını məhv edib, puça çıxarar (1, 82; 105, 46-147).

Göründüyü kimi, böyük mütəfəkkir və müdrik Zərdüşt insanlığın ümdə arzusu olduğu, can atdığı xoşbəxtliyin Həqiqəti dərk etmə və əxlaqi, mənəvi şəraitində, xeyirxah, ağıllı, doğru fikir mühitində mümkünlüyünü bir ideya kimi meydana qoyur və şüurlara aşılayır. Beləliklə, Zərdüşt bütün bəşəriyyətin arzusunda olduğu xoşbəxtliyin Həqiqətdən keçdiyini (ibarət olduğunu), lakin bu Həqiqətin hər kəsin öz bildiyi kimi, düşündüyü kimi çox məzmunlu və formalı deyil, reallığı əks etdirən, insanlığın arzusunda olduğu xoşbəxtlikdən ibarət olmasına doğru idraki mərhələlərdən keçirib, son idrakı − Həqiqətin tam birmənalı metodunu açmaq mərhələsinə çatdırır.

Yuxarıda bəhs etdiyimiz kimi, Zərdüşt təliminin əsasında varlığın təməlində bir-birinə zidd fasiləsiz əbədi mübarizədə olan "iki əkiz gövhər"in mövcudluğunu göstərməsi dayanır ki, onlardan da dünyada mövcud olan bütün varlıq və yoxluq törəyir, yaranır. Həyatda mövcud olan quruculuq və dağıdıcılıq, məhvolma ən kiçik varlıqdan ən böyüyünə qədər hamısının başlanğıcdan nüvəsində yerləşən ziddiyyətdən, mübarizədən yaranır və ya məhv olur. Bununla bərabər həyatın digər varlıqları, təbiət qüvvələri arasında əbədi ziddiyyət və mübarizə onlardan birinin digəri üzərində qələbəsini, birinin artım və inkişafına, digərinin məhvinə gətirib çıxarır. Varlığın rüşeymində bu quruculuğu, yaradıcılığı və dağıdıcılığı kəşf edən Zərdüşt elə **təbiətin, cəmiyyətin, insan fəaliyyətinin özündən onda mövcud olan şər, dağıdıcı tərəfləri zəiflətmək, tabe vəziyyətə salmaq, yox etməklə insanların xoşbəxtliyini təmin edən həyatın harmonik durumunu qurmaq qanununu kəşf etdi.**

Zərdüşt göstərdi ki, insanlığın tərəqqisi və inkişafı, təsərrüfatların məhsuldarlığını insanların qarşılıqlı münasibətində, birgəyaşayışında, ailədə, soyda, xalqda, eləcə də onların təsərrüfatlarında, heyvandarlığında, əkinçiliyində, dövlət idarəçiliyində, dövlətin təbəəsinə münasibətində, eləcə də təbiətin digər predmetinə münasibətdə xeyir, doğru düşüncə və əməllə, bədxah düşüncə və əməlin, yalan və doğru düşüncə və əməlin, ədalət və ədalətsizliyin, qəzəb, kin və xoş münasibətin, **qarşılıqlı ziddiyyətdə olan və b. münasibətlərin səviyyəsi, hakim mövqeyi cəmiyyətin və təbiətin harmonik, yaradıcı durumunu müəyyən edir.**

Beləliklə, Zərdüşt həqiqətin, doğruluğun – yalanı, yaxşı, doğru və ağıllı düşüncənin, – pis düşüncəni, xeyrin – şəri, xeyirxahlığın – bədxahlığın, xeyir qüvvələrin – şər qüvvələri ram etdiyi, doğruluğun, düzgünlüyün hakim olduğu və b. **ziddiyyət təşkil edən yalan və şər qüvvələr üzərində hakim olduğu cəmiyyətin və təbiətin harmonik durumunu xoşbəxtliyi ehtiva edən Həqiqət kimi qiymətləndirirdi.**

Göründüyü kimi, Zərdüşt diqqəti ardıcıl olaraq "başlanğıcdan, dünyada ilk olaraq varlıq və yoxluğun təməlini qoyan, bir-birinə zidd olan iki əkiz gövhərin" quruculuq və dağıdıcılıq, xeyir və şər, yaxşı və pis və b. əməlləri, uğuru onların obyektə, predmetdə, insanın, ailənin, cəmiyyətin, təsərrüfatın, dövlətin tərkibində, bətnində, cismində iştirakı nisbətinə – kəmiyyət və keyfiyyətinə çəkir. Müqəddəs "Avesta" kitabında ardıcıl olaraq göstərilir ki, doğru, işıq, xeyirxah fikir və əməlin hakim olduğu bütün həyat sahələrində – təbiətdə və cəmiyyətdə quruculuq, abadlıq, xoşbəxtlik mövcud olur. Yalan, şər, bədxah fikir və əməlin hakim olduğu bütün həyat sahələrində haqsızlıq, dağıdıcılıq, səfalət, məhvolma, xarabazarlıq baş alıb gedir. Zərdüşt nəticə olaraq xüsusi vurğulayaraq diqqətə çəkir ki, doğru düşüncənin, xeyir və işıqlı fikrin, haqqın və ədalətin hakim olduğu yerdə yalan və şər, bədxah və dağıdıcı qüvvələr məhv olur, inkar edilir, həyat təbii təməlində ahəngdar tərəqqi və inkişaf edir, Xoşbəxtliyi özündə ehtiva edən Həqiqətə çevrilir; əksinə, yalan, bədxah, şər, dağıdıcı fikir və əməl hakim olduğu yerdə quruculuq, abadlıq, ədalət məhv olub, inkar edilir, həyat xarabazara çevrilir.

Yuxarıda gördüyümüz kimi, Urmiya hövzəsi Azərbaycan türkləri Azadlığını qoruyub yaşatmaq üçün varlıq qanununun dərk edilməsi zərurətini anladı. Bu məqsədlə fədakar, dönməz axtarışa başladı. O, ilkin olaraq varlığı yaradan tək Tanrı Ahura Məzda olduğunu dərk etdi. Ahura Məzda Urmiya hövzəsi Azərbaycan türklərinin Azadlıq ruhuna, onu dərk edib qiymətləndirməsinə cavab olaraq, onun ən intellektual nümayəndəsi, Həqiqəti bilmək üçün ehtizaza düşmüş Zərdüştə ilkin təkanı ilə bütün varlıqları yaradarkən

onun ruhuna verdiyi yaşam, inkişaf və dəyişmə qanunu "Avesta" kitabında vəhyi olaraq Zərdüştə göndərdi. Və ona varlığın "mahiyyətini", "həyat qanunlarını", "gizli dünya qanunlarını" bütün bəşəriyyətə çatdırmaq səlahiyyətli Peyğəmbərlik verdi. Bununla da Zərdüşt təbiətin, cəmiyyətin yalançı, şər, dağıdıcı qüvvələrini aşkarlayıb aradan qaldırmağın, onu harmonik, yaradıcılıq göstərəcək səviyyədə qurmaqla insanlara həqiqi xoşbəxtlik bəxş edəcək cəmiyyətin, təbiətin yaradılması qanunlarını kəşf etdi. Bu qanun Zərdüştün **uğurlu düşüncə, uğurlu danışıq, uğurlu əməl formulunda ifadə olunmuşdu.** Zərdüştün bu formulunun qismən də olsa ilkin − onun işlətdiyi mənada bizə gəlib çatmasına inanırıq. Lakin ayrı-ayrı tərcümə mətnlərində və tədqiqatlarda bu formul:

"yaxşı fikir, yaxşı söz, yaxşı əməl"
"uğurlu düşüncə, uğurlu söz, uğurlu əməl"
"yaxşı düşüncə, yaxşı söz, yaxşı əməl"
"xeyir fikir, xeyir söz, xeyir əməl"

"xeyir düşüncə, xeyir söz, xeyir iş" bədii olaraq isə "Həm fikirlə, əməllə, Həm də doğru deyilən Haqlı sözlə" (1, 39) formasında işlədilir ki, hamısı eyni məzmun ifadə etmir.

Sözsüz ki, Zərdüşt təliminin əsaslarından olan bu təlim fərqli məzmunu müxtəlif dillərə tərcümələr və tərcüməçilərin onu öz təfəkkürlərinə, dillərinə uyğunlaşdırması yaratmışdır. Zərdüştün bu formuluna yanaşmada ən ciddi nöqsan, yarıtmazlıq tədqiqatçıların bilməyərəkdən və ya bilərəkdən bu formulu "əxlaqi şüar" adlandırılmışdır ki, bu da Zərdüşt təliminin elmi və fəlsəfi mahiyyətinin bütünlüklə inkar edilməsidir.Yuxarıda bəhs etdiyimiz Zərdüşt təlimində məqsəd − "həyat qanunları", "gizli dünya qanunları" vasitəsilə Həqiqəti dərk etməkdir. Həqiqət isə varlığın bütün formalarında, predmetdə onun ilkin başlanğıcını və mövcudluğunu təşkil edən və daxilində ziddiyyətdə olan tərəflərin − element, hissə, yarımsistem və sistemdə yaradıcı və dağıdıcı, xeyir və şər, yaxşı və pis, yalan və gerçək, bədxah və xeyirxah, üzvi aləmdə qidalandırıcı və məhvedici tərəflərin nisbətinin real durumundan doğan, onların mübarizəsindən predmetdə gedən prosesin onu tərəqqi və inkişafa və ya ilkin əsası dağıdıb, onu birhaldan başqa hala keçirməyə doğru gedişini əks etdirən durumdur. Bütün maddi, sosial və mənəvi varlığın müəyyən tarixi dövrlərdə fərqli durumu ilkin başlanğıcda onu təşkil edən, yaratmış bir-birinə zidd tərəflərin onun daxilində müxtəlif dövrlərdəki fərqli mövqeyindən asılıdır.

Beləliklə, Zərdüştün vəhyi olaraq Tanrıdan öyrəndiyi varlığın yaranış və yaşam qanununu dərk etmək, qiymətləndirmək ondan doğru, düzgün isti-

fadə etməklə, varlığın bütün formalarının ruhunda olan dağıdıcı, şər, yalan, bədxah və s. pozucu tərəfləri aradan qaldırmaq və ya onları xeyirə, işığa, həqiqətə, doğruluğa, xeyirxahlğa və b. qurucu xeyirxahlara tabe vəziyyətə salmaqla Həyatı, həqiqi Xoşbəxtliyi ifadə edərək Həqiqət səviyyədə qurmaq yolunu göstərən “Od elmi”, “İşıqlı elm” və ya “Maq dini”dir.

Zərdüşt təlimindəki üçlü formul varlığın bütün formalarını eyni dərəcədə ehtiva edir. Belə ki, varlığın bütün formalarının və ya hər hansı predmetin durumunu müəyyən etmək üçün onun varlığını vermiş, yaratmış, onda qoşa doğulmuş ziddiyyətdə olan iki əkizin – əksliklərin mübarizəsi və vəhdəti nisbəti – kəmiyyəti, təsir gücü, keyfiyyəti, vəhdət yaradıcı və ya dağıdıcı tərəfin aparıcı mövqedə olub, digər tərəfi məhv – inkar etmədə olduğu prosesi ifadə edir. Nəzərimizcə, yuxarıda üçlü deyim formaları kimi bizə təqdim olunmuş formalardan **“uğurlu düşüncə, uğurlu söz, uğurlu əməl”** deyimi durumu öyrənilmək istənilən obyektin Həqiqi – elmi – fəlsəfi dərki üçün uğurludur:

a) belə ki, “uğurlu düşüncə” predmetin durumunu, onun mövcudluğunda qoşa – əkiz doğulmuş ziddiyyətdə olan tərəflərin səviyyəsinin, əksliklərin vəhdətdə – tarazlıqda olmasını, qurucu və ya pozucu tərəfin aparıcı mövqedə olmaqla, əksliklərin kəmiyyət və keyfiyyət durumunu, hansı tərəfin üstün prosesdə olmaqla inkaredici mövqedə olması prosesini ifadə etməli, göstərməlidir;

b) “Uğurlu söz” uğurlu düçüncəni olduğu kimi, bütün aydınlığı ilə ifadə etməlidir;

c) Uğurlu əməl isə uğurlu düşüncədə inikas olunan, uğurlu sözdə ifadə olunan reallığı qiymətləndirmə, predmetdə Həqiqət xoşbəxtliyi ifadə edən səviyyədədirsə, onu qoruyub yaşatmaq və inkişafına istiqamət vermək və ya predmetdə dağıdıcı şər tərəf üstün mövqedədirsə, üstün mövqe qazanmaq imkanına malikdirsə, xeyirxah, ağıllı, doğru fikir “Od elmi” – “İşıqlı elm” vasitəsilə onun mövqeyini zəiflətməyə, onu tabe vəziyyətə salmaq, məhv etməklə həyati xoşbəxtliyi ifadə edəcək Həqiqət səviyyəsinə çatdırmaq yolunda əməli fəaliyyətdir.

Beləliklə, Zərdüşt varlığın bütün formalarının yaşam, inkişaf, dəyişmə (məhvolma) gizli yaradıcılıq qanunlarını ehtiva edən “Od elmi”ni, onun dərk edilmə, tətbiq və yaddaşda qoruyub saxlama metodunu vəhyi olaraq Ahura Məzdadan **“Avesta kitabı vasitəsilə qəbul edib bəşəriyyətə təqdim etməklə, insanlığı gündəlik tələbatlarını çətinliklə ödəmək** səviyyəsində olan emprik biliklər səviyyəsindən çıxarıb, həyatın durumunda bütün dağıdıcı şər qüvvələri fəhm və dəf etməklə bütün sahələrini yüksək səviyyədə qurmaq,

yaradıcılıq göstərmək, gələcəyi fəhm etməklə Həqiqəti ifadə edən xoşbəxtliyin, yaradıcılığı yolunu, quruculuq metodunu bəşəriyyətin üzünə açdı.

Yuxarıda bəhs etdiyimiz kimi, Zərdüşt təlimini "Od elmi", "İşıq elmi", "maq elmi" adlandırır.

Peyğəmbərlər və müqəddəs kitabların nazil olması tarixindən göründüyü kimi, Tanrı hər bir xalqın intellektual səviyyəsinə, qarşısında duran həll etməli olduğu problemə, yolunu azmaqda olan xalqı haqq yola qaytarmaq üçün onun intellektual səviyyəsinə, həmçinin bu xalqın yetişdirdiyi zadəgan və liderin dərk etmə və anlama səviyyəsinə müvafiq olaraq kitab göndərir, haqq yolunu axtaran liderinə peyğəmbərlik verir. Yəni müqəddəs kitabların və peyğəmbərlərin də elmi və intellektual, idraki səviyyəsi fərqli olur (111; 112).

Yuxarıda ətraflı bəhs olunduğu Urmiya hövzəsi xalqı bəşəriyyətin Azadlıq Ruhuna, yaradıcı zadəgan təbəqəsinə malik ən intellektual xalqı olaraq bəşəriyyəti şər, dağıdıcı qüvvələrdən qorumaq məqsədilə **"həyat qanunlarını", "gizli dünya qanunları"nı** dərk etmə axtarışına çıxdı. Bu axtarışı prosesində yaradan tək Tanrının varlığını dərk etdi və Tanrıya qovuşdu. Tanrı − Ahura Məzda onun Həqiqət axtarışına cavab olaraq Urmiya hövzəsi xalqına **varlığın bütün formalarının yaranış, inkişaf və dəyişmə (məhv olma) qanununu** əks etdirən **"Avesta" kitabını göndərdi, onun zadəgan, ziyalı lideri Zərdüştə, bəşəriyyətə** "mahiyyət"i, "gizli qanunlar"ını öyrədəcək peyğəmbərlik verdi.

Zərdüştün atasının, anasının, 3 oğlu və 3 qızının adının mənbələrdə iz qoyması, mühafizə olunması, oğul və qızlarının dinini yaymaqda onun yardımçıları olması, böyük oğlunun hətta sülalə başçısı olması, bir oğlunun döyüşçülərinin, digər oğlunun ən böyük təbəqə kəndlilərin başçısı olması, Zərdüşt dinini ilk qəbul edən, dinini təbliğ etməkdə ona həmişə yardımçı olanlardan birinin əmisi oğlu olması, ərəb mənbələrində Zərdüştün 15 nəsil şəcərəsi haqqında məlumat, mənbələrdə Zərdüştün din yaradıcısı, dini başçı olmaqla bərabər döyüşçü, sərkərdə, dövlət başçısı kimi xatırlanması da onun maqların yaradıcı irsi elitasından olmaqla böyük soya mənsub olmasının göstəricisidir (105, 91-11).

Urmiya hövzəsi müdrikləri "həyat qanunlarını, "gizli dünya qanunları"ndan ibarət "Od elmi" xalqların tarix səhnəsinə çıxmasının ikinci mərhələsində, tarix səhnəsinə çıxan yeni xalqların Şumerləri asanlıqla məhv edib, Urmiya hövzəsini dörd tərəfdən fasiləsiz qarətkar hücumlarla mühasirəyə aldıqları, fasiləsiz müharibə şəraitində kəşf etməklə Vətənlərini və Bəşəriyyəti dağıdıcı şər qüvvələrdən xilas etmək missiyasını üzərlərinə götürmüşdü.

Odur ki, Urmiya hövzəsi xalqın lideri Zərdüşt "həyat qanunları"nı, "gizli dünya qanunları"nı kəşf etməklə bəşəriyyəti dağıdıcı şər qüvvələrdən qorumaq yollarını axtaran bəşəri lider olmaqla bərabər xalqını müharibəyə qarşı səfərbər etməklə Vətəninin müdafiəsini təşkil edən xalq lideri idi. Bu, "Avesta"da özünü bütün aydınlığı ilə göstərir. Zərdüşt yeri gəldikcə xalqını təsvir və tərənnüm edir.

"Avesta" kitabından göründüyü kimi, Zərdüşt öz təlimində xalqın inam və etiqadına, adət-ənənəsinə, yaddaşına xüsusi önəm vermişdir. XX əsr ictimai elmi ibtidai cəmiyyətin mənəviyyatında nəyi başa düşməyibsə, onu etiraf edib, diqqətə çatdırmaq əvəzinə onu mif adlandırırlar, marksizm-leninizm isə siyasi məqsədlə, bilərəkdən mənəviyyat qanunlarına qarşı yönəlmiş anti-elmdən başqa bir şey deyildir. Odur ki, postsovet məkanında ictimai elm adlanan sahənin hamısı anti-elm olmaqla insanlara, xalqlara mənəviyyat qanunlarını unutdurmaqla, onları tarixi yaddaşını unutdurub, assimilyasiya edib ruslaşdırmaq, bu mümkün olmaqığı təqdirdə onları fiziki iş adamına çevirmək məqsədi güdürdü. Bu məqsədlə xalqların tarixinin ibtidai-icma quruluşundan, mənlik şüuruna − xalqlaşmaya keçid mərhələsi, xalqların ilkin təşəkkülü mərhələsi dünyagörüşü başlıca olaraq − mif (yalançı, uydurma təxəyyül) kimi izah olunmuşdur. Ölümündən 30 ildən artıq keçməsinə baxmayaraq, yetmiş il dünyanın 6/1-ni kommunizm mifi ilə idarə etmiş rus imperiyası rəhbərliyi və onun yerli əlaltıları hələ də bu idarə üsulunun həqiqi forması haqqında heç bir izahat verməmişdir (sovet dönəmində paralel iki qanun var idi. Xalqa elan olunan "qanun" və "tamamilə məxfidir" qrifi ilə respublika və yerli rəhbərliyə göndərilən qərar və tapşırıqlar).

Avropa ictimai elmləri "Avesta" − Zərdüşt təliminin avropa mərkəzçilik ideyasına uyğunlaşdırır, sovet "ictimai elmləri" isə onun bütün elmi müddəalarını mifləşdirmişdir. Bu sahədə imperiyanın "azərbaycanlı" adı altında xalqımıza yetişdirdiyi "elm müqəvvələri" − elmlər doktorları, professor və akademiklər xalqımızın təməl mənəvi əsaslara söykənməsinə imkan verməmişlər.

Odur ki, gələcək nəslin mənəvi əsaslarımızla qırılmış mənəvi əlaqəsini bərpa etmək üçün "Avesta" kitabı − Zərdüşt təlimi tam elmi idrak metoduna dayanan yeni nəsil tədqiqatçısını gözləyir.

Xalqımızın mənəviyyat dünyasının əsasları − inam və etiqadları marksist ideologiyasının təsirindən hələ qurtarmamış müasir ictimai elm nümayəndələrinin iddia etdikləri kimi bütünlüklə təsadüfi, əfsanə fikir və mülahizələrdən ibarət olmayıb, dövrün mənəvi-psixoloji tələblərini özündə ehtiva edən həqiqətlərdir.

Zərdüştün bir mütəfəkkir kimi xalqının şüuruna, təfəkkürünə aşılamaq istədiyi ideyanı haradan, necə başlamağı düzgün müəyyənləşdirməsi, onun dünyanın vahid inkişaf qanununa malik olmaqla yaradanın − Tanrının da tək olması, təkallahlığa keçid ideologiyasını yaratmaq və xalqının hakim ideologiyasına çevirməkdə düzgün seçilmiş metodun rolu onun uğurunda başlıca yer tutmaqla − **uğurlu fikir, uğurlu söz, uğurlu əməl − üçlü nəzəriyyəsini də doğurmuşdur.**

Yuxarıda ətraflı bəhs olunduğu kimi, allahları, inam və etiqadları, mədəniyyəti əsasən ümumbilik təşkil edən Şumerlərin Urmiya hövzəsi xalqın gözü qarşısında ölməsi − su kimi buxarlanıb yoxa çıxması onlara "gizli dünya qanunları", "həyat qanunları" olmasını və bu qanunların dərk edilməsi zərurətini anlatdı.

**Zərdüştün "gizli dünya qanunları"nın, "həyat qanunları"nın − tək yaradan Ahura Məzda olmasını, xalqının odun qoruyucu, xilaskar missiyasına inamından, ona etiqad sistemindən hasil edib, Günəşin simvolu kimi şüurlara aşılaması onun ideyasının təməl əsaslarıdır ki,** bu əsaslar insanlığın ilkin inam və etiqadlarından doğulub təhtəlşüurda əbədi yaddaş kimi mövcudluğu xalqların tərəddüdlərini asanlıqla aradan qaldırıb onu Zərdüşt ideyalarına, Ahura Məzdanın tək yaradan olmasına inandırdı. Şumerlərin ölümündən sonra dünyada təklənmiş, dörd tərəfdən amansız hücuma məruz qalmış xalqının onun şəxsiyyəti və ideyaları ətrafında Vətənin müdafiəsinə səfərbər etdi.

Zərdüşt doğma xalqını Şumerlərin taleyi ilə üzləşməyib, doğma Vətəndə Xoşbəxtliyi ehtiva edən Həqiqəti yaşamaq istəyiriksə:

Məskənimizi tərk etməyək,
Evimizi tərk etməyək,
Kökümüzü tərk etməyək,
Tərk etməyək xalqımızı,
Hamısını qoruyaq,
Güclü qollarımızla −

**Bizə dost olmayanlardan (1, 100)** – deyə xalqını düşmənə qarşı səfərbər edir, onu Şumerləri məhv edən unutqanlıq və yaddaşsızlıqdan qorumaq üçün Ahura Məzdaya dua edərək deyir:

Kim dua edir Günəşə,
Ölməz İşığa, –
Kimin ki
**Atları sürətlidir,**
**Qaranlıqda döyüşmək üçün.**
Zülmətdən doğulmuş
Divləri dəf etmək üçün.
İfritlərlə, cadugərlərlə
Döyüşmək üçün.
Həlak olmaqdan qorunmaq üçün.
Unutqanlıqdan,
Yaddaşsızlıqdan
qorunmaq üçün.
O, dua edir Məzdaya,
Ölməz Müqəddəslərə.
Öz ruhu ilə.
Yazatlar əzizlər –
Yerdə olanları, göydəkilər,
Kim ki dua edir Günəşə,
Ölməz İşığa –
**Kimin ki, atları sürətlidir** (1, 73).

"Od elmi" – "İşıq elmi" Vətənin və xalqın xoşbəxtliyini təmin etmək üçün ilk öncə o, psixi-mənəvi cəhətdən sağlam, kökünə və dəyərlərinə bağlı olmaqla, ruhunda həyatın yaradıcılıq qanunlarını yaşadıb, ona qarşı yönəlmiş şər, işğalçı qüvvələrə qarşı mübarizə etməli, zəruri olanda barışmaz müharibə aparmaq vacibliyinin qanuniliyini öyrətdi. Beləliklə "Od elmi" – Zərdüşt dini Urmiya hövzəsi xalqına tarix səhnəsinə xalqların çıxmasının ikinci mərhələsində dünyanın ona qarşı açdığı müharibəyə qarşı səfərbərliyinin, təşkilatlanmanın, müharibənin ideologiyası oldu.

Ahura Məzdanın vəhyi olaraq "Avesta" kitabında bildirdiyi, həyat hadisələrinin göstərdiyi kimi, ziddiyyətlər tərəflərin mövqeyindən asılı olaraq ya tənzimlənir, ya da dağıdıcı, məhvedici hadisələr törədir, uzun müddətli müharibələr son nəticədə xeyirin şər üzərində qələbəsi ilə nəticələnir. Müharibə – xeyirlə şərin mübarizəsi, həyat qanunu kimi özünü göstərir. Qəti əminliklə deyə bilərik ki, "Avesta"da təsvir olunan, bəhs olunan həyat qanunları, müharibələr, müharibə haqqında ideyalar e.ə. III minilliyin sonu – II minilliyin başlanğıcında Urmiya hövzəsi xalqın tarix səhnəsinə çıxan yeni xalqla-

rın təcavüzünün dəfi prosesində yaranmışdı. Urmiya hövzəsi zadəganları və Zərdüşt tarix səhnəsinə çıxan yeni xalqların Vətənləri üzərinə dörd tərəfdən amansız hücumlarının dəf edilməsinin təşkilatçısı, iştirakçısı olaraq "gizli dünya qanunları", "həyat qanunları"nı və müharibə qanunlarını kəşf etdilər. "Avesta" kitabında müharibəni törədən səbəblər, ordunun təşkili, əsgər və silah təchizatı, döyüşün strategiya və taktikası, qələbə və məğlubiyyəti doğuran səbəblərdən bu gün də əhəmiyyətini itirməyəcək səviyyədə bəhs olunmuşdur. Xalqların Azadlığını qoruyub yaşatmaqda, müharibədə qələbəsində at Ahura Məzda ruhu kimi tərənnüm olunur:

Aparır bu arabanı
Əbədi ruh olan.
Dördü də əbədi ruh ilə
Ağ rəngli dörd sürətli at.
Ön dırnaqları
Örtülmüş qızılla,
Arxası gümüşlə,
Sıxılmış dördü də
Bir boyunduruqda (1, 119).
**Ahura Məzda söylədi**
Spitama Zərdüştə:
Dua et doyuzduran ilxıya (1, 36).
Xeyirxah Ərdiv Surə,
Elə uğur ver mənə.
Sahib olum...
Həm də doğan atlara (1, 68).
Dua et Ona, ey Spitama...
Dörd ayğır yaratdı –
Ahura Məzda:
O atlar yağışdır,
O atlar Külək.
O atlar Doludur,
O atlar Bulud (1, 66).
Dua et Ona, ey Spitama...
Gətirirlər Ona,
Eyni cinsdən olan –
Dörd ağ hündür ayğırı.
Qalib gəlmək üçün –
İnsanlar və divlərə

Sürətli arabaları,
Cəlb edib komandanları,
Aparırlar əsgərləri.
Kimin ki atları sürətlidir,
Nizələri uzun, iti,
Uçur oxlar uzaqlara
Qabaqdan və arxadan,
Həm də əzir düşmənləri.
O kəslər, gözəl Aşi...
...Mənim arxamda ol, Aşi,
Zəngin, qüdrətli Aşi (1, 155).
Dua edirik biz,
Günəşə, Ölməz İşığa –
**Kimin ki, atları sürətlidir.**
Haçan Günəş işıq saçır,
Haçan günəş isidir,
Durar mələklər,
Hamısı yüz minlərlə
Səadəti seçərlər –
verərlər,
Xoşbəxtlik bağışlarlar,
Məzdanın yaratdığı
Yerə,
Dünyanın tərəqqisi üçün
Həqiqətin böyüməsi üçün (1, 72)
Dua edirəm hər gün –
Xoşbəxtlik üçün.
Dua edirəm uca səslə.
Ölməz Günəşə,

Arasında olan ədavətə.
Qalib gəlmək üçün
İfritlərə, Cadugərlərə,
Kavi tiranlarına,
Zalım karapanlara (1, 39).
Möhtəşəm qəhrəmanlar,
Qoy səndən istəsinlər,
Qüdrəti və uğuru,
Ən sürətli atları (1, 57).
Onların atları
Kişnər ucadan,
Uçar səsləri ənginliklərə.
Kimin ki,
Atları sürətlidir.
Dua edirəm,
Ölməz İşığa,
Kimin ki,
Atları sürətlidir.
Necə ki ən yaxşı Tanrı − yazat.
Dua və tərif, qüdrət və güc
İstərəm Ölməz Günəşə −
parlaq, sürətli atları olana.
Həqiqət − ən yaxşı xoşbəxtlikdir (1, 74).

"Avesta"da dumanlı zülmət gecədə yerdəki ağ tükün atın quyruğundan, yoxsa yalmanından olmasını seçən dözümlü, möhkəm bədənli, qəşəng, qızılı qulaqlı, qızılı yüyənli ağ atlar, qabaq ayaqları qızılla, arxa ayaqları gümüşlə nallanmış, külək kimi, bulud kimi uçan, yağış, dolu kimi yağan sürətli atlar (1, 60, 119, 132, 138, 140). Həqiqəti ifadə edən xoşbəxtliyi qurmaq uğrunda mübarizə aparan − döyüşən xalqın birinci aləti − vasitəsi idi. Odur ki, Ahura Məzda Zərdüştə belə atlara malik olmaq üçün ona dua etməsini tövsiyyə edir:

Ahura Məzda söylədi:
Dua et doyuzduran ilxıya (1, 36).
Xeyirxah Ərdiv Surə,
Elə uğur ver mənə −
Sahib olum...
Həm də doğan atlara (1, 68).

"Avesta" boyu Zərdüşt belə "doğan" − süd verən (X.X.) atları onlara verdiyi üçün Tanrıya və onun friştələrinə (mələklərinə) dua etməsi görünür.

Zərdüştün "həyat qanunları", "gizli dünya qanunları" − dini təlimini kəşf etməsi və xalqına aşılaması, Urmiya hövzəsi xalqın Vətəninin tarix səhnəsinə yeni çıxan xalqların təcavüzünə qarşı amansız müharibə şəraitində gedirdi. Odur ki, "Avesta" kitabında varlıq qanunları, müharibə və atla bağlı mülahizələr Ahura Məzdanın vəhyi və Zərdüştün mülahizələrinin sintezindən yaranmışdı. "Avesta" kitabında tərənnüm olunan "atları sürətli", "Həqiqəti böyütmək (vəhyi Od elmini, Zərdüşt dinini − X.X.) üçün" (1,72) döyüşən, qələbə arzu olunan xalq Urmiya hövzəsi xalqdır. "Avesta" boyu

Urmiya hövzəsi xalqı "sürətli atlara" malik olmaqla "doğru fikri, doğru sözü, doğru əməli" yayan xalq olduğu üçün Ahura Məzda onlara birbaşa, friştələri və Zərdüşt vasitəsilə yardımından bəhs olunur (1; 105).

Urmiya hövzəsi xalqı düşmən üzərinə külək kimi, bulud kimi əsən, yağış, dolu kimi yağan, dumanlı gecədə yerə düşən ağ tükün atın quyruğundan, yoxsa yalmanından olmasını seçən, möhkəm bədənli, dözümlü atlar yetirən, xalqı əti və südü ilə doyuzduran, qurban mərasimlərində, xüsusən qələbə mərasimlərində yüz ayğır, min inək, saysız qoyun kəsilən ən qədim və qədim dövrdə atı əhliləşdirən, "atlılar xalqı" adlandırılırdı (1; 115. 124-125; 116, 81-85).

Tarixin hələ ən qədim çağlarında dünya xalqlarının heç birində olmayan bənzərsiz döyüş atları yetişdirən, həm də atın əti və südü ilə qidalanan xalqın türk olmasının əlavə izahına ehtiyac duymuruq.

Mənbələrin qoruyub saxladığı, tədqiqatların hərdən oyadıb yenidən canlandırdığı, yaddaşlarda bərpa etdiyi bu məlumatın həqiqiliyini arxeologiya elmi birmənalı sübut etdi. Arxeoloji tədqiqatlar aşkarladı ki, Azərbaycan xalqının əcdadları e.ə. V minilliyin sonu − IV minillikdə atdan istifadə edən yeganə xalq olmuş, onun ilk ocağında Urmiya hövzəsi, Kür-Araz ovalığı Avrasiya materikində atçılığın ilkin vətənidir (117, 153-154, 174; 118, 20-24).

Tarix səhnəsinə çıxan etnosların Urmiya hövzəsi xalqa qarşı apardıqları müharibələrin əsas səbəblərindən biri xalqın qəhrəmanlıq ruhunun yaranmasında güclü təsirə malik, müharibədə qələbənin əsas təminatçısı döyüş atları əldə etmək olmuşdur (115, 124-125; 116, 82-85).

Mənbə və tədqiqatlar göstərir ki, Mesopotomiya və digər Kiçik Asiya − ilk sivilizasiya yaradıcıları kimi ölkələrinə atı Azərbaycandan aparmışlar. Azərbaycanın Urmiya hövzəsi və Kür-Araz ovalığı Nisey-Qarabağ atları Ərəb və Axal-Təkə minik atlarını, XVIII əsrdə xüsusi seleksiya ilə yetişdirilən təmiz qanlı ingilis minik cinsinin sələfidir. Urmiya hövzəsi Azərbaycan türkləri atı ilk əhliləşdirən və ona ən yüksək keyfiyyətləri aşılayan, atlılar xalqı olmaqla tarixdə ilk süvari − nizami ordunun da yaradıcılarıdır (115; 116; 117; 118; 119; 120).

Atların Urmiya hövzəsi Azərbaycan türklərinin məişətində və müharibədə funksiyası bütün incəliyi ilə əks olunan "Avesta" kitabında:

Aparır bu arabanı
Əbədi ruh olan.
Dördü də əbədi ruh ilə
Ağ rəngli dörd sürətli at...
Dünyanın tərəqqisi üçün,

Həqiqətin böyüməsi üçün (1, 72, 119) **sözləri təsadüfən deyilməmişdi.** İstər Urmiya hövzəsi xalqın üzərinə min ildən artıq davam edən qarətkar hərbi hücumların dəf edilməsində, dövlət müstəqilliklərinin qorunmasında və istərsə də Zərdüşt dininin yayılmasında yetişdirdikləri atlar bu xalqın qəhrəmanlıq və döyüş ruhunun ayrılmaz hissəsinə çevrilmişdi. Odur ki, "Avesta" kitabında Zərdüşt dini vasitəsilə yaradılan tərəqqinin, Həqiqətin yayılmasının əbədi ruhu kimi tərənnüm olunurdu.

Yuxarıda ətraflı bəhs olunduğu üzrə Zərdüşt dini digər təkallahlı dinlərdən fərqli olaraq Tanrının toplumlarının intellektual səviyyəsinə uyğun onları mənəviyyat qanunlarına zidd əməllərdən ayırmaq üçün göndərdiyi, əsasən, əxlaqi dəyərlərdən ibarət bir din deyil, həyatı bütövlükdə şər, dağıdıcı, yalançı və b. pozucu qüvvələrdən təmizləyib, onu yenidən qurmaq üçün Urmiya hövzəsi xalqın ona "həyat qanunları"nı, "gizli dünya qanunları"nı öyrətmə xahişinə cavab olaraq Ahura Məzdanın vəhyi olaraq "Avesta" kitabında Zərdüştə verdiyi bütün varlığın yaranış və məhvolma qanunu idi ki, onun da tərkibində mənəvi əxlaq qanunlarının yaradıcı və məhvetmə metodları bütün incəliyi ilə göstərilmişdir.

"Avesta" təlimində həyatın gizli yaranış və məhvolma qanunlarını özündə ehtiva edən "Od elmi" − "İşıqlı elm" Urmiya hövzəsi xalqın milli-dini ideologiyasına çevrildi. Məhz bu elmi ideologiya Urmiya hövzəsi xalqı tarix səhnəsinə çıxan yeni xalqların təcavüzünə qarşı onları səfərbər etdi, düşmənin dəf edilməsinin mənəvi və maddi resurslarının yaradılmasını təmin etməklə onun üzərində qələbə çalmağa imkan verdi. Xalqların yaranmasının ikinci mərhələsində tarix səhnəsinə çıxan Babil, Assur, Urartu, Mitana və b. dünya ziddiyyətlərinə, xalqlar arası mübarizəyə davam gətirə bilməyib, dövlətləri ilə birlikdə məhv olub tarixin yaddaşına keçdiyi halda Urmiya hövzəsi xalq mərkəzləşmiş dövlət quruculuğuna nail oldu.

Ahura Məzda tərəfindən vəhyi olaraq Zərdüşt, "Avesta" kitabı vasitəsilə bəşəriyyətə çatdırdığı yaradıcılığın və dağıdıcılığın səbəbləri, onu dərk etmək və istifadə etməklə həyatda mənfi − dağıdıcı qüvvələri aradan qaldırmaqla həyatın xeyir, quruculuq istiqamətində tərəqqi və inkişafını təmin etmək elmi, qanuni idi. Tarix, həyat göstərir ki, "Avesta"da göstərildiyi kimi, bu qanunları insanların hamısı deyil, "anadangəlmə ağıl" (1, 151) sahibləri dərk edir. İlk dəfə "Avesta"da Zərdüşt peyğəmbərin dediyi bu fikri XIX əsrin ikinci yarısında Avropa – F.Engels "Nəzəri təfəkkür yalnız qabiliyyət şəklində anadangəlmə bir xassədir" formasında təkrarladı.

"Anadangəlmə ağıl" sahibləri xalqlarda, cəmiyyətdə ziyalı, zadəgan kimi qiymətləndirilən bir təbəqə kimi görünürlər. Urmiya hövzəsi xalqda ye-

tişmiş olan bu ziyalı-zadəgan təbəqə Zərdüşt təlimini dərk edib, qəbul edib "yeni din" kimi xalqın şüuruna aşıladılar.

Bilərəkdən və ya bilməyərəkdən din və elm − fəlsəfə bir-birinə qarşı zidd sahələr kimi göstərilmişdir. Həmçinin elmin ilahiyyat və dünyəvi elm kimi bölgüsü varlığın obyektiv dərkinə qarşı yönəlmiş əməldir. İlahiyyat elmi iddiaçılarının başında nadan, nəzəri təfəkkürdən məhrum, özünü din adamı, dini başçı kimi cəmiyyətə sırımış, dindən şəxsi məqsədlər üçün faydalananlar; ikinci tərəfin başında isə mənəvi − mənəviyyat qanunlarını dərk etməyənlər və ya mənəviyyat qanunlarını cəmiyyətdən gizləyənlər, dinin təsir gücündən qorxan, həmçinin dindən siyasi − ideoloji məqsədlərlə istifadə edən siyasətçi və dövlət başçıları durur. XX-XXI əsrlərdə dövləti dini dövlət adlandıranların ölkədə dini siyasi inhisara almaqla onu mahiyyətinə zidd mənəvi, psixoloji, ideoloji-siyasi vasitəyə çevirdiyi bütün aydınlığı ilə görünür.

Həqiqət isə bundan ibarətdir ki, hər ikisi Tanrı tərəfindən yaranışdan varlığın ruhuna qoyulan əbədi yaşam qanunlarıdır. Toplumların inkişafının müəyyən mərhələsində üzləşdiyi, lakin həll edə bilmədiyi problemlərə yardımçıı olmaq məqsədilə Tanrı tərəfindən onların intellektual səviyyəsinə uyğun vəhyi olaraq **din − qanunlar** və onun xalqa aşılanması üçün peyğəmbər göndərilmişdir. Din tarixindən göründüyü kimi, Yəhudi, Xristian və İslam dinləri göndərildiyi xalqların başlıca olaraq əxlaq problemini həll etməli olduğundan onlara göndərilən din kitablarında əxlaq qanunlarına üstünlük verilmişdir. Lakin Urmiya hövzəsi xalqın əxlaqi cəhətdən hər hansı çatışmazlığı yox idi, onlar "gizli dünya qanunları"nı, "mahiyyəti" qanunları öyrənməklə dünyanı şər, dağıdıcı, yalançı və b. mənfi qüvvələrdən təmizləməklə insanlığın həqiqi xoşbəxtliyini təmin edən qurucu, yaradıcı qanunları bilmək istəyirdilər və bu məqsədlə fədakar mübarizəyə başlamışdılar. Odur ki, Tanrı Urmiya hövzəsi xalqın intellektual səviyyəsinə və həll etmək istədiyi problemə uyğun ona bütövlükdə **"varlıq və yoxluğu"n nədən ibarət olmasını və onun həlli üslubunu ehtiva edən "Avesta" kitabını göndərdi və onun izahı üçün Zərdüştə peyğəmbərlik verdi. "Avesta" kitabından "Od elmi" − "maq dini"ni, varlığın əbədi yaşam, inkişaf və dəyişmə (məhvolma) qnununu özündə ehtiva edir. Sonralar fəlsəfənin vəhdətdə olan üç qanunu kimi qiymətləndirilən bu qanunlara filosoflar tərəfindən yeni heç nə əlavə olunmamışdır.** Tədricən fərdlərin, cəmiyyətin intellektual inkişaf səviyyəsi ilə bağlı bu qanunların fəaliyyət mexanizminin dərk olunma metodları yeniləşmişdir ki, bu da elmi və ya fəlsəfi nəzəriyyə anlayışı ilə ifadə edilmiş və edilməkdədir.

Müqəddəs vəhyi kitablar ruhi yaradıcılıq, mənəvi qanunlar və mənəviyyat qanunlarından bəhs edir ki, tarixdə bu qanunları başa düşən alimlər çox az olmuşdur. Odur ki, camaat kimi din xadimləri də dinin izah edilməz, toxunulmaz inam və etiqaddan ibarət olmasının təbliğatçısı olmuşlar. Tarixdən məlum olduğu üzrə insanlıq varlığın dərk edilməsini din anlayışı ilə başa düşməyə, izah etməyə çalışmışlar. Dünyanın dərki haqqında bu baxışlarını əbədi qanunlar kimi qiymətləndirmişlər. İnsanların ilkin inam və etiqadında hər şeyin yaradıcısı Allah idi. Hər bir varlığın da öz Allahı var idi. **Tarixin müəyyən mərhələsində insanlar özləri yaratdıqları bu inam və etiqadlar onlarda şübhə oyatdı.**

Zərdüştün bir şəxsiyyət, dahi, peyğəmbər kimi böyüklüyü ondadır ki, insanlığın yaratdığı inam və etiqadlarda şübhədən istifadə edərək Allahın çoxluğuna inamı aradan qaldırdı, yaradanın − Tanrının varlığına və onun təkliyinə inandırdı. Tanrı Ahura Məzdanın vəhyləri ilə insanlığı yaradıcılığa, quruculuğa səfərbər etməklə varlığın yaranışdan ruhunda olan yaşam qanunlarını insanların şüuruna, təfəkkürünə təlqin etdi; onun din kimi müqəddəsliyini, inam və etiqada çevrilməsini təmin etdi. Yaranışdan, ilkin dərk edilməsində olduğu kimi, vəhyi olaraq bildirildiyi kimi tarixin bütün mərhələsində, varlığın yaşam qanunu müqəddəs olmuş, bu gün də müqəddəsdir. Varlığın bütün formasında ona etinasızlıq, predmetdə tarazlığın pozulması ilə özünü göstərir.

Zərdüşt − maq dininə inam onun prinsiplərinin rəhbər tutulmasında özünü göstərirdi. Yuxarıda ətraflı bəhs edildiyi kimi, uğurlu düşüncə, uğurlu danışıq, uğurlu əməl bu dinin − elmin əsas prinsipləri idi. Yəsnanın 19-cu bəndində Zərdüşt dininin üç müddəası hər biri aşağıdakı kimi izah edilir, mənalandırılaraq deyilir: "Uğurlu düşüncə nədir? − İlk öncə pak davranış. Uğurlu söz nədir? − Müqəddəs kəlam. Uğurlu Əməl nədir? − Müqəddəs yaranmışları üstün tutaraq onlara sitayiş etmək" (105, 31).

Zərdüşt dininin daşıyıcıları 12-ci Yəsna oxunduqda bu dinin üç prinsipinə inandığına, onlara riayət etməyənlərin əleyhinə mübarizə aparacaqlarına and içərək deyirdilər: "Mən etiraf edirəm ki, inamlı ürəkdən inanan Məzdapərəstəm. Mənim uğurlu düşüncəyə, uğurlu sözə və uğurlu əmələ inamım var" (105, 30).

Mənbələrdən göründüyü kimi, Urmiya hövzəsi xalqın intellektual səviyyəsi yuxuyozan, kahin, ibtidai din tərəfdarlarının iradəsini asanlıqla qırıb, Tək Tanrı − Ahura Məzda haqqında Zərdüşt dinini − "varlığı və yoxluğu yaradan" elmi ölkədə hakim ideologiyaya çevirməklə Vətənlərini, azadlığını, xalqların müstəqilliyini təmin etdilər.

Ahura Məzdanın vəhyləri ilə yaranan “birinci din”, “doğru din”in sayəsində Urmiya hövzəsi ölkənin əminamanlığı “Avesta” kitabında aşağıdakı kimi tərənnüm olunur:

Alqış sənə, Hvarno –
Qüdrətli kavilərin!
Alqış sən, Arianam Vaya,
Alqış Məzdanın verdiyi xoşbəxtliyə!
Eşq olsun,
Datinin (Arazın) sularına!
Eşq olsun,
Ərdivin pak sularına!
Alqış abad dünyaya!
“Necə ki, ən yaxşı Tanrı...” (on dəfə)

“Həqiqət – ən yaxşı xoşbəxtlikdir...”
(on dəfə)
“Dua et Ona, ey Spitama...”
Ona qurban gətirdi,
Süvari Zarivari.

Dati (Araz) sularının
Kənarında, önündə
Yüz ayğır kəsdi, min inək,
Qoyunların sayı yox,
Qanları axdı seltək (1, 29, 64).

Zərdüşt dini qələbə çalan hər yerdə şəhərdə, dağda, meşədə, hətta mağarada qələbə şərəfinə yüz ayğır, min inək, saysız qoyun qurban kəsilir. Qurbanlıq mərasimi keçirilən yerlərin bircə adı göstərilir, Araz sahili yeganə ərazidir ki, onun hər tərəfində, önündə qurbanlıq mərasimi keçirilməsi xüsusi tərənnüm olunur. Təbii ki, bu da Zərdüştün doğma vətəni olması, əhalinin Zərdüşt dinini könüllü qəbul etməsi və bu dinin gətirdiyi əminamanlıqa bağlıdır.

**Hörmətli oxucu, tədqiqatımızın məqsədi** – Zərdüşt dininin mahiyyətini açmaq, onun etnik-milli mənsubiyyətinə aydınlıq gətirməkdir. Odur ki, kommunist rus imperiyası tərəfindən baş-ayaq qoyulmuş mənəviyyat tariximizin bütün məsələlərindən deyil, tədqiq etdiyimiz problemlə bağlı məsələlərə toxunmaqla kifayətlənəcəyik. Mədəniyyət dilənçisi xalqların “alimləri”, kommunist rus imperiyasının xalqımıza yetişdirdiyi “ictimai elm” müqəvvaları (elmlər doktoru, professor, akademik, əməkdar elm xadimləri) Zərdüştün Urmiyadan Savalan dağı, Araz çayı sahilinə getməsini (Azərbaycanın qərbindən şərqinə getməsini) İranın qərbindən şərqinə getməsi kimi yazmışlar ki, həmin dövrdə tarixdə İran anlayşı yox idi. Bu haqda aşağıda bəhs edəcəyik. Din tariximizdən göründüyü kimi, Tanrı vəhyi dinləri ayrı-ayrı xalqların sosial inkişaf və intellektual səviyyəsinə uyğun üzləşdiyi zəruri – həll edilməli problemlə bağlı olsa da, bu dinlərin hamısı bəşəri xarakter daşıyır. Bu səbəbdən Yəhudi, Xristian və İslam dinləri toplumları cahiliyyə səviyyəsindən qoparmaq, ayırmaq məqsədi ilə göndərildiyindən,

bu dinlərdə əxlaq qanunları üstünlük təşkil edir. Lakin Zərdüşt dini Urmiya hövzəsi xalqın − cahiliyyə mərhələsini keçmiş, özünü tənzimləyən əxlaqi − mənəvi dəyərlər, qanunlar yaratmış, yüksək intellektə, sosial təbəqələrə malik xalq olaraq onun "həyat qanunları"nı, "gizli dünya qanunları"nı öyrənməklə "dünyanı yenidən qurmaq" arzusuna, axtarışına cavab olaraq Tanrı onlara bütövlükdə "varlıq və yoxluğun" əbədi inkişaf, tərəqqi və dəyişmə (məhvolma) qanunlarını, bu qanunların külliyyatını ehtiva edən "Avesta" kitabını göndərdi. Zərdüşt dini − "Od elmi" Urmiya hövzəsi xalqın intellektual səviyyəsinə, mənəvi, psixoloji − ruhi yüksəlişinə təkan verməklə ona qarşı yönəlmiş hərbi hücumları dəf etmək üçün səfərbər olmağa, təşkilatlanmağa imkan verdi. Vətəninin və xalqının müstəqilliyini qoruyub yaşatdı, ölkəsində əminamanlığa nail oldu.

Yuxarıda ətraflı bəhs olunduğu üzrə **Zərdüşt, tək Tanrı Ahura Məzdanı doğma xalqının vətənindəki əbədi sönməz odun xilaskar, qoruyucu missiyasından hasil etdi.** Elə bu səbəbdən də Urmiya hövzəsi xalqın təkallahlığa keçidi digər xalqların təkallahlığa keçidindəki kimi müqavimətlə qarşılanmadı. Zərdüşt "Avesta" təlimində insana məxsus ağlı, biliyi, işıqlı yaradıcılığı Tanrının keyfiyyəti hesab edirdi ki, bu da cəmiyyətdə ağıllı, müdrik insanların fərqləndirilib qiymətləndirilməsini şüurlara aşılayırdı. Zərdüşt təlimində ağıl, zəka bir yaradıcı olaraq Günəşin, Məzdanın simvolu kimi çıxış edir, "ağıllı adam həyatın hakimi" kimi qiymətləndirilir, onlara yardımçı olmaq üçün Ahura Məzdaya dua edir (1, 151; 105, 41, 43, 45-46).

Xalqın inam və etiqadında xilaskar və qoruyucu kimi inikas edən vətənindəki əbədi yanar odlar Zərdüşt təlimində tək yaradan Tanrı − Ahura Məzda kimi stimullaşdığından Urmiya hövzəsinin bütün əbədi yanar odları Zərdüşt dininin ziyarətgahına çevrilir. Əbədi yanar odlarda Məzda, Zərdüşt dininin şərəfinə məbədlər tikilir. Urmiyada Zərdüştün doğulduğu Şiz şəhərindəki əbədi yanar odda tikilən məbəd Zərdüştün şərəfinə, Zərdüşt dininin baş məbədi elan edildi. Şiz şəhəri əbədi yanar od məbədi Mütləq Ruhun ilk təzahür etdiyi ocaq, Zərdüşt peyğəmbərin vətəni kimi Zərdüşt din daşıyıcılarının **müqəddəs ziyarətgahına çevrildi. Zərdüşt dininin vətəni ölkə "Odlar yurdu" − Azərbaycan adını ilkin olaraq zəngin təbii odlardan almaqla bərabər Zərdüşt dini məbədləri atəşgahların yaranması onun "Avesta" kitabında tərənnüm olunduğu kimi Müqəddəs Ruhun − Odun doğduğu ölkə kimi tərənnümü də əhəmiyyətli rol oynamışdır** (1; 105).

Zərdüşt din daşıyıcıları yaxın-uzaq ölkələrdən Şiz şəhərindəki Zərdüşt məbədinə ziyarətə gəlirdilər. Bu ölkələrin dövlət başçıları hakimiyyətə

gələndə Şiz şəhərindəki Zərdüşt məbədinə ziyarətə gedirdilər, **fars hökmdarları Şizdəki Zərdüşt məbədinə ziyarətə bütün yolu piyada gedirdilər.**

Tarixdən göründüyü kimi, Tanrı toplumda qarşısındakı problemi görən bir təbəqə və müdrik lider olduqda həmin topluma peyğəmbər və kitab göndərir. Tanrının göndərdiyi bu kitablar "varlıq və yoxluğun" ümumi qanunlarından ibarət olduğundan eyni mənəvi-sosial inkişafda olan xalqlar, mənəvi-sosial inkişaf səviyyəsi bu qanunları dərk etməyə çatan xalqlar, zərurəti dərk etməyi arzu və iddia edən xalqların intellektual səviyyəsi lazımi həddə çatdıqda Tanrının göndərdiyi müqəddəs kitabları və onlarda ehtiva olunan qanunları dərk etməyə səy etdilər. Zərdüşt bir peyğəmbər, böyük mütəfəkkir və müdrik olaraq bunları görürdü. Birbaşa Mütləq Ruhdan "varlıq və yoxluq" qanununu öyrənən Zərdüşt peyğəmbər görürdü ki, bu dini − qanunları dərk edib qəbul etmədən dünyada sülh və əminamanlıq, Həqiqəti ifadə edən xoşbəxt cəmiyyət qurmaq mümkün deyil. Urmiya hövzəsində yaradılan əminamanlıq davamlı ola bilməz. Onun üzərinə hər tərəfdən sel kimi axan dağıdıcı − şər qüvvələr qarşısında o, uzun müddət davam gətirə bilməz. Odur ki, dərhal "Od elmi" − "doğru din"i qonşu ölkələrə və xalqlara yaymağa təşəbbüs göstərdi. Lakin onun təşəbbüsü müqavimətlə üzləşir. Ahura Məzdaya üz tutub deyir: "Hansı ölkəyə tərəf yollanım, haraya gedim? Böyük başçılar və din rəhbərləri məndən uzaqlaşırlar. Nə əkinçilər, nə də dövlət başçıları məni sevindirir... Ey Məzda, mən səni necə sevindirə bilərəm?

Mənim yanıma gəlin, özünüzü göstərin, ey hamıdan uğurlu şəxslər, ey Məzda, ey Ordubehişt, ey Bəhmən ki, **"muğlardan savayı** (başqaları) da mənim sözümü eşitsinlər" (105, 49, 58).

"Avesta"dakı məlumatdan göründüyü kimi, Zərdüşt öz təlimini yayarkən Vətəni Urmiya hövzəsi − maq ölkəsində müqavimətlə üzləşməmişdi, yalnız vətəninin hüdudlarından kənara çıxanda yeni xalqlarla üzləşəndə soyuq qarşılanır, yardım üçün Ahura Məzda və onun mələklərinə müraciət edir. Avesta təlimi, Zərdüşt − maq dini Urmiya hövzəsindən qonşu ölkələrə yayılmaqla üç imperiyanın dövlət dininə çevrildi.

Tanrı vəhyi olaraq Zərdüşt peyğəmbər vasitəsilə varlığın bütün formalarının Həqiqi harmonik durumu, tərəqqi, inkişaf, dəyişmə (məhvolma) qanununu "Od elmi" − Zərdüşt dini adı altında bəşəriyyətə təqdim etdi, onun üzünə açdı. Bu elmi − dini ilk mənimsəyib, yayan xalqın adı ilə bu dövr tarixdə **Maq erası kimi tanındı.** Bu dövrdən intellektini yaradıcı ilahi-mənəvi enerji elmin dərki və istifadə etməsi həddinə çatdıran hər bir fərdin, toplumun, ümumən insanlığın üzünə açıldı. **Zərdüştün vətəni Urmiya hövzəsi "Od elmi"nin vətəni kimi dünya müdriklərinin ziyarətgahına çevrildi.**

Zərdüşt üzünü bəşəriyyətə, bütün insanlığa, anadangəlmə ağıl sahiblərinə tutub "Nə qədər ki, ürəkdən çalışmaq həvəsi ətinizdə − qanınızda vardır, mükafatınız bu muğ dini ("varlıq və yoxluq qanunu" − X.X.) olacaqdır ki, onunla yalanpərəstlərin ruhu uzaqlaşıb, beli sınıb, aradan gedəcəkdir. Bu muğ dinini əldən versəniz, axır sözünüz peşimançılıq sədası olacaqdır" (105, 68) − deyə müraciət edir.

Yuxarıda Zərdüşt peyğəmbərin uzun müddət davam etmiş şəcərə zənciri − onun tarixi şəxsiyyət olması haqqında ətraflı məlumat verdik. Təəssüf ki, tarixi ədbiyyatda Zərdüştün "Avesta" kitabının və təliminin müəllifi olması haqqında yekdil fikir olsa da, Zərdüştün yaşadığı dövr və fəaliyyəti haqqında mənbələrə və məntiqə zidd fikirlər süni yaradılmışdır.

Zərdüştün yaşadığı dövr, etnik-milli mənsubiyyəti haqqında obyektiv nəticəyə gəlmək üçün apardığımız müqayisəli elmi, məntiqi, tarixi təhlillər göstərir ki, bu yanlışlıq qəsdən, bilərəkdən, tarixi saxtalaşdırmaq, xalqımızın, ümumən türk xalqlarının milli-mənəvi varisliyini pozmaq, onları bəşərin mənəvi istehsal tarixində rol oynamamış xalq kimi dünyaya təqdim etməklə onların ikinci növ, aşağı irq olmaqla yaradıcılıq qabiliyyəti olmayan xalq kimi insanlığın gözündən salmaqdır. Bu ideyanın əsas, birinci yaradıcıları avropamərkəzçilərdir; ikincisi − bəşərin mənəvi istehsalına müstəqil heç nə verməmiş, dövlətçiliyi və mədəniyyət ənənəsi qonşulardan oğurlanan farsların tarixi mənbələrə etina etmədən Zərdüşt təlimində oğurlamaları, öz adlarına çıxmalarıdır; üçüncüsü − kommunist rus imperiyasının XX əsrdə Azərbaycan xalqına ictimai elm adına yetişdirdiyi **elmlər doktorları, professorlar, akademik və əməkdar elm xadimləri adlandırılan "elm" müqəvvalarının** tariximizin, mədəniyyətimizin obyektivləşməsi üçün tarixi mənbələr üzrə heç bir müqayisəli elmi-nəzəri təhlil aparmadan avropamərkəzçilərin, rus sovet tarixçilərinin, farsların və b. düşmən qüvvələrin milli tariximiz haqqında aşağılayıcı fikirlərini təkrarlamalarıdır; dördüncüsü − kommunist rus imperiyası dövründə yetişmiş çox kiçik bir qrup var ki, onlarda milli hiss və düşüncə olsa da, yaradıcı elmi-nəzəri təfəkkür olmamağından tariximizi, milli mənəviyyatımızı saxtalaşdıranlara qarşı müqavimət göstərə bilməyənlərdir.

Sonuncudan başlayaraq tariximizə, mənəviyyatımıza qarşı yönəlmiş qeyri-obyektivlikləri göstərməyə və aradan qaldırmağa çalışacağıq. Milli mənəvi hiss və dəyərlərin təsiri ilə böyük zəhmət bahasına "Avesta"nın fars dilində nəşrindən bir hissəni Azərbaycan türkcəsinə tərcümə etmiş, ona çox əhatəli ön söz yazmış İsmayıl Şəms yazır: "Əflatunun şagirdlərindən sonra Zərdüştün yaşadığı dövr haqqında məlumat verən miladdan üç əsr əvvəl

Babildə yaşamış ruhani rəhbər Berossüsdür. O, Babilin böyük ibadətgahının başçısı olduğu üçün ibadətgahın kitabxanasına yol taparaq bir çox tarixi sənədlər əldə etmişdi. Kitabxana sonralar aradan getmişsə də, Berossüsün yazdığı kitabdan bir sıra tarixçilər müəyyən hadisələr nəql etmişlər. Onlardan biri miladi VIII əsrdə yaşamış Georgios Sinkellosdur. O, kitabda yazır: "...Babili ələ keçirmiş Maq sülaləsinin ilk başçısı Zərdüşt olmuşdur. Zərdüşt adlanan bu hökmdar İsadan 25 əsr əvvəl Babildə yaşamışdır. Zərdüştün yaşadığı dövr çox qədim olduğu üçün hər tarixçi onu bir cür təsvir edir" (105, 12-13). Zərdüştün yaşadığı dövr haqqında deyilən bu rəqəm Zərdüştün e. ə. III minilliklə II minilliyin hüdudunda yaşaması haqqında çoxsaylı məlumatlardan biridir.

Tərcümə və tədqiqatından yetərincə bəhrələndiyimiz üçün, İsmayıl Şəmsin ruhu qarşısında baş əyərək, onun mənbələrə münasibətdən ibarət olan son cümləsi ilə heç cür razılaşa bilmərik. Uzaqlığından, yaxınlığından asılı olmayaraq elmi tədqiqatın, tarixçinin vəzifəsi Zərdüştün irəli sürdüyü müddəa – "Həqiqət"i aşkarlayıb gələcək nəslə, bütün bəşəriyyətə çatdırmaqdır. "Avesta"dan tərcüməyə ön söz yazan İ. Şəms istifadə etdiyi ədəbiyyatlarda Zərdüşt dini − Avesta təliminin yaranma tarixi haqqında mülahizələrin hamısını oxucuya çatdırsa da, bu dövr haqqında özünün mülahizəsi yoxdur. İqtibasdan gördüyümüz kimi, o, İsadan 25 əsr əvvəl Babildə yaşamış Zərdüştü − Babili ələ keçirmiş Maq sülaləsinin ilk başçısı Zərdüşt hesab edir.

Heç bir tənqidi fikir söyləmədən Zərdüştlüyün tarixi haqqında bizə xeyli məlumat verən İ. Şəms Zərdüştlüyün qədimliyi haqqında mülahizənin tərəfdarı olduğunu hiss etdirir, lakin Babili tutan Zərdüştün "Avesta"nın müəllifi olub və və ya olmaması haqqında mövqe bildirmir. Lakin tədqiqatçının, tarixçinin vəzifəsi hər hansı bir məsələ haqqında olan çoxsaylı ziddiyyətli məlumatlar arasından həqiqəti aşkarlayıb oxucuya, cəmiyyətə çatdırmaqdır. Tədqiqatçı hər hansı tarixi mənəvi-sosial və siyasi hadisə haqqında həqiqəti aşkarlamaq üçün birinci növbədə tarixi prosesin qanun və qanunauyğunluğunu əsas götürüb, həqiqiliyini sübut etmək istədiyi hadisəni təsdiq edən hadisələrlə əlaqə və münasibətlərini diqqətə çəkməli, müqayisəli təhlillər aparmalı və b. elmi tədqiqat materiallarından istifadə etməklə söykəndiyi fakt və müddəalar əsasında mülahizələrini diqqətə çatdırmalıdır. Həqiqətin aşkarlanması üçün istifadə edilməyən ziddiyyətli məlumat çoxluğu heç bir məna kəsb etmir.

Urmiya hövzəsi xalqı iki dəfə İkiçayarası ölkədə hakimiyyətdə olmuşdur. Birinci dəfə Kutilərin siyasi hakimiyyəti dövründə Zərdüşt ideologiyasından əvvəl, e.ə. 2175-2104-cü illərdə − 71 il, ikinci dəfə Kassilərin

hakimiyyəti dövründə Zərdüşt ideologiyasının yaranmasından sonra,e.ə. 1595-1155-ci illərdə − 500 il fasiləsiz İkiçayarasında hakimiyyətdə olmuşlar (34, 104-111; 42, 69-72).

Akkadların İkiçayarasına basqını zamanı Şumerlər fasiləsiz iqtisadi, mədəni-mənəvi əlaqə, ümumi inam və etiqada malik olduqları Urmiya hövzəsi xalqa yardım üçün müraciət etdilər. Hakimiyyətdə olan Kuti siyasi rəhbərliyi Şumerlərin müraciətinə cavab olaraq hərbi yardım etdi və burada siyasi hakimiyyətə yiyələndilər (34, 82-87).

Urmiya hövzəsi xalqının yardımı belə Şumerləri düşmənə qarşı təşkilatlandıra bilmədi. Güclənən xarici təcavüz qarşısında Urmiya hövzəsi xalqı vətənlərinə çəkilib Zərdüşt başda olmaqla onun müdafiəsinə, dünya hadisələrinin doğuşu səbəblərini aşkarlamağa səfərbər oldular. Bu ideya axtarışı onların mədəni-mənəvi, ideoloji birliyini daha da gücləndirdi, Vətənin müdafiəsini yüksək səviyyədə təşkilatlandırdı. Elə bu illərdə, e.ə. II minilliyin başlanğıcında İkiçayarasında Sami tayfalarından amorilər yaşayış məntəqəsi kimi Babilin bünövrəsini qoydular, e.ə. 1894-cü ildə İkiçayarasında hakimiyyəti ələ alıb Babil şəhərini paytaxta çevirdilər. Urmiya hövzəsinə fasiləsiz dağıdıcı yürüşlər edən ölkəyə çevrildilər. Babillərdən fərqli olaraq Urmiya hövzəsi xalqı Zərdüşt təlimini etnik-milli ideologiyaya çevirib, bu ideologiyanın mənəvi təsiri ilə ardıcıl vahidləşir, yekdilləşir, bu xalqın yaratdığı din kimi − Maq dini adlandırır, onun müqəddəsliyini qoruyur, yaşadır və yayırdılar. Bu dinin banisinin şərəfinə Zərdüşt məbədləri tikir, onun adını əbədiləşdirmək üçün doğulan oğlan uşaqlarına Zərdüşt adı verirdilər.

Tarix səhnəsində ilk görünən, xalq kimi təşəkkülün ilkin mərhələsinə çatan etnoslar birgə iqtisadi fəaliyyətlə məşğul olub, əsasən iqtisadi birlikdən ibarət olub, etnik-mənəvi birləşdirici və yaradıcı ideologiyaya malik olmaqıqlarından hərbi-siyasi, mənəvi-ideoloji ziddiyyətlərin təsirindən asanlıqla dağılıb məhv olurdular. Tarix səhnəsinə ilk çıxan xalqlardan Urmiya hövzəsi xalqı **“qəhrəman döyüşçü”** mentaliteti və Azadlıq ruhu sayəsində tarixin dağıdıcı təsir qüvvələrinə müqavimət göstərə-göstərə varlığın mahiyyəti qanunları olduğunu, yaşamaq üçün bunları dərk etmək, bilmək zərurətini anladı. Bu ideya Urmiya hövzəsi xalqda e.ə. III minilliyin son rübündə Şumerlərin Akkadların təcavüzünə cavab reaksiyası verə bilməməsindən doğdu. Şumerlərin istilasından sonra Urmiya hövzəsi xalqı tarix səhnəsinə yeni çıxan xalqların hərbi mühasirəsinə düşdü, ölkəyə dörd tərəfdən fasiləsiz hücumlar edilirdi. Odur ki, Urmiya hövzəsi xalqda xarici təcavüzə qarşı mübarizə, hadisələrin “mahiyyəti”ni dərk etmə – “gizli dünya qanunları”nı aşkarlamağa səfərbər olma paralel gedirdi. Tanrı Urmiya hövzəsi xalqın in-

tellektual səviyyəsinə, qarşısında duran, həll etmək istədiyi problemi – hadisələrin “mahiyyəti”ni, “gizli dünya qanunları”nı aşkarlayan “Avesta” kitabını göndərdi, bu kitabın bütün bəşəriyyətə çatdırılması üçün bu xalqdan Zərdüştə peyğəmbərlik verdi. Tarixin bu böyük hadisəsi təxminən e. ə. 2100-2000-cü illər arasında baş vermişdi. **Zərdüşt peyğəmbərin yaşadığı dövr e.ə. III minilliyin son yüzilliyi hüdudundadır.** Tarix səhnəsinə yeni çıxan xalqların müharibələrinin pik həddinə çatdığı e.ə. II minilliyin başlanğıcında Urmiya hövzəsi xalqı bu müharibələrə qarşı mütəşəkkillik göstərirdi ki, bu da ölkədə Zərdüşt təlimi maq dininin hakim ideologiyaya çevrilməsinin nəticəsi idi.

Zərdüşt ədəbiyyatında deyilirdi: “İlk yaranışda od yarandı və üç hissəyə bölündü: bir hissəsi Gəzən yerinə (Zərdüştün doğulduğu Şiz − X.X.) düşdü. Bu, şahların və döyüşçülərin odu hesab edilirdi” (105, 9).

Zərdüştün tədqiqatçıalrı tendensiyalı olub, siyasi məqsəd güddüklərindən, onun yaşadığı dövrü müəyyənləşdirməyə səy göstərmir, onun doğulduğu, yaşadığı dövr haqqında uydurma məlumatları təkrarlamaqla kifayətlənirlər. Babil yaşayış məntəqəsinin e.ə. II minilliyin əvvəllərində salındığı, Babilistan dövlətinin banisi Sumumbum e.ə. 1894-1881-ci illərdə hakimiyyətdə olduğu məlumdur (34, 95). Urmiya hövzəsi xalqın Kassilərin siyasi hakimiyyəti e.ə. 1595-ci ildə Babilistanı tutması (34, 104) məlum olduğu halda, kimsənin İsa peyğəmbərdən 25 əsr əvvəl yaşamış Zərdüştün Babilistanı tutmasını deməsi gülünc görsənir. Bəs onda “...Babili ələ keçirmiş Maq sülaləsinin ilk başçısı Zərdüşt olmuşdur” (105, 13) cümləsində həqiqət nədən ibarətdir? Mənbələrin məlumatından və tədqiqatlardan məlumdur ki, Zərdüşt Maq sülaləsinin başçısı deyil, maq dininin başçısıdır. Zərdüşt Maq dininin başçısı kimi birinci maq kimi də qiymətləndirilmişdir. Bu cümlədə əsas həqiqət ondan ibarətdir ki, e.ə. XVI əsrin başlanğıcında Zərdüşt təlimi − maq dini Urmiya hövzəsi xalqda hakim ideologiya olmuş, bu ideologiyanın daşıyıcıları arasında hərbçilər üstünlük təşkil etmişdir. Babili tutan zabitin Zərdüşt adlanması da mümkündür. Məlum olduğu üzrə Zərdüşt peyğəmbərin dünyaya gəlməsindən sonra Zərdüşt adını daşıyan yetərincə nüfuzlu şəxsiyyət yetişmişdir. **1595-ci ildə Babili tutan Zərdüşt adlı zabitin sonradan yanlış olaraq “Avesta” kitabı, Maq dininin yaradıcısı Zərdüştlə eyniləşdirilməsi mümkündür.**

# IV FƏSİL.

## AVROPA MƏRKƏZÇİLƏRİN CAVABSIZ QALMIŞ HİND-ARİ UYDURMASI

İndi isə Zərdüşt dininin hind-avropa mədəniyyətinə, xüsusilə arilərə məxsusluğu, farslarla bağlılığı məsələsinə aydınlıq gətirək. Vəhyi – müqəddəs kitablarda bəşəri sivilizasiyanın yaranması haqqında ilk bilgi bundan ibarətdir ki, Tanrının bütün varlığı yaratması prosesinin müəyyən mərhələsində insan onun tərəfindən Ön Asiyada yaradılmış, bütün insanlıq bir ata və anadan törənmiş, buradan artıb dünyaya yayılmışdır (112).

XIX əsrin sonu – XX əsrin əvvəlləri elmin yeni inkişaf səviyyəsi ilə əlaqədar insanlığın ilkin başlanğıcı ilə bağlı yeni mülahizələr irəli sürülür. Bu baxışlar iki cərəyandan ibarətdir. Birinci cərəyana görə, insanlıq təbii varlığın yaranmasının müəyyən mərhələsində heyvanlar aləmindən ayrılmış, meymundan törəmiş, Ön Asiyada insan kimi təkamül keçirib, burada çoxalıb dünyaya yayılmışdır; polusentrizm nəzəriyyəsinə görə, insanlığın Cənubi Afrika, Cənubi Şərqi Asiya və Ön Asiya kimi ocaqları olmuşdur. Bütün XX-XXI əsr müddətində elm və texnikanın yeni metodlarından istifadə etməklə hər iki nəzəriyyəni təsdiqləyən materiallar aşkarlanmışdır. Lakin sonda monogenez nəzəriyyəsini təsdiqləyən yeni materialların aşkarlanması ilə ardıcıl olaraq polugenez haqqında müddəalar təkzib olunaraq, monogenez nəzəriyyəsi əsas nəzəriyyə olaraq yaşamaqdadır (122, 281-472; 123, 179-181; 124, 32).

Avropa alimlərinin monogenez nəzəriyyəsinə görə, müasir insan son paleolit dövründə Ön Asiyanın Şərq sahillərində formalaşmış, buradan Cənubi – Şərqi Avropaya, Cənubi Afrikaya, Cənub-Qərb və Cənubi Asiyaya, Asiyanın dərinliklərinə yayılmışdır. Üst paleolit və mezolit dövründə Ön Asiyadan miqrasiya etmiş əhalinin Cənub-Şərqi Asiyada avstraloid, Cənubi Afrikada neqroid, Şərqi Asiyada monqoloid, Ön Asiyada avropoid irqləri yaranmışdır. Əksər antropoloqlar insanın ilkin formalaşmasının Ön Asiyada baş verməsini yazmaqla bərabər Qafqazı insanın ilkin vətəni kimi daha münasib hesab edirlər (122, 367-368; 123, 180; 124, 32; 126, 151).

Antropoloji ədəbiyyatda Avropa qitəsindən irq yaradıcı məkan kimi bəhs olunmamışdır. Obyektiv elmi mövqe tutan antropoloqlar və ictimai elm xadimlərinin nəzərincə, avropoid adlanan irq Cənubi-Qərbi Asiayadan Avropaya miqrasiya etmiş əhalidir. Bunu Avropa anlayışının yaranmasının özü də təsdiq edir (122, 442-443; 127, 94; 30, XII, – 1, – 70).

Kiçik Asiya və Zaqafqaziyada formalaşan bu irqi Avropa antropoloqları ilk öncə "Aralıq dənizi irq"i, bir qədər sonra "hind-aralıq dənizi" irqi adlandırmışlar. Avropamərkəzçilik, hakim millətçilik, avropamüstəmləkəçilik ideologiyasının yaradılması prosesində bu irqi avropoid adlandırmışlar (122, 512-515; 123, 180-181; 126; 127).

Heç bir fakta, qanuna və ədalətə məhəl qoyulmadan bu irq vətəninin adı ilə – "Kiçik Asiya", "Asiya" bəşəri sivilizasiyanın ilkin yaradıcılığında iştirak etməyən ölkənin və xalqın adı ilə "avropoid" adlandırılmışdır. Göründüyü kimi, tarix zorlanmışdır. Bəşəri sivilizasiyanın ilkin yaradılmasında iştirak etməyən bir ölkə bəşəri sivilizasiyanın ilkin Vətənini, Xalqını isə bəşəri sivilizasiyanın yaradıcısı kimi yaddaşlara soxmağa çalışırlar. Bununla da sivilizasiyanın ilkin təbii yaranışı və gedişi prosesinə dolaşıqlıq, qarmaqarışıqlıq salmaqla dünya xalqlarına milli-mədəni yaşam və inkişafının obyektiv qanunlarını və gedişini dərk etməyə imkan vermirlər.

Heç bir tarixi fakta, etnososial, etnomənəvi inkişafın qanun və qanunauyğunluğuna etina etmədən uydurulan "hind-avropa" və ya "hind-ari" nəzəriyyələrinə görə, guya e.ə. II minilliyin ortaları – I minilliyin əvvəllərində Cənubi Şərqi Avropadan – Balkan yarımadası və Cənubi Rusiya çöllərindən Orta Asiyaya ari tayfaları gəlmiş, bir hissəsi Hindistana getmiş, digər hissəsi indiki farsların, taciklərin, əfqanların və Pamir xalqlarının yerində qalmışdır. Ari tayfaları o qədər "mədəni təsir gücünə" malik olmuşdur ki, bütün Mərkəzi və Ön Asiya, Azərbaycan və b. ölkələrin yerli əhalisinin dilini və mədəniyyətini dəyişdirmişlər. Onları ari – irandilli və mədəniyyətli bir xalqa çevirmişdir (38, 382-401; 128, 179-194; 129, 36; 34, 305-307, 415-416; 42, 43-85).

XIX-XX əsrlərdə Avropada elm və fəlsəfənin sürətli inkişafı dövrüdür. Bu dövrdə burada bəşəriyyətin tərəqqisinə və əsarətinə xidmət edən ictimai elm xadimləri yetişmişdir. Yuxarıda haqqında bəhs etdiyimiz nəzəriyyələrin də yaradıcıları onlardır. Məlum olduğu üzrə XIX əsrin amansız əsarətinə baxmayaraq, xalqımız onu əsarətdən xilas edəcək dahilər yetişdirdi. Lakin rusiyada hakimiyyətə gələn bolşeviklər öz xalqı da daxil olmaqla hakimiyyətinə saldığı bütün xalqların alim, ziyalı, zadəganını məhv edib, onun əvəzinə ictimai elmlər sahəsində ona xidmət edəcək alimlər yetişdirdi ki, mən

yuxarıda onları müqəvva adlandırmışam. Lakin "Hind-Ari" nəzəriyyəsinin təhlili zamanı e.ə. II minilliyin ortaları − I. minilliyin əvvəllərində Balkanlardan Asiyaya gəlmiş hind-arilərin Asiya qitəsində xalqları mədəniləşdirib, hətta keçmişindən ayırıb, yeni hind-ari xalqı yaratmasına heç bir münasibət göstərmədən akademik nəşrlərdə təbliğ olunmasını, dərsliklərdə dünyaya gələn nəsillərin şüuruna aşılanmasını, təqdim olunmasını görəndə səhv etdiyimi anladım. Axı canlıları əvəz edən müqəvvalar müəyyən müsbət funksiya daşıyıcılarıdır. Göründüyü kimi, kommunist rus imperiyasının bizə yetişdirdiyi ictimai elm nümayəndələri heç müqəvva funksiyası da daşımamışlar.

Maddi və ya mənəvi hər hansı mədəniyyətin qarşılıqlı təsirindən bəhs edərkən, onun element, hissə və sistemi göstərilərək, təsir gücü aydın nümayiş etdirilir.

E.ə. II minilliyin ortaları − I minilliyin əvvəllərində Şərqi Avropada − Balkanlardan və rusiya çöllərindən Asiya qitəsinə gəlib, yerli xalqları "dəyişdirən" "ariləşdirən" mədəniyyətdən bəhs edən "tarixçilərin, ictimai elm" **nümayəndələrinin əsərlərində həmin ərazilərdə, göstərilən dövrdə hər hansı etnosdan onun etnomənəvi xarakter və keyfiyyətindən bəhs olunmur.** 1920-ci ildən Azərbaycanda körpələrə laylay əvəzinə rusları mədhiyyə nəğmələri oxundu. Bu nəğmələrdə ilk dəfə folklor ədəbiyyatında 882-ci ildə ruslardan bəhs olunması haqqında məlumat verilir.

Hər xalqın tarixi onun mənəvi yaradıcılıq ruhudursa, tarixçi onun alışqanı, şüası funksiyasındadır. Təkzibi üçün heç bir fakt, məntiqi müqayisəli təhlil tələb etməyən, xalqını aşağılayan bir uydurmaya münasibət bildirməyə hissiyyatı çatmayan, etiraz etməyən "tarixçi" "alim" məncə manqurtdur, **millətin qəlb çırağını, yaradıcı ruhunun ilk qığılcımlarını məhv edən canilərdir.**

Şərq və Qərb sivilizasiyasının yaranması və qarşılıqlı təsir səviyyəsinin obyektiv dərki üçün mütərəqqi avropa tarixçilərindən Norman Devsin aşağıdakı göstərəcəyimiz fakt və mülahizələri xüsusi əhəmiyyət kəsb edir. O, yazır ki, e.ə. III əsrdə Şimali və mərkəzi Avropanın vəhşi çöllərində çox asta şəkildə Tunc dövründən Dəmir dövrünə keçid başladı. Bir çox tarixçilərin qənaətincə e.ə. III əsrdə hələ Avropa yarımadasındakı mədəniyyətin sivilizasiya adlanmasını 1000 il gözləmək lazım idi. Bu avropalıların qədim Yunanıstan sivilizasiyasının quruculuğundakı iştirakı belə şübhə doğurur (130, 108).

Asiya və Avropa xalqlarının qədim dövrdə qarşılıqlı mədəni təsirinin obyektiv qiymətləndirilməsində F.Engelsin "Hunlar ölməkdə olan Avropanı yeni həyat qüvvəsinə ruhlandırdılar" (131, 10-23) mülahizəsi də xüsusi əhə-

miyyət kəsb edir. Bu kimi elmi və mənəvi mülahizələri bir kənara qoysaq, dəqiq elm olan Antropologiya və arxeologiya elmi sübut edir ki, nə qədim, nə də orta əsrlərdə Avropadan Asiyaya, burada etnik proseslərə təsir edib, onu az-çox dəyişdirə biləcək hər hansı miqrasiya olmamışdır. Elə bu səbəbdən də dünya xalqlarının yaranışı və inkişafı haqqında nəzəriyyələr yaradan və uyduran Avropa tarixçiləri Kiçik Asiya və Azərbaycan tarixində olduğu kimi Avropa tarixini özlərinin yaratdıqları arxeoloji dövrlər üzrə paleolit, mezolit, neolit, enolit, tunc və dəmir dövrü bölgüsü üzrə yazmırlar. Paleolit dövrü istisna ediolərsə, ən qədim və qədim arxeoloji dövrlərdə insanın – etnosun tarixindən bəhs etmirlər. Avropa tarixçiləri Avropada Krit və Miken mədəniyyətini ən qədim mədəniyyət kimi qiymətləndirirlər ki, onları da neolit dövründə Kiçik Asiyadan gəlmə hesab edirlər.

E.ə. II minilliyin ortaları I minilliyin əvvəllərində Şərqi Avropa – Balkanlardan və rusiya çöllərindən "Asiya qitəsinə keçib yerli xalqları mədəniləşdirən, ariləşdirən" "alimlər" həmin ərazilərdə Şumer mədəniyyəti, Azərbaycan Kür-Araz mədəniyyəti kimi mədəniyyət nümunəsindən bəhs etmirlər. Şumer və Kür-Araz mədəniyyəti yayılarkən buraxdığı iz, yeni ərazilərdə ilkin vətəninə müvafiq yeni yaranan hər hansı mədəniyyət nümunəsi göstərmirlər. Çünki belə bir mədəniyyət olmamışdır və yeni ərazilərə keçib heç bir yaradıcılıq göstərməmişdir. Avropamərkəzçilik sahəsində bütün yazılanlar tarixi fakta, elmi məntiqə söykənməyən müstəmləkəçilik məqsədilə uydurmalardan başqa bir şey deyildir (77, 72).

Anaxaqanlıqdan ataxaqanlığa yenicə keçmiş etnomənəvi, etnososial inkişaf səviyyəsi sivilizasiya yaratmaq üçün 1000 il vaxt tələb olunan, hələ vahid etnomənəvi sistem yaratmamış etnoslar qrupunun yazıya, ədəbiyyatın bütün ilkin janrlarına, elmə malik, təqvim, çəki, ölçü sistemi yaratmış, xəstəliklərin müalicəsində cərrahi əməliyyat tətbiq edən, ilkin dövlət qurumları yaradıcılığından mərkəzləşmiş dövlət quruculuğuna keçmiş xalqlara mədəni təsirindən danışmaq nə qədər absurdsa, **ilkin sivilizasiya yaradıcıları xalqların XX-XXI əsr ictimai elm "alim"lərinin heç bir tarixi fakta əsaslanmayan mülahizələrini** təkzib etmək əvəzinə onları dərsliklərə salıb yeni doğulan nəsillərin şüuruna təlqin etməsi lənətlənməli bəşəri cinayət, ləyaqətsizlik və şərəfsizlikdir.

Kiçik Asiya və Qafqaz sonradan yaranan bütün antropoloji irqlərin ilkin vətəni olub, buradan çıxan miqrasiyalar prosesində müxtəlif iqlim və relyefli ərazilərdə məskunlaşmalar prosesində yarandığı kimi, dil tarixi sahəsində aparılmış araşdırmalar təsdiq edir ki, ulu dilin daşıyıcıları olan bu etnoslar ilkin vətənlərindən qopub ayrılaraq yeni ərazilərdə məskunlaşarkən onların

ulu dildən ayrılıb müstəqil yaşam keçib və inkişaf edən dilləri ilkin olaraq ulu dilin dialekti formasını alır, zaman keçdikcə müstəqil dil kimi formalaşır. Ulu dillə əlaqənin saxlanılması, ilkin dil ocağından ayrılan etnosların fasiləsiz davam edən əlaqə və münasibətlərindən dil ailələri yaranır. Bütün müasir dillərdə ulu dilin – kök dilin söz və terminləri yaşayır, özlərində ulu dilin əlamətlərini daşıyırlar (132, 34-36; 103, 26-28, 61-65).

XVIII əsrdə avropalıların sanskrit dili ilə tanışlığına qədər tarixdə təkallahlı dinlərin vəhyi kitablarında bütün xalqların bir atadan və anadan törəməsi haqqında ilahi bir anlayış var idi. Avropalıların sanskrit dili ilə tanışlığı, ingilis şərqşünası Vilyam Consun (1746-1803) "Asiya tədqiqatları" adlı əsərində yunan, latın, sansktrit dilinin yaxınlığı, doğmalığı haqqında təqdimatı ilə bütün dillərin bir kökdən olması, yaranması haqqında ideyadan monogenez nəzəriyyəsi doğdu (133, 19; 103, 29).

Avropa dilçilik elmində monogenez nəzəriyyəsi sürətlə vətəndaşlıq hüququ qazandı. Xalqların bir kökdən olması haqqında vəhyi kəlamın dilçilik elmi vasitəsi ilə təsdiq olunması Avropa müstəmləkəçilərində hər hansı mütərəqqi – xalqların bir-birinə doğmalığı – ideyası yaratmadı, əksinə, Asiya xalqları arasında separatçılıq aləti kimi istifadə edildi.

Hind-Avropa dilçiliyinin nümayəndələri bütün başqa dillərdə rast gəldikləri uyğun sözləri Hind-Avropa protodilinə aid etməklə irqçilik, irqi üstünlük ideyası yaratmağa başladılar. İlk dövrlərdə hind-avropa dil ailəsi I və II şəxs əvəzliklərinin, qohumluq bildirən və bədən üzvlərinin adlarını ifadə edən bir sıra sözlərin uyğunluğu əsasında yaradıldı. Həm də bunu onunla əsaslandırmağa çalışırdılar ki, bu cür sözlər əsas lüğət fonduna daxil olan ən zəruri sözlərdir və bunlar – bu cür sözlər başqa dillərdən mənimsənilir (103, 29-30).

Tədqiqatçılar müəyyənləşdirmişlər ki, müəyyən edilən "söz qruplarında hind-avropa və türk dillərində olması onlardan birinin digərinə təsiri nəticəsi, kontakt nəticəsi kimi izah oluna bilməz. Bir dil öz inkişaf yolunu unudub, o biri dilin təsrif sistemini ala bilməz. Bu cür sözlərin əksər dünya dillərində işlənməsi həmin sözlərin ulu dildən gəldiyini, müxtəlif dillərdə ulu dilin əsas lüğət fondunu yaşatdığını sübut edir. Bütün ayrılmalara, parçalanmalara baxmayaraq ulu dilin lüğət fonduna aid olan sözlər, ulu dilin makro və mikro sistemləri yaranan hər bir protodilində özünə yer eləmiş və bu yolla dil ailələrinə keçmişdir. Həmin lüğət və həmin quruluş minilliklər boyu təkmilləşmə, səlisləşmə, sadələşmə və mürəkkəbləşmə yolu ilə inkişaf etsə də, bir çox dəyişmələrə məruz qalsa da, öz əsasını dünya dillərində saxlamışdır. Bu ümumi inkişaf prinsipini nəzərə almadıqları üçün bir çox alimlər qədim dil

qalıqlarından, xüsusilə leksik vahidlərdən danışarkən, onların yanlış olaraq gah bu, gah da başqa dil ailəsinə mənsub olduğunu sübut etməyə çalışırlar" (103, 28, 30).

Beləliklə, hələ antik dövrdə Aristotelin "Antropologiya" anlayışı altında "insan haqqında elm", yəni insanın fiziologiyası və anatomiyasından bəhs edən elm mənasını XIX əsrin ortalarına qədər saxladı. XVIII əsrə qədər antropologiya anlayışını bəzi müəlliflər insanın fiziki quruluşu, bəziləri ruhi-mənəvi təbiətindən bəhs edən elm kimi dəyərləndirmişdir. XVIII əsrdə Avropada müstəmləkəçiliyin coşqun inkişafı antropologiyanın elm kimi inkişafına təkan verdi. Antropologiya ilk öncə insanın fiziki tipini öyrənən elm kimi təşəkkül tapdı. Avropada antropoloji mərkəzlər yarandı. XİX əsrin sonlarında antropologiya elm kimi tanındı. İnsanın fiziki quruluşu haqqında elm kimi formalaşan antropologiya sürətlə, bütövlükdə insanı fiziki və mənəvi cəhətdən öyrənən elmə çevrildi. Onun mədəni antropologiya, sosial və mənəvi antropologiya, antropoloji linqvistika, psixoloji antropologiya və s. sahələri yarandı (123, 7-54).

Antropologiya elminin yaranması və inkişafı Avropa və ABŞ-da elmin, mədəniyyətin, idarəçiliyin mütərəqqi xarakter alması üçün son dərəcə mütərəqqi hadisə olmaqla bərabər, onların bəşəriyyətin sivilizasiya beşiyi Asiya qitəsi xalqlarının, xüsusilə türk və müsəlmanların əsarətə salınması aləti idi ki, bu işdə "antropoloji linqvistika" və "psixoloji antropologiya" ən gözəgörünməz silah idi.

Müstəmləkəçi Avropa dövlətlərinin guya Şərqi nizama salmaq məqsədi ilə müzakirə etdiyi "Şərq məsələsi" − C.Nehrunun sözləri ilə desək − Şərqi baş-ayaq qoymaq məqsədi güdürdü. Fransa və İngiltərə Avropa müstəmləkəçilərinin elmi, hərbi-siyasi, ideoloji liderləri idi. Onlar Asiya xalqları arasında ziddiyyət yaratmaq, onları bir-birinə qarşı qoymaq, barışmaz ideoloji düşmənə çevirmək, parçalayıb zəiflətmək, əsarətə salmaq; Asiya qitəsində tarixən hakim mövqedə olmuş türklərin dövlətçiliyini məhv edib, onların qonşu yerli xalqlarla əbədi düşmənçiliyi; hind-avropalıların Asiya mədəniyyətinin yaradıcıları, qalan digər xalqların yaradıcılıq qabiliyyəti olmadığından, bəşər mədəniyyətinin yaradılmasında iştirak etməməsi, bu səbəbdən də onlar hind-avropalıların idarəçiliyinndə olmaları haqqında müstəmləkəçi, irqçi, separatçı ideya və ideologiya yaradırdılar.

Bu elm, nəzəriyyə və ideyalar hind-avropa nəzəriyyəsinin müxtəlif təmayülləri idi. Bu prosesdə hind-avropa nəzəriyyəsi hind-ari və hind-iran formalarına salındı. Hind-iran nəzəriyyəsi ümumən hind-avropa prinsiplərinə dayansa da, bu ideologiyanın yaranmasında X əsr Tacik şairi Firdovsinin

utopik İran-Turan müharibəsi əsas götürülmüş, İran xalqı anlayışına fakt kimi yanaşılmış, Asiyanın aparıcı qövmü Türklər iranlıların əbədi düşməni kimi əsaslandırılmağa çalışılırdı. Lakin sonda məlum oldu ki, Avrasiya materikində tarixdə "iran" sözü – xalqı və coğrafiyası qeydə alınmamışdı (34, 416).

Görünür, ingilis şərqşünasları Firdovsinin **"Şahnamə" əsərinə istinadən Asiyada utopik "iranlıları" türklər çəkidə xalq kimi təsəvvür etmişdir.** Əsasən, bütünlüklə mif, utopiya, heç bir fakta dayana bilməmişlər. Beləliklə, ingilis şərqşünaslığı çıxılmaz vəziyyətə düşdü. Vəziyyətdən çıxış yolu kimi hind-avropa dil ailəsi yaratdığı üsulla Asiya dillərində Avropa sözlərinə oxşar sözdən istifadə etmək metodu ilə Mərkəzi Asiyada **"iran**" sözünə oxşar söz axtarışına çıxdılar. İndi İran adlandırılan dövlətin şimali-şərqində Sistan adlandırılan ərazidə kiçik bir sahənin **"Ariana"** adlandığını elan etdilər. Hansı ki, bu mülahizə də heç bir tarixi mənbəyə əsaslanmır. Yenidən "Ariana" sözünün "iran" sözünü yaratması haqqında mülahizə irəli sürdülər ki, bu da heç bir dildə yeni söz yaranması qanununa uyğun gəlmir. Qədim dilləri bilən dilçilərin qənaətincə, "ariana" sözünün "iran" formasına çevrilməsi inandırıcı deyildir, "iran" sözünün əmələ gəlməsində başqa komponent (ir) iştirak etmişdir (34, 306).

Beləliklə, heç bir dil − söz yaradıcılığı qanununa söykənmədən, əsaslanmadan "ari" sözünün "iran" sözünün sinonimi olması mülahizəsi ilə çıxış etdilər. "Ari" (ariya) sözünün mənası ətrafında müxtəlif mülahizələr irəli sürülmüşdür. Məsələn "ari"/ariya sözünü "gəlmə", "yadelli". "qonaqpərvər", "nəcib, azad adam" kimi mənalandırmışlar. Lakin bu mənalar "ari" ("ariya") sözünün mənşəyini müəyyən etmir. **Heç bir iran və hind dilində buna oxşar söz qalmamışdır.** Məhz qədim və müasir türk dilləri "ər" və "ari" sözlərini saxlamışlar. Türk dillərində "ər" sözü "cəsur, qoçaq, yenilməz", "ari" isə "təmiz, nəcib" mənalarını daşıyır... (34, 416).

Beləliklə, XIX-XX əsr Avropa ictimai elmləri hind-avropalıları ari-iran irqi adlandıraraq, doğuluşdan xüsusi yaradıcılığa malik ali irq kimi bəhs etdilər, heç bir etnik mənsubiyyət ifadə etməyən, süni yaradılmış ari-iran məfhumundan irqçilik nəzəriyyəsi yaratdılar. Farslar Asiya qitəsində yaradılan iranilik ideologiyasının etnik yadrosu kimi seçilmişdi. Fars, puştu, talış, tat, mazandaran, tacik, gilan, kürd və b. tayfalar qohum iran tayfaları, dilləri iran dil qrupu adlandırılırdı. Onların yayıldıqları və məskun olduqları ərazilər Şərqdə Hindistandan başlayıb, Şimalda Turan, Cənubi Xəzər ovalıqları, bütün Cənubi Azərbaycan (Şimali Azərbaycan rus imperiyası tərəfindən işğal olunmuşdu), Mesopotomiyaya qədər, cənubdan Kərimsir səhrası, şərqdən

– qərbə 2500 km, şimaldan cənuba 1500 km uzanan ərazi "İran yaylası" adlandırıldı. Hindistan və Kərimsir səhrası istisna edilərsə "İran yaylası" adlandırılan bütün ərazi türklərin avtoxton olduğu ölkələr olub, türk xalqları ilə məskun türk dövlətlərinə məxsus ərazi idi, bundan Azərbaycan və Osmanlı imperiyası Avropa müstəmləkəçiliyinə qarşı mübarizə aparan ən güclü dövlətlər idi. Göründüyü kimi, irani ideoloqları iran xalqları adlandırdıqları toplumlar lokal şəkildə türk dövlətlərinin ərazilərində yaşayırdılar ki, Avropa müstəmləkəçiləri irani ideologiyası ilə onlardan türklərə və yaşadıqları digər ölkələrdəki xalqlara qarşı separatçı hazırlayırdı.

Beləliklə, İngiltərə Hindistanı (Hindistan, Pakistan, Banqladeş) müstəmləkəyə çevirdikdən sonra Azərbaycan türk dövləti Qacarlar monarxiyasını tutmağı hədəf seçdi. Gizli razılaşmaya əsasən rus imperiyasının Qacarlar monarxiyasının Araz çayından Qafqaz ərazilərinin işğalına razılıq verdi. Rus imperiyası da öz növbəsində Qacarlar monarxiyası hakimiyyəti altında olan bütün ərazilərin İngiltərənin təsir dairəsi olmasını etiraf etdi. Beləliklə, Avropa müstəmləkəçiləri Azərbaycan türk dövləti Qacarlar monarxiyasını ardıcıl olaraq daxilən zəiflədirdilər. Əsas silah isə "iranilik" ideologiyası idi. Qacarlar monarxiyası ərazisindəki bütün qeyri-türklər iranilik ideologiyası altında Qacarlar sülaləsinə qarşı birləşdirilirdi. Bu işdə rus bolşeviklərinin əlaltısına çevrilmiş Azərbaycan sosial-demokratları daxili dağıdıcı qüvvəyə çevrildi. Müxtəlif üsullarla Azərbaycan türklərinə milli hakimiyyətin yadrosu olması düşüncəsini məhv olmaq dərəcəsində unutdurdu. Xalqın milli dövlətinə biganəliyindən istifadə edən ingilis-rus müstəmləkəçiləri 1000 ildən artıq fasiləsiz hökmranlıq edən Azərbaycan türk sülaləsini devirib ingilislərin himayəçiliyi ilə fars polkovniki Rza Xanı hakimiyyətə gətirib, şah elan etdilər. İlk fars dövləti deyə anılan Pəhləvi sülaləsinin şərəfinə "Pəhləvi" soyadı qəbul etdi. İslahatlar pərdəsi altında Azərbaycan dövlətçilik ənənələrini dağıdıb hakimiyyəti farslaşdırmaq, fars mədəniyyətini hakim mədəniyyətə, hakim ideologiyaya çevirmək üçün tədbirlər gördü. Lakin onun bu siyasətinin açıq fars şovinizmi olduğunu anlayan xalqların, birinci olaraq Azərbaycan türklərinin müqaviməti ilə qarşılaşdı. Çıxış yolunu yenə avropa müstəmləkəçiləri göstərdi: yürütdüyü siyasəti pərdələmək üçün Pza şah ingilislərin məsləhəti ilə "iran ideologiyası"na qayıtdı və 1935-ci ildə Pəhləvi-fars dövləti adını dəyişib İran dövləti adlandırdı. Beləliklə, **tarixdə siyasi subyekt kimi ilk İran dövləti yarandı** (134, 323).

**Göründüyü kimi, Avropanın yaratdığı "iran ideologiyası"ndan təxminən 80-100 il sonra Asiya qitəsində İran coğrafiyası, siyasi subyekt kimi İran dövləti yaradıldı. İranlı adlandırılan xalqlar isə əsasən türk**

**torpaqlarında məskunlaşmışdılar. İlk İran dövləti də türk torpaqlarında Azərbaycan dövlətçiliyini mənimsəməklə yaradılmışdı.** "İran xalqı" və "dövləti" yarandıqdan sonra şimaldan Turan, Cənubi Xəzər ovalıqları, Şərqdən Hind çayı sahilindəki düzənlik, cənubdan Kərimsir səhrası, cənubi-qərbdən Mesopotomiya ovalığına qədər, şərqdən qərbə 2500 km, şimaldan cənuba 1500 km uzanan ərazi "İran yaylası" adlandırıldı. Xaricdə nəşr olunan kitablarda isə 1935-ci ildən etibarən bu yeni yaradılan "Fars-iran dövləti"ni süni surətdə qədimləşdirmək üçün yeni nəşr olunan kitablarda **"əhəməni", "sasani", "fars" sözləri "iran" sözü ilə əvəz olundu.** Tarix kitablarındakı əhəməni-persiya-yunan müharibəsi **"iran-yunan müharibəsi", sasani-roma", "sasani-bizans"** müharibələri **"iran-roma", "iran-bizans"** müharibələri adlandırıldı. Qədim mənbələrdəki **"fars" sözü** yeni nəşrlərdə **"iran"** kimi tərcümə olundu. Hansı ki, fars adlandırılan etnos tarixdə heç bir bəşəri yaradıcılıq göstərməmiş; **Hindistandan miqrasiya edib e.ə.VII əsrdə Kiçik Asiyaya gəldikdən sonra** adını ilk məskunlaşdığı Azərbaycanın **Pərəsa** vilayətindən almış (2, 6; 109, 21) e.ə. 550-ci ildə sui-qəsd yolu ilə Azərbaycan Midiya dövlətində hakimiyyəti ələ keçirmiş, dövləti sui-qəsdçi əhəməni sülaləsinin adı ilə "əhəməni dövləti" adlandırmış, e.ə 330-cu ildə Makedoniyalı İskəndərlə müharibədə hakimiyyəti itirmiş, 500 il sonra 226-cı ildə sui-qəsd üsulu ilə zəifləmiş Parfiya Türkmənistan hakimiyyətini oğurlamış, Parfiya dövlətinin adını dəyişmiş hakimiyyət oğrusu sülalənin adı ilə "Sasani dövləti" adlandırmışdır. Ərəb xilafətinə qarşı döyüşlərdə, 651-ci ildə Sasani sülaləsi hakimiyyətini itirdi, tarixdən silindi. Farsların dövlətçilik sahəsində yaradıcılıq qabiliyyətinin olmamasının nəticəsidir ki, onlar Azərbaycan Midiya dövlətindən hakimiyyəti oğurladıqdan 220 il sonra, Parfiyadan hakimiyyəti oğurladıqdan 445 il sonra, cəmi 675 il hakimiyyətdə olsalar da, Makedoniyalı İskəndər və Ərəb xilafəti ilə müharibələrdə hakimiyyəti itirdikdən sonra Azərbaycan türkləri və digər xalqlar dövlətçiliklərini bərpa etdikləri halda farslar dövlət qurumu yarada bilmədilər. Hindistandan miqrasiya edib e.ə. VII əsrdə Azərbaycanın **Pərəsa** vilayətində məskunlaşıb, bu vilayətdən ad aldıqıarı tarixdən farslar Midiyadan oğurladıqları 220 illik hakimiyyət, Parfiyadan oğurladıqları 425 illik hakimiyyət, Azərbaycan Qacarlar sülaləsindən oğurladıqları son 95 illik hakimiyyət istisna edilərsə, Azərbaycanın əyaləti və təbəəsi kimi yaşamış və idarə olunmuşlar.

Beləliklə, XIX əsrin ortalarından ideya kimi meydana qoyulan, XX əsrin 20-ci illərində sistemli ideologiya kimi tam formalaşdırılan hind-avropa − iranilik nəzəriyyəsi ilə avropalılar Asiya qitəsinin tarixini "baş-ayaq" qoyub, Asiya qitəsi xalqlarının etnogenezini – mənşəyini təhrif edib, bu qitədə

tarixən yaradılan bütün mütərəqqi ideya və ideologiyaları hind-avropalıların ünvanına yazmağa başladılar. Bunlardan biri bu gün də bəşəriyyətin yaşam və inkişaf qanununu özündə ifadə edən Azərbaycan türklərinin bəşər tarixində ilk dəfə idraki səviyyə göstərib "dünyanın gizli qanunları"nı, "həyat qanunları"nı dərk etmək axtarışına cavab olaraq Tanrının onların və liderləri Zərdüştün intellektual səviyyəsinə uyğun vəhyi olaraq verilən "Avesta" kitabı, təlimi idi.

Avropamərkəzçilər, irqçilər tarixi faktlara zidd uydurma üsullarla etnik qrupların və azsaylı xalqların şüuruna onların yüksək ari-irani irqinə mənsub olması haqqında ideya aşılamaqla, onları aparıcı Asiya qitəsi xalqlara qarşı qoyur, hər zaman hərbi münaqişəyə çevrilə bilən münaqişə ocaqları yaradır. Heç bir tarixi mənbədə iz qoymamış uydurma iraniliyin qədim dövrdə mövcud olmasını, "Zərdüşt " təlimində onun məhsulu olmasını müasir nəsillərin şüuruna necə aşılamasının nümunəsi üçün bir abzası oxucuya təqdim edirik. Müəllif yazır: "Zərdüşt haqqında ilk məlumatı qədim yunan tarixçisi Xeantus (Ksanf Lidyanin) (miladdan əvvəl 450-500-cü illər) vermişdir... Görünür ki, Heredot da **İran haqqında** bir çox məlumatları Xeantusdan almışdır. Xeantusdan sonra yaşayan tarixçilər də onun kitabından istifadə etmişlər. Xeantusdan başqa Zərdüştdən bəhs edən yunan tarixçisi Ktezias olmuşdur. **O, Ərdəşirin həkimi olmuş və 17 il İran şahının sarayında yaşamışdır. Buna görə də onun yazdıqları mötəbər sənəd sayılır.** Çünki özünün dediyinə görə, yazdıqları İranın rəsmi sənədlərindən götürülmüşdür" (105, 12).

Hörmətli oxucu, XIX əsrin ortalarına qədər Heredotun əsərlərinin hər hansı nəşrindən,eləcə də digər bir əsərdən **İran dövləti və coğrafiyası, etnosunu bildirən bir dənə iran sözü, (termin) tapsanız, Ərdəşirin hakimiyyəti dövründə, onun idarə etdiyi iran adlı dövlət, coğrafiya, iranlı adlanan xalq və ya əhali tapsanız, Ərdəşirin iranı ifadə edən möhürü ilə təsdiq etdiyi bir sənəd,** 1935-ci ilə qədər iran xalqı, dövləti və coğrafiyası haqqında bir dənə fakt əldə edə bilsəniz, yazdıqlarımı oxumaq üçün sərf etdiyiniz vaxt üçün sizdən əvvəlcədən üzr istəyirəm. Əgər belə bir fakt tapmasanız, sizi aldadan "elmlər doktorları", "professorlar", "akademiklər" və "əməkdar elm xadimləri"nə hansı səviyyədə necə münasibət bildirməniz mənim üçün maraqlıdır.

Yuxarıda ətraflı bəhs etdiyimiz kimi, uydurma hind-avropa-ari (iran) mədəniyyətinin ilkin ocağı, ilkin təzahürü zamanında özəllikləri, əlamət və keyfiyyətləri, digər mədəniyyətlərlə fərqli xüsusiyyətləri və üstün cəhətləri haqqında bəhs etmədən ondan anadangəlmə fövqəlyaradıcı Asiya qitəsinə mədəniyyət yayan etnos kimi bəhs edilir. Lakin hind-avropa, ari (iran) mə-

dəniyyətinin doğuluşu və yayılması tarixi, həmçinin Zərdüşt təliminin yaranmasında farsların iştirakı, onun hind-avropa (ari) etnoslarının yaradıcılıq məhsulu olması haqqında deyilənlərin ardıcıl bir-birini təkzib etməsi və etnosun yaranması, yaşam və inkişaf, mədəniyyətlərin qarşılıqlı təsiri haqqında obyektiv qanun və qanunauyğunluqlara zidd olduğundan onlar üzərində xüsusi dayanmadan bizim üçün müvafiq, qismən də olsa obyektiv görünən V.V.Bartoldun mülahizəsini əsas götürürəm. O, göstərir ki, **e. ə. I minilliyin əvvəllərində Mərkəzi və Cənubi-Şərqi Asiyadan Kiçi Asiya istiqamətinə iki miqrasiya başlayır. Bunlardan biri skif-sakların miqrasiyası, ikincisi e.ə. IX əsrdə Hindistandan çıxıb Elam ərazisinə qədər gəlib onun ərazisində məskunlaşan fars tayfaları idi.** Onların yolları haqqında akademik V.V.Bartold yazır ki, onların Şərqdən qərbə hərəkəti Xəzəryanı bölgələrdən yox, onlardan cənubdan keçir. Xəzər sahilinin yüksək dağlarına və sıx sahilyanı meşələrinə görə Xəzəryanı bölgə xalqların köçməsinin bu əsas yolundan kənarda qalırdı (136, 10).

Qədim dövr tədqiqatçılarının qənaətinə görə Midiya, Manna və Elamla bağlı mənbələrdə farsların adı e. ə. VII əsrdən xatırlanmağa başlayır.

Avropa mərkəzçiləri hind-avropa irqindən ilkin etnosların yaranışı çağında bəşər mədəniyyətinə yaradıcı impuls verən mədəniyyət kimi bəhs etsələr də konkret etnos nümunəsi göstərmirlər. İlk dəfə farsları hind-avropa (ari-iran) irqinin (ali irqin) nümayəndəsi olaraq konkret etnos kimi təqdim etsələr də, bu da aşağıda göstərəcəyimiz kimi çox uğursuz təqdimatdır. Belə ki, indi fars adlandırılan bu etnosun əcdadları e.ə. VII əsrdə gəlib Elam, Urmiya hövzəsi və Aşağı (fars) dəniz sahillərində məskunlaşarkən **onlarda hələ etnik refleksiya baş verməmişdi, özünü dərketmə, özünü anlama səviyyəsinə yüksəlməmişdilər, etnik-mənlik şüuruna malik deyildilər.** Odur ki, ekzoetnonim olan “pars” adını onlara gəlib məskunlaşdıqları Azərbaycanın Pərəsa əyalətinin adına uyğun yerli xalqlar verdi. Bunu Avropanın, hətta rusiyanın siyasətə bulaşmamış obyektiv alimləri də təsdiq edirlər (2, 25). Onlar heç vaxt ekoetnonim yarada bilmədilər.

Digər ən ciddi fakt budur ki, onlar hələ anaxaqanlıqdan ataxaqanlığa tam keçə bilmədiklərindən, ataxaqanlığın adət-ənənələri tam formalaşmadığından ata-qız, ana-oğul, qardaş-bacı evlənmələri hələ davam edirdi. Ata bir neçə qızı ilə, qardaş bir neçə bacısı ilə evlənirdi (34, 363; 137, 262-263). Onların gəlib məskunlaşdığı yeni ərazidə yerli xalqların adətinə zidd olduğundan dərhal qeydə alınıb nifrətlə xatırladıqları bu əxlaqi durumu müasir fars tarixçiləri necə yazmalarından asılı olmayaraq həqiqət birdir, bu toplum Kiçik Asiyaya gələndə hələ onlarda ataxaqanlıq tam formalaşmamışdı, odur

ki, onların hər hansı aliliyindən danışmaq cəfəngiyyatdan başqa bir şey deyildir. Odur ki, həmin dövr üçün onların yerli Azərbaycan türkləri ilə müqayisədə aliliyindən deyil, ibtidailiyindən danışıla bilər.

Mənbə və tədqiqatlar göstərir ki, Hindistandan gəlmiş hələ tayfa kimi formalaşmadıqlarından, etnonimə malik olmayan anaxaqanlıq qəbilə ittifaqı səviyyəsində olan əhali Azərbaycanın Pərəsa və Elamın Anşan vilayətlərində məskunlaşmış, qarşılıqlı təmasda tayfa kimi formalaşmış, onların ilk tayfa başçıları Əhəmən adlanmışdır (34, 359-361). Farsların ilk sosial-mənəvi birlik − tayfa forması və qurumları burada yarandı, Azərbaycan türklərinin təbəəsi kimi tarix səhnəsinə çıxdılar (34, 261).

Göründüyü kimi, farslar Azərbaycana − Kiçik Asiyaya gəldikləri dövrdə və yaşadıqları iki əsr müddətində dinin ən yüksək forması varlığın "mahiyyəti" hadisələrini dərk etmə üsulu Zərdüşt dinini dərk etmə sosial-mənəvi inkişaf səviyyəsinə çatmamışdılar. Bu haqda mənbələrdə kifayət qədər məlumat var.

Babil tarixçiləri yazırlar ki, böyük Kuruş − yeddinci Həxamənişi şahı Babilin ən böyük Allahı "Bel Mərduk"a sitayiş edirdi. Suzda və Həmədanda tapılmış II Ərdəşir kitabələrində o, bir tikili haqqında deyir: "Mən Mehr və Nahid allahlarının heykəllərini düzəldib o binaya (imarətə) qoymuşam. Mehr − Günəş Allahı, Nahid − Su Allahıdır" (105, 15).

"Tövrat"da yazılanlardan məlum olur ki, yəhudilər böyük Kuruşa olduqca dərin hörmət bəsləyirmişlər. "Tövrat"ın "Əşiya" kitabının 44-cü babında deyilir: "...Mən Yəhvəyəm və hər şeyi mən yaratmışam..." Böyük Kuruş haqqında o, deyir: "...O, mənim çobanımdır, məni sevindirən hər şeyi edəcəkdir".

Həmin kitabın 45-ci babında deyilir: "Allah göndərdiyi nicatvericisinə (yəni böyük Kuruşa) deyir: "Mən onun əlindən tutdum ki, onun vasitəsilə millətləri itaətə gətirib, şahların belindən kəməri açam və qapıları onun üzünə açıq edəm... Sən məni tanımadıqda səni adınla çağırdım, sənə ləqəb verdim. Mən Yəhvəyəm, məndən başqa heç kim yoxdur və allah da yoxdur. Sən məni tanımadıqda sənin belini bağladım ki, günəş çıxandan batanadək bilsinlər ki, məndən başqa (allah) yoxdur (105, 15).

"Tövrat"ın "Əzra" kitabının birinci babında yazılır: "Böyük Kuruş Babili aldıqdan sonra Fələstinə icazə verdi ki, dağılmış ibadərgahları təmir etsin", Kuruşun verdiyi fərmanda deyilir: "Pars padşahı Kuruş belə buyurur: "Göylər allahı Yəhvə yer üzünün bütün ölkələrini mənə vermiş, mənə əmr etmişdir ki, Yəhudun qapısı olan Örşəlimdə (Yerusəlimdə) bir ev tikim. Bütün qövm içərisində sizlərdən allahı ilə olan kim var ki, Yəhudun qapısı olan Örşəlimə

getsin, həqiqi allah olan İsrail allahı Yəhvəyə Örşəlimdə ev tiksin" (105, 15-16). Mənbələrin məlumatından göründüyü kimi, bu gün də fars adlandırılan xalqın əcdadları e. ə. VII əsrdə Kiçik Asiyaya miqrasiya edib Azərbaycan və Elam ərazisində məskunlaşanda onların intellektual səviyyələri "mahiyyəti", "gizli dünya qanunları"ndan bəhs edən Zərdüşt dinini dərk etmə səviyyəsinə çatmadığından ibtidai dinlərə və induizmə etiqad etmişlər.

Xalqların və dövlətlərin təşəkkülü prosesində ən çətin, ağır mərhələlə ilkin dövlət qurumlarından mərkəzləşmiş dövlətin yaradılmasına keçid mərhələsidir. Bu zaman bütün kiçik dövlət qurumlarının, hakim təbəqənin hüquqları məhdudlaşdırılıb vahid mərkəzə tabeçilik yaradıldığından, səlahiyyətlərinin məhdudlaşdırılmasını istəməyən hakimlər mərkəzə ardıcıl müqavimət göstərir, hətta silahlı müqavimətlə üzləşilirdi. Urmiya hövzəsi xalqının və dövlətinin ilkin təşəkkülü tarixi şəraitdən, təbii proseslərdən asılı olaraq yüksək səviyyədə getmişdir. Odur ki, onlar tarix səhnəsinə xalqların çıxışının ikinci mərhələsində xarici təcavüzə qarşı birləşmə zərurəti onların etnik-milli birliyinin yaranması, mərkəzləşmiş dövlət quruculuğuna müsbət təsir etdi. Xalqın idraki səviyyəsi və yaranışın obyektiv dərkinə cəhdinə cavab olaraq Tanrının verdiyi Zərdüşt dini və peyğəmbərliyinin onların milli ideologiyasına və liderinə çevrilməsi Urmiya hövzəsi xalqın ilkin dövlət qurumlarından mərkəzləşmiş dövlət quruculuğuna keçidini bir qədər asanlaşdırdı və sürətləndirdi. Onlar Manna və Midiya dövlətlərini yaratdılar. Nəhayət, vahid Midiya dövlətində etnik-mədəni, ideoloji və siyasi cəhətdən yekdilləşdilər. Urmiya hövzəsi xalqda zərurətin dərkindən doğan mütərəqqi xalqlaşma və dövlətləşmə prosesi getsə də, sarayda və feodallar arasında mərkəzi hakimiyyətdən narazı qüvvələr var idi və ümumən xalq fasilələrlə 1500 illik müharibədən yorulmuşdu. Bu zaman Midiyanın Pərəsa vilayətində məskunlaşmış, burada tayfa qurumu yaratmış, ərazinin adı ilə fars adlanan, mental xüsusiyyətləri hiyləgərlik, xəyanət və təbəəlik olan (138; 139; 140, 477-480) etnos Midiya sarayına yol tapıb, müxtəlif peşələrdə çalışırdılar. E.ə. 550-ci ildə Midiyada hökmdar Astiaq tərəfindən səlahiyyətləri məhdudlaşdırılan bir qrup midiyalı fars II Kirlə əlaqəyə girib saray çevrilişi ilə onu hakimiyyətə gətirdilər (34, 359-363).

Midiya xalqının dövlətçilik şüuru Astiaqın Harpaqa dediyi aşağıdakı sözlərdə bütün aydınlığı ilə ifadə olunmuşdu. Şəxsi narazılıq zəminində Midiya hakimiyyətinin farslara satılmasını bağışlanılmaz hesab edərək, Astiaq Harpaqa sübut etdi ki, o, ən axmaq və vicdansız adamdır, axmaqdır ona görə ki, Harpaq hər işi özü düzəltdiyi halda, özü padşah olmaq istəməyib, padşahlığı özgəyə verir, vicdansızdır, ona görə ki, öz şəxsi qərəzi xatirinə

midiyalıları qul vəziyyətinə salmışdır. Əgər taxtda özü oturmaq istəmirdi və mütləq bir başqasını oturtmaq lazım idisə, bu adamı midiyalılar arasından seçmək daha doğru olardı. İndi midiyalılar heç bir təqsirləri olmadığı halda qul oldular, keçmişdə midiyalıların qulu olan farslar onların üzərində ağalıq edəcəklər (139, 86-87).

II Kir Midiya sarayında hakimiyyəti ələ keçirən kimi hakimiyyətini qanuniləşdirmək üçün Astiaqın qızı Amitidiyanın ərini öldürüb onunla evləndi. Midiyanı Əhəmənilərin paytaxtından birinə çevirdi. Qədim yunanlar, misirlilər və b. xalqlar Midiya taxt-tacının Kirin əlinə keçməsini miras kimi başa düşür və çox hallarda fars əhəməni sülaləsinin şahlarını və farsları "midiyalı" adlandırırdılar. Farslar Midiya dövlətçiliyini olduğu kimi, həmçinin mədəniyyətlərinin bir çox cəhətlərini mənimsədilər. Midiya maqlarının böyük hissəsinin imtiyazını saxlamağa məcbur oldular (34, 363).

II Kir hakimiyyət başına gələn kimi dövləti hərbiləşdirdi, Midiyanın hakimiyyətində olan bütün ölkələri öz hakimiyyəti altına saldı, ölkədə farsları hakim xalq elan etdi, farsları pul vergisindən azad etdi, hakimiyyətlərinə saldıqları əyalətlərə farslardan hərbi rəislər təyin edib, dərhal işğalçılıq müharibəsinə başladı (34, 362-369).

Lakin əhəməni sülaləsinin ikinci qolu çətinliklərdən istifadə edərək, ardıcıl hakimiyyət çevrilişinə cəh göstərirdi. Farsların apardıqları işğalçılıq, hakim millətçilik siyasətləri bütün ölkədə narazılıqla qarşılanıb, üsyanlara səbəb olurdu. Nəhayət, Maq Qaumatanın başçılığı ilə üsyan e.ə. 522-ci ilin martında qələbə ilə nəticələndi. Qaumata hakimiyyətə gəldi. O, xalqın xeyrinə tədbirlər həyata keçirdi, bütün əhalini üç il müddətinə hərbi xidmətdən azad etdi. Bu zaman Əhəməni sülaləsinin digər qolundan olan I Daranın başçılığı ilə 7 fars əyanının təşkilatçılığı ilə e.ə. 522-ci ilin oktyabrında sui-qəsdçilər saraya daxil olub Qaumatanı öldürdülər, I Dara yenidən Midiya hakimiyyətini qəsb etdi. **O, Ahura Məzdanın himayəsi ilə hakimiyyətə gəldiyini elan etdi** (34, 366-375; 105, 16).

Mənbələrdən göründüyü kimi, fars adlandırılan etnosun gəlib məskunlaşdıqları yeni ərazilərdə onların ilk hakim təbəqələri etnik durumlarına və intellektual səviyyələrinə uyğun əvvəlcə regiondakı çoxallahlığa etiqad etdilər, sonra Yəhudi dinini – onun kitabı "Tövrat"ı qəbul etdilər, sonda regionda mədəni-ideoloji, siyasi gücünə uyğun olaraq Urmiya hövzəsi xalqın Zərdüşt – maq dinini qəbul etdilər. I Daranın Yəhudi dinindən üz çevirib maq dinini qəbul etməsi bilavasitə maqların ölkədə və regionda mənəvi-ideoloji təsiri ilə bağlı idi.

E.ə. IX-VII əsr hüdudunda Hindistandan gəlib Urmiya hövzəsi ərazilərdə və Elamda məskunlaşan, fars adlandırılan etnosun mədəni intellektual səviyyəsini yerli xalqlarla müqayisəli qiymətləndirmək üçün I Daranın (e.ə. 529-486) Suz şəhərindəki kitabəsi ən etibarlı mənbədir. Kitabədə I Daranın adından deyilir: "Bu sarayı mən Suzda tikdirdim. Onun bəzəkləri uzaqdan gətirilmişdir". Bəzək gətirilən ölkələrin adları sadalanır. Sarayın tikilməsi və bəzədilməsində iştirak edən ustalar haqqında məlumatda deyilir: "Daşyonanlar ioniyalı və lidiyalılardı. Qızılla işləyən zərgərlər midiyalı və misirlilərdi. Ağac naxışı vuran adamlar midiyalı və misirlilərdi. Kərpic tökən adamlar babillilərdi" (34, 388). On ikidən artıq ölkədən gətirilən 100-dən çox otaqdan ibarət **saray tikintisində fars ustalarının adı çəkilmir.**

Farslar I Daranın hakimiyyəti dövründə Elam, akkad və arami işarələri vasitələri ilə yazırdılar (34, 3). Bu yazıdan sonra istifadə edilən fars dili qədim fars dili adlandırılır. Yəni I Daranın hakimiyyəti illərində − e.ə. 522-486-cı illərdə yaradılan fars dili qədim fars dili kimi qiymətləndirilir. Beləliklə, qədim fars dili formalaşdıqdan sonra da əhəməni kitabələri fars, Elam və akkad (babil) dillərində müxtəlif yazı növləri ilə tərtib olunmuşdur. Eyni zamanda arami dili və əlifbasından istifadə edilirdi (34, 389).

İqtibas etdiyimiz, farsların öz dilləri ilə dedikləri sözlərdən göründüyü kimi, onlar burada Urmiya hövzəsi və Elam ərazisinə gələndə etnonimə malik olmayan, heç bir yaradıcılıq göstərməmiş, anaxaqanlıq qəbiləsi inkişafı səviyyəsində toplum olmuşdur. Onlar burada tayfa və tayfa ittifaqı kimi formalaşmış, qədim mənbələrdə bütün aydınlığı ilə ifadə olunduğu kimi, adlarından tutmuş bütün adət-ənənələrini yerli xalqlardan mənimsəmişlər. Urmiya hövzəsində 2500 il fasiləsiz dövlətçilik tarixinin 1500 ilini yeni tarix səhnəsinə çıxan xalqlarla müharibəyə həsr edən, tarixdə ilk mərkəzləşmiş dövlət quran Urmiya hövzəsi xalqın − **Midiya dövlətinin hakimiyyətini oğurlayan xalq, hakimiyyət idarəçiliyi zamanı yazıya və sənətkarlığın, şəhərsalma və s. sahələrdə quruculuğa malik deyildi. Onlar hər şeyi yerli xalqdan əxz edirdilər. Mədəniyyətin heç bir sahəsində yaradıcılıq göstərməmiş, adət-ənənəsi müxtəlif etnoslardan əxz olunan kosmopolit bir mədəniyyətli, xalqı ali irq, mədəniyyət yayan irq kimi xalqlara sırımaq əxlaqsız siyasətdirsə, öz xalqının nümayəndələrinin elmlər doktoru, professor, akademik, əməkdar elm xadimi maskaqsında bəşəri sivilizasiyanın ilkin yaradıcısı xalqının mədəniyyətinin təməl əsaslarının dağıdılmasında alət olmaq mənəviyyatsızlığın son həddidir.**

Elamın dağıdılmış paytaxtı Suz şəhərinin bərpası və Persoplun tikintisi e.ə. VI əsrin sonunda farsların şəhərsalmada ilk yaradıcılığı idi ki, I Daranın

etiraf etdiyi kimi, bu tikintilərə rəhbərliyi başqa ölkələrdən və xalqlardan gətirilmiş ustalar edirdilər (34, 389). Adi bir ağac, daş ustası, zərgər yetişdirməmiş bir xalqın Zərdüşt dininin, təliminin əsası olan bütün həyat hadisələrini doğuran səbəbləri, dünyada baş verən hadisələrin bir başlanğıcdan təsirlənməsi, "dünyanın gizli qanunları"nı bilmək iddiası ilə axtarışa çıxması – bütün bunları cavablandıran "Od elmi", "İşıq elmi"ni kəşf etməsi nə qədər məntiqi və ağlabatandır?

"Avesta" dini – təlimi tarixdə fars adlanan etnosun olmadığı bir çağda, ondan 1300-1400 il əvvəl, 2500 il dövlətçilik, etnik-milli quruculuq tarixinə malik Urmiya hövzəsi Azərbaycan türklərinin qəhrəmanlıq, azadlıq, yaradıcılıq ruhundan doğmuşdur.

Arxeoloji və antropoloji tədqiqatlar göstərir ki, Azərbaycan türklərinin əcdadları antropogenez zonasında qədim paleolit dövründən bütün arxeoloji dövrlərdə ilkin antropoloji tipin mədəni-mənəvi təməlində fasiləsiz inkişafdan təşəkkül etmiş bir xalqdır (141; 142; 143).

Deməli, onun dili də antropogenez zonasında yaranan ulu dilin üzərində inkişaf edib, təşəkkül tapmış ən qədim Azərbaycan türkcəsidir. Odur ki, "Avesta" kitabının ən qədim Azərbaycan türkcəsində yazılması haqqında Baloğlan Şəfizadənin aşkarladığı faktlar (materiallar) əsas götürülməli, mülahizəsi obyektiv hesab edilməlidir (109, 63-75). İranilər ideologiyasının banisi **Firdovsi də Zərdüştün türk olduğunu, maqların türkcə danışdığını deyirdi** (109, 63, 83). Böyük Nizami Gəncəvi də Zərdüştün milli mənsubiyyətindən bəhs edərkən "əsl-nəsibi urmu mənşəli türk idi" – yazırdı (109, 28).

Mənbələrin məlumatından göründüyü kimi, farslar Midiyanın dövlət hakimiyyətini oğurlayanda, onlar Yəhudi dininə etiqad edirdilər və üzlərini də Fələstinə çevirmişdilər (105, 15-16)

Lakin Qaumata üsyanı göstərdi ki, Urmiya bölgəsi – Azərbaycan nüvə olmaqla İkiçayarası, Mərkəzi Asiyada Zərdüşt – maq dini hakim ideologiyadır. Farslar Midiyada siyasi hakimiyyəti oğurlamış, lakin Midiyada dövlət dini olan – Zərdüşt – maq dininin hakim ideologiya olmasını qiymətləndirə bilməmişdilər. Çünki dövlət quruculuğu onlara məlum deyildi. Yalnız Qaumata üsyanından sonra Urmiya bölgəsi – Azərbaycan nüvə olmaqla İkiçayarası və Mərkəzi Asiya hüdudunda Zərdüşt – Maq dininin mənəvi-siyasi gücünü dərk etdilər. Dərhal Yəhudi dinindən üz çevirib, Zərdüşt – maq dinini qəbul etməyə qərar verdilər. Sui-qəsd yolu ilə Midiya hakimiyyətini yenidən ələ keçirən I Dara sosial təbəqə olaraq maqların siyasi-mənəvi gücünü, maq dininin ideoloji təsirini anlayaraq Zərdüşt dinini qəbul etməyə və kitabını farscaya çevirməyə qərar verdi, dərhal fəaliyyətə keçdi.

Göründüyü kimi, I Daranın Zərdüşt dinini qəbul etməsi, “Avesta” kitabını fars dilinə çevirməsi bu dinə məhəbbətindən irəli gəlmirdi. Təxminən e.ə VII əsrin başlanğıcında Midiyanın Pərəsa əyalətində ilk dəfə xatırlanan fars tayfasının başçısı Əhəməni I Dara və onun atası **Gəştasb** “Avesta” kitabına maq dininin müdafiəçisi və yayıcısı kimi daxil etməsi Midiya dövlətinin yaradıcılarını unutdurub Əhəməni fars sülaləsini maq dininin və Midiya dövlətinin yaradıcıları kimi yaddaşlara aşılamaq məqsədi güdürdü.

Zərdüşt peyğəmbər tərəfindən Ahura Məzdanın vəhyləri əsasında işlənib “Avesta”ya daxil edilmiş maq və digər yerli etnosların mütərəqqi adət-ənənələri farsların adına çıxmaqla “Avesta” təlimi farslaşdırılır. Farslar elmi-intellektual və dövlət quruculuğu sahəsində yaradıcılığa malik olmadıqıarından, anaxaqanlıq adətlərindən tam ayrılmadıqlarından “Avesta” təliminin ilahi elmi mahiyyəti, ümumən elmi müddəaları ya atılır, ya da farsların başa düşəcəyi məzmun və formaya salınır ki, bununla da “Avesta” kitabı ilk təhrifə, saxtalaşdırmaya məruz qalır.

Makedoniyalı İskəndərin əhəməni imperiyasını dağıdarkən Urmiyahövzəsi xalqın milli dövlətçilik ideologiyasını özündə ehtiva edən Zərdüştlük zəminində vətənlərinin və dövlətlərinin müstəqilliyinə nail olub, vətənlərini Odlar ölkəsi – Atropatena, dövlət və dini başçılarını hərbi və dini rəhbər mənasını verən Atropat adlandırmaqla, Zərdüştün doğulduğu Gənzək şəhərini dini və dövlət paytaxtına çevirmələri Zərdüştün Azərbaycan türkü olmasını birmənalı təsdiq edir, ona hər hansı yad şəcərə imkanı vermir (1, 11).

Midiyalılardan – maqlardan fərqli olaraq əhəməni imperiyasının süqutu ilə farsların hər hansı dövlət təsisatı qura bilməmələri onların nəinki Zərdüştlüyün yaradıcısı olmasını, bu ideologiyanı mənimsəyə bilməmələrinin sübutudur.

Mənbə və tədqiqatlar birmənalı təsdiq edir ki, farslar Zərdüşt təlimi, maq dini, “Avesta” kitabının yaranmasında heç bir rol oynamayıb, onun yaranmasından xəbərsizdir. Zərdüşt təlimi, “Avesta” kitabının ən mötəbər tədqiqatçılarından M.Boys və başqaları çoxsahəli araşdırmaları ilə sübut etmişlər ki, farslar Kiçik Asiyaya gəlməzdən 1500-2000 il əvvəl “Avesta” kitabı mövcud idi (109, 22).

Aristotelə aid edilən “Alkibiad” kitabına yazılmış şərhdə Zərdüştün yaşadığı dövr Aristotelin vəfatından 6000 il əvvəl olduğu göstərilir. **Roma yazıçısı Plin yazır:** “Ərəstun və Oduksus elə hesab etmişlər ki, Zərdüşt Əflatunun vəfatından 6000 il əvvəl yaşamışdır. O, sonra yazır: “Hermepusun yazdığına görə Zərdüşt Troya müharibəsindən 5000 il əvvəl yaşamışdır” (105, 12).

Hermimp Aleksandrski Zərdüştlərin həqiqi kitabını oxuduğunu bildirərək, Zərdüştün e.ə. 1194-cü ildə məhv olmuş Troyadan 5000 il əvvəl yaşadığını qeyd edir (1, 8). Avropa alimlərindən D.Layertli də Zərdüştün Troya müharibəsindən beş min il əvvəl yaşadığını yazır (109, 23).

"Avesta" təlimi Zərdüşt dininin avropalı tədqiqatçılarından Nyuberqin gəldiyi nəticə bundan ibarətdir ki, Zərdüşt Kserksin hakimiyyətindən altı min il əvvəl yaşamışdır (109, 23).

Zərdüşt peyğəmbərin yaşadığı dövr haqqında mülahizələrin sayını artırmaq da olar. Onlardan çıxan ümumi nəticə bundan ibarətdir ki, tarixin, etnomədəni inkişafın qanun və qanunsuzluğunu bilməyənlər və ya bilib də nəzərə almadan "Avesta" kitabına fars əlavələrini əsas göstərib, Zərdüşt peyğəmbərin İsa peyğəmbərdən 583-600 il əvvəl yaşamasını deyənlər istisna edilərsə, avropalı avestaşünasların əksəriyyəti Zərdüştün yaşadığı dövrü e.ə III minillik və ondan da qədim olması mülahizəsindədirlər.

# V FƏSİL.

## ZƏRDÜŞT BƏŞƏRİYYƏTDƏ FƏLSƏFƏNİN İLK MÜƏLLİFİ, FƏLSƏFİ İDEOLOGİYANIN BANİSİDİR

Varlığın ilk intellektual, elmi dərk etmə – Zərdüşt təlimi, onun "Avesta" kitabı bəşəriyyətin ilk və əbədi elmi qığılcımı olaraq, bütün varlıq formalarının yaranması və dərk etmə qanun və metodlarını ilk dəfə insanlığa təqdim etdi. Urmiya hövzəsi Zərdüşt – maq məbədləri "dünyanın gizli qanunları", "həyat qanunları"nı bəşəriyyətə açan "Od elmi", "İşıq elmi"nin ocağı olaraq bütün dünyaya işıq saçdı. Elə bu səbəbdən də dünyanın intellektual ocaqlar kimi formalaşmaqda olan ölkələrin ilk idrak işıqları Zərdüştü və onun vətənini ziyarətə çıxdılar, onunla bağlı xatirələr yaratdılar. Zərdüştün ilk ziyarətçiləri Misir, Hindistan və Yunanıstandan oldu (109, 176).

Azərbaycan dünya zəka işığının – ruhunun ilk ocağı olmaqla bəşəriyyətin ilk yaradıcılıq enerjisini vermişdir. Bəşəriyyətin Azərbaycandan doğan zəka-ruh hadisəsini məşhur **Amerika filosofu Uill Dürant** obrazlı şəkildə aşağıdakı kimi təsvir edir: "Əgər siz Avropanın xəritəsini nəzərdən keçirsəniz, onda asanlıqla müşahidə edəcəksiniz ki, Yunanıstan sanki əyilmiş barmalarını Aralıq dənizinə tərəf uzadan bir skelet əlinə bənzəyir. Ondan cənubda böyük bir ada – Krit adası yerləşir. Bizim eradan əvvəl ikinci minillikdə həmin o qəsbkar barmaqlar həmin o adadan sivilizasiyanın və mədəniyyətin başlanğıcını ələ keçirə bilmişdir. Egey dənizi boyunca Şərqə doğru Kiçik Asiya yerləşmişdir; həmin Kiçik Asiya bu gün sakit və durğun görünsə də, o vaxt – Platon dövrü ərəfəsində öz sənayesi, ticarəti, mücərrəd mühakimələri ilə çiçəklənmə çağını keçirirdi. İoniya dənizi boyunca qərbə doğru isə sanki dənizdə əyilmiş bir qüllə kimi görünən İtaliya, sonra Siciliya və İspaniya durur. O günlər onların hər birində çiçəklənən yunan koloniyaları vardı. Və nəhayət, o vaxt "Herakl sütunları" adlanan Cəbəllütariq boğazı; bu elə bir qaranlıq qapı idi ki, onu antik dənizçilərin əksəriyyəti keçməyə cəsarət etməzdi. Şimalda isə Fessaliya, Epir və Makedoniya adlı hələ ki, mədəniyyətdən uzaq, yarı vəhşi regionlar var idi. Bu regionlardan gələn və ya onlardan

adlayaraq cənuba doğru sel kimi axan enerjili tayfalardan Homer və Perikl yunanıstanının dühası törəyir...

Xəritəyə sonuncu dəfə bir də baxın və Afinanın tutduğu mövqeyi diqqətlə müşahidə edin: bu, Yunanıstanın böyük şəhərləri içərisində onun ən uzaq şərqində yerləşəndir. O, Yunanıstanın sanki bir qapısı olmaq üçün son dərəcə əlverişli vəziyyətdədir. Məhz bu qapı vasitəsi ilə yunanlar Kiçik Asiyanın işgüzar şəhərlərinə keçə bilər, eləcə də Asiyanın qədim şəhərləri öz zinət əşyalarını öz mədəniyyətlərini gənc Yunanıstana göndərə bilirdilər" (12, 11-12).

Beləcə, Avropanın ilk qabaqcıl xalqı yunanlar varlıq qanunları fəlsəfəni Zərdüşt-Avesta-Od fəlsəfəsini Azərbaycan maqlarından mənimsədilər. Maqlar ilk yunan filosoflarının müəllimləri oldu. İlk yunan filosofları Avestanı oxuyub mənimsəmələri, yüksək qiymətləndirmələri, onun müəllifi Zərdüştdən, dövrü və xidmətindən ətraflı məlumat verdilər. Azərbaycan maqlarının şagirdi olması haqqında ətraflı məlumatı olan Pifaqor fəlsəfəni hikmətsevərlik, "hikməti sevmək" mənasında Avestadan mənimsəmişdir (1, 6-11; 11, 8-10, 40-78; 18, 299-308).

Yunan filosoflarından Pifaqor yaradıcılığında Zərdüştün bir çox müddəaları təkrarlanır ki, bunu da tarixçi və filosoflar, onun Zərdüştün vətəninə gedib, maqlardan onun təlimini mənimsəməsi ilə izah edirlər. Bir çox tarixçilər − Plutarx, Apuleys, Klmens Aleksandrius və b. Pifaqoru Zərdüştün şagirdi bilmişlər (105, 13).

Miladın 970-ci ilində yaşamış yunan leksikoloqu və qramatiki Suidas məşhur xüsusi adlar lüğətində Pifaqoru Zərdüştün şagirdi kimi göstərmişdir. O, öz lüğətində iki Zərdüştün adını çəkir. Biri Midiyadan olan görkəmli alim və dini rəhbər, Troya müharibəsindən 5000 il əvvəl yaşamış Zərdüşt, digəri Ninus zamanında yaşamış astronom Zərdüşt (105, 13).

Zərdüştün təlimini öyrənmək üçün onun vətəninə gedən Pifaqor burada dünyanın heç bir ölkəsində insanlığın həyat hadisələrini mahiyyətinə görə bölüb də qiymətləndirdiyi bir bölgü − Xeyir və Şər, Doğru və Yalan, Haqq və Nahaqqa ayırıb, doğru fikir, doğru söz, doğru əməl uğrunda mübarizəsi insanlığın yeni erasının başlanması ilə tanış oldu. Bu mübarizə "Avesta" kitabında Tanrının vəhyi olaraq insanlığa göndərdiyi Humata − tanrı ağlı, huhta − tanrı səsi, sözü, huvareşta − tanrı hərəkəti ardıcıllığı ilə verilirdi, tanrıdan gələn ağıl, söz və əməlin icrası kimi göndərilirdi. Ahura Məzdadan vəhyi olaraq Zərdüştə verilən onun "Od elmi", "İşıq elmi" adlandırdığı insanlığın və bütün varlıq formalarının mahiyyətini dərk etmə yolunu, yaşam, tərəqqi, inkişaf, bir haldan başqa hala keçmə, tənəzzül (ölüm) qanun və qanunauy-

ğunluğu göstərən bir elmi Pifaqor “hikmətə məhəbbət” − yunanca “fəlsəfə” adlandırdı (1, 6-8; 11, 8-10, 40-78; 18, 299-308).

Avropada “Od elmi” və Fəlsəfə ilə sinonim kimi də işlədilmişdir. Göründüyü kimi, Fəlsəfə yunancaya “Od elmi”nin tərcüməsidir. Azərbaycanda yaranan “Od elmi”ni yunanlar “Hikmətə məhəbbət” − Fəlsəfə termini ilə mənimsəmişlər. Avropa fəlsəfə tədqiqatçılarının Hegelin fəlsəfəni “Od elmi” adlandırmasının elmi əsası yoxdur. Mənbələr göstərir ki,”Od elmi” vəhyi elmdir, yunanlar onu “fəlsəfə” adlandırdı. Fəlsəfənin qanun və kateqoriyaları, eləcə də onun “Od elmi” adlandırılmasını bəzən Hegel özü öz adına çıxır, bəzən də Avropa alimləri Hegelin adına yazırlar. Avropalıların Azərbaycandan qəbul edib, fəlsəfə adlandırdıqları “Od elmi”nin Hegelə qədər 3800 ildən artıq yaşı vardı. Bu yalana heç bir münasibət bildirmədən onu müasir Azərbaycan oxucusuna təqdim edən azərbaycanlı “elmlər doktoru”, “professor”, “əməkdar elm xadimi” fəlsəfə tədqiqatçılarını necə adlandırma və qiymətləndirmələrini, oxucuların, gənclərin ixtiyarına buraxıram.

Şagirdlərinin və tədqiqatçılarının qənaətinə görə Aristotel Zərdüşt dinini yaxşı mənimsəmişdir, odur ki, onun bir çox mülahizələri Zərdüştün mülahizələrinə uyğun gəlir. Aristotel Zərdüşt dinini ən yüksək, düşüncəli, Allaha etiqad dini hesab etmişdir (105, 12). Görünür Platonun fəlsəfəni “ilahinin insanlara hədiyyəsi” və Aristotelin fəlsəfəni “ilahi elm” kimi qiymətləndirmələri, adlandırmaları (10, 19) Zərdüşt dinində “Od elmi”, “İşıqlı elm” adlandırılan fəlsəfəni “ilahinin insanlara hədiyyəsi”, “ilahi elm” adlandırmaları Zərdüşt − Avesta təlimindən mənimsənilmişdir.

Həqiqi alimlərin qənaətinə görə “Platon, Aristotel, Anaksaqor, Sokrat, Heraklit, Demokrit, Pifaqor və s. yunan və roma müəlliflərinin kəşflərinin mənbəyi ancaq “Avesta”ya gedib çıxır. Bu da məlumdur ki, hələ Sokratın yaşadığı dövrdə “Zərdüşt məntiqi” adlı kitabdan filosoflar istifadə etmişlər. Və bu əsərin mətni elm aləminə məlumdur (109, 180).

Qədim yunan filosoflarının və fəlsəfəsinin formalaşmasında ilk Azərbaycan filosofları − maqların böyük təsiri olmuşdur. Böyük filosofların əksəriyyətinin ideyalarında, fəlsəfi görüşlərində “Avesta”dan götürülmüş müddəalara arxalanması qətiyyən şübhə doğurmur. Biz bunu Layertli Diogenin əsərində aydın görə bilərik. Əlbəttə, qədim yunan alimlərinin mənəvi müəllimləri olan maqlar, xüsusilə Zərdüşt və onun təlimi danılmaz bir həqiqətdən − bəşəriyyətin ümumi sivilizasiyasında varisliyin qorunub saxlanılmasından xəbər verir (11, 40-41, 44).

Bu cəhətdən ingilis tədqiqatçısı Meri Boysun qənaəti çox qiymətlidir. O, yazır: “Zərdüştlük bəşəriyyətə bütün digər etiqad növlərindən daha artıq

dərəcədə təsir göstərmişdir" (11, 48). "Zərdüştlüyün uca və orijinal doktrinası bütün Yaxın Şərqdə İudaizmin, Xristianlığın və Buddizmin əmələ gəldiyi və inkişaf etdiyi ərazilərə təsir göstərmişdir. İranın (Əhəməni imperiyası − X.X.) hakimiyyəti Şərqdə Şimali Hindistana qədər yayılmışdı və Zərdüştlük orada maxayan buddizminin inkişafına öz töhfəsini vermişdir. Buna görə də dünya dinlərinin hər hansı ciddi tədqiqi üçün Zərdüşt təlimi və onun dininin tarixi ilə tanış olmaq zəruridir və universitetlərdə dinlərə göstərilən maraq və bu mövzuda giriş kursuna zərurət əməmlə gəlmişdir (137, 213).

Ömrünü avestaşünaslığa həsr etmiş məşhur alman alimi Gelender yazır: "Zərdüşt qatlarda özünəməxsus dərin fikirlə danışır. Onun sözləri saxtakarlıqdan uzaq və səmimidir. O, öz sözlərini inam və qətiyyətlə deyir, onda artıq söz yoxdur. Onun bəhs etdiyi məsələ dünyada yaxşı ilə pisin mübarizəsi, yaxşı işin bu dünya və axirətdə mükafatlandırılacağına aiddir. Onun Qatları mənəviyyat və əxlaqiyyət məcmusudur" (105, 20).

Görkəmli alman professoru Hertel Qatlar haqqında yazır: "Qatlarda zəkalı, qeyrətli böyük bir şəxsiyyət coşqun maraq, mehribanlıq və qayğı ilə bizimlə danışır. Əkinçiliyi və maldarlığı xoş və fərəhli güzəran üçün əsas sayır. Xalqının içərisində yayılmış mövhumatın əleyhinədir və təbii qüvvələri allah hesab etmir" (105, 20).

Tanınmış alman alimi Geyger "Zərdüşt Qatlarda" adlı kitabında yazır: "Zərdüştün dini yabançı fikirlərdən uzaqdır və indiyədək öz təmizliyini saxlamışdır. Zərdüştün əxlaqi baxımdan tutduğu yeri, bəşər tarixindəki ciddi və yüksək mövqeyini, onun nə dərəcədə yüksək fəlsəfi fikrə malik olduğunu Qatlardan yaxşı başa düşmək mümkündür. O, ən əhəmiyyətli və böyük məsələlər haqqında cəsarət və sabitliklə fikir söyləmişdir. Zərdüşt öz zamanının zehniyyət çərçivəsindən çıxaraq çox-çox irəliyə getmiş bir şəxs idi. Ən qədim dövrdə belə, bir yaradana sitayiş etməyi xalqına öyrətdi. Onun gətirdiyi din formal dini mərasimlə və qurban kəsməklə bağlı deyildi. Onun göstərişləri pak və doğru düşüncə ilə yaşamaq üsullarına əsaslanır" (105, 20-21).

Ameriaklı alim Vitney yazır: "İran Kuruş dövründən sonra Marafon (Yunanıstan − İran) müharibəsinədək yüksək mədəniyyətli və qüdrətli dövlət, xalq isə yer üzünün böyük xalqı olmuşdur. Yunanıstan vahid bir ölkə olmayaraq, xalqları bir neçə tayfaya bölünürdü. **İran (Azərbaycan − X.X.) o dövrdə bütün dünya üçün əxlaq qanunları qəbul etdi və Zərdüşt dinini yaratdı.** Ondan sonra İsa peyğəmbər onun izi ilə gedərək həmin qanunları təbliğ etməyə çalışdı, nəhayət, dar ağacında canını fəda etdi. Lakin Zərdüştün gözəl bəyan etdiyi "uğurlu düşüncə", "uğurlu söz" və "uğurlu əməl" prinsiplərini İsa peyğəmbər ondan yaxşı açıqlaya bilərdimi? Bu üç prinsip

hər şeyi aydınlaşdırmırmı? Bütün dinlərin əsası deyildirmi? Bu prinsiplərə artıq bir şey qoşmaq olarmı?” (105, 21).

Yanaşmasından göründüyü kimi, müəllif son dərəcə səmimi olduğundan, Zərdüşt təlimi onu elə məftun etmişdir ki, o, bu təlimin yalana bükülüb təqdim edildiyini duymamışdı. Zərdüşt dövründə İran coğrafiyası, dövləti, xalqı olmadığına heç şübhə də etməmişdi. Bəli, **bütün dünya üçün əxlaq qanunu qəbul edən xalq kimliyindən asılı olmayaraq böyük xalqdır. Lakin onun bəşəri töhfəsinin bu mədəniyyətlə heç bir əlaqəsi olmayan, mədəniyyət dilənçisi xalqın adına çıxmaq, onu müxtəlif üsullarla, zorakıcasına bəşəriyyətə öz mənəvi təməlindən ayırmaqla sırımaq bəşəri əclaflığın ən yüksək zirvəsidir.**

Zərdüşt təliminin qiymətləndirilməsində R.Taqorun dəyərləndirməsi özünəməxsusluğa malikdir. O, yazır: **“İran (Azərbaycan – X.X.) tarixində ən əhəmiyyətli hadisə Zərdüşt dininin meydana çıxmasıdır.** Zərdüşt ilk şəxsiyyətdir ki, dəyişilməz əxlaqi prinsiplər əsasında din yaratmış və düzgün yol göstərmişdir. Eyni halda insanları yeganə yaradana sitayiş etməyə çağıraraq, insanların xeyir vasitəsilə təkamülünə zəmin yaratmışdır. Qədim İranda (Azərbaycanda – X.X.) (allahlara) sitayiş etdikdə heyvanları qurban kəsmək və hum naziri vermək mərasimi qadağan edildi. Zərdüştün bu işi yaradanın həqiqi və mənəvi qüvvəsini aydınlaşdırmaqda onun böyük cəsarətini göstərdi. Ahura Məzdaya sitayiş etmək üçün heyvanları qurban kəsmək və ona namaz, sitayiş etməyin çox fərqi vardır. Zərdüşt bu səddi (yəni bu fanatizmi) sındırdı. O, göstərişlərini nə bir kitabdan, nə də keçmiş ənənələrdən götürür, bəlkə, ilahi nurdan ilham alır” (105, 21-22).

“İran-Azərbaycan – XX tarixində ən əhəmiyyətli hadisə Zərdüşt dininin meydana çıxmasıdır” – yazan müəllif bu mədəniyyətin təsirindən İran-Azərbaycan – XX tarixində ikinci bir hadisəyə işarə edə bilmir. Güman etmirəm ki, R.Taqor ingilislərin “iran” ideologiyasından xəbərsiz olsunlar. Göründüyü kimi, onun deyimində Zərdüştlüyün olmamış “İran”a aid edilməsi şübhəsi özünü göstərsə də, bu böyük şəxsiyyətin həqiqəti deməyə cürətimi çatmır, yoxsa...

Yuxarıda din və elm məfhumlarına toxunub, elmin ilahi elm və dünyəvi elmə bölgüsünün siyasi məqsədlərlə yaradılması, hər iki tərəfin – “dinçilərin” və siyasətçilərin savadsız mənfəətpərəstlərin səyi ilə yaranmasından ətraflı bəhs etmişik. Dinlər ilkin vəhyi səviyyəsində insan müdaxiləsi olmamış səmavi kitablarında ən yüksək səviyyəli, birmənalı elm olmuşdur. Yalnız insanların “redaktəsi”ndən sonra dinlər elmliyini itirməyə başlamış, mövhumatlaşmışdır. Dinlərin elmlə izah olunmayan inam və etiqadlarından

ibarət olması ən primitiv düşüncə və məqsədli söylənməsidir. Dinin gücü onun elmliyindədir. İnam və etiqadların izah oluna bilinməməsi onun dərk edilmə metodunun hələlik yaradılıb-bilinməməsi və elmin aşağı səviyyəsi ilə bağlıdır.

Yuxarıda Zərdüştün yaradıcılığına yüksək qiymət verən Avropa alim və mütəfəkkirlərinin onun təlimindən ancaq din kimi bəhs etmələri, onun təliminin fəlsəfi və elmi tərəfindən söhbət açmamaları məncə qısqanclıqdır.

Avropada Zərdüştü bəşəri filosof kimi qavrayan, bütün fəlsəfi ideyaları ondan doğan, onun ideyalarını yenidən canlandırmaqla dünyaya yeni yaradıcılıq impulsu vermək istəyən filosof Fridrix Nitsşe idi. Təsadüfi deyil ki, "Zərdüşt belə demişdi" əsərində yazdı: **"Zərdüşt ilk dəfə xeyir və şərin mübarizəsində bütün şeyləri idarə edən qüvvələrin açarını göstərmişdir", onun fəlsəfəsində "dünyanın gedişatı – əksliklərin mübarizəsi kimi xarakterizə olunur". O, Zərdüşt ideyalarının doğma vətənində, Xəzərin qoynunda yenidən canlanacağını əminliklə bildirmişdi** (108; 109).

Zərdüşt təliminə münasibət göstərənlərdən biri – böyük alman filosofu, böyük olduğu qədər də ziddiyyətli olan Hegeldir. Zərdüştlükdən bəhs edən Hegel yazır: "Persiyada (Azərbaycanda – X.X.) ilk dəfə elə bir işıq peyda olur ki, başqa cür işıq saçır. Belə ki, ilk dəfə Zərdüşt tərəfindən tərənnüm olunan işıq – idrak və ruh aləminə məxsusdur. İlk dəfə elə bir işıq peyda olur ki, başqa cür işıq saçır" (109, 48). O, təlimini şərh edərək yazır ki, xeyirxahlıq, həqiqət, qüdrət ancaq şərlə mübarizədə mövcuddur. Hörmüz işıqdır və onun səltənəti işıq səltənətidir. Ümumiyyətlə, bütün dünya özünün bütün növləri və hissələri ilə birlikdə Hörmüzdür və bu işıqlı səltənətdə hər şey xeyirdir. Canlı olan nə varsa, hər cür varlıqlar, bütün mənəviyyat – hamısı işıqdır, hamısı Hörmüzdür. Onun bütün yoldaşları işıqlar, ulduzlar, dahi kimi təmsil olunmuşdur. O, hər yerdə həyata kömək etməli, məhsuldarlığa və sevincə dayaq olmalı, insanların bütün işində yardımçı olmağı, yəni arx qazmalı, qəriblərə sığınacaq verməli, səhraları çiçəkləndirməli, ağacları qidalandırmalı, torpağı suvarmalıdır. Bu din Hegelə görə – **işıq və xeyir dinidir.** Allahın varlığı burada – dünya qüdrəti və bununla yanaşı dünyanın məqsədi, fəaliyyət göstərən kimi, arzu edilən kimi, substasiya kimi, subyekt kimidir (46, 138). Hegel Zərdüştlüyü azadlıq dininə keçid təşkil edən təbiət dini adlandırmışdır.

"Xeyirxahlıq, həqiqət, qüdrət ancaq şərlə mübarizədə mövcuddur" – deyən Hegel Zərdüşt təlimində Hörmüzün Əhrimanla əbədi mübarizəsini, onun həyatın bütün sahələrini işıqlandıran nur səltənəti olmasını, Allahın dünya qüdrəti, dünyanın məqsədi kimi, substansiya, subyekt kimi əks

olunduğunu son dərəcə yüksək qiymətləndirsə də, onu qədim yunan natural fəlsəfəsi səviyyəsində **“azadlıq dininə keçid təşkil edən təbiət dini” adlandırması təəccüb doğurur.** Hansı ki, bu din bəşəriyyətin ilk təkallahlı, mahiyyəti dinidir. Ondan elm kimi də bəhs etməməsi, heç də bunları dərk etməməsi ilə izah oluna bilməz. O, həqiqətən, böyük təfəkkür sahibidir. Dövrünün ən nüfuzlu filosofu olmuş, intellektual nüfuzuna zaman hələ kölgə sala bilməmişdi. Hegelin Şərqə, onun birinci və bəşəri filosofu Zərdüştə, onun varisi filosoflara qısqanclıqla yanaşması, onları mənimsədiyini etirafa müdriklik göstərə bilməmiş, Qərbi Avropanın tarixdən kənar qalmasını ört-basdır etməyə çalışmış, hətta bu işdə Mütləq Ruhu alətə çevirmişdir.

O, Şərqi bəşər mədəniyyətinin ilkin yaradıcısı kimi etiraf etsə də, sonda özünü təkzib edən fikirlər söyləyir. Misal üçün, **“İslamda Allah dünyanın rəngarəngliyi üzərində yüksələn tək, ən ümumi sonsuz güc kimi anlaşılır. İslam bu səbəbdən sözün həqiqi mənasında ucalıq dinidir”** (5, 114), **“Elm və biliklər, xüsusilə fəlsəfə ərəblərdən qərbə keçmişdir, nəcib poeziya və azad fantaziya almanlarda əsasən Şərqdən alovlanmışdır”** (11, 21) yazan Hegel bunun ardınca nəinki klassik alman fəlsəfəsinin banisinə yaraşmayan, bəşəriyyətin mədəniyyət, mənəviyyat tarixinə xəyanət edərək yazır: **“Şərq fikrini fəlsəfə tarixindən çıxarmaq lazımdır”** (46, 178).

Hegeli anlamaq mümkündür, bütün qədim və orta əsrlər dövrü Avropa Şərq elminə və mədəniyyətinə həsəd aparmış, ona heyranlıqla tamaşa etmiş, arzusunda olduqları, xəyalı ilə yaşadıqları bir gələcək idi. Hegelin etiraf etdiyi kimi, Şərqin elm və biliklər, xüsusən fəlsəfə, azad fantaziyasının Avropaya sızması ilə bu qitə tədricən mədəni həyat yolu tutdu, fəlsəfənin mənimsənilməsi ilə azad fantaziya baş qaldırdı. Avropa mədəni-mənəvi yaradıcılıq yoluna düşdü. Gənc Avropa filosofları qoca, çox uzaqlardan yol gəlmiş, yorulmuş, Şərqin şagirdi olmalarını özlərinə sığışdıra bilməyib, müəllimlərinə həqarət edib, onları danmağa başlayanda, din və fəlsəfənin peyğmbəri Zərdüştün avropalıların Böyük bir Şərqli adlandırdıqları nəvəsi Ş,C.Əfqani Avropaya gəlib, Paris fəlsəfə klubunda onlara elm və fəlsəfəyə sahib olmaları üçün minnətdar olmalarını xatırladıb dedi : “...Yüz illər boyunca mədəniyyət yoluna atılmış yunanlar və romalılar elmin və fəlsəfənin geniş sahəsində inamlı addımlarla irəliləmişlər. Bununla bərabər, bir zaman gəldi ki, onlarda elmi araşdırmalar tərk edildi və elmi incələmələr kəsildi. Elm sahəsində yaratdıqları abidələr yıxıldı və ən dəyərli kitablar unuduldu.

Mənşələri etibarilə cahil, vəhşi olan ərəblər mədəni millətlər tərəfindən tərk edilən elmləri ələ aldılar və sönmüş olan elm ocaqlarını yenidən canlandırdılar, inkişaf etdirdilər və ona heç bir zaman olmayan parlaqlıq bəxş

etdilər... Fütuhatdan doğan haqla sahib olduqları bu elmləri inkişaf etdirdilər və yaydılar, izah etdilər, islah etdilər, tamamladılar və bu elmləri mükəmməl bir zövqlə və nadir açıqlıq və doğruluqla şərh etdilər.

Üstəlik fransızlar, almanlar və ingilislər mərkəzi Bağdad olan ərəblər kimi Roma və Bizansdan çox uzaqda deyildilər. Onlar üçün bu iki böyük şəhərdə yaranmış olan elmi xəzinələrdən faydalanmaq daha asan idi. Ərəb mədəniyyəti Pireney təpələrinə və Qərbə öz parlaq işıqlarını və zənginliklərini saçan günə qədər Avropa millətləri (yəni fransızlar, almanlar, ingilislər "çevirənin notu") mədəniyyət sahəsində heç bir fəaliyyət göstərməmişdilər.

Avropalılar Aristoteli ərəb paltarında çox yaxşı qarşılamışdılar. Halbuki onlar yunanlara qonşu olduqları zaman heç Aristotel yadlarına da düşmürdü" (3, 51-52).

Nitqini tərəqqi və tənəzzül səbələrinə istiqamətləndirən S.C.Əfqani həqiqəti tarixdən aldığı misallarla dinləyicilərin nəzərinə çatdırmaq üçün deyir: "Mənim fikrimcə elmin tədqiqi ilə məşğul olanların hamısı yəqin edir ki, dünyanın sultanı həmişə elm olmuşdur, elmdir və elm olaraq qalacaqdır. Kəldanilərin hind və tatar sərhədlərinə qədər gəlib çatan Semiramisi kimi fatehləri götürün. Əslində bu, kəldanilərin hünəri yox, onların elm və biliklərinin gücü idi... Yaxud öz balaca gəmiləri ilə Britaniya, İspaniya, Portuqaliya və Yunanıstanı öz müstəmləkələrinə çevirən finikiyalıları götürün. Onların əldə etdikləri qələbələrdə də əsas hünər elmin hünəri idi. İskəndər Yunanıstandan durub Hindistana gəlmişdi ki, Hindistanı öz təsiri altında saxlasın. O da bunu elmin hünəri ilə edirdi.

İndi isə bütün dünyanı öz təsiri altında saxlayan Avropanı, Əfqanıstanı tutan ingilisi, Tunisi işğal edən Fransanı götürün. Bunlar nə ingilisin hünərinədir, nə də fransızların, bunlar yalnız onların elminin gücünədir. **Dünyanın hər yerində həqiq hökmdar olan elm ancaq vaxtaşırı öz paytaxtını dəyişib, gah Məşriqdən Məğribə, gah da Məğribdən Məşriqə getmişdir"** (3, 27).

Ş.C.Əfqaninin çıxışı Paris fəlsəfə klubunun üzvlərini və iştirakçılarını çaşqın vəziyyətə salır, məyus edir. Klubun rəhbəri − Avropada anti-Şərq, anti-İslam fəallarından Ernest Renan çıxış edərək deyir: "Təqribən iki ay əvvəl tanış olduğum Şeyx Cəmaləddin şəxsən məni öz təsiri altına salmışdır. Onunla mən hər dəfə söhbət edəndə mənə elə gəlir ki, İbn-Sina, İbn-Rüşd və yaxud insanları əsarət zəncirindən qurtarmaq üçün çalışmış başqa Şərq dahilərindən biri ilə üzbəüz oturub söhbət edirəm" (48, 54).

Şərqin elm və fəlsəfəsini mənimsəməklə yenicə tərəqqi yoluna çıxan Avropa, yorulmuş, tənəzzül dövrünü yaşayan Qoca Şərqin poeziya, elm və

fəlsəfəsi, tarixi əzəmətini göz önünə gətirəndə bundan heyrətlənir, onların böyük yaradıcılıqlarını etiraf etsələr də, içlərində o səviyyəyə qalxa bilməyəcəkləri hissi baş qaldırıb onları qorxudurdu. Odur ki, onlar Şərqi Avropanın yetişməkdə olan yeni alim və filosof nəslindən gizləmə, unutdurma yolu tutdular. Bu da Avropanın yeni, ən yeni dövr yetişməkdə olan alim və filosoflarını qeyri-mütərəqqi yolla getməyə sövq etdi. **Bu tip Avropa filosoflarından biri və birincisi Hegel idi.** O, Avropanın yeni nəsl filosoflarını bəşər məsuliyyətinin yükünü çiyinlərinə götürməyə deyil, onda ziddiyyətlər yaratmağa yönəltdi. İlk öncə Şərq elm və fəlsəfəsini unutdura biləcəyi yanlış təsəvvürü ilə Şərq fəlsəfəsinin tarixi nailiyyətlərini adına çıxmaqla plagiyatçılığın və avropamərkəzçiliyin bünövrəsini qoydu (bu fikir bizdən əvvəl deyilib − X.X.). Avropamərkəzçiliklə Avropada Şərqə düşmən münasibət yaratdığı kimi, Avropa xalqları içində almanları ən ali xalq, insanlığın zirvəsi xalq elan etməklə onları Avropaya qarşı qoydu, onlarda faşizm ideologiyası yaradıb Avropanı qan içində boğdu, Xolokosun ideoloquna çevirdi ki, Alman xalqı hələ də utancdan çıxa bilmir.

Hegel tarixə, fakta və həqiqətə məhəl qoymadan **alman xalqının fəlsəfəni təbiətdən hasil etdiyini,** özünün onu "Od elmi" adlandırdığını (10, 21), fəlsəfənin qanunlarını kəşf etdiyini yazır. Avropa fəlsəfə tarixçiləri də bu fikri olduğu kimi təkrarlayırlar (6). Utandırıcı olsa da, XX-XXI əsr Azərbaycan fəlsəfə tədqiqatçıları – "akademik", "elmlər doktoru", "professor" və "əməkdar elm xadimləri" bu fikirləri dərsliklərə salıb tədris edirlər. Biz yuxarıda Urmiya hövzəsi Azərbaycan türklərinin xalqların tarix səhnəsinə çıxmasının ikinci mərhələsində Azadlıq ruhundan doğan mübarizə ilə Vətənlərinin azadlığını, dövlət müstəqilliklərini qoruyub yaşatmaq üçün fasiləsiz mübarizəsini, Zərdüştün Azərbaycanın əbədi odlarından "Od elmi" – fəlsəfəni təbiətdən necə hasil etdiyini təsvir etdik. Hərbi mübarizəni intellektual mübarizə ilə tamamlayıb, müharibələri və b. hadisələri doğuran "gizli dünya qanunları"nın dərki uğrunda fədakar mübarizələri ilə tək Tanrı − Mütləq Ruhu dərk etdilər. Mütləq Ruh isə onların intellektual səviyyəsinə, yaradıcı axtarışlarına yardımçı olaraq bütün yaranış, inkişaf, dəyişmənin (ölümün) səbəblərini göstərən, "gizli dünya qanunlarını" ehtiva edən "Avesta" kitabını, onu şərh edəcək ilk bəşəri dahi Zərdüştə peyğəmbərlik verdi. Zərdüşt "dünyanın gizli qanunları"nı açan bu səmavi elmi **"Od elmi", sonrakı nəsil yunan filosofları onu "ilahi elm" adlandırdılar. "Avesta" kitabında "Od elmi"nin bütün varlıq formalarının yaşam, inkişaf, dəyişmə prosesində əksliklərin mübarizəsi, kəmiyyət dəyişməsinin keyfiyyətə keçid və inka-**

**rı inkarın vahid proses kimi gedişi bütün aydınlığı ilə ifadə olunmuşdur** (1; 105).

Fəlsəfənin qanunları adlandırılan əksliklərin mübarizəsi və vəhdəti, kəmiyyət və keyfiyyət dəyişikliyinə keçid, inkarı inkar qanunlarını Hegelin Zərdüşt fəlsəfəsindən mənimsəməsini yeni və ən yeni dövr mütərəqqi Avropa filosof və fəlsəfə tədqiqatçıları, hətta kommunist rus sovet "fəlsəfə" tədqiqatçıları yetərincə bəhs etmişlər (2, 21, 29-30, 43; 11, 71-72; 109, 48, 140-143, 181).

Zərdüştün fəlsəfəni təbiətdən – oddan necə hasil etdiyi bütün incəliyi ilə təsvir edilmişdir. Hegelin almanların "müqəddəs od"u təbiətdən hasil etməsi (10, 322) **Zərdüşt fəlsəfəsindən, "Avesta" kitabından plagiyatlığı kimi qiymətləndirilməlidir.**

**Eyni ilə Hegelin emanasiya təlimi adlandırılan qanun da ,onun tərəfindən "Avesta" kitabı, Ş.Sührəvədidən plagiyatdır. Elə bilirəm fəlsəfənin yuxarıda yaranma, təzahür və təsir gücü haqqında şərhimiz bu elmin ilahi elm olmasına əlavə şərhə ehtiyac qoymur. Fəlsəfə İlahi elm – Tanrı – Ahura Məzda elmi olduğu üçün bütün bəşəriyyətə eyni məzmun və formada görünür.** Xalqların, millətlərin böhrana, dara düşəndə, ölüm ayağında yeganə çıxış yolu kimi fəlsəfəyə üz tutması, onun Tanrı – Ahura Məzda yoluna qayıtmağa, düşməyə cəhdidir. Çünki, Azad**, insani həyat İlahi elm olan "Od elm" – "**İşıq elmi**"nin mənimsənilməsi və yaşamda rəhbər tutulmasından keçir.**

Yuxarıda gördüyümüz kimi, milli fəlsəfə axtarışına çıxan fəlsəfə tədqiqatçılarımız milli fəlsəfənin yaranmasına xalqların millət kimi formalaşmasından doğan proses kimi baxır, bunun nümunəsi kimi Avropa xalqlarının keçdiyi yolu göstərirlər. Milli fəlsəfənin yaradılmasında ancaq Avropa alimlərinə, **ən biabırçısı – bir nəfər də olsun filosof, fəlsəfi müddəa yetişdirməmiş ruslara iqtibas edirlər.**

Yüksək elmi rütbəli Azərbaycan fəlsəfə tədqiqatçıları Hegeldən "ayrı-ayrı xalqların ruhu" zamanda və mövcud varlıqda inkişaf edən dünya ruhunun momentləri və mərhələləridir" (16, 532), avromərkəzçilik, avropa irqçiliyinə, hakim millətçiliyinə, müstəmləkəçiliyinin ideologiyasına çevrilən müddəasına elmi təkzib vermədən "Hegel Şərqi düz başa düşməmişdi", "sistemi ilə metodu ziddiyyət təşkil edir" və s. bu kimi ibarələrlə kifayətlənmişlər.

Böyük Şeyx Cəmaləddin Əfqaninin sözləri ilə desək "azadlıq maskası taxmış Avropa" Hegelin bu irqçi, müstəmləkəçi, hakim millətçilik ideologiyasını körpəlikdən doğulan yeni nəslə aşılanılır ki, bu ideologiya təhtəlşüu-

ra keçib möhkəmlənir, əbədiləşir. Avropa siyasətində gördüyümüz müxtəlif formalı davamlı irqçiliyi, hakim millətçiliyi, müstəmləkəçiliyi təmin edir.

Odur ki, Hegelin bu müddəasına aydınlıq gətirməyi vacib hesab edirik. Hegelin ruha verdiyi tərifə nəzər salaq. O, yazır: **"Ruhun inkişafı gedişində** (ruh isə o şeydir ki, nəinki tarixin üzərində su üzərindəki kimi dolaşır, həmçinin onda hərəkət edir və onun tək hərəkət verənidir) **azadlıq, yəni ruh anlayışının özünün müəyyənləşdirdiyi inkişaf müəyyəedici başlanğıc olur və yalnız ruh haqqında anlayış onun üçün son məqsəd, başqa sözlə həqiqət olur, belə ki, ruh şüurdur, yaxud tarixdə təfəkkür vardır və bu əsaslı müddəa sayılmalıdır, digər tərəfdən isə bu, fəlsəfi idrakdır"** (5, 413).

Göründüyü kimi, xalqın özünəməxsusluğunu doğuran, yaradan və yaşadan mənəvi dəyərlər sistemi xarakter (mentalitetdir). Şüuru, təfəkkürü onun fəlsəfi idrakını, o da öz növbəsində Azadlıq ruhunu doğurur. Bəşər tarixində bu mənəvi hadisə ilk dəfə Aratta − Urmiya hövzəsi xalqın tarixində baş verdi. **Hegel bu müddəanı Aratta − Urmiya hövzəsi xalqın tarixindən əxz etmişdir.** Bu, Hegelin "Avesta"ya yazdığı şərhin son cümlələrində aşağıdakı kimi ümumiləşdirilir: "**Zərdüşt dini işıq və xeyir dinidir. Allahın varlığı burada dünya qüdrəti və bununla yanaşı dünyanın məqsədi, fəaliyyət göstərən kimi, arzu edilən kimi, substansiya kimi, subyekt kimidir"** (11, 72).

Hegelə görə, Ümumdünya tarixinin son məqsədi ruhun öz azadlığını başa düşməsi və həyata keçirməsidir. Bu məqsəd tarixi hadisələrin hər cür dəyişikliyində mövcud olur. Çünki o, bütün bu dəyişikliklərin mənəvi inkişaf tarixi kimi, idrak və özünüdərketmə tarixi kimi qiymətləndirilir (16, 532; 22, 370).

Hegel bu müddəalarını aşağıdakı kimi şərh edir: "Xalq ruhu təbii zərurətə malikdir və xarici mövcud varlıq sferasındadır; onun özündə sonsuz əxlaqi substansiyası özü üçün xüsusiləşmiş və məhdud substansiyadır və onun subyektiv tərəfi təsadüfi geri çəkilmişdir, qeyr-şüuri ənənədir və eyni zamanda öz məzmununun konkret zaman içində xarici təbiətə və dünyaya münasibətdə olan varlığın dərkidir. Amma məhz mənəviyyat sahəsində düşünən ruh öz dövlətində xalq ruhu kimi özünün keçici maraqları ilə, qanunları və adətlər sistemi ilə qeyd olunan sonsuzluğu özündə bərtərəfləşdirir, bununla da özünü öz təbiətinin mühüm əlamətləri ilə bilməyə çatdırır; lakin bu biliyin özü də xalq ruhunun immanent məhdudluğunun möhürünü daşıyır. Ancaq eyni zamanda **ümumdünya tarixinin düşünən ruhu bir halda ki, ayrıca xalqların ruhunun qeyd olunan məhdudluqlarını və özlərinin dünyəvi xarakterini öz üzərindən atır, özünün konkret ən ümumiliyini**

**dərk edir və mütləq ruhu dərk edən təfəkkürün özü üçün azad olduğu əbədi gerçək həqiqət kimi bilmək səviyyəsinə yüksəlir, zərurət, təbiət, tarix isə onun yalnız açılmasına xidmət edir və yalnız onun şərəf damarı olur”** (5, 414).

Yuxarıdakı iqtibaslardan göründüyü kimi, Hegel cəmiyyətin mənəviyyatın ümumi məsələlərindən bəhs edərkən elmin bu sahəsini dərk edən hər kəsin gözündə böyük filosof, mütəfəkkir kimi canlanır; Qərbi Avropadan bəhs edəndə **ideoloq olaraq Şərqə Xaç yürüşünü təşkil edən papa II Urbanı** və Fransada prezident seçkisi debatında çıxış edən, nəyi necə təqdim etməyi, nələrin üstündən sükutla keçməyi bacaran, seçicini aldadıb özünə xidmətə səfərbər edən namizədi xatırladır, elə ki Şərqdən bəhs etdi, bazarda irəli sürdüyü qiymət baş tutmayanda bir anda hər hansı bir şeyin haqqında əvvəlcə dediyi müsbət sözlərin tam əksini söyləyən makleri xatırladır.

Sətirlərin müəllifi əvvəlki əsərlərində Hegelin “ayrı-ayrı xalqların ruhu” zamanda və mövcud varlıqda inkişaf edən dünya ruhunun momentləri və mərhələləri kimi” (16, 532) ideyasına həqiqət kimi yanaşmışdı. Lakin təqdim olunan əsəri yazarkən istifadə etdiyimiz elmi, fəlsəfi əsərlər, xüsusilə Stiven Hökinq və Leonard Mlodinovun “Zamanın daha qısa tarixi” (B., 2016), Hətəm Quliyevin “Aləmdən, kainatdan zəlzələyə qədər” (B., 2003) əsərlərində varlığın müxtəlif formalarının mövcudluq üsulu, dəyişmə və yaşam prosesi haqqında elmi tədqiqatların nəticələrinə, digər faktlara istinadən irəli sürülən mülahizələr bizə Hegelin bəhs etdiyimiz müddəasının süniliyini, uydurmalılığını, qeyri-obyektivliyini aşkar etməyə imkan verdi. İstifadə etdiyimiz elmlər, elmi-fəlsəfi ədəbiyyatlar varlığın bütün formalarında gedən dəyişmə, inkişaf prosesi Mütləq Ruhun ilkin təkanı, “Böyük Partlayış”la başlayan proseslərin, onun təməlində olan əksliklərin mübarizəsindən yaranan kəmiyyət və keyfiyyət dəyişikliklərinin yer kürəsində gedən proseslər onun relyefində dağlar, dərələr, düzənliklər, kainatın onunla təmasından hər relyefdə müvafiq iqlim, müxtəlif üzvi və qeyri-üzvi maddələr, bitki, heyvanlar aləmi və s. yaradır və ya bu prosesdən doğan yeninin yaranması kimi birini digəri ilə əvəz edir. Fasiləsiz bir haldan başqa hala keçmə, inkişaf, dəyişmə, yox olma (məhv olma) gedir. Bu proses eyni ilə mənəvi varlığın (xalqların) yaşam, inkişaf, tərəqqi və tənəzzül, yox olmasında özünü göstərir. Mənəvi varlıq təbiət və kosmosla vəhdətdə mənəviyyatdakı əksliklərin mübarizəsindən yaranan kəmiyyət və keyfiyyət dəyişmələrinin doğurduğu inkarı inkar zənciri xalqların yaşam, inkişaf, tərəqqi, tənəzzül – tarix səhnəsindən silinməsini doğurur. Dünyanın ayrı-ayrı ərazilərində məskunlaşmış xalqların yaşadıqları təbii-coğrafi şərait, iqlim, kosmosla əlaqə, özlərinin özlərinə

münasibətləri, adət-ənənə, mənəvi dəyərlər, intellektual səviyyə, bütövlükdə daxili və xarici təsirlər və s. səbəblərlə bu proses fərqli olur, müxtəlif nəticələr doğurur. Bütün bunların nəticəsində dünyanın ayrı-ayrı ölkələrində xalqların şüuru, təfəkkürü, intellekti, inam və etiqadı, mənəvi dəyərləri, mentaliteti və s. fərqli olur. Ayrı-ayrı tarixi dövlərdə müxtəlif ölkələrdə xalqların fərqli durumu onların mənəvi varlığını təşkil edən dəyərlərin, inam və etiqadların, adət-ənənlərin, intellekt və mentalitetinin sintezi və özünü ifadə prosesindən doğan nəticələrdir, yəni sabitlik, tərəqqi, inkişaf, tənəzzül və yoxolmadır. Varlığın bütün formaları, o cümlədən dünyanın müxtəlif ərazilərində məskunlaşmış xalqlar Mütləq Ruhun vahid qanunundan yaranmış, onun məhsulu və ya övladıdır, onun qanunları ilə yaranır, yaşayır və ölür.

İnsan maddi-təbii varlıq olmaqla bərabər, mənəvi-ruhi varlıq olması Tanrının digər canlılardan fərqli olaraq ona öz təbiətindən ağıl və seçim sərbəstliyi verməsindən doğur və bunun sayəsində də insan yaradıcılıq göstərir. İnsanın yaradıcılıq qabiliyyəti onu hissəsi olduğu vahid yaradıcılıq sferasına istiqamətləndirir. Ona yaxınlaşdıqca insanın yaradıcılıq qabiliyyəti daha da yüksəlir, nəhayət, Azadlıq Ruhuna yiyələnir, özünü tam dərk edir, bütün digər varlıqlardan və həmcinsindən fərqləndirmək səviyyəsinə yüksəldir. Bu mərhələdə Dünyanı − Mütləq Ruhun yaradıcılığını görmək və dərk etmək səviyyəsinə çatır. Bu görmənin − mərhələnin ən yüksək səviyyəsinə çatanlar peyğəmbərliyə nail olur. Onlar Tanrı ilə təmasa girməyə, onu dinləməyə müvəffəq olurlar ki, onun sayəsində insanlığın − ruhu − mənəvi varlıq kimi inkişafı daha da yüksəlir, həyatın bütün sahələrində coşqun yaradıcılıq göstərirlər.

Mütləq Ruhun ilkin təkanı zamanı ilkin əsasın − başlanğıcın nə olduğu, səviyyələri bilinmədiyindən (bütün varlıq formalarında) (4) yer planetində gedən proseslərdə ayrı-ayrı ərazilərdə fərqli relyef, bitki, heyvanat aləmi, üzvi və qeyri-üzvi mineralların müxtəlif səviyyələri yarandığı kimi, insanın ilkin yaranışı və məskunlaşması, ilkin toplumların formalaşması və yaşamı fərqli şəraitdə, daxili və xarici təsirlərə məruz qaldığından, fərqli təsirlər altında getdiyindən onlarda fərqli antropoloji quruluş, inam və etiqadlar, dəyərlər, adət-ənənələr, intellekt səviyyəsi yaranır. Bu prosesdən asılı olaraq ayrı-ayrı ərazilərdə etnoslar fərqli müddətdə formalaşır, inkişaf fərqli gedir, fərqli müddətə mənlik şüuruna yiyələnə bilirlər. Bütün hallarda insanlığın məzmunu "özünü mənlik şüurunda varlığını əldə edən azad ruhdadır" (5, 421).

Maraqlıdır, bütün təbiət, tarix və mənəviyyat aləmini bir proses şəklində, yəni arası kəsilməyən hərəkət, dəyişmə, başqalaşma və inkişafda göstər-

miş, bu hərəkət və inkişafın daxili rabitəsini aşkara çıxarmağa çalışmış (44, 19) dialektika sahəsində Zərdüştdən başlayan, özünə qədər mühakimələri fəlsəfi sistem səviyyəsinə çatdırmış (1; 2; 109) Hegel varlığın yaşam, dəyişmə, tərəqqi, tənəzzül, inkişaf haqqında nə öz yazdıqlarına, nə digər yazılanlara, hətta vəhyi, müqəddəs kitablara məhəl qoymadan bütün varlıqların yaradıcısı və onun nizamını verən Mütləq Ruh öz vaxtaşırı səfərləri ilə dünyanı gəzib xalqları ruhundan fərqli qidalandırmaqla onlara fərqli intellektual səviyyə və buna müvafiq inkişaf səviyyəsi verən və bu səviyyəni əbədi qoruyub yaşadan irqi millətçiliyə çevirilərək yazır ki, tarix insan şüurunda azadlıq şüurunun doğmasından başlayır. Bu günəş Doğuda doğdu, ancaq bu azadlıq işığı deyil, onun "ürəyə damması" idi. Çünki, Asiya despotizmində yalnız bir şəxs – despot azaddır. Hətta Şərq insanında itaət etdiyi predmet də bütünlüklə əriyib yox olmur (5, 25, 57, 112).

Buradan Dünya Ruhu qərbə doğru hərəkət edir, Yunanıstana keçir, lakin yunanlar isə ilk olaraq ruhu bütün müəyyənliyi ilə özlərinə qarşı qoyduqları kimi dərk etmişlər; ancaq onlar da nə fəlsəfədə, nə dində ruhun mütləq sonluğunun dərkinə yüksələ bilməmişlər; insan ruhunun tanrıya, ilahəyə münasibəti yunanlarda mütləq azad deyil (5, 57).

Buradan Mütləq Ruh – Dünya Ruhu Qərbi Avropaya xristian dünyasına keçir, "yalnız xristianlıq Allahın istinad təcəssümü və müqəddəs **ruhun etiqadlı icmada iştirak** etməsi haqqında təlim vasitəsi insan şüuruna sonsuz tam azad münasibət bəxş etdi və bununla da ruhun mütləq sonsuzluqda anlayışı idrakını mümkün etdi" (5, 57) yazan Hegel Avropa daxilində Alman xalqına müstəsnalıq verərək, Qərbi Avropanı idealizə edərək yazır: **"Avropalılar, əksinə, konkret – ən ümumi, özü-özünü müəyyən edən fikri özlərinin xarakteri və prinsipi kimi mənimsəmişlər. Xristian Allahı sadə, bir-birindən fərqlənməyənlərin vəhdəti deyildir, O, üçlüdür, O, özündə fərqliliyi nəzərdə tutan Allahdır, insandır və özünəçatmada təzahür edəndir.** Ən ümumi ilə xüsusinin, fikir və mövcud varlığın əksliyi bu dini təsəvvürdə daha kəskin ifadə olunmuş və eyni zamanda vəhdətə gətirmişdir. Beləliklə, burada xüsusi, İslamda olduğu kimi bilavasitə hərəkətsiz deyil; əksinə, burada xüsusi fikir vasitəsilə müəyyənləşdirilir, eləcə də ən ümumi xüsusiyə qədər inkişaf etdirilir. Buna görə də **Avropa ruhunun prinsipi özünüdərkdir, mənlik şüuru səviyyəsinə çatmış və o qədər də özünə inanan ruhudur, o, artıq öz qarşısında keçilməz bir hüdudun olmasına inanmır və buna görə də o, hər şeyə əl uzadır ki, hər şeydə öz varlığını aşkar etsin". O, şərhinə davam edərək yazır: "Avropa ruhu özünü dünyaya qarşı qoyur, ondan azad olur, ancaq yenidən bu əksliyi bərtərəf**

**edir özünə, öz sadəliyinə, öz başqasına, çöxluğa qayıdır. Buna görə də burada başqa irqlərə yad olan biliyə sonsuz canatma hökm sürür. Avropanı dünya maraqlandırır, o, dünyanı anlamağa, qavramağa, özünə əks olanı özününkü etməyə, dünyanın bütün özəl olaylarında cinsi, qanuni, ən ümumi, fikri, daxili məntiqi seyrə can atır. Nəzəriyyə sahəsində olduğu kimi, praktika sahəsində, əməldə də Avropa ruhu bu cür özü ilə xarici aləm arasında vəhdəti müəyyənləşdirməyə çalışır. O, xarici aləmi onun üzərində hökmran olmağı təmin edən enerji ilə özünə tabe edir. İndivid burada özünün hərəkətində möhkəm müəyyənləşdirilmiş ümumi prinsiplərdən çıxış edir. Avropada dövlət az və ya çox dərəcədə despotun ixtiyarından çıxarılmış, əlindən alınmış, inkişaf və azadlığın gerçəkləşməsi üçün ağıla söykənən müəssisələr işləyir”** (5, 114-115).

Göründüyü kimi, Hegel Şərqin və istərsə də Yunanıstan və Roma da daxil olmaqla Avropanın ruhi-mənəvi vəziyyətindən bəhs edərkən, nə Şərq tarixini, nə də Avropa tarixini, nə Şərqdə, nə də Qərbdə Şərq-Qərb münasibətləri haqqında yazılanların heç birini, hətta özünün elmi-nəzəri müddəalarını nəzərə almamışdır. Ondan əvvəl və ondan sonra Avropa tarixindən yazan heç bir tarixçi ən qədim dövrdə Avropada heç bir xalq haqqında məlumat verilmir, qədim dövrdə ancaq yunan və roma xalqından bəhs olunur. Orta əsrlərdə eramızın V əsrinin sonlarında Qərbi Avropada alman, kelt və slavyan tayfalarından bəhs olunur ki, bu tayfaları hərəkətə gətirən təsir, xalq haqqında F.Engels yazır: **“Hunlar ölməkdə olan Avropanı yeni həyat qüvvəsinə ruhlandırdılar”** Mərkəzi və Qərbi Avropada V əsrin sonundan hərbi-demokratiya strukturları, tayfa ittifaqları ilk dövlət qurumları yaranmağa başladı. IX əsrin 40-50-ci illərində Fransa, Almaniya, İngiltərə dövlətləri yarandı. Bunun ardınca Şimali-Şərqi və Cənubi-Şərqi Avropa ərazilərində, xalqların ilkin təşəkkülü ilə yeni dövlət qurumları yaranmağa başladı (130; 144).

Tarixdən məlum olduğu üzrə, Şərqdə – Azərbaycanda xalq kimi ilkin təşəkkül tapmış, ilkin dövlət qurumları yaratmış Azərbaycan türklərinin Azadlıq ruhunun təsiri ilə “dünyanın gizli qanunları”nı açan vəhyi Zərdüşt təlimi – maq dini onun “Avesta” kitabı “Od elmi” − fəlsəfə yarandı. Bu ideologiyanın təsiri ilə bəşəriyyətin ilk xalqı və ilk Mərkəzləşmiş dövləti quruldu. Şərqdə − Azərbaycanda dünyanın bütün dinlərinə, fəlsəfi, sosil-siyasi təlimlərinə müsbət − yaradıcı təsir göstərən, bu gün də təsir gücü zəifləməyən Zərdüşt təlimi − “Od elmi”nin yaranmasından 2500-3000 il sonra IX əsrin 40-50-ci illərində Qərbi Avropada Fransa, Almaniya, İngiltərə xalqları təşəkkül tapdı, dövlətlər yaratdı. Bunun ardınca Avropanın digər xalqları və dövlətləri yaranır.

İspaniyaya yol açan, burada qərarlaşan Şərq mədəniyyəti "ancaq Avropaya təsir etməklə qalmayıb, o, dünya mədəniyyəti tarixində mühüm yer tutur. Avropa ölkələri Korbova xilafəti vasitəsilə ərəb (ərəbdilli alimlərin − X.X.) alimlərinin, riyaziyyat, astronomiya, coğrafiya fizika, əlkimya, təbabət, anatomiya, zoologiya, fəlsəfəyə dair əsərləri ilə (tərcümələri ilə) tanış oldular. Qərb bir çox qədim yunan mütəfəkkirləri və alimlərinin əsərlərini (başlıca olaraq ərəbcədən latıncaya tərcümələr vasitəsi ilə) tanıdı (144, 364).

Avropada rasionalizm ideyasının ilk nümayəndəsi XVII əsr filosofu R. Dekort (1596-1650) idi. Rasionalizm Avropada hələ XVII əsrdə tam qalib gəlməmişdi. XVIII əsr Avropa elmi-nəzəri, fəlsəfi təfəkkürü İslam dünyasının VIII əsr elmi-tarixi təfəkkürü səviyyəsinə çatmamışdı (19, 100).

XVII yüzillikdə, xüsusən İngiltərədəki burjua inqilabından sonra bütün Avropada böyük bir dirçəliş, həyatın bütün sahələrində olduğu kimi, elmdə də özünü daha qabarıq göstərir. Alfonso, Borelli, Vitale, Cordano, Con Valis, Cirolamo Sakkeri kimi məşhur alimlər Nəsrəddin Tusinin ideyalarının birbaşa təsiri altında paralel xətlər nəzəriyyəsinə və digər nəzəriyyələrə fikirlər söyləyir, yaradıcılıq ruhuna yiyələnirdilər (137, 56-57; 19, 118).

Avroasiya xalqlarının etnik-milli tarixi, onların təfəkkür tarixi, elmi idrakın və ideyalarının tarixi birmənalı göstərir və təsdiq edir ki, müasir Avropa elmi və fəlsəfi sistemi VIII-XVII əsrlər Şərq − Azərbaycan Zərdüşt təlimi və İslam rasionalizmi əsasında təşəkkül tapmışdır (19, 115).

Şərq − Avropa münasibətləri, onların bir-birinə qarşılıqlı təsiri və bir-birini qarşılıqlı mənimsəməsi Hegeldən fərqli olaraq rus sovet tarixçisi S.Smirnov tərəfindən mənbələr əsasında təsvirini əvvəldə diqqətə çatdırmışıq.

Biz yuxarıda Avropada dərslik kimi tədris olunan tarixi əsərlərə istinadən Avropa xalqlarının, xüsusilə onun Azadlıq ruhunu vermiş ingilis, fransız, alman xalqlarının tarixinə ekskurs etdik. Onların bəşər tarixinin ən təlatümlü − insani-mənəvi yaradıcılıq yoluna çıxmasından 2500-3000 il sonra doğulub, insanlığın mənəviləşməsi yolunda heç bir əziyyət çəkmədən, mənəvi istehsal doğuşu keçirmədən hər şeyi Asiya qitəsi xalqlarından hazır aldıqlarını diqqətə çəkdik. Nəhayət, tarixin yeni dövr adlanan mərhələsində yazılmış Asiya qitəsi xalqlarının tənəzzül çağında onlardan mənimsədikləri elm və texnikanı təkmilləşdirib yeni səviyyədə istehsalla onlar üzərində hökmranlıq iddiasına düşüb və onu reallaşdırdıqlarının şahidi olduq.

İndi isə Hegelin "Ruh fəlsəfəsi" (B., 2003) əsərindən yuxarıda Avropa ruhu haqqında istifadə etdiyimiz (5, 114-115) iqtibasın bir neçə müddəasını təhlil üçün diqqətə çəkək. O, yazır: "Avropalılar, əksinə, konkret − ən ümumi, özü-özünü müəyyən edən fikri özlərinin xarakteri və prinsipi kimi

mənimsəmişlər. Xristian Allahı sadə, bir-birindən fərqlənməyənlərin vəhdəti deyildir, **O, üçlüdür; o, özündə fərqliliyi nəzərdə tutan Allahdır, insandır, özünüaçmaqda təzahür edəndir.** Ən ümumi və xüsusinin, fikir və mövcud varlığın əksliyi bu dini təsəvvürdə daha kəskin ifadə olunmuş və eyni zamanda vəhdətə gətirilmişdir. Beləliklə, burada xüsusi, İslamda olduğu kimi bilavasitə hərəkətsiz deyil; əksinə, burada xüsusi fikir vasitəsilə müəyyənləşdirlir, eləcə də ən ümumi xüsusiyə qədər inkişaf edir".

Birinci cümlədəki mülahizəni təsdiq edəcək heç bir fakt göstərilmir, çünki yoxdur, Bütün Qərbi Avropada etnosun ilkin təşəkkül mərhələsində belə bir mənəvi prosesin baş verməsi mümkün deyil. Bu ideya qismən Avropa Birliyi dövrünə uyğun gəlir. Göründüyü kimi o da tam deyil. İngilis xalqı məhz mentalitet fərqi səbəbindən bu birlikdən çıxdı. Digərləri də çıxmaq üzrədir. "Üçlü xristian Allahı" məsələsinə gəldikdə çoxallahlıq imiş kimi xristian Allahı sanki digər dinlərin allahlarından fərqləndirilir. Xristian Allahının iqtibas etdiyimiz cümlədəki təqdimatı vəhyi-müqəddəs kitablarda Allah-ruh münasibətlərinə ziddir. Mütləq Ruhdan yüksək səviyyədə bəhs edən filosofun belə yol tutması təəccüb və təəssüf doğurmaqla **bərabər dinə inamsızlıq yaratmaqla ateist fikir doğurur.** Xristian dininin tarixi bütünlüklə onun xristianlıq haqqında dediklərini təkzib edir. Avropa tarixçilərinin xristianlığın tarixi fəaliyyəti haqqında yazdıqlarından qısa bir xülasə edirik.

Dini və tarixi ədəbiyyatdan göründüyü kimi, digər dinlərdən fərqli olaraq xristianlıqda təriqətçilik onunla birlikdə doğulmuşdur.

Xristianlar özlərini üç sifətdə − Allah-Ata, Allah-oğul, Allah-Müqəddəs ruh ("müqəddəs üç üqnum") tək Allaha etiqad edənlər kimi göstərsələr də bu ideya doğuluşdan hamı tərəfindən qəbul edilməmişdir. Nestoryan və monofizt təriqətləri Allahın üç sifətliliyinə qarşı çıxdılar, bu ideyanı qəbul etmədilər, Allahın vahid təbiətdə olması ideyası ilə çıxış etdilər. Kilsə müəssisələrinin yarnması "din xadimləri"ndən "İncil"in sadə həyat təbliğinin əksinə olaraq, dəbdəbəli həyatı başladı, onlar sərvət uğrunda mübarizədə dünyəvi feodallar üzərində ağalıq iddiasına düşdülər. Dini müəssisələr feodal müəssisələri kimi görünürdü. Kilsə və monastrlara kəndlilər təhkim olunur, bütün əhali dini vergiyə məcbur edilirdi. İqtisadi cəhətdən çox güclənmiş monastrlar (abbatlıqlar) dövlətə və ölkənin siyasi həyatına təsir edirdilər. Papalığın meydana gəlməsi ilə xristian müəssisələri dünyəvi hakimiyyətə yiyələnməyə başladı, bütün əhali üzərinə kilsə ondabiri adlanan məcburi vergi qoyuldu. Xaç müharibələrinin təşkilatçısı olan xristian kilsəsi yalnız müsəlmanları qarət edib talamır, öz dindaşı xristianları da qarət edirdilər və Bizansı, onun paytaxtı Konstontinopolu xarabazara çevirdilər. Kilsə, dini müəssisə

başçılarının əxlaqsızlığına qarşı "Xristə qovuşmanın" dünyəvi adamlar və ruhanilər üçün fərqli olmasına qarşı xalq etirazları başladı. Kilsə Avropada o qədər gözdən düşmüşdü ki, xalq onu "Babil fahişəsi", şeytan əməlli papanı isə onun canişini, antixrist adlandırırdılar. Katolik kilsəsinin "şeytan əməli, papnı onun canişini" olmasını düşmən xalq "İncil"in xristian dininin mənbəyi olması uğrunda mübarizə apardı.

XII əsrin sonlarında yaranan, yepiskopluq tərəfindən həyata keçirilən inkivizisiya məhkəməsi XIII əsrin birinci rübündə papaya tabe olan müstəqil məhkəmə sisteminə çevrildi. Əvvəllər xüsusi axtarış və məhkəmə təhqiqatı aparan inkivizisiya məhkəmələri xüsusi casusluq şəbəkəsi və çuğulçuluqdan istifadə edir, "dolaşıq sözgüləşdirmə (səfsəfə, sofizm) kələkləri vasitəsilə öz qurbanlarını günahlarını boynuna almağa məcbur edir, inad göstərənlərə isə kəskin işgəncələr verirlirdi". Məhkumların əmlakı çuğulçular və inkivizasiyaçılar arasında bölüşdürülürdü. Azad fikirli alim və filosoflar təqib edilirdi. "Qan tökməmək" humanizmi elan edən inkivizasiya təriqətçiləri tonqalda yandırırdı. Xristian dini müəssisələrinin "İncil"ə uyğun gəlməyən əməllərinə etiraz edən insanların qrup halında yandırılması "cəzası – etiqad işi" adlandırılırdı. Dövrün din və hüquq qanunlarına məhəl qoymadan 1415-ci ildə Yan Qus tonqalda yandırıldı. Beləliklə, Avropada papaya qarşı başlayan "kilsə hərəkatı" azadlıq tələbi ilə çıxış edirdi. Papalar arasında dəniz quldurları və qəlp pul kəsənlər var idi. Onlar din adından hər cür fəallığa əl atırdılar. XV əsrin sonlarında cadu və cadugərlik haqqında papa fərmanı ilə onun məhv edilməsi vacibliyi elan edildi. Cadugərlərin ovlanmasına başlanıldı. Çuğulçular sayəsində uydurma düşmənlər yaradılır və məhv edilirdi. İnikivizasiya İspaniyada 9 minə yaxın kütləvi surətdə yandırma cəzası təşkil edilmişdi.

Avropada kilsə ilə feodallar arasında dünyəvi hakimiyyət uğrunda əsrlərlə davam edən mübarizə, bütövlükdə xalq kütləsinin kilsə və başqa dini müəssisə və rəhbərlərinin xristianlığın "İncil"də göstərilən qayda və etiqadlara əməl edilməsi tələbi və bu məqsədlə apardığı mübarizələri, nəhayət, XV əsrin sonunda Avropa katolik kilsəsinin dünyəvi hakimiyyət iddiası dəf edildi, xalqın səsini, humanist tələbləri eşitməyə məcbur edildi. XVII əsrin başlanğıcında Almaniyada başlayan reformasiya hərəkatı, protestantizmi Avropa kilsəsini, Roma papasını bütünlüklə dünyəvi hakimiyyət iddiasından əl çəkməyə, kilsəni islahatlarla "İncil"də tövsiyyə olunan dini-mənəvi işlərlə məşğul olmağa istiqamətləndirdi" (130; 144, 134-136, 146-147, 152-153, 180-181, 185-187, 203-235, 250-251, 278-281, 294-296, 343-345, 352-355, 417-443, 455-493).

Yuxarıda Avropada xristianlığın tarixinə etdiyimiz qısa ekskurs göstərir ki, **“xristian Allahı”nın üçlü xarakteri və avropalıların “konkret ən ümumi”, özü-özünü müəyyən edən fikri özlərinin xarakter və prinsipi kimi mənimsəmələri”, onalrda mənlik şüuru, özünüdərk, azadlıq ruhu doğurması spekulyasiyadan başqa bir şey deyildir. Xristianlığın Avropada diqqətə çatdırdığımız tarixi mövqeyi göstərir ki, Avropa xalqlarının azadlıq ruhu İslam** Şərq**indən mənimsənilmiş elm və fəlsəfədən, xristianlıqla mübarizədən doğmuşdur.** Avropanın yeni və ən yeni dövr tendensiyasız tarixçi və filosoflarının hamısı bu haqda yekdil fikirdədir. Son dövrlərdə xristian kilsələrində zorlanmış uşaqlara salınmış qəbirstanlıqlar kilsəni Allah evindən çox pedafilisya müəssisəsinə bənzədir.

İqtibasın bəzi hissələrinə də münasibət bildirək. **Avropada “başqa irqlərə yad olan biliyə sonsuz canatma hökm sürür”** sözləri ilə Hegel Qərbi Avropa xalqını elmə layiq yeganə xalq kimi göstərməklə və irqçilik məqsədi güdür. Böyük Ş.C.Əfqaninin sözləri ilə desək, çökmüş yunan elmini Ərəb xilafəti ərəb dilinə çevirib mənimsəyib, yayıb inkişaf etdirəndə doğma ölkədə elmə adi belə reaksiya verməyən, ingilislər, fransızlar, almanlar deyildimi? XVIII əsrdə Qərbi Avropada, başqa irqlərə yad olan biliyə sonsuz canatma göründüyü kimi, bu xalqın əbədi xarakter keyfiyyəti olmayıb, bütün dünya xalqalrının həyatlarının müəyyən mərhələsində tarixi səbəblərdən elmə canatmadır ki, bu keyfiyyət onlara qədər dünyanın bir çox xalqlarında olmuşdur. Daha doğrusu Asiya xalqlarında olmuş, Qərbi Avropa xalqları bu halı XVIII əsrdə keçirməyə başlamışdı. İqtibasın digər hissəsindəki fikirlər Avropa hakimmərkəzçilik, müstəmləkəçilik siyasətinin alqışlanmasından başqa bir şey deyildir. İqtibasın son cümləsindəki “Avropada dövlət az və ya çox dərəcədə despotun ixtiyarından çıxmış, əlindən alınmışdır, **inkişaf və azadlığın gerçəkləşməsi üçün ağla söykənən müəssısələr işləyir”** cümləsi iqtibasın əvvəlində Avropa xalqlarına Allahın doğuluşdan fərqli yanaşması, “azadlıq ruhunu” tam, mükəmməl səviyyədə onlara verməsi, xristian dininin azadlıq dini olması, Avropanın dünyada qarşısı alınmaz olması, başqa irqlərdə olmayan elmə sonsuz canatan olması kimi xarakter keyfiyyətinə malik xalq olması və başqa mübaliğəli fikirlərinin üstündən xətt çəkir, onları təkzib edir. Avropanın yeni tarixi inkişaf yoluna yeni məzmun və formada yenicə çıxmaqda olduğunu, “inkişaf və azadlığı” boğan despotizmin “az və çox dərəcədə” yenicə məhdudlaşdırılmağa, “ağıla söykənən” müəssisələrin yenicə fəaliyyətə başlandığı deyilir.

Hegelə görə “Ümumdünya tarixi azadlığın anlaşılmasında tərəqqidir, elə tərəqqi ki, biz onun zərurət olduğunu dərk etməyə məcburuq”. Azadlığı

anlamağı Hegel aşağıdakı kimi səciyyələndirir: **"Şərq bilir və bilirdi ki, bir nəfər azaddır, yunan və roma dünyası bilir ki, bəziləri azaddır, alman dünyası bilir ki, hamı azaddır.** Ümumdünya tarixində bizim gördüyümüz birinci forma despotizm, ikincisi demokratiya və aristokratiya, üçüncüsü isə monarxiyadır" (46, 181).

**Hegelin şərhindən belə çıxır ki, sanki Şərq, yunan-roma və Avropa xalqları onun göstərdiyi inkişaf səviyyəsində, həyat tərzində, milli durumda dünyaya gəlmiş,** ümumdünya tarixində xalqların həyatında heç bir mənəvi, ruhi, intellektual dəyişiklik olmamış, mövcud səviyyə əbədi olmuşdur. Göründüyü kimi, böyük filosof bütünlüklə özünə qarşı gedir, kütlə ideoloquna çevrilir. Sanki Hegel azadlığı dərk etməyi deyil, dərk etməməyi tövsiyyə edir. Mütləq Ruhun səyahəti zamanı doğma,əziz Avropaya birinci deyil, axırıncı getməsi təəssüf ki, Hegelin diqqətindən yayınıb.

Hegelin **"alman dünyası bilir ki, hamı azaddır"** sözlərinin həqiqilik səviyyəsini müəyyən etmək üçün tarixi faktlara müraciət edək. Hegelin bu sözləri yazdığı günlərdə Prussiya və Avstriya da daxil olmaqla almanlar 34 müstəqil feodal monarxiya və 4 şəhər dövlətindən ibarət idilər, hətta bəzi mənbə və hətta bəzi tədqiqatlarda 360 kiçik krallıqlardan, knyazlıqlardan, qraflıqlardan, baronluqlardan, müstəqil şəhərlərdən ibarət olduğu deyilir. Hər bir qraflıq öz təbəələri üzərində qeyri-məhdud despot idi "Bu da müstəqil qurumlar arasında çəkişmələr, hərc-mərclik doğururdu. Belə ki, hər bir qraflıq öz təbəələri üzərində qeyri-məhdud despot idi. Sarayda hakimiyyət tam sərbəst çinovniklərin əlində toplanmışdı və cəzasızlıq hökm sürürdü. Belə bir şəraitdə alman burjuaziyası xalqla birləşib İngiltərədə (1640 və 1688-ci illərdə) və Fransada olduğu kimi, köhnə hakimiyyəti devirib, imperiyanı yenidən qura bilərdilər. Ancaq Engelsin dediyi kimi, alman burjuaziyası o enerjidən məhrum idi və bulanmış suda balıq tutmaq, hərc-mərclik şəraitində varlanmaq prinsipi ilə yaşayırdılar.

Kəndlilərə, sənətçilərə və ticarətçilərə gəlincə onlar ikiqat iztirab içində idilər, bir tərəfdən hökumətin parazitliyindən, o biri tərəfdən işlərin pis getməsindən əziyyət çəkirdilər. Zadəganlar və knyazlar təbəələrinin şirəsini sorsalar da, özlərinin artan tələbatını ödəyə bilmirdilər. Bütün ölkəni narazılıq bürüümüşdü. Xalqda rəzil bir alverçi ruhu hökm sürürdü" (5, 11-12).

Göründüyü kimi, Hegel "alman dövləti ən kamil siyasi forma, alman cəmiyyəti isə tarixi inkişafın tacıdır və "ondan yüksəyə qalxmaq olmaz" (22, 372) yazanda, nə vahid alman xalqı vardı, nə də mərkəzləşmiş alman dövləti. Alman xalqı ictimai inkişaf səviyyəsinə görə ruslardan belə geri qalırdı. Kommunist rus imperiyasının ictimai elmlər sahəsində Azərbaycan xalqına

yetişdirdiyi akademiklər, onların 30 illik müstəqilliyimiz dövründə yetişdirdiyi varisləri tarixi faktlara istinad edib Hegeli təhlil və tənqid edə bilmirlər. Doğrudanmı Azərbaycana yetişdirilən bu "alim" nəslini qiymətləndirmə vaxtı hələ gəlib çatmamışdır? (5, 11-12).

Ölkədə tam siyasi pərakəndəlik hökm sürürdü, vahid pul, ölçü, çəki sistemləri yox idi. Mülkədar torpaq sahibliyi, mütləqiyyət quruluşu və s. qalmaqda idi. Almaniyanın imperiya adlanması, seymin mövcudluğu sadəcə görüntü idi. Almaniyada azadlıq, demokratiya ideyaları Fransa burjua inqilabının təsiri altında ilk oyanışını yaşayırdı. 1848-ci ildə Fransa inqilabının təsiri altında Köln və Berlində də üsyan baş verdi. Kral IV Fridrix Vilhelm Milli Məclisə seçkilər keçirməyə icazə verdi. 1848-ci ildə Berlində Prussiya Milli Məclisi açıldı. Xalq Milli Məclisə etimad göstərmədiyindən kral Milli Məclisi buraxdı "Konstitusiya bağışlamaq" haqqında fərman verdi.

1848-ci ilin yazında Avstriya da daxil olmaqla vahid Almaniya üçün Konstitusiya hazırlamaq məqsədi ilə Frankfurt-Maynda Ümumalman parlamenti işə başladı. Deputatların əksəriyyəti Almaniya İttifaqında olan dövlətlərin daxil olacağı vahid Almaniya imperiyasının yaradılmasını irəli sürürdü.

1849-cu ilin may ayında Saksoniya krallığının paytaxtı Drezdendə və Baden hersoqluğunda Ümumalman parlamentində hazırlanmış Konstitusiyanın demokratik müddəalarının müdafiəsi üçün üsyan başlandı. Üsyan inqilaba çevrilsə də, amansızlıqla yatırıldı. Lakin inqilabın təzyiqi altında Prussiyada Konstitusiya qəbul edildi, onun təsiri altında 1850-ci ildə feodal kəndli mükəlləfiyyətləri ləğv edildi.

1848-1849-cu illər inqilabında məğlub olsalar da, Almaniyanı kapitalizm inkişafı yoluna saldı. Kənddə mülkədarlar burjualaşdı, sənaye burjuaziyası yarandı. Burjuaziya və burjualaşmış mülkədarlar Prussiyanın başçılığı ilə Almaniyanı yuxarıdan birləşdirmək istəyirdilər. Odur ki, Prussiya kralı IV Vilhelm Almaniyanı "dəmir və qanla" birləşdirmək siyasətini bildirəndə Otto Bismarkı Baş nazir təyin etdi. Otto Bismark ciddi hərbi hazırlıqdan sonra alman xalqını vahid dövlətdə birləşdirmək üçün 1864-cü ildə müharibəyə başlayaraq, Şilezviq və Qolşteyn vilayətlərini Danimarkanın əlindən aldı. 1866-cı ildə Prussiya Avstriyanı məğlub edərək 22 alman knyazlığını Şimali Alman İttifaqı adı altında birləşdirdi, onun vahid Konstitusiyasını qəbul etdi. 1871-ci ildə Versalda Almaniya imperiyasının yarandığını elan etdi, aprel ayında Ümumalman Konstitusiyasını qəbul etdi (145, 224-233, 299-319, 385-405, 500-517).

Hegelin “İnsanın məzmunu özünün mənlik şüurunda varlığını əldə edən azad ruhdadır” (5, 421) elmi mülahizəsi obyektiv həqiqətdir, hər bir etnosun mənəvi durumunu müəyyən etmək üçün barometrdir. Təəssüf ki, o, Şərq-Qərb, Xristian-İslam münasibətlərində obyektivliyi itirir, hətta almanları hər hansı digər avropa xalqı ilə müqayisə edəndə də obyektivliyi bütünlüklə itirir. Almaniyada inqilab, yeni dövr mənəvi mədəniyyət ziyalıları, Hegel də daxil olmaqla Fransa inqilabının, fəlsəfi fikrinin təsirindən yetişdiyi bir gündə, bunları özünün də etdiraf etdiyi halda, 34 feodallıqda, despotik ictimai quruluşda yaşayan, vahid çəki, ölçü sisteminə malik olmayan, milli mənlik şüuruna malik olmadığından azadlıq ruhuna malik olmayan, mərkəzləşmiş vahid dövləti, Konstitusiyası olmayan bir xalqı **“alman dünyası bilir ki, hamı azaddır”** kimi təqdim etmək, inqilabi-mənəvi təsirləri ilə milli oyanış keçirən xalqın azadlığı müəllimindən yüksək qiymətləndirməsi onun ruhi-mənəvi cəhətdən millətçiliyə enməsinin göstəricisidir. Otto Bismark − dəmir Kansleri 34 alman knyazlığını vahid dövlətdə birləşdirdikdən, onun Konstitusiyasını qəbul etdikdən 22 il sonra Hegelə hörmət əlaməti olaraq, onun yazdığı “Alman Konstitusiyası” 1893-cü ildə nəşr olundu (146, 738).

Hegel Avropa xalqlarına Mütləq Ruhun azadlıq ruhunu əbədi verdiyini söyləyir. Almanlar birinci olmaqla Avropa xalqları bütünlüklə azadlıq ruhuna malik olduqlarını iddia edir. Bəs görəsən Avropaya dünyanın altıda birini xarabazara çevirən dağıdıcı kölə ruhu − sosializm ideologiyasını kim verib? Bu ideologiya Şərqdən, İslam dinindən Avropaya keçməyib? Görəsən Hegelin davamçıları bu və bu kimi suallara cavab verəcəklərmi?

“Mənəviyyatı xalqlar əbədi həqiqətlər kimi özündə və özü üçün mövcud allahlar kimi təsəvvür etmişlər. Mənəviyyat qanunları son dərəcə ucadırlar” (47, 200) yazan filosofun xalqları mənəvi cəhətdən qeyri-obyektiv təsvir etməsi, yeni nəsillərin yaddaşına aşılaması çox təhlükəli haldır. Hegel kimi mənəviyyat qanunlarını çox yüksək səviyyədə bilən böyük filosofun bəşəriyyəti vəhdətə gətirmək əvəzinə, ziddiyyətlərə, irqçiliyə sürükləməsi təəssüf doğurur.

Hegel “Şərq bilir və bilirdi ki, bir nəfər azaddır, yunan və roma dünyası bilir ki, bəziləri azaddır, alman dünyası bilir ki, hamısı azaddır. Ümumdünya tarixində bizim gördüyümüz birinci forma despotizm, ikincisi demokratiya və aristokratiya, üçüncüsü isə monarxiyadır” yazanda Avropanın hələ ən qabaqcıl ölkələri İngiltərə və Fransada burjua inqilabları hələ tam başa çatmamışdı. **“İnsan və vətəndaş hüquqları bəyannaməsi” yenicə qəbul edilmişdi, Azadlıq və demokratiya uğrunda mübarizə gedirdi.** “Hamısı azad kimi təqdim olunan alman dünyasında alman xalqı yox idi. Vahid çəki

və ölçü sisteminə, mədəniyyətə, ədəbi dilə, mərkəzləşmiş dövlətə malik olmayan, təhkimçiliyin hakim olduğu alman etnosları 34 pərakəndə, müstəqil feodallıqda və 4 şəhər dövlətində məskun idi.

Mütləq Ruhu çox yüksək səviyyədə insanlığın şüuruna aşılayan, mənəviyyatın sistemini və qanunlarını yüksək səviyyədə bilən Hegelin bu bilgi ilə bəşəriyyəti Mütləq Ruhun müqəddəs yoluna istiqamətləndirmək əvəzinə onun adından xalqlar arasında süni üsullarla ögey-doğmalıq, düşmənçilik toxumu səpmək, görünür doğuluşdan ruhunda xeyirlə bərabər mövcud olan şərdən gəlir. İlahi elmin zirvəsinə yüksələn çox az filosofdan biri biri olsa da, göründüyü kimi qəlbini – ruhunu Şərdən təmizləyə bilməyib. Milli fəlsəfəni Avropa nümunəsində və Avropa alimlərinin müddəaları əsasında yaratmaq istəyən fəlsəfə tədqiqatçılarımız ehtiyatlı olmalıdırlar.

Mənə elə gəlir ki, fəlsəfənin İlahi elm olması haqqında izahımız yetərlidir. Burada fəlsəfənin İlahi elm olmasını tərif kimi qısa xülasəyə ehtiyac duyuruq. **Bütün varlıq formalarının nüvəsində olan, onu hərəkətə gətirən, yaşamını, inkişafını, tənəzzüllərini doğuran vahid proses əksliklərin mübarizəsi və vəhdəti, kəmiyyət və keyfiyyət dəyişməsi və inkarlara tərəqqi, inkişaf, bir haldan başqa hala keçməni ifadə edən fəlsəfə – ilahi elmdir.** Ona görə ki, hər bir varlıq formasını hərəkətə gətirib, yaşam, tərəqqi, inkişaf və tənəzzül doğuracaq qanunlar onun nüvəsində onunla birlikdə doğulur, yəni yaradan tərəfindən qoyulur. **Varlıq formalarında bu prosesi görən, onda cərəyan edən qanunların fəaliyyətini izləyə bilən şəxslər filosoflardır.**

Maraqlıdır, milli fəlsəfə yaratmaq iddiasında olan tədqiqatçılarımız sanki bu problemdə fəlsəfə qanunları işləmirmiş kimi bir dəfə də olsun fəlsəfə qanunlarından bəhs etmirlər, bu problemdə fəlsəfə qanunlarının necə cərəyan etməsinə toxunmurlar. Problemin qoyuluşunda məsələnin bu tərəfini Ə. Tağıyev xüsusi vurğulayaraq yazır: "..."milli fəlsəfə" nədir və onun predmeti nədən ibarətdir? Kateqoriyaları, qanunları, əsas anlayışları və metodları hansılardır" (65, 593) desə də, məsələyə aydınlıq gətirmir.

Milli fəlsəfə yaratmaq təşəbbüsü mahiyyət etibarı ilə nədən ibarət olmuşdur və fəlsəfə tədqiqatçılarımız bu axtarışda hansı məqsədi qarşya qoyduqlarına aydınlıq gətirəndə F.Qurbanovun təqdimatından görünür ki, XIX əsrdə İtaliya, İspaniya, Rusiya, Slavyanlarda milli fəlsəfə yaratmaq mahiyyət etibarı ilə **milli şüurun və xarakterin bərpası, qismən də milli ideologiyanın yaradılmasından ibarət olmuşdur. Günümüzdə fəlsəfə tədqiqatçılarımızın milli fəlsəfə yaratmaq təşəbbüsü mahiyyət etibarı ilə milli**

**ideya, milli ideologiya, milli mentalitet, milli ruh, milli mənlik şüurunun canlandırılması, "müasir və perspektiv tələbatlara cavab verən yeni epistemoloji sistemin hazırlanıb təqdim olunması", "bu yeni milli fəlsəfə planda dünyagörüş, metologiya olub, ancaq postqeyriklassik idrak mərhələsini əks etdirməməli, problem situasiyaları müəyyənləşdirə bilməli, gələcəkdən xəbər verməli, idrakın hələ adı müəyyənləşməmiş 4-cü pilləsinə keçid etməlidir".**

Milli fəlsəfə yaratmaq təşəbbüsündə olan tədqiqatçılar milli ideyanı, ideologiyanı, dünyagörüşü, mentaliteti, hətta inam və etiqadı fəlsəfə ilə eyniləşdirirlər. Bu, tamamilə yanlış fikirdir. Milli ideya, ideologiya, dünyagörüş, mentalitet və milli konsepsiya da, fəlsəfə ola da bilər, olmaya da bilər. **Milli ideya, ideologiya, dünyagörüş və milli konsepsiya o zaman mükəmməl olur, yaradıclıq götərə bilir ki, məhz obyektiv fəlsəfə qanunları əsasında qurulur.** Lakin bu halda da göstərilənlərin heç biri bütünlüklə fəlsəfi mahiyyətə çatıb, onu əvəz edə bilməz, göründüyü kimi, bu anlayışların hər biri milli həyatda fərqli funksiyaya malikdir. Onların heç biri fəlsəfi funksiyaya malik deyil, ancaq fəlsəfə vasitəsilə harmonik qurula bilirlər və öz funksiyalarında harmoniklik göstərə bilirlər. Bütün varlıq formalarının harmonik durumu, onun element, hissə, yarımsistem, bütövlükdə sisteminin harmonik düzümündə ehtiva olunur, fəlsəfə vasitəsilə müəyyənləşdirilir, qiymətləndirilir, tənzimlənir və istiqamətləndirlir.

Göründüyü kimi, fəlsəfə tədqiqatçılarımızın milli fəlsəfə yaratmaq təşəbbüsləri XIX-XX əsrlərin əvvəllərində Avropada milli fəlsəfə yaratmaq fəaliyyətləri ilə təxminən eyni mahiyyət kəsb edir. Bir qrup tədqiqatçı milli fəlsəfəni birmənalı milli ideya, ideologiya, mentalitetlə eyniləşdirir, onların və milli mənlik şüurunun canlandırılması kimi qiymətləndirir, digər qrup isə bütünlüklə milli tələbata cavab verən, dünya elminin son nailiyyətləri əsasında qurulan konsepsiya kimi baxır. Bu konsepsiya həqiqəti nə dərəcədə ifadə edəcək, fəlsəfəni özündə hansı səviyyədə ehtiva edəcək, sual altındadır.

"Milli fəlsəfənin nədən ibarət olması" aydın deyilsə, "dünyada nə qədər millət varsa, bir o qədər də fəlsəfə növləri olmalıdır... bu isə mümkün deyilsə", dünyada bu məqsədli axtarışlarda konkret olaraq hər hansı bir milli fəlsəfə modeli yaranmayıbsa, bu məqsədli axtarışların hamısı son nəticədə bir-birini təkrarlayan milli fəlsəfə bəşəri xarakter daşıyır qənaətinə gəlirlərsə, deməli milli fəlsəfə yaratmaq mümkün deyil.

Heç bir ideya təsadüfən doğmur, onda ilkin olaraq milli fəlsəfə ideyasının yaranmasına aydınlıq gətirək. Bu ideyanın yaranmasının ilkin səbə-

bi filosofun onun yaratdığı əsərin, onun doğulduğu ölkənin və xalqın adı ilə bağlanması, dünyaya təqdim olunması, onun yaradıcılığının dünyəvi və bəşəri mahiyyətinin arxa plana keçilməsidir.

Bütün fəlsəfə tarixləri bu cür yazılmış və yazılmaqdadır:

**Fəlsəfə tarixi:**

1. Antik yunan fəlsəfəsi;
2. Orta əsrlər Avropa fəlsəfəsi;
3. Yeni dövr Avropa fəlsəfəsi;
4. İngilis fəlsəfəsi;
5. Fransız fəlsəfəsi;
6. Klassik Alman fəlsəfəsi;
7. Rus fəlsəfəsi və s. (6; 20; 22, 125).

Filosofun hansı ölkədə doğulması və hansı xalqa mənsub olmasından asılı olmayaraq, əgər onun yazdığı əsər dünyəvi mahiyyət kəsb edirsə, yəni bütün kainatda, dünyada gedən prosesləri vəhdətdə izah edirsə, deməli fəlsəfədir, onu yazan da, filosofdur. Filosofun hansı ölkəyə və xalqa mənsubluğu sadəcə olaraq ölkənin və xalqın fəxridir. Onun yaradıcılığı bütün dünya xalqlarının üzünə açıqdır. Böyük Ş.C.Əfqaninin sözləri ilə desək "elm − ondan istifadə edənindir".

İlahi fəlsəfəni vəhyi olaraq Tanrıdan ilk qəbul edən, onu fəlsəfi təlim kimi formalaşdıran özünün Maq fəlsəfi məktəbini yaradan, Hind, Misir, Yunan şagirdləri vasitəsi ilə Hindistanda, Misirdə, Yunanıstanda fəlsəfi məktəblərini yaradan Azərbaycan türkü Zərdüşt və onun yaradıcılığı dünya xalqlarının fəlsəfi tarixinə daxil edilməmişdi. Nə qədər utandırıcı olsa da, Azərbaycanın XX-XXI əsr nəsli onu ya tanımır, ya da fars və ya ona qohum başqa xalqın nümayəndəsi bilir.

Hər bir ölkənin və xalqın filosof yetişdirməsi onun bəşəriyyətə ən böyük töhfəsidir. Məsələn, Zərdüşt, Ş.Sührərverdi, Bəhmənyar, Nizami, Nəsimi, İbn-Sina, Fərabi, Aristotel, Pifaqor, Demokrit, Russo, Volter, C.Lok, Kant, Hegel, Nitsşe, K.Yaspers, Herder və b. filosoflar bəşəriyyətin sönməz, əbədi mənəvi qida mənbələridir. Hegelin irqçilik, özündən əvvəlki filosoflardan, xüsusilə Zərdüşt, Ş.Sührərverdi və b. Şərq filosoflarından plagiyatları, milli mənlik şüuruna yiyələnməmiş, xalq kimi təşəkkül etməmiş, mərkəzləşmiş dövlət qurmamış almanları dünya xalqlarının fövqündə olan xalq kimi təqdim etməsi kimi günah işləri olsa da, Hegelin fəlsəfi yaradıcılığı, xüsusilə mənəviyyat fəlsəfəsini mənimsəyən, mənən tənəzzül etmiş səviyyəyə düşmüş xalqa xoşbəxtlik qapısı açacağına qətiyyən şübhəmiz yoxdur.

Heç bir filosof anadangəlmə bəşəriyyəti qavramır, o insan, birgəyaşayış, təbiət, bütövlükdə kainat haqqında məlumatların hamısını ilkin olaraq vətənindən və xalqından alır, tədricən vətənindən kənara çıxır, digər xalqları və onların yaradıcılığını, təbiəti, bütün kainatı mənimsəməyə başlayır, ardıcıl olaraq daha çox mənimsəməyə başlayır. Vətəninin iqlimi, təbiəti, bitki və heyvanlar aləmi, adət-ənənəsi, inamı-etiqadı, bütün mənəvi dəyərlər sistemi, xalqı, ilk müəllimləri vasitəsi ilə kainat haqqında ilk bilgilər, onun insanlıq, varlığının digər sahələri haqqında ölçüləri olur. Nəhayət, o, dünyada çoxlu belə ölçülər olduğunu dərk edir, müqayisə edir, bu ölçülərdən hansının daha obyektiv olması haqqında düşünür, milli ölçünün hamı üçün nümunə olması qənaətindən imtina edir, həqiqətə daha yaxın olanı, daha mütərəqqi olanın nümunəyə çevrilməsi təşəbbüsü ilə çıxış edir, bu mərhələdə o, filosof səviyyəsinə yüksəlir.

O, birinci vətənindən və xalqından başlayır. Çünki o, maddi və mənəvi varlığı ilə vətəninin kiçik bir elementidir, onun bütün bədən hüceyrələri canlandıqca, fəallaşdıqca, öz ilkin maddəsinə can atır, onu hərəkətə gətirir, ruhən xalqını hərəkətə gətirir, dərk etdiyi yeniliyi də ona vermək istəyir. Hegelin millətçiliyi buradan doğurdu. O, bütün mənəvi yaradıcılığı ilə alman xalqını dünyada birinci görmək istəyirdi. Elə Əbülhəsən Abbasova: “Milli olmayan fəlsəfə axtalaşdırılmışdır, “Mən”siz, cansız, qansız nəsnədir, simasız və mənəviyyatsız bir şeydir. Belə “fəlsəfə” alovlandırıcı − yandırıcı ruh daşıyıcısı, idrakı zirvə nümunəsi ola bilməz.

Fikrimcə, fəlsəfənin təyinatı və statusu elə ilk növbədə onun milliliyi təkzib ediləndə, nəzərə alınmayanda təhrif olunur. Milli özəyi − özəli, milli koloriti olmayan “fəlsəfə” heç vaxt bəşəri əhəmiyyət daşıya bilməz, o, nə lokal və regional, nə də universal təqdimatda bir fayda gətirməz...

Yalnız milli ruhlu fəlsəfə bəşəri əhəmiyyətli, kamil və valehedici ola bilər, mütərəqqi inkişaf üçün dəyərli töhfə verər” (66, 11, 17-18) sözlərini yazdıran da bu qanundur.

Böyük alman filosofu K.Yaspersin “Tarixin mənası və təyinatı” əsərini hər dəfə oxuyanda elə düşünürəm ki, o, sanki bütün tariximizin, xüsusilə bu günümüzün şahidi olub. Hər dəfə bu kitabı oxuyanda məndə bu fikir daha da qüvvətlənir. Fəlsəfə tədqiqatçılarımızın milli fəlsəfə yaratmaq ideyasını doğuran səbəbləri axtarırdım. Beynimdə müxtəlif mülahizələr yaranırdı, lakin onları qələmin rənginə bükübkağıza köçürməyə tələsmədim. Mülahizələrimi kənarda saf-çürük etmək üçün stoldan ayrılmaq istəyirdim ki, yenə K. Yaspersin rəfdəki “Tarixin mənası və təyinatı” kitabı məni özünə çəkdi. Kitabı götürüb vərəqləməyə başladım. Aşağıdakı mülahizələri diqqətimi çəkdi.

Elə bil milli fəlsəfə yaratmaq yolunda əzabkeşlik edən fəlsəfə tədqiqatçılarımızın müşahidədən çıxardığı nəticələrdir. O, yazır: "İnamsızlıq insanın başqalarının hansısa həyat şərtləri içində qalaraq, qüvvəsinin itməsinə, dərk oluna bilən zərurət və labüdlüyə tabe olmağa, aqibətin yaxınlaşmasının zəifləyən şüurun doğurduğu bədbinliyə gətirib çıxarır. İnsan saxta, keyfiyyətcə müəyyən bir varlıqda boğulur... Amma tarixi gerçəklik neytral deyil. Bizim tarixə əsl münasibətimiz onunla mübarizədir. Tarixin bilavasitə bizə dəxli var; onda bizə aidiyyatı olan hər şey özlüyündə insan üçün indinin problemini təşkil edir. Tarix nə qədər az estetik feyz predmetidirsə, o qədər çox bizim üçün indinin probleminə çevrilir...

Ancaq tarixdən kənarda bilik sahəsində bizim üçün Arximed nöqtəsi yoxdur (40, 385, 388, 635). Məhz elə bu səbəbdən Azərbaycan fəlsəfi fikir tarixinin yenidən nəzərdən keçirilərək onun ilk qaynaqları, ilk qəhrəmanlıq dastanımızın olması kimi qiymətləndirilməsi nə qədər uğurlu bir tapıntıdırsa, fəlsəfi fikir tariximizdə Zərdüşt fəlsəfəsinin yeri və ruhundan bəhs edilməməsi, nəinki fəlsəfə tariximizdə, bütövlükdə mənəviyyat tarixində qırılma, varisliyin pozulmasından xəbər verir. Bu böyük faciəvi hadisəni hələ XX əsrin əvvəllərində böyük mütəfəkkir **Y.V.Çəmənzəminli** müasirlərinin diqqətinə çatdırmaq üçün yazırdı: "Azərbaycan üç min sənəlik az-çox səhih bir tarixə malikdir. Bu məlumatımız yalnız siyasi cərəyan və yaxud əsgəri bir hərəkatdan ibarət deyil, biləks, siyasət və hərb daima Azərbaycanın xaricində qalmış hadisələrdir. Əsl Azərbaycanı orada aramamalıdır. Ölkəmizi alımşümul edən, onun mədəniyyətini təməl daşı kimi tələqqi etdirən yalnız onun mənəviyyat tarixi, fəlsəfəsi və bu yolda mücadilə və yaxud sülhpərvər təlqinlərdir.

Bu həyat muğ (cəmi muğan) adlı zəki və peyğəmbəri ilhama malik bir millətin minlərcə illər əvvəl Kür ilə Araz çaylarının arasında məskən salmaları ilə bağlayır. "Aran" təmsiyə etdikləri bu torpaq dünyaya Zərdüştü bəxş edir. Qədim aləmin ən böyük kitabı "Avesta" burada vücuda gəlir. Zərdüşt mədəniyyətin başlıca əsaslarını qurur və onu mütəaqib mənsub olduğu muğlar əsrlərcə bütün Şərqin mənəviyyat rəhbərləri olurlar...

Bu fəlsəfə və yaratdığı zehniyyət sayəsində Aran, Muğan və bütün Azərbaycan mədəniyyət həyatında yüksək dərəcələrə çıxmışdı. **Lakin ərəb istilası Zərdüştün atəşi lə bərabər ölkəmizin mədəniyyət işığını da söndürdü.** Dərbənddən Həmədana qədər sərf olunan əməklər məhv oldu... Böyük bir mədəniyyət kökündən qoparıldı və elmi məhsullar da öldürüldü" (147, 315).

**Zərdüştün "Avesta" kitabına Makedoniyalı İskəndər qisas**çılığı, ərəb nadanlığı ilə yalnız vətənimiz Azərbaycanın deyil, bütün bəşəriyyətin

“mədəniyyət işığı” söndürülmüşdür. Naqislər və nadanlar tərəfindən bu işıq söndürülməsəydi, xalqların idrakı səviyyəsi imkan verdikcə bu fəlsəfəni − dini qəbul edəcək. İlk dərk etmə çağından Tanrının yaşam, inkişaf, tərəqqi, tənəzzül (dəyişmə) qanunlarını dərk edəcək, həyatlarının harmonik vəziyyətini qoruyub saxlamaq üçün Zərdüştün doğru fikir (düzgün qiymətləndirmə), doğru söz (fikrin sözlə düzgün ifadə edilməsi), doğru əməl − üçlü təlimi ilə xalqlar öz həyatlarını ilahi qanunu ilə harmonik quracaq, insanlar və xalqlar arasında xeyirxah münasibətlər qurmağa istiqamətlənərək, bütün dünyada xalqların xeyirxah əlaqə və münasibətləri qurulacaq, **bu fəlsəfənin ilkin vətəni və peyğəmbəri bütün bəşəriyyət tərəfindən ziyarət olunacaqdır.** Təsadüfi deyil ki, xalqların intellekti yüksəldikcə, idrak qabiliyyəti artdıqca Zərdüşt dininə – fəlsəfəsinə, onun kitabı “Avesta”ya maraq artırdı. Hətta yəhudilər “Avesta” kitabını peyğəmbərləri İbrahimin adına çıxırdılar (105, 5).

Bütün təkallahlı dinlər, o cümlədən İslam dini, onun müqəddəs kitabı “Qurani-Kərim”ə cənnət, cəhənnəm, qıl körpü, namaz, mələk, şeytan, cin və b. kultlar Zərdüşt dini, onun “Avesta” kitabından keçmişdir. Zərdüşt dini, onun “Avesta” kitabı da digər təkallahlı dinlər, onların kitabları kimi müqəddəs hesab edilmiş, onlara and içilmişdir. Bu haqda “Qurani-Kərim”də yazılır: “And olsun yazılmış kitaba (bütün ilahi kitablara) − Açıq dəri üzərində (olan kitaba)” (112, 522).

“Əş-Şəms (Ganəş) surəsində isə Zərdüştün andları olduğu kimi kopiyalanmışdır:

– And olsun günəşə və onun işığına (günəşin qalxdığı vaxta);

− And olsun (Günəşin) ardınca çıxan Aya;

− And olsun onu (Günəşi) parlaq edən gündüzə;

− And olsun onu (Günəşi) örtən gecəyə;

− And olsun göyə və onu yaradana;

− And olsun yerə və onu döşəyənə;

− And olsun nəfsə (insana) və onu yaradana (ona biçim verənə);

− Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şər) öyrədənə ki” (112, 594).

Bir səmavi kitabda olan fikrin digər səmavi kitabda təkrarlanması təbiidir. Belə ki, insanlıq vahid anlayışa malik olduğu üçün onun mahiyyəti, və prinsipləri də eynidir.

Mənbə və tədqiqatların məlumatına görə “Qurani-Kərim”in toplanıb vahid nüsxə kimi nəşr olunması Azərbaycanla bağlı hadisə olmuşdur. Azərbaycanın işğalını başa çatdırıb, buraya yetərincə ərəb köçürüb məskunlaşdırdıqdan sonra, ərəb sərkərdələri və din başçıları hərdən toplaşıb İslamın müd-

dəaları haqqında söhbət edərkən yetərincə bir-birinə zidd fikirlər, ixtilaflar ortaya çıxır. Bu haqda xəlifə Osmana məlumat verirlər. Osman peyğəmbərin bütün əsabələrini, onun sözlərini yaşadanları toplayıb, dinləyib, ziddiyyətləri aradan qaldırıb, onun deyimlərini vahid kitab "Qurani-Kərim" halına salır. Altı nüsxə "Qurani-Kərim" yaradır, onun bir nüsxəsini Mədinədə saxlayır, 5 nüsxəsini əyalətlərə göndərir.

Beləliklə, məhz İslam dininin Azərbaycanda aşkarlanan ziddiyyətlərinin təsiri altında bu dinin vahid kitabı "Qurani-Kərim" yaranır. Maraqlıdır, bütün Kiçik Asiya, Çin və Volqa çayına qədər Mərkəzi Asiyanın, Afrikanın böyük ərazilərinə yayılan ərəblərin Məhəmməd peyğəmbərin deyimlərində ziddiyyət aşkarlanmadı, yalnız Azərbaycandakı ərəblərin İslam haqqında deyimlərində ziddiyyətlər aşkarlandı. Göründüyü kimi, "Qurani-Kərim"in vahid nüsxəsinin yaradılması zərurəti haqqında mənbələr ərəb-İslam təəssübkeşliyi ilə həqiqəti gizlətmişlər. Bu da mümkündür. Lakin ərəblərə mane olan bu iki vəhyi kitabın arasında ziddiyyət idi. Əslində bunlar ziddiyyət deyildi. Həqiqət bundan ibarətdir ki, İslam dini onun vəhyi kitabı "Qurani-Kərim"də yetərincə mahiyyəti məsələr qoyulsa da, o, Zərdüşt dini kimi bütövlükdə mahiyyəti din deyildi, ərəbləri cahillik səviyyəsindən çıxarmaq məqsədilə Tanrı tərəfindən nazil olmuşdu, Məhəmmədə (ə) peyğəmbərlik verilmişdi. Beləliklə, ərəblər digər kitaba malik dinlərdən fərqli olaraq bəşəriyyətin **ilk vəhyi "mahiyyəti", "gizli dünya hadisələri"ndən xəbər verən Zərdüşt dinini, onun "Avesta" kitabını başa düşmədiklərindən və ya siyasi məqsədlə qadağan edirlər.** Görünən budur ki, Tanrı Məhəmməd (s.ə.s.) peyğəmbər vasitəsilə yəhudi və xristian dinləri, onların peyğəmbərləri kimi bəlkə də onlardan əvvəl Zərdüşt dini və onun kitabı haqqında "Qurani-Kərim"də deyilmiş məlumatlar olmuşdur.

Zərdüşt dinini, onun təlimini başa düşmək səviyyəsində olmayan, cahilliyədən yenicə çıxmaqla, imperiya yaratmaq iddiasında olan ərəblər Zərdüşt dini, onun təlimləri ilə bağlı Məhəmməd (ə) kəlamları "Qurani-Kərim"dən çıxarırlar. Göründüyü kimi, buna bütünlüklə nail ola bilməmişlər (ətraflı bax: 109).

Görəsən digər vəhyi, təkallahlı dinlər kimi Zərdüşt dini də öz təbii axarında yaşayıb "Avesta" təlimini inkişaf etdirməklə bəşəriyyətdə "İşıq elmi" − "Od elmi" − Fəlsəfə dinləşdirsəydi, insanlıq elm − fəlsəfəni olduğu kimi Tanrı − Mütləq Ruh qanunu kimi anlayıb, dərinləşdirsəydi, xalqlar içində bu təlimin daşıyıcıları bir sosial təbəqəyə çevrilsəydi, onun nəticəsi nə olardı?

Yəqin ki, meşələr od tutub yanmaq, insanları havasızlıq, susuzluqla cəzalandırmazdı, su daşqınları şəhərləri, kəndləri, əkin sahələrini dağıdıb

xarabazara çevirməzdi; ərəblər öz əlləri ilə vətənlərini xarabazara çevirib, xalqlarını dilənçiliyə məhkum edib dünyaya səpələməzdi?

Budur ərəblərin Zərdüşt dini, “Avesta” fəlsəfəsini məhv etməklə özlərinə və bəşəriyyətə töhfələri. Dünyanın vəhyi Zərdüşt dini, “Avesta” təliminə biganəliyidir, öz-özünə od tutub yanan meşələr, kəndləri, şəhərləri, əkinləri xarabazara çevirən sellər.

Təklənmiş vəziyyətdə bizi 2500 illik müharibələrdən qalib çıxaran, dövlətçiliyimizi, xalqımızı ilkin milli-mənəvi təməli üzərində yaşadan, vətənimizi bəşəriyyətin ilkin fəlsəfə məktəbinə, elm mərkəzi kimi ziyarətgaha çevirən Zərdüşt şəxsiyyətinə, Zərdüşt dininə, onun “Avesta” fəlsəfəsinə − təməl mədəniyyətimizə biganəliyimiz, unutqanlığımızdır bizə sağdan xər (eşşək), soldan qoyun dedirdən, heyvani münasibət doğuran. “Avesta” kitabına biganəliyimizdir bizi elm üçün qapımıza gələnlərin qapısında boynu bükük qoyan, dayandıran, gözlədən...

Vətənimin və millətimin gələcəyi gənclər, ərəblər xalqımıza Zərdüşt dinini, fəlsəfəsini, əxlaqını asanlıqla, birdən-birə unutdura bilmədilər. Böyük Nizami, Füzuli, Nəsimi, başqa şair və filosoflarımız Zərdüştün “Od fəlsəfəsi”ni XV əsrə kimi hörmətlə qoruyub yaşatdılar, xalqımız onu nağıllaşdıraraq yaşatdı. Təəssüf... (ətraflı bax: 109).

# VI FƏSİL

## AZƏRBAYCAN FƏLSƏFƏ TƏDQİQATÇILARININ MİLLİ FƏLSƏFƏ YARATMAQ TƏŞƏBBÜSÜNÜN UĞURLARI

Milli fəlsəfə yaratmaq işində fəlsəfə tədqiqatçılarımızın fəlsəfə tarixinə xüsusi önəm verməsi, milli-fəlsəfi dəyərlərdə varislik əlaqələrinin bərpası istiqamətlərində əməli işlər görməsi, bu məsələyə önəm vermələri təqdirə layiqdir. Lakin fəlsəfə tədqiqatçılarımızın Zərdüşt dini – "Od fəlsəfəsi"ndən Azərbaycan türklərinin bəşəriyyətə verdikləri ən böyük töhfə, milli həyatın tarixi-mənəvi bir sistemi kimi bəhs etməmələri, ona biganəlikləri xalqımızın milli-mənəvi varislikdə eləcə də fəlsəfi fikir tarixində varisliyin pozulmasının göstəricisidir. Bu prosesi bərpa etməyin zəruriliyi haqqında K.Yaspers yazır: "Ümumdünya tarixi nöqteyi-nəzər dedikdə, biz nəyi başa düşürük? Biz tarixi hansısa bir tam kimi başa düşməklə özümüzü də başa düşməyə çalışırıq. Tarix təkcə haqqında bildiklərimiz şey yox, həm də elə bir şeydir ki, həyatımızın kökləri ondadır. Tarixdə – izsiz itmək yox, insan varlığına öz töhfəmizi verməyi istəyiriksə, artıq bir dəfə qoyulmuş olanla əlaqə saxlamağımız əsasdır" (40, 337).

Ən utandırıcı məsələlərdən biri – fəlsəfə tədqiqatçılarımızın "Fəlsəfə" dərsliklərində Zərdüşt fəlsəfəsindən, ondan sonra gələn Azərbaycan filosoflarının, eləcə də Şərq filosoflarının fəlsəfənin qanun və kateqoriyaları sahəsindən, sanki yox imiş kimi bəhs etmədən Zərdüştün, N.Tusinin və başqa filosoflarımızın ruhundan qorxmadan Hegelin fəlsəfə qanunlarını kəşf etməsi kimi yalanı dərsliklər vasitəsilə gənc nəslin şüuruna pərçim etmələridir. Artıq bu, manqurtluqdan doğan bir cinayətdir.

Fəlsəfə tədqiqatçılarımızın Avropa fəlsəfə tarixindən mənimsədikləri müddəaya görə, xalq millətləşəndə onun fəlsəfəsi də milliləşir. Beləliklə, fəlsəfəni etnik və milli mərhələlərə bölürlər. Fəlsəfə tarixini etnik və milli mərhələyə bölməyin heç bir elmi, məntiqi, fəlsəfi əsası yoxdur. Bu bölgünü əsas götürsək, onda klassik alman fəlsəfəsi adlandırılan fəlsəfəni etnik alman fəlsəfəsi adlandırmalıyıq. Çünki, bu fəlsəfə bütövlüklə etnik alman mühitin-

də yetişmişdir. Bəşər fəlsəfi fikir tarixinin ən parlaq nümayəndələri Herder, Kant, Fifte, Şellinq, Hegel, Feyrbax milli mənlik şüuruna malik olmayan, vahid özünəməxsusluğu yaranmamış, vahid mərkəzləşmiş dövləti olmayan, **38** pərakəndə despotik alman feodallıqlarına malik etnik alman mühiti yetişdirmişdir.

**Fəlsəfə Mütləq Ruhun ilkin təkanı – Böyük partlayışla 13,7 milyard il əvvəl varlıqla birlikdə onun ruhunda doğulan, e.ə. III minilliyin sonu – II minilliyin başlanğıcında Zərdüştün Azərbaycanda insanlığın ağla sığmayan hətta yırtıcı vəhşilərin həyatında olmayan amansızlıqların səbəbini öyrənib qarşısını almaq üçün ehtizazlı, ruhi həyəcan vəziyyətində Tanrıya üz tutub "gizli dünya qanunlarını", "həyat qanunlarını soruşub, başa düşmək istəyirəm" sorğusuna cavab olaraq Tanrı Səmavi "Avesta" kitabı vasitəsilə vəhy etdi** (1, 23; 105, 54-55, 61,). Beləliklə, Fəlsəfə zaman-zaman dəyişən, yeniləşən insanın, dəyişən, yeniləşən dünyanı dərketmə metodudur. Fəlsəfəni etnik fəlsəfə, milli fəlsəfə kimi dövrlərə bölmək onun dünyagörüşlə eyniləşdirilməsidir. Dünyagörüşün fəlsəfəni olduğu kimi, bütövlükdə ehtiva etməsi mümkün deyil. Etnik-milli dünyagörüşdə etnosun bütün mənəvi sistemi iştirak edir, dərk etmə, idrak onun bir elementidir, burada o, hakim deyil, istiqamətvericidir. Hətta bəzi etnoslar olur ki, onlarda idrak adət-ənənəyə tabe vəziyyətdə olur. **Bütün etnoslar fəlsəfi idraka** yiyələnə bilmir. Etnosun fəlsəfi idraka yiyələnməsi, fəlsəfi yaradıcılıq göstərmək çox az etnoslara qismət olur. Bu da bütün etnosa aid olmur, ona aid olan çox az adama qismət olur. Fəlsəfi idrak düha və dahilərdə, nadir alimlərdə, dünyagörüşdə fəlsəfə dəyər mövqeyində olur. Millətə mənsub yüksək fəlsəfi idraka malik filosoflar, alimlər, digər yaradıcı şəxslər milli ideologiyanın yaradılmasında fəlsəfə qanunlarından, **yerində düzgün istifadə etdikdə milli ideologiya fəlsəfə kimi – obyektiv inkişaf qanunu kimi işləyir və etnosun mənəvi sistemində çatışmazlıqları aradan qaldırıb mənəvi sistemini harmonik səviyyədə qurmaqla yaradıcılıq göstərməsini təmin edir və ya etnosun qarşısına qoyulmuş vəzifənin təbii proses kimi həyata keçirilməsini təmin edir və s...**

Varlığın ruhunda olan obyektiv qanun kimi insanın ancaq dərk etmək, istifadə etmək imkanından başqa heç bir təsir etmə imkanına malik olmayan fəlsəfəni Avropa fəlsəfə tədqiqatçılarının etnik və milli inkişaf səviyyələrinə bölmələri kifayət deyilmiş, onu tarixi dövrlərə bölürlər. Hansı ki, söhbət ta-

rixin ayrı-ayrı mərhələlərində fəlsəfə idrakından, ondan istifadə metodlarından gedə bilər.

Bu bölgü olduğu kimi Azərbaycan fəlsəfi fikrinə gətirilir, yazılır: “XX əsrin başlanğıcında fəlsəfənin , bütövlükdə idrakın vəziyyəti ötən əsrin əvvəllərindəki vəziyyəti xatırladır. Məhz o vaxt kvant mexanikası və nisbilik nəzəriyyəsi ideyaları yaranaraq klassik idrakın məhdudlaşdırıcı çərçivələrini aşmış, onun inkişafında qeyri-klassik mərhələyə doğru yeni yol açmışdır. Ötən əsrin ortalarından sonuna qədərki dövrdə idrakın formula edilmiş bir sıra ən yeni istiqamətləri idrak ənənəsində üçüncü, post-qeyri-klassik mərhələnin əsasını qoymuş, bununla da təkcə klassikanın deyil, həm də qeyri-klassikanın ilk baxışda qərarlaşmış görünən kateqoriyaları, ideyaları, aksiomaları, nəzəriyyələri, paradiqma və konseptləri əhəmiyyəti (bəlkə də radikal) surətdə dəyişmişdir. Energetikanın, mürəkkəblik nəzəriyyəsinin, fənlərarası yanaşmanın, ümumi təkamülçülüyün və s. ideyaları klassizmin təməlini dağıtmaqla prinsipial fərqi, idrak binasının hansısa təməl üzərində ucaldılma imkanını inkar edən postmodernist dünyagörüşünün qərarlaşmasına rəvac vermiş, bununla da sanki 2500 illik fəlsəfə tarixini dalana gətirmişdir. Doğrudanmı məsələ əslində belədir? Doğrudanmı biz fəlsəfəni “sonuncu mənzil”ə yola salırıq? “Əziz mərhum”un nurani simasını bizim üçün nə əvəz edə bilər?.. Əsas məsələ isə odur hələ ki, müəyyənləşməmiş, idrakın dördüncü (post-qeyri-klassikadan sonra) mərhələsinin səciyyə və əsasları haqqında müzakirələrin başlanması məqsədilə əvvəllər bir-birindən uzaqda dayanan müxtəlif fənlərin predmetləri arasında əlaqələrin aşkarlanması nəzərdə tutulur” (96, 26-27).

Fəlsəfənin çoxsaylı tərifləri arasında unudulmayan, elə fəlsəfə kimi yaşayan “fəlsəfə varlığın bütün formalarının, yaşam, inkişaf, tərəqqi, tənəzzül (bir haldan başqa hala keçmə) prosesi haqqında elmdir” tərifi özünü fəlsəfənin əksliklərin mübarizəsi və vəhdəti, kəmiyyət dəyişməsinin keyfiyyət dəyişməsinə keçməsi (və əksinə), inkarı inkar qanunlarında ehtiva etmişdir. Məhz fəlsəfənin bu üç qanunu kainatda, dünyada, varlığın bütün sahələrində gedən təbii proseslər bu qanunlar vasitəsilə aşkarlanır, dərk olunur, insan təbiətə müdaxilə edərkən bu qanunları nəzərə almalı olur. **Görülən işin bütün nəticələri həmişə fəlsəfənin bu üç qnununa necə, hansı səviyyədə nəzərə alınmasından asılı olur.**

Maraqlıdır, XX əsrin ortalarında 2500 illik klassik fəlsəfəni "son mənzil"ə yola salandan sonra "əziz məhumun" simasını bizim üçün nə əvəz edə bilər? − deyilsə də, fəlsəfə tədqiqatçıları məsələyə aydınlıq gətirmirlər.

Klassik fəlsəfənin "dəfn"indən sonra qeyri-klassik, post-qeyri-klassik, **modernist fəlsəfənin hansı qanunlarla işləməsi haqqında heç nə demirlər, "adı hələ ki, müəyyənləşməmiş, idrakın dördüncü" (post-qeyri-klassikadan sonrakı) mərhələsinin" hansı qanunlarla işləyəcəyi haqqında heç nə deyilmir.**

**Beləcə, hər şeyi mücərrəd olan, qanun və kateqoriyaları bəlli olmayan, təxminən 4-cü sənaye inqilabı kimi təsəvvür olunan, fəlsəfi epistomelogiyanın əsasında bizə milli fəlsəfə yaradılacağı vəd olunur.**

Tədqiqatımızın məqsədi olmadığı üçün fəlsəfə adlandırılan qeyri-klassik, post-qeyri-klassik, postmodernizm fəlsəfəsi haqqında şərh verməyə ehtiyac duymuruq. Ona görə ki, bu tədqiqatlar bəşəri problemləri deyil, elm, texnika, mədəniyyətin müxtəlif problemləri ilə bağlı dövlətlərin, şirkətlərin, oliqarxların cari tələbatlarına cavab verəcək araşdırmalar olduğundan keçici olmuş, ümumbəşəri əhəmiyyət qazanmamış, xüsusilə mədəniyyət sahəsində ziyanlı olmuşdur, ekspansiyaya xidmət etmişdir.

Tədqiqatçılar qloballaşmanı "müasir tarixin mühərriki" kimi qiymətləndirirlər, bu məsələni Ə.Abasov xüsusi vurğulayır. Əgər tarixə nəzər salsaq, bütövlükdə varlığın təkamülü, inkişafı, bütün dəyişmələri (yox olmaları) Mütləq Ruhun − Böyük partlayışın ilkin təkanından vahid proses kimi davam etmişdir. Lakin insanın yeni bir varlıq kimi yaranması və bu sistemə qoşulması ilə qloballaşmaya təsir edən yeni bir sahə yaranmışdır. İnsanlığın yaranması və onun dünyada məskunlaşması, əlaqə və münasibətləri vahid qlobal proses olmuşdur. Lakin bu münasibətlərin təsir səviyyəsi həmişə eyni olmamışdır. Elm, texnika, nəqliyyat, rabitə vasitələrinin inkişafı ilə bu təsir ardıcıl sürətlənmiş, canlanmışdır. Yetmiş illik kommunist rus imperiyasının kazarma sistemi xalqların dünya ilə əlaqə və münasibətlərini son dərəcə zəiflətsə də, bütünlüklə qıra bilmədi, çünki mümkün deyildi. SSRİ-nin çöküşü ilə onun əsarətində olan dili, milli mənlik şüuru, özünəməxsusluğu, mentaliteti, adər-ənənəsi, inam və etiqadı, dini, bütövlükdə milli-mənəvi sistemi pozulmuş, iradəsi zəifləmiş xalqlar milli dövlət quruculuğuna, özlərinin milli-mənəvi bərpa yoluna çıxdılar. Demokratik üsulla milli dövlət quruculuğu yolu tutdular, lakin tezliklə bütün postsovet ölkələrdə milli demokratik

qüvvələr hakimiyyətdən devrildi, keçmiş Sov.İKP üzvləri və onun katibləri hakimiyyətə gətirildi.

Ə.Abasov bunu əsarətdən yeni çıxmış bu xalqlarda milli ideya və ideologiyanın yoxluğu, milli-mənəvi inkişafda varisliyin qırılması, pozulması, dünyəvi prosesin hərəkətverici qüvvəsinin əvəzlənərək qloballaşma olması, bu da totalitarizmdən demokratiyaya onsuz da çətin olan keçid prosesini daha da mürəkkəbləşdirməsində görür (96, 23).

Ə.Abasov kommunist rus imperiyasının Azərbaycan xalqının yaratdığı mənəvi-ideoloji, siyasi boşluğunu doldurmaqla dövlət quruculuğunu aydın, səmərəli yolla aparmaq, xalqın özünəməxsusluqlarının bərpasını sürətləndirməklə millət kimi təşəkkülü sürətləndirmək məqsədilə milli fəlsəfə yaradıcılığını dünyanın qabaqcıl elmi-nəzəri fəlsəfi cərəyanları olan qeyri-klassik, post-qeyri-klassik nəzəriyyələri ilə Azərbaycanın qabaqcıl ziyalıları, gənc nəsli ilə tanışlığına, onlardan qidalanmasına xüsusi əmək sərf edir.

Əsərində millətlərin yaradıcı mənəvi dəyərlər sisteminin aşkarlanması, dəqiqləşməsinə aydınlıq gətirmək məqsədilə Ə.Abasov onların təhlilinə xüsusi önəm verərək yazır: “Hər bir millət üçün mədəniyyət – din – incəsənət, ədəbiyyat, fəlsəfə – elm ardıcıl mürəkkəbləşən refleksiya tiplərinin tarixən qarşılıqlı əlaqədə olan sistemini əmələ gətirir. Dil ilkin xaos olub, ondan tədricən fəlsəfi refleksiya meydana gəlir, sonuncu isə sonradan etnik idntifiklik və hökmran dinlə zənginləşir”.

Ə.Abasov şərhinə davam edərək yazır: “Milli mədəniyyətin elementləri (tarixi təcrübə, kollektiv psixikanın xüsusiyyətləri, dünyaanlamı və dünyaqavramanın tipləri) zaman-zaman fəlsəfi refleksiyanın (təfəkkürün) predmeti olur. İdentifikliyin formalaşması millətin unikal dünyaqavramının və dünyanlamının və dünyagörüşünün qərarlaşmasına gətirir. Bu identifiklik şəxsiyyət və cəmiyyətin həyat fəaliyyəti strategiyasının seçimi və gerçəkləşməsinin əsasını təşkil edir. **Seçilmiş identifiklik tipi milli fəlsəfənin** ardıcıl formalaşmasına gətirən milli özünüdərkin genezisini müəyyənləşdirir. Ümummilli fəlsəfi cəmiyyət və şəxsiyyətin milli özünüdərkinin səciyyəsindən asılı olur” (96; 97).

Göründüyü kimi, Ə.Abasov çox uğurlu tədqiqat metodu ilə fəlsəfəni ümumən mədəniyyətdən, ondan doğan, onun formalaşdırdığı özünəməxsusluqdan hasil edir. Fəlsəfə tarixindən alınmış doğru mülahizədir. Tarixdə fəlsəfənin bu formada ilk təzahürü Azərbaycan türklərinin əcdadlarının başə-

riyyətə təqdim etdiyi Zərdüşt fəlsəfəsidir ki, yuxarıda bundan ətraflı bəhs olunmuşdur. Lakin xalqlarda fəlsəfi idrakın ikinci variantı da var ki, etnos fəlsəfəni xaricdən, başqa etnosdan alır, bu fəlsəfə vasitəsilə özünəməxsusluğa nail olur, mənlik şüuruna, mentalitetə və s. yiyələnməklə mənəvi sisteminin harmonik qurulmasına və onun sabitləşməsinə nail olur.

Ə.Abasov ardıcıl problemin mahiyyətinə nüfuz etməyə səy edərək yazır: "Milli fəlsəfə" anlayışı ilk növbədə onun məzmununun təhlilini tələb edir: **"Milli fəlsəfə" söz birləşməsində birinci termin həlledicidir, çünki məhz o, ümumbəşəri fəlsəfəni vahid dəyərlər sistemi ilə konsolidasiya olmuş ayrı-ayrı insan birliklərinin təkcə fərqli dünyagörüşü tiplərinə differensasiya edir",** çünki, "millət" anlayışının konkret olaraq nəyi nəzərdə tutduğunu aydınlaşdırmadan milli fəlsəfənin də nə olduğu sualına cavab vermək olmaz − deyən Ə.Abasov mülahizəsinə aydınlıq gətirərək, millətə aşağıdakı formalarda tərif verir: "Əvvəla, elmi-fəlsəfi və sosioloji tədqiqatlar praktikasında **millət anlayışı konkret tarixi dövr ərzində təzahür edən müəyyən konstruksiya qismində çıxış edə bilər. İkincisi, o, hər bir millətə təkrarolunmaz unikallıq verən ümumi psixoloji, konfessional və mədəni səciyyə əsasında izah formulə edilə bilər. Üçüncüsü, millət dövlət daxilində etnik, konfessional, mədəni, gender, fərqlərdən asılı olmadan bərabər hüquqlar verilmiş ayrıca cəmiyyətin vətəndaşlarının həmrəyliyini nəzərdə tutan siyasi termin kimi də başa düşülə bilər".**

Ə.Abasovun millətə verdiyi təriflər arasında ikinci tərif bizə 100 ildən artıqdır qadağan olunan, 30 illik müstəqilliyimiz dövründə birinci dəfədir ki, elmi-fəlsəfi tədqiqata cəlb edilir ki, bu tərif də millət anlayışında həqiqəti bütövlükdə ifadə edən yeganə tərifdir. Bu tərif hər bir millətin mənəvi durumunun obyektiv dərk olunmasına, fəlsəfi terapiyaya və fəlsəfi idraka istiqamətləndirilməsinə imkan verir.

Birinci və ikinci təriflər böyük dövlətlərdə, imperiyalarda etnik-milli durumu, assimilyasiya, bütövlükdə müstəmləkəçilik siyasətini gizlətmək məqsədilə istifadə olunan ənənəvi məlum təriflərdir. Odur ki, bu tərifləri tənqidi təhlil süzgəcindən keçirmədən obyektiv-elmi tərif kimi elmi-fəlsəfi ədəbiyyatımızda yaşatmağın əleyhinəyəm. Odur ki, Ə.Abasovun bu təriflərini əsaslandırmaq üçün təklif etdiyi metod məqbul görünmür. O, yazır: **"Aydındır ki, milli fəlsəfənin təfsir olunan mahiyyəti millət anlayışının təhlili üçün seçilmiş mənasından asılı olaraq dəyişəcək,** ona görə də hər

dəfə ona müraciət olunduqda, aparılacaq təhlilin çərçivələrini öncədən dəqiq müəyyənləşdirmək zəruridir. Bununla birlikdə millətin tədqiqinə yuxarıda sadalanmış bütün tərifləri birləşdirən sintetik metodologiyanın tətbiqinə heç nə mane olmur. Belə bir sintetik kontekstdə milli fəlsəfənin həm cəmiyyətin, həm də onun ayrı-ayrı üzvlərinin transformasiyasını determinasiya edən, fasiləsiz dəyişən xarici təbii və sosial mühit şəraitində millətin sağqalma və həyat tərzi strategiyasının inteqrativ konsepsiyasının qərarlaşması gedişində refleksiyanın ali (əgər bu gün üçün ən ali olmasa) formalarlından biri kimi adekvat tədqiqatına imkanlar yaranır" – mülahizələri məqbul hesab edilə bilməz.

Müəllif problemə birmənalı yanaşma mövqeyində dayanaraq bildirir ki, **"milli fəlsəfə" söz birləşməsində "birinci termin həlledicidir" və "millət" anlayışının konkret olaraq nəyi nəzərdə tutduğunu" aydınlaşdırmaq tələb olunur, "yoxsa milli fəlsəfənin də nə olduğu sualına cavab vermək olmaz" yazan müəllif "millət anlayışı konkret tarixi dövr ərzində təzahür edən müəyyən konstruksiya", "təkrarolunmaz unikallıq verən ümumi psixoloji, konfessional və mədəni səciyyə əsasında izah formulə edilə bilinən"** toplum, "dövlət daxilində etnik, konfessional, mədəni, gender və digər fərqlərdən asılı olmadan bərabər hüquqlar verilmiş ayrıca cəmiyyətin vətəndaşlarının həmrəyliyini nəzərdə tutan siyasi termin kimi də başa düşülə bilər".

Müəllifin yuxarıda göstərdiyi üç millət formasından 1-ci də 3-cü kimi siyasi birlikdir. Onların heç biri 2-ci tərifdə göstərilən mənəvi keyfiyyətlərlə xarakterizə olunmur, onların millətliyi siyasi birliklərindədir. Millətlərin əsas mənəvi keyfiyyətləri – əxlaqı, mentaliteti, adət-ənənəsi, dəyərləri və s. əksər hallarda siyasətlə ziddiyyət təşkil edir.

"Milli fəlsəfə" (B., 2019) monoqrafiyasının əksər müəlliflərinə Fransada milli mənlik şüuruna, etnonimə, adət-ənənəyə malik milli bayramlarını qeyd edən, bask, korsikalı və b. adlarla tanınan etnos məlumdur, ABŞ-da, Rusiyada, Çində yüzlərlə belə millətlərin məhəllələrinin mövcudluğuna şahiddirlər. Neçə-neçə vahid millətdən danışan dövlətlərin çöküşü ilə öz müstəqilliyini elan edən neçə-neçə xalqın mövcudluğunun şahidi olmuşuq. Siyasi birlik millət deyil, elə siyasi birlikdir.

Ə.Abasov millətin bu üç fərqli formasının təhlili zamanı "milli fəlsəfənin təfsir olunan mahiyyəti millət anlayışının təhlili üçün seçilmiş mənasından asılı olaraq dəyişəcəyini" göstərir. Əgər yuxarıda bizə təqdim olunan üç fərqli toplum, vahid millət anlayışında təqdim etmək üçün milli fəlsəfə anlayışına üç fərqli məzmunda yanaşsaq, deməli fəlsəfə elm deyil. Fəlsəfə kəşf olunduğu gündən onun dəyişməz, varlığının bütün formalarının yaşam, inkişaf, tərəqqi, tənəzzül (dəyişmə) qanunu − mənası bütün varlığı dövründə sübut olmuş, heç vaxt şübhə doğurmamışdır.

Digər tərəfdən milli fəlsəfəyə bu cür yanaşma elə müəllifin ona verdiyi "milli fəlsəfə" söz birləşməsində birinci termin həlledicidir, çünki, məhz **o, "**ümumbəşəri fəlsəfəni vahid dəyərlər sistemi ilə konsolidasiya olunmuş ayrı-ayrı insan birliklərinin təkcə fərqli dünyagörüşü tiplərinə **differensasiya edir" m**üddəasından göründüyü kimi, müəllif milli fəlsəfəyə ümumbəşəri fəlsəfənin toplumun dünyagörüşündə ehtiva olunması kimi baxır ki, belə bir baxış da fəlsəfənin mahiyyətini dəyişməyə, onu müxtəlif məna və məzmunda təfsir etməyə imkan vermir.

"Milli fəlsəfə" söz birləşməsində birinci termin həlledicidir", "millət" anlayışının konkret olaraq nəyi nəzərdə tutduğunu aydınlaşdırmadan milli fəlsəfənin də nə olduğu sualına cavab vermək olmaz" − kimi problemə aydınlıq gətirilməsini qəti şəkildə qoyması hazırkı vəziyyətdə xalqımız üçün zəruri olan, müstəqilliyin qorunub saxlanması zərurətini özündə ehtiva edən **"hər bir millətə təkrarolunmaz unikallıq verən ümumi psixoloji, konfessional və mədəni səciyyə əsasında izah, formulə edilən" mənəvi birlikdən ibarət olmasını** göstərir, diqqətə çəkir ki, bu millətin obyektiv həqiqi tərifidir ki, 28 aprel 1920-ci il kommunist rus işğalı ilə belə düşünənlərin bir hissəsi fiziki cəhətdən məhv edildi, digər hissəsi vətənlərindən didərgin salındı. İmperiyada marksizm fəlsəfəsi adına yaradılan, faşizmdən daha qəddar kommunist ideologiyası belə bir düşüncənin təkrar cücərməsinə imkan vermədi. Otuz illik müstəqilliyimizin milli fəlsəfə yaradılması axtarışı, nəhayət, millətin − mənəvi varlığın obyektiv qiymətləndirilməsinə, etnosun varlığının "ümumbəşəri fəlsəfəni vahid dəyərlər sistemi ilə konsolidasya olmuş ayrı-ayrı insan birliklərinin təkcə fərqli dünyagörüşü tipinə differenssasiya" etdiyi təfəkkür səviyyəsində, təfəkkürə, şüura, ruha fəlsəfənin hakim olduğu səviyyədə millət olmasını aşkarlayır. **Göründüyü kimi, Ə.Abasovun düzgün seçdiyi tədqiqat metodu − milli fəlsəfə yaratma axtarışını mənəvi**

**irslə paralel aparması, ona milləti mənəvi varlıq kimi qiymətləndirməsinə, eləcə də millətdə fəlsəfənin ehtiva olunması qanunauyğunluğunu müəyyən etməyə imkan verir.**

Müstəqillik illərində digər fəlsəfə tədqiqatçılarımızdan − milləti mənəvi varlıq kimi qiymətləndirən digər tədqiqatçının axtarışına çıxsam da, tapa bilmədim (əgər nəzərdən qaçırdığım belə bir tədqiqatçı varsa, əvvəlcədən üzr istəyirəm). Yalnız dərsliklərdə mənəvi varlıq formasının adı çəkilsə də, konkret mənəvi varlıq forması, onun strukturu, yaşama mexanizmi haqqında məlumat verilmir, bəhs olunmur. Bu məsələdə anlayışı az-çox təqdim etməyə yaxınlaşan müəllifi Z.Hacıyev olan "Fəlsəfə" (B., 2001) dərsliyidir. Dərslikdə varlıq formalarından bəhs olunaraq yazılır:

1) əşyaların və proseslərin varlığı; 2) insanın varlığı; 3) mənəvi (ideal) varlıq; 4) sosial varlıq − deyə əsasən 4 varlıq formasından bəhs olunur (16, 151).

Dərsliklərimizdə insanın varlığı müstəqil varlıq kimi göstərildiyi halda şərh zamanı o, ikili mahiyyət daşıdığı fiziki, təbii, maddi varlıq olmaqla bərabər "subyektiv keyfiyyətlərə malik olmayan insanı təkcə cismani varlığına görə insan adlandırmaq doğru deyil" − deyə onu "subyektiv keyfiyyətlərinə" görə mənəvi varlıq kimi də qiymətləndirilməyi göstərilir (16, 153).

Mənəvi varlığın izahında yazılır: **"Varlığın digər forması mənəvi varlıqdır.** O da daxilən mürəkkəbdir, iki yerə ayrılır: subyektiv mənəvi varlıq və obyektivləşdirilmiş mənəvi varlıq. Birinciyə insanın daxili psixi dünyası daxildir. Bu, hər bir fərdin şüurunun məhsullarını və səviyyələrini əhatə edir. Onun tərkibinə ayrıca bir insanın bilik və baxışları, şüuru, qeyri-şüuru hadisələri, instinktləri və nəhayət, mənlik şüuru daxildir.

Bundan fərqli olaraq obyektivləşdirilmiş mənəvi varlıq bir fərdə deyil, bütövlükdə insanlar arasındakı münasibətlərdə təzahür edən mənəvi hadisələri ifadə edir. Onun mövcudluğu birgə fəaliyyətinin və qarşılıqlı əlaqələrinin zəruriliyi ilə izah edilir. Bura dil, elmi biliklər, ümumi əxlaq normaları və birgəyaşayış qaydaları, din və incəsənət daxildir. Başqa sözlə o, bir fərdə deyil, bütövlükdə cəmiyyətə məxsus mənəvi mədəniyyət məhsullarını əhatə edir" (16, 153).

Göründüyü kimi, müəllif yuxarıda insana maddi varlıq olmaqla bərabər "subyektiv keyfiyyətlərə" görə mənəvi varlıq olmasını desə də, onun maddi-bioloji tərəfini aydın izah etsə də, mənəvi tərəfi haqqında heç bir şərh

vermir. Varlığın sıra ilə düzdüyü 3-cü "mənəvi-varlığın" formasını müstəqil varlıq forması kimi təqdim etsə də, hər hansı müstəqil varlıqdan bəhs etmir, insana məxsus mənəvi keyfiyyətlərin element, hissə və s. xüsusiyyətlərindən mənəvi dəyərlər, keyfiyyətlər kimi bəhs etsə də, onu müstəqil "mənəvi varlıq" forması kimi təqdim edə bilmir.

Təsadüfi deyil ki, K.Yaspers yazırdı: "İnsan təbii varlıq kimi yox, mənəvi varlıq kimi tarixdir" (40, 186). Milli mənəviyyat qanunlarının bənzərsiz tədqiqatçısı Qustav Le Bon birmənalı göstərir ki, "tarixin hərəkətverici qüvvəsi mənəvi qüvvələrdir" (127, 163).

Mənəvi varlığın yaranma tarixi və qanunauyğunluğuna qısa ekskurs ehtiyac duyuruq. Biz yuxarıda Tanrının ilkin təkanı − Böyük partlayışla varlığın yaranması, yaşam, inkişaf, tərəqqi və tənəzzül prosesində yeni varlıq formalarının meydana gəldiyindən bəhs etdik. Elə bu prosesdə heyvanlar aləminin, onun xüsusi forması məməlilərin və ondan isə insan əcdadının ayrılması haqqında məlumat vermişik. İnsan əcdadı haqqında ən qədim məlumat altı milyon il əvvələ aiddir. Paleolit dövrü adlanan bu çağın üstpaleolit adlanan e.ə. 40-35-ci minillikdə insan əcdadı öz təkamülü və əvvəlki sürü ictimai formasından qəbilə icması – anaxaqanlıq mərhələsinə keçir. İnsanlığın yaranması və varlığın dərk edilməsi və qiymətləndirilməsi tarixin bu mərhələsindən başlayır. Üstpaleolitə keçid mərhələsində kəsik-kəsik qışqırıqla bir-birinə nəyi isə xəbər verən, deyən insanda artıq səslərdə müəyyən mahiyyəti, fikri çatdırmaq qabiliyyəti yaranır ki, bu da hər bir fikri bir söz kimi formalaşdırmaqla nəticələnir, bununla da dil yaranır. İnsan ilkin olaraq təmasda olduğu əşyalara, istifadə etdiyi alət və vasitələrə ad verir. Tədricən əlaqə və münasibətlərdə olduğu bütün həyat hadisələrini qiymətləndirməyə, sözlə ifadə başlayır. Nəhayət, özünü qiymətləndirməyə başlayır. Bədən üzvlərinə funksiyasına uyğun adlar verdikcə, özünüdərk prosesi daha da zənginləşir. Nəhayət, instiktiv münasibətlərin, hisslərin sözlə ifadə edilməsi, onun şüurlu əlaqə və münasibətə çevrilməsi tdricən bütün heyvani (instiktiv) əlaqə və münasibətlərin tələbat və ehtiyaclar ödəyən şüurlu mənəvi münasibətlərə çevrilməsi prosesi, bu münasibətlərdən doğan norma və dəyərlərin yaranması ilə nəticələnir. Toplum daxilində fərdlərin ənənəvi instiktiv münasibətləri qarşılıqlı mənəvi **borc** anlayışı ilə əvəz olunan mənəvi dəyərlə əvəz olunur. Beləliklə, bütün instiktiv münasibətlər tədricən sözlə ifadə olunan, spesifik məna kəsb edən − nəfs, tamah, arzu, məhəbbət, xoşbəxtlik, bədbəxtlik,

inam, ümid, iradə, şübhə, vicdan və s. dəyərlər formalaşır. Nəhayət, toplumun mənəvi dəyərlər sistemini tənzimləyən əxlaqi sistem yaranır. Nəhayət, toplumun bütün davranış, əlaqə və münasibətlərini, təbiətdə, əmək prosesində və s. olan münasibətlər sistemini tənzimləyən adət-ənənələr yaranır. Qəbilədə instiktiv münasibətlərin mənəvi münasibətlərə çevrilməsi intellektual yüksəlişlə müşaiyət olunur. Əkinçilik, maldarlıq kimi təsərrüfat sahələri, dulsçuluq kimi peşə sahələrinin yaranması, əmək alətlərinin təkmilləşməsi, toplumların təminatını yüksəldir, əhali artır, yeni ərazilərə miqrasiyalar başlayır. Bu proses anaxaqanlıqda çatışmazlığı aşkarlayır, hər bir təhlükəyə qarşı çevik və güclü olan kişinin qəbilədə mövqeyini dəyişməsini tələb edir. İlk öncə qəbilə başçısı qadınlar kişilərdən özlərinə köməkçi və məsləhətçilər seçir. Lakin tezliklə qadınlar qəbilədə mövqelərini kişilərə tərk etməli olurlar. Anaxaqanlıq ataxaqanlıqla əvəz olunur. Ataxaqanlığa keçid qəbilədə mənəviləşməni daha da sürətləndirir. Mənəviləşmənin təsiri ilə qəbilənin sosial strukturu bütünlüklə yeniləşir, kollektiv nikah qadağan olunur. Bir qadın bir kişidən ibarət minoqam ailə forması yaranır. Qəbilədaxili nikah qadağan olunur. Qadın ancaq qonşu qəbilədən gətirilə bilərdi. Kollektiv nikahın və sərbəst seksuallığın qadağasının şüurlara aşılanması tabular arasında ən çətini idi. Bu tabunu şüurlara aşılamaq məqsədilə yaradılan məhəbbət insani dəyərlər arasında ən zəngin məzmun çaları və mahiyyəti ilə romantik və real ülvilikləri, inam və etiqadları özündə ehtiva etmişdir. Ailədə qadın-kişi münasibətləri o qədər yüksək ülviləşdirilir, mənəviləşdirilir, tərənnüm olunur ki, sanki seksuallıq unutdurulur. "İnstiktlər üzərində Zəkanın, bişüur üzərində Şüurun üstünlüyünü təmin etmək üçün yol açılır" (29, 231). Məhz elə bu səbəbi əsas göstərən Z.Freyd "məhəbbəti mədəniyyətin əsaslarından biri kimi qiymətləndirir" (29, 234).

Ataxaqanlığın başlanması ilə qəbilədə doğulan uşaqlar anaxaqanlıq dövründə doğulan uşaqlar kimi bütün qəbiləyə deyil, birbaşa ataya məxsus övlad hesab olunur.

Ataxaqanlığın başlanması ilə qəbilədə ataya mənsub oğlanlardan yeni kişi nəslinin qəhrəmanları yetişir, bununla bərabər kişilərin daşıyacağı keyfiyyətləri ehtiva edən dəyərlər yaradılır. Ataxaqanlığı qəbilə və tayfaların özlərinin yeni yaratdıqları inam və etiqadlar, dəyərlər və normalar, adət və ənənələr vasitəsi ilə idarə olunur, özünəməxsusluqları ilə başqa toplumlardan fərqlənirlər. Özünəməxsus mənəvi keyfiyyətlərə malik, özünü başqa

toplumlardan fərqləndirən qəbilə və tayfalarda ilkin refleksiya baş verir, onlar özlərini anaxaqanlıq çağındakı kimi hər hansı totemin əcdad olmasından, adlandırmadan imtina edir, Ataxaqanlığı qəbilə və tayfanın ilk qurucu ata qəhrəmanı olduğunu elan edir, topluma da həmin əcdad qəhrəmanın adını verirlər. Beləliklə, özünəməxsusluğu, mentaliteti, mənlik şüuru ilə bütün başqa etnoslardan fərqlənən, özünün yaratdığı inam və etiqad, mənəvi dəyərlər, əxlaq qaydaları, adət-ənənələrlə birlikdə, tarix səhnəsinə çıxan və bu mənəvi sistemlə yaşayan tayfalar **mənəvi varlıq kimi dünyaya gəlirlər** (29; 149; 26; 30).

"Hər bir xalq mənsub olduğu mənəviyyatın həm yaradıcısı, həm də övladıdır" deyimi də buradan yaranmışdır. İlk mənəvi təməl əsasları qoruyub yaşadan, təkmilləşdirən, zənginləşdirən tayfalar, xalq inkişaf səviyyəsinə, oradan isə millət səviyyəsinə yüksəlirlər. **Qürur, şərəf və ləyaqət kimi dəyərlər məhz mənlik şüurunun formalaşması prosesində onunla birlikdə formalaşır və təzahür edir.** Vəhdətdə onun barometrinə çevrilir. Toplumun harmonik durumunun göstəricisi olur. Mənəvi sistemin hər hansı bir elementində yaranan çatışmazlığa və ya xarici müdaxiləyə qarşı dərhal həyəcan siqnalı verir, ona qarşı bütün mənəvi sistemin müqavimətini təşkil edir.

Qürur, şərəf, ləyaqət dəyərləri etnosa mənsubluğun təməl əsaslarının ifadəçisi mənlik şüuru ilə birlikdə üzə çıxdığı kimi onun itirilməsi prosesində fəlsəfənin vəhdətdə çıxış edən üç qanunun – ənənələrin vəhdəti və mübarizəsi, kəmiyyət və keyfiyyət dəyişməsi, inkarı inkar qanunlarının, etnosun mənəvi sistemində məhvə doğru gedən halı həyəcanla xəbər verir. **Qürur əksliklərin vəhdətinin barometri kimi çıxış edir,** mənəvi sistemdəki vəhdətin pozulmasına qarşı həyəcan siqnalı verir, onu səfərbər etməyə səsləyir. Qürurun həyəcan siqnalı mənəvi sistemi səfərbər edə bilməyəndə, mənəvi vəhdətin harmoniyasını pozmuş ziddiyyətlər mənəvi sistemdə ilkin əsasa zidd keyfiyyət sistemi formalaşdıranda, şərəf **bir müdrik** kimi xəbərdarlıq edir. Canında, ruhunda nə baş verdiyini anlayırsan – dayan, özünü səfərbər et, özünə qayıt – deyir. Şərəfin bu müdrik, ağıllı xəbərdarlığı mənəvi sistemi səfərbər edə bilmədikdə, artıq mənəvi sistemin təməl əsasını dağıtmış ziddiyyətlər kəmiyyət üstünlüyü əldə edib, özünə yeni keyfiyyət sistemi qurmada olur ki, bu da onda çox incə, məsum **ləyaqət** mənəvi sistemə son xəbərdarlıq edir – özünü topla, bütün gücünü səfərbər et, ölümün qarşısındasan, məhv olursan – deyən məsum, incə ləyaqətin göz yaşı, xəbəfdarlığı mənəvi sistemi

xəbərdar edə bilmədikdə, mənəvi sistemi dağıdan ziddiyyətlər birləşib özləri üçün nə isə qurmaq, yeni varlıq kimi göstərmək istəyəndə, inkar qapını açıb onların üzünə baxır, onlar ilkin mənəvi sistemdən müəyyən hissələri qoruyub saxlayırlarsa, onları yeni keyfiyyətdə yenidən sistemləşdirib yaşadır. Elə ki, ilkin əsaslar, mənlik şüuruna məxsus təməl sistem bütünlüklə dağıdılıbsa, soyuqqanlı, heç bir ağrıya, acıya qəlbi yumşalmayan İnkar qapını açıb onlara yol göstərir, deyir: − hara istəsəniz gedə bilərsiniz. Beləliklə, mənlik şüuru, ona məxsus mənəvi sistemin yaratdığı toplum − tayfa, xalq, millət fiziki varlığı ilə ətrafa səpələnir, başqa etnoslarla birgə yaşamağa üz tutur. Onlara qarışır, onlar arasında özünə yer edə bildikdə, onların mənəvi sisteminə qoşula bildikdə, həmin etnosun nümayəndəsinə çevrilir. Ancaq bu da çox ağır proses olur. Buna da hər kəs dözə bilmir. İkinci, üçüncü növ adam olmaq onu mənən məhv edir, bomj həyatı başlayır... İnkarın − hara istəsəniz gedə bilərsiniz − dediyi kütlənin taleyi səfillikdən keçir. Bütün xalqlarda eyni adlı və məzmunlu dəyərlər aparıcı deyil. Hər bir etnosda fərqli, müxtəlif dəyərlər aparıcıdır. Qürur, şərəf və ləyaqət dəyərləri isə yalnız Azərbaycan türklərində deyil, bütün türk xalqlarında aparıcı dəyərlərdir.

Mənəviyyat qanunlarının aşkarlanması və sistemləşdirilməsində böyük xidməti olan Hegel məhz bunları əsas tutaraq yazır: “Obyektiv mənəviyyat üçün fərdin mövcud olub-olmamasının fərqi yoxdur və o, fərdlərin həyatını idarə edən gücdür. Odur ki, mənəviyyatı, xalqlar əbədi həqiqətlər kimi özündə və özü üçün mövcud Allahlar kimi təsəvvür etmişlər. Mənəviyyat qanunları son dərəcə ucadırlar “ (47, 200).

**Etnik-milli mənlik şüuruna, özünəməxsusluğa və etnonimə malik hər bir etnos bəşəriyyətin müstəqil mənəvi varlıq formasıdır.** Mənəvi varlıq anlayışı bu üç dəyəri özündə **ehtiva edən hər bir toplumu ifadə edir.** (Ətraflı bax: 19, 324-389). Bu yanaşma, anlayış insanın maddi-bioloji varlığını inkar etmir. Lakin faktlar göstərir ki, hər bir xalqın doğuluşu və tarixi tərk etməsi mənəviyyat hadisəsi kimi özünü göstərir. İngilislərin Amerika və Avstraliya qitələrini işğalı zamanı bir neçə etnosu fiziki cəhətdən məhv etməsi istisna edilərsə, tarixdə fiziki məhv olma səbəbilə varlığına son verilmiş xalq olmamışdır. Bəşəri sivilizasiyanın yaradıcısı kimi qiymətləndirilən Şumerlər, qədim dövrdə tarixdə Şumerlərdən az mədəniyyət izi qoymamış etruskilər, dilləri bəşəriyyətin tibb dili kimi işlədilən latınlar, Mərkəzi Asiyadan Avropaya köç edən qıpçaqlar, Avropanın ilk türk dövlətini yaradan

bolqarların tarixi taleyi dediyimizin aydın sübutudur. Siyahını artırmaq üçün kifayət qədər fakt var. Lakin keçmişimizin hər kəsin dəqiqləşdirə biləcəyi kommunist rus imperiyasının həyatında buna aid çox aydın faktlar vardır. Kommunist rus imperiyası "beynəlmiləlçilik bayrağı" altında 1926-cı ildə SSRİ-də əhalinin ilk siyahıya alınması zamanl qeydə aldığı 195 xalqdan, əhalinin son siyahıya aldığı 1989-cu ildə 128 xalq qalmışdı. Kommunist rus imperiyası "beynəlmiləl"çilik terminində sistemləşdirdiyi dağıdıcı mənəviyyat qanunları vasitəsi ilə 63 il müddətində 67 xalqı tarix səhnəsindən sildi (19, 77).

Rus imperiyası, xüsusiə kommunistlər, müsəlman xalqları, əsasən də türk xaqlarını fiziki cəhətdən məhv etmək niyyətini gizlətmirdi. Bəşəri düşmən olan kommunistlər yüzlərlə xalqa qarşı amansızlıq göstərsələr də, hər hansı xalqı fiziki cəhətdən məhv etmə faktı yoxdur. Odur ki, imperiyalar mənəviyyat qanunlarını həmişə xalqlardan gizlətməyə çalışmışlar. "Beynəlmiləlçilik" termini, anlayışı altında bəşər tarixində ən gözəgörünməz, hiyləgər kommunist rus imperiyası mənəvi məhvetmə silahı yaratmış, istifadə etmiş və etmədədir.

Elə bu səbəbdən də kommunist rus imperiyasında fəlsəfə də daxil edilməklə bütün ictimai elmlər mahiyyətinin, funksiyasının əksinə olaraq milli mənəviyyat qanunları əsasında insanlığın, inkişafın çiçəklənməsini təmin edən elmdən millətləri məhv etmə elminə, silahına çevrilmişdi (19). Əslində fəlsəfə tədqiqatçılarımızın milli fəlsəfə yaratmaq axtarışı kommunist rus imperiyasının milli məhvetmə elminin təsirindən çıxıb, bütövlükdə ictimai elmlərin yaradıcı funksiyalarının, həqiqi mahiyyətlərinin yenidən kəşf edilməsi axtarışı, eyni zamanda etnosun, millətin yaranış, yaşam qanunlarının obyektiv qiymətləndirilməsi axtarışından ibarətdir.

Əsərləri həqiqəti nə dərəcədə ifadə etməsindən asılı olmayaraq, bu axtarışda iştirak etmək milli-elmi vəzifələrin aşkarlanması uğrunda mübarizədir, milli fəaliyyətdir. Milli azadlıq hərəkatının ağır, güllələnməsi, həbs, sürgün, öldürülməsə də, psixi, kimyəvi üsullarla şəxsiyyəti öldürüləcəyi məlum olan bir dövründə, bəzən yorulurduq, bezirdik, əməyimizin hədər getməsindən şikayətlənirdik. DTK-nın bütün əzablarına məruz qalmış, lakin milli idealından dönməmiş, təsəlli üçün pənah apardığımız Rəmzi Yüzbaşov çox soyuqqanlıqla: "Siçan sidiyinin dənizin qurumamasında ona yardımçı olmasını təsəvvür etməyən şəxs milli-azadlıq hərəkatını təsəvvür edə bilməz"

‒ deyərək gördüyümüz işləri elə yüksək qiymətləndirirdi ki, sanki ikinci belə bir addımımızla imperiya dağılacaq. Rəmzi Yüzbaşovun bu yanaşması bizə dözüm, qüvvət və ruh verərək mübarizəmizi davam etməyə istiqamətləndirirdi. "Bizə hansı fəlsəfə lazımdır?" axtarışının 10-cu cildi "Milli fəlsəfə" (B., 2019) monoqrafiyasının üzərində işlərim mənə müdrik, dönməz istiqlalçı Rəmzi Yüzbaşovun deyimini bir daha xatırlatdı. Müstəqillik illərində ictimai elmlər son dərəcə zəif inkişaf edir. Hansı ki, milli inkişafı bilavasitə təmin edən fəlsəfə, tarix, ədəbiyyat, incəsənətdir. Bu sahədə yazılan əsərlərin müəlliflərinin böyük əksəriyyətinin 99 faizinin elmi səviyyələri ilə onların elmi dərəcələri və titulları bütünlüklə tərs mütənasibdir. Əlbəttə, bütün bu qüsurlara baxmayaraq milli fəlsəfə axtarışı 27 aprel 1920-ci ildən keçən 101 il müddətinə "millət" məfhumunun şüurumuza hakim edilən qeyri-obyektiv baxışına son verdik. Millətin mənəvi varlıq olmasına uzunmüddətli fəlsəfi axtarışla nail olduq. Ə.Absovun milli fəlsəfə axtarışını bilavasitə mənəvi irslə vəhdətdə aparması, düzgün seçilmiş metodu uğurlu nəticə verdi, etnosun bütün inkişaf mərhələlərində mənəvi varlıq olmasını bütün incəliyi ilə aşkar etdi, ona mənəvi varlıq kimi tərəf verdi. Fəlsəfənin isə bütün xalqların həyatında, eyni məzmun kəsb etməsi, bəşəri xarakter daşıması haqqında aydın mövqe ortaya qoydu. Yuxarıda bəhs etdiyimiz, əsərlərini tədqiqatımıza cəlb etdiyimiz **müəlliflərin hamısının milli fəlsəfə yaratmaq axtarışı fəlsəfənin bəşəri elm olması nəticəsi ilə yekunlaşdı. Bəs onda sual olunur: bu fəlsəfə tədqiqatçıları nə üçün fəlsəfənin milli olmasından, milli fəlsəfə yaratmaq iddiasından geri çəkilmirlər. Təəssüf ki, tədqiqatçıların hamısı fəlsəfənin bəşəri elm olması qənaəti ilə çıxış etsələr də, onun bəşəriliyini doğuran səbəbdən bəhs etmirlər. Fəlsəfənin bəşəriliyi ‒ onun İlahi eım ‒ Vəhyi elm olmasındadır.** Bütün varlıq formalarında yaşam, inkişaf, tərəqqi, tənəzzül (bir haldan başqa hala keçmə) bir proses olaraq əksliklərin mübarizəsi və vəhdəti, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi (əksinə) və inkarı inkar zəncirləri vasitəsi ilə gedən prosesin nəticəsidir. Odur ki, xalqların həyatını fəlsəfi metodla dərk etmək istəyəndə və bunu bacaranda, bütün xalqların həyatında eyni forma və məzmunda vahid bəşəri proses görürük.

Zərdüştün, Şihabəddin Sührəvərdinin vəhyi prosesi dərk və qəbul etdikləri bütün aydınlığı ilə görünür. Kant və Hegelin Mütləq Ruhun yaradıcı xarakterini təsəvvür və qiymətləndirmələri aydın görünür. İdealist cəbhə ad-

lanan filosoflar isə bu prosesi anlayıb anlamamalarından asılı olmayaraq, bu nəzəriyyəni, yaranış və inkişaf qanunu kimi qəbul edir, öz fəaliyyətlərində bu qanunları rəhbər tuturlar. Ağıllı insanlar "Avesta" ilə başlanan beş vəhyi − müqəddəs kitabın təbiətin və cəmiyyətin tərəqqi və tənəzzülünün dərki üçün açar funksiyasını görmə zərurətindədir. (Biz bu kitablara süni daxil edilmiş, bu kitabların mahiyyəti ilə ziddiyyət təşkil edən mülahizələri görürük, bunlar mütləq nəzərə alınmalıdır). Ona görə ki, bu kitablar vəhy olunan dövrdə, insanlıq hələ varlığı bu kitablardakı səviyyədə dərk etmək intellektində deyildilər. Bu kitablardakı müddəalar zaman-zaman elmin inkişafı səviyyəsi imkan verdikdə açılır. Bizim müqəddəs kitabları, fəlsəfənin "İlahi elm" olmasını qəbul etməməyimiz, Teymurləngin "biz bilmədiyimiz, bacarmadığımız şeyləri mümkün olmayan kimi izah edirik" − kəlamını xatırladır.

Milli fəlsəfə yaratmaq iddiası ilə çıxış edən tədqiqatçılarımızın bir dəfə də olsun fəlsəfə qanunlarından bəhs etməmələri, milli-mənəvi situasiyaların fəlsəfə qanunlarında necə ehtiva olunmasından bəhs edilməmələri onlara fəlsəfə qanunları əsasında meydana qəti mövqe qoymağa imkan vermir. Milli fəlsəfə yaradılmasına bəzi müəlliflər imperiya əsarəti illərində pozulmuş, unutdurulmuş milli-mənəvi dəyərləri ilkin təməlində bərpa etməklə mənəvi boşluğu doldurmaq; bəzi müəlliflər həm milli-mənəvi boşluğu bərpa etmək, həm də qabaqcıl fəlsəfi nəzəriyyələrlə intellektual səviyyənin yüksəldilməsi kimi yanaşır; bəzi müəlliflər milli fəlsəfə yaradılmasına qabaqcıl fəlsəfi cərəyanlar intellektual səviyyəni yüksəltmək üçün yüksək səviyyədə fəlsəfi konsepsiya yaratmaq kimi baxır; bəzi tədqiqatçılar fəlsəfi əsaslarla milli ideologiya yaratmaq kimi baxırlar.

Göründüyü kimi, milli həyatımızdakı mənəvi boşluğu doldurmaq məqsədilə fəlsəfəyə müraciət olunması fəlsəfə tədqiqatçılarımızın zərurəti dərk etmələridir. Təəssüf doğuran odur ki, məhz fəlsəfə qanunları əsasında milli-mənəvi durum konkret təhlil olunub, ilkin mənəvi təməl əsaslara uyğun milli-mənəvi sistemdə − dəyərlərdə, əxlaq sistemində, mentalitetdə, özünəməxsusluqda, mənlik şüurunda inam və etiqadda, adət-ənənələrdə və intellektual səviyyədə, milli tərbiyə sistemində, yaranmış çatışmazlıq müəyyənləşdirilib, konkret olaraq milli-mənəvi həyatın hansı sahəsində hansı mənəvi-ideolji tədbirin həyata keçirilməsi müəyyənləşdirilməli idi. Yuxarıda bəhs etdiyimiz kimi, XX əsrin əvvəllərində filosoflarımızın bu sahədə uğurlu yaradıcılığı və təcrübəsi var idi.

Yuxarıda istinad etdiyimiz tədqiqatlar, milli fəlsəfə yaratmaq istəyi fəlsəfi əsaslarla hazırlanmış, yaradılmış milli ideologiya və ya milli-fəlsəfi ideologiya təsəvvürü yaradır.

Biz bunu milli-mənəvi irsin – real mənəvi durumun – mənəvi sistemin – inam və etiqadın, dinin, mənəvi dəyərlərin, özünəməxsusluğun, mentalitetin, mənlik şüuru, intellektual səviyyənin, adət-ənənənin, fəlsəfə qanunları – ziddiyyətlər və əksliklərin vəhdəti, kəmiyyət və keyfiyyət qanunları vasitəsi ilə mənəvi sistemdə **bu yarımsistemlərin hər birinin** olmasını və ya ona qarşı çevrilib onunla ziddiyyət təşkil etməsini, dağıdıcı mövqedə durmasını müəyyənləşdirir, onların hər birində ziddiyyətdə və vəhdətdə olan elementlərin kəmiyyət və keyfiyyət göstəricisini müəyyən edib fəlsəfi terapiya ilə onlara, konkret sahələrə təsir edib, boşluqları doldurmaqla, mənəvi sistemi yenidən mənəvi irsə müvafiq qurub, bu təməldə inkişafına istiqamət verilir.

Fəlsəfi konsepsiyalar milli həyatda yaranmış zamanın tələbatına cavab verə bilməyən, inkişafa mane olan mühafizəkar keyfiyyətləri, boşluqları, yad təsirləri aradan qaldırmaq məqsədilə cari, qısa müddətli konsepsiyalar, qərinələrə, əsrlərə hesablanmış fəlsəfi konsepsiyalar yaradıla bilər. Bu, qalır milləti təmsil edən filosof və fəlsəfə tədqiqatçısı, ziyalıların milli vicdanı və intellektual səviyyəsinə.

**Fəlsəfə – ən kiçik varlıqdan planetlərə, qalaktikalara qədər bütün varlıqların canında olan təməl əsasları qoruyan, yaşadan, tərəqqi, inkişaf, tənəzzül səviyyəsini istiqamətləndirən qanunlardır. Bu qanunlar bütün varlıqlarla birlikdə onun nüvəsində doğulur. Odur ki, insan fəlsəfə yaratmağa qadir deyil. Filosof adlandırılanlar, fəlsəfə tədqiqatçıları bu qanunları kəşf edən, dərk edən, onu tətbiq etməyi bacaran şəxslərdir.** Bu gün dünyada hökmranlıq edən xalqlar fəlsəfi idraka malik alimləri ilə fəlsəfə qanunlarından yaradıcılıqla istifadə etməyi bacaran xalqlardır.

Fəlsəfənin bəşəri elm adlanması, onun bütün insanlıqda eyni məzmun və formada ehtiva olunmasından doğur. **Yüksək intellektə, mənlik şüuruna, mentalitetə, yaradıcı ruha malik xalqlarda fəlsəfə təzahür edir.** Bu da millilik deyil, bu, xalqların təbii harmonik durumunda İlahi Fəlsəfənin (İlahi qanunların) təcəssümüdür. **Xalqların fəlsəfəyə doğru hərəkətində, onu dərk etməsində iki yol var. Birinci yol – bəhs etdiyimiz harmonik durumda xalqın ruhunda** fəlsəfənin ehtiva olunmasıdır. İkinci yol – xalq fəlsəfəni başqa xalqlardan qəbul edir, ona yiyələnir, onun vasitəsilə milli

mənlik şüuru qazanır və sonda bütün mənəvi sistemini harmonik qurmağa, fəlsəfi ruha nail olur.

**Böyük Ş.C.Əfqani yazırdı:** "İnsanda insanlığı oyadan, insanın şərəfini bəyan edən, insana doğru yolu göstərən də fəlsəfədir. Mənən tənəzzülə uğrayan millətin, hər bir şeydən əvvəl, fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmləri və ədəb-ərkan qaydaları tamam yox olub aradan gedir".

**Ş.C.Əfqani** sözünə davam edərək yazır: "Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər... Fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasa da, şübhəsiz, həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək" (48, 197-198).

2020-ci ilin ən ağır günləri idi. Tovuzda ermənilərlə döyüş başlamışdı. Mətbuatımız dəqiq əks zərbələrlə ermənilərin cəzalandırldığını deyirdi, yazırdı. İyulun 16-da general Polad Həşimovun müavini və köməkçiləri ilə birlikdə sığınacağında ermənilər tərəfindən çox dəqiq zərbə ilə vurulduğu, şəhid edildikləri məlum oldu. 1996-cı ilin Tərtər hadisələrindən Azərbaycan xalqı Qarabağın geri alınması üçün müharibəyə başlamağı tələb etsə də, mənəvi durumunda silkələnmə, ruhun alovlanması halı yox idi. General Polad Həşimovun bu vəziyyətdə ölümü xalq tərəfindən daxili xəyanətin nəticəsi kimi qiymətləndirilirdi. **Rus imperiyasının Azərbaycana gəlişi ilə iki əsr müddətində, xüsusilə Birinci Qarabağ müharibəsində vətənpərvər, qəhrəman övladların, məhz satqınlıq, daxili xəyanət vasitəsi ilə məhv edilməsi xalqı birmənalı bezdirmişdi. Polad Həşimovun da daxili xəyanət vasitəsi ilə şəhid edilməsi xalqın heysiyyətinə toxundu.** Xalq birmənalı müharibə tələb etdi. Gənclər hərbi komissarlıqlara axışıb, analar, atalar əsgərliyə yararlı övladları ilə birlikdə hərbi komissarlığa gəlib, övladlarının Qarabağda müharibəyə göndərilməsini tələb etdilər. Axşam telekanallar məlumat verdi ki, xalqın hərbi komissarlıqlara axışması yalan söhbətdir, orduya yazılmaq istəyən cəmi 150 nəfər olmuşdur. Səhəri gün 74 min nəfərin hərbi komissarlıqda müharibəyə getməsi üçün toplanması xəbərini internet saitları bütün dünyaya yaydı, dövlət bu faktı təsdiqlədi. Mən bu zaman ölkədə baş verən həyəcanlarla bərabər Ə.Abasovun "Milli fəlsəfə" (B., 2019) monoqrafiyasında nəşr olunan "Milli fəlsəfə: problemin qoyuluşu, metodologiyası, tarixi və mövcud durumu, perspektivi" adlı əsərini oxuyur və təhlil edirdim.

Mənəvi irsi dərindən təhlil edən Ə.Abasov göstərir ki, son 200 ildə Azərbaycan xalqı dörd dəfə milli-mənəvi dəyərlər sistemini, özünəməxsusluğun modelini dəyişməyə məcbur edilmiş, tarixi yaddaşdan, mənlik şüurundan məhrum edilmək məqsədilə milli adı və əlifbası tez-tez dəyişdirilmiş, zorakı assimilyasiyaya, ruslaşdırmaya məruz qalmışdır. Əsrlərlə milli-mənəvi həyata qarşı yönəlmiş bir şəraitdə yaşamağa məhkum edilsə də, **özünəməxsusluğun təməl əsaslarını, mənəvi dəyərlər sistemini qoruyub yaşatmağa nail olmuşdur.**

Milli psixologiya elminin yaradıcılarından **V.Vundut** yazır ki, milli psixologiyanın hansı istiqamətdə necə inkişaf etməsinə heç də həmişə nəzarət etmək mümkün olmur, əsasən gizli proses olur.

İki yüz illik əsarət illərində milli özünəməxsusluğun, mənəvi dəyərlər sisteminin təməl əsaslarının qorunub yaşadılmasının, həmin rus imperiyası tərəfindən cəhənnəm əzabına çevrilən 30 illik müstəqillik dövrü yeni nəsildə, özünəməxsusluq və mənəvi dəyərlər sisteminin ilkin təməlinə doğru gedən prosesin nəticəsi idi ki, Polad Həşimovun öldürülməsinə cavab olaraq düşmənə savaş açdı.

Azərbaycan xalqını qorxu və vahimə içərisində saxlamaq üçün işğal olunmuş Qarabağ ərazilərində rus imperiyası ermənilərə müasir istehkamçıların keçilməz adlandırdıqları sədlər qurulmuş, dərin tunellər qazdırıb, yeraltı sığnacaqlar yaratmış, rus texnikası ilə hərbi cəbbəxanaya çevirmişdir. “Ancaq qələbə!” şüarı ilə döyüşə atılan, tanklar, toplar, digər hərbi texnika ilə dağıdıla bilinməyən istehkamları Azərbaycan əsgəri əlbəyaxa döyüşlə alır. Düşmənin keçilməz hesab etdiyi dağlardan, sərt qayalardan aşaraq, düşmən səngərinə girir, onu boğub öldürür. 19 yaşlı gənc Cəbrayıl Dövlətzadə erməni generalını əlləri ilə boğub öldürərək, düşmən içərisinə ilk vahiməni salır. Azərbaycan əsgəri düşmənin nəzarətində olan, keçilməz kimi qiymətləndirilən istehkamlardan keçib **Azərbaycanın mənəviyyat paytaxtı Şuşa şəhərini əlbəyaxa döyüşlə alması ilə düşmən ordusu vahiməyə düşüb pərən-pərən olur. Erməni rəhbərliyi sağ qalmış əsgərlərini Qarabağdan çıxarmaq üçün sahibləri ruslardan göz yaşları ilə onları himayə etməsni xahiş edirlər. Ermənilər rəzil vəziyyətdə tərksilah olunub, iti qovan kimi Qarabağdan qovulur.**

Qədim, orta əsrlər və müasir müharibələr tarixində dünyada belə bir döyüş olmamışdır. Bu döyüşlər oğuzların tarix səhnəsinə ilk çıxdıqları “Kita-

bi-Dədə Qorqud" dastanlarında təsvir və tərənnüm olunan savaşların eyni ilə təkrarı idi. Müharibə günlərində şəhid və qazi anası Azərbaycan qadınının rəftar və davranışı dastandakı oğuz qadınlarının hiss və əməlləri ilə eyniyyət təşkil edirdi. Göründüyü kimi, İkinci Qarabağ müharibəsi Azərbaycan xalqını yenidən doğdu.

Zərdüşt təlimini, idrak nəzəriyyəsini öz fəlsəfi yaradıcılığı üçün əsas götürmüş **F.Nitsşe** onun fəlsəfə tarixində yerini "ilk dəfə xeyir və şərin mübarizəsində bütün şeyləri idarə edən qüvvələrin açarını görən", "dünyanın gedişatı − əksliklərin mübarizəsi" kimi xarakterizə olunur" − deyə onu varlıq qanunlarını aşkarlayan ilk filosof kimi qiymətləndirməklə bərabər, **Zərdüştün sönmüş kimi görünən bəşərin ilk idrak ocağı Vətəni − Urmiyanı xüsusi vurğulayaraq, onu Urmiyalı Zərdüşt deyə təqdim edir** (109, 123). **Bu idrak ocağının yenidən alovlanacağını proqnozlaşdıraraq yazır: "Lakin mən və mənim taleyim − biz demirik "bu günə", həm də demirik "heç vaxta"; bizim danışmaq üçün gözləməyə, özü də həddən artıq gözləməyə səbrimiz var. Zira o, haçansa gəlməlidir və gəlməyə bilməz.**

**Axı, kim gəlməlidir və gəlməyə bilməz? Bizim böyük Xəzər, bizim böyük İnsan**ın **uzaq Şahlığı, Zərdüştün çarlığı − o çarlıq və şahlıq ki, min il davam edəcək − gələcək! Yaşamağı davam etdirmək istəyən xalqlara müharibə məsləhət görülür, "müharibənin faydası hər cür məqsədə yol açır"** (108, 311, 321; 150, 259).

Müharibənin, xalqların digər keyfiyyətlərini aşkarlamaq xüsusiyyərindən bəhs edən böyük filosof F.Nitsşe yazır: "müharibə kimi isə qul, kimi isə ağa etməklə hər şeyi öz yerinə qoyur − dünyaya məxsus təbii nizampərvərlik və harmoniyanı bərpa edir" (153, 206).

Tarixdən məlum olduğu üzrə, 300 ildir erməni qriqorian kilsəsi və erməni siyasi fırıldaqçılarının əli ilə erməni xalqı Avropa imperialist dövlətlərinə onlara qarşı çıxa bilən türk xalqlarını daxildən parçalamaq, zəiflətmək məqsədilə erməni xalqı bir alət olaraq istifadə olunur, məqsədli olaraq bir ərazidən digər əraziyə, bir ölkədən başqa ölkəyə köçürülür. Qırx dörd günlük Qarabağ müharibəsi 300 il müddətində ermənilərə Avropa müstəmləkəçi dövlətlərə qul kimi − bir alət olaraq satıldığını birinci dəfə anlatdı, Azərbaycan türklərini öz yerinə qoymaqla − "dünyaya məxsus təbii nizampərvərlik və harmoniyanı bərpa etdi".

Fəlsəfənin, eləcə də filosofun mahiyyətini anlamaq üçün F.Nitsşenin XX əsri proqnozlaşdırmasına diqqət etmək kifayətdir. F.Nitsşenin gələcəyi görməsindən xəbər verən tədqiqatçı yazır: "Onda doğrudan da ağlasığmaz proqnozlar vermək qabiliyyəti var idi. O, xəbər verirdi ki, XX əsr "utopistlərin ağlına belə gəlməyən şərait törədəcək", "nihilizmin yüksəlişilə xarakterizə olunacaq, tarixə **"dəhşətli müharibələr, məhrumiyyətlər, partlayışlar epoxası kimi daxil olacaqdır; bu əsrlə "barbarlıq epoxası başlanır, elmlər də ona xidmət edəcəklər".** İndi belə "yer kürəsində hakimiyyət uğrunda mübarizə başlayır ki, o da əsas fəlsəfi təlimlər naminə aparılacaqdır". **Buna görə də fəlsəfənin təbiət və mahiyyəti yenidən işıqlandırılmalıdır ki, bəşəriyyət yeni fəlsəfənin mahiyyətini anlaya bilsin"** (153, 162).

Gördüyümüz kimi, şərhə heç bir ehtiyac yoxdur. F.Nitsşenin XX əsr haqqında proqnozları bütünlüklə özünü doğrultdu və bu proses elmin və texnikanın yeni səviyyəsi ilə XXI əsrdə fantastik bir sürət almışdır.

**Filosoflar, xalqlar ölüm ayağında, dalana dirənəndə onların fəlsəfəyə sığındıqlarını deyirlər, lakin niyə sığındıqlarından bəhs etmirlər. Xalqlar ölüm ayağında, dalana dirənəndə ona görə fəlsəfəyə sığınırlar ki, yaşamaq, mövcud olmaq qanununu özündə bütünlükd**ə ehtiva edən fəlsəfədir. Dünyada belə ikinci bir bilik sahəsi yoxdur.

Artıq dövrümüzdə ayrı-ayrı xalqlar deyil, bəşəriyyət dalana dirənmiş, ölüm ayağındadır. **"Bəşəriyyətin dərdi anlama dərdidir, onun da açarı fəlsəfədədir"** (10, 12).

F.Nitsşenin haqlı olaraq dediyi kimi, XX əsrdə dünyanı hakimiyyət uğrunda mübarizəyə qoşmaqla fəlakətlər törədən dövrün fəlsəfi təlimləri idi. Dövrümüzdə bəşəriyyəti dalana dirəyən də bu fəlsəfi təlimlərdir. Göründüyü kimi, fəlsəfə öz təyinatının və mahiyyətinin əksinə istifadə olunur, bütünlüklə təbiəti və insanlığı, yaşamı nizamlamaq, harmonik qurmaq əvəzinə elm və fəlsəfədə üstünlük qazanmış dövlətlər ondan əsarət, hökmranlıq vasitəsi kimi istifadə etməklə təbiətdə və cəmiyyətdə fəlakətli dağıntılar, hadisələr törədirlər. Bunların qarşısını almaq üçün **F.Nitsşenin sözləri ilə desək – "fəlsəfənin təbiət və mahiyyəti yenidən işıqlandırılmalıdır ki, bəşəriyyət fəlsəfənin mahiyyətini anlaya bilsin",** zaman-zaman fəlsəfəyə qarşı yaranmış yanlış münasibətlər aradan qaldırılsın. Bu yanlışlığın ən birincisi və zərərlisi ayrı-ayrı ölkələrdə təbiətin və əhalinin (xalqın) durumuna müvafiq yaradılmış uğurlu və ya uğursuz keçici nəzəriyyələrin fəlsəfə qanunları ilə

eyniləşdirilməsidir. Bu gün bizə yeni fəlsəfə kimi təqdim olunan anlayışların hamısı ayrı-ayrı ölkələrin və xalqların, təbiət və cəmiyyətin, elm və texnikanın müəyyən dövr hadisələrinin fraqmentlərini doğurmuş və ya tənzimləmiş nəzəri təlimlərdir ki, dövrün, ayrı-ayrı ölkələrin və xalqların müvafiq durumuna əsasən yaradılmışdır. Odur ki, bu təlimləri fəlsəfə qanunları kimi digər ölkələrdə tətbiq etmək olmaz və mümkün deyil. Bu təlimlərin yaradılması və istifadəsi təcrübəsindən hər hansı ölkənin təbiətinə və ya xalqın durumuna uyğundursa, ondan istifadə oluna bilər. Çünki, hər bir ölkənin təbiəti və xalqının mövcudluğu ümumi varlıq qanunlarına tabe olmaqla bərabər özünəməxsusluqlara malikdir, lakin onun özünəməxsusluğu heç cür başqa mühitdə formalaşmış həmcinsinin özünəməxsusluğu ilə üst-üstə düşə bilməz.

Fəlsəfə tədqiqatçılarımız kommunist rus imperiyasının xalqımızda məhv etdiyi milli-mənəvi təməl əsasları, mənəvi dəyərlər sistemini, milli hissləri, özünəməxsusluğu, mentaliteti, mənlik şüurunu, dini, inam və etiqadı, adət-ənənələri, intellektual səviyyəni yenidən bərpa etmək məqsədilə milli fəlsəfə yaratmaq təşəbbüsləri ilə çıxış edirlər. Qarşıya qoyulan bu vəzifənin öhdəsindən gəlmək üçün fəlsəfə tədqiqatçılarımız bu işin birinci növbədə fəlsəfi metodunu yaratmalıdırlar.

Bu metod da böyük Nitsşenin sözləri ilə desək “fəlsəfənin təbiəti və mahiyyəti”, qanunları, milləti mənəvi varlıq kimi qiymətləndirən təfəkkür, şüur səviyyəsi yaratmaq, mənəvi irsi – inam və etiqad, dil, mənəvi dəyərlər, özünəməxsusluq, mentalitet, mənlik şüuru, din, adət-ənənə, yüksək intellektual səviyyə, milli hiss, milli özünüifadə formalarının vahid sisteminin yaranması prosesini və bütün bu mənəvi sistemi özündə ehtiva edən, fəlsəfi səviyyədə təşəkkül etmiş milli ideologiya yaradılmasının aydın, dəqiq üsulun müəyyən edilməsidir. Bunun üçün çox aydın dildə yazılmış fəlsəfə dərslikləri tərtib olunmalı, bu dərsliklərdə varlıq − fəlsəfə qanunlarını işləmə mexanizmi çox aydın dildə şərh olunmalılıdır. Birinci növbədə millət mənəvi varlıq kimi dəqiq ifadə olunmalı, milli tarix mənəvi tarix kimi əsaslandırılmalı, fəlsəfi fikir tariximizdə varislik bərpa edilməli, etnik-milli tariximizdə Zərdüştün yaratdığı fəlsəfi mühitdən başlayaraq günümüzə qədər fəlsəfi idrakın tərəqqi, inkişaf, tənəzzül səbəbləri dəqiqliklə ifadə edilməlidir. XVIII əsrdən Avropada başlayan fəlsəfi idrakın yüksəlişi, fəlsəfi nəzəriyyələr terminoloji spekulyasiyadan təmizlənmiş səviyyədə ölkəyə gətirilməklə, fəlsəfənin milli

şüurda təfəkkürdə özünə yer tutmasına nail olunmalıdır. Bizcə, fəlsəfə tədqiqatçılarımızın yaratmaq istədiyi bu iş milli fəlsəfə yaratmaq deyil, millətdə fəlsəfi şüur, təfəkkür yaratmaq adlandırılsa, daha obyektiv olar. Bununla da qloballaşmanın dağıdıcı mənəvi təsiri aradan qaldırılmış olar.

Göründüyü kimi, bütün XX – XXI əsrlərdə fəlsəfədən yaradıcı mahiyyətinin əksinə, dağıdıcı şər qanunu kimi istifadə edilmədədir. Xüsusi fəlsəfi təlimlər vasitəsi ilə kiçik xalqları yurdundan, yuvasından didərgin salıb, dövlətlərini məhv edib, insanlarını səfalətə məhkum edən azadlıq, demokrat maskalı böyük dövlətlərin öz əraziləri, insanlığın təbii tənəffüs orqanı meşələr nəinki isti yay ayları, hətta soyuq qarlı qış günlərində də od tutub yanır, torpaq bitki bitirməkdən, çaylar, dənizlər, okeanlar balıq, insanların digər qidalarını yetişdirməkdən imtina edir...

Lakin böyük hegemon dövlətlərin rəhbərləri, siyasətçiləri bu hadisələrin bütün bəşəriyyətin faciəsinə çevrilmədə olduğunu anlamır ki, anlamır. Göründüyü kimi, **bəşəriyyətin dərdi anlama dərdidir, onun da açarı fəlsəfədədir.**

**Bəşərin nicatı fəlsəfənin dinləşməsindədir.**

# Nəticə

1920-ci il 27 aprel işğalı ilə marksizm donuna girmiş bolşevizm (kommunistlər) fəlsəfə, tarix, incəsənət, ədəbiyyat, dilçilik elmi vasitəsilə əsarətə saldığı xalqların mənlik şüurunu, milli təfəkkürünü, tarixi yaddaşını, özünəməxsusluğunu, mentalitetini, inam və etiqadını, dinini, milli dəyərlərini, adət-ənənələrini öldürməklə məşğul oldu. Bu elmlər vasitəsilə ictimai elmlərin inkişaf qanunlarını tamamilə əksinə izah edir, inkişafın əksinə yönəlmiş özünün uydurma, qeyri-elmi anlayışlarını inkişaf qanunları kimi şüurlara aşılayırdı. Varlığın bütün formalarının inkişaf qanunları – Fəlsəfəni anti-fəlsəfəyə, cəmiyyəti, xalqları məhvetmə elminə çevirdi. Yaratdığı süni sosial birliklər, həyat tərzi və ictimai elmlər milli ölüm alətinə çevirən kommunist rus imperiyası 1926-cı ildə əhalinin ilk siyahıya alınması zamanı qeydə alınan 195 xalqdan 1989-cu il – əhalinin son siyahıya alınması zamanı cəmi 128-i qalmışdı. Kommunist rus imperiyası varlığının 63 ili ərzində 67 xalqı tarix səhnəsindən sildi.

Xalqlara maddi nemətlərin sel kimi axacağı, bütün xalqların qardaş kimi yaşayacağı vəd edildiyi illərdə SSRİ ideoloji, sosial-iqtisadi cəhətdən çökdü. İqtisadiyyat iflasa uğradı, milli münaqişələr başladı, siyasi birlik pozuldu. Milli şüuru məhv edilmiş, mənəvi dəyərləri yox səviyyəsinə çatdırılan, adət-ənənəsi pozulmuş xalqlar Kremldən üz çevirib yaşamaq uğrunda mübarizəyə başladılar. Xalqların yaşamaq uğrunda mübarizəsi tarixinə üz tutub ona canatmadan, fəlsəfəyə sığınmadan keçdiyi müstəmləkəçiliyə qarşı mübarizə tarixindən məlumdur. Bu mənəvi qanunauyğunluq eyni ilə kommunist rus imperiyasının çökdüyü zaman Azərbaycan xalqında da baş verdi. **Xalq tarixinə və fəlsəfəyə sığındı.** Kommunist rus imperiyasının Azərbaycan xalqına yetişdirdiyi "tarixçi ordusu"nun yaşlı nəslindən **cəmi 2 nəfər – Ziya Bünyadov və Mahmud İsmayılov** milli mövqedə dayandı. Fəlsəfə sahəsində vəziyyətin bundan da ağır olduğu aşkar oldu. **Yazıçı Əlisa Nicat,** onun ardınca **fəlsəfə tədqiqatçısı Səlahəddin Xəlilov** 1990-cı ildə Azərbaycan xalqında fəlsəfənin olmamasını rəsmən elan edərək yazdı: "Fəlsəfə ilə rəsmən məşğul olanlar həqiqi fəlsəfədən uzaqdır". Bu fikri sonrakı əsərlərində "Əsl fəlsəfəni şərh etmək, təbliğatçılıqla elmi dərəcə almış rəsmi

fəlsəfəçilərin imkanı xaricindədir" kimi ifadə etdi. Elə bu günlərdə sətirlərin müəllifinin respublikamızda tarix elminin durumuna həsr olunmuş **"Sovet tarixşünaslığı – milli ölüm elmi" (B., 2010)** monoqrafiyası nəşr olundu. Fəlsəfənin durumu haqqında Əli Abasovun sözləri zahirən mədəni görünsə də, daha sərt olmaqla birbaşa hədəfə yönəlmişdi. O, yazır: "Dövrünə dözən sovet ziyalıları heç də xalqın milli inkişaf məsələlərini irəli sürməyə qadir ziyalısı ola bilmədi, o nə bədii, nə də fəlsəfi hərəkata başçılıq etmədi, o heç də siyasət dünyasına daxil ola, xalqı öz ardınca apara bilmədi... Köhnə əsrini yaşamış ziyalıların günahı – həyatdan "dönüklük", hər şeydən qapalılıq, həyat həqiqətindən davranış etiketləri arxasında gizlənmək cəhdləridir. Gerçəkliyin "təhtəlşüuri" mənimsənilmə sahəsindən ziddiyyətlərin dərk olunmuş dünyasına yüksəlmək lazım gəlir. Gerçəkliklə toqquşmalı,öz taleyinin gözünə dik baxmalı".

Respublikamızda elmin müvafiq ümumi sahələrinə, eləcə də hər bir sahəsinə rəhbərlik edən orqan və şəxslər var. Təəssüf ki, elmin bu sahələrinə cavabdeh orqan və şəxslərin heç biri deyilənlərə münasibət bildirmədi. Eləcədə bu deyilən sözlər hər hansı bir fəlsəfə elmlər doktoru, professor, akademik, əməkdar elm xadimi, eləcə də bu titul və rütbə də tarixçinin şəxsiyyətinə toxunub cavab reaksiyası doğurmadı.

**Əli Abasovun** yuxarıda iqtibas etdiyimiz fikrində fəlsəfəni və milləti düşdüyü böhrandan çıxarmaq məsuliyyətini üzərinə götürmək məqsədilə dediyi **"gerçəkliklə toqquşmalı, öz taleyinin gözünə dik baxmalı" – sözlərində insan ruhunun , eləcə də elmi böhrandan çıxarmağın qanunauyğunluğu bütün aydınlığı ilə ifadə edilmişdi.** Bu haqda böyük alman nütəfəkkiri K.Yaspers yazır: "Əsl elm – özünü buna həsr edənlərin aristokratik məşğuliyyətidir. Elmin böhranının qarşısını ala biləcək yeganə şey, əzəli bilmək arzusu – ayrıca bir insanın xüsusiyyətidir və öz məsuliyyəti bahasına həyata keçirilir".

Ə.Abasov milli borc, vəzifə olaraq, Azərbaycan xalqının mənəviyyatında yaranmış boşluğu doldurmaq məsuliyyətini üzərinə götürür. AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda rəhbərlik etdiyi "Müasir fəlsəfə problemləri" şöbəsi üçün "Müasir Azərbaycana hansı fəlsəfə lazımdır?" sualı ilə ifadə olunan tədqiqat mövzusunu müəyyənləşdirir.

Azərbaycan xalqını mənəvi-intellektual durğunluqdan çıxaran, ona yaradıcılıq enerjisi verən, onun millət kimi formalaşması və inkişafını təmin edən, özünəməxsusluğu və bəşəriliyi özündə ehtiva edən dəyərlərlə gələcəyə yolunu açan, aparan yeni fəlsəfə – milli fəlsəfə yaratmağı bir vəzifə kimi həmkarları qarşısına qoyur və Azərbaycan intellektlərini bu mövzunun, ide-

yanın tədqiqinə səfərbər edir, nəinki postsovet məkanından, başqa qitələrdən də milli fəlsəfə yaratmaq axtarışında olanları bu ideyanın tədqiqinə, reallaşmasına səfərbər edir.

2010-cu ildən başlayaraq ardıcıllıqla fəlsəfənin müxtəlif problemlərinə, nəzəriyyələrinə həsr olunmuş kollektiv monoqrafiyalar yazıb nəşr etdirirlər, nəhayət, 2019-cu ildə **"Milli fəlsəfə"** adlanan onuncu monoqrafiyanı nəşr etdilər. Adından göründüyü kimi "Milli fəlsəfə" monoqrafiyası bilavasitə millətin yaranması və milli fəlsəfə yaradılması probleminə həsr olunub. Ön sözün müəllifi **Əbülhəsən Abbasovun** sözləri ilə desək, bu kitab monoqrafiyalar seriyasında xüsusi yer tutur və əhəmiyyət daşıyır. "Bu kitabın ərsəyə gəlməsində hamıdan çox əməyi olan dəyərli alim, fədakar insan, professor **Əli Abasovun"** əməyi xüsusi vurğulanır.

Monoqrafiyada toplanmış əsərlərdə milli fəlsəfə yaradılmasının müxtəlif aspektlərindən bəhs olunur. Milli fəlsəfənin genezisinin müəyyən edilməsinə xüsusi önəm verilir. Milli fəlsəfədə pozulmuş varisliyin bərpa edilməsinə səy göstərilir. Nəhayət, konkret milli fəlsəfənin özünəməxsusluğundan bəhs olunur.

**Tədqiqatçılardan S.Xəlilov** milli fəlsəfi fikir anlayışının məğzində millətin düşüncə tərzi, milli mentalitet, milli ideallar və bu ideallara çatmaq uğrunda mübarizənin ideya əsasları" kimi qiymətləndirir.

**Tədqiqatçılardan Ə.Tağıyev** "Milli fəlsəfə – etnik mənada başa düşülən milli ideologiyadır. Çünki milli ideologiyanın digər bir mənası da var, yəni dövlət ideologiyası, başqa sözlə desək, azərbaycançılıq, etnik mənada isə onu **türkçülük** kimi başa düşmək lazımdır. Milli fəlsəfədə türkçülüklə azərbaycançılıq birləşir, yəni milli ideya ilə milli ideologiya burada bir vəhdət halına gəlir. Millətin fəlsəfəsi onun milli şüuru, mentaliteti və xarakteridir" – deyə ondan bəhs edir.

Əbülhəsən Abbsov**da** isə yaradılacaq yeni milli fəlsəfəni "mürəkkəb sistemlər nəzəriyyəsi və mürəkkəblik fəlsəfəsi üzərində qaynaqlanan, tənqidi – sinergetik təfəkkürlə silahlanmış yeni (postneoklostik) fəlsəfədən gedir. O fəlsəfədən ki, onun inşasını "konkret şərtlər daxilində həyata keçirilən" fəlsəfə kimi təklif edir.

XX – XXI əsr Azərbaycan fəlsəfi ədəbiyyatında ilk dəfə "milli fəlsəfə" söz birləşməsində "milli" sözü həlledici qiymətləndirilərək, onun məzmununun tarixi dövr ərzində dəyişməsinin nəzərə alınmasının zəruriliyi diqqətə çəkilir və hər bir millətə təkrarolunmaz unikallıq verən ümumi psixoloji, konfessional və mədəni səciyyəyə malik toplum kimi qiymətləndirilir. Bununla da millətin obyektiv qiymətləndirilməsi və onun inkişaf mexanizminin

düzgün müəyyənləşdirilməsinə şərait yaranır. Həmin müəllif "bu yeni milli fəlsəfi planda dünyagörüş, metodologiya olub, ancaq post-qeyri-klassik idrak mərhələsini əks etdirməməli, problem situasiyaları müəyyənləşdirə bilməli, gələcəkdən xəbər verməli, idrakın hələ adı müəyyənləşdirilməmiş 4-cü pilləsinə keçid etməlidir" – deyə milli fəlsəfə haqqında mülahizəsini təqdim edir. Azərbaycançılıq modelini bu fəlsəfi konsepsiya əsasında qurmağı təklif edərək yazır: "Günümüzdə azərbaycançılıq modeli bu məzmuna yeni elementlər daxil etməyi tələb edir ki, bu modeli zənginləşdirib, gələcəyi proqnozlaşdıra bilsin – söhbət yeni milli fəlsəfənin formalaşmasından gedir, bu fəlsəfə müasir şəraitdə Azərbaycan millətinin həyat fəaliyyətinin gələcək istiqamətlərinə aydınlıq gətirməlidir" – deyə yeni milli fəlsəfənin formalaşdırılması metodundan bəhs edir.

Əminliklə deyə bilərik ki, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Müasir fəlsəfə problemləri" şöbəsi "Müasir Azərbaycana hansı fəlsəfə lazımdır?" müraciəti ilə Azərbaycan və dünyanın bir çox ölkələrindən ətrafına səfərbər etdiyi yaradıcı fəlsəfə tədqiqatçıları vasitəsilə yazıb nəşr etdirdiyi 9 cildlik monoqrafiya gənc nəslin şüurunda obyektiv fəlsəfəyə yol açdı, 10-cu "Milli fəlsəfə" (B., 2019) monoqrafiyası ilə təfəkkürdə qərarlaşacağına inam yaradır.

Fəlsəfə tədqiqatçılarımızın milli fəlsəfə yaratmaq məqsədilə müraciət etdikləri dünya təcrübəsi, eləcə də milli həyatımızda istinad etdikləri faktlar göstərir ki, dünya xalqlarının , eləcə də fəlsəfə tədqqiqatçılarımızın milli fəlsəfə yaratmaq axtarışı, cəhdi milli-mənəvi həyatda yaranmış boşluqları doldurmaqla, millətin tarixi simasını, qəhrəmanlıq durumunu bərpa etmək məqsədi güdmüşlər.

Yuxarıda istinad etdiyimiz tədqiqatlar, milli fəlsəfə yaratmaq istəyi, fəlsəfi əsaslarla hazırlanmış, yaradılmış milli ideolgiya və ya milli-fəlsəfi ideologiya təsəvvürü yaradır.

Biz bunu milli-mənəvi irsin-real mənəvi durumun – mənəvi sistemin – inam və etiqadın, dinin, mənəvi dəyərlərin, özünəməxsusluğun, mentalitetin, mənlik şüuru, intellektual səviyyənin, adət-ənənənin, fəlsəfə qanunları – ziddiyyət və əksliklərin vəhddəti, kəmiyyət və keyfiyyət qanunları vasitəsi ilə mənəvi sistemdə **bu yarımsistemlərin hər birinin** olmasını və ya ona qarşı çevrilib onunla ziddiyyət təşkil etməsini, dağıdıcı mövqedə durmasını müəyyənləşdirir, onların hər birində ziddiyyətdə və vəhdətdə olan elementlərin kəmiyyət və keyfiyyət göstəricisini müəyyən edib fəlsəfi terapiya ilə onlara, konkret sahələrə təsir edib, boşluqları doldurmaqla, mənəvi sistemi yenidən mənəvi irsə müvafiq qurur, bu təməldə inkişafını təmin edirik.

Fəlsəfi konsepsiyaların milli həyatın bu sahəsində yaranmış zamanın gündəlik tələbatına cavab verə bilməməyini aradan qaldırmaq məqsədilə cari, qısa müddətli konsepsiyalar, qərinələrə, əsrlərə hesablanmış fəlsəfi konsepsiyalar yaradıla bilər. Bu, qalır milləti təmsil edən filosof və fəlsəfə tədqiqatçısı, ziyalıların milli vicdanı və intellektual səviyyəsinə.

**Fəlsəfə – ən kiçik varlıqdan planetlərə, qalaktikalara qədər bütün varlıqların canında olan təməl əsasları qoruyan, yaşadan, tərəqqi, inkişaf, tənəzzül səviyyəsini istiqamətləndirən qanunlardır. Bu qanunlar bütün varlıqlarla birlikdə onun nüvəsində doğulur. Odur ki, insan fəlsəfə yaratmağa qadir deyil. Filosof adlandırılanlar, fəlsəfə tədqiqatçıları – bu qanunları kəşf edən, dərk edən, onu tətbiq etməyi bacaran şəxslərdir.**

Bu gün dünyada hökmranlıq edən xalqlar məhz fəlsəfə qanunlarından yaradıcılıqla istifadə etməyi bacaran xalqlardır.

Fəlsəfənin bəşəri elm adlanması, onun bütün insanlıqda eyni məzmun və formada ehtiva edilməsindən doğur. Yüksək intellektə, mənlik şüuruna, mentalitetə, yaradıcı ruha malik xalqlarda fəlsəfə təzahür edir. Bu da millilik deyil, bu – xalqların təbii harmonik durumunda İlahi Fəlsəfənin (İlahi qanunların) təcəssümüdür. **Xalqların fəlsəfəyə doğru hərəkətində, onu dərk etməsində iki yol var. Birinci yol – bəhs etdiyimiz təbii inkişaf prosesində harmonik durumda xalqın ruhunda fəlsəfənin ehtiva olunmasıdır. İkinci yol – xalq fəlsəfəni başqa xalqlardan qəbul edir, ona yiyələnir, onun vasitəsilə milli mənlik şüuru qazanır və sonda bütün mənəvi sistemini harmonik qurmağa nail olur.**

# İstifadə edilmiş ədəbiyyat siyahısı


1. “Avesta”. B., 2017.
2. B.Şəfizadə. “Avesta” ədəbi abidə kimi − Zərdüştün qatları. (doktorluq dissertasiyasının avtoreferatları). B., 1996.
3. Ş.C.Əfqani. Seçilmiş əsərləri. B., 1998.
4. Stiven Hokinq, Leonard Mlodinov. Zamanın daha qısa tarixi. B., 2016.
5. Hegel. Ruh fəlsəfəsi. B., 2003.
6. Qunnar Skirbekk, Nils Gilye. Fəlsəfə tarixi. B., 2008.
7. Z.Məmmədov. Azərbaycan fəlsəfi tarixi. B., 2006.
8. Azərbaycan fəlsəfə tarixi. I cild. B., 2012.
9. Е.А.Дорошенко. Зороастрийцы в Иране. 1982.
10. F.İsmayılov. Müqəddəs od və yaxud fəlsəfənin fəlsəfəsi. B., 2015.
11. A.Şükürov, G.Abdullazadə. Azərbaycan fəlsəfəsi. B., 1993.
12. Uill Dürrant. Fəlsəfi hekayələr. 2008.
13. S.Xəlilov. Şərq və Qərb. B., 2004.
14. S.Xəlilov. Baxış bucağı. B., 2010.
15. A.Ağayev. Elmin, sənətin zirvəsində duran sadə insanlar haqqında kitab. B., 2012.
16. Z.Hacıyev. Fəlsəfə. B., 2001.
17. Y.Rüstəmov. Fəlsəfənin əsasları. B., 2007.
18. X.Xəlilli. Tarixin fəlsəfi problemləri. − Tarixin fəlsəfəsi: retrospektiv və perspektiv. B., 2018.
19. X.Xəlilli. Sovet tarixşünaslığı − milli ölüm elmi. B., 2010.
20. Л.П.Карсавин. Философия истории. С.Петербург. 1993.
21. Marksizm-leninizm fəlsəfəsinin əsasları. B., 1980.
22. M.Zeynalov. Fəlsəfə tarixi. B., 2000.
23. N.Mahmudov. Geologiya tariximizə nəzər. B., 2013.
24. S.O.Rəsulov. Geologiyanın əsasları və hidrogeologiya. B., 1986.
25. H.Quliyev. Aləmdən, kainatdan fəlsəfəyə qədər. B., 2003.

26. X.Xəlilli. Etnosun ilkin təşəkkül mərhələsi və terminologiyası. − Müasir fəlsəfə: idrakın ən yeni istiqamətləri. B., 2014.
27. Ömər Xəyyam. Rübailər. B., 1984.
28. Ə.Cəfərov. Azərbaycanın ilk sakinləri. B., 2004.
29. F.İsmayılov. Klassik psixoanalizin əsasları. B., 2003.
30. X.Xəlilli. "Kitabi-Dədə Qorqud" dastanında zaman oxu mütəvisində mifoloji təfəkkürün mərhələləri. − Mədəniyyət: post-qeyri-klassika və post-modernizm dövrü. B., 2015.
31. Ф.Х.Кесседи. От мифа к логосу. М., 1972.
32. Г.Д.Гачев. Содержательность художественных форм. Эпос, лирика, театр. М., 1968.
33. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə. B., 2006.
34. Y.Yusifov. Qədim Şərq tarixi. B., 1993.
35. С.Н.Крамер. История начинается в Шумер. М., 1991.
36. F.İsmayılov. XX əsr Qərb fəlsəfəsi tarixi. 1-ci cild. B., 1999.
37. В.И.Авдиев. История древнего Востока. М., 1970.
38. История древнего мира (ранмее древность) М., 1989.
39. S.Xəlilov. Fəlsəfə, tarix və müasirlik. B., 2006.
40. K.Yaspers. Tarixin mənası və təyinatı. B., 2008.
41. Bilqamıs dastanı. B., 1999.
42. Azərbaycan tarixi. B., 1994.
43. Z.Ş.Qarayev, V.R.Çərkəzova. Kimya və həyatın sirləri. B., 1983.
44. F.Engels. Anti-Dürinq. B., 1967.
45. Elçibəy. Azərbaycandan başlayan tarix. B., 2003.
46. A.Şükürov. Fəlsəfə. B., 1997.
47. Hegel. Hüquq fəlsəfəsi. B., 2007.
48. Ş.Qurbanov. Ş.C.Əfqani və türk dünyası. B., 1996.
49. Ə.S.Bayramov. Etnik psixologiya məsələləri. B., 1996.

50. Дж.Мелларг. Древнейшие цивилизации Ближного Востока. М., 1982.
51. K.Marks. Siyasi iqtisadın tənqidinə dair. B., 1955.
52. Q.Le-Bon. Sosializm psixologiyası. B., 2011.
53. Q.Mədətov. Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində B., 2018.
54. Z.Bünyadov. Qırmızı terror. B., 1993.
55. Z.Bünyadov. İki əsrin hüdudunda Azərbaycanda tarix elmi: vəziyyət və perspektivlər. – "Elm və həyat" jurnalı, 1988, №10.
56. Z.Novruzov. Vəhşilər arasında. B., 1998.
57. Toxunulmaz müqəddəslər. B., 1985.
58. X.Xəlilov. Dövlətdə dəvə. B., 1989.
59. S.Xəlilov. Əbu Turxanın hikmət dünyası. B., 2012.
60. Yusif Akçura. Türkçülüyün tarixi. B., 2010.
61. Sov.İKP MK Siyasi Bürosunun SSRİ və dünya kommunist partiyalarına direktivi. Moskva – 2.6.1947. Tamamilə məxfidir. K.A.A./S.S. 113. XK əmri (003) 47. – "Azərbaycan müəllimi" qəzeti, 21.X.1997.
62. Milli fəlsəfə. B., 2019.
63. S.Xəlilov. Şərq zehniyyəti: mənəviyyatın prioritetliyi. B., 2016.
64. Elçibəy. Azərbaycandan başlayan tarix. B., 2003.
65. Ə.Tağıyev. Milli fəlsəfə: maarifçilik və milli kimlik problemi. – "Milli fəlsəfə" (B., 2019).
66. Əbülhəsən Abbasov. Ön söz. – "Müasir fəlsəfə". (B., 2019).
67. Əbülhəsən Abbasov. Yeniləşən dünyada fəlsəfənin missiyası. – "Müasir fəlsəfə" (B., 2019).
68. Füzuli Qurbanov. Milli fəlsəfə necə mümkündür? – "Milli fəlsəfə" (B., 2019).
69. Hamlet Qoca. Fransızlar yurdum haqqında. B., 1990.
70. SSRİ tarixi. 1-ci hissə. B., 1985.
71. Azərbaycan tarixi. 3-cü cild, 1-ci hissə. B., 1973.
72. В.Л.Величко. Кавказ. СПб, 1904.

73. N.K.Kərimov. Qüdsinin səyahətləri. B., 1983.
74. V.Həbiboğlu. Abbasqulu Ağa Bakıxanov. B., 1992.
75. Azərbaycan tarixi. 2-ci cild. B,, 1964.
76. M. İsmayılov. Azərbaycan tarixi. B., 1997.
77. X.Xəlilli. Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi. B., 2007.
78. M.Ə.Rəsulzadə. Əsərləri. 2-ci cild. B., 2001.
79. X.Məmmədov. Azərbaycan milli hərəkatı (1875-1918). B., 1996.
80. N.Yaqublu. Azərbaycan Milli İstiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. B., 2001.
81. N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991.
82. M.Orucova. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti. B., 2001.
83. M.Süleymanov. Azərbaycan ordusu (1918-1920). B., 1998.
84. C.Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində − 1918-1920-ci illər. B., 1993.
85. N.Nəsibzadə. Azərbaycan xarici siyasəti (1918-1920). B., 1996.
86. H.Əlibəyli. Cənubi Azərbaycan çar Rusiyasının geopolitik planlarında. − "İpək yolu" jurnalı, 1997, №1-2.
87. Qanlı yaddaş. B., 1998.
88. M.Muradzadə. Mart hadiseyi − əliməsi. B., 1996.
89. M.Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan. B., 1999.
90. Y.V.Çəmənzəminli. Xarici siyasətimiz. B., 1993.
91. M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan tarixi. B., 1991.
92. А.Балаев. Азербайджнское национальное движение в 1917-1918 г.г. Б., 1998.
93. M.B.Məmmədzadə. Milli Azərbaycan hərəkatı. B., 1993.
94. Ş.Nəzərli. Tam artilleriya generalı Səməd Bəy Mehmandarov. B., 1996.
95. Əli Abasov. Müasir Azərbaycana hansı fəlsəfə lazımdır? − Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris. B., 2011.
96. Əli Abasov. Giriş əvəzi. − Milli fəlsəfə. B., 2019.

97. Али Абасов. Национальная философия: постановка проблемы, методология, история и наличное состояние, перспективы. − «Национальная философия». Б., 2019.
98. M.Ə.Rəsulzadə. “Bolşeviklərin Şərq siyasətə”. B., 1994.
99. Ə.Qəşəmoğlu. Postmodernizm tarixi, mənəvi kökləri və mahiyyəti. − Mədəniyyət: post-qeyri klassika və postmodernizm dövrü. B., 2015.
100. L.Qumilyov. Etnogenez və yerin biosferi. B., 2005.
101. В.П.Алексеев. Этногенез. М., 1986.
102. И.М.Дяконов. Языки древней Передной Азии. М., 1967.
103. Q.Kazımov. Azərbaycan dilinin tarixi. B., 2017.
104. Хрестоматия по истории Древнего Востока. М., 1963.
105. “Avesta”. 1-ci kitab. Fars dilindən tərcümə edən və çapa hazırlayanı İsmayıl Şəms. B., 1995.
106. Q.Qeybullayev. Azərbaycanda endoqam nikahlar haqqında. − Azərbaycan etnoqrafik məcmuəsi. 3-cü buraxılış. B., 1977.
107. Ümumi hüquq və dövlət nəzəriyyəsi. B., 2014.
108. Fridrix Nitsşe. Zərdüşt belə deyirdi. B., 2013.
109. B.C.Şəfizadə. Azərbaycan ədəbiyyatı tarixi. B., 2003.
110. M.Ə.Rəsulzadə. Əsərləri. II cild, B. 2001.
111. Hacı Sabir Həsənli. Peyğəmbərlər tarixi. B., 2012.
112. Qurani-Kərim. Ərəb dilindən tərcümə ediblər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. B., 2013.
113. Ə.Elçibəy. Bütöv Azərbaycan Yolunda. B., 2004.
114. Fridrix Nitsşe. Hakimiyyət əzmi. 2008.
115. И.М.Дьяконов. История Мидии. М−Л., 1956.
116. S.Qaşqay. Manna dövləti. B., 1993.
117. И.Г.Нариманов. Культура древнейшего земледельческого − скотоводческого населения Азербайджана. Б., 1987.
118. F.Quliyev. Azərbaycanın kurqan qəbirlərində at dəfni. B., 2008.
119. R.Səttarzadə. Atçılıq. B., 1971.
120. R.X.Səttarzadə., S.O.Həsənov. Qarabağ atı. B., 1974.

121. T.Qaffarov. Azərbaycan kənd əhalisinin həyat tərzi. B., 1991.
122. Я.Я.Рогиский, М.Т.Левин. Антропология. М., 1978.
123. A.İ.Tağıyev, H.Q.Məmmədov. Antropologiya. B., 2014.
124. R.B.Göyüşov, A.İ.Martınov. SSRİ arxeologiyası. B., 1990.
125. П.В.Алексеев. История философии. М., 2010.
126. Н.Н.Чебоксаров, И.А.Чебоксарова. Народы, расы, культуры. М., 1985.
127. Qustav Le Bon. Kütlə psixologiyası. B., 2006.
128. O.Süleymanov. Az-ya. B., 1993.
129. Azərbaycan tarixi. B., 1993.
130. Н.Дэвис. История Европы. М., 2004.
131. F.Zeynalov. Türkologiyanın əsasları. B., 1981.
132. Д.Г.Редер, Е.А.Черкасов. История древнего мира. М., 1985.
133. A.Axundov. Ümumi dilçilik. B., 1979.
134. М.С.Иванов. Очерк истории Ирана. М., 1952.
135. X.Xəlilov. Uydurulmuş İran və oğurlanmış Azərbaycan tarixi. − "Ayna" qəzeti, 28.IX.2001.
136. V.V.Bartold. Müsəlman dünyası tarixində Xəzəryanı bölgənin yeri. B., 1999.
137. E.Əlibəyzadə. Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövr). B., 2009.
138. Tomris. − Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 1-ci cild. B., 1982.
139. Astiaq. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 1-ci cild. B., 1982.
140. В.И.Авдиев. История Древнего Востока. М., 1970.
141. A.Balayev. M.Ə.Rəsulzadə.B., 2012.
142. R.M.Qasımova. Azərbaycan xalqının etnogenezi pleoantropoloji və antropoloji (somatoloji) materiallar əsasında (doktorluq dissertasiyasının avtoreferatı). B., 1997.
143. R.M.Qasımova. Azərbaycan xalqının etnogenezinin pleoantropoloji və antropoloji baxımdan öyrənilməsinin yekunları. − "Tarix və onun problemləri" jurnalı, №1(3). B., 1998, s. 181-185.

144. Orta əsrlər tarixi. B., 1988.
145. Новая история. Часть первая. М., 1972.
146. Ф.Багирова. Эволюция понятий «Этнос» и «нация» в истории Европейской философии. − Milli Fəlsəfə. B., 2019.
147. Y.V.Çəmənzəminli. Əsərləri üç clddə. III cild, B., 2005.
148. Z.Göyalp. Türkçülüyün əsasları. B., 1991.
149. Z.T.Qolenkova. Ümumi sosiologiya... B., 2007.
150. F.Nitsşe. Külliyyatından qızıl seçimlər. B., 2014.
151. П.С.Гуревич. Культурология. М., 2006.
152. R.Novruzoğlu. Koronavirus Azərbaycan genetikasında (genetik ölüm). I cild  B., 2020.
153. F.İsmayılov. Seçilmiş əsərləri. 2-ci cild, 1-ci kitab. B., 2011.

Xəliyəddin Dəskiralı oğlu Xəlilli – 1948-ci ildə Cəbrayıl rayonunda anadan olub. ADPU-nin Tarix fakültəsini bitirib. 1987-ci ildə SSRİ EA Etnoqrafiya İnstitutunun Leninqrad bölməsində namizədlik dissertasiyası müdafiə edib. "Dövlətdə dəvə" (B., 1989), "Qarabağın elat dünyası" (B., 1992), "Azərbaycan xalqını dünyaya yenidən millət kimi təqdim edən 20 Yanvar" (B., 2003), "Qarabağ" (biblioqrafiya, müştərək müəlliflə, B., 2004), "Qarabağ: etnomədəni inkişaf tarixi" (B., 2006), "Dədə Qorqud..." (B., 2007), "Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi" (B., 2007), "Sovet tarixşünaslığı – milli ölüm elmi" (B., 2010), "Türk mənəviyyatı tarixində "Oğuz Xaqan" və "Kitabi-Dədə Qorqud" dastanları" (B., 2015), "Sosializm ideologiyasının mənbələri, inkişafı və faciələrinin tarixinə giriş" (B., 2022) kitab və monoqrafiyaların, kollektiv əsərlərin, 150-dən artıq elmi və publisistik məqalələrin müəllifidir.

Hazırda AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisidir.

Çapa imzalanıb:  30.03.2023
Formatı: 1/16 Ofset çapı
Həcmi: 16
Sifariş № 1080

Tel: (+99477) 330 01 34
www.xannesrleri.az